Milli Kitabxana

XAQANİ ŞİRVANİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"LİDER NƏŞRİYYAT"
BAKI-2004

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Bu kitab ***"Xaqani Şirvani.*** *Seçilmiş əsərləri" (Bakı, Yazıçı, 1985) kitabı əsasında təkrar nəşrə hazırlanmışdır.*

Tərtib edəni: **Məmmədağa Sultanov**

İzahların müəllifləri: **Əkrəm Cəfər**
Məmmədağa Sultanov

Ön sözün müəllifi və
elmi redaktoru: **Xəlil Yusifli**

894.361'1 - de 21
AZE
Xaqani Şirvani. Seçilmiş əsərləri. "Lİder nəşriyyat", Bakı, 2004,
672 səh.

Çoxəsrlik və zəngin ədəbi ənənəyə malik olan Azərbaycan xalqı dünya şöhrəti qazanmış bir çox söz ustadları yetirmişdir. Onların sırasında "Divan" və "Külliyyat" müəllifi Əfzələddin Xaqani Şirvaninin özünəməxsus yeri var. Xaqaninin dərin humanizmlə aşılanmış, bir-birindən gözəl əsərləri Yaxın və Orta Şərq xalqlarının böyük marağına səbəb olmuş, onun son dərəcə poetik və fəlsəfi məzmunlu şeirlərinə şairlər çoxlu nəzirələr, bənzətmələr yazmışlar.

Xaqani yaradıcılığı Azərbaycan və dünya poeziyasının qiymətli hadisələrindən biridir.

Oxuculara təqdim olunan bu kitabda qüdrətli şairin ölməz ədəbi irsinin böyük bir hissəsi - "Töhfətül-İraqeyn" əsəri, ruhu oxşayan lirik qəzəlləri, fəxriyyə, mədhiyyə və fəlsəfi qəsidələri, zəmanə və zəmanə əhlindən şikayətləri, qitə və rübailəri, özü və əsil-nəsəbi haqda yazdığı şeirlər toplanmışdır.

ISBN 9952-417-23-1

© "LİDER NƏŞRİYYAT", 2004

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XAQANİ ŞİRVANİ VƏ ƏDƏBİ İRSİ

Bir Əcəm türkiyəm, dəricə deyən,
Yalvac tanıyanam. Tanrı istəyən,

Xaqani Şirvani

Azərbaycanda İntibah dövrü ədəbiyyatının ilk güdrətli nümayəndəsi dahi şair Xaqani Şirvanidir. O, Nizamiyə qədər ədəbiyyata güclü ictimai-humanist məzmun və yüksək sənətkarlıq gətirmişdir. Xaqani Azərbaycan ədəbiyyatında ilk poemanın müəllifi olmuş, çoxəsrlik tarixə malik qəsidə janrını əlçatmaz bir yüksəkliyə qaldırmışdır. Onun əsərləri çoxcəhətli humanist məzmunu ilə seçilir. İlk dəfə Xaqani irsində şərin ehtiraslı inkarına, xeyrin, gözəlliyin odlu-alovlu təsdiqinə rast gəlirik. Xaqaninin əsərləri dünya ədəbiyyatının, xüsusən İntibah dövrü sənətkarlarının ən yüksək yaradıcılıq nümunələri ilə yanaşı durmağa layiq və qadirdir. Şərqin Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi dahiləri Xaqani dühasına pərəstiş etmiş, ondan təsirlənmiş, bəzi əsərlərinə cavablar yazmışlar. 15-20 il Nizamidən əvvəl yaradıcılığa başlayan Xaqaninin əsərlərində artıq Nizami poeziyasının nəfəsi duyulur. XÜ əsr Azərbaycan İntibahı özünün ən uca zirvələrinə Xaqani poeziyası ilə birgə yüksəlmişdir.

Əbu Bədil Əfzələddin İbrahim İbn Əli Nəccar İbn Osman İbn İbrahim Həqaiqi Həssanül-Əcəm Xaqani Şirvani 1126-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Əsərlərində dönə-dönə Şamaxı şəhərində, hörmətli bir ailədə doğuluğunu yazan şairin babası toxucu, atası dülgər, əmisi və əmisi oğlu isə həkim və alim idilər. Şairin anası Rabiə müsəlmanlığı qəbul etmiş xristian qızı idi. Anasının atası sərkərdə, babası isə Kiçik Asiyanın Toqat şəhərindən olan möbid imiş. Atası, oğlu İbrahimi də dülgər etmək istəyir, onun təlim-tərbiyəsinə az diqqət yetirirdi.

Əmisi Kafiəddin Ömər ibn Osman onu körpəlikdən öz himayəsinə alır, Quranı, fəlsəfə, riyaziyyat və başqa elmləri öyrədir. 15-16 yaşlarında şeir yazmaqda mahir olduğunu görən əmisi ona Həssanül-Əcəm (yəni Əcəm Həssanı) təxəllüsü verir. Təxminən, 18 yaşında saraya dəvət olunan sənətkar əvvəlcə sevinir, şadlanır, mədhiyyələr yazır. Sonradan onun mənəvi aləmində bir oyanma baş verir. Xaqani Şırvanşahlar sarayından can qurtarmaq üçün yollar arayır. Xorasana, İraqa getmək istəyir, ömrü boyu Xorasana can atan sənətkar bu arzusuna nail ola bilmir. İki dəfə Ərəb və Əcəm İraqını səyahət etmək üçün Kəbə ziyarətinə gedir. İki dəfə həbsxanaya düşür. Həbsxanada olduğu vaxtlarda

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşhur "Həbsiyyə şeirləri" silsiləsini yaradır. 1151-ci ildə Xaqaninin əmisi Kafiəddin Ömər vəfat edir. Xaqani əmisinin ili çıxandan sonra 1152-ci ildə bir kəndli qızı ilə evlənir. Əbdülməcid və Rəşid adlı oğlanları, bir neçə qızı olur. 1176-cı ildə Kəbə ziyarətindən sonra Xaqani vətənə qayıtmır, ömürlük Təbrizdə məskən salır. Şamaxıda 25 il bir yerdə ömür sürdüyü sevimli arvadını, 20 yaşlı oğlu Rəşidi, əmisi Kafiəddin Öməri, əmisi oğlu Vəhidəddin Osmanı və başqa yaxın adamlarını itirən sənətkar bir də oraya qayıtmaq istəmir. Axsitan, Qızıl Arslan və başqaları onu saraylara dəvət edirlərsə də, dahi sənətkar heç bir saraya getmir, müxtəlif bəhanələrlə dəvətləri rədd edir. Təbrizdə olarkən Xaqani iki dəfə evlənir. Şair 1199-cu ildə Təbrizdə vəfat edir. Məqbərətüş-şüərada dəfn olunur. Qəbri indi də durur.

Xaqani Təbrizdə yaşadığı müddətdə Şərqin bir çox ölkə və şəhərlərində yaşayan dostları, qohumları ilə yazışırdı. Hələ birinci Kəbə səfərindən sonra Dərbənd və Gəncədə bir növ sürgündə olan şair, orada çoxlu dostlar qazanır, 1159-cu ildə Gəncədə ikən qızdırma xəstəliyinə tutulan və Gəncəli Şəmsəddin Təbib tərəfindən müalicə edilən Xaqani, ehtimal ki, onda 18-19 yaşlarında olan Nizami Gəncəvi ilə də görüşür, dostlaşır. Ona görə də Xaqani ölən zaman Nizami ona mərsiyə yazır. Həmin mərsiyədən hələlik aşağıdakı bir beyt məlumdur:

Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,
Heyf, Xaqaniyə mən mərsiyə yazdım axır.

Xaqani Şirvani əslən bir oğuz türkü ailəsində doğulmuşdur. "Töhfətül-İraqeyn"də bununla bağlı yazır: "Bir Əcəm türküyəm, dəricə deyən, yalvac tanıyanam, Tanrı istəyən". Buradakı Əcəm türkü ifadəsi eynilə bugünkü Azərbaycan türkü, Azərbaycanlı sözlərinin sinonimi kimi qəbul edilə bilər. Maraqlıdır ki, şair Allah sözü yerinə onun türk qarşılığı kimi Tanrı və peyğəmbər sözünün də qarşılığı olan "yalvac" sözünü işlədir.

Xaqaninin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanından, "Töhfətul-İraqeyn" poemasından, epistolyar nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Təbüdir ki, bunlar Xaqani irsinin hamısı deyildir. Özünün də dönə-dönə xatırladığı kimi, şairin yaradıcılığı bütün Şərq ədəbiyyatı üçün yeni hadisə idi. Yenilikçi, orijinal sənətkar olan Xaqaninin yaradıcılığının əsasını dərin və güclü hümanizm təşkil edir. "Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, ancaq incitməyim". Bu sözlərin sahibi olan şair heç də şərə qarşı laqeydlik, mərhəmət göstərməmişdir. O, həmişə xalqın, həqiqətin, gözəlliyin tərəf-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

darı olmuş, hər cür şəri isə ehtirasla rədd etmişdir. Şair dünyagörüşü etibarilə əvvəllər Ərəstü - İbn Sina fəlsəfəsinə rəğbət bəsləmiş, hikməti-məşşani qəbul etmiş, Iakin çox erkən də bu mövqedən uzaqlaşmış və əxilik mövqeyinə keçmişdir. Onun yaradıcılığındakı humanizmi, yunan fəlsəfəsinə tənqidi münastbəti də məhz bu əxilik dünyagörüşü ilə bağlılıq müəyyənləşdirir. Sufizmə, məlamiliyə, qələndəriyyəyə rəğbət göstərən sənətkar əxilik ideyaları cəbhəsində daha inamla dayanmışdır. Əxilik onun yaradıcılığına sağlam və dərin humanizm, xəlqilik, demokratiklik bəxş etmişdir.

Xaqaninin divanında və ümumiyyətlə yaradıcılığında qəsidə janrı mühüm yer tutur. Yaxın və Orta Şərqin İntibah dövrü ədəbiyyatında qəsidə janrının ən görkəmli nümayəndəsi məhz Xaqanidir. Firdovsi və Nizaminin poema janrunda, Hafiz və Füzulinin qəzəldə, Ömər Xəyyamın rübaidə göstərdiyi möcüzəni Xaqani qəsidə janrında göstərmişdir. Onun qəsidələri dərin və çoxcəhətli məzmun, yüksək sənətkarlıq baxımından diqqəti cəlb edir. Bu qəsidələrin mövzuları, yazılma səbəbləri, həcm və səviyyələri müxtəlifdir. Bunlarda mədhiyyə, mərsiyə, fəxriyyə də var, ictimai-əxlaqi, fəlsəfi məzmunda olanlar da. Xaqaninin mədh yazması tamamilə təbüdir. O, özünü Xaqani-əzəm adlandıran Şirvanşah Mənuçöhrün fərmanı ilə Xaqani (yəni xaqana məxsus olan) təxəllüsü göturmüş, Şirvanşah Mənuçöhrə, onun oğlu, axsitana, Qızıl Arslana və başqa hökmdarlara və əsilzadələrə xeyli mədhiyyə yazmışdır. Ləyaqətli şəxslərə həsr ediləndə, hamını maraqlandıran mühüm hadisələrlə əlaqədar olanda bu mədhlər yerinə düşürdü. Baqlani bəndinin tikilməsi, Axsitanın düşmənlə mübaribədə qazandığı qələbə münasibəti üə yazılan şeirlər buna misal ola bilər.

Ayrı-ayrı şahlara kor-koranə mədh yazmaq dövrü Xaqani yaradıcılığında çox az davam edır. Artıq 23 yaşına qədərə qoyanda şairin mənəvi aləmində bir oyanma baş verir, o, məddahlığım 1157-58-ci illərdə yazdığı "Töhfətül-İraqeyn" poemasında çox ayıq şəkıldə qiymətləndirərək yazır:

Əvvəllər şahları mədh etdiyimçün,
Dilim bulanmışdı çirkaba bütün.

Məddahlığa bu ayıq münasibət şairi ömrü boyu izləmişdir. Şair vaxtilə mədh etdiyi adamları divlər adlandırır, peşman olduğunu, mədhiyyəçiliyi rədd etdiyini bildirir:

Həyatım bir müddət divlərlə soldu.
İyirmi iki il ömrüm puç oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə ki, özümü qapına saldım,
O ötən ömrümü geriyə aldım.
Anladım səhvimi, oldum peşiman,
Rədd etdim o keçən monliyi, inan.

Düzdür, Xaqani bu hadisədən sonra da bəzən mədhiyyələr yazmışdır, lakin indi bu mədhiyyələr başqa başqa səciyyəli idi. İndi Xaqani humanist məqsədlər üçün ara-sıra mədhiyyələr yazırdı. Şirvanşahlar sarayından qaçmağa çalışması, iki dəfə həbsə düşməsi, 1176-cı ildə Təbrizə köçüb, saraylardan uzaq həyat keçirməsi, müxtəlif hökmdarların dəvətini rədd etməsi də şairin söz və fikirlərin də ardıcıl olduğunu təsdiq edir. Xaqani ömrü boyu həyat həqiqətlərini güzgü kimi əks etdirməyə çalışmış, məddahlığısına yalançılıq hesab edib ondan üz döndərmişdir:

İlhamım yalanla xarab olmuşdu,
O, civə rəngində şərab olmuşdu.
İndi hər sözümdə bir həqiqət var,
O, güzgü, məhək tək olmuşdur meyar.

Xaqani sarayları və məddahlığı rədd etdikdən sonra başqa bir aləmə can atmışdır. İndi onu səyahətlər, dövrün ziyalıları ilə görüşmək, elmi söhbətlər aparmaq, insan və zaman haqqında düşüncələrini bölüşmək maraqlandırırdı. O, gah İraqa, gah Xorasana can atır. Şahlara rəğbəti olmadığını, alimlərlə görüşmək istədiyini dönə-dönə xatırladır.

Xaqaninin qəsidələri arasında ictimai, fəlsəfi şeirlər daha çoxdur. Əsrin narahat, əsəbi həyəcanlarını, yeri-göyü titrədən ürək ağrılarını, fəryadlarını əks etdirən bu qəsidələr müasirliyi ilə seçilir. Xaqaninin bu tıpli qəsidələri əsrin başı üzərində şimşək kimi çaxır, ildırım kimi gurlayır. Ümmanda başlayan güclü bir tufan kimi səslənir. Belə şeirlərdən biri "Mədain xərabələri" adı ilə məşhur olan qəsidədir. İran dövlətinin keçmiş paytaxtı olan Mədain xərabələri şairi dərin, sarsıdıcı, ibrətli düşüncələr aləminə aparır. Şairin nəzərində Mədainin xərabələri ibrət aynasıdır. Bu ayna qarşısında həyəcanlanmamaq, sarsılmamaq, gözyaşı tökməmək mümkün deyil. Təkcə keçmiş üçün, xarabaya çevrilmiş Mədain üçün yox, bəlkə daha çox bu gün üçün, bu günün şahlarından tutmuş adi insanlarına qədər hamı üçün. Bu mənzərə təbiəti sarsıdır. Dəcləni ağrıdan ilan kimi qıvrılmağa məcbur edirsə, insan bu mənzərəyə sakit-sakit necə baxa bilər? Çox vaxt gözə görünməyən, dəbdəbə və hay-küy içində itən insan münasibətləri, həyatın və cə-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

miyyətin amansız qanunları burda bir sükutla haray qoparır, uçuq tağlardakı daşların hər naxışı bir tarix danışır. İndi yerlə-yeksan bu dilsiz xərabələr bir vaxt dünyaya meydan oxumuş, bir çox şahlar bu astanaya baş əymişlər:

Bir vaxt bu eyvanın astanasını üzlər,
Saldıqları nəqş ilə etmişdi nigaristan.
Burda nökər olmuşdur Babil şahi illərlə
Bu qəsrə qulam olmuş bir vaxt şəhi-Türküstan.
Etmiş buradan bir gün şiri-fələkə həmlə
Cürətlə o aslan ki, yonmuşlar onu daşdan.
Zənn eylə o əyyamdır, fikr ilə nəzər sal, gör,
Dərgah haman dərgah, meydan haman meydan.

Bu əzəmət və qüdrətin sarsılmasını, heçliyə varmasını Xaqani ancaq özünəməxsus əzəmi bir şeriyyətlə ifadə edir. Fili aciz edən şahların şahmatda mat qalması, Nuşirəvanın qanını Hörmüzün qafa tasında şərab kimi torpağın içməsi, Kəsranın narıncının, Pərvizin tərxununun torpağa çevrilib unudulmasını Xaqani hərarətlə xatırlayır. Pərvizin bədənindən küp düzəldilir, Şirinin ürək qanı meyə çevrilir. Təbiətin bu amansız qanunu şairi həm kədərləndirir, həm sevindirir. Ona görə ki, Mədaini bu günə qoyan amansız qanunlar zalım şahları, onların zülm ərşə dayanan saraylarını da amansızlıqla məhv edəcək, heçə çevirəcəkdir. Xaqani Mədainin məhv olması səbəbini araşdırır, öz-özünə sual verir:

Sarsıtdı kim əflakə qalxan belə eyvani,
Göylərdəki qüvvətmi, etdi ya fələk viran?

Qəsidə butünlüklə bu sualın dərin poetik cavabından ibarətdir. Şairin böyüklüyü ondadır ki, o, Mədainin məhvində bir qanuna-uyğunluq görür:

Hər bülbülü bir bayquş, hər nəğməni bir növhə
İzlər bu cahan içrə, olma buna gəl heyran
Sordun hara getmişdir indi o böyük şahlar,
Bir hamilədir torpaq, çox udmuş o, şah, xaqan.
Udmuş nə qədər bilsən zalımları bu torpaq,
Lakin yenə doymaz bu acgöz adam udmaqdan.

Beləliklə, Xaqani mütəfəkkir şair kimi Mədainin məhvini, Kufə və Bağdadın yüksəlişini dialektikcəsinə izah edir, bülbülü bayquşun,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəğməni növhənin əvəz etdiyini heyranlıq və təəccüblə yox, ibrətlə qarşılayır, bu ibrət güzgüsündə Şərq intibahının ideallarını, İntibah ziyalılarının müdrikliyini, ürək ağrılarını, insan haqqında düşüncələrini görməyə çağırır:

İbrətlə bax, ey könlüm, bu aləmə gəl bir an
Eyvani-Mədaini ayineyi-ibrət san

Yaxud

Xaqani, bu dərgahdan sən daima ibrət al,
Ta almaq üçün ibrət gəlsin qapına xaqan.

Xaqani də dövrün bir çox ziyalıları kimi birinci növbədə hökmdarlara təsir elmək, onları qəflət yuxusundan ayıltmaq, Mədaindən ibrət almağa çağırmaq istəmişdir. Zalım hökmdarlara qarşı şairin xəbərdarlığı burda nə qədər də guclüdür:

Biz ədl sarayıykən zülm ilə xarab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran?

Bu sətirlərin heç bir izaha ehtiyacı yoxdur. Zalım hökmdarlar humanist Xaqaninin ən çox nifrət etdiyi adamlar idi. Şairin bu ecazkar qəsidəsi birinci növbədə onlara xəbərdarlıq kimi səslənir. Böyük intibah şairinin keçmiş, bu gün və gələcək haqqında ürəkağrısı, gözyaşı, qəzəb qığılcımları ilə dolu narahat fəlsəfi düşüncələri, yeri, göyü titrədən haraydır. Bu şeirdə Mədain İran və Azərbaycanın antik əzəmət və vüsətinin simvolu kimi götürülmüş, ona xitabən yeni, müasir İntibah duyğuları qələmə alınmışdır.

Xaqaninin içtimai-fəlsəfi şeirləri arasında "Şiniyyə qəsidəsi" ("Qəsideyi-şiniyyə") də mühüm yer tutur. Qafiyəli misraları "şin" hərfi ilə qurtardığı üçün belə adlandırılan bu şeir insan və onun mənəvi aləmi, həqiqi mahiyyətı, zahiri aldanışları haqqında, çoxcəhətli məzmun və mündəricə baxımından zəngin düşüncələrdən ibarət bir əsərdir. Bu qəsidədə İki insan tipi qarşılaşdırılır. Biri dünyanı dördəlli tutanlar, nəfsə aldananlar, hamıya ağalıq etmək istəyənlər, digəri isə nəfs adlı aslanı it kimi diz çökdürənlər, həm mərdə, həm də namərdə baş əyməyənlərdir. Xaqani özünü ikincilərdən sayır və bununla fəxr edir. Şair həmin iki insan tiplərini müxtəlif baxımlardan müqayisə edir, dərviş və sultan obrazları ilə məsələni bir qədər də konkretləşdirir. Şair bu əsəri yazarkən sufizm və əxiliklə bağlanmış, yunan fəlsəfəsinə qarşı soyumuşdu. İndi onu sırf elmi məsələlərdən daha çox insan, onun taleyi, mənəvi aləmi ilə bağlı problemlər maraqlandırırdı. Şair bağlı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduğu sufi dərvişləri, özü yoxsul olsa da, başqalarına qarşı səxavətli olan əxiləri hakim təbəqələrə, varlılar dünyasına qarşı qoyur:

Bəli, dərvişdə hümmət güneş misli gərək olsun,
Ki, o, şahlardan üstündür, nə yurdu var, nə sahmanı.
Cahanla can iki bütdür düşüb dərviş ayağına,
Tamamilə ehtiyac it tək olub zəncirli dərbanı.
Nə hind çibalı tək qurmuş sitəmlə qəsri-tağuti,
Nə Çin xaqanı tək zülm ilə düzmüş tacə mərcanı!

Şairin yoxsul dərvişlərlə xaqan və çibalları qarşılaşdırmasının, üstünlüyü dərvişlərə verməsinin səbəbi var. Çibal və xaqanlar tağut saraylarını, mərcanlı taclarını zülm və sitəmlə əldə etmişlər, onların cəlal və əzəməti, var və dövləti zülmün nəticəsidir. Dərviş şairin gözündə məhz ona görə ucadır ki, o, öz ehtiyacı və tamahı üçün başqalarına zülm eləmir.

O İskəndərsifət Xızrın hava - taxtı, ağıl - tacı,
O aqil sərxoşa süfrə - rzadır, can – mehmanı
Xəzinədarı - fikir, ilbam; keşikçi-şərilə tövfiq,
Əsiri-nəfs ilə amal, qul etmiş çərxi, keyhanı.

Orta əsrin xüsusiyyətçi qanunlarına qarşı şair gözütoxluq, ağıllılıq tələb edir. Xaqaniyə görə o adam ki, zahirini bəzəyir, əlvan paltarlarla öyünmək istəyir, o, ilandan da əksikdir. Qoy belə adamlar heç olmasa əfi ilandan ibrət alsınlar, çanaqlı bağaya bənzəməsinlər:

Nolardı bircə bilsəydim bu dünyada nəyin artar
Yeyib-içsən gecə-gündüz, şərabi, noğlu, reyhanı?
Əmirə söylə bilsin ta ki, nəfs - it, cifə sərvətdir,
İtə həmkasə olmaqla gedər badə şərəf, şanı.
Ölər bağa çanağında, çıxar əfi qılafından,
İlandan kəm deyilsənsə, soyun bu rəxti-əlvanı.
Süleymanam demə, əvvəl yanından divləri rədd et,
Və ya zəncirlə, ya öldür, ya qov quli-biyaban

Əlvan geyimlərlə, ləzzətli yeməklərlə öyünmək, onların əsiri olmaq divlər, şeytanlar əlində qul olmaqdır, öz insanlığını, dəyanətini itirməkdir. Nə üçün insanın ruhu tamah, həvəs zindanında dustaq olmalıdır. Şair əxilər və sufilər kimi dünyaya, onun nemətlərinə bənd olmağı qəbul etmir, burda insana zidd olan güclü bir sifət, iblislik görür. "Bacarsan bu dünyanın cəlalına aldanma, bu murdar daşı əlinə alıb şeytanı sevindirmə", "Mərdlərin, yəni əxilərin ayaq torpağını başına tac elə, ancaq qızıl tac alıb gizli sirrini bildirmə", "Şah tacına

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məftun olan kəs dərviş deyil, gərək dərviş yoxsulla şahı bir gözlə görə". "Torpaq sənin dayən olub, südünü əmmisən, o da sənin qanını əməcək. Sənin qanın dayənin verdiyi süddəndir. Əlində tutduğun badə cavanlar qanıdır, içmə, Zalımların nəfsi kimi bu qaniçən dünyanın içi məzarıstan, eşiyi isə bağ-bağçadır".

Qəsidənin hər beyti, hər sözü humanizmlə, feodal orta əsrinin qayda-qanunlarının inkarla doludur. Hər beytdə dərin və geniş məzmun, yığcamlıq və konkretlik var. Başqa əsərlərində olduğu kimi burada da şairin əsas tənqid hədəfi zülm və ədalətsizlikdir. Qəsidədə zalımlara nifrət, qəzəb hər dəfə yeni bir ehtirasla özünü biruzə verir. Xaqani də dahi müasiri Nizami kimi zalımları düşünməyə, peşiman olmağa səsləyir:

Tökər sübhə qədər qan yaş gözündən sel kimi məzlum,
Boğar zalımları rahat yataqda qanli tufanı
Əlac axtar qəza təqdirinə, sən əzdiyin aciz,
Düşübsə torpağa, ahı yıxar ərşi-müəllanı.
Salıbsan Bijəni həbsə, sən ey Əfrasiyab, yatma,
Durubdur pusquda Rüstəm, əlində tiği-bürranı.
Edibsən it kimi pislik, peşiman ol, çağır "əl-əfv",
Ki, it də söyləyər "əf-afv", nəyin olsa peşimanı.

Xaqani şeri coşqun, ehtiraslı poeziyadır. Bu poeziyada gözəlük ehtirasla təsdiq olunduğu kimi eybəcərlik, şer, zülm də eyni ehtirasla inkar edilir, üstəlik onda inkar daha güclüdür. "Qəsideyi-şiniyyə" bu baxımdan müstəsnalıq təşkil etmir. Bu zəngin məzmunlu əsərdə də şairin dövrünə məxsus eybəcərlik və şer rəngarəng boyalarla qələmə alınır, inkar edilir. Burda "Mədain xərabələri" ilə səsləşən parçalar da çoxdur.

Xaqaninin ən iri həcmli əsəri "Töhfətül-İraqeyn" poemasıdır. Azərbaycan ədəbiyyatı tarixində ilk poema olan bu əsəri, bəziləri yanlış olaraq mənzum səfərnamə hesab edir, onun iki İraqa - Əcəm və Ərəb İraqına səyahətdən alınan təəssürat əsasında yazıldığını düşünürlər. Halbuki, poemaya "Töhfətül-İraqeyn" adı sonra verilmişdir. Xaqani əsərini, Yəhya Qərib nəşrindəki dibaçədən də aydın olur ki, "Töhfətül-xəvatir və zibdətül-zəmair" adlandırmışdır. Seyyid Hüseyn Amuzqar isə onu "Töhfətül-xəvatir və zibdətül-nəvazir" adı ilə çap etdirmişdir. Bir həqiqətdir ki, poema ancaq səfərnamə, yaxud səfər xatirələri deyil. Şair əsəri yazana qədər keçirdiyi həyat, qarşılaşdığı adamlar haqda xatirələrini, müxtəlif məsələlər ətrafında düşüncələrini əks etdirir. Şirvan və onun əhalisi haqqında düşüncələr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əsərdə iki İraqdan az yer tutmur. Burada şairin birinci Məkkə səfəri ərəfəsində, xüsusən Şirvanla bağlı keçirdiyi hisslər əsasdır.

Şair İraq səfərinə də poemada xüsusi yer ayırır ki, bu cəhəti poemanın artıq orta əsrlərdə "Töhfətül-İraqeyn" adlandırılmasına səbəb olmuşdur. Əslində isə İraq səfərinin təsviri Şirvan düşüncələrinin inikası üçün bir vasitədir. "Töhfətül-İraqeyn" xarakteri etibarilə ictimai, fəlsəfi məzmunlu lirik poemadır. Onun əsas qəhramanı şairin özüdür. Əsərdə danışan, düşünən, sevinən, fəxr edən, kədərlənən, qəzəb alovdan püskürən də odur. Poema bütünlükdə Şərq poeziyasında oxşan olmayan bir əsərdir. Şair poemada özü və əsəri haqqında sərbəst söz açır. İftixarla özünü sənət aləminin günəşi sayan şairi hər şeydən çox siyasi, ədəbi düşmənləri ağrıdır, qəzəbləndirir. "Düşmənləri tənqid" adlı bəhsdə bu cəhəti aydın müşahidə etmək olur. Küfə əhli kimi etibarsız, Bağdad əhli kimi ikidilli, peysərləri qalın, qıyıqgözlü iynəyə bənzəyən, çürük dəndanələri qan qoxuyan bu siyasət xadimlərini şair qüdrətli sənət dili ilə inkar edir, onları oğru, yaltaq, ikiüzlü adlandırır:

Kamalım çaxanda şimşəklər kimi,
Quyruq bulayırlar köpəklər kimi.
Fənndə qəribəm, demək təkəm, tək,
Qərib görən kimi hürür hər köpək.
Dilimi öyrənib tez dil açınca,
Söyüş yağdırırlar mənim dalımca.
Onları yüksəldən bir mələkəm mən,
Mənə diş qıcayır onlar qəzəbdən.

Özlərini Xaqaniyə tay tutmaq istəyən bu adamlara qarşı şairin qəzəbi sonsuzdur. "Günəşə xitab və qızılı məzəmmət" başlığı altında verilən və poetik hisslərin əlvanlığı, zənginliyi ilə oxucunu heyran edən fəsildə şair düşmənlərini unuda bilmir. Günəşdən kömək, yardım istəyən şair satlığın, işığın, hərarətin, ucalığın rəmzi olan Günəşi öz dostu sayır. Heç kəsdən işığını əsirgəməyən, hər alçağın ayağı altına enən, Şirvanı şəfəqinə qərq edən Günəşdən şair inciyir:

Ey kimsədən işıq əsirgəməyən,
Mənə əsirgədin onu bəs nədən?
Dostdan üz çevirmək dosta nə layiq?
Bu sifət görünmüş düşmənə layiq.

Günəşə xitabən mürəkkəb, əlvan poetik duyğular əks etdirən şair ötəri olsa da, bədbinləşir, dövrün ictimai qanunlarının uyğunsuzluğunu Günəşə də aid edir, onu da ögey-doğmalıq bilməkdə təqsirləndirir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dövlət nə qüdrətin, nə hünərindir,
Mənsəb də, sərvət də nakəslərindir.
Fələyin zatında qalmamış nişan
İgidlik, sədaqət və adamlıqdan.
Fələyin dövranı dəyişmir artıq,
Günəş də anlayır ögey-doğmalıq.

Güclü humanizm, cəsarətli inkar, işığa ehtiraslı meyl Xaqani poemasının əsas məziyyətidir. Şair sadə zəhmət adamları olan babasından, atası Əli Nəccardan, anası Rabiədən, təbib və alim əmisindən, əmisi oğlundan məhəbbətlə söz açır, özünü onlarla müqayisə edir:

Sənətcə toxucu olmuşdur babam,
Mən də yavaş-yavaş söz toxuyuram.
Mənəm bax bu günün əziz insanı,
Mənəm söz toxuyan şair Xaqani.

Əmisi Kafiəddin Ömər ibn Osman haqqında şair dərin məhəbbətlə bəhs edir. Ərəstu, Əflatun, Hermes kimi antik alimlərlə əmisini müqayisə edən Xaqani əmisinin onun şair kimi yetişməsindəki xidmətindən geniş söz açır:

Gördü söz mülkünün hakimi mənəm,
Adıma söylədi Həssani-Əcəm.
Qəlbimin ayağı xəznəyə batdı,
Ömrümsə iyirmi beş ilə çaldı.
Bildi söz mülkünə mənəm hökmran,
Qarşımda fərəhdən əmim verdi can.

Şair uşaqlıq və gəncik illərinin sevincli çağları ilə həyatının sonrakı dövrünü müqayisə edir; bir yanda yüksək istedad, əks tərəfdə düşmən mühit. Bir yanda Xaqani dühası, əks qütbdə Şirvan şəri. Bir yanda hünər, bir yanda paxıllıq. Bu təzad şairi incidir, kədərləndirir. Dahi şair özünü Şirvanda məhbus sayır. Gözəl Şamaxı onun gözündə zindana oxşayır. Nə qədər acı da olsa, vətənin şairə, zindana çevrildiyi etiraf edilir. Qəlbinin və ruhunun bütün gücü ilə sənətkar saraylara nifrətini, sadə təmiz insanlara isə məhəbbətini əks ctdirir. Üzük və Xızırla söhbət epizodlarında Xaqaninin üsyankar, əyilməz təbiəti, insansevər ruhu aşkar olur. Xızırla görüşən sənətkar onu insanların gələcək taleyi haqqında sorğu-suala tutur.

- Ey mələk sifətli, mənə söylə bir,
...De, yazıq insanlar nə zamanadək,
Ümidlə, qorxuyla ömür sürəcək?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şairin humanizmi, insan üçün döyünən şair qəlbi bu sualda ifadə olunmuşdur. Divlər dünyasına, əhrimənlər aləminə, əliqılınclı hökmdarlara nifrət, sadə adamlara məhəbbət Xaqani poemasının əsasıdır. Daha çox Şirvan şərinə nifrətin yüksək poetik ifadəsi olan "Töhfətül-İraqeyn" təkcə səfərnamə deyil, dərin humanist məzmunlu və yüksək sənətkarlıqla yazılmış ictimai, siyasi, fəlsəfi, əxlaqi düşüncələrlə zəngin orijinal, oxşarsız lirik poemadır. Poemadakı fikir və sənət tapıntılarına "Sirlər xəzinəsi", "Leyli və Məcnun" kimi əsərlərdə rast gəlirik. Bu, Nizami poemalarının yaşca böyük olan altıncı qardaşıdır.

Xaqani irsinin mühüm qismini qəzəllər təşkil edir. Onun qəzəl yaradıcılığı o biri əsərlərindən müəyyən dərəcədə seçilir. Şair bu janrın tələblərinə riayət edir, məhəbbət motivini ön plana çəkir. Əsasən, aşıqanə qəzəl yazan şair sözarası ictimai hadisələrə də toxunur, dövrdən narazılığını bildirir. Türk alimi Əhməd Atəşin qənaətinə görə, artıq Xaqani irsində qəzəl bir janr kimi sabitləşir. Bu dövrdə başqa şairlərdə olduğu kimi, Xaqani qəzəlləri də mövzuca bütövdür. Onlarda nikbinlik duyğusu vardır. Xaqani də Şərq intibahının başqa şairləri kimi eşqi ən ülvi bir hiss olaraq tərənnüm edir. Onun qəzəlləri bizə başqa şairlərin qəzəllərini yada salır. Sanki bütün başqa Şərq klassikləri kimi Xaqani də kimisə təkrar edir, yaxud onu təkrar edirlər:

Aşiqlik dünyasına qədəm qoymayan insan,
Ürəyinə gözündən axıtmamışdır al qan.
Hər kəsə ki, vurmayıb qəm oxunu məhəbbət,
O, eşqin əhvalını biləcəkdir haradan?
Sevginin mənasını duya bilməz o kəs ki,
Həmnəfəsi olmayıb bir nazəndə mehriban...

Şairin fikrincə, insan özü aşiq olmayınca eşqin nə olduğunu bilməz. Gözlərindən qan axıtmayan bir kəs eşqi duya bilməz, aşiqə qiymət verə bilməz. Aşiq qəlbini və canını bağışlasa da, qisməti hicran və qəmdir. Daim eşq havası ilə nəfəs alan bu adamların üzərinə sevinc nəsimi əsməmişdir. Bu qəzəldə aşiq ən yüksək insan, zəmanənin həqiqi qəhrəmanı kimi göstərilmişdir. Düzdür, onun nə üçün daim qəm çəkdiyi, nə üçün sevdiyi bir adam tərəfindən incildildiyi aydın göstərilmir, bunun səbəbi aydınlaşdırılmır. İntibah dövrünün romantik poeziyasnın fəci qəhrəmanı olan aşiq özü də həmin hadisənin səbəblərini bilmir, mücərrəd və rəmzi şəkildə sevgilidən, taledən şikayətlənirdi. Şərqin bütün başqa qəzəl şairləri kimi Xaqani də ənənəni pozmur, müsbət qəhrəmanın kədərini, faciəsini sevgilinin zülmündə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daim aşiqini hicranla incitməsində görürdü. Dövrün mühafizəkar adamları tərəfindən anlaşılmayıb, dəli adlandırılan, bir çox hallarda olduğu kimi işgəncə ilə öldürülən mütərəqqi, qabaqcıl görüşlü adamlar, yeni ideyaların carçıları olan şəxslər bir növ qəzəl ədəbiyyatının lirik qəhrəmanlara bənzəyirlər. Həmin adamların arzuları, kədərləri aşiq obrazında əks etdirilirdi. Xaqani, qəzəllərində janrın bu keyfiyyətindən məharətlə istifadə edə bilmişdir. Bu baxımdan onun qəzəlləri dərin məzmunlu ictimai-fəlsəfi şeirləri ilə birləşir.

Xaqani yaradıcılığında qitə şəkli də mühüm yer tutur. Onun qitələrində ya olmuş hadisə və fakta münasibət əks olunur, ya da ictimai, əxlaqi, fəlsəfi bir məsələ ətrafında fikir yürüdülür, hər qitənin də əsasında bir fakt, bir fikir, ideya durur. Əgər qəsidələrdə şair müxtəlif məsələlər ətrafında geniş, rəngarəng düşüncə və fikirlər silsiləsi yaradırsa, qəzəllərdə daha çox insan qəlbinin ülvi, yüksək duyğularını əks etdirirsə, qitələrində ancaq bir mətləb izlənilir, bir neçə beyt əsasında həmin mətləb ifadə olunur. Bu ümumi keyfiyyətlə bərabər, Xaqani qitələrində konkretlik özünü aydın göstərir. Xəlifənin şairə dəbirlik vəzifəsi təklif etməsi haqqında qitə buna misal ola bilər:

Xəlifə deyir ki, dəbirim olsan,
Qarşında baş əyər möhtəşəm dağlar.
Dəbirəm, doğrudur, yazım misilsiz,
Lakin baş əymərəm bu işə, zinhar.
Bir dəbir olmaqla nə fəxr edim ki,
Vəzitlik mənimçün deyil iftixar.
Mən bir günəş ikən ulduz olmaram;
Borc papaq qoymaqda nə məziyyət var.

Qitə əsrin ruhani başçısına, onun xəlifəsinə şairin meydan oxumasıdır. Çoxları üçün şərəf olan bu vəzifə məğrur sənətkarı təmin etmir. "Mən bir günəş ikən ulduz olmaram" deyərək qüdrətli intibah sənətkarı kimi özunü və sənətini hər hansı gəlirli vəzifədən çox-çox üstün tutur. Aşağıdakı qitə də konkret bir fakt əsasında, müəyyən bir şəxsin hamıya məlum bərəkətinə cavab kimi qələmə alınmışdır:

Xaqanidən yuxarıda oturdunsa, nə olar,
Nə bu sənə bir hünərdir, nə də Xaqaniyə ar...
Görmədinmi, xırmanda da döyüm vaxtı həmişə,
Ağır dənlər alta yatar, boş saman üstə çıxar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqaninin həssas müşahidəçi nəzərindən heç nə kənarda qalmır. Hər hərəkət, hər hadisə onun şair qəlbində əks-səda oyadır və bu əks-sədalar şeir parçalarına, fikir, düşüncə qəlpələrinə, bədii fraqmentlərə, gələcək daha böyük əsərlər üçün ilkin qeydlərə çevrilir. Şairin qitələri bir növ sənətkarın öz zəmanəsi haqda düşüncələr toplusudur. Bu düşüncələr bəzən ümumidir, bütünlükdə isə mühitə, onun əxlaqına qarşı yönəlmişdir. "Xaqani, zəmanə pis zəmanədir" deyən şair əsrindən narazılığını müxtəlif şeirlərdə, o cümlədən qitələrinin bir çoxunda izhar etmişdir;

Rahatlaq axtarma sən, ey Xaqani,
Onu bu dünyada tapa bilməzsən.
İflasa uğramış dünya evində,
Amançün kimiya tapa bilməzsən.

Saray həyatı, saray mühiti Xaqaninin ən çox narazı olduğu, ikrah etdiyi bir yerdir. Bu cəhətdən o, müasiri Nizamiyə bənzəyir. Nizamidən daha çox sarayın zülmünü, çirkabını görüb öz üzərində hiss edən şairin sarayları tənqidində ehtiraslı bir ruh vardır. Xaqaninin fikrincə, şah sarayları elə bir dənizdir ki, orada sədəf yox, yüz min nəhəng var. İnsana heç bir inci verməyən, lakin onu məhv etmək üçün hər dəqiqə min oyun quran saraylar şairin əsas nifrət və inkar obyektidir. Gəncliyində saraya dəvət alan şair, çox keçmir ki, səhv etdiyini başa düşur, saray həyatının eybəcər, şər dolu mahiyyətini anlayır, özü ordan qaçmağa çalışdığı kimi, başqalarına da məsləhət görür ki, saraylardan uzaq yaşasınlar, ağalardan uzaq olsunlar:

Könül, sən gəl ağlın pənahında ol,
Ki, ağıl tamahın boynunu vurar.
Bir parça çörəyə, suya qane ol,
Nə sərvət, nə mənsəb, nə ağa axtar

Xaqani feodal saraylarını dar zindana bənzədir, ürəyində şahlara rəğbət olmadığını cəsarətlə söyləməkdən çəkinmir.

Xaqani dedikdə həmişə güclü, coşqun bir inkar yada düşür. Şairin əsərlərində, hər şeydən əvvəl, bu inkar diqqəti cəlb edir. Xaqaniyə XII əsrin ən böyük inkarçısı desək, səhv etmərik. Bu inkar nəyə qarşı yönəlmişdir? Şair nəyin xatirinə inkar edir? Bu iki suala cavab vermək, onun Azərbaycan intibah mədəniyyətindəki yerini müəyyənləşdirmək, şairin hansı cəbhədə durduğunu, hansı ideallarla yaşadığını aydınlaşdırmaq deməkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqaninin inkan ayrı-ayrı fərdlərin, tək-tək hadisələrin təsadüfi eybəcərliklərin yox, əsrin, zamanın inkandır. Yüzillərlə hökm sürən, İnsanı, onun bütün istək və düşüncələrini vaxtı keçmiş, qocalıb qartımış baxışlar məngənəsində sıxan, çürüdən, incidən baxışların, görüşlərin inkandır. Bu inkar orta əsrlərin mürgüsündən oyanmış insan zəkasının orta əsr şərini inkandır, İntibah tələtümünün orta əsr mürgüsünü inkandır. Zahirən bu inkar bütün həyata, bütün insanlara qarşı yönəlmişdir. Ancaq belə düşünmək böyük sadəlövhlük olardı. Xaqani inkanın obyekti aydındır, məlumdur. Şairin 25-26 yaşlarında yazdığı "Töhfətül-İraqeyn"dən bir parçaya diqqət yetirək:

Vaxtdır, öz dovründan qalsın fələklər,
Rəqs etsin yerdəki xətlər, büküklər.
Haman bu qozbelin vaxtdır ki, birdən,
Boz dovşan, ağ siçan düşsün belindən.
Dişilər qalsınlar bala doğmaqdan,
Qarınlar duvağa dönsünlər bir an.

Eyni inkar şairin başqa bir şerində belə ifadə edilmişdir:

Fələyi mən yerə vurardım, heyf,
Göylərə nərdivan tapmayıram.

Xaqani poeziyasındakı inkarın kökü dərin, məzmunu isə genişdir. Lakin bir cəhət aydındır: zəmanə insanın istədiyi kimi deyil. O, yeni insanın ağlına, düşüncəsinə ziddir, düşməndir.

Getdi o dövranlar, getdi o dəmlər,
Ki, Cəmşid şah idi, div isə nökər.
Nə işlər törədir, yaxşı bax cahan,
Cəmşid qul olmuşdur, divsə hökmran.

Cəmşidin divlərə hökmran olduğu əsatiri, zamanları Xaqaninin xatırlaması təəccüblü deyildir. Qərbin və Şərqin bütün intibah ziyalıları kimi onun da nəzərində əski çağ bir idealdır. Bu günün inkandır. Orda işıq zülmətə, ədalət zülmə, ağıl nadanlığa, Cəmşid divlərə hökmran idi. Xaqaninin yaşadığı dövr isə feodal orta əsrlərinin hökmranlıq etdiyi, insan ağlını, hissini, istedadını özünə qul etdiyi bir zamandir. Lakin elmin, mədəniyyətin və insanın inkişafı elə bir məqama gətirmişdir ki, oyanmış şüur mövcud vəziyyətlə barışa bilmir, onu inkar edir. Xaqaninin inkan məhz bu oyanmış şüurun üsyanıdır:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsanların adından elə qorxmuşam ki, ah,
Məndə dəhşət yaradır, hətta o mərdum-giyah.

Bu qeyddə İntibah humanizmi ehtiraslı bir şəkildə təsdiq edilir. Şair insan adından ona görə qorxur ki, özünü insan adlandıran, orta əsr əxlaqı ilə yaşayan adamlar nadanlığı, acgözlüyü, paxıllığı, xəbisliyi ilə hər cür vəhşidən daha vəhşi, daha eybəcər işlər görürdülər. Xaqanini qorxudan öz canı deyil, hər şeydən əvvəl, bu vəhşi, yırtıcı, qeyri-insanların əlində qalan, zəncirlənən, boğulan, tapdanan gözəl dünyadır, insanlardır, sadə xalqdır, onların aqibətidir. Xaqani dünyanı tamam inkar etmir. O, elə bir dunya arzulayır ki, orda insan rahat, azad nəfəs ala bilsin, hər şey onun arzularına uyğun olsun:

Bir cahan arzular ki, Xaqani,
Ola rahət bir an, tapmayıram.

Onun bu arzusunda da məhz təsdiqlə bərabər, inkar vardır; köhnə dünyanın, orta əsrlərin inkarı. İntibah dövrü orta əsrlərlə yeni İntibah ideallarının vuruşduğu, ölüm-dirim döyüşünə çıxdığı bir dövrdür. Orta əsrlərin ordusu, qanunları, məhkəmələri, dar ağacları var idi. İltibah isə kiçik bir ziyalı dəstəsi idi. Əbül-Əla Məərri, Rudəki, Xəyyam, Firdovsi, Sənai, Ənvəri, Cəmaləddin İsfahani, Xətib Təbrizi, Eynəl-qüzzat Həmədani, Mehsəti, Xaqani, Nizami kimi zəkası, dühası ilə orta əsrlərin buludlu səmasında şimşək kimi çaxan, orta əsr qaranlığını ani olaraq nura qərq edən kiçik bir ziyalı dəstəsi idi. Orta əsrlər öz mövqeyini, qanunlarını və s. qorumaq üçün heç nədən çəkinmir, İntibah ziyalılarını zindanlara atır, dara çəkir, diri-diri soyur, tonqalda yandırırdı. O, İntibahın nə olduğunu, nə istədiyini, bəşəriyyətə necə yol göstərdiyini, özünün axırının çatdığını yaxşı başa düşürdü, ona görə də Məcnunu dəli adlandırıb çöllərə salır, Həllac Mənsuru çarxa bağlayıb xıncım-xıncım edir, Eynəlqüzzatı öldürub həsrə bükür, neft töküb yandırır, Nəsiminin isə dərisini soyurdu. Lakin İntibah da uzun müddət geri çəkilmədi, varlığını ən gözəl humanist ideallar yolunda qurban verməkdən qorxmadı. Orta əsrləri zamanın ədəbi məhkəməsinə çəkdi, ona güldü, meydan oxudu, ağlı, qüruru, insanlığı ilə inkar etdi. Bu İntibah ziyalılarının ən böyüklərindən biri olan Xaqani də orta əsrlərə öz inkarı ilə meydan oxumuşdur:

Məst bir filəm, başıma vururlar ki, hər zaman,
Dinc qalarsan yadıma bəlkə düşər Hindistan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən ki, qəm Qanunuyam, məni rədd et saraydan,
Şer işlərdə fironam, vurmasan tənə Şirvan
Xaqani yox, o kişi demişkən Xəlqaniyəm,
Xoşdur ki, yoxsullarla olmuşam sirdaş, məhrəm.

İnkarçı Xaqaninin böyüklüyü özünü xəlqani, yoxsullar sirdaşı və məhrəmi saymasındadır. Qoy düşmən onun başına döysün, onun düşüncələrini başından çıxarmağa çalışsın, məst filin yadından Hindistan - humanist ideallar, arzular dünyası çıxmaz, o, orta əsrlərlə bağlanmaz. "Eşşəklərin belinə yun palan qoyan, itlərin boğazına qızıl xalta bağlayan" zəmanəni şair Xaqani qəbul edə bilməz. Onun poeziya bayrağında yazılan şüar budur: "Rədd olsun orta əsrlər! Onun qanunları, cahilliyi, sədaqətsizliyi, acgözlüyü!":

Əzəl gündən olmamışdır bu dünyada əhli-vəfa,
Görünməmiş öz əhdinə sadiq olan bir aşina.
Təkcə bizim ölkəmizdə vəfa yoxdyur zənn eyləmə,
Yer üzünün heç yerində ondan bir iz yoxdur əsla.
Qanı qanla yu, qalmayıb rahatlıqdan heç bir nişan,
Öz-özünə həmdəm ol ki, tapılmayır dostda vəfa.
İnsanların məzacında insanlığı az axtar ki,
Çalağanın yuvasında qanadlanmaz heç vaxt hüma.
Mənə inan, Adəmin ilk toxumundan bu vaxtadək,
Hələ insan yetirməmiş insan toxmu düşən tarla.
Qorxursansa səhraya get, ünsiyyət et vəhşilərlə,
Könül açan həmdəm yoxdur bu insanlar arasında.

Bir parçasını nümunə göstərdiyimiz bu şeirdə ehtirasla inkar edilən də orta əsrlər və onun dönük, xüsusiyyətçi əxlaqıdır. Xaqani bir çox hallarda bütün dünyadan, bütün insanlardan şikayətlənsə də, onun şikayətləndiyi, inkar etdiyi dünya və insanlar düşmən dünya və insanlardır, İntibahın əks qütbündə duran adamlardır, onların dünyasıdır:

İlk baharın buludu tək ağlar, gülər üzüm mənim
Deməli, hind baharını yamsılayir gozüm mənim
Söyləyirlər "sən gülürsən", deyirəm ki, "sizə, əlbət",
Cavabımdan düşmənlərin ürəyinə düşür dəhşət.
Söyləyirlər "ağlayırsan", "səbəb sizsiz", deyirəm mən,
"Dost idiniz mənə bir vaxt, ağlayıram dərdinizdən".

Xaqaninin həssas, odlu, ehtiraslı ruhu dostu düşməndən seçir, düşmənlərə gülüb onların ürəyinə qorxu salırsa, dostlar üçün ağlayır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onları həmişə dost, yəni insan görmək istəyir. Onun inkarı orta əsri, şimşək kimi caxıb, ildırım kimi gurlayırsa, İntibah gülüstan üçün mehriban bahar yağışına, ətirli səhər nəsiminə çevrilir, onu təsdiq edir. Xaqaninin böyüklüyü məhz bundadır.

Azərbaycanda Xaqani irsinin öyrənilməsi ilə H.Araslı, M.Quluzadə, M.Sultanov, Q.Kəndli məşğul olmuşlar. M.Sultanov Xaqani irsinin nəşri və tərcüməsi sahəsində xeyli iş görməklə bərabər, onun haqqında ilk monoqrafiyanı da qələmə almışdır.

Xaqani irsinin tədqiqi ilə ardıcıl şəkildə Qafar Kəndli məşğul olmuş, ölkəmizdə və xaricdə şair haqqında bir sıra samballı məqalələr dərc etdirmişdir. O, uzun illərdən bəri apardığı tədqiqatın bir hissəsini "Xaqani Şirvani: həyatı, dövrü və mühiti" adı ilə nəşr etdirmişdir. Zəngin faktik material əsasında yaradılan bu tədqiqat işi bütünlüklə klassik irsin öyrənilməsində yeni hadisədir.

Xaqani poeziyası öz dövrundən başlayaraq bu günə qədər Şərqin, o cümlədən Azərbaycanın bir çox sənətkarları üçün örnək, nümunə olmuşdur. Əmir Xosrov Dəhləvi, Əbdurrəhman Cami, Məhəmməd Fizuli kimi sənətkarlar bu dahi şairin "Şiniyyə"sinə cavab yazmış, Seyid Əzim Şirvani özünü onun naibi saymış, Sabir bəzi mənaları ondan iqtibas etmişdir. Xaqani yaradıcılığı Azərbaycan və dünya poeziyasının qiymətli hadisələrindən biridir.

Oxuculara təqdim olunan və qüdrətli şairin ölməz irsinin böyük bir hissəsini əhatə edən bu kitab Məmmədağa Sultanov tərəfindən tərtib edilən və 1985-ci ildə "Yazıçı" nəşriyyatında işıq üzü görən nəsri əsasında hazırlanmış kitaba Əkrəm Cəfər və Məmmədağa Sultanovun yazdığı şərhlər də eynilə saxlanmışdır.

Xəlil Yusifli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TÖHFƏTÜL – İRAQEYN

DİBAÇƏ[1]

...Dünən Dəclə sahilində bu sözləri yazırdım, Dəclə isə lətafətlə dadlı nəfəs alırdı. Bu dad və ləzzət iki vasitə ilə yayılırdı: biri dilə gəlib, ibarə olur, digəri qəlbə keçib, məna yaradırdı. Qəlbim bu mənanı barmaqlarıma axıdır, barmaqlarım isə qələmin ucuna verirdi. Beləliklə, hər əsən külək Dəcləyə gözəllik bəxş edərək, mənim qələmimin vasitəsilə kağıza köçürdü. Bu zaman gözümün bəbəyi Dəcləyə deyirdi: "Ey ilahi çay! Sən qəlbində gövhərmi əritmişsən? Ya aşiqlərin göz yaşısan? Sən axan ulduzmusan, ya dövr edən fələk?" Dəclə cavab verirdi: "Yox, mən fələk deyiləm, kəramət dəryasından bir hissəyəm...".

...Bu "töhfə"ni nəzmə çəkən Əcəm Həssanı Xaqaniyi-Həqayiqi o böyük padşahın xiddətində olub, onun xələtini aldığı zaman, xəzinəyə girərək, gücü çatdığı qədər lələ-cəvahirat götürüb, dövlətləndi və padşahlıq tapdı. Vəhdət dünyasını ələ gətirib, qane oldu və rahatlıq çadırını qurub, hirsi və tamahı nökərlər kimi dalda-qabaqda saxlayıb, böyüklərin ağıl və elmindən sağ və sol əlini doldurdu. O, (yəni Xaqani - M.S.) şadlıq taxtında oturub, azadlıq tacını başına qoydu və dünyaya bu cür səs saldı: "Bil ki, Allah dövrü yaratdıqda, dövr mənim dövrüm oldu, zaman mənim zamanım". Sonra, iradədən doğan və göylərə yol göstərən pak idrak, göylərin guşəsindən beynimin üç şöbəsinə nazil oldu və dedi: "...Allah sənə yol göstərsin, ey Xaqani... Allah sənə sağlıq versin, ey Həqayiqi... Sən lazım olan dərəcəyə çatdın, bəxtin möhkəm oldu, onu əldən vermə; habelə yaramazlıqlar törədən şərabın söhbətindən çəkin, fəlakətlər doğuran dünyadan həzər et; bu köhnə, murdar qandan canını qurtar, özünü elm və bilik kölgəsində saxla,

[1] İxtisar edilmişdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əgər istəyirsən ki, qəlbin yaralanmasın, vərəm və aclıq törədən dövlətli adamların qapısına yardım üçün getmə ki, onlar yaramazlıqlar törətməsin... Bu yeni ərsəyə gəlmişlərin karvansarasında düşüb qalma ki, öz evindən kənar düşməyəsən. Bu dünya bazarının tozunu silmə ki, ürək xəzinəsinin cəvahirlərindən məhrum olmayasan.

...Mən Şirvan məhbəsində idim. Birdən ilahi səs mənə dedi: "Əgər yüksəlmək istəyirsənsə, ayaq götür, yola çıx ki, dövlətə zəhmətlə çatmaq olar... Yəni, dur, Şama get, oradan ərəblərin Məkkəsinə keç, əvvəlcə... qulluğa qədəm qoy, sonra "ehram" tutub dayan, ziyarət zamanı qəlbdən: "Ey Allah, mən sənin nə olduğunu layiqincə tanımadım" söylə...

Sonra dövlət Məkkəsinə yol ara, onun halqasını iki əldə tutub, o türk kimi de: "Ey mənim evim, mən sənin kimi ev görməmişəmsə, sən də mənim kimisini görməmişsən".

Deməli, sən Kəbə ilə üzləşə bilərsən. Əgər o türkün yüz nəcib oğlu var idisə, sənin də yüz min qəribə övladın var; budur, hər birini onun qapısına qulam et və hər birinə min dinar qiymət qoy; Musulu nəhs ev adlandır ki, orada ancaq bir nəfərdən başqa özünə xiridar tapa bilməzsən, o da Məhəmməd ibn Əli ibn Əbu Mənsurdan ibarətdir...

BAŞLANĞIC

Bu qara torpaqla mavi asiman,
Qoymuşdur dünyada bizləri heyran.
Bu fələk, bu torpaq nə qədər ki var,
Ömür kisəmizi boşaldacaqlar.
Qəribə deyilmi, səma dövr edir,
Lakin sabit durur məhvərində yer.
Bu iki sehrbaz hər axşam-səhər,
Əyninə gah qara, gah ağ don geyər
Sarsılır varlığın indi təməli,
Açır qapıları heçliyin əli
Dörd hambal belindən atır yükünü*,
Nə ili görünür, nə ayı, günü
Göy atı tərk edir göyün tağını
Salır həm nalını, həm dırnağını*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pələng dərisitək göy xal-xal olur,
Hər şey boşluq içrə payimal olur.
Vaxtdır, öz dövründən qalsın fələklər,
Rəqs etsin yerdəki xətlər, çökəklər.
Haman bu qozbelin, vaxtdır ki, birdən,
Boz dovşan, ağ siçan düşsün belindən*.
Dişilər qalsınlar bala doğmaqdan,
Qarınlar duvağa dönsünlər bir an.
Ala gözlərinə çıxsın bir yara,
Dünyanın gününü eləsin qara.
Çünki insanlarda, qalmamış, əlbət,
Nə dostluq, nə vəfa, nə də ünsiyyət.
Dünyada qalmamış etibar, bəli,
Gözə görünməyir bir insaf əhli.
Qanun-qayda itib, bax, birdəfəlik,
Nə dinclik qalıbdır, nə asudəlik.
İndi din göyündə Dəccallar çoxdur,
Heyif ki, xilaskar bir Mehdi yoxdur*.
Bu dünyanın əli piyaləmizə,
Hey zəhər süzərək, içirtdi bizə.
Göy, sitəm şərbəti hazırlayaraq,
Onu ariflərə içirtdi ancaq.
Axmaqlar gözündə dünya heç zaman,
Seçilməz bir uşaq oyuncağından.
Qəza taxtasında bu əqlikəmlər,
Əlifba öyrənir hər axşam-səhər.
Xaqani həyatın sirrini qanıb,
Torpağın üstündə möhkəm dayanıb,
Üz tutub, hörmətlə deyir ellərə,
Onu ehtiramla dinləyənlərə.

GÜNƏŞƏ XİTAB

Oruc ağızlara ey möhür vuran,
Ey verən bahara gözəlliklə can!
Hər səma cisminin sənsən məhrəmi,
Ey dünya mülkünə atəş zəmzəmi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aya işıq verən sonsuz fələk də,
Sayəndə dincəlir hər kələbək də.
Qorxundan bu mavi səmada səhər
Gizlənmiş minlərlə rəna gözəllər.
Kainat içində açaraq qanad,
Narınctək daima gəzirsən azad.
Bağlıdır hüsnünə hər iki cahan,
Sənsən zəncilərin tükünü buran.
Cecələr qaranlıq, gündüzlərsə nur,
Sənin lütfün ilə bərqərar olur.
Sən qızıl səpirsən öz xəzinəndən,
Dünyaya sən müftə isti verirsən
Olursan gah həyat artıran kövsər,
Gah şölən bıçaqtək ömürü kəsər.
Sən hər bir qapıya bir baş vurursan,
Hər çör-çöp sənlə olur kamran.
Qövsi-qüzehi də rəngləyən sənsən,
Bir saman çöpü də rəng alır səndən.
Sənlə bəzənir dünya camalı,
Sayəndə dəyişir aləmin halı.
Edirsən soltana, yoxsula hörmət,
Göylərdən artıqdır səndə səxavət.
Aya sən verirsən müftə nur donu,
Alırsan yenə də geriyə onu.
Ya vermə xələti möhtaclara sən,
Ya da verdiyini alma əlindən.
Hər bir tac sənlə edər iftixar,
Otlar da sayəndə boy atıb qalxar.
Neçin yar olursan axmaqlara sən,
Neçin pay verirsən alçaqlara sən?
Torpaqdan sən etdin hər şeyi zahir,
Yaratdın hər yerdə qızıl, cəvahir
Bəs neçin çoxların kədərə batdı?
İqbalı onları torpağa atdı?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÜNƏŞDƏ XİTAB VƏ QIZILI MƏZƏMMƏT

...Uşağa xoş gəlir qırmızı, sarı
Kişi cummaz lələ, qızıla sarı.
Qızıl gül fənaya getməzdi, inan,
Gülü olmasaydı ləldən, qızıldan.
Pislik zatındadır qızılın əslən,
Gülləri ölümə odur sövq edən.
Qızılın miqdarı artarsa əgər.
Dolar sahibinin qəlbinə kədər.
Kim yığsa qızılı kiseyə, bişəkk,
Boğazı ilməyə keçər kisətək.
Kimin qızıldadır gücü, yəqin bil,
Kölədir, qızılın sahibi deyil!
Bir möhnət odudur cana simü-zər,
Düz olar, qızıla deyilsə "azər"*.
Zərdüştün adının əvvəlidir zər,
Zərə səcdə edir atəşpərəstlər*.
Zər nədir? Sönmüş bir atəşdir, ancaq,
Ona demək olar: bir ölü torpaq.
Bəlkə onu yanmış torpaq sanırsan,
Qızıl od parçası olmuşdur, inan!
Ürək çeşməsinin bağlanmış gözü,
Belə sönmüş-odla açılmaz, düzü.
Qəlbini qızıla bağlasan az-maz,
Bu qapı üzünə heç vaxt açılmaz.
Tamah dəmirindən geyinsən paltar,
Qızıl paltarına miqnatis olar*.
Bu dəmir paltarı çıxarsan əgər,
Dərhal qızıl maqnit səndən əl çəkər.
Qızıl həm oğrudur, həm də gülbədən,
Biryolluq üz döndər ikiüzlüdən.
O büt görünsə də müqəddəs pəri,
Sındırmaq lazımdır elə bütləri.
Xaqani istəməz olsun tamahkar,
Qızıla, ya bütə olsun pərəstar.
Çoxdan öyrənmişəm büt qırmağı mən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçmışam atəşə baş əyənlərdən*.
Altıbaşlı dünya arzular insan,
Qızıl yeddibaşlı ilanıdır, ilan*.
Kimin gözlərində qızıl tutub yer,
O, aynaya baxıb, özün görməyir.

* * *

Sən, ey gövhərlərə gözəl rəng verən,
Hər şeyə bir surət, bir ahəng verən.
Dünyada hər kəsə əziz, mehriban,
Hamıya bir baxan, bir qiymət qoyan!
Günəş! Sən hər şeyə nüruz edirsən,
Çox böyük, çox uca olsan da, bəzən,
Enirsən üstünə qara torpağın,
Ayağı altına hər bir alçağın.
Ey, kimsədən işıq əsirgəməyən,
Nə üçün kəsirsən nurunu məndən?
Dostdan əsirgədin mehribanlığı,
Ancaq düşmən edər bu yamanlığı.
Şirvan nur çeşməsə qərq olub tamam,
Bəs niyə mən belə qaranlıqdayam?
Dərdimi açmağa bir həmnəfəs yox,
Xoş söhbət etməyə yaxın bir kəs yox,
Möhnətlə sinəsi dağlı qalmışam,
Qüssədə ayağı bağlı qalmışam.
Pars odu püskürür dodaqlarımdan,
Edib hind xəncəri qəlbimi şan-şan*.
Qapı halqasıtək asılıyam mən,
Sızlaram hər yetən namərd əlindən.
Gərəksiz daş kimi başsız, ayaqsız,
Qaranlıq güşədə qalmışam yalqız.
Başıma bir çəkic zərbəsi dəydi,
"Əlif" qamətimi "mim" kimi əydi*.
Ey Günəş bu qoca dünyada təksən,
Xalqın qapısında həmişəliksən.
Mən qapı halqası olmuşam deyə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ahım halqa-halqa yüksəlir göyə.
Elə ki, bu ahlar sinəmdən axır,
Mənim boğazımı yandırıb yaxır.
Yüksəlir göylərə, o, zəncir təkin,
Keçir ayağına Bənatin-nəşin*.
Çoxdur pəncərəsi Günə baxanlar,
Hər halda, mənim də bir pəncərəm var.
Möhtəşəm bayrağın yüksələn zaman,
Min düyün açırsan, nə olar, bir an.
Mənim də gözümün pəncərəsindən,
Baxasan bir anlıq ürəyimə sən...
Kim ki, dal qapıdan alır ruzunu,
Yenə pay verirsən ona nurunu.
Elə adamlara üzük verirsən,
Ki, onu torpağa atırlar həmən.
Bir süfrə ki, onda çoxlu qızıl var,
O süfrəni yerə kim tutub çırpar?
Balıqtək yüz qızıl pulu olanlar,
Bilirlər onların min dəryası var.
Dövlət nə qüdrətin, nə hünərindir,
Mənsəb də, sərvət də nakəslərindir.
Kim ki, alçaqlara edir yaltaqlıq,
Yetir muradına, eləyir şahlıq.
İnsafdan əsər də qalmamış, gör bir,
Zamanın ələyi nə zülm ələyir?!
İndi bu dünyada qalmamış nişan,
İgidlik, kişilik və adamlıqdan.
Fələyin dövranı dəyişmiş, artıq,
Günəşin özü də edir paxıllıq.
Yox, tamam yanıldım, hələlik, bəsdir,
Bunlar gəlib keçən ani həvəsdir.

* * *

...Ey göylərin gözü və pasibanı!
- Ey yer çörəkçisi və ərməğanı!
Ey yeddi çəmənə yaşıllıq verən,
Ey altı gəlini al bəzəndirən*,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey heç qapanmayan, hər vaxt açıq göz,
Ey yaman odlu dil, - demədən bir söz;
Sənin qüdrətinlə bağlarda müdam,
Boy atır həm iydə, həm püstə, badam.
Sən göy günbəzinə yağdıranda nur,
Ayın da kisəsi narıncla dolur.
Bir sənin sayəndə bu göylər ancaq,
Bağlayır belinə qızıldan qurşaq.
Qızıl nəştərinlə sən qan alırsan,
Gecənin qapqara zülmət qolundan
Qızıl şəfəqinlə dünyalar yanır,
Aləm al-qırmızı rəngə boyanır.
Sənin işığının sayəsində qan,
Gövhər olur daşda qaldığı zaman.
De, hansı baş tacı məni unudur?
Xaqani özü də sənin qulundur.
Qəbul et yolunda başından keçən,
Bir qulun başını töhfə kimi sən!
Ey, bütün gözlərə daim nur verən,
Həqiqət aləmi, həqiqət görən.
Səni olduğun tək bilməsəm əgər,
Bağışla, kor kimi olur qəriblər.
Ey, gövhər sorrafı, özün vaqifkən,
Niyə bir də məndən sirr öyrənirsən?
Avam bir kişiyəm, savadım da kəm,
Nə yerə, nə də ki, göyə bələdəm.
Nə yaxşı biliyim, fərasətim var,
Belə bir adamdan nə ummaq olar?
Özüm də xəcalət çəkirəm bu an,
Üzümü tər basır utandığımdan.
Sənə təzim edib, mən baş əyərək,
Dururam qarşında qolu bağlıtək.
Səhər üzr istəyir, bax, əvəzimdən,
Mənim günahımdan gərək keçəsən.
Hər zaman gülərdir üzü səhərin,
Çünki aynasıdır doğru kəslərin.
Aparsın üzrümü səhər nəsimi,
Qubardan təmizlə tozlu qəlbimi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani məclisi sənin nurundan,
Zövq alır göylərdə yandığın zaman.
Bildin hər sirrini, hər adətini,
İşıqla göstərdin ibadətini.
Quru, yaş olursa onun odunu,
Yəqin ki, sən özün edirsən bunu.
Səndəndir əlində gül-çiçək olsa,
Səndəndir ovucu qızılla dolsa.
Səninlə həmsöbbət olduğu zaman,
Yunu ipək kimi yumşalır, inan!
Dünyanın buz kimi sərdabəsinə,
Cəlalm hərarət bəxş edir yenə.
Unutmayıb onu, süzüldükcə sən,
Hərdən qapısından, pəncərəsindən.
Hörürsən qırmızı qızıldan cuna,
Otağı bəzənir, girir min dona.
Doldurub evini bəzəklə, pulla,
Onun ətəyini xalis qızılla,
Silirsən, qaldırıb yerdən başını,
Həm alın tozunu, həm göz yaşını.
Hər ağır xəstənin dərmanı sənsən,
Şirvan məhbəsində bir dustağam mən.
İkimiz də dərddən saralmışıq biz,
Od-alov içində yanır qəlbimiz.
Çox giley etmişik biz əllərindən,
Vəfasız dünyanın əməllərirdən.
Bədənim dərd üçün bir kor quyudur,
Həm dəmir dağıdır, qürurla durur*.
Sirləri quyutək örtəsən gərək,
İfşa etməyəsən onları dağtək.
Əcəm xasiyyətli adamdan bir az,
Gizli sirr eşitsən faydasız olmaz,

ƏRZİN FƏZİLƏTİ HAQQINDA

Çox səfər eylədin, əl çək göylərdən,
Bir az da gəz, dolan yer üzünü sən!
Əgər öz meylini salsan bu yerə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Artar şan-şöhrətin birə min kərə.
"Bir" gəlib "min" olar, əgər onu sən,
Yerindən üç xana sola köçürsən*.
Piyadan keçdimi yeddi xanəni,
Udmaq çətin olar, çox güman, səni*.
Sədəfçin qətrələr göylərdən enir,
Mirvari gəzməklə qiymətə minir.
Xüsusən, səyahət - dünyanı gəzmək,
Böyük adamlara olmuşdur bəzək.
Qəza pərgarım sancıb dərinə,
Qoydu ilk nöqtəni yer üzərinə
Kainat yer ilə belə yüksəlir,
Hər xətt bir nöqtədən baş alıb gəlir.
Torpaq cövhəridir bu kainatın,
Həm xəzinəsidir cəvahiratın
Dünyanın beşiyi olmuş bu torpaq,
Torpaqdan doğulmuş mənalar ancaq.
Mustafa torpaqda yatdığı üçün*,
Yer göydən əzizdir, üstündür, üstün!
Ürək ikiüzlü aynadır, ancaq,
Onu da hifz edir bizim bu torpaq.
Bir üzü işığa meyl edir hər an,
Digəri ayrılmır qara torpaqdan.
Torpaqdır beşiyi bütün xilqətin,
Hər bakir mənanın, sözün, sənətin.
Daima dövr edən bu mavi göylər
Yerin, məxluqatın dalınca dönər.
Torpağa hörmətlə ayaq bas ki, sən
Yerdə öz-özünə göyərməmisən.
Səfərdə uzağa tutub üzünü,
Dördüncü iqlimə çatdır özünü*.
O dördüncü iqlim yeddinci göydən,
Yerin sayəsində üstündür, bilsən.
Günəş, ölkələrə, qızardımı dan,
Yayır öz nurunu dördüncü qatdan.
Dördüncü növbədə yarandı insan,
Sırada dördüncü kitabdır "Quran"*.
Dördüncü ölkəyə səfər et sən də,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çatarsan məqsədə bu səfərində.
Göyün doqquzuncu atına atlan,
İraqa yola düş bir an durmadan!
Dərdinə bir çarə axtarsan əgər,
Ona yenə İraq bir çarə edər.
Torpağı o dünya torpağındandır,
Dirilik suyu tək suyu dərmandır.
Yanağın qızarar İraqda olsan,
Ağzın dada gələr onun suyundan.
O yerdə çox gözəl abü-hava var,
Azca orda qalsan, səni sağaldar.
Abi-kövsər kimi şəffaf bulaqlar,
Ərzin mərkəzində ulduztək parlar.
Donmuş bir ruhdandır torpağı onun,
Odur ki, əzizdir qucağı onun.
Göyün üst qatıdır İraq torpağı,
Göy isə o yerdən durur aşağı.
Məndən öyrəndiyin bu sözləri sən,
Tez İraq əhlinə çatdıra bilsən,
O zaman, yəqin ki, sənə mələklər,
Hər addım başında afərin deyər.

SƏFƏR TƏFSİLATI

Dövrün əmirinin fərmanıyla mən,
Nəhayət, qurtardım Şirvan bəndindən*.
Səfərdə səhralar çıxdı önümə,
Yorğun bədənimi sürüdüm yenə.
Uzaşdım Şirvanm qəhətliyindən,
Vəbal çayını keçib getdim mən.
Şirvan məhbəsindən uzağa getdim,
Bir məqsəd dalınca İraqa getdim.
Qaldı Qara dəniz mənim arxamda,
Səfidrud çaymı keçdim bir anda.
Gördüm Kuhistana çatıb, nəhayət,
Səkkiz behişt kimi yeddi vilayət.
Torpağı İsaya tutiya verər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daşları Musaya kimiya verər*.
Orada hər ilin dörd baharı var,
İki bayram görür gündə o diyar.
Nəzəri cəlb edir qamışlıqları,
Qərənfil bağları, meyvə bağları.
Onun hər tərəfi bir gülüstandır,
Gözəl ətir verən bağdır, bostandır.
İki top qoymuşdur Xuzistana o,
Üç zərbə vurmuşdur Hindistana o*.
Torpağı çəməndir onun bahar, qış
Çayların belinə körpü çatılmış...
Tağlı körpüləri yeddi gözlüdür,
Gülləri saplaqda səkkiz üzlüdür.
Qaçaqdan, quldurdan asudə, lakin,
Xəzinədarları büsbütün xain.
Təəssüf, belə bir füsunkar cənnət,
Olubdur cəhənnəm əhlinə qismət!
Kəsər vəhşi kimi yolları onlar,
Gündüz yatıb, gecə edərlər şikar.
Onların həyatda məqsədləri yox,
İnsanlığa azca hörmətləri yox.
Yolun kənarına çıxıb, səhərlər,
Guya qonaqları qəbul edərlər.
Lakin, o hiyləgər tülkülər hər an,
Pusquda duraraq, güdürlər karvan.
Əvvəl yol göstərib karvana onlar,
Sonra da yolunu kəsib, soyurlar.
Üzdə gülsələr də, dişləri qanlı,
Zöhhak ağızlıdır, əjdaha canlı.
İsti qumda bişmiş yumurta kimi,
Duyğusuz qəlbləri duya bilirmi?
Əhli-insan deyil, sanki, heyvandır!
Tufanlı dəniztək çox biamandır.
Onlar nə dindirər, nə də ki, dinər,
Nə fəryad eşidər, nə aman bilər.
Orda oğrularla dostdur darğalar,
Hərənin min dili, min ədası var.
Yaman naəhl olur o yerin əhli,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həm oddur, həm sudur onların dili*.
Bəla rəngi vurur boyaqçılar da,
Odur ki, qaradır adamlar orda.
Samirilər kimi danışan zaman,
Od, alov püskürür ağızlarından*.
Çörəkçisi dəxi yaman xəsisdir,
Zahirən mələkdir, lakin iblisdir.
Gecə adam yeyər orada aşpaz,
Gündüz İsa ilə eyləyər niyaz.
Qəssabı hər gündə neçə can alar,
Boyaqçı rəng üçün qızıl qan alar.
Adamın üzünə gülür dərzilər,
Daxildə hamısı xəbis, hiyləgər.
Dövlət adamları oğrudur tamam,
Rüşvətlə dolanır hakimlər müdam.
Qərəz... Canilərdən tez ayrılaraq,
Getdim, özlərinə qaldı bağça, bağ...

ÇAYIN TƏRİFİ

O böyük ölkənin kənarında mən,
Möhkəm bir yer gördüm, sanki bir gülşən.
Onun hər milində yüz Misir vardı,
Bu yerdə sanasan yüz Nil axardı.
Soruşdum: "İraqda Nil çayımı var?
Ya da Kuhistanda belə bir hasar?
" Dedilər: "Qorumaq üçün sultana,
Bir darğa etmişlər bu Kuhistanı
Bir xətər yetməsin deyə sultana,
Bu çaydan bir hasar çəkmişlər ona".
Bu çay öz suyuyla tapıb şərafət,
Ədən dəryasından yüksəlmiş, əlbət.
Gözəldir camalı yar camalından,
Hüsnü də nazından, xöş vüsalından.
İsa nəfəsindən gəlmişdir cana,
Adəm bu su ilə gəlmiş cahana.
Ona qul kimidir mühit dənizlər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ondan pay umaraq, yolunu gözlər.
Bir zərrə qədərdir yanında Seyhun,
Bir korun göz yaşı qədərdir Ceyhun*.
Bu hüma üzlünün ördəyi, sən bil,
Simurğun özündən heç kiçik deyil*.
Burada yüksələn hər bayquş səsi,
Olur qulaqlarda Barbəd nəğməsi*.
Onun sularına baş vursan əgər,
Əlinə sədəflə mirvari gələr.
Balıq tutmaq üçün gələr Süleyman,
Onlan qızardar Məsihlə Rizvan*.
Hər ləhzə bu çaydan sahilə tərəf,
Hücuma keçərlər balıqlar səf-səf.
Burada Xızr ilə Musa yuyunar,
Hər bir qətrəsində yüz min kövsər var.
Bu çaya baş vurdum mən də bir zaman,
Keçdim dalğasından, möhkəm hasardan.

ŞİKARGAHIN TƏSVİRİ

Nəhayət, yetişdim xoş bir məkana,
Bura şikargahdı böyük sultana.
Gözümə göründü bu yer çox ali,
Misilsiz bir çəmən, gözəl, səfalı.
Onun qarşısında sönükdü dünya,
Ya hərf üzərində sükundu guya*.
Burada qurulan yüksək çadırdan,
Sanki görünürdü minlərlə cahan.
Bura şah meydanı bir şikargahdı,
Qurbanlar kəsilən bir barigahdı.
Yüz saray əyərdi qarşısında baş,
Bu saray yüz göyə, fələyə sirdaş.
Gəlib bu saraya sultan iki yüz,
Sürmüşdür bu dərgah torpağına üz.
Hər biri üç dəfə öpüb torpağı,
"Əl-əbdü" deyərdi qullar sayağı*.
Yerin sakit yatan öküzü, budur,
Onun fərmanının bir sübutudur*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atının çulu da, bax, dönə-dönə,
Salınır fələyin atı üstünə.
Fələyin göylərdə olsa da atı,
Onun hümmətilə çalır qanadı.
Bu çadır uzaqdan işıqlanırdı,
Sanki qaranlıqda çıraq yanırdı.
Gecələr nə qədər olsa da uzaq,
Onu tez göstərər nurilə çıraq.
Sirrini arifə açar mehriban,
Naəhl adamlara eyləməz əyan.
Tur dağı yandırmaz oda Musanı,
Yandırar, əlbəttə, azğın insanı*.
Bu böyük sarayın ətrafında, bax,
Durmuşlar böyüklər halqa vuraraq.
Çadır iplərini hər sadiq insan,
Eşmişdir özünün can damarından.
İrəli çıxaraq, hər sərkərdəsi,
Oxuyar dünyaya zəfər nəğməsi.
Nizamla düzülən basılmaz ləşkər,
Saysızdır göydəki ulduzlar qədər.
Sıyrılmış qılınclar yağdırır qəzəb,
Üstündə yazılmış: "Kömək et, ya Rəb!
" Böyük davalardan qalib çıxanlar,
Kiçik döyüşlərdə məğlubmu olar?
İşlədər davada o mərdlər, bişəkk,
Qılıncı dil kimi, dili qılınctək.
Onların hər zərbi yüz qəlbi dələr,
Hər səsə yüz yerdən səs, haray gələr.
Hər kəs qılıncını cantək qoruyar,
Başa dəbilqəni ağıltək qoyar.
Müştəri sifətli və Ay camallı,
Zühəl həmayilli, Mərrix kamallı*,
Hər biri keçərsə hücuma əgər,
Düşmənin canını yüz yerə bölər.
Onlar arxalanır əbədiyyətə,
Onların çadırı gəlməz afətə.
Bu yeddi fələyin ustadı Günəş,
Onun qapısının nökərinə əş.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Qəlbim arzuladı o barigahı,
İstədi ziyarət eyləsin şahı.
Görüb bu dərgaha yaxın kəsləri,
Heyrətdə qalaraq, keçdim irəli,
Dedim: "Ey möhtərəm, əziz adamlar,
Ancaq sizdən imdad gözləmək olar.
Sultana siz yaxın əzizlərsiniz,
Ona xahişimi yetirərsiniz.
Can xilas edərək bəladan, qəmdən,
Gəlmişəm bu böyük barigaha mən.
Bəlkə sayəsində taparaq imkan,
Öpəm padişahın əlini bir an".
Dedim sözlərimi, lakin, bir nəfər,
Məni dinləmədi bir uşaq qədər.
Mən aciz qaldıqda, nəhayət, yenə,
Üz tutdum hümmətli kəslər səmtinə.
Bir gün Günəş kimi geyimi sarı,
Bir adam tataraq üz, mənə san.
Gəlirdi, tanıdım böyük xacəni
Ani bir şaşqınlıq bürüdü məni.
Bəxtim bu xacəyə olarkən düçar,
Sanki zər atırdım, gəldi də çahar*.

CƏMALƏDDİN MOSULU İLƏ GÖRÜŞ VƏ ONUNLA SÖHBƏT

Ey fələk cəlallı, ucalsın şanın,
Daha rövnəq tapsın sənin ünvanın!
Ey dünya şöhrətli, sənin nüfuzun,
Yüksəlsin fövqünə Ayın, ulduzun.
Özünsən, mən bunu etmişəm yəqin
Birinci rəqəmi Tanrı xəttinin.
Parlaq işıq saldın zəmanəyə sən
Ulduzlar nur alır sənin kölgəndən.
Xilqətin dörd arxı, görünsən əgər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənə qibtə edəır, paxıllıq edər*.
Vuran baş düyünü can ilməyinə,
Sən oldun, ümidim sənədir yenə.
O biri dünyaya bizi bir zaman,
Özünlə aparan sən olacaqsan.
Oxudum, dinlədi o söz hakimi,
Bəyəndi ürəkdən şerlərimi.
O, Sədəf ağzından səpdikcə gövhər,
Elə bil dolurdu dürlə dənizlər.
Həmişə çıxsa da, dürlər dənizdən,
O dürr dənizləri yaratdı sözdən.
Düşən mirvarilər iki dodaqdan,
Hər iki dünyanı bəzərdi, inan!
Nurdan yaranmışdır nitqi, nəfəsi,
"Zəbur " nəğməsidir şirin nəğməsi*.
Dedi: "Soruşuram, mənə söylə bir,
Əslən haralısan, de, adın nədir?"
Dedim: "Tələbəyəm, həm də söz bilən,
Şərvan diyarında doğulmuşam mən.
Xəlilullah olmuş dövründə atam,
Deməli, əslində nəccar oğluyam*.
Bəlalı oldu hər atdığım addım,
Ağıl barmağımı sorub yaşadım.
Fələklər paxıllıq edərək mənə,
Saldı günahkarlar cəhənnəminə.
Sənin öz lütfünlə həmin cəhənnəm
Çiçəkli behiştə çevrildi bu dəm.
Mən eşqin səhrası, qəlbin qibləsi
-Yoluna üz qoydum, könlümün səsi.
Həqqə yaxın olsun deyə yetirdim,
Qəlbimin oğlunu qurban gətirdim"*.
Dedi: "Necə gəlib çıxdın İraqa?
Neçin qədəm qoydun bizim torpağa?
" Dedim: "Çox şuluqluq oldu oralar,
Nə bir parça çörək, nə güzaran var...
Füsunkar olsa da təbiəti çox,
Lakin ağır keçir vəziyyəti çox.
Onun ətrafında olsa da çaylar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odlu sinəsində yanar dağlar var.
Onun gərdişindən o gözəl yerlər,
Cəhənnəmə dönmüş indi sərbəsər.
Şəhərin üstündə vurarkən vulkan,
Uyumaz yaşıllığa ağıllı insan.
Orada qəhətlik məni didirdi,
İqbalım İraqa çəkib gətirdi.
Nə xoş ki, İraqa eylədim səfər,
Mənə behişt kimi gəlir bu yerlər.
İndi, bir özün de, şad olmazmı bəs,
Kənandan çıxaraq Misrə çatan kəs?
* Sən şaha bildir ki, bu qərib axşam,
Onun dərgahına gəlib çıxmışam.
Məni qəbul etsin - ərz eylə şaha,
Doğru bir yol göstər sən barigaha!
Möcüzələr yaradan barigaha sən,
Mənimtək söz deyən görməyəcəksən.
Tərifdən yüksəkdə dursa da dərbar,
Mənim tərifimə ehtiyacı var.
Əgər üzük qaşı qiymətlidir, bil,
Onun muma işi düşməmiş deyil*.
Üzük qaşındakı tərsə yazılar,
Mumun üzərində düzgün oxunar".
Dedi: "Natamamsan, bil ki, hələ sən,
Qayıt, o məqama layiq deyilsən!
"Mənəm, mənəm" deyib öymə özünü!
Həmişə müxtəsər söylə sözünü.
Cahildir özünü tərif edənlər,
Çox "bilirəm" demə, bilsən də əgər.
Boş söz insanların abrını tökər,
Yalan şerlər də bağrını sökər.
Uzunçuluq igid adamların da,
Bir dəfə dadına çatmamış darda.
Məntiqsiz, dəlilsiz, yalan danışmaq,
Nadan adamların işidir ancaq.
Kimin şəcərəsi Adəmdən gəlir,
Ona "mənəm, mənəm" layiq deyildir.
Rənglərə baxaraq özünü öysən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəcalət çəkərsən tavus kimi sən.
Görsə öz əksini tuti aynada,
Özünü tanıya bilməz dünyada.
Lakin öz-özünü görməyən zaman,
Daha da həvəslə danışar, inan!
Tərif xoşlasa da əgər bizim şah,
O, söz sərrafıdır, yaxşı ol agah!
Fəzilət xələti saralıb, solmaz,
Her yeniyetməyə o, qismət olmaz.
Çoxu şərbət içər ədalətindən,
Heyif ki, qədrini bilməz hər yetən.
Dəryanın yanında bir damla nədir?
Sən heçsən, şah zəngin bir xəzinədir.
Xəzinəni bağlı gördüyün zaman,
Yatmış əjdahanı oyatma, aman!
Bir az təvazölə danış sözünü,
Hey döyüb döşünə, öymə özünü!
Az danış, hörmətlə durasan gərək,
Müəllim önündə duran şagirdtək.
Hər kim acıdildir, yaxşı bil bunu,
Şahın qapısına qoymazlar onu.
Dil gülünc etməsin deyə insanı,
İnsan ağzı olmuş dilin zindanı.
Bəzən dil sıyrılmış qılınca bənzər,
Ayıq ol, başını bədəndən üzər.
Çəksən, qılıncım din yolunda, çək,
Onu çox bəzəmə ağac qılınctək!
Can cəhənnəminə qapıçıdır dil,
Dilsizlik behiştin açarıdır, bil.
Balıq dilsizliklə tapdı gücünü,
Tutdu göy üzündə Balıq bürcünü.
İlan iki dilli olduğu üçün,
Cənnətdən qovuldu nifrətlə bir gün.
Canını saxlamaq istəsən əgər,
Çalışıb dilini saxla birtəhər.
Qayıt, geri qayıt buradan hökmən,
Get, öz doğulduğun yerdə yaşa sən!
Məktəbdə elm oxu, fənn öyrən, dərs al,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər nə oxumusan, bir-bir yada sal!
Əcəmi olduğun yetər, indidən,
Get, otur, bir az da ərəbcə öyrən.
Get, oxu, İraqa qayıdan zaman,
Gərəkdir bilikdə kamil olasan".
"Axı uzaq yerdən gəlmişəm, - dedim,
-Olarmı əliboş qayıdıb gedim?
Burdan nə aparım sovqatdır deyə,
Qəhətlik içində qalmış ölkəyə?..
"Xacədən nə aldın?" deyə qonşular.
Sorsalar, cavabım mənim nə olar?
Mən böyük xacənin yanından əbəs,
Əliboş qayıtsam, heç yaxşı düşməz".
Dedi ki: "Al, durma, qayıt Vətənə,
Apar bu üzüyü, töhfədir sənə.
Bu üzüyün qaşı adi qaş deyil,
Böyük qiyməti var, bunu yaxşı bil!
Üzüyü verirəm, lakin son gərək,
Onu qoruyasan göz bəbəyitək.
Bu üzüyün qaşı bahadır, düzü,
Camın gövhəridir, Cəmşidin gözü*.
Dünyada, nə qədər yanındadır bu,
Sənə heç bir şeyin yoxdur qorxusu.
Burada yazılmış müqəddəs adlar,
Həm də mayasında şəfa sehri var.
Bu üzük zidd olmuş, bil, Əhrimənə*,
Cəmşiddən yadigar qalmışdır mənə.
Şirvanda qəhətlik güclənsə, əgər,
O bəladan səni bu xilas edər.
Belə bir dövlətə nail olarkən,
Çalış, bu dövləti vermə əlindən!
Bu üzüklə Cəmşid "comərdəm" deyə,
Padişahlıq etdi yeddi ölkəyə.
Hakim olmasan da, ömrün uzunu,
Ban şərəfləndir ölkəndə bunu.
Əlində hər zaman olar bir meyar,
Şərbəti, zəhəri sənə tanıdar.
Yəqin çox olacaq gəlib istəyən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən də acığına onların qəsdən,
Üzüyün ustünə bu sözləri yaz:
"Kimsəyə satılmaz və bağışlanmaz!
"Qorxuram əlinə üzük keçəndə,
Bilməyəsən onun qədrini sən də!" –
Deyib, üzüyünü verəndə mənə,
Önündə üzüktək əyildim yenə.
Canına dualar etməklə, həmən.
Təşəkkür söylədim, ona ürəkdən.
Onun hüzurundan, öpərək yeri,
Sədi-əkbər kimi qayıtdım geri*,
Sevinclə, fərəhlə döndüm İraqdan.
Keçdim Kuhistanın sərhədlərindən,
Yenə də Şərvanın gördüm şərini.
Gördüm ki, əyanlar tapdıqca fürsət,
Mənim üzüyümdən açırlar söhbət.
Danışır üzükdən görən, görməyən,
Onun hər tilsimli möcüzlərindən.
Nəhayət, şöhrəti çatdı hər yana,
Yetişdi bu xəbər böyük xaqana.
O, qasid göndərib dərhal yanıma,
Qara-qorxu saldı mənim canıma.
Gəlib, hüzuruma, dil tökdü bubbu*,
Dedi ki, xaqanın öz hökmüdür bu:
"Get, ona söylə ki, tapşırdı şahım:
Sənə bəs deyilmi razı qalmağım?
Bu özü bir töhfə deyilmi məgər?
Şahanə üzüyü xaqana göndər!
O üzük hər canın mayəsidir, bil!
Səndə həbs olmağa o, layiq deyil!
Barmaqların ona yaraşır məgər?
Sənə qurşun üzük kifayət edər.
Cəmşid üzüyünü etmə oyuncaq,
O sənin başına bəladır ancaq".
Dedim: "Ədalətli sayırlar şahı,
Lakin az deyilmiş zülmü, günahı.
Ədalət axtaran olmalı şahlar,
Zülmkar hökmüdar çox az yaşayar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ədlin mühəndisi qurmasaydı, bəs,
Qərar tutardımı bu mavi günbəz?
Ədalət suyundan içməsə torpaq,
Qoyarmı qızıl gül qızıldan papaq?
Ədalət olmasa, qış çıxan zaman,
Ölkəyə yaz gəlməz, batar bağ-bostan.
Yerlə döy hərəsi, bax, bir yandadır,
Onlar ədalətlə bir mizandadır.
Çəməndə güllərin can damarından,
Ədlin nəştəriylə, tikan alır qan".
Şah dedi: " Üzüyü onda sat mənə!
Əvəzində şəhər bəxş edim səne".
Dedim ki: "Dünyada nə qədər varam,
Mənə hədiyyədir, bunu satmaram.
Dünyanın kimyası verilsə mənə,
Bunu bir kimsəyə satmaram yenə,
Taxıb barmağıma gəzəndə hərdən".
Sanki Aya qədər ucalıram mən.
Xızırın gördüyü o dərin dəryalar,
Bu üzük qaşında bir damla olar.
Mən dırnaq tutarkən, onu fələklər,
Göyləri dolaşan hilal zənn edər.
Günəş paxıllıqdan edərək tələş,
Deyirdi: "Bu üzük qütb olaydı kaş!".

* * *

Üzüm saralanda, qəlbim sınanda,
Mən qüvvət alardım ondan hər anda.
Bəzən eyib kimi gizli tutardım,
Bəzən qoynumdakı cibə atardım.
Gəzdirər, bir sirtək üstünü örtər,
Gizlin saxlayardım onu birtəhər.
Alçaq adamların qorxusundan mən.
Gizlərdim evimin küncündə bəzən.
Uzaqda olsaydım üzük qaşından,
Bir ağrı qalxardı sanki başımdan.
Ağıl sərhəddini keçərək şeytan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəyaltək beynimdə dolanan zaman,
Qəzəb Tuğan şaha tərəf çəkərdi,
Tamah Təkin şaha tərəf çəkərdi*.
Biri deyərdi: "Gəl, mərd adamların,
Yanında böyükdür sənin vüqarın".
O biri deyərdi: "Namusu, arı,
Atıb da, tərif ət hökmdarları".
Mənsə bu döşəmə üstə oturdum,
Nə irəli getdim, nə geri durdum.
Lakin, möhtac qalıb çörəyə bəzən,
Öpdüm hər alçağın süfrəsini mən.
Gah zəngin məclisdə çox utanmışam,
Qızıltek torpaqda ayaqlanmışam.
Gah azca şad oldum... Düşdüm belaya,
Maraltək yem oldum bir əjdahaya.
Bədnamlar əlində səhərlər bəzən,
Alıb, qaytarıldım bir cam kimi mən.
Şadlıq məclisinin bir adəti var:
Camı dolu alıb, boş qaytararlar.
Mənim könül camım sınmamış hələ,
Heyif, çox gəzəcək o, əldən-ələ.
Sən cami-Cemşidsən, bu halət nədir?
Adi bir cam olmaq ar deyilmidir?
Daldım təfəkkürə yenə bir gecə,
Xəyalət yurdunu gəzirkən təkcə,
Ağlım qulağımdan yapışdı birdən,
Vəhdət aləminə qaldırdı yerdən.
Mən ağır, o isə cəld iş görəndi,
Mən bir kor, o mənə yol göstərəndi.
Bir əlimlə tutdum ağlın yaxasın,
O biri əlimlə şərin əsasın.
Onların köməyi çox oldu, əlbət,
Doğru yola düşdüm gəlib, nəhayət.
Nazik mil çəkildi gözümə bu an,
Gözümdən qara su çəkildi haman.
Yeddi qat gözümdə tez işıqlandı,
Doqquz qat elə bil alışdı, yandı*.
Gözümü dünyaya açarkən səhər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Al-əlvan don geymiş, gördüm, üfüqlər.
Bir səhər nəfəsi, bir aşiq ahı,
Duydum seyr edəndə gülən sabahı.
Gördüm bir ağ çadır qalxdı göylərə,
Onun al ipləri sallandı yerə.
Bir qızartı tutdu göyləri bütün,
Ay da üzüyünə bənzədi sübhün.
Füsunkar bir lövhə yaratdı səhər,
Bürüdü ətrafı müxtəlif səslər.
Açılan səhəri - bu ülviyyəti,
Görəndə dərk etdim əbədiyyəti.
Adəm qırx səhərdə görmüşsə nələr*,
Gördüm hamısını mən həmən səhər.

* * *

Səhərin bayrağı yüksələn zaman,
Birdən daxil oldu Xızır qapundan.
Boynunda var idi onun həmayil,
Yox, dörd kitab idi, həmayil deyil*.
Müqəddəs bir xəyal gəzdi başımda,
Fəzilət heykəli durdu qarşımda...
Onun bir əlində əsa oynardı,
O biri əlində bir kuzə vardı.
Əlində tünd yaşıl bir çəliyi var,
Kuzəsi dirilik suyuyla dolar.
Doğruluq yolunda yola düşüb o,
Neçə bəlalardan tez ötüşüb o,
Ətri Çin ətritək könul açandı,
Ağılda, kamalda kamil insandı.
O, elm aləmində, bilin, təkdi, tək,
Bilikdə dolmuşdu o, hind qozutək.
Gözəl xasiyyəti, hər şirin sözü,
Dadlı meyvədən də şirindi, düzü.
Qəlbim uçulurdu əzab çəkərək,
Xəzinə üstünə çökmüş divartək,
O məni tamahkar gördüyü zaman,
Bunu bir uşaqlıq sandı, çox güman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tamahı qəlbimdən çıxarıb atdı,
Sanki gül yanından tikan çıxartdı.
Sikkəni götürdü pulun üzündən,
Gördüm o saf, təmiz gümüşünü mən.
Təzimlə diz çökdüm o böyük dağa,
Onun qarşısında düşdüm torpağa.
Məni görən kimi üzü qönçətək,
Açıldı, hörmətlə dönüb, gülərək,
Söhbətə başladı; yarım hilalı,
Açılar-açılmaz, mən oldum hali*,
O yarım hilalı şölələnərkən,
Bir Günəş doğurdu hər bir sözündən.
Günəşi andıran parlaq sədəflə,
Otuz iki ulduz parladı səflə*.
Mehriban oturdu o, gövhər kimi –
Söz açdı, görüşə gələnlər kimi,
O gördü bir çöpə dönmüş bədənim,
Qəlbim yaralıdır, yorğundur mənim.
Dərdimi, qəmimi kökündən ovdu,
Onlan canımdan uzağa qovdu.
Sözləri gülabtək, hind kafurutək,
Başıma, üzümə səpələnərək,
O gülab, o kafur, keçmədi bir an,
Bütün ağrıları aldı canımdan.
Bu hörmətə əvəz, düşündüm, ancaq,
Mən ona nə verim töhfə olaraq?
Dilləndi qeybdən ağlımın səsi:
"Xızrın odlu sözü, isti nəfəsi,
Şəfa verdi, dərhal sən gəldin cana,
Xacənin üzüyü layiqdir ona".
Deyərkən, üzüyü gətirdim həmən,
Öpüb, qarşısına qoydum onun mən.
Qiymətli peşkəşi süzüb diqqətlə,
Ona heyran qalıb, dedi heyrətlə: -
"Cəmin bu möcüzü sənin əlinə,
Haradan keçmişdir, agah etsənə!
Dedim ki: "İraqa yolum düşərkən,
Böyük xacə ilə tanış oldum mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doğru yol göstərdi, ülfət bağladı,
Bu üzüyü mənə o, bağışladı".
Xızr da səxavət əlini açdı,
Göstərdiyi üzük şölələr saçdı...
Onu üzüyünün qoydu üstünə,
Birlikdə özümə qaytardı yenə.
Dedi: "Sağ əlinə tax bunu, ancaq,
O birini isə sol əlinə tax!
İnan ki, qonıyar səni hər zaman,
Bunun biri sağdan, digəri soldan!"
Ona çox təşəkkür edib, dedim mən:
"Azmış yolçulara düz yol göstərən,
Hikmət dünyasına sən bir açarsan,
İsmət dünyasına xəzinədarsan.
Nicat verir nurun gündə min kərə,
Qaranlıq yollara düşən kəslərə.
Uca Qaf dağını məskən etmişkən,
Bu alçaq yerlərə necə endin sən?
Səbəb nə olmuş ki, min bir zəhmətlə,
Məni yoxlamağa gəlmişsən belə?
" Xızr cavab verib, dedi: "Mən dünən,
Sərin yaylaqlarda yalnız gəzərkən,
Dağlar arasında yurd salmış olan,
Bir tayfa gördüm - çox fazil, mehriban.
Keçdi məclisimiz, şirin, səmimi,
O tayfanın əhli sənin tük kimi,
Çox incə, çox zərif şerlərindən,
Ləzzət alırdılar, gördüm onu mən.
Şeri həyəcanla oxuyub onlar,
Böyük maraq ilə soruşurdular: -
Görən, haralıdır bu söz ustadı?
Necədir elində şöhrəti, adı?
Dedim: - Şirvanlıdır, şanı hər yana,
Yayılmış, Xaqani deyirler ona!
Sözün sərrafıdır, bir dahidir o,
Biliyin, atəşin məddahıdır o.
Mən sənin haqqında çox dedim...
Qərəz, Ağıllı adamlar dedilər ki, bəs,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə məharətli, dərin alimi,
Bunca alçaq tutmaq eyib deyilmi?
Belə bir ustadın, o kor xəbislər,
Qədrü-qiymətini bilərmi məgər?
Mənə üz tutaraq, dedilər belə:
- Ey Xızr, get, ona nəsihət elə!
Yar ol sənətkara ömrü uzunu,
Xətadan, beladan hifz elə onu.
Onların səmimi ilticasına,
Biganə qalmadım, gəldim yanına!
İndi sözlərimi yaxşı dinlə, həm,
Xatirində saxla bunları möhkəm.
Hər sözüm qızıldır, gövhərdir, sən də,
Bunları, gəl, hifz et can xəzinəndə.
Qızıldan aləmə pay vermək üçün,
Xəzinəmdən bollu pay götür bu gün.
Qulağında yaxşı saxla sən bunu,
Gəl, topla başına indi huşunu!
Hər sözümdür mənim min gövhər-kanı,
Gəl, topla, onunla sevindir canı!
Eyb etməz, sən bu gün-şabaş yığan ol,
Bu şabaşı sabah səp yola bol-bol!
Hər yerdə gözəllər sənə yar olar,
Bu cür şabaşından pay alar onlar.
Qoru hurilərin ismətini sən,
Əyri adamlardan, yolkəsənlərdən.
Sən sözün qədrini bilməyəndən qaç,
Gəlinin üzünü sevənlərə aç!
Mühüm nəsihətim budur ki, zaman,
Sənin pusqundadır, unutma bir an.
Fikir ver, daha bir nəsihətim var:
Etibarsız olur bal rəngli rüzgar,
Durma kölgəsində ikirənglinin*,
Olma heç fələyin felinə əmin,
Baxma nə rənginə, nə də iyinə,
Axşamın, səhərin gözəlliyinə.
Kişinin bəzəyi silahdır, inan,
Arvadın bəzəyi ənliklə kirşan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanın ömrünü bilənlər kimdir?
Onun dövrü qədim, sirri qədimdir.
Adəm yeddi min il yaşadı əgər,
Sən onu hesab et bircə gün qədər".
Belə nəsihətlər verdikcə mənə,
Döndü rəngim sarı qızılı rənginə.
Narıncı bir niqab örtdü üzümü,
Yenidən toxtatdım bir az özümü.
Fürsəti qənimət bilib, bu zaman.
Utana-utana soruşdum ondan: "
Ey mələk sifətli, mənə söylə bir,
Deyirsən bu dünya min bir rənglidir.
Dünya həm ucadır, həm də ki, alçaq,
Bu dünya nə zaman, de, məhv olacaq?
De, yazıq insanlar nə zamanadək,
Ümidlə, qorxuyla ömür sürəcək?
Bu odlu körpüdən keçmək olarmı?
Yoxsa ki, odlarda yanacaq hamı?
Ağıl, huş ki uçur: "Nur alım" deyə,
Yol tapa bilərmi yeddi tağ göyə?
Beş hiss, altı cəhət tilsim torundan,
Qurtarmaq mümkünmü bizlərə bir an?
Başımız üstündə bu yüksək çətir
- Gömgöy, əyri tağlı bu səhnə nədir?
Bu çevrə nə zaman, de, qərar tapar?
Bu nöqtə nə cürə yerindən qopar?
Necədir o yanı xətt-üstüvanın?
Kimdir sakinləri bəs o dünyanın?
Qəribə olmazmı xətt-üstüvadan?
Bizə tərəf olan yerdə yaşayan,
Canlılar, sonradan bir zaman əgər,
O biri tərəfi məskən etsələr?
Dörd ana, doğrudan, qəribədir bu:
Nə üçün, görəsən, üç inci doğdu?
Hər zaman sürətlə dövr edən aləm,
Nə üçün gah bərkdir, gah boşdur,
Bilməm Dalbadal suallar verdim mən ona,
Suallar gəlmədi əsla xoşuna,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi: "Mən görürəm, səni nə qədər
Yoldan çıxarmışdır kor Əhrimənlər.
Arifə xas deyil heç bu suallar,
Bunların məğzində müxalifət var.
Belə suallardan yağır ətalət,
İxtilaf düz yolda törədər afət.
Bu sayaq zərərli sözlərdən, inan,
Bidətlər əmələ gəlir hər zaman.
Əvvəl din barədə söhbət açıb sən,
Sonra can qədimdir dindən deyirsən.
De, nə vaxta qədər sən yorulmadan,
Çürük fəlsəfədən dəm vuracaqsan?
Əslinə baxanda "fəlsəfə" sözü,
Lap "səfeh" sözünə bənzəyir, düzü.
Ayrı bir mənası olmamış dərin,
"Quran"ın, danılmaz bu hədislərin.
Önündə, məlum ki, anlayır hər kəs,
Yunan fəlsəfəsi bir çöpə dəyməz.
Vaz keç bu hədisdən, heç bənd olma, sən!
Bir fülus yaxşıdır min fəlsəfədən.
Canını, gəl, dinə sən tapşır ancaq,
Səni şübhələrdən o qurtaracaq.
"Quran" xəzinədir, şair, gərək sən,
Hər sözü alasan bu xəzinədən.
"Quran"a inandı Məhəmməd, Osman,
Özlərini ona etdilər qurban.
"Quran"ı bəzədi Osmanın qanı*,
Din yolunda şəhid etdi o canı.
Şəriətdən kənar elm yoxdur, bil,
Varsa qara xaldır, heç bilik deyil.
Qara xalı üzə heç çıxarma sən,
Gizlət ağ xal kimi iman əhlindən.
Sən uçmaq istəsən Turi-Sinayə,
Heç zaman meyl etmə Puri-Sinayə*.
Gecikmə bir an da, qəlbini həmən,
bağla kəlamına Məhəmmədin sən.
Gəl, ey Puri-Əli, üz tut Allaha,
Gəl, Əbu-Əlidən az danış daha*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözün doğru yolu seçirkən, hələ,
Nə üçün yolundan sapırsan belə?
Dini ayağının altından hər kim,
Çəkərsə, tez onu siz dara çəkin!
Kəbəyə üz çevir, boş şeydən əl çək!
Altı üzlü olma sən nərd zəritək.
Köhnə xərabatda hər yeniyetmə,
Min zarafat etsə, dalınca getmə!
Hər boşboğazlığa inanma barı,
Mövhumdur onların danışıqları.
Bir məna kəsb elə, məzmunsuz qalma,
Hübab günbəzitək içi boş olma!
İkiüzlü olma, başsız, bədənsiz,
Dəf kimi, içiboş, üzü tər-təmiz.
Şirin busə kimi bir an xoş gələn,
Bəhrəsiz işlərlə məşğul olma sən.
Gəl, dinə arxalan, unutma dini,
Böyük sanma yunan Üqlidisini*.
Dərs olmasın ucuz sözləri sənə,
Aldanma mənasız şəkillərinə.
Sən bülbulə tapşır çox dil tökməyi,
Hörümçəyə tapşır şəkil çəkməyi.
Görmürsən, həndəsə bilən hörümçək,
Daima haramla dolansın gərək.
Soruş dindarların etiqadını,
Qədim insanların əhvalatını.
Şəriət başçısı gedən yolla get!
Yoldan çıxanlara daim nifrət et!
Böyüklər pul kəsər, lakin nə çıxar,
Saxsıdan qayırsa pulu uşaqlar.
Sən din gəmisinə minsən üzərsən,
Yeddi cəzirəni tamam gəzərsən.
Torpaq aləmindən, gəl, vaz keç bu gün,
Qoy torpaq başına torpaq tökülsün...
Dünyanı əzəli sayan varsa, bil,
O, belə, hikmətdən xəbərdar deyil.
Piləqurdu kimi bu din bağında,
Açılmaz qanadın yaman çağında.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çünki ipəkqurdu qanadı ilə,
Göylərə yüksələn olmamış hələ...
Sənin tamah oxun al qana batmış,
Nəmrudtək səni də dünya aldatmış*.
Bu solğun üzlüyə qapılma bir an,
Bu qoca kaftarı tez qaç yanından*.
Sus, elə ki, gördün qışdır zamana,
Bülbültək, arıtək çəkil bir yana.
Bülbül, bal arısı gəzsə də əgər,
Dağlarda qış vaxtı nə tapa bilər?
Sinəni mətbəx et, öz oduna yan!
Öz ciyər qanını özün iç, dolan!
Öz ciyər odunla canını odla!
Yandır şəhvətini sən həmin odla.
Sən belə bir işıq yandırsan əgər,
Günəş, işığından xəcalət çəkər.
Qızınmaq istəsə günəş - bir zaman,
Gələr pay almağa sənin odundan.
Çalış, dörd qapını möhkəmcə bağla,
Başda üç mərkəzi nizamda saxla.
Hələlik başqa çür heç mümkün deyil"
Toxum səp sədaqət yerinə hər il.
Zülmün qara qışı tez ötüb keçər,
Murad çeşməsindən ruhun su içər.
Xoş bahar fəslinə gedib çatarsan,
Ömür gülüstanın gülər o zaman...
Dünya dairəsi əyridir bir az,
Əyridən heç düzlük gözləmək olmaz.
Başına əhli-din papağı qoysan,
Papaq istəməzsən xaqandan, şahdan.
Papaqsız qalsan da dərd çəkmə, yenə,
Papaqsızlıq özü papaqdır sənə.
Papaqsız qalanın hər şeyi vardır,
Hər iki dünyaya o hökmdardır.
Başında şan-şövkət papağı olan,
Qoy fəxr eyləməsin onunla bir an!
Şöhrət papağına yoxdur etibar,
Onu itirənlər olur zəlil, xar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

De, nə vaxta qədər başqasının sən,
Gedib qapısında baş əyəcəksən?
Gözlə öz nəfsini, öz izzətini,
Tapdaq etməsinlər heysiyyətini.
Torpaqdan yaranıb, xatırla hər an,
Bil ki, xəlifəyə, dinə bağlısan.
Atəşpərəstə de, sən nə vaxtadək,
Salam verəcəksən təzim edərək?
Peyğəmbər yerində oturub onlar,
Sonra peyğəmbəri edirlər inkar.
Xeyir iş oldumu, pozurlar müdam,
Yetimin payını yeyirlər tamam.
Hərənin Dəccaltək bircə gözü var*,
İlan kimi ikidillidir onlar.
Baxırsan hər biri qanadlı quşdur,
Lakin quş olsa da, çirkin bayquşdur.
Ey ağlının Tuğan şahı olan kəs,
Özgə çörəyinə göstərmə həvəs!
Getdi o dövranlar, getdi o dəmlər
Ki, Cəmşid şah idi, div isə nökər.
Nə işlər törədir, yaxşı bax, cahan,
Cəmşid qul olmuşdur, divsə hökmran,
Hər kim alçaqlara eyləsə xidmət,
Cəhənnəm odudur, bil, ona qismət.
Tamahın dalınca gedərsə hər kəs,
Xalqın hörmətini qazana bilməz.
Hər zaman dəyişir hökmü dövranın,
Dünya tuluğudur su paylayanın,
Quruyub yapışar boş qalsa əgər,
Doldumu, şişərək partlamaq istər.
Bəlkə ruzi tapdım deyə bir qarın,
Sən nə vaxta qədər bu alçaqların,
Bərəkətsiz olan süfrələrindən,
Çörək qırıntısı döşürəcəksən?
Gedib hər qapıda olmasan köpək,
Fikrin əyri olmaz it quyruğu tək,
İş adamı deyil naəhl olanlar,
Onlarda çox çirkin it xisləti var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köpək xasiyyətli olduqlarından,
Daşqalaq olunur onlar hər zaman,
İtin boyunbağı, zenciri, inan,
Üstündür onların gövhər tacından.
Bu allahsızların qulluğundan qaç!
Haqqın qapısını ehtiramla aç!
Şer dolu qapıdan uzaqlaş daha,
Xaqani, get sığın o bir Allaha!".

ŞAHIN LƏŞKƏRGAHINI TƏRİF

Sonra da aləmin pənahı olan,
Şah ləşkərgahına gedib çatarsan.
Göylərə baş vurur onun dərbarı,
Buraya baş əymiş İran şahları.
Bura din mülkünə verməkdə rəvac,
Qoyar çox şahların başlarına tac.
Məhəmməd Mahmudun möhrüylə yeksər,
Damğalı qul oldu bütün ölkələr*.
Yazılmış tacının şah gövhərinə:
"Şənin artıq olsun dünyada yenə".
Qazılmış taxtının ağacına da:
"Taleyin əbədi olsun dünyada".
Ayın səfhəsinə yazmışdır hətta,
Qəzanın qələmi Müqtəfibillah.
O, hindi qılıncla əcəm yurdunu,
Düz yola gətirmiş, yaxşı bil bunu.

HƏMƏDANIN TƏRİFİ

Çatarkən sən şahın ləşkərgahına,
Oradan yol tutub, get Həmədana!
Gözünlə yolları ölçüb bir anlıq,
Söylə ki, bu yerdir əmin-amanlıq.
Kəbə tək qiymət ver onun bağına,
Bənzət Buqubeysi Əlvənd dağına*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun dağı, daşı cəvahiratdır,
O, Yerə sütundur, bir istinaddır.
Yuksələn qəlbini ülkər fəth edir,
Göyləri aşaraq hələ yol gedir.
Onun ətəyinə Simurğ düşərək,
Orada bir çox quş gördü özü tək.
Hər biri yüz illik məsafə tutmuş,
Sanki bir Qaf dağı tutmuşdur hər qış.
Həmədan çox yüksək, ali məvadır,
Əlvəndi-Simurğə yurddur, yuvadır.
Dünya arxasıdır, bil, Həmədanın,
Bu yersiz qüdrəti yoxdur dünyanın.
Səkkiz sərhəd ilə bağlı hər yanı,
Onu becərmişdir göylər bağbanı.
Cənnətdən artıqdır onun neməti,
Onun öküzündə var göy qüvvəti.
Bal kimi şirindir burada sular.
Yelində zəfəran ətri duyular.
Onun mətbəxinə girirək, Xızır
Edir nemətindən halvalar hazır.
Bir az tamaşa et ulduzlara;
gel! Sanki yer üzündə gəzdirir məşəl.
Torpağı qızıldır, yaqutdur qat-qat,
Havası ürəyə bəxş edir həyat.
Əkərsə kəndlisi bu yerdə qanqal,
Zəfəran bitirər torpağı dərhal.
Göylərdən buraya axır durmadan,
Sonsuz nemətilə min-min karivan.
Bir beşik olsa da canlara İraq,
Həmədan gözəl bir gəlindir ancaq.
Din bağı olsa da İraq diyan,
Hemədan olmuşdur məna baharı.
Həmədan şəhrində saldınsa məskən,
Bu şəhər qoynunda qaldınsa, həmən.
Taleyin daima üzünə gülər,
Sənə bayram olar hər axşam, səhər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAĞDADIN TƏRİFİ

Fazillər şəhəri, gözəldir Bağdad,
Oradan görünür, sanki kainat.
Bir dost camalı tək ruh verir cana,
Orada çatarsan hər bir arzuna.
Zövq verir o, vüsal gecələri tək,
Ünsiyyət məkanı bu yerdir gerçək...
Gözəl xətti olan əziz katiblər,
Yazırmışlar: "Görməli yerdir bu şəhər".
Kəramət lövhündə yazarkən Bağdad,
Onu qeyd edərlər aydın: bağı-dad*.
Həqiqət üzümü dərilir bağdan,
Xoşbəxtdir burada yaşayan insan.
Buranı bir cənnət zənn etmiş Adəm,
Gedərkən tapşırmış mələklərə həm.
Dəclə ona görə axır buradan,
Ki, çayda mələklər yuyunsun hər an.

BAĞDADIN ABÜ-HAVASI HAQQINDA

Bağdadın eşqilə qoca dünyada.
Əziz ömrümüzü vermişik bada.
Dirilik suyudur suyu, müxtəsər,
İçənə əbədi həyat bəxş edər.
İsa nəfəsidir onun nəsimi,
Ölünü dirildər toxunan kimi.
Burada fəzilət əhli, müttəsil,
Məşğuldur elmlə, hünər ilə, bil!
Onların hər sözü min məna saçar,
Hər lövhi bir anda min məktəb açar.
Hər məktəb səkkiz bağ kimidir, bişəkk,
Hər biri beyinin üç hücrəsi tək:
Hafızə, düşüncə və xəyal, əslən,
Doğmuşdur, yəqin bil, bu üç hücrədən.
Onların ədalət məhkəməsində,
Olmuşdur bu dünya bir kiçik bəndə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DƏCLƏ ÇAYININ TƏRİFİ

Dəclənin məcrası fələklərədir,
Fələklər də Kərxi mehrab zənn edir.
Kərxin bir qütbüdür yeddinci fələk,
Dərya qətrəsidir Dəclənin, demək.
Dəclədə yuyunur ulduzlar, ancaq,
Bununçun olmuşdur üzləri parlaq.
Gah gümüş düzəldir suları, inan,
Gah şüşə yaranır hübablarından.
Suları gülabdır sanki, çağlayar,
Onunla yox olur başdan ağrılar.
Suları onunçun yaradır hübab?
Ki, dolsun hübabdan şüşəyə gülab.
Ey rəssam, ruhları görmək istəsən,
Seyrə dal Dəclənin cəmalını sən!
Nə qədər küləklə köpük oynaşdır,
O üzük-üzükdür, həm də daş-qaşdır.
Yeriyər İsa tək o sərbəst, azad,
Rahib tək zəncirə düşüb, çəkər dad.
Üstündən əsdikcə yel, suyu burur,
Gah yarpaq yaradır, gah düyün vurur.
Külək mühəndislik edib əməldə,
Həndəsə düzəldir gümüş cədvəldə.
Gümüş bir mühəndis olmasaydı gər,
Üçlidis şəkili olardı məgər?
Dəcləyə baş əyir dünyada çaylar,
Gəlindən ahəstə hərəkəti var.
Nazlı bir bəzəkçi əli xoş gündə?
Min naxış yaratmış onun üzündə
İstidən dad çəkib yanan ürəklər,
Dəclənin suyundan təskinlik dilər.
Kövsərə bərabər bu çay dərindir,
Suyu çox içməli, təmiz, sərindir.
Dəclə bir axıcı, zəngin sərvətdir,
Onun sayəsində Bağdad cənnətdir.
Yerlər xəlifəsi, bax, budur Bağdad,
Çünki xəlifələr yurdudur Bağdad

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hurilər səfini keçib, yetərsən
İsanın o yüksək məqamına sən.
Bunlar bir zahiri surətsə, ancaq,
Mənalar aləmi təkcə odur, bax!
Bunlar bir piyadə, o isə şahdır,
O bütün aləmə istinadgahdır.
Görüncə bu böyük şəni, calah,
Gözünə görünər hüsnü, camalı.
Qorxuram hüzura gələn zaman sən,
Yanasan üzünün hərarətindən.
Ona atmış olsan bir addım əgər,
Ulduz tək o Günəş sənə nur verər.
O da Cəmşid kimi ədalətlidir,
O da Günəş kimi hərarətlidir.
Üzüyü minlərcə Cəmşidə əşdir,
Onun hər barmağı nurlu günəşdir.
Onun kandarını öpər mələklər,
Onun qapısında quldur fələklər.
Qoyar əmmaməsi tac üstünə tac,
O alar həm yerdən, həm göydən xərac.
Çiynində şanlı bir əbası vardır,
Qulaqda ənbiya nidası vardır.
Alnı çox açıqdır, sözü ləzizdir,
Atının nalı da pakdır, təmizdir.
O qədər öpülmüş torpağı, bir bax,
Gövhərə dönmüşdür önündə torpaq.
Sultanlıq axtaran böyük adamlar
Onun kandarından gəlib pay alar,
Nəqş olub yerində şahların üzü,
Torpağı muzeyə bənzəyir, düzü,
Önündə torpaqdır bütün sultanlar,
Fəxr edir torpağı öpməklə onlar.
Adı vurulmasa bir pula, inan,
Çıxmaz dinlə bağlı zərrabxanadan,
Qızıl daşımasa adını əgər,
Onun qızıllğı bəs nəyə dəyər?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adını daşıyan qızılsa, bişəkk
Müştəri alnına olar bir bəzək...
Möhrüylə qaranlıq gecələr aşkar
Səpilər fələyə hesabsız dinar,
Diqqət et göyə sən, ulduzlara bax,
Xəlifə puludur bu qədər parlaq.
Hərfləri düzərkən allahın özü,
Yazmış hər birinə Müqtəfi sözü*.
Xaqani ilhamı açıb şəhpəri,
İstədi mədh etsin Əbbasiləri,
Onlara duaçı bir quşdur, lakin,
Şərvan qəfəsində olmuşdur sakin.
Bir gün xilas etsə onu asiman,
Uçaraq Bağdadda qurar aşiyan.

KUFƏNİN TƏRİFİ

Bağdaddan sonra da sən Kufəyə get,
Kufəni səadət torpağı zənn et,
Kufəyə girirkən əvvəlcə, şəksiz,
Dörd arx görəcəksən orada təmiz.
Kufəli düşünsə ədalət, şərəf,
Hörmətlə baxacaq Bağdada tərəf.
Bir şəhər görərsən, fazil adamlar,
Kamalla, lütf ilə orada yaşar.
Kufənin genişdir xeyli sahəsi,
Qurtarmaz buranı gəzsə də Məsih.
Yatıb Hud peyğəmbər burada rahət,
Nuh da bu şəhərdə etmiş iqamət.
Su, atəş içindən bu yer yüksəlir,
Məşriqə, Məğribə gözəllik verir.

KARVAN SƏSİNİN TƏRİFİ

Bir sal dəniz rəngli Bəthayə nəzər,
Gəmi tək gör necə gedir dəvələr.
Kim görmüş dənizi belə daş kimi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim görüb quruda yerisin gəmi?
Gör necə qatarla gedir karivan,
Səmada Ay gəzir sanki durmadan.
Qulaq ver aramsız vuran zənglərə,
Yol boyu susmayan bu alışlara.
Ruh açır səhərin ilıq nəfəsi,
Quş dili oxuyur zənglərin səsi.
Bu səslər insanı gətirir cana,
Sonsuz ləzzət verir yolda insana.
"Fələk süfrəsinə "buyur gəl" demək,
Rizvandan mərhəba, əhsən eşitmək.
Mizmarda çalınan Zəbur nəğməsi,
Minarədən gələn xoş azan səsi,
Xanəndə oxuyan həzin bir hava,
Müsəlla vaxtında edilən dua,
Yarın ləblərində uçan gülüşlər,
Gecələr alınan dadlı öpüşlər.
"Çox yaşa" deyərək gülən həriflər,
"Sabahın xeyr olsun" deyən zəriflər,
Aşiqin öskürüb yar çağırması,
Dostun zarafatla tək asqırması,
Canım təştə dəyib verdiyi səs də,
Kasa cingiltisi böyük məclisdə,
Hicran gecəsində xoruzun banı,
Səhər açılarkən sevda dastanı,
- Bunların hamısı əla, gözəldir,
Lakin karvan səsi daha gözəldir.
Dəvənin zəngində ilahi səs var,
O deyir: "Gəl, haqqı bu səsdə axtar".
Ay onun ən kiçik saribanıdır,
Utarid çox köhnə pasibanıdır,
İpəkdən almışdır incəlik, düzü,
Cilovun toxumuş Zöhrə ulduzu,
Deyər qəlbdən gələn odlu bir nəfəs:
Ey Məkkə vadisi, ey ilahi səs!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏKKƏNİN TƏRİF

Oradan Məkkəyə gedərsən, əlbət,
Görərsən orada fəzlü-kəramət.
Bu yer qoruyacaq səni hər zaman
Can alan istidən və quraqlıqdan.
Əgər Məkkə olsa yurdun, məskənin,
Canın hər bəladan qurtarar sənin.
O iki sətrilə hər sirri açar,
Allahın adıyla yanaşı durar.
Bu adda saxlanır həqiqət tamam,
Bunu dərk eyləyər həm xas, həm əvam.
Qəlbi pak ustadlar düşməzlər şəkkə,
Əvvəl Allah deyər, sonra da Məkkə.
Kölgəsin salmışdır bu yerə Allah,
Onunçün Məkkəyə gəlməz bir bəla.
Məkkə Kəbə ilə, bil, sərəfrazdır,
Bununçün sahəsi toxunulmazdır.
Məkkə fələk isə şan-şərafətdə,
Kəbə də qütbdür hər ləyaqətdə.
Kəbə yer tutmuşdur Məkkədə, sanki
Cəzirə dənizdə olmuşdur sakin,
Bura üns evidir, haqq dərgahıdır,
Bura məzlumların pənahgahıdı
Burada bir inci tapmaqçün fələk
Başını aşagı tikmiş dalgıtək.
Ətraş mələklərə bu yer su verər
Sagaldar hər dərdi ,mərəzi yeksər.
Məkkədir su verən cənnət hovzuna,
Göylərin qapısı açıqdır ona.
Uşaq oyuncaqla sevinib oynar.
Canını qurban ver ona,sən də get,
Sidq ilə başına dolan, dua et!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QARA DAŞIN TƏRİFİ

Bilal tək dayanan qara daşa bax,
Zahiri qarasa, batini parlaq.
O, bir daş deyildir, qızıl misaldır,
Kəbənin üzündə o, qara xaldır.
O qara içində bir nur var gerçək,
Zülmətdə saxlanan abi-həyat tək.
Ya zülfün içində bir günəş üzdür,
Ya da ki, bəbəyi qara bir gözdür.
Hərfləri içində "Quran" sirri var,
Ya zülmət gecədə yağır bəyaz qar.
O, bakir və qoça hindli - qara daş,
Sirrini heç kəsə eyləməyir faş.
Xalq onun sirrinə vaqif olmadan,
Aquşa alaraq öpür hər zaman.
Vardır üç qardaşı onun yenə də:
İraq ölkəsində, Şamda, Yəməndə.
Anadan olarkən dörd qarındaşı,
Hər dördü xidmətdə durdu yanaşı.

ZƏMZƏM QUYUSUNUN TƏRİFİ

Gəzərkən Zəmzəmə düşəcək gözün,
Hörmətlə bir yerə dönəcək üzün.
Bu Yer kürəsində müqəddəs nə var,
Bu ülvi çeşmənin üstündə durar.
Mağara iti tək abi-kövsər də,
Susuzluq çəkərək düşəndə dərdə,
Zəmzəm quyusuna gətirər aman,
Buradan dərdinə axtarar dərman.
Su çəkən zamanda iplər gərilmiş,
Quyunun ağzını eyləmiş diş-diş.
Bir "mim"dən elə bil bir "sin" qurmuşdur,
Ya da bir "əlif'dir, halqa vurmuşdur*.
Aləmə ruh verən bu tək quyudur,
Cana qüvvət verən onun suyudur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yorulmaz burada su çəkən insan,
İp qırıq olarsa, dol olsa şan-şan,
Əl atıb fələyin doluna dərhal,
Ayın şuasıyla bu quyuya sal!*

QIZIL NOVDANIN TƏRİFİ

Ürəyi odlanan susuzlarla sən,
O qızıl novdanın yanına gəlsən,
Görərsən dəryalar bütün cuş edir,
Gəlib bu novdandan tökülüb gedir.
Xəzər təhlükəsi, xətəri, inan,
Qorxar bu novanın damcılarından
Suya bir ehtiyac duyarkən fələk,
Bu qızıl novdandan diləyər kömək.

KƏBƏYƏ

Xaqani bu alçaq, çirkin məkandan,
Ey könül Kəbəsi, sənə atır can.
O da çoxdan çəkir iştiyaqını,
Ki, sənin müqəddəs, pak torpağını,
Narınca döndərsin busəylə, gərək.
Axıtsın göz yaşı nar danəsi tək.
Dərgahda beş dəfə, hər səhər-axşam,
Gahi "dal", gah "elif', gah da olsun "lam"*.
Nəğmə oxuyarkən quşlar hər səhər,
Onun könül quşu tək səni istər.
Onun da duası budur hər zaman:
Ey Allahın evi, abad olasan!
Nə qədər bağlıdır sənə muradı,
Qulunun quludur onun da adı.
"Qulunun qulu" - bil nə deməkdir bu?
Yəni qara daşın olmuşam qulu.
Haqdan halqa almış onun qulağı,
Xaqani üzünə vurmuş bu dağı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bənövşə, lalə tək yerə bağlıdır,
Qulağı halqalı, qəlbi dağlıdır.
Nə qədər səndədir bəşərin gözü,
Sənə sadiq quldur Xaqani özü.
Sayəndə əcəmi dildə danışan,
Bu qulun gör necə dil açmış rəvan!
Sınaqdan keçirsin deyə dilini,
Açdı dodağından Rum kilidini*.
Qəbul et yazdığı mədhini ondan,
Bu dərdli qulunu qovma qapından.
Sənin camalından almadıqca nur,
Gözləri işıqsız qalıb, kor olur.
Odur ürəyində həsrət yer almış,
Yusif tək qaranlıq zindanda qalmış.
Həsrət yaşlarıyla dolan o gözlər,
Su ilə dolu bir küpəyə bənzər.
Üzünə gül vurmuş qan damarları,
Xət-xət cızılmışdır sanki rüxsarı.
Çox əzab çəkir o kədər əlindən,
Açılmır dodağı qəmlər əlindən.
Bu il istəyirdi gəlsin yanına,
Valideyn qayğısı düşdü canına.
Gördükdə dərd çəkir ata-anası,
Boğuldu qəlbində didar havası.
Valideyn sözləri etdikdə təsir,
Sanki ayağına bağlandı zəncir.
Qəza ətəyinə böyük mıx çaldı,
Qədər də boynuna bir zəncir saldı.
Nə ayrıla bildi ata-anadan,
Nə də ki, səfərə tapdı bir imkan.
Qaldı torpaq kimi o hərəkətsiz,
Çirkablı mühitdə qaldı qüdrətsiz.
İndi göz yaşıyla yazır şerlər,
Mümkünmü o bir də eyləsin səfər?
Bünövrən saxlayır bütün dünyanı,
Sənə tərif yazır şair Xaqani.
Çox bakir mənalar düzüb qələmi,
Səpir astanana incilər kimi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hərçənd ki, görünür o biçarə tək,
Hərçənd ki, çırpmışdır dünyaya ətək.
Əvvəlcə qələmə sarılan zaman,
Adınla başladı yeni bir dastan.
Onun piyadası mədhində sənin,
Qürurlu şahları mat qoyar yəqin.
O, qəm taxtasında oynarkən şahmat,
Qoyar yüz xəzinə sahibini mat.
Bu səkkiz mənzilli xanəsində, bil,
Heç kəs dura bilməz ona müqabil.
Haqqın köməyilə bir topu edər,
Səkkiz piyadanı yerlə bərabər.
O, Öz sənətilə açarkən büsat,
Fələk ustasını mütləq edər mat.
Mahmud öz qəmini dağıtsın deyə,
Fil ilə mat verdi o, Ünsüriyə*.
Bu köhnə taxtada, indisə göz aç,
Zənn et Xaqanini birinci leylac.
Yaradır o haqqı sübut divanı,
Qasid tək göndərir badi-səbanı.
Səba bu töhfəmi sənə çatdırar,
Xaqani qalmasa, əsəri qalar.
Kömək et ona, ey kərəm dərgahı,
Axı, yetimlərin sənsən pənahı!
Yaxşı bil ki, bunlar yetimdir, aman!
Hifz eylə onu sən alovdan, sudan.
Halal doğulmuşlar anadan onlar,
Qoyma, ürəkləri dağlı qalsınlar!
Saxla öz yanında oğullarını,
Coşğun ilhamının yadigarını.

MƏDİNƏNİN TƏRİFİ

Elə ki, Kəbənin sayəsində sən,
Baxıb camalına dincəldin, həmən.
Oradan üz tutub Mədinəyə get!
Gedərək on günlük yol, ziyarət et!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun bünövrəsi səddir cahana,
Bu şəhər ruh verər hər zaman cana.
Mədinə adını yazıb oxusan,
Ortada din sözü olacaq əyan.
Müsəlman ruzusu kimi edər tox,
Gəliri az olar, bərəkəti çox.
Xurma bağlarını əkmiş Cəbrail.
Suvarmış onları hər gün İsrafil*.
Gülabda islanmış toxumları həm,
Cənnətdən gətirmiş Həzrəti-Adəm.
Günəş şüasına bənzər hər ağaç,
Bulud tək bürünüb, görünər qıyğac.
Burada yetişən xurmanı fələk,
Səma təbəqinə qoymuşdur Ay tək.

PEĞƏMBƏRİN TƏRİFİ VƏ ZƏMANƏDƏN ŞİKAYƏT

...Qüdsiyyət anası doğarkən yerdə,
Səndən artıq övlad doğmadı bir də.
Olmasın deyə bir başqa övladı,
Bətninə nütfənin yolun bağladı.
Dünyanın şərəfli tarixi sənsən,
Başlanmış o sənin vilayətindən.
Yeddi min il altı gün içrə əsla,
Belə bir xoş günü görməmiş dünya.
Sanasan bu gündə qurulmuş cahan,
Bu mavi xoş fəza, geniş asiman.
Bu qübbə sənə bir çadırdır, ancaq.
Xaqani qapında bir zərrə torpaq.
Bir insan edərək Xaqanini sən,
Qaldırdın göylərə mərdliklə yerdən.
Fanilik bəndindən xilas olaraq,
Əbədi aləmdə qurdu təmtəraq.
Sənin tərifinə dil açdı haman,
Oldu söz mülkünə böyük hökmran.
Sənət meydanında o gündən bəri,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlhamı yaradır söz gəlinləri.
Onları təbilə keydirir dona,
Odur ki, Xaqani deyirlər ona.
Onların hər biri bakir gözəldir,
Sənət pərdəsində dürri-əzəldir.
Min dərdli ürəyə verirkən qüvvət,
O, səndən gözləyir lütfü-mərhəmət.
Səninlə bitdisə əgər nübüvət,
Bitdi Xaqaniylə şer və sənət.
Qalarsa dünyada yazdığı dastan,
Sənin tərifinlə dolar bu cahan.
İdrakım gətirdi qapına məni,
Bəxt açdı üzümə bu xəzinəni.
Könlüm yaralıdır, özün al qisas,
Bu qəm dəryasından et məni xilas!
Zəmanə əlindən halım yamandır,
Dadıma sən yetiş mənim, amandır.
Əritdi günahsız qəlbimi fələk,
Ey göylərin şahı, özün ol kömək!
Zalımlar zülmündən mən çəkirəm dad,
Ey adil, sən özün et mənə imdad!
Olmuşlar məndəki hünərə düşmən,
Köməyim sən olsan xof etmərəm mən.
Verirlər qəlbimə cəfa, əziyyət,
Sən qəbul eyləsən bitər bu möhnət.
Başıma əl çəksən, mənim nə dərdim,
Zəmanə əhlindən mən əl çəkərdim.
Eyləsən lütfünlə mənə bir kömək,
Nə insan qorxudar məni, nə fələk.
Əlinə kim kavə dirəfşi alsa,
O, iki ilandan xovf etməz əsla*.
Bir müddət bir loğma çörəkçin mən də,
Dişimi sındırdım nakəs önündə.
Könlümü verdikdə sənə, nəhayət,
Dişlərim zərbədən qaldı səlamət.
Bəli, yaxşıların yaxşısı sənsən,
Sənin tərifinlə yüksəlirəm mən.
Sənin iqbalınla düzəldi işim,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət, göründü son ağıl dişim.
Töküldü tamahkar dişlərim tamam,
Nə çörək axtardım, nə dadlı təam.
Sevginlə dünyanın daşını atdım,
Yolunla qənaət mülkünə çatdım.
Səfalı bir bağda yaşardım azad,
Bu açıq alınla oldum qəlbi şad,
Həyatım bir zaman divə tuş oldu,
İyirmi iki il ömrüm puç oldu*.
Elə ki, özümü qapına saldım,
O itən ömrümü geriye aldım.
Anladım səhvimi, oldum peşiman,
Əl çəkdim o keçən duyğularımdan.
Sənin qapındadır əbədi dövlət,
Başqa qapılardan çəkmərəm minnət.
Qapından çatarkən mənim niyazım,
Başqa qapıları döymək nə lazım?!
Adam da duzlaqda duz axtararmı?
Dəryada balığı axtaran varmı?
Günəş heç Məqribdən çıxarmı səhər?
Ya da Ay Məşriqdən çıxarmı məgər?
Cənubdan bir xeyir gözləyən insan
Məhrumdur, yəqin ki, sağlam ağıldan.
Bir yer var, orada xətər mahaldır,
Süheylin yeridir o yer - şimaldır*.

* * *

Qədirbilməzlərdən çox zərbə aldım,
Lovğa adamların əlində qaldım.
Onlar heyvan qədər şüursuzdular,
Cəhalət üzündən hamı fitnəkar.
Gördüm ki, ehtiyac boğur ölkəni,
Tamahı tərk edib, mən tutdum səni.
Sığındım ədalət asitanına,
Bu düzlük yurduna, haqq məkanına.
Əl çəkdim yurdumun gözəlliyindən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəldim əzəmətli bu ölkəyə mən.
Mənə məclislərdə edildi hörmət.
Bir çox qəbilələr verdi ziyafət.
Qurtardım tamahın sərt havasından,
Nəfsin, qəhətliyin min bəlasından.
Qapına mən qaçdım olasan pənah,
Mənə bu qapıdır bir istinadgah.
Uşaq da anadan qaçsa, bu, yəqin,
Qaçar qucağına ancaq dayənin.
Mən yenə ümidlə qapına gəldim,
Torpağa üz qoyub, ruhən yüksəldim.

* * *

Sirlər yuvasından uçan bir quşam,
Səslə, qəfəsinə gəlib qonmuşam.
İsinib bu ali xislətinə mən,
Sənin qəfəsini eylədim məskən.
Hər yerə uçsam da mən birnəfəsə,
Yenə qayıdaram bu xoş qəfəsə.
Deyiləm yırtıcı, vəhşi qırğı tək,
Ki, sinə yırtaraq, çıxaram ürək.
Kəklik arxasınca qırğı tək səfil,
Gəzmərəm bir şikar arxasınca, bil!
Yaramaz sağsağan kimi də bir an,
Əncir axtarmaram hər cır ağacdan.
Yaxşıdır göyərçin balası kimi,
Anamın ağzından alım ruzimi.
Gəlməz, tuti kimi, xoşum təqliddən,
Bubbu tək sirləri axtarmaram mən.
Sar kimi olsam da, yazıq milçəklər,
İnciməz əlimdən bir zərrə qədər.
Nəğmə oxusam da şeyda bülbül tək,
Həç kəsdən ummadım bir tikə çörək.
Gözüm nakəsləri görməsin deyə,
Bayquş tək sığınnam bir xərabəyə.
Bir tavus yarandım haqqın bağında,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Simurğam mən dinin o Qaf dağında*.
Ey behişt ağası, sənin süfrəndən,
Hüma quşu kimi sümük yedim mən*.
Sənin kəramətin göstərib təsir,
O sümük mədəmdə oldu tabaşir.
Daha mən çörəkçin ağız açmaram,
Əlindən alıram qida sübhü şam.
Zahiri görüşü sevmirəm əsla,
Ürəyim axtarır batini məna.
Belə ülviyyəti sevən ürəklər,
Təbilə yaradar misilsiz gövhər.
Fəqirlik cəlalı olan hər adam,
Mənə pənir, sirkə vermədə müdam.
Təbin gücüylə bu pənir, sirkədən,
Süd ilə şərabı yaradıram mən.
Qaydadır, şərabdan sirkə alınar,
Məlumdur süddən də pənir çalınar.
Təbimsə yaradıb möcüz, inqilab,
Pənirdən süd verir, sirkədən şərab.
Kamiran adamlar kimi heç zaman,
Nə şərab içərəm, nə də qızıl qan.
Mən qardaş qanına susamadım, bil,
Beş hissim bunlara müvafiq deyil.
Babam Adəm kimi etdikdə günah,
İncir yarpağına aparram pənah.
Lakin təkəbbürlü adamla bir an,
İçmərəm atəşi üzüm suyundan.
Üzümün qızına vermişəm talaq,
Dinin gəlinilə evlənmişəm, bax.
Öyrətdi bu işi mənə şəriət,
Dönmərəm bu yoldan heç zaman, əlbət!..

* * *

Keçmişdir o günlər, çörək üzündən,
İkidilli oldum bilə-bilə mən.
İndi qılınc kimi kəskin dilim var,
Qılınc sıyrılanda kəsərli olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əvvəllər dilim bir dəmir kimiydi,
Cəlalın yağladı dəmiri, indi.
Səndəki iqbalın sayəsində bir,
Yağ seli axıdır məndəki dəmir.
Vallah, axtarsan da, yeddi iqlimdən,
Yaxşı yar düzəldən olmaz dilimdən,
Yeddi qat fələkdə o yeddi çıraq,
Nurlanır dilimdən qida alaraq.
İlhamım yalanla xarab olmuşdu,
O, civə rəngində sərab olmuşdu.
İndi hər sözümdə bir həqiqət var,
O, güzgü, məhək tək olmuşdur meyar.
Daha, məddahlıqla olmaram bədnam,
Göstərməz doğrunu əyri bu aynam.
Bir neçə naxələf oldu düşmənim,
Atəşlə doldurdu ağzımı mənim.
Ağzım xilas olsun deyə atəşdən,
Yeddi su, torpaqla yudum onu mən.
Sənin mədhin ilə, ey böyük sərvər,
Budur, ağzım səpir mirvari, gövhər.
O açıq və bağlı qapıda aşkar,
Deyil otuz iki, otuz min dürr var.
Əvvəllər şahları mədh etdiyimçün,
Dilim bulanmışdı çirkaba bütün.
Paka çıxarmaqçın natəmizlikdən,
Yuyuram ağzımı göz yaşımla mən,

* * *

And olsun, cənnətin səkkiz bağına,
Yəni cəmalının şən növrağına.
And olsun ruh verən o saf kövsərə,
Yəni o səndəki bakir sozlərə.
And olsun atəşli dərin dəryaya,
Yəni hərarətli qəlbinə, mövla!
Xaqani bir də söz yaratsa, inan,
Səndən başqasını eyləməz ünvan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başqa bir adama pərəstiş etsəm,
Onda insan deyil, bir vəhşi divəm.
Məni qəbul etsən nökərliyə sən.
Neylərəm şahları, əmirləri mən?
Zəmanə əhlindən nə umacaq olar?
Mən ki, öz kölgəmdən qorxuram aşkar.
Qəlbimdə daima danışıram mən,
Qorxuram ki, olam özümə düşmən.
Canım zümrüd kimi sovrulur yelə,
Qorxuram şahların lütfündən belə.
Şərvanın ağzından çəkirəm bəla,
Onunçun dilimi açmıram daha.
Yalın qılıncdan tökülür əcəl,
Vurmaram gicitkən yarpağına əl.
Küləkli, tufanlı dənizdəyəm mən,
Qorxuram gah yeldən, gah da gəmidən.

* * *

Mənə mənhus deyir bu Şərvan əhli,
Nə deyim, həqq sözdür, doğrudur, bəli.
Deyirlər Xaqani olsaydı sadiq,
Bizə meyl edərdi daha da artıq.
At kimi çəkərdi yüklərimizi,
Arı tək gəzərdi güllərimizi.
Xalqın söhbətindən qaçmazdı bir an,
Dönərdi Xaqani şahdan, xaqandan.
Aradı o, məzə, qırmızı şərab,
Nəğmələr söylədi ona tar, rübab.
O da əyanlara elədi xidmət,
Etmədi babalar yoluna hörmət...
Doğrudur, sevirəm dini, ayini,
Mənhusdur kim inkar edərsə dini.
Mənhus adlansa da adı Keyvanın,
Zöhrədən kəm deyil, şəni, inanın*.
Bayquşda olarsa dinə sədaqət,
Dinsiz bir xoruzdan yaxşıdır, əlbət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MOSUL VƏ ŞAMIN TƏSVİRİ

Ey vəsli, hicranı tərk edib gedən,
Babilə, Məşhədə hər dəm meyl edən.
Babilin havası və torpağından,
Hasilin qızdırma oldusa, inan.
Əlacın Şamdadır, durma, ora get,
Şamın torpağını dərdə dərman et!
Yüz min il dövr edən bu sonsuz səfər,
Sənə verdi ancaq tükənməz zərər.
Tərk et bu iki mıx, yeddi pərdəni*,
Yoxsa, dövri-fələk tərk edər səni.
Hörmətlə gəl yetiş Mosul, Şama,
Qütbdür, fələkdir bu yer islama.
Bu elə qütbdür, yox bir zərəri,
Bu elə fələkdir, yox şurü-şəri.
Bu sonsuz fələkdir iki dünyaya,
Qütb isə köməkdir iki dünyaya.
Bəsdir, sən nə qədər söylənəcəksən,
Rəngini dəyişən axşam-səhərdən?
Baş əymək başqa bir yerə haramdır,
Səhərin, axşamın cəlalı Şamdır.
Şamın üç hərfiylə hər iki aləm,
Yaranıb olmuşdur sabit və möhkəm.
Bir bax ki, başında "şin" tutmuş qərar,
Ortada "əlif'dir, sonunda "mim" var.
Zəncilər şahı tək bəzənib durar,
Ayaqda xalxalı, başda tacı var.
Əlifi ortada bir mayaq kimi,
Qaldırmış göylərə bir dayaq kimi.
Bir işıq yayılır hər səhər erkən,
Şamın "şin" tacının dəndanəsindən.
Yerin xoşbəxt oğlu müqəddəs Şamdır,
Dinin anasına bir ehtişamdır.
Şamın qulluğunda olmaqçün nökər
Göylər kəhkəşandan bağlamış kəmər.
Kəhkəşan yolunda bu doqquz fələk,
Qoymuş xonçasına Ayı danə tək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayı başaq üstə danə edərkən,
Almış oraq, sünbül Şam xirmənindən.
Doğrudur, Misir də gözəl məkandır,
Lakin Şam danədir, o bir samandır.
Cənnətdən atılan o saman ki, var,
Cismə qüvvət verməz, cana tor qurar.
Dara orağından düşüb o saman,
Orağı odludur çaxmaq daşından.
Dinin gözlərinə batdı o oraq,
Dinin gözlərindən qanlar axdı, bax.
Günəş də vuruşur misirlilərlə,
O da nizəsini almışdır ələ.
Misrin öz adında bir şikəstlik var,
Şamdan oğurlamış bir hərfi, aşkar.
Şamın ayağını qoparıb haman,
Başına qoymuşdur Misr utanmadan*.
Şamın dəftərində, bax, Misrin adı,
Pozuq bir hərf kimi heç oxunmadı.
Hər iki aləmdən Şamda nişan var,
Rəvamı Misr ilə olsun həmqatar?
Pərdəylə örtülmüş Misrin üz-gözü,
Çıxmış xatirədən büsbütün özü.
Onun surətinə duşən bu ləkə,
Yaratmış hər zaman dinə təhlükə.
Misrə nöqtə qoysan, tez müzürr olar*,
Görün, bir nöqtədə nə sirrlər var.
Şamsa mələklərə möhkəm pənahdır,
Düz yol yolçusuna bir qibləgahdır.
Buradan dərs almış nəbilər tamam,
Pak ruha şirədir, qüvvətdir bu Şam.

MOSULU TƏRİF VƏ İRAQ BAŞÇISI CƏMALƏDDİNƏ SİTAYİŞ

Şam ağıl mülkünün ağasıdır, bil,
Balası dünyalar fəth edən Mosul.
Mosul nicat verən pak bir hərəmdir,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O həyat bəxş edən bağı-İrəmdir.
Hamı bu hərəmə baş əyir müdam,
Kainat bu sədrə edir ehtiram.
Dünyaya hökm edir onun qüdrəti,
Vardır bu sədrdə mələk xisləti.
Bəlkə də səmadır onun xəyalı,
Göyün üst qatıdır onun nihalı.
Mosul bir səmayi-mülki-heyrətdir,
Sahibin tikdiyi bir imarətdir.
Mosula sən söylə üçüncü aləm,
Sahibi adlandır ikinci Adəm.
Qırx gündə düzəlmiş onun heykəli,
Ona da dəymişdir Allahın əli.
Alınmış torpağı, suyu həvəsdən,
Canlanmış o da bir qüdsi-nəfəsdən.
Cəmal da ikinci Adəmdir bu gün,
Xəlifə yaranmış dünyaya bütün.
Hər an mələklərə gəlir bu xəbər:
İkinci Adəmə səcdə etsinlər.
Mosulun torpağı dördüncü səma,
Bu göydə mövcuddur Günəş və İsa*.
Kəramət Günəşi yüksələn zaman,
Bəxtin azançısı deyir ucadan:
Ey səhər gözləyən insanlar, qalxın,
Budur, əbədiyyət sübhüne baxın!
Səhərin hüsnünə veriniz salam,
Ona səcdə qılıb edin ehtiram.
Bax, kərəm günəşi açaraq şəhpər,
Şamın məşriqindən doğur hər səhər.
Onun doğduğu yer olduqca bu Şam
Şanım səhərində doğar ehtişam.
Fələyin günəşi söz verdi dərhal, Ki,
Şamın şərqindən göstərsin camal.
Çünki Şam mülküdür namü ehsanın,
Alır rövnəqini, bil, Xorasanın.
İraqın başçısı o Şam sahibi, -
İslam ölkəsinin tamam sahibi.
Camal, bil, Cəmşidi kölgədə qoyar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəbrayıl qanadı ona sayədar.
O zərrin tacıdır tacidarların,
Şahıdır dünyada hökmdarların.
Qətidir hər hökmü, rəyi, fərmanı,
Həşmət sarayıdır onun məkanı.
Kainat ki, sonsuz böyük hicabdır,
Onun əllərindən düşən hübabdır.
Günəş ki, məşəltək göyləri gəzər,
Hümməti önündə xəyalə bənzər.
Əli möcüzələr göstərən dəmdə
Cam da heyran qalar bu sehrə, Cəm də*,
Yanşa bilərmi heç onunla Cəm?!
Bil, onun əlinə baş əyir aləm.
Cəmşidin camında görünən cahan,
Onun öz əlində görünər hər an.
Altmış ilə birə fərq qoymayan da,
Bilir ki, cam heçdir əl olmayanda.
Ağla qüvvət olar hər zamanda əl,
Cam isə ağıla törədir əngəl.
Bir ürək qanı ki, camla yaranar,
Belə ürək qanı nə işə yarar?
Zahirdə özünü şən göstərir cam,
Lakin, de, heç püxtə olarmı bir xam?
Cam özü bəladır xalqa, xilqətə,
Onunçun düşmüşdür özü illətə*.
Gərəkdir ki, səma, xurşidi-aləm,
Cəmalın əlinə qoysun cami-Cəm.
Cəmşid bir nökərdir Cəmaləddinə,
O bir iftixardır Cəmşid nəslinə.

* * *

Əgər qonaq olsan Cəmalə bir an,
İtmiş həyatını geri alarsan.
Onun sayəsindən ilham alaraq,
Sələmət yaşar od, su, hava, torpaq.
Ey günəş parçası, bir qalx yerindən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Get, yaşa Cəmalın sayəsində sən!
Ulduza nur verən Günəşdir, Cəmal,
Get, Günəş olmaqçün sən ondan dərs al!
Hazır ol, nə desə dərk eylə sən də,
Sonra da təkrar et öz hafizəndə.
Alaraq göstəriş o sərkərdədən,
Mədinə şəhrinə qoşun çəkərsən.
Əkər sən çıxmasan onun sözündən,
Məkkəni salarsan razı özündən.
Qəribə deyilmi, Məkkə də ona,
Kəbəylə birlikdə eyləyir dua.
Ona Nizamülmülk ad qoydu zaman,
Sonra dediyindən oldu peşiman*.
Ona şahın özü olarkən qulam,
Bir də yaraşarmı deyilsin Nizam?
Onun əlsuyundan, ayaq tozundan
Təcrübə etməkçin toplayıb yığsan,
Bunlardan bir Allah cahan içində
Yüz Nizam yaradar bir an içində.
Xəlil tək bütləri sındırıb atdı,
Dində açıq gözlə Kəbə yaratdı.
Bununçun dünyanı düzəldənlər, bil,
Ona ad verdilər ikinci Xəlil*.
Sarı rəng qələmi alov tək yanır,
Özü də atəşlə, bax, qidalanır.
Bədəncə misirli, dəridə Yəmən,
Paltarı Çindəndir, papağı Hinddən.
Möhtac ölukələrə ruzi payladı.
Misirli Yusif tək məşhurdur adı.
Mədəsi İsa tək, vücudu - Yəhya*.
Özüsə heç oruc tutmayır əsla.
Surəti sandır, məzacı xəstə,
Başı yaxşı durur bədəni üstə.
Qocadır, uşaq tək o zəifhaldır,
Bununçun orucu yemək halaldır.
Hicrətdən beş yüz il keçən müddətdə,
İslamı saxladın müvazinətdə.
Sənin gövhərini bu çərxi-fələk,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd gövhər başına tac qoydu, bişəkk*.
Yetimlər saxladın Simurğ kimi sən,
Dənizdə inci də çıxmaz əlindən.
Layiqdir Kəbənin xələti sənə,
Bağlıdır xilafət şölrəti səuə.
Sənin tədbirində böyük hikmət var,
Tutub Abbasilər sayəndə qərar*.
Bununçun istərlər Xəzəridən bac,
İstərlər Rum, Xəllux, hindlidən xərac,
Qeysər də keçərək Rum yollarından,
Məkkə qapısında olar pasiban.
Bu gün dünyaları fəth edən rumlu,
Olacaq qapının damğalı qulu.
Süleyman tikdirən zamanda bina
Ona əcinnələr oldular bənna*.
Sən isə imarət tikdirən zaman,
Mələklər oldular ona daşqoyan.
Günəşin oduyla birləşən kövsər
Dağlarda durmadan əhəng düzəldər,
Qafqazdan toplanmış mərməri, daşı,
Ulduzla bəzənmiş bürclərin başı.
Qiyməti üstündür belə bürclərin,
İskəndər tikdirən bürclərdən yəqin*.
Saxlanır burada gənc içində gənc,
Sən də mərkəzində bir şahi-şətrənc.
Bu şəhrə qoyarsaq ədalətlə ad,
Yəqin ki, deyərik Ədalətabad.
Ona döşəmədir bu doqquz fələk,
Odur səkkizinci asiman, demək.
Demişlər hər zaman alicənablar:
Şəhərlər bu yerlə edər iftixar.
Ey Keyvan şərəfli, Səmak cəlallı,
Ey Rizvan sifətli, behişt cəlallı*,
Vəsfində bu ağıl qalmışdır heyran,
Daha söz qalmadı mən edim bəyan.
Sözlərin qüdrəti mədhinə çatmaz,
İdrak bundan artıq məna yaratmaz.
Bu həddən yuxarı yol tapmaz xəyal,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mədhini bundan çox deməkdir məhal.
Qalan sözlərimi, şükrümü, hökmən,
Kitabın sonunda deyəcəyəm mən.

PAXILLARI MƏZƏMMƏT VƏ BÖYÜK ADAMLARI TƏRİF

Adam var ki, bilməz nədir qanacaq,
Fazil adamlara lağ edər ancaq.
Canı qızdırmalı, hərzəliyi çox,
Xalqa bədxahlıqdan başqa işi yox.
Çarx kimi daima başı hərlənir,
Üstürlab kimi o fitnə törədir*.
Çalışır məhv olsun büsbütün cahan,
Xəlbir tək boşluqdan ibarət olan.
Adamlar buğda tək düşüb qalmışlar,
Arzu quyusunun dibinə naçar.
Yel kimi sayəsiz gəldi-gedərdir,
Kölgətək cisimsiz canı hədərdir.
Qıvrımdır nanəcib dilbər saçı tək,
Hiyləgər dost kimi qurarlar kələk.
Sehirlər düzəldən bu rüşvətxorlar,
Yalanı etmişlər hər işdə şüar.
Haram mal yeməkdir bütün işləri.
Doludur zəhərlə iti dişləri.
Əbədi sönmüşdür qəlblərində şam,
Başları bu şamı söndürmüş tamam.
Şeytan asqıranda törənmiş onlar,
Məgər bu "möcüzə" şübhə edən var?!
Çünki olsaydılar Adəm nəslindən,
İsaya bənzərdi üzləri həmən.
Düşmüşlər ardına şöhrətpərəstin,
Hər qanmaz eşşəyin, murdarın, pəstin.
Olsa da zahirdə adları Buzər,
İşdə Buləhəbdən daha da bədtər*.
Zahiri ağadır, batini bəndə,
Qıfıl tək salmışlar cismimi bəndə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəşərə bənzər bu uzunqulaqlar,
Hər işdən özlərin çəkirlər kənar.
Bəzənsə bu qanmaz, kənar eşşəklər,
Dedilər aləmdə qopacaq məhşər.
Otuz ildən sonra baş verib bir sirr,
İyirmi bir bəla törəyəcəkdir*.
Qopacaq, elə bir dəhşətli tufan,
Ki, alt-üst olacaq büsbütün cahan.
Fəzada sayrışan ulduzlar ki, var,
Böyük bir qəzaya olacaq düçar.
Onlar səyyarələr içində tək-tək,
Dolaşıb, üçbucaq təşkil edərək,
Tərəzi bürcündə birləşən zaman,
Böyük fəlakətə düşəcək cahan.
Bu bəla üz verən zamanlar, bişəkk,
Şimal qütbünə çox zərər dəyəcək.
Ancaq şair belə hərzə-hədyandan,
Dünyada çəkinməz, qorxmaz heç zaman.
Hər kəsin sən kimi bir arxası var,
Vecinə deyildir bu uydurmalar.
Xaqani inammır bu yalanlara,
Gülür bu yalanı uyduranlara.
Çünki sən özünsən küllən-ixtiyar,
İstəsən, bəlalar bizlərdən qaçar.
Sənin bəndələrin çox olar onda,
Göydəki hesabsız ulduzlardan da.
Hifz olsun bəladan dövlətin, varın,
Bütün qurduqların, yaratdıqların.

ÖZÜ HAQQINDA

Sənətkarlıq nədir? Bilmək istəsən,
Gəl, məndən sən onun sirrini öyrən!
Kamal mayasında bir zərrə idim,
Ağlımla Günəşə dönüb, yüksəldim.
İndi söz Günəşi aləmdə mənəm,
Şairlərdən üç qat ucadır rütbəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir işıq almaqçın məndən pay kimi,
Dövrəmdə gəzirlər onlar ay kimi.
Mənsiz bir heçdirlər parlasalar da,
Ardımca sürünər onlar dünyada.
Gecə solqun işıq saçsa da qəmər,
Günəş doğan kimi gözlərdən itər.

BABASI HAQQINDA

Sənətcə toxucu olmuşdur babam,
Onun sənətindən almışam ilham.
Gecələr səmayə baxılsa əgər,
Pambıq tarlası tək görünər göylər.
Mənim o pambıqdan olar ipliyim,
Ononla toxunar canım, iliyim.
Can evində əzəl şagirdi durar,
İplik əyirərək, arğaçlar qurar.
Vəta, Adəm, Xızır və Musa üçün*,
Məna naxışları vuraram hər gün.
Əgər istəsələr ləbbadə, dəstar,
Ruhdan toxuyaraq, verrəm yadigar.
Əgər mən bir paltar düzəltsəm dindən,
Tikərəm, şübhəsiz, onu "Yasin"dən*.
Dərin fəzalarda gəzən yolçular,
Tikərlər həmişə bəzəkli paltar.
Fikrimin odundan, ilham suyundan,
Mən də toxuyuram naxışlı dəstan.
Bir möcüz göstərib mənalı sözdən,
Sudan, oddan paltar toxuyuram mən*.
Layiqdir şərimi göylərdə görcək,
Üç bacı bağlasın başına ləçək*.
İncəlik yaratmaq istəsəm əgər,
Zir aləm düzəltmək əlimdən gələr.
Mələklər başına mən qoyaram tac,
Eylərəm İsanın dərdinə əlac.
Özüm tor quraram ipəkqurdu tək,
Hörümçək kimiyəm, daima işlək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq onun kimi al qan içmərəm
Barama qurdu tək halal işlərəm.
Barama qurdu söz toxusa əgər,
Özünü ancaq o, mənə bənzədər.
Hörümçək toxuyar naxışlı paltar,
Lakin o paltarı bir tikan yırtar.
Etsə də barama qurdu qənaət,
Gözəllər içində qazanar hörmət.
Barama qurduyam, hörümçək deyil,
Mən halal nemətlə yaşayıram, bil!
Gözəl gəlin kimi barama qurdu,
Özünə ipəkdən bir çadır qurdu.
Hər kəsin ki, belə gözü, qaşı var,
Pərdədə yaşamaq ona yaraşar.
Mənəm, bax, bu günün əziz insanı,
Mənəm, söz toxuyan şair Xaqani.
Bir güşə içində yaradıb hikmət,
Edirəm bir neçə sufiylə söhbət.
Xasların məclisi bəzənsin deyə,
Sizdən fərş toxuyub etdim hədiyyə...

ATASI NƏCCAR ƏLİ HAQQINDA

Atam nəccar idi, dərs alıb ondan,
Oldum zəmanədə ustad sözyonan.
Sözün burğusuyla çalışaraq, mən,
Kaman düzəldərəm qövsi-qüzehdən.
Ağıl kəməndini səmayə atsam,
Ayı bir top kimi tutaram asan.
İlham tişəsini işlətsəm əgər,
Yüz tayfa qarşımda qəddini əyər.
Rəndəmdən çıxaraq tökülən yonqar,
Hurinin üzündə bir telə oxşar.
Musa ağacıdır ağacım tamam,
Tuba budaqından düzəlib taxtam*.
Ağlımın dəvatı o ağacdandır.
O taxta mənimçin bir təxti-candır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hermes haradadır, hanı o alim?
Gəlsin ki, təxtini özüm düzəldim*.
Nuh hanı ki, ona verim yadigar,
Bu memar təbimdən səttarə, pərgar?!*
Ne qədər məskənim bu xoş məkandır,
O Şərvan deyildir, bir Xeyrəvandır*.
Təsdiq etməsə də bir neçə naşı,
Xaqanilə bitmiş söz yonmaq işi.

ATASINI TƏRİF

Atam, aləm bilir, nəccar Əlidir,
Onun səxavəti elə bəllidir.
O məni böyüdüb, vermişdir çörək,
Mədh edəm mən onu qələmlə gərək.
Sənətdə Azərdi, söhbətdə İsa,
Tabut qayırardı o, Xəlilasa*.
Onun qayırdığı tabutlar yəqin,
Qoyulur qəbrinə musəvilərin.
O da bir Əliydi - adlı dilavər,
Mən isə önündə bir sadiq Qənbər*.
Azad bəsləyirdi dünyada məni,
Can-başla sevərdim bu ailəni.
Girirdi qəlbimə o şəfqətiylə,
Qəlbim qızmardı məhəbbətiylə.
Dünyada səhv edib, dadsaydım əgər,
Canları məhv edən acı bir zəhər,
Sataraq ən əziz hər nəyi vardı,
Zəhəri məhv edən dərman alardı.
O, can sərf edərdi hər istəyimə,
Quş südü düşsəydi gər ürəyimə,
Hansı yolla olsa tapardı, inan!
O mənə canını edərdi qurban.
Bəslədi, can quşum pərvaza gəldi,
Atamın dənini yeyib yüksəldi.
O, bir sultan kimi fərman verərkən,
Quş kimi hazırdım qulluğunda mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANASI HAQQINDA

Bir aşpaz qızıydı sevimli anam,
Onunçun hər kəsi mən doydururam.
Hikmət xəzinəsi məskəndir mənə,
Getmərəm, versələr, başqa xəzinə.
Xurma ağacının çölü xoş olur,
Nemət mətbəxitək içi doludur.
Mətbəxdən bir xörək hazır edərkən,
Yuyuram oranı pak su ilə mən.
Boş durmaz mətbəxdə qazanım əbəs,
Sınıq görməmişdir kasamı bir kəs.
Yuyarkən mətbəxi adlı-sanlılar,
Daima əlləri bal, yağda olar.
Beyin qazanımda bişəndə hisslər,
Dolar nemətimlə bütün məclislər.
Günəş də can atıb dolanır hər gün.
Mənim mətbəximdən pay almaq üçün.
Mənim mətbəximdən çıxarkən tüstü,
Göylər də ənbərlə dolar ələstü.
O Məryəm sifətli gözəllər ki, var,
Mənim xörəyimlə açarlar iftar.
Mədhlər söyləyən təbim dəryadır,
Zaman süfrəsində sözüm halvadır.
Şerimi sariban eşitsə əgər,
Onu zəfəranlı plov zənn edər.
Yağlı sözlərimlə dolmuşdur cahan,
Mavi bir kasaya oxşar asiman.
Çoxdandır bu kasa gəzdirən fələk,
Pay istər həmişə şerimi görcək*.
Bu zalım zəmanə hər axşam, səhər,
Məndən loxma alıb, qana döndərər.
Açsam ilhamının süfrəsini mən,
Aş axar süfrəmin hər tərəfindən.
Bu aş ülviyyətin ruhudur yeksər,
O, ruha mətanət, təravət verər.
Sözümün şehdidir o şirin şərab,
Sufilər içəndə qazanar savab.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xasların qəlbini sözlərim açar,
Hər beytim şam kimi yanıb nur saçar.
Həyatın süfrəsi bol olsun deyə,
Mən təzə yeməklər etdim hədiyyə,
Xörəyim dostlara şirin-şəkərdir,
Lakin paxıllara acı zəhərdir.

ANASINI TƏRİF

Əgər olmasaydı ana zəhməti,
Qazana bilməzdim mən bu şöhrəti.
Mənalar kişisi o qoca anam,
İkinci Rabiə kimiydi tamam*.
Rabiə söyləmək səhv olar ona,
O, bir Rabiəydi göy qızlarına.
O, hikmət evinde bir baş hərəmdi,
İsmət aləmində çox möhtərəmdi.
Ona da Məryəm tək atdılar böhtan,
O da Zəhra kimi paylardı ehsan*.
Beş günlük dünyanı tamam unutdu,
Məryəm tək dörd aylıq bir oruc tutdu.
Nəsturi qızıydı, nəsli, möbədi*,
O, sonra İslama "dinimdir" dedi.
Onunla bu torpaq gələrdi cana,
O, bir Filakusdu bizim dövrana*.
Myastu yolunda əyləşərdi şad,
Siyruni dilini bilirdi azad*.
Belə qət etmişdi ağlı, ilhamı,
Ki, qəbul eyləsin dini-İslamı.
"İncil'dən bir gün üz döndərən zaman,
Onu cəzb etmişdi özünə "Quran".
O, Züleyxa kimi bir xanım ikən,
Sonra Yusif kimi qul oldu birdən*.
Hüsndə olmuşdu bir Rum gözəli,
Onu bəsləmişdi mələyin əli.
Əzəl bağçasına vermişdi ürək,
Hüdapərdəsində o bəslənərək,
"Quran"ı görəndə demiş "la ilah",

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaçdan və "İncil"dən eyləmiş ikrah.
Xaça kəsildikdə amansız düşmən,
Xaç kimi o, çarpaz olmuşdur həmən.
Daima İsaya dualar etdi,
Xəlilin yolunca sidq ilə getdi.
Oyaqdır, yatmayır əsla gecələr,
Dindən nəfəs alır doğarkən səhər.
Onun imanına, səcdə edərək,
Ülkeri təsbeh tək çevirir fələk.
Sufilər kimi o çıxarmışdı ad,
O saf ürəklidə vardı etiqad.
Nəzərə alaraq əsil-nəsəbin,
Əzəl öz möhrüylə kəsmişdi kəbin.
Yandırmaq istərkən qəbrində çıraq,
Qəlbini mum etdi, sözlərini yağ.
Zəfər çalmaq üçün, bunu da deyim,
Mənə sübh telindən tikmişdi geyim.
O razı qalarsa, xoş olar halım,
Onun duasıyla gülər iqbalım.
Onun hər sözündən alıram qüvvət,
Qaladır verdiyi hər bir nəsihət.
Kəsilsə düşmənlə qarşıda yolum,
O qoca qarıdan güc alar qolum.
Onun duaları olmasaydı, ah,
Ömrüm puç olardı, yəqin bir sabah.
Onunla fəxr edir bu doğma vətən,
Üveys kimi bəndəm o arvada mən*.
Burada onunçun mən düşüb qaldım,
Özümü min dərdə, bəlaya saldım.
Onun haqqı çoxdur boynumda, bişəkk,
Sevimli əmimin haqqı olan tək.

ƏMİSİ HAQQINDA

Mən təbib əmimdən almışam ilham,
Yeddi söz mülkünün bir Boqratıyam*,
Ağlım pay almışdır min bir dənizdən,
Tanışam hər otla Qaf dağında mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bil, Ava dağının Musası mənəm,
İndi bu aləmin İsası mənəm.
Onunçun məskənim olmuş asiman,
Dördüncü göy olub mənə bu Şirvan*.
Cənnətdə nə meyvə yemişsə Adəm,
Tumunu təbimdə əkmiş müntəzəm.
Qəlbim Hindistandır, ilhamım Çindir,
Nadir dərmanlarım iskəncəbindir.
0 şadlıq gətirən məcunla hər an,
Sözlərim olmuşdur hər dərdə dərman.
Nə vaxt təzələsəm şirin sözləri,
Paxıl adamların çıxar gözləri.
Kim belə bir dərman hazırlasa, bil,
Ona can evində verirlər mənzil.
Sözüm şəfa verər dərdli canlara,
Lakin, taun olar o, nadanlara.
Mən haqq yolçusuna yol göstərənəm,
Düşmənin canına qızdırma mənəm.
Mənim nəfəsimin möcüzəsindən,
Yüz min qızdırmalı sağalar həmən.
İçdikcə şərvanlı söz şərbətimi,
Qaynar damarında qan bulaq kimi.
Dərman qayırmağı sanki peyğəmbər,
Eyləmiş əzəldən mənə müyəssər.
Zatında şərafət, həm də kərəm var,
Onun ver əlilə dünya barınar.
Onun əl suyundan yarandı kövsər,
Rəfrəf- dükanının rəfmə bənzər*.
Verər dərmanları ölüyə həyat.
O, İsadan yüksək durur neçə qat,
Mənim düşmənimə o edər lənət.
Belə dosta olsun yüz kərə rəhmət!
Natamam yaranmış bir neçə cahil,
Belə söhbətlərdən olmuşlar qafil.
Qarikon kimidir acı sözləri,
Acı tərbəd kimi boşdur özləri*.
Tərbəd tək içləri zəhri-həlahil*,
Olmuşlar biliyə, məzhəbə qatil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏMİSİNİ TƏRİF

Öz əmim Ömərin sayəsində mən,
Yetimlik divinin qaçdım əlindən.
Bil, mənim böyüyüm, yol göstərənim,
Tərbiyə verənim əmimdir mənim.
Sözləri hər zaman qətiydi onun,
Şagirdi - Ərəstu, bir də Əflatun.
Hermesə üçbucaq elmini, zaman,
Onun idrakıyla öyrətmiş, inan!
Əmimdən almışam o şərəfi mən,
Ki, torpaq, su alır onu Günəşdən.
Günəşdir rəng verən torpağa, daşa,
O, suyu qaldırar göyə birbaşa.
Günəş dol sallayıb ipiylə, bil, sən,
Su çəkir fələyin dənizlərindən.
Günəş qızıl əlli nəqqaşa bənzər,
Torpağı durmadan min rənglə bezər.
Günəşin işığı altında ancaq,
İncini - su verər, qızılı torpaq.
Gördü ki, otağı dardır qəlbimin,
Açdı əmim ora pəncərə yüz min.
Girdi Günəş kimi pəncərələrdən,
Kamalı Günəş tək tel düzdü ki, mən.
Tutaraq bu teldən hər axşam-səhər,
Möhnət quyusundan çıxım birtəhər.
Əmimin evində başım oldu dik,
Təklik rəqəmimi o etdi mənlik.
Mən kiçik "dəqiqə" mislində idim,
Böyük "dərəcəyə" çatdırdı əmim.
O, məni apardı bürclərə sarı,
Tanıtdı səyyarə və ulduzları.
Əvvəlcə birlikdən altmışa atdı,
Sonra da altmışdan otuz yaratdı*,
İki on beş etdi otuzu da həm,
Onlardan yaratdı yeddi baş aləm.
Atam dözməyərək dərdə cahanda,
Sam Zalı atan tək məni atanda*,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əmim Simürğ kimi uçub gələrək,
Qanadı altına alaraq Zal tək,
Qaldırdı biliyin Qafına həmən,
Bəslənildim onun yuvasında mən.
Əlimədə əmisi necə oldu yar*,
Oldu əmim mənə o cür pərəstar.
O, məni öyrətdi hər elmə, fənnə,
Oxudu "Quran"dan ayələr mənə.
Atam mənə verdi ağır bir cəza,
Ərəblər o zülmü edərdi qıza.
Bu sözü "Quranda" axtar, tap, öyrən,
Get, oxu "və izəl-müvəddə"ni sən*
Mən qaldım atılmış uşaq tək xəstə,
Nəfəsi tutulmuş, qəlbi şikəstə.
Əmim görüb bunu gəldi həyəcana,
Yenidən məni o gətirdi cana.
Sanki oldu mənim mehriban dayəm,
Yaralı könlümə o qoydu məlhəm.
Səkkiz behişt ilə ətrafımda şad,
Yeddi heykəl qoydu o böyük ustad.
Aldı kainatdan yeddi dəmir mil,
Bir halqa boynuma etdi həmayil*.
Sudan və alovdan çıxıb, boy atdım,
Yəni yeddi yaşa mən gəlib çatdım.
Baxaraq açılmış şirin dilimə,
Ağıl lövhəsini verdi əlimə,
Əvvəlcə o mənə öyrətdi "əbcəd",
Mənə Həqayiqi dedi nəhayət*.
Dərs verdi xeyirli səvab işlərdən,
Ondan hər sorğuma cavab aldım mən.
O, bir müəllimdi, hikmətdi sözü,
Dərsdə xəlifəm də olmuşdur özü.
Mənə xətt öyrətdi hər səhər-axşam,
Gəldi arxasınca surə və ehkam.
Öyrətdi lütf ilə hər məsələni,
Nəhayət, çatdırdı "vənnasə" məni*.
Gördü ki, bələdəm hər nişanəyə,
Apardı bir böyük kitabxanəyə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gördükdə olmuşam, doğrudan, heyran,
Oxutdu əvvəlcə "sureyi-rəhman".
Bunlarla bərabər qoydu bir sabalı,
Ovcuma gözəl bir "kitabi-islah".
Əmr etdi oxuyum mən onu təkrar,
Ta gözüm önündə açılsın əsrar.
O, mənə ustaddı, mən ona şagird,
O, İbn-Vəriddi, mən də Mübərrid.
Mənə dil qanunu öyrətdi əmim,
Qoymadı səhv edəm, oldu həmdəmim.
Məni üç elmdən etdi xəbərdar,
Ağıl, fəhm, hiss oldu onlardan izhar.
O, mənə şərh etdi hər bir məfhumu,
Sonra da öyrətdi elmi-nücumu..
Dəlillə, sübutla eylədi bir-bir,
"Quran"ın yüz on dörd sirrini təbir*,
Çox asan yol ilə o mahir insan,
Etdi "bir", "iki", "üç", "dörd", "beş"i bəyan*.
Sonra dörd kitaba saldıqda nəzər,
Verdi dörd əsasdan ətraflı xəbər*.
O, dörd sütun oldu danılmaz sənəd,
"Quran"ı onlara eylədi məsnəd.
O, mənə doğru yol göstərib bu dəm,
Dedi: "Gör nə sirlə yaranmış aləm!"
Hər iki dünyanın sirrini açdı,
Adəm tək hər sözdə bir işıq saçdı.
O, mənim dayəmdi, müəllimimdi,
Həm böyük ustadım, həm də əmimdi.
Çatıb boya-başa mən şad olanda,
Məktəbdən, dərslərdən azad olanda,
Meyvəli ağac tək açdıqda çiçək,
Həyatım bir bahar fəslinə gircək,
Min təsir alaraq sudan, Günəşdən,
Rəngdə su, istidə bir od oldum mən.
Sonra dünya baxdı taleyimə kəm,
Dörd əllə yapışdı yaxamdan möhkəm.
Kəsdi salxımımı qara oraqla,
Qozavü-qədərdən dərs alan Covza*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox bəlalər gördüm mən ruzigardan,
Sanki baş qaldırdı bənövşə qardan
Ağ lövhdə bəxtimi qara yazdılar,
Etdi "Nun vəl-qələm", taleyimi zar*.
Baxdıqca bu "nun"a bu "vəl - qələm"ə,
Bir "Yasin" pilərdi dərdə, ələmə.
Gördü söz mülkünə mən bir hakiməm,
O, mənə ad qoydu: Həssani-əcəm*.
Qəlbimin ayağı məxzənə batdı,
Omrüm də iyirmi beş ilə çatdı.
Bildi söz mülkünə mənəm hökmran,
Qarşımda fərəhdən əmim verdi can.
Bu fani dünyanı gülər tərk etdi,
Hardan gəlmişdisə, ora da getdi.
Bir dəfə asqırıb eylədi rəhlət,
Mələklər oxudu ona min rəhmət.
Qırx il bu dünyada o, subay qaldı,
Nəhayət, cənnətdə bir huri aldı.
Kim belə bir yara olarsa məftun,
Haqqı var subaylıq çəkməyə onun.
Ayrılıb getdikdə məndən o sərvər,
Mənim ətrafımı aldı düşmənlər.
İntiqam almaqçin fani dünyadan,
Adəm köçüb getdi, yaşadı şeytan.

İZZƏDDİNİ TƏRİF

Bir nəzər saldıqda ali məclisə,
İzzəddin yadigar qalmışdır bizə.
Var ikən sinəmdə qəmlərdən qubar,
İzzəddin olmuşdur mənə qəmküsar*.
O, məni oxşayar, əzizləyərdi,
Silərdi könlümdən hər qəmi, dərdi.
İzzədin Məhəmməd mənə verdi can,
İzzətlə yüksələr hər kiçik insan.
Əlimdə izzətdən dir sənəd vardır,
İzzətlə yaşayan nə bəxtiyardır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqət əhlinin dəftərlərindən,
Almışdır məhəbbət dərsini, bil sən.
Həqiqət əhlinə Günəşdir üzü,
Hər oruc tutana bayramdır sözü.
Söhbətə başlarkən o böyük ustad,
Zəmanə Söhbanı susub, qalar mat*.
Düzlük aləmində qəlbi təmizdir,
Dinin havasında safdır, əzizdir.
Yumuşdur sədaqət suyuyla hər an,
Tamahın tozunu can paltarından.
Düşməndir o, zülmə, nəfsə, zülmətə,
Könül verməmişdir bir xəyanətə.
Ürək paklığını etmişdir şüar,
Onunçun adını qoymuş təmizkar.
Gördüyü ləkəni göz yaşı silər,
Könül güzgüsündən hər axşam-səhər.
Möcüzə diqqət et, göstərib hünər,
Gör necə su ilə güzgü təmizlər.
Onunla hər görüş bir səadətdir,
Hər sözü, söhbəti bir nəsihətdir.

ÖZ VƏZİYYƏTİNDƏN ŞİKAYƏT

İndi də halımdan qoy gileylənim,
Gör, necə olmuşdur əhvalım mənim:
Bəla dənizinə düşdüyüm gündən,
Sədəftək əlsizəm, ayaqsızam mən.
Mirvari tapmaqçin amansız fələk,
Doğrayır sinəmi hər an sədəf tək.
Gümüş tək əridir gah bədənimi,
Gah da qəmlə əzir bir civə kimi.
Məni tidə gördü zamanın gözü,
Soldu, çopurlaşdı bəxtimin üzü.
Dərdidir o titə belə dövranın,
Çopurluq şərridir bizim Şərvanın.
Olsam da mən dünya görmüş qaraquş,
Zəmanə qol-qanad məndə qoymamış.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çıxır boğazımdan hey ahü-fəğan,
Paxıllar əlindən çəkirəm aman.
Mən işlək öküzəm, meydan isə dar,
Hər işdə sayırlar məni günahkar.
Zəmanə boynuma bağlayıb kəmənd,
Cismimi etmişdir bu meydana bənd.
Amansız fələk də məni hər saat,
Bir işlək öküz tək qoymayır rahat.
Ürəyim bağlayır günbəgün qubar,
İşimin nə sonu, nə əvvəli var.
Arizu varsa da, ona yol yoxdur,
Murada çatmağa maneə çoxdur.
Göz yaşım rəngilə zərişgə döndü,
Batan Günəş kimi surətim söndü.
Gördükdə ürəyim od tutub yanır,
Zərişkin qəlbi də tez alovlanır.
İşim baş tutmayır, ürəyim sınıq,
Məzuram, boğarsa məni hıçqırıq.
Fitil nazik olsa, tükənərsə yağ,
Titrək işıq saçar ətrafa çıraq.
Mənfur dövran kimi, gör, necə işdir,
Mənim bir günüm də xoş keçməmişdir,
Bir təqvim ilində olan kimi, bəxt
Bir gün artırmadı ömrümə heç vaxt.
Elə ki, təqvimin günləri dolur,
Demək, il qurtarır, təqvim məhv olur.
Onunla bir daha hesab edilməz,
Ondan heç kəs tarix öyrənə bilməz.
Onu yox edərsək, dönər xəyala,
Onunla oturub baxmazlar fala.
O ya vərəq-vərəq verilər yelə,
Ya kitabxanadan atılar çölə.
Ya silib atarlar əlin kirini,
Küçəyə səpərlər vərəqlərini.
Əvvəl sayılsa da lazım, mötəbər,
Sonra bir gərəksiz şeyə çevrilər.
And olsun allaha, dövrün əlindən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O vaxtı qurtarmış təqvim mənəm, mən.
Heç vəfa görmədim bir həmdəmimdə,
Görmək nə, heç onu eşitmədim də.
Yusif qardaşlardan çəkdi min əzab,
Mən ondan daha çox çəkdim iztirab.
Könül dərd əlindən düşdü tələşə,
Oxşaram bir küncə atılan daşa.
Mən baxa bilmirəm öz ailəmə,
Dərdimdən od düşür bütün aləmə.
Mən məna yaradan tutiyəm, əfsus!
Şərvan qəfəsində olmuşam məhbus.
Qəza yer üzündən sildi adımı,
Kəsdi dimdiyimi, qol-qanadımı.
Çıxartdı səadət Hindistanından,
Qovladı əməlin gülüstanından.
O mənə şəkər yox, zəhər yedirdi,
Nəhəngin ağzından mənə su verdi.
Mən ölüb qurtaran tuti kimi, ah,
Nəhayət, ölümə getirdim pənah*.
Zəmanə xalqının əlindən artıq,
Susmuşam, olsam da bir gözəl natiq.
Mən işin sonunu bildiyim üçün,
Nitqin ayəsini pozdum büsbütün.
Məryəmə töhmətlər yağdırılan dəm,
Dinməyib, inadla susmuşdu Məryəm.
Neyləyim, başımdan qorxaraq mən də,
Dilimi ağzımda saldım kəməndə.
Kəsdisə dilimi üzlət xəncəri,
Dil tövhid deməkdən durmadı geri.
Qılınca oxşasa yaxşı olar dil,
İş görsün hər zaman, quru söz deyil.
Şamaxı, bu gözəl, bu geniş diyar,
Nə üçün bəs gəlir ürəyimə dar?
Ah, mənə Şamaxı bir zindan oldu,
Hər tüküm canıma zindanban oldu.
Yanıma nəinki qoymazlar insan,
Külək də boylana bilməz qapımdan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yolda mən bir addım atarsam hərgah,
Ya da ki, ürəkdən çəksəm odlu ah.
Bir düyün vurub tez düşmən o aha,
Durmadan aparıb çuğullar şaha.

DÜŞMƏNLƏRİ TƏNQİD

Bir neçə eşşəkdən deyim sizə mən,
Dad çəkir onların yer-göy əlindən.
O murdar uşağı qaşqabaqlıdır,
Həm də yeddibaşlı, dördayaqlıdır*.
Hər zaman o murdar uşağı murdar,
Sözümdən yüz bəzək oğurlayırlar.
Çirkin sözlərinə qatırlar onu,
Şer bazarında satırlar onu.
Cəfəng sözlərini oxuyan kimi,
Coşuram qəzəbli bir ümman kimi.
O murdar ağzında onların zinhar,
Baxmayın, yüz hovuz heyiz qanı var.
O divbaş adamlar heybətlidirlər,
Div kimi onlar yüz sifətlidirlər.
Uzaq olsalar da söz hünərindən,
Od yağır zəhərli nəfəslərindən.
Bu mülhüd eşşəklər düşməni-dindir,
Din satıb, deyirlər meydan bizimdir.
Hər zaman "Ələmət" deyib, dururlar,
Heyf ki, "əlmovtdan" uzaqdır onlar*.
Mənim sözlərimi yaxşı dinlə bir,
Əlmövtun özü də ölüm deməkdir.
Daima düzlükdən dəm vursalar da,
Əyrilik görərsən yalnız onlarda.
Onlar alçaqlara çox alçalıblar,
"Dal" kimi, "nun" kimi əyri qalıblar*.
Onlar etibarda Kufə əhlidir*,
Bağdad əhli kimi haça dillidir.
Onlar gözü qırıq iynəyə bənzər,
Gözsüz iynə işə yararmı məgər?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə zaman qırılsa gözü iynənin,
Bir işə yaramaz, atılar, yəqin.
Əbləh adamların nə faydası var,
De, nəyə gərəkdir, xudaya, onlar?
Alçaq adamların bizə xeyri yox,
Lakin peysərləri yoğun olur çox.
Mənimsə dünyaya gələndən bəri,
Nur saçır tacımın dəndənələri.
Lakin bu siyasət xadimlərinin,
Çürük dəndənəsi qoxuyar irin.
Onların, görəndə yağlı tikəmi,
Ağzı tez açılır əjdaha kimi.
Qalıq içə-içə gülgun canımdan,
Salırlar hörmətdən məni hər zaman.
Əvvəl qarət edib barlı bağımı,
Sonra söndürürlər bağ çırağımı.
Döşürüb süfrəmi, qoyarlar minnət,
Sonra da edirlər evimi qarət.
Əvvəl çırpışdırıb bildiklərimi,
Sonra hey hürürlər mənə it kimi.
Fənndə qəribəm, demək, təkəm, tək!
İtlər də qəribə hürərlər, bişəkk.
Dilimi öyrənib tez dil açınca
Söyüş yağdırırlar mənim dalımca.
Günəş sayəsində bulud olurlar,
Tuturlar Günəşin üzünü onlar.
Bir mələk eşqilə yüksəlsələr də,
Ona kin bəsləyib, düşürlər dərdə.
Hər kim bu girdaba düşərsə əgər,
Başı Günəş kimi bəlalar çəkər.
Özünü mənimlə qiyas edən kəs,
Utanar, dünyada o gəzə bilməz.
Ariflər tanırlar saxta sözləri,
Seçirlər samandan müşkü, ənbəri.
Göydə süzən Aya göz qoysa əgər,
Onu çarqatdakı aydan tez seçər.
Çünki həqiqi Ay hərəkətdədir,
Süni aysa donuq vəziyyətdədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinin Günəşlə əlaqəsi var,
Digəri civədən rəng alıb, parlar.
Bir qamış axırda həsirə dönər,
Başqa bir qamışdan alınar şəkər.

YENƏ DƏ ŞAM VƏ İRAQ BAŞÇISININ TƏRİFİ

Son qoyub tərifə və şikayətə,
Çatdırım sözümü mən nəhayətə.

Sözləri düzərək incilər kimi,
Çıxarım zahirə öz hünərimi.

İslamın sədridir o böyük insan,
Şamın sahibidir, hər hökmü rəvan.

Dünən qulağıma asimandan bir,
Səs gəldi, dedi: "Ey qüdrətli şair!

Nə üçün dünyaya, dinə pasiban,
Cəmalı mədh etdin sonra hamıdan?

Burada olmaya gizli sirr var?
Dedi: "Əlbəttə var, etmirəm inkar.

O da Məhəmməddir çünki xilqətdə,
Elmdə, səxada, adda, hörmətdə.

Məhəmməd sonuncu peyğəmbər gəldi,
Qədri, şərəfisə ərşə yüksəldi.

Ruh sonra gəlmişdir, təbiətdə, bax,
Əvvəl nütfə oldu, sonra da uşaq.

Üç varlıq yarandı, sonra da insan,
Üç kitab yarandı, sonra da "Quran".

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecənin sonunda üz açar səhər,
Əvvəl ot yarandı, sonrasa güllər.

Əvvəl daş yaranar, sonra da mədən,
Zülmətdə dirilik suyu görərsən.

Əvvəl papaq olar, sonrasa zinət,
Hər şey tamamlanar sonda, nəhayət.

Əvvəl ulduz olar göydə nümayan,
Axırda görünər xurşidi-rəxşan.

Bu üzrüm qəbula keçərsə, yenə,
Başlaram o böyük sədrin mədhinə:

Ey səxa sultanı, həqiqət səsi!
Ey kəmal Günəşi, haqqın kölgəsi!

Dinin cəmalısan, ey Cəmaləddin,
Dünyaya yayılan kölgəndir sənin.

Fələk qulamındır, mən sənə nökər,
Dünya fazilləri əlini öpər.

Şərvanın darısqal mənzilində mən,
Mədhini düzürəm öz can şirəmdən.

Mən səni mədh edib gələrkən dilə,
Bakirə ilhamım olar hamilə.

Qulağım gövhərlə tamam bəzənər,
Təbimdən yaranar bal ilə şəkər.

İdrakım söz açar şərafətindən,
Könül qulağımda səslənər nəğmən.

Qəlbimin qulağı bəzəndi tamam,
Sırğam taxaraq olunca qulam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə üçün mədh etdim onu, bilirsən?
Nə üçün bu yolun yolçusuyam mən?

Günəş məclisindən təbim, budur, bax,
Nurlu bir cəvahir oğürlayaraq,

Dedi: "Qiymətlidir, al bunu, hökmən,
Gizlət öz xatirat xəzinəndə sən".

Bərcis bu söhbəti eşidən zaman,
Kəsdi öz əlini Günəş qolundan*.

Dan yeri qızardı, açıldı səhər,
Al qana boyandı yanan üfuqlər.

Sonra Günəş məndən aman istədi,
Dayanıb qarşımda təzimlə dedi:

- Ey Xaqani, haman gövhəri yenə,
Qaytar öz yerinə, Allah eşqinə.

Xacədən xəcalət çəkdimsə hər gün,
İraqə getməyim olmadı mümkün.

Qırx günə bu qədər cəvahiri mən,
Qələmin ucuyla yona bilmişəm.

Cəvahirlər sapa taxılan zaman,
Onları Günəşin asdım boynundan.

O boyunbağım mən asdım, bəli,
Çünki kəsilmişdi Günəşin əli.

Ləli sahibinə qaytarsam əgər,
O, məndən, əlbəttə, qəbul edilər.

Oğurlanan şeylər necə var yenə,
Tezcə qaytarılsın öz sahibinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, məni salmadı bir an nəzərdən,
Mən də onun üçün dürdən, göhərdən.

Boyunbağı düzdüm, xoşdur əməyim;
Bahasını ondan necə istəyim?!

Kim "Belə yazaram" desə, əbəsdir,
Bu hədiyyəm Şama, İraqa bəsdir.

Haqqım fəxr edəm, qoy bilsin cahan!
Mənəm söz mülkünə yeganə sultan.

Nə vaxt söz qılıncım qalxdı, yuxarı,
Qolu kəsik qaçdı söz oğrula.

Peyğəmbər şərinə and olsun, heç kəs,
Bu inci sözləri yarada bilməz.

Ağlım məni dünya pənahı sandı,
Ruhum ülviyyətin məddahı sandı.

Rəbbim bəlalardan qoy versin nicat,
Onun sayəsində düzəlsin həyat!

Bu din aləmində çoxlu hikmət var,
Lakin tək ədalət əbədi qalar.

Bir an kəsilməsin onun başından,
Allahın kölgəsi durduqca cahan.

Mələklər söylərkən mənim duamı,
Cəbrayıl qoy desin onlara: "Amin!"

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FƏXRİYYƏLƏR

1.

Mənim könlüm müəllimdir, dizim üstü dəbistanı,
O şagirdəm ki, öyrəndim sükut ilə əlifbanı.

Nə hər dizdən olar məktəb, nə hər şagird əzbərxan.
Nə hər qətrə olar nisan, nə hər dərya sədəf kanı.

Dizim üstü o məktəbdir ki, Nuh onda gəmi salmış.
Gəmim - Cudi dağı, gözdən axan yaş isə tufanı.

Bu cür insanlara Cudi dağı ancaq topuqdandır,
Dizinə onların çıxmaz su, tufan tutsa dünyanı.

Deyil bu məktəbə layiq o kəs ki, dərdi cuş etsə,
Qopub tufan dörd yandan, onun sarsılmaz ərkanı.

Dizi məktəb olan kəsdə gərək bir hümmət olsun ki,
Önündə it kimi diz çökdürə bilsin o, aslanı.

O insan ki, dözüb dərdə, baş əyməz mərdə, namərdə,
Onu diz çökdürə bilməz tutan dörd əlli dünyanı.

Bu məna Xızrını hər kəs ətəkdən tutsa Musa tək,
Suyu xatırladar Xızrı, əli möcüzdə Musanı*.

Onun tələqininin şərhi sükut ilə olar təvil,
Bütün təlimi müşküldür cəhalət isə bürhanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim öyrəndiyim ilk söz bu məktəbdə "sükut" oldu,
Bəladır dil başa, lakin, sükutdur dərd dərmanı.

Məni ilk dərsdə ustad dildən eylədi məhrum,
O dilli bərbətə dilsiz, neyin üstündür əfğanı.

Qalarkən ney kimi dilsiz, dodaqdan can əta etdi,
Dedi: - Ney tək gözündən al nəfəs, -verdi bu fərmanı.

Məni təlqin butasında əritdi, yaxdı, ta məndə,
Nə şeytan hiyləsi qaldı, nə də ki, Adəm üsyanı.

Mənə öyrətdi çox şeylər, yazarsam cüzünü, çatmaz,
Səmanı dəftər etsəm də, mürəkkəb - cümlə dəryanı.

O "əbcəd" ki, mənə ustad təlim etdi təcridi,
Saralmış çöhrəmə yazdı qızıl xətlə gözüm qanı*.

O gün ki,sirri yoxluqdan ibarət "əbcəd"i bildim,
Unutdum varlığa bağlı olan hər bir müəmmam.

Görüncə bilməməkdir bu qəribə məktəbin elmi,
Unutdum hafizəmdə yer tutan hər elmü ürfanı.

Qəribə elm öyrəndim, başa düşdüm ki, nadanam,
Əcəb ustaddır, təlim edir mən kimi nadanı.

Necə ayinədə tuti görər öz əksini, lakin,
Gələr nitqə təəccübdən, olar əksinin heyranı.

Ömür keçdi bu məktəbdə, hələ "əbcəd"dəyəm aciz,
Nə vaxt dərk eylərəm, aya, müəmmalı bu divanı.

Hələ körpə uşaqlar tək oyun ardındadur fikrim,
Bu hoqqabaz fələk heyran edir feliylə insanı.

Oyun həngaməsi qurmuş uşaqlar, mən baxıb gördüm,
Qara möhrə durar, göy möhrə dövr eylər bu meydanı*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Budur, axır oyun bitmiş, yəqindir ki, çatıb axşam,
Günəş batcaq, bu adətdir, çatar həngamə payanı.

Ağıl qorxardı təbimdən, əlacı gördüm heyrətdə,
Necə Musa deyirkən eylədim tabutu zindanı*.

Neçə Firondan Musa qaçırdı çarəsiz, indi,
Mənim əqlim də qaçmaqda edir təqlid Musanı.

Həvəs istərdi yüksəlsin, uca səflərdə yer tapsın,
Qolundan tutdum, atdım ki, ayaqda öz yerin tanı!

Behərsiz bir an olmuş əgər nəfsim əzəl başdan,
Bu gün şadəm ki, şəhd ilə dolubdur nəfsimin şanı.

Onu mürtədliyə mayil görüncə, adəti üzrə,
Açıldı sirri, mən kəsdim onun başını pünham.

Onu xəlvətdə dəfn etdim, məzarın qanla islatdım,
O qanlı qəbrə mən təlqin dedim ayati-imam.

Şəhidin qəbri zahirdə qan ilə islanar, amma,
Dolar müşk ilə daxildə, saçar can ətri-rizvanı.

Yoxumdur qorxu: o qəbri təbiət kaftarı söksün,
Şəriət məhtabın etdim gecə qəbrin nigahbanı.

Əgər nəfsin məzarında tikan bitmişsə, şükr eylə!
Tikan zahirdədir, sən batinə bax, gör gülüstanı.

Günəşdir hümmətim, rindəm, özüm aləmdə şahənşah,
Minib ərşi, yatırmışdır dizi üstündə İsanı*.

Bəli, dərvişdəki hümmət Günəş misli gərək olsun
Axı o, şahdan üstündür, nə yurdu var, nə sahmanı.

Süleymana bərabərdir hər hümmət sahibi dərviş,
O "rəbbi həbli" təblinin səsindən titrər eyvanı*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahanla can iki bütdür düşüb dərviş ayağına,
Tamahla ehtiyac it tək olub zəncirli dərbanı.

O İskəndərsifət Xızrın hava - taxtı, ağıl - tacı,
O aqil sərxoşa süfrə - rzadır, can - mehmanı*.

Xəzinədarı - fikr, ilham, keşikçi - şər ilə tovfiq,
Əsiri - nəfs ilə amal, qul etmiş çərxi, keyhanı*.

Nə hind çibalı tək qurmuş sitəmlə qəsri-tağuti,
Nə Çin xaqanı tək zülm ilə düzmüş tacə mərcanı*.

Onun təslim ocağında odundur təxti çibalın,
Onun ixlas atına nal edərlər taci-xaqanı*,

Azadlıq meydanında at çapırmaq könlünə düşsə,
Kosu - amal olar, əqlin ayağı - əldə çovqanı*.

Mənim qəlbim evi göz-göz olub, onda pətəklər tək,
Eşikdən sadədirsə, var içində bal dolu şanı.

Hörümçəklər toru zahirdə bir tül pərdəyə oxşar,
İçində, halbuki, yoxdur çibindən başqa büryanı.

Nəyə lazım balıq tək zahiri pullu, içi bomboş,
Sədəf ol ki, üzün sadə ola, qəlbin göhər kanı.

İradə şahının, getdim, öpəm bir gün ayağından,
Məni taxta çıxardı, söylədi: öz mənzilin tam!

Salındı süfrə, əyləşdim, nəyə lazım mənə nemət,
Qidamdır duzlu göz yaşım, üzümdur zər nəməkdanı.

Məhəbbət camını verdi əlimə dost, şad oldum,
O camda Xızr içmişdir, deyirlər, abi-heyvanı.

Belə bir mənzili görmüş, dübarə hissə aldanmaz,
O məclis şirnisin dadmış bəyənməz noğlu, halvanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olar İsa kimi bayram mənim qəlbimdə hər anda,
Fəqirlik bayramında, bil, könüldür təkcə qurbanı.

Mənə qəlbim dedi: ol fəqrə qane, baxma dünyayə,
Rəvadırmı bir ac yurda dikə göz Misr sultanı?

Fələk mehtərləri ömrün atından saldılar nəfsi,
Bu otlaqda nəyin vardır, qəhət almış bu səhranı.

Tapılmaz kəndlidə arpa, onu dövran yandırmış,
Çörək olmaz o təndirdə ki, basmışdır su tufanı.

Tapılmaz heç bu xırmanda bir arpa, aləmi gəzsən,
Gözün çək arpadan, olma çörəkçün şah dərbanı!

Qoşulsa cahilə aqil, əsər qalmaz kamalından,
Bir oğru olsa, karvanda çalar eşşəklə palanı.

Xəsis bu rüzigarın sən pay umma süfrəsindən ki,
Gecə-gündüz iki it tək qovar biçarə mehmanı.

Saqın sən bu ala itdən, amandır, felinə uyma,
Ki, dişdən eyləmiş məhrum dişlə bir çox aslanı.

Fələkdə varsa da bir cüt çörək, bir sünbül, aldanma,
Sənə bir dəstə keşniş də deyil bu çərxin ehsanı.

Gecə goy süfrəsində var çörək xırdaları, baxma,
Dağarcıqda kəpəkdir ki, dilənçi etmiş İsanı!

Tamah ölmüş, ona meyyit namazı qıl desəm, hardan,
Taparsan su? Tutub başdan-başa çirkab bu dünyanı.

Təyəmmüm qıl desəm, yoxdur bu dünyada təmiz torpaq
Şəhidlər qanı basmışdır bütün bərrü biyabanı.

Özünü bəsləyənlər bir gülə oxşar ki, gülşəndə,
Kəsifdir batini, ancaq geyib əyninə dibanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağan süfrə açan günlər bütün itlər edər bayram,
Acından ölsə də, aslan yeməz itlərlə ehsanı.

Səxavət sahibi bircə tikəylə cənnəti aldı,
O, qorxmaz, olsa da müflis, bu dünya fanidir, fani.

Nolardı, bircə bilsəydim: bu dünyada nəyin artar,
Yeyib-içsən gecə-gündüz şərabı, noğlu, reyhanı

Əmirə söylə, ta bilsin ki, nəfs - it, nəş - sərvətdir,
İtə həmkasə olmaqla gedər badə şərəf-şanı.

Ölər ilbiz çanağında, çıxar əfi qılafından,
İlandan kəm deyilsənsə, soyun bu rəxti-əlvanı!

Süleymanam demə, əvvəl yanından divləri rədd et,
Qov, öldür, ya tutub zəncirə çək quli-biyabanı!*

Sənin amir o ruhun ki, tapar yer bağı-cənnətdə,
Çalış etmə qara nəfsi bu nurlu ruh zindanı.

Xoşa gəlməz ki, şahənşah qayıtsın şad qürbətdən,
Otursun qəsrdə rahət, unutsun yarü-əvanı.

Bu aləmdən uzaqlaş sən, o aləm dərdinə qalma,
İki aləmdən üstündür təfəkkür əhlinin canı.

İki aləm - iki gözdür tərazusunda Allahın,
Sığınmaz onlara bir əl ki, qurmuş ədl mizanı.

Kişi heç vaxt iki aləmdə mənzil fikrinə düşməz,
Ki, Mizan Nahidindir, görməz o Mizanda Keyvanı*.

Ayaq torpağını al mərdlərin, başına tac eylə,
Qızıl tac alma, vermə oğruya sən sirri-pünhanı?*

Deyil dərviş o kəslər ki, ola şah tacına məftun,
Gərək dərviş bir gözdə görə dərvişlə sultanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül sultanı dərvişlər səfində xas yer tutmuş,
Ki, şah tacından üstündür ona dərvişin astanı.

Bütün dərvişlərin şahı olubdur Əhmədi-Mürsəl,
Ki, "Nuni-vəl-qələmi" "Quran"da səbt etmiş bu fərmanı*.

Əgər dərvişsən, dərvişlərin əhvalına qal ki,
Günəş üryan ikən xələtlə şad eylər çox üryanı.

Cahanda yoxsul olduqca, daha artıq səxavət qıl,
Ki, meynə doldurar zərlə payızda bağı, bostanı.

Əvəz ummaq səxavət qarşısında, bil, riyadır bu,
Verib bir dirhəmi, on dirhəm etsən borclu yəzdanı.

Bacarmaz yaxşılıq pislər, müqəssirdir buna xilqət,
İlandan bal umarlarmı, onun yoxdursa imkanı?

Arı həm bal verər, həm də, yeri düşsə, soni sancar,
Ona baxma ki, vəsfində yazılmış vəhyi-rəbbanı.

Bacarsan, olma aludə calalma bu dünyanın,
Bu murdar daşı almaqla ələ, şad etmə şeytanı.

Fəqirin xirqəsində bəxyələrdə rəmzlər vardır,
Ki, anlar "lövhi-məhfuz"u açanlar bu müəmmanı*.

Hamı dünyaya aşiqdir, biz isə qəmdən azadıq,
İtə aşiq olanlarda gərəkdir ola it canı.

Sənə bir həftəlik bəxtin əgər yar olsa, şad olma,
Üçüncü həftədə başlar Ayın cismində nöqsanı.

Atarsa qol-budaq neysan ayında kükrəyən əncir,
Onu xoşbəxt sanma, qarşılar pəjmürdə abanı*.

Fəlakətsiz səadət umma dövranda, yəqin bil ki,
Hilal iqbalına qarşı təbiət qoydu Sərtanı*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşünsən haqqını, yoxdur cahanda daimi iqbal,
Səadətdir o şey ki, bu cahanda fanidir, fani.

Həzər qıl ah oxundan gücsüzün, bil, pusquda durmuş,
Çəkər nalə zəiflikdən, vurar tuş ah peykanı.

Tökər sübhə qədər qan-yaş gözündən sel kimi məzlum,
Boğar zalımları rahət yataqda qanlı tufanı.

Əlac axtar qəza təqdirinə, sən əzdiyin aciz,
Düşübsə torpağa, ahı yıxar ərşi-müəllanı.

Salıbsan Bijəni həbsə sən, ey Əfrasiyab, yatma!
Durubdur pusquda Rüstəm əlində tiği-bürranı*.

Yatarsan məst, lakin yatmamış sən əzdiyin məzlum,
Pilə qurdu kimi sazlar sənə tor çeşmi-giryanı.

Edibsən it kimi pislik, peşiman ol, "əl-əfv" söylə,
Ki, it də eyləyər "əf-əfv" nəyin olsa peşimanı.

Qocalmışsan, ölüm vaxtı nədir, nalan olursan sən;
Doğulduqda uşaq ağlar, tutar dünyanı əfğanı.

Qoyun tək bağlamış quyruq sənə dövran, belindən at,
Onu, qoy kavü mahinin dağılsın qəsri, ərkanı*.

Sənə dayə olub torpaq, südün əmdin, əmər qanın,
Bütün qanın o süddəndir ki, vermiş dayə püstanı.

Cavanlar qanıdır, içmə, əlində tutduğun badə,
Ki, torpaq meynəlikdən qaytarıb öz içdiyi qanı.

Gözəl zalimlərin nəfsi kimi, xunxar bu dünyanı,
İçi olmuş məzarıstan, eşikdə bağlı bostanı.

Xorasan bir hərəmdirsə, Məlikşahdır ona Kəbə,
Səmərqənd bir fələkdirsə, bir ulduzdur Qədərxanı*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qədərxan öldü, bir gün də Səmərqənd etmədi nalə,
Məlikşah getdi, bir kəs görmədi ağlar Xorasanı.

Məlikşah "od-su" adlandı, su axdı, atəşi söndü,
Kül oldu, torpağa döndü, məkanı qıldı Sifahanı*.

Vurarkən Səncərə şəbxunu Gurxan fateh adlandı,
Əcəl Gurxana şəbxun vurdu, kor oldu şəbistanı*.

Görün, Xaqaniyə hümmət necə imkan yaratmış ki,
Bu gün yüz fəlsəfə ustadını saymaz da Xaqanı.

2. ÖZÜNÜ TƏRİF VƏ PAXILLARI MƏZƏMMƏT

Söz mülkünün məndən yaxşı yoxdur özgə şəhriyarı,
Bu dünyada tək mənimdir söz mülkünün ixtiyarı.

Bakir məna Məryəminin Cəbraili, bəli, mənəm*.
Mənaların aləminə hakiməm, yol göstərənəm.

Ağlın Tuğanşahına həm vəkil, həm nayibəm mən*,
Fəzilətin gəlininə ləyaqətli sahibəm mən.

Geyib hikmət zirəhini, indi hərif istəyirəm,
Açıb ilham süfrəsini, uca səslə "gəl" deyirəm.

Mənim bakir sözlərimdir xasiyyətdə ruh tilsimi,
Mənim qəlbim nurlandırır ağılları günəş kimi.

Sehir düzən şairlərə sapı verən, bil, mənəm, mən,
Bütün şer zərrabları hey kimiya alır məndən.

O Həssanın qəlbin yeyən bu nəzmimin həsrətidir,
O Söhbana sillə vuran bu nəsrimin qüvvətidir*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlhamımın Büraqı da hansı yerdə salarsa nal,
Fələk onu döyüş üçün kəskin qılınc edər dərhal*.

Mübaliğə deyil əsla: "papağımdır - əzəliyyət,
Günəşin insanlara tikdiyim - əbədiyyət".

Yer üzündə kölgə kimi sakinəmsə, diqqət et bir,
Əsərlərim Günəş kimi mənzil-mənzil dünya gəzir.

- Bu ustadın adı nədir? - Biri deyir heyran-heyran,
O biri də soruşur ki: - Bu sehirkar gəlmiş hardan?

Qənaətin şahlarşahı verən gündən mənə fərman,
Hərisliyin xidmətçisi tuta bilməz, bil, yaxamdan.

Mədhim şirin, həcvim turşdur,bunu bilir hər bir insan,
Mey alınır üzümümdən, tutiyasa turş qoramdan.

Mən əmirəm, dilim ərşin sərvətinə bir açardır,
Dediyimə Məhəmmədin hədisində sübut vardır*.

Dəfinələr, xəzinələr içindəyəm hər zaman, bax,
Onlar isə inci tapmaq həvəsilə ələr torpaq.

Bu aləmə gələn gündən ağlın mənəm bir çırağı,
Onlar isə kordur tamam, görməyirlər heç uzağı.

Dərrakəmin, qüdrətimin düşmənidir bu paxıllar,
Bax, bu sehri, xariqəni riyakarlar edir inkar.

Bir neçə haqq tapdalayan Yusifə də dedi hədyan,
Məhəmmədin sözlərini yalan saydı neçə nadan*.

Məna yurdu Hindistanda Adəm kimi tutdum qərar,
Sənət yurdu Çində "mərdüm-giya" olmuş bu ulaqlar*.

Qurşun kasa içi kimi qapqaradır ürəkləri,
Civə qabı ağzı kimi bərk bağlanıb ver əlləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sanki onlar quldurluğun məktəbini bitirmişlər,
Küfrə qardaş olub, səfa dostlarını itirmişlər.

Mən ki, Misrin əziziyəm, ləyaqətsiz bu adamlar,
Bazarlarda veyillənib gəzə-gəzə namus satar.

Haqlıdırlar - bir səbəbdən onlar olsa mənə düşmən
Çünki Süheyl ulduzu tək öldürürəm bicləri mən*.

Peymanəmi yalayarlar onlar susuz olan zaman,
Ac qarını doyurarlar bol süfrəmin artığından.

Fillər kimi başlarında olan beyni əzərəm mən,
Çıxardaram ilan təki mən onları dərisindən.

Ad qoşunu olsa onlar, mənim yel tək qələmim var,
Onlar Yocuc tayfasısa, mənim nitqim sura oxşar*.

Onlar nahaq özlərini Xaqaniyə bənzədirlər,
Çirkab suyu təmiz neysan yağışına necə bənzər?

Qamışlıqda qarğıların bütün rəngi görünsə bir,
Birisindən şəkər çıxır, digəridən quru həsir.

Bəziləri eşidərkən şerimdəki fəsahəti,
Beyinləri alov tutar, artır mənə küdurəti.

Deyirlər ki, özümüzük dəniz güclü o Xaqani,
Bəli, onlar Xaqanidir, ortasından atsan "qa"nı*.

3.

Kinayə edib, söylədin, Xaqani,
Şerlər yazırdı rəvan Ünsüri.

Bəli, eylə bir şaha məddah idi,
Ki, oldu belə kamran Ünsüri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəzəl yazdı ay üzlü yar eşqinə,
Olub şahlara mədhxan Ünsüri.

Qəzəl, mədhdən başqa öz təbini,
Daha etmədi imtahan Ünsüri.

Qəzəl, mədh yazmaqda, aləm bilir,
Deyil mən qədər dürr saçan Ünsüri.

Bu sehri ki, mən şerdə etmişəm,
Bunu etməmiş heç zaman Ünsüri.

Əgər şer yazmaqda on hüsn var,
Birindən fəqət tapdı şan Ünsüri.

Mənim şerimin tazə üslubu var,
Qədim səpki bildi haman Ünsüri.

Nə təhqiq, nə zöhd, nə vəzdən,
Kiçik söz də bilməz, inan, Ünsüri*.

Bununla belə, şah Məhmuddən,
Hesabsız alıb ərməğan Ünsüri.

Beş-on beytə almışdı yüz qul, qızıl,
Alındıqda Hindustan, Ünsüri*.

Qızıldan düzəltdi qaşıq, qab-qacaq,
Gümüşdən düzəltdi qazan Ünsüri.

Sağ olsaydı, indi bu nakəslərə,
Yazardı, yəqin, min yalan Ünsüri.

Bu namərdlərin süfrəsində sümük,
Sorardı pəri tək nihan Ünsüri.

Çörək arzusuyla bu alçaqların,
Əlindən öpərdi hər an Ünsüri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağızda deyildi mənim tək dili,
Qılıncdan iti, səf yaran, Ünsüri.

Yox idi mənim tək onun nizəsi,
Döyüşdə verə imtəhan Ünsüri.

Nə nəzmi, nə nəsri çatardı mənə,
Deyildi dərin nüktədan Ünsüri.

Nə nəzmiydi pərvin, nə nəsriydi nəş,
Olammazdı şəmsi-cahan Ünsüri*.

Nə alim, nə şarehdi, nə bir ədib,
Nə Söhban, nə yarəb bəyan Ünsüri*.

Qızılla necə süslənər bir gəlin,
Qızıl aşiqiydi yaman Ünsüri.

Verib malımı, şad olduqda mən,
Alıb zər, olar şadman Ünsuri.

Bilikdə başı ərşə yüksəlsə də,
Vara, sərvətə atdı can Ünsüri.

Bilikdə olar Ünsüri hər yetən,
Ola bilməz hər varlanan Ünsüri.

4. QİTƏ

Böyük şair mənəm, məna süfrəsi də mənimkidir;
Ünsüri də, Rudəki də artığımla dolanarlar.

Adım alim nəfsi kimi təzəlikdən dipdiridir,
Kəramətli adamlar tək mənim də az tamahım var.

Sözüm gündüz qədər ağdır, vəziyyətim gecə kimi,
Şerim qılınc çəkən hindu, ahını göyə min ox atar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qart qarının qarşısında kimsə mərdlik edə bilməz,
El uşaq tək acizdir, mən olmaram uşaq tək zar*.

Mən körpəcə bir bülbüləm, bircə buğda bəsdir mənə,
Məni baramа qurduyarı və deyiləm bir mərdümazar.

Bayquş başdan böyüksə də, o, quşların ən pisidir,
Kiçik başlı əl quşusa hər bir quşdan baş sayılar.

Nə vaxtadək sən gül kimi "qızılım var" deyəcəksən,
Səhər yeli kimi əssəm, ləçəklərin bərbad olar.

Sən xoşsöhbət, doğrugörən deyilsən, mən əfv edirəm,
Çünki çaşgöz əyri görər, qanqal daim zəhər dadar...

5. QİTƏ

Zaman başa vuranda Sənainin dövrünü*,
Asimandan mənim tək bir söz yayan doğuldu.

Gömüldüsə Qəznədə bir sahir torpaqlara,
Şirvan torpağında bir sahir cavan doğuldu.

Köçdüsə də dünyadan bir xoş avazlı bülbül,
Köhnə evdə təzə bir tutizəban doğuldu.

Bir ölkədə öldüsə yeganə söz ustadı,
Başqa eldə bir ustad şer yazan doğuldu.

Getdisə də bir dahi üçüncü iqlimdən, ah!
Beşinci iqlimdə bir dahi insan doğuldu*.

Tükəndi reyhanların ömrü, güllər açıldı,
Səhərin fəcri keçdi, Günəş ondan doğuldu.

Məğribin yaxasında qəmər gizlənən zaman
Məşriqin ətəyində Günəş o an doğuldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qayıtdısa Mahmudun cismi qara torpağa,
Əhdimizin Səlcuqu o torpaqdan doğuldu.

Tarixlərə baxanda gördüm Bəhmənı öləni tək,
Tarixdə İskəndər tək bir hökmran doğuldu*.

Düz danışan Yusifin şirin dili susanda,
Onun varisi Musa tez anadan doğuldu*.

Əbu-Hənifə öldü, axşamüstü, həmin gün,
Şafei dan ulduzu çıxan zaman doğuldu*.
Məhv etdisə gecənin əsərini zəmanə,
Gündüzün müjdəçisi işıqlı dan doğuldu.

Çox şükür, soz bağında çiçəklər töküldüsə,
Budaqlar bəhərləndi, məna, ürfan doğuldu.

Söndü axan bir ulduz, parıldadı şəhabı,
Torpaq su içdi, ondan xoş gülüstan doğuldu.

Bir məsəl var, deyərlər: toyuq dən yedi, sonra,
Onun yumurtasından ləlü mərcan doğuldu.

6.

Dodağım saxsı, üzüm torpağa dönmüş, canım,
Daş olub; odlu sudur, saxsı kasa dərmanım.

Almaram, yar mənə versə qızıl camda şərab,
Öpərəm saxsı kasa, versə əgər cananım.

Torpağam, saxsı qədəhlə içərəm qırmızı mey,
Az qızıl cam adını çək, o deyil imkanım!

Ürəyim yandı, dəniz boyda mənə badə gətir,
Ki, sədəf cam ilə sönməz bu dili-suzanım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamı dostlar düşünər halımı, inşafla deyər,
Necə min zülm rəva gördü mənə dövranım.

Mən sədəf cam əlimə almaram, ey saqi, ver,
Saxsı bir camı, dağılsın qəmi-bipayanım!

Coşaram dalğalı dərya kimi, məstəm, əlimə.
Vermə, saqi, o sədəf camı, udar ümmanım.

Torpaq ətrini duyub saxsı qədəhdən, tükümün,
Hər biri ətr saçar sanki güli-reyhanım.

Balıq əndamlı hərif əldə sədəf cam tutar,
Mən nəhəngəm, sədəfə dar görünür meydanım.

Oxşayır ceyrana saqi, qədəhi zər öküzə,
Meyi dovşan qanıdır, istər edə qurbanım*.

Saqi, zər çamda mənə vermə bu dovşan qanını,
Ürəyim şir ürəyi, it kimi bərkdir canım.

Samiri zər öküz istər, ona ver; Musa tək,
Mənə ver abi-həyat, yandı ləbi-ətşanım*.

Dörd divar palçıq imarətdə ki, beş gün qonağam,
Təkcə palçıq qədəh ilə qurular eyvanım.

Bir dəmir camam, içim ahü-ələmlə doludur,
Canlıyam mən, suya möhtacdır hər bir anım.

Mən cəvahirçi müğəm, saxsı küp isə mücrüm;
Ölçülür saxsı çanaqla göhərim, mərcanım.

Üç yüz altmış damarım canə gələr, dolsa əgər.
Üç yüz altmış dirəm o gövhər ilə mizanım.

Ağzına ləl alanlar susamaz, heyranəm,
Yeyirəm ləli, məgər heç susayarmı canım!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə səbəbdən ürəyim yüngül olur, dərdim ağır?
Başa çəkdikdə ağır badəni, ey cananım!

Söylədim dün gecə saxsı qədəh ilə meyə mən,
Ki, nədən qəm evi olmuş bu dili-viranım?

Hansı torpaqla sudansız ki, sizinlə sönməz,
Qəlbimin atəşi, lakin yanar hər ərkanım?!

Göz yaşı tökdü qədəh, söylədi: mən Pərvizin,
Torpağından əmələ gəlmişəm, ey xaqanım!*

Al şərab ah çəkib söylədi: mən xaqanın.
Qanıyam, şahididir bu sözümün bağbanım.

Çünki, şahlar qanını şah cəsədində içirəm,
Ne təəccüb yeri var, şadlığa yox imkanım!..

Mən ki Xaqaniyəm, olmuş xörəyim şah qanı,
Nə əcəb ki, bunu bilməz bu dili-nadanım?

7.

Xaqaniyəm, yer üzünə yayılmışdır şöhrətim;
Bu aləmdən xilas olmaq hikmətimdir, hikmətim.

Qırmış tamah cinlərini sənətimin xəncəri,
Bu kəskin dil mələklərdən olmuş mənim qismətim.

Mələk üzlü, bəd tiynətli fələk istər: Cəmşidə,
Divlər bir qul olduğu tək bəlkə ola xidmətim*.

Yoxumsa da var-dövlətim, demərəm ki, yoxsulam,
Yoxsulluq bir varlılıqdır, artar onla şövkətim.

Bu dünyanın murdarlığı əlindən can qurtarsam,
Yusif olar suçəkənim, artar qədrim, qiymətim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstəyirdim mən xacənin töhfəsini rədd edəm,
Çünki belə töhfələrdən çox yüksəkdir hümmətim.

Xızr dilə gəlib, mənə dedi Kəbə adından:
Rədd eləmə, bil ki, odur mənim vəli-nemətim*.

8.

İyirmi yaşdan azsa da sinnim, mənimtək bir cavan,
Görməmiş doqquz fələk söz sənətində kamiran*.

Mən fəzilət sahibi olsam da, yoxdur dövlətim,
İndi dövlətsiz fəzilət bir quru addır, aman!

Bir sürü alçaq adamlar tən edirlərsə mənə,
Neyləmək, divanələr kamınca olmuşdur cahan.

Hər qədər tənə vura düşmənlərim, kin bilmərəm,
Çünki, axır tənəyə məruz olur tənə vuran.

Dağlara məxsus sifətdir ki, eşitcək hər səsi,
Qaytarar bir-bir geri, təkrar eylər anbaan.

Dağ neçin hazırcavab olmuş, düşünsən sirrini,
Gövdəsi sanballıdır, başdan o yünküldür, inan!

9.

Dəvatımın üzü sadə, içi dərin dəryadır,
Qara suyu nəhəngiylə əcəb ona oxşayır*.

Görübsənmi, necə sökər dan qaranlıq bağrını?
İki mənada dəvatım nurlu dana oxşayır*.

Musa "yədi-beyza"sının timsalıdır bu dəvat,
Qələm dəxi inci səpən bir ilana oxşayır*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zireh dələn qələmimin uçu - nizə gəzdirən,
Gözətçilər nəzərində bir peykana oxşayır.

Sözlərimlə şahlar kimi döyüşərkən, dəvatım.
Sultanların sursat, silah anbarına oxşayır.

Xaqaninin təbi tutmuş cilovundan Ceyhunun,
Dəvatısa Səmərqəndi - Xızrxana oxşayır*.

10. PAXILLARI MƏZƏMMƏT

Bir ovuc sümsük, bədii sözdən əsla bixəbər-
Özlərini tay tutarlar hey mənə, amma hədər.

Mən işıqlı ulduzam, nurum tutub hər məclisi,
Onlar isə saxta aydırlar ki, çıxmazdan sönər.

Çün təfəkkür surumu çaldım, qiyamət sandılar,
Baxmayın, onlar kəfəndən çıxmamışlarsa əgər.

Bəslənərlər nemətindən daima ilhamımın,
Zül-Yəzən oğlu kimi onlar bunu inkar edər*.

Olmayıblar Şah Tuğan aləmdə çün söz mülkünə*,
Çarəsizlikdən hamı təlxək kimi zuzəkləyər.

Lovğalansınlar ki, olmuşlar sədəf tək hamilə,
Təbi doğmaz onların ənbər, yetişdirməz göhər.

Bir qapaqsız təştə oxşarlar əgər çalxansalar,
Ağzıyırtıqlar üfunət kanıdır, aləm bilər.

Hiyləgərlikdə hamı ofsunçu Dimnə olsa da*,
Çalmamışdır heç biri meydanda aslan tək hünər.

Fərqlənməzsə cidardan rəngbərəng zahirləri,
İç tərəfdən bu cidarlardır zəhərli gürzələr.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xilqətin çirkabıdır onlar, təbiət tortası,
Təkcə acgözlük, paxıllıqdır bu əşrarə hünər;

Onları etmiş tamah dibsiz quyu içrə əsir,
İp kəsilmiş, qıç qırılmış, yox nicat həşrə qədər.

Söyləyirlər ki, vəliəhdik cahanda Adəmə,
Bu, yalandır, hər biri İblisdən dərs öyrənər.

Hər biri dövlət quşu adlansa da, bayquş kimi.
Yer tutar viranədə, qarğa kimi murdar yeyər.

Qülləsində dağların yüz min riyazət çəksə də,
Töhmət əhlinə deyərlər: bu Brəhməndir məgər?*

Lovğalıqla söyləyirlər: hamımız din əhliyik,
İşdə zındıqlar kimi icad edərlər fitnə, şər.

Çoxları vaxtsız xoruzdur, çoxları gündüz şamı,
Onları ağlı olanlar öldürər, ya söndürər.

Yoxdur onlarda qanadlı bir qarışqa qüdrəti,
Təfriqə salmaqla dünyanı edərlər dərbədər.

Sayəsiz, barsız qovaq tək boy atar düşmənlərim,
Hikmətim, təbim mənim hər an verər şirin bəhər.

Fitnə Rəxşini minib, ox sazlayarlar hiylədən,
Rüstəm olmazsa, yetər İsfəndiyaramı zərər?!*

Olsalar da "on"suz Firon onlar, məndəki,
Ağ əlin ecazını görməkdə yox onlarda fər*.

Haqları var bir cəhətdən, pıspısa nə anlayır,
Hər nəfəsdə aləmi gül ətrinə çulğar səhər?

Adət etmişlər sığınsınlar zəli tək batlağa,
Çün Ədən dəryasına cummaq nəhəngə əl verər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoy yesinlər partlayınca hər ucuzlu süfrədən,
Onlara ləzzət verərmi məndəki şəhdü şəkər?

Hər sözümdən qəlbi nurlu şəxslər xoşhal olar,
Onların kor qəlbinə çökmüş bu sözlərdən kədər.

Bir çəməndə qəlbimin açmış ətirli gülləri,
Pak ruhlardır, tamaşa etməyə göydən enər.

Culfaya var nisbətim, fikrim nəyi xəlq eyləsə,
Əyninə en-arğacı idrak olan paltar geyər.

Gövhərim nəccardır, təbin nəcib övladına,
Tişəsi altında bir mahir ata əl gəzdirər*.

Hoqqabazlıqdır işi başdan-başa cahillərin,
İmtahan et, yox bilik onlarda bir şagird qədər.

Harda ki, saf incilər səpdim bu odlu sinədən,
Qüssədən dondu həriflər, bağrı aldı neştər.

Nəzm tufanından onlar mütləqa tapmaz nicat,
Arvadı, oğlu kimi Nuhun, mənə ləc getdilər*.

Olsalar da həmzaman, həməsr bu Xaqaniyə,
Başqa-başqa fitrətə malik olar həməsrlər.

And ola şah canına, şah da bilir ki, onların ,
Haqqı yoxdur boş sözüylə şaha versin dərd sər.

11.

Əqlə ağır yük daşıdan mənim könlüm, bəyanımdır,
Qələm seyrə çıxan zaman söz üzəngi tutanımdır.

Zəmanəni dövr etdirən bir Allaha and olsun ki,
Dövran mənim dövranımdır, zaman mənim zamanımdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeriyyətin qıt olduğu bu əyyamda, aləm bilir,
Ac qəlbləri qonaq edən mənim şirin lisanımdır.

Dünya ki, söz narıncının ətri ilə çulğanıbdır,
Mənaların meyvəliyi mənim yaşıl bustanımdır.

Hər axmağın hərzəliyi incitməyir əsla məni,
Bu dünyada yoxdur tayım, meydan mənim meydanımdır.

Çox tez çatır Şərqə, Qərbə mənim könül məktublarım,
Çün fələyin göyərçini pulsuz xəbər yayanımdır.

Mənəm məna yaratmaqda şairlərin peyrəmbəri,
Söz möçüzü varsa əgər, bu gün mənim bəyanımdır.

Sən, ey mənə pis söyləyən, bir gün şimşək vursa səni,
Ölüb getsən, bil, o şimşək mənim ahım, fəğanımdır.

Həcv edərkən söyüş söymək xasiyyətim deyil mənim,
Ədəb mənə ailəmdən təkcə miras qalanımdır.

Məni inkar etmə, sənin cəhalətin xarab olur,
Cəbraili xatırladan nağıl mənim rəhbanımdır...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏDHİYYƏLƏR

1. ƏMİSİ KAFİYƏDDİNİN TƏRİFİ

Kafinin təbidir hünərə əsgər,
Əsgəri ney kimi şəkərdir, şəkər*.

Hər şərbət kasası, kövsər qətrəsi,
Olub sözlərinin bir nümunəsi.

Qızdırmanı kəsən neyşəkər kimi,
Dərdə dərman edir qarğı qələmi.

Gülqənd, o qarğıya paxıllığından.
Boğazda zəhərdir, ciyərdə tikan*.

Bu qələm yaradır elə şirin qənd,
Ki, olmuş müştəri ona Səmərqənd.

Sözün gəlinini köçürdən zaman.
Onun qələmidir xütbə oxuyan.

O qələm hüsndə Yusifə oxşar,
Görsə göy gəlini əlini doğrar*.

Heyrət etmə, versə qələmi şəkər,
Qəribədir, şəkər istəsə əgər.

Kökü su içində olan zəfəran,
Səhərin şehini arzular hər an.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani mədh etsə onu nə qədər,
Başı uca olar, iftixar edər.

Xidmətində necə "nun-vəlqələm",
Qəddi xəm, qəlbi düz dayanar məhəl.

Taleyim qələmi sayəsində, bax,
Onun sözləri tək yüksəlir ancaq.

Göndərə bildimsə ona gümüş, qənd,
Bu töhfə çox azdır, çəkdim xəcalət.

Hümməti önündə gümüş və şəkər,
Utanar mənimlə şerimdən bəzər.

Gümüş və şəkərdən təbi, damağı,
Təmğacın kanıdır, Şüştərin bağı*.

Qənd, gümüş üzrilə mənzumə dedim,
Az şeyin üzrü də azdır, nə edim?

Gümüş bərabərdir gözündə daşa,
Ləldir qələmindən qopan talaşa*.

Çünki qələmindən qopan o yonqar,
Mirvariyə bənzər, inciyə oxşar.

Fikrinin qovuşan ulduzlarından.
Təbimə bir ilham gələr hər zaman.

Ona bundan belə can verərəm mən,
İndilik bu gəlir yalnız əlimdən.

Gümüş, ya daşdakı naxışlar kimi,
Düşüncə tacına həkk olmuş ismi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1.BAKLAN SƏDDİNİ BAĞLATDIRDIĞI ÜÇÜN ŞİRVANŞAH MƏNUÇÖHRÜN TƏRİFİ

Göy cəlallı at üstündə şah bənd vurub gur çaya,
Baklan səddi kənarından dönüb gəldi saraya.

Bahar kimi, öz atına min bir zinət verərək,
O, suların cilovunu yığdı bir qış yeli tək*.

Sikkəsinin arzusuyla çayda üzən balıqlar,
Pullarını qızıl pula çevirdilər nə ki var.

Şah ümmandır, onun atı bir atəşin nəhəngdir,
Bu nəhəngin cəvahirlə zinəti çox qəşəngdir.

Qılıncında ayna kimi əks olunur asiman,
O aynanın üzündə də sudan vardır bir nişan.

Kim görmüş ki, su şəkili çəkilsin bir aynada,
Ya kim görmüş su içində şəffaf olsun ayna da?

Görmək olmaz bir aynada heç bir zaman Günəşi,
Lakin Günəş ayna ilə suda durdu yanaşı.

Şahın odlu qılıncının qarşısında bu dəmdə,
Odun rəngi qaçdı tamam, sular düşdü kəməndə.

Təklik sevən bir sufidir şah qılıncı, bil, anla!
Alır hər –vaxt dəstəmazı su ilə yox, al qanla.

Suyun belə fikri varmış: torpağa vursun zərər,
Sanki suyun bu fikrindən şaha çatıbdır xəbər.

Gördü kəmər bağlamışdır torpağa su hər zaman,
O da suyun belinə bir kəmər vurdu torpaqdan.

Axar suyun mədəsinə torpaq tökdü o qədər.
Ki, torpaqçün törətməsin daşan sular bir xətər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Torpaq suyun ciyərində düyümləndi, doğrusu,
Şah qılıncı qorxusundan qabarmadı daha su.

Qalxdı suyun ciyərindən fələklərə ah, aman,
Ağlar suyun naləsindən cana gəldi asiman.

Gah gördü ki, "Əliallah" deyib, edir ahü-zar,
Yumdu onun ağzını ki, etməsin bir də təkrar.

Sular şahın xidmətinə baş əyərək, nəhayət,
Xızrı çəkib gətirdi ki, şaha etsin şəfaət.

Xızr dedi: "İdrak ilə ey sulara bənd vuran!
Gəl, indi sən icazə ver, sular olsunlar rəvan".

Şah Xızırın ricasını aldı o dəm nəzərə,
Coşğun suyun cilovunu ona verdi bir kərə.

Qoy su, torpaq şahımıza olsun möhkəm bir dayaq,
Nə qədər ki, bu dünyada olacaqdır su, torpaq.

Şairlərin qarşısına düşüb gedir Xaqani, -
Necə köpük öndə gedər, dalınca su karvanı.

3. ŞİRVANŞAH MƏNUÇÖHR İBN FİRİDUNUN TƏRİFİ

Eşq sərib xalçasın, rəqs ilə gir meydana,
Sat evini, var-yoxun tulla tamam bir yana.

Böylə kəcavə üçün könlünü meydan elə,
Böylə gözəl dilbərə canını qurban elə!

Eşq çölündə gəzib, yaxşı çəmənlik ara,
Rəxşini, layiq deyil, salma bu otlaqlara.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Küllüyü dövrün deyil əmnü amanlıq bağı,
Tutma Məsihaya tay gördüyün hər sallağı!

Qəlbi sərinlətməyir şərbəti bu dünyanın,
Təbaşiri sümüklə, bil, qarışıqdır onun.

Azca ye, Xaqaniya, süfrə açan ruzigar,
Yox xörəyinin dadı, üz-gözünü turşudar.

Öp ayağından şahın, taci-əman al ələ,
Can şirəsi istəsən, Mənuçöhrü mədh elə.

Əməl də bir mələkdir, döyüşdə aslandır o,
Turanı fəth eyləyən Rüstəmi-dastandır o.

Ey dodağıyla xalı tuti və Hindustan!
Hüsnünə qurban üçün-bir qulunam əldə can.

Zülfün, üzün bağrıma bir yara vurdu dərin,
Gözlərimi ağladır xalın ilə ləblərin.

Çil atını hüsnünün meydana saldıqda sən,
Tutdu səmanın gözü çil mərəzi qibtədən.

Ləblərinin oksidir sünbülü pərvin haman,
O təzə-tər xurmanın məskənidir asiman.

Qəlbimə vurdun yara, dözməyim asan deyil,
Çünki mənim dərdimin çarəsi dərman deyil.

Səndən uzaqda deyil bircə tüküm də, inan,
Səndəsə bir tük qədər yoxdu vəfadan nişan.

El bilir, aləm bilir, tükdeşən olmuş dilim,
Döndü sənincin tükə nalədən, ey sevgilim.

Xaqaninin təbini bağlama sevdaya sən,
Səfrasını kəs onun nar kimi ləblər ilən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən də köhnə əhdini, gəl, təzələ, Xaqani,
Padişahı mədh elə, tər söz ilə, Xaqani!

Xalqa olubdur kömək, bəd əməli məhv edir.
Xəlifədir pənahı, o sultan hünərlidir.

* * *

Yaydı bahar yelləri sur səsini hər yana,
Xoş nəfəsindən onun gəldi təbiət cana.

Saldı Günəş çiyninə toplu buluddan çətir,
Qönçəsinə gülşənin səpdi səba xoş ətir.

Gül yaxa açdı, qızıl tərliyi oldu oyan,
Yatdı gecə bayrağı, çıxdı Günəş pusqudan

Dincini aldı səhər, doldu, odur, ət-qana,
Xəstə və yorğun gecə çıxdı arıq, meydana.

Gül-çiçəyi aynatək əks eləyəndə sular,
Qövsi-qüzeh şəklini çəkdi göyə ilk bahar.

Xurma, söyüd bakirə Məryəmidir bağların,
Gül isə İsa kimi açırdı dodaqların*.

Qar əriyib, yerindən bənövşə çıxan zaman,
Heyrət etmə, kafurun kanıdır Hindistan*.

Budaq bahar yelindən asqıraraq dirildi,
Göyərçin həmd oxudu, "əbədi sağ qal" dedi.

Ayın biriydi dünən, baxanda təzə Aya,
Üfüqün qulağında bənzəyirdi sırğaya.

Əsdi səba, gülşənə çəkdi bir ordu bahar,
Etdi xəzandan qalan ordu-önündən fərar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bitkilərin şahına oldu düşərgə çəmən,
Səpdi onun başına incini neysan həmən.

Başda dəbilqə, hücum çəkdi bənövşə bağa,
Zubini hazırladı süsən onu vurmağa.

At qulağı ölçüdə oldu söyüd yarpağı,
Bir zireh at döşlüyü sandı görən zanbağı.

Şənliyinə ilk yazın verdi bəzək yasəmən,
Gördü onu, lalədən qübbə yaratdı çəmən.

Xırdaca tiryək düşən meylə doldu lalələr,
Bunu görən nərgizlər tutdu zər piyalələr.

Küknarın gümüş başı hoqqaya dönən zaman,
Qönçə görən tək onu verdi tumurcuq nişan.

Sərvin budağı oldu bu məclis içrə minbər,
O budaqdan ucaltdı bülbül dadlı nəğmələr.

Dərvişsayaq qumrunun beynin qurutmuşdu qəm,
Nəsrin bunu görəndə, tez ona verdi məlhəm*.

Dedi göyərçin ki: - Mən naibəm Xaqaniyə.
Gül ağacı istədi şahına tərif deyə.

O sultanlar şahıydı, onun dövründə Şərvan
Öz adını dəyişib olmuş idi Xeyirvan.

Məğlub- etdi davada Zöhrə ilə Dəhrəni,
Nizəsilə Dəhrəni, qılıncıyla Zöhrəni*.

Şir nişanlı bayrağı dövlətinin rəmzidir,
Bütün əcəm mülkünü qılıncıyla fəth edir.

Vardır onun camının mayəsi və payəsi,
Bəhri-mühit payəsi, abi-behişt mayəsi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər yanda rahatlığa, bil ki, səbəbkar odur,
Rahatlıq olan yerdə el də bilikli olur.

Cəm kimi, Davud kimi vardı şahın xisləti,
Vardı aman neməti, vardı kamal hikməti.

Dünyaya hakim olan bəxti olub imdadı,
Şer səmasında da ulduza dönmüş adı.

Yollarına toz kimi uğur səpilmiş onun,
Qəza rikabındadır, rütbə tutub cilovun.

Xəncər onun önündə qında olur hər zaman,
Gürz əyir öz başını, kəmənd açılmır, inan!

Hümməti ilə onun çaldı zəfər səltənət,
Hikməti ilə onun elmə çatıb məmləkət.

Sinəsi can Kəbəsi, dörd yanıdır bu cahan,
Rüstəmi-dindir, ona yeddi fələk həftxan*.

Oxşada bilməz könül göyləri dərgahına,
Harda hörümçək toru bəbrə olubdur yuva?

Şövkətini görcəyin dedi ucadan aləm:
- Səcdə edin, mələklər, budur indiki Adəm.

Ərəbcədən hindiyə tərcümə olsa əgər,
Qılıçına hindlilər dinə dayaq söyləyər.

Düşmən hara, sən hara, bir-birinə tay deyil,
Nuşirəvan tacıyla qanqal gülündən əklil.

Necə qara şişədə saxlamlar bir mələk,
Yad qəlbində qılıncın fikri qalar onun tək.

Süralinin boynunda halqə olur hər zaman,
Elə də kəndir sıxar bədxahın boğazından.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşməninə qılıncın elə zərbə endirər,
Üzüm şərab olmamış turş sirkəyə döndərər.

Asimana tuşlasan ox atdığın kamanı
Şəbəkəyə döndərər oxların asimanı.

Xətm eləyir sənlə fələk şahlıq rütbəsin,
Başqaları şahlığa gərək əlvida desin.

Məmləkətə şəmşirin əmin-əmanlıq verər,
Gücsüz olar məmləkət olmasa qüvvən əgər.

İyirmi dörd sim olur çəngdə, bu qayda var,
Əskik olarsa biri, nəğməsi naqis olar.

Başqasına versə də təxt ilə tacı zaman,
Rəqs edə bilməz keçi, tişə vurammaz çoban.

Mumdan üzüm salxımı, bil, yaradar sehrikar,
Ağzına alsan onu, nə şirə, nə mey dadar.

Bəndən olarsa fələk, azalmaz heç kamalın,
Süfrəyə gəlsə tərə, pozmaz aşın calalın.

Süleymanın mülkünə xətər yox qarışqadan,
Sənətinə İsanın palçıq quş verməz ziyan.

Sənsən bizim dünyada sahibxərac hökmüdar,
Mənəm sənin dövründə ən qüdrətli sənətkar.

Əgər bu şerim kimi şer desə bir nəfər,
Kəssin onda dilimi şahın tutduğu xəncər.

Şah tay tutmaz şerimi özgənin sənətinə,
Arif qanar zəfəran nədir, öküz əti nə!

Avamların gözündə buz görünər inci tək,
Ancaq fərqi bəllənər Günəş istisi dəycək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəbrayılın qanadı başına kölgə salsın,
Hümanın qanadları kölgəndən zinət alsın.

Torpaq bir qətrə içsə, doyar canından sənin,
Süfrəndən qarışqa tək ruzi yığar xan sənin.

Qoy Novruz özü versin sənə xeyir-dua da,
Ariflər "Amin" desin, əbədi ol dünyada.

1. ŞİRVANŞAHIN TƏRİFİ

(tərkibbənd)

Xoş halına saqilərin, gördükdə xəndan sübhü, bax!
Sanki yuyulmuşdur dişi yanmış bir uddan-sübhü, bax!*

Xurma ağacı əkdi şəb, bax Pərvinə, olmuş rütəb,
Bu sənətə etmiş əcəb valeh o məstan sübhü, bax!*

Göylərdə mişkü zəfəran rəngi alıbdır kəhkəşan,
Ulduzlara matəm tutan yırtmış giriban sübhü, bax!

Aşiqlər ahinə məgər çoxdan nişanlıymış səhər?
Bir odlu peykanla edər sədparə xoftan sübhü, bax!*

Saqi hanı? Dərya qədər versin bu bəzmə badələr,
Olsun sədəf, saçsın göhər, əks etsin ümman sübhü, bax!

Qur eyşü bəzmi sübhdəm, qoyma könüldə dərdü qəm,
Yoxsa ömürdür bircə dəm, tapmazsan asan sübhü, bax!

Bir olmalı dərdin üzü, bir olmalı mərdin sözü,
Bəxş eyləmiş dövran özü insafə meydan sübhü, bax!

Sübh ilə xoş rəftar elə, meylə dolu cam al ələ,
Çünki cahan az ömr ilə etmiş ciyərqan sübhü, bax!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sübhün üzündə jalədən tərlər düzülmüşdür həmən,
Sanki an vurmuş dünən gördükdə üryan sübhü, bax!

Saqidən al cami-zəri, iç, yad elə saqiləri,
Bəxş et mənə tər lələri, birsə, sən üç san sübhü, bax!*

Keyxosrovanə cami-mey, onda Səyavuş qam-mey,
San atəşi-Kavusi-Key, qılmış zərəfşan sübhü, bax!*

Şah mey içərkən qətrələr torpağa ənbər tək düşər,
Ənbərin torpaqdır məgər etmiş gülüstan sübhü, bax!

İslama olmuş hökmran Darayi-dövran Axsitan.
Bəhramdan ədli rəvan, Pərvizi-İran Axsitan*.

* * *

Dur tez, səhər süfrə döşə, huri sənə mehman gələ!
Peymanə qanından bol iç, ta xəstə cismə can gələ!

Qoy dağ dalında afitab olsun mey ətrindən xərab,
Silsin gözün, etsin şitab, ta mərt olub yan-yan gələ!

Mey bəzəndə olsun çıraq, dağ nəğmədən versin soraq,
Yanmış üzərlik tək o, bax, fəryad edib, rəqsan gələ!

Al badəni hey başə çək, dolsun sevinclərlə ürək,
Dilbər gözəllər fikri tək çağrılmamış mehman gələ!

Sal süfrəni şən qəlbdən, cənnət quşu, gəl istə sən,
Bir parçası nəğmə deyən, bir parçası büryan gələ

Dikmiş gözünü yer yenə həsrətlə mərdlər caminə,
Bir cürə mey tök kaminə, qorxma sənə nöqsan gələ!

İçdikdə mey peymanədən, ağlın itirmə, dinlə sən,
Dostlar yatan ol türbədən qulağına "ətşan" gələ!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çərxin əliylə nazlı yar torpaqlar altında yatar;
Nalən cahana od salar, gər yadına canan gələ.

Getsən yalandan Kəbəyə, Kəbə dönər bütxanəyə,
Sidq ilə gəl meyxanəyə, Kəbə sənə qurban gələ!

Yox səndə imandan əsər, Kəbəpərəst olma hədər,
Arxında su yoxdur əgr bir körpü sal, asan gələ!

Zahidliyindir ağ yalan, kafirliyə oldun rəvan,
Saf qəlb ilə sərxoş dolan, ta qəlbinə iman gələ.

Şit zahid olmaqdan çək əl, göy uçsa da qoyma məhəl,
Qoy rəxnələr tapmış təməl kökdən ola viran, gələ.

Sağlıq de xaqan naminə, mey iç, sənə can bəxş edə,
Bəlkə o fateh şah sənə lütf ilə Turan bəxş edə*.

* * *

Məclis pərilər yurdudur bəzmi-Süleyman onda gör!
Quşlar durubdur səfbəsəf, bir xoş gülüstan onda gör!*

Davud əşkindən nişan peymanəyə qan axdı, qan,
Quştək sürahi verdi can, oldu nəvaxan onda, gör!*

Asilərə yoxdur əgər yol cənnətə, nə eyb edər?
Saqi üzünə qıl nəzər, yüz bağı-rizvan onda gör!

Kəbə evində heç zaman büt aşiqinə yox aman,
Bütlər evini Kəbə san, Zəmzəm-xumistan onda gör!*

Almış dələ rəngi hava, boz kürk geyinmişdir fəza,
Od vur, işıqlansın səma, bir tülkü hər an onda gör!

Manqal dönüb olmuş qəfəs, tavusla qarğa həmnəfəs,
Əflakə göz dikmə əbəs, Mərrixü Keyvan onda gör!*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şişmantuluq bir dayətək, zəncibədən, rumi-ürək,
Məryəm kimi doğsun gərək İsanı dehqan, onda gör!*

Zərrin damarlar meynədən qopdu, əzildi, indi sən
Qan küp damarından həmən tök, şireyi-can onda gör!

Bərbət düşüb cansız qalar, bir ölçüdə dörd rükn var,
Bir boydadır səkkiz damar, Zöhrəylə Mizan onda gör!

Ağlar rübab hey zərbədən, çömçə başı, kasə bədən,
Taxta ulaq, zərdən rəsən, əl boyda meydan onda gör!

Çəngin başı çılpaq qalıb, çiyninə atlas şal salıb,
Palas fitə belə çalıb, dizlərsə pünhan onda gör!

Bir körpə zəncidir tütək, on dayəsi var ağ, qəşəng,
Doqquz gözüysə şux-şəng, yüz gözsə heyran, onda gör!*

Dəfsə şahın çovqanına, min nəqşli eyvanına,
Ovlaqdakı cövlanına oxşar yüz heyvan, onda gör! *

İskəndəri-atəşsinan, hər sirri Xızrasa duyan,
Keyxosrovi-Arəşkəman həm sənsən, ey şah, həm atan! *

***
Dilbərlərin eşqində sən, gəl şərti başdan tazələ!
Yusif kimi qurdla barış, əhd ilə peyman tazələ!*

Ey xəstə aşiq, qorxmadan öz canını dosta inan,
Dilbərlər eşqində haman sövdanı başdan tazələ!

Saqi tökər dil, mey verər, mütrübdə var sonsuz hünər,
Meylə dolub peymanələr, al, iç meyi, can tazələ!

Saqi əlindən al şərab, iç nəşə ilə, ol xərab,
Zahidlər ilə olma bab, can ver və canan tazələ!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Küp arxasında keç otur, haldan düşüncə badə vur,
Artsın gözündə taki nur, torpaqla müjgan tazələ!

Dərdi unut, sən hər zaman şad ol, yaşa şən hər zaman,
Gümüş öküzdən hər zaman qan tök və qurban tazələ!

Mey sübh üçün olmuş səba, meydir yaza vermiş səfa,
Mey inci tək sərpər ziya, meylə şəbistan tazələ!

Narınca oxşar bu fələk, istər sənə qursun kələk,
Ahınla məhv olsun gərək, get səngbaran tazələ!

Ah ilə bir şivən qopar, olsun fələklər tarmar,
Dörd ünsürü xar eylə, xar, əşkinlə tufan tazələ!*

Bərkdir canı Xaqaninin, dərdin çəkər cananın,
Eşqin böyük divanının mətnində dastan tazələ!

Eşq atəşi odlar canı, dönməzdir aşiq peymanı,
Bağdaddakı könlün hanı? Şərvanda bir an tazələ!

Cam al ələ, çək, eylə dad, Bağdadədək mey iç azad,
Bağdadda yan eylə yad, eşqi binadan tazələ!

Bağdad bağdır, ya çəmən, mən bağı-rizvan söylədim,
Orda gözəl vəsfində mən şövq ilə dastan söylədim.

* * *

Dəclə kənarında dünən bir afəti-can görmüşəm,
Həsrət gözümdən Dəclə tək axmış qızıl qan, görmüşəm.

Qəddi-sərvi-bağı-İrəm, Şəmi-Şəbistani-hərəm,
Rüxsandır bağı-Əcəm, kuyin gülüstan görmüşəm*.

Can şəhridir gül çöhrəsi, qəlbin teli - hər türrəsi,
Aləm onun sərgəştəsi, kuyində giryan görmüşəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gizlənməyə tərrari-dun Bağdadda sazlar min oyun,
Tərrar zülfündə onun Bağdadı pünhan görmüşəm*..

Zülfüylə Dəclə mişkdəm, Dəclə "dalı" tək zülfü xəm,
Dəclə kimi əndamı həm olmuş xuraman, görmüşəm*.

Qatmış aya bafta, ipək, asmış buxağın tuq tək,
Parlaq aya göy bir ləçək örtmüş o canan, görmüşəm.

Əşkim kimi tər damənə axmış buxaqdan nur yenə,
01 nurdən mərmər sinə olmuş çıraqban, görmüşam.

Xaç kimi qıvrım telləri, İsa nəfəsli ləbləri,
Bunlar bir olduqdan bəri zülmət ara can görmüşəm.

Can cisminə pabəstədir, şəhla gözü tək xəstədir,
Qəlb - ağzı tək bir püstədir, qanlı və xəndan görmüşəm

Nazla ötərkən birbaşa, ardınca hey vurram başa,
Qəlbi, dişi çallam daşa, halım pərişan görmüşəm.

Məğrur görüb cananımı, mən qandım öz nöqsanımı,
Kuyində miskin canımı avarə, heyran görmüşəm.

Zənci kimi zülfü qara, oynar, səpilmiş rüxsara,
Mən göz qoyunca onlara hər ləhzə rəqsan görmüşəm.

Dəcləyə saldım ah mən, etdim təyəmmüm gah mən,
Ağlar göz ilə gah mən Bağdadda tufan gormüşəm.

Xaqani, ver can gövhəri, hərracda al ol dilbəri,
Çox sən kimi aşiqləri canana qurban görmüşəm.

Ver könlünü cananma, əzm eylə, yollan yanına,
Şirvanşahın fərmanına qəlbi nigəhban görmüşəm.

Cənnət kimi məclis qurar, ruhlar onun dərbanıdır,
Ulduzları bərhəm vurar, doqquz fələk meydanıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

Yox, yox, gözəllər eşqinə mən bir də qurban olmaram,
Hürriyət məni azad edib, məhbusi-canan olmaram.

Ram olmaram sevdayə mən, baxmam rüxi-zibayə mən,
Ovçu gözəllər səpsə dən, quş kimi nadan olmaram.

Dilbərləri mən neylərəm, sevda yolun tərk eylərəm,
Bu qarğı atı peylərəm, mən mərdi-meydan olmaram.

Aldanmaram hər məhvəşə, söz vermərəm hər dilkəşə,
Pərvanə tək mən atəşə düşüb də büryan olmaram.

Dilbər ləbinə qanmadan gizli can atdım çox zaman,
Artıq ağıllandım, inan, bil, bir də heyran olmaram.

Yanmış söyüd tək indi mən, qəm saqisinə qəlbdən,
Oldum gözümdən qan süzən, yox, yox, meyəfşan olmaram.

Bir varlığam ki, heç zaman dostlar gözü tapmaz nişan,
Cananıma mən çatmadan məşhuri-dövran olmaram.

Daşdanmıdır canım mənim? İt qəlbli dövran düşmənim;
Qalmaz saralmış bu tənim, canı poladdan olmaram.

Gəzdim cahanı sərbəsər, yerdən tutub ərşə qədər,
Bir mərdə rast gəldim əgər, gələrəm, müsəlman olmaram.

Gəzdim dəyərsiz dünyada, gördüm cahanı bivəfa,
Yoxdur vəfa bir aşnada, bir ləhzə xəndan olmaram.

Abru edərdim arizu, nə üz qalıb, nə onda su,
Rüsvalığın çatmış sonu, mən bir də insan olmaram.

Gənclik şahı olmuş səvar, at çapmağa vermiş qərar,
Mənsə dalınca bir çapar, yainki səkban olmaram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz qüdrətincə hər adam istər tapa divanda nam,
Divanları gəzdim tamam, bir yerdə elan olmaram.

"Zəud ı qələt bildim deyə, atəş məni durmaz yiyə.
"Quran" qaçar məndən göyə, mən əhli-iman olmaram*.

Kəbə mənə məhrəm deyil, qibləm kəlisa həm deyil,
Qismət mənə Zəmzəm deyil, əhli-xümistan olmaram.

Üz döndərib mən Kəbədən, qaçdım kəlisadan da mən,
Xaqanini boş sanma sən, məqbuli-xaqan olmaram.

Etdim Cəlaləddini yad, məhv olsun bu zülmət daşı,
Ta ki, tapım ondan murad, kuyinə qoydum bu başı.

* * *

Baxdıqca ulduzlar qoşun, bayraqsa asman görsənər,
Şahın tası olmuş hilal, pərçəmsə Keyvan görsənər.

Zöhrə - Əsəddə gövhəri, Bəhram - əlində xəncəri,
Ulduzlar olmuş ləşkəri, fəthində "Quran" görsənər*.

Şahın ucalmış dövləti, dünyanı tutmuş şöhrəti,
Azdır hələ ki, rəyəti, Bolğar və Xəzran görsənər*.

Bəxtindən istərdim ki, şah qursun fələkdə ordugah,
Babildə cəm etsə sipah, mülkü Xorasan görsənər.

Şerim saçar dürrü göhər şahım qazandıqca zəfər,
Şahlar önündə baş əyər, boynunda fərman görsənər.

Dünya əyər ol şahə baş, qul olmağa eylər tələş,
Taclardakı qiymətli qaş nəleyni-səkban görsənər.

Salsa atı bir nal əgər, Rüstəm onu şəmşir edər.
Mum alsa xatəmdən əsər, "hirzi-Süleyman" görsənər*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göy bir at olmuşdur fələk, ulduzlar onda zər, bəzək,
Dağ sağrısına etmə şəkk, vurmuş Axsitan, görsənər.

Könlü şad olsa bir kərə, Cəbril enər sanki yerə,
Kinlə baxarsa göylərə, aləmdə tufan görsənər.

Şahın atının ol qədər şahlar ayağından öpər,
Gəzsən nalından bir əsər, ləl ilə mərcan görsənər.

Ulduz edər şahə həsəd, cansız qalar yüz min cəsəd,
Şahdır Günəş, təxti - Əsəd, çərx isə meydan görsənər*.

Şah oxşayır qızmış filə, torla çıxıbdır sahilə,
Qurşaq tutub dərya ilə, timsah o sultan görsənər.

Cövza rikabından tutar, əqrəb ona çakər olar,
Üz bir Günəş, cismi - bahar, hər ləhzə xəndan görsənər.

Olmuş Günəş bir qul məgər, şahın ayağından öpər,
Eşqilə şahın hər səhər torpaqda qəltan görsənər.

Göylər - üzəngi, at - külək, sanki Süleyman atlanıb,
Atlı - pəri, at - div kimi, qüdrətli sultan atlanıb*.

Ədlilə mülkü əql tək canda o sultan bəsləyər,
Fəzlilə xəlqi bəsləyər, ləli necə kan bəsləyər.

Xülqü gülü etdi xəcil, rəyi sönən bir od deyil,
Bir gülşəkərdir rəyi, bil, nurla Sifahan bəsləyər.

İqbalı Xəzran fəth edər, ədlilə dolmuş ölkələr,
Hind ölkəsindən fil gələr, Xəzranda filban bəsləyər.

Gülzarə dönmüş ölkəsi, açmış səxavət kisəsi,
Şəmşiri neysan qətrəsi olmuş, gülüstan bəsləyər.

Cənnət - göhər şəmşirinə, duzəx – şərər şəmşirinə,
Hər kəs deyər şəmşirinə: hikmətdir, iman bəsləyər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Açmış igidlik məktəbi, təlim edər şahlıq dəbi,
Ondan bilər hər mətləbi, hər şah ki, dövran bəsləyər.

Tale özü şahə gərək baş endirib, etsin kömək,
Meydanda çəkməkçün yedək şahlar çox heyvan bəsləyər.

Ordu - sürü, dövran - çoban, qoçdur şahın bəxti, inan,
Qayğı çəkən hər bir çoban qoç saxlayar, can bəsləyər.

Mehdi kimi çalmış zəfər, olmuş çoban, qayğı çəkər,
Dəccaldır dövran məgər? - Qurd kimi düşman bəsləyər*.

Dövran vəfasızdır yaman, yazda düşər qış nagahan,
Mehdi verər xalqa aman, Dəccal tüğyan bəsləyər.

Düşməndir hər insana şer, şeytan isə şər öyrədər,
İtdən, donuzdandır betər, bir şir ki, segban bəsləyər.

Şəni Güneş tək saçdı nur, Dərbənd işıqlandı, odur,
Zülmət içində san sudur, hikmətlə yəzdan bəsləyər.

Məğrur edər hər qəlbi şər, zülmü cahanı məhv edər,
Nə qurd dişi süsləndirər, nə zülm insan bəsləyər.

Ədlilə artar dövləti, cənnət tək imandan doğar,
Tapdıq adilə rahəti, çün şükr ehsandan doğar.

* * *

Şah əvvəlinci Mehdidir, Sani Süleyman olsun həm,
İnsan ona xidmətçidir, cinlər də dərban olsun həm*.

Olmuş fələk şahın qulu, camı Günəş, meylə dolu,
Keyvan-qılınc, nüsrət-yolu, Bəhram-peykan olsun həm*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Din sayəsində şaddır-, dövlət ona həmzaddır,
Ölkə bütün abaddır, xəlqə nigahban olsun həm.

Bəzmi behiştə oxşayar, səlmində sidrə hökmü var,
Sədrin görən Kəbə sanar, hər hökmü fərman olsun həm*

Bəxti işıqdır nur tək, baş kuyinə qoymuş fələk,
Bir sayə tək tutmuş ətək, bu halda hər an olsun həm.

Camı - Günəş ol sərvərin, gör, Müştəridir əlləri,
Cam - ayneyi-İskəndəri, mey-abi-heyvan olsun həm*.

Aslan yıxan şəmşirə bax, düşmən qanından tutdu zağ,
Ağlar bulud tək, hər sayaq ağlarsa, xəndan olsun həm.

Düşmən qılıncı şah üçün qaldı qınında büsbütün,
Pas tutdu güzgü tək bu gün, qoy şanədəndan olsun həm.

Əzmi bütün bal oldu pər, bəzmi bütün fal oldu fər,
Bəxş etdiyi mal oldu zər, fəzli onun can olsun həm*.

Xəzrana basdıqda ayaq, Xəzran şərəfdən oldu bağ,
Tapdı o yerlər təmtəraq, xoşhal Şərvan olsun həm.

Novruzda Əzra hüsnü var, şah bəxtitək ruh oxşayar,
Halı behişti andırar, falında "Quran" olsun həm.

Çatmış bahar əyyaminə, şahım səadət naminə,
Novruz tökər mey caminə, yüz il o xaqan olsun həm.

Olsun səadət yar ona, pak ruhlular qəmxar ona,
Baş əysin ulduzlar ona, Allah nigahban olsun həm.

Məhdi mənə tələqin edər ilhami-yəzdan hər nəfəs,
Hər fikrimə "amin" deyər İdris və Rizvan hər nəfəs*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5. ŞİRVANŞAHIN TƏRİFİ

Bayram yetişdi, sübh ikən mey müjdəsi aldı xumar:
Cami-Cəmin göydə dünən bir nisfi olmuş aşikar.

Tərk etdi bayram cənnəti, dünyanın oldu darğası,
Möhrü hilaldır, fərmanı tapdı bu gündən etibar.

O göy çəməndə hökmdar xeyli maral etmiş şikar;
Aydır maralın buynuzu, göydən başüstə sallanar.

Zülmət, gecə bayrağıdır, Ay bayrağın sancağıdır,
Aydın səhər rövnağıdır, gündüz sipəhdan olar,

Qurdu fələkdə pusqu, bax, sağrısına dağ basdı, dağ;
Baş hərfidir eydin hilal, olmuş fələkdə bərqərar*.

Bax, bayrama bu xoş günə, zərrin qanad Simürğünə;
Əyri qaşı Zalın yenə dağlar başında parlayar*.

Qaldırdığı tozdan, budur, burnu qıçıqlanmış göyün,
Asqırmasıyla aləmi müşk ətri ilə doldurar.

Toz qaldıranda ləşkəri süslər tavus tək hər yeri;
Məşriqdədirsə şəhpəri, məğribdə dimdik oynadar.

Otuz gecə iz azdırıb, zahid gözündən gizlənib,
Oğrun Muğan kuyundakı meyxanədə tutmuş qərar...

Saqi sənəm əndamdır, badə içənlər xaç vurar,
Qəndili sağər eyləmiş, təsbihi zünnar, bağlayar.

Kuyində toz ənbər çıxar, arxında mey kövsər suyu,
Alnında hər tər qətrəsi şehdir, gül üstünə qonar.

Mey ətri ruhu şən edər, rəngi cana qüvvət verər,
Mey süfrədə olsa səhər, məclis behiştə oxşayar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoşdur, mey aşiq tək sola, dərd əhlinə həmrəng ola;
Saf, xıltsız camə dola, olsa acı, şəkkər dadar.

Parlaq Günəşdir mey, tam, rəngi sarı, hey titrəyər,
Hər qətrəsi can cövhəri, dünya qədər təsiri var.

Küp bəsləyən gövhər hanı? Altunyanaq dilbər hanı?
Hər dərdliyə İsa kimi dərman olar, can qaytarar.

Mey bir Günəşdir - nursaçan, büllur camı - asiman,
Saqi əlisə şərqdir, yarın dodağı qərb olar.

Sağərdə, gəl, səhbanı gör, udmuş gəmi dəryanı, gör,
Sonsuz quru səhranı gör, onda gəmi yelkən açar.

Mütrüb olub tutisayaq, düşmüş işə barmaq dodaq,
Bərbət fəğanı sinədən, mizmar boğazından çıxar*.

Bax bir o qara buynuza, qarnı deşilmiş gürzədir,
Ovsunçu qorxmaz heç nədən, gürzə dodağından sorar*.

Bərbət də oxşar Məryəmə, sanki olubdur hamilə,
Doğmaq cəfasından o da eylər dəmadəm ahü-zar.

Mey aşiqi nalan rübab, salmış qola dar qolbağı,
Qolbağ sıxan qoldan, odur, çıxmış üzə çoxlu damar.

Çənk oxşayır bildirçinə, var dimdiyində zərli tel,
Zülfü qulaclar eşqidir, vurmuş ayağından cidar.

Bir dəfvuran ustanı gör, dəfdə şikaristanı gör,
Səf-səf duran heyvanı gör, bir-birlərilə çarpışar*.

Mütrüb enər zildən bəmə, kəklik kimi qaqqıldayar,
Nazik boğazdan nəğmələr axdıqca, sinə dağlanar.

Ruhani quş xanəndədən dinlə Süleyman sirrini,
Xaqani şeri nəğmədə tər incilər tək parlayar..

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Eşqi hər aşiq qəlbinə atəş salan, ey gülüzar!
Yüz min könül bir qəmzənə can bəxş edib, ağuş açar.

Al güzgünü, sal bir özün qəmzəndəki sehrə nəzər,
Oxla, kamanla pusquda qan tökmək istər, ey nigar!

Mən torpağam, sən güclü yel, mən çör-çöpəm, sən güclü sel,
Salmış oda xasiyyətin, nə səbr qalmış, nə qərar.

Hərçənd ki, çatmazsan dada, bir gün də salmazsan yada,
Dinlə gecə fəryadımı, ahım odu zülmət yarar.

Gec-gec yada salmaqla sən saldın qanımı boynuna,
Tez inciyib, çox küsməyin etmiş məni dərdə düçar.

Sən çox məni aldatmısan, bağrıma sancdın min tikan
Səndən qucağım boş qalıb, gəlməz yuxum, can odlanar.

Xaqani gizli dərd ilə bağrı dolu qan hər zaman;
Dırnaq sancar rüxsarına, qəlbi qam üzdən axar.

Qəlb ovlayan bülbüldür o, təbi gülüstan şaxəsi,
Şah məclisinə şerdən lələ göhər eylər nisar.

* * *

Altun sədəfdir, ya Günəş, xərçəngə böylə yar olub,
Xərçəng isə pərvanətək qorxmaz, od ilə oynayar..*

Çöllər yanır, sal bir nəzər, gün dəhrəvari nur səpər,
Əfi başında möhrələr nar danəsin xatırladar.

Çənbər şəkilli bu fələk çulğanmış ənbər rənginə,
İskəndərin aynasına ənbər dolu gül yağdırar...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəhcəh vuran bülbül əgər susmuş fərağında gülün,
Gül rəngli mey tək guzədəh, bülbül kimi cəhcəh vurar.

Saqi, süzülmüş mey gətir, mey saf olarsa, xoş gələr,
Qatsan gülab ilə əgər, göz yaşı tək saflıq tapar.

Al yaş söyüd, kafur ilə sazla katandan bir çadır,
Gül üzlü saqilə otur, mey iç onunla bəxtiyar.

Bostanı gah-gah sal yada, onda san üzlü Günəş,
Dörd bir yanı on aypara, hər il üzə bir yol çıxar*.

Şah mədhini nəzmə çəkən təbim yenə tüğyan edir,
Dövlət mənə "gəl-gəl" deyir, olmuş mənə bəxtim də yar.

Mədh eyləyib candan səni, sözdən yaratdım bir dəmət,
Şənində hər beytim mənim zər kanıdır, ey şəhriyar!

Azadə söz sərrafları bilmiş mənəm söz sahiri,
Qarşımda yüz-yüz Ünsüri şagirdlik etmək arzular.

2. MÜVƏFFƏQƏDDİN ƏBDÜLQƏFFARIN TƏRİFİ

Ey, İsaya naib olan dodağı iki mərcan,
Ey, atəşdən qüdrətilə abi-həyat yaradan!*

Ey, dərdilə dərdlilərin harayına yetişən,
Ey, zəhəri sağaldıcı olan hər bir dərmandan*.

Gözlərin öz qəmzəsilə canları məhv edəndə,
Dodaqların öpüş ilə aşiqə bəxş edir can.

Qanadları altındadır vəslin Simurğ quşunun,
Kölgəsində bəsləmişdir vüsalını Süleyman*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəbuluna nail olmaq mümkün olsa, idrakın,
Qarşısında bərabərdir, yəqin ki, küfrü iman.

Sənin eşqin, məhəbbətin, cövrü cəfan ucundan,
Sədaqətli aşiqlərin yaxa yırtır anbaan.

İstəyirsən fitnə, fəsad törənməsin dünyada,
Qaşqabaqlı oturma, gəl, etmə zülfü pərişan.

Sənin eşqin küçəsində dolaşarkən Xaqani,
Elə bir şey axtarır ki, nə vəsldir, nə hicran.

O, əzəmət Kəbəsinin düşdü uzun yoluna,
Ancaq onu incitməmiş nə dəvə, nə biyaban.

Öz əsrinin ruhu, sədri olan Müvəffəqəddin,
Əbdülqəffar - fazillərin sonuncusu o insan.

Onun yüksək məqsədinin sayəsində fəxr ilə,
Bir an sakit durmayaraq dövr eyləyir asiman.

O elə bir sədrdir ki, varlığıyla, gücüylə,
Afərinə layiq olmuş bu yaşayış, bu cahan.

Onun cavan taleyini gətirərəm yadıma,
Neçə illik qırmızı mey nuş edərsəm nə zaman.

Gül indi ki, yaxasını açıb, gülür fərəhlə,
Ətəyini əllərimdən çəkə bilməz gülüstan.

Görürəm ki, hər tərəfə külək ətir saçandır,
Qızıl səpən peymanədən ayrılmaram mən, inan.

Bülbüllərdən yüz Barbəd əyləşib hər tərəfdə*,
Bahardakı gözəlliyə qoşurlar min dastan.

Ağacların çiçəkləri töküldükcə budaqdan,
Ulduzları sanki səpir sinəsindən asiman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lalədəki qara xalı görüncə, zənn edirsən,
Müştərinin sinəsində qərar tutmuşdur Keyvan.

Bağda bitən nərgizlərə əgər nəzər yetirsən,
Görərsən ki, gözdür onlar, çatmayır təkcə müjgan.

Gülün indi geyindiyi atlas dona fikir ver,
Ətəyinə haşiyələr vurulmuşdur qızıldan.

Göyərtiyə, bənövşəyə, bir də gülə nəzər sal,
Onlar da göy qurşağı tək boyanmışdır al-əlvan.

İndi şadlıq zamanıdır, indi fərəh vaxtıdır,
Bahar fəsli, gül fəslidir, xoş zamandır bu zaman.

Bundan belə ətəyimi doldurараq dürr ilə,
Cananımın qapısından ayrılmaram bircə an.

O şöhrətli sərkərdənin mədh, tərif bağında,
Mən nəğmələr oxuyuram qumru kimi durmadan.

Xoş iqbalın ünvanıdır bu gün Müvəffəqəddin,
Əbdülqəffar, - odur neçə dövlətlərə hökmran.

Kamalının, tədbirinin sayəsində cahanda,
Ortalıqdan qalxdı bütün yaramazlıq və nöqsan.

Cəlalının nərdi üstə doqquz qatlı fələyə,
Qabaqca o altı oyun bağışlayır hər zaman*.

Onun böyük kəraməti sayəsində, istərəm,
Zəmanənin hər müşkülü mənə olaydı asan.

Mənim Yəqubsifət könlüm qəm munisi olalı,
Yusif kimi yerim olub tənha, qaranlıq zindan.

Atdılarsa qardaşları onu su quyusuna,
Məni da od quyusuna saldı dostlar nagəhan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Əlif" ilə "sıfır" kimi yalqız və boş qalmışam*,
Qələm kimi, ox kimiyəm, cismim cılız və üryan.

Yüz bağlama fəzilətim olduğu bir zamanda,
Bir müştəri üzü görmür mən açdığım bu dükan.

Dayanmadan sel axıdır gözlərimə ürəyim,
Bəli, kiçik bir təndirdən yaranmışdır o tufan!*

Gözlərimdən axan yaşdan almışdır qan rəngini,
O nəqqaş ki, əllərilə yaranmış bu göy eyvan.

Arranlı bir namussuzun axmaqlığı üzündən,
Bax, ey Allah, gör ki, neçə qəlb evi oldu viran*.

Əfsanəçi bir şirvanlı o qədər ki, şər atdı,
Mənim qəmim, doğrudan da, dönüb oldu bir ümman...

Birincisi - ilan kimi zəhərlidir, zəhərli,
İkincisi - kəsib tökən iti dişli bir siçan.

Mən pusuram birisini bağban kimi xəlvəti,
İkincini pişik kimi izləyirəm durmadan.

Bu xoşdur ki, düşüncədə onlar mənə oxşamaz,
Mən onlara oxşamadım, oxşamaram heç zaman.

Məhşər günü çatanadək, qopanadək qiyamət,
Onlar heyvan sifətində qalacaqdır, mən insan.

Siz, ey gecə duaları, qalmısınız hayanda?
Sizdən başqa heç bir şeyə nə çarə var, nə güman.

Ey Xaqani, sən dünyanı yaradan bir Allahın,
Kərəmindən ümidini kəsmə, ona arxalan!

Bu amansız ruzigarın işıqsız gözlərindən,
Qaçmaq üçün öz sədrinin kölgəsində daldalan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir allahın nəzərində olan Əbdülqəffarın,
Sayəsində ağ divlərdən yetməz sənə bir ziyan.

Dünyadakı cənnətlərin yalnız odur Rizvanı,
Güclü qələm sahibidir, vardır onda xoş lisan.

Odur mühit dənizləri, Ümman, Ceyhun,
Nil çayı, Dağlardansa Cudi, Həri, ya da ki, Qafü Səhlan*,

Onda olan səxavətin, təvazönün yanında,
O səkkizin hər birisi çox kiçikdir darıdan

İltifatı kimə düşsə, olar cəlal sahibi,
Qəhri kimə olsa, onu qəhr eyləyər Yaradan.

Zəmanənin qulağında var hökmünün halqası,
Geyinmişdir fərmanını əba kimi bu dövran.

Günəş tək saf ürəklisən, Müştəri tək təqvalı,
Xasiyyətdə Məhəmmədsən, ehsanda şahi-Mərdan*.

Tərif etmək xəyalıyla səndə olan komalı,
Bəndəniz bir Ütariddir, ya da söz bilən Həssan*

Hüzuruna qəddi bükük, qəlbi sınıq gələrək,
Sənə xidmət etmək üçün eylədi əhdü peyman.

Məhəmmədəl-Mustafanın qapısında, bəllidir,
Sədaqətlə xidmət etmiş qulu Ənəslə Səlman*.

Gecikdirmiş olsam əgər mədhini, gəl, incimə,
Dikbaşlıqdan deyil, başqa bir səbəbi var, inan!

Möcüzənlə vəhyin sənin olmasa da, xislətin,
Məhəmmədin xislətidir, görür bunu göz qoyan.

Ənbiyanın sonuncusu olsa belə Məhəmməd,
Nəbilərin əfzəlidir, odur sahibi - "Quran".

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaratmaqla heyvanatı, cəmadı, nəbatatı,
Təbiətin son istəyi insan idi, tək insan.

Üç pillədən sonra insan yarandığı kimi də,
Üç kitabdan sonra nazil oldu dünyaya "Quran".

Əvvəlində hərtərəfli fikirləşən adamlar.
Müşkül olan hər bir işi başa vurar çox asan.

Bu qaydadır, öncə yaşıl otlar olar aşikar,
Sonra bitər bağçada gül, fərqli olar tağlardan.

Bax, bu xurdad ayı içrə çiçək açan ağacın.
Meyvəsini aban ayı yığışdırar bağiban*.

Ərsin salıb qazançaya, öncə qarışdırarlar,
Sonra gələr süfrə üstə şirin halva qazandan.

Ey qüdrətli qələminin gücü ilə şahların.
Xəncərini, qılıncını yerə salan qəhrəman!

Sənin şahlıq pələnginin bağırtısı, nərəsi,
Şir hünərli igidlərin ürəyini edir qan.

O adam ki, qulluğunda boyun büküb, baş əyməz,
Demək sənə, dövlətinə etmiş olar o üsyan.

O üsyankar cəza alar qərbin şahından yəqin,
Bir cəza ki, Neman onu gördü Nuşirəvandan*.

Qubad oğlu Nuşirəvan çəkdi onu meydana,
Nəhəng filə tapdalatdı, yerlə eylədi yeksan.

Sən işində Cəbrayılsan, bilir bunu çoxları,
Pisliyini danışanla şərikdir yəqin şeytan.

Sənin halal çörəyini yeyən o bədxahların,
Yaxşılığı unudaraq, nankor olublar çoxdan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bundan sonra öz süfrənə yaxın qoysan onları,
Məhşər günü cəza verər sənə böyük yaradan.

Yaz yağışı damlasıdır sənin halal çörəyin,
Susuz sədəf misalıdır azad fikirli insan.

Yaz yağışı qətrələri yetişərsə sədəfə,
Dönüb inci olacaqdır dənizdə o, biguman.

Həmin qətrə düşsə əgər bir ilanın ağzına,
Canlıları həlak edən zəhər olar o haman.

İmansızlıq mərəziylə yanır qəlbi nankorun,
Çoxdan onun bəlasıdır sərsərilik və nisyan.

Sən onun boş sözlərini dinləməsən, yaxşıdır.
Çünki xəstə çox danışar, gəlsə qızdırma, böhran.

Səndən alır işığını ağlın açıq gözləri,
Sənin cahü cəlalına qalıb fikir də heyran.

Sənin kimi əliaçıq əgər kömək etməsə,
Mənim kimi acizlərin olmaz işində səhman.

Olmasaydı Allah əmri, Musa yədi-beyzası,
Əsa dönüb olmaz idi möcüzündən bir ilan.

Sənə xidmət etmək üçün yüz yol seçdim ürəklə,
Yüz ordunu bir qələmlə sən edəndə pərişan.

Sözündəki mənalardan mən incəlik duyurkən,
Sən onlarla böyük işlər həll edirsən çox asan.

Ricam budur, atma məni unutqanlıq bəhrinə,
Qoyma məni tapdaq edib, həlak eyləyə düşman.

Bircə kəlmə sözünlə sən elə et ki, dövranın,
Mərhəmətsiz çəngəlindən azad olum bircə an.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən Günəşsən, mən işıqdan məhrumam bu əsrdə,
Tez saraldıb soldurmuşdur məni şaxta, qar, boran.

Günəş hətta xərabəyə güzər edib, saçar nur,
Sən də mənə nəzər salıb, eylə dərdimə dərman.

Tutalım ki, ehtiyacın yoxdur əsla şairə,
Fəzillərin tərifinə, deyək, yoxdur təqazan.

Amma, qulluq etmək üçün sənin şanlı qapında,
Əlbəttə ki, bir nəfər qul gərəkdir, ey hökmran.

Şairlikdən söz düşəndə, mənə düşmən olanla,
Müqayisə etmə məni, o deyildir müsəlman.

Yedirtsən də çoxlu şirin, şəkər illər uzunu,
Hər halda o, şəkər deyil, zəhər tökür ağzından.

Elə yönsüz təsnif qoşub cahillikdən o mənə,
O təsnifdən çox yaxşıdır yüz iftira, yüz böhtan.

Demişdir ki, eşqbazlıq etdiyindən filankəs,
Saqqalını kəsdirmişəm... saymış çox filan, behman..

Lakin, yeri gələndə o, uydurduğu bu sözdən,
Xəcil olub, lənətlərə məruz qalar hər zaman.

Mən o sözün cavabını verdim yerli-yerində,
Əvəzində eyb axtardı sözlərimdə o nadan.

Maraqlıdır ki, bir-iki keşişlə tutub ülfət,
Möbid olub, şəriəti danmaq istər büman.

Əmmaməsi, saqqalı var, amma, yoxdur məzmunu,
Hikmətindən xəbərsizdir, dəm vursa da Yunandan.

Görməmişdir məktəb üzü, savaddan da kasıbdır,
Yer üzündə axmaqlıqla qazanmışdır ad və san.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allah onun vücudunu yaratmışdır lənətdən,
Dünya onu böyütsə də, sonra olub peşiman.

Təlxəkliyi tərk edərək unutmuşsa, indi də,
Məkr, hiylə peyğəmbəri olmaq üçün atır can.

Lənət olsun o nadürüst yaramaza yüz kərə,
Müridinə min kərə çox lənət olsun hər zaman.

Məəttələm mən buna ki, indiyəcən o itə,
Nece olmuş, qəzəbini göstərməmiş yaradan!

Yalnız sənin bayrağının kölgəsində dövranın,
Əzabından, sitəmindən asudədir hər insan.

Kim ki, sənə xidmət üçun qulluğuna verilsə,
Nə qorxusu, ona qarşı düşmən çıxarsa sultan.

Eşitdikcə mən yazdığım qəsidəni qananlar,
Oxuyunca bu sözləri bütün İran, Xorasan,

Bilərlər ki, var nə qədər mərdlik sifəti səndə,
Xaqaniyə hörmət etmiş sənin sayəndə xaqan.

Calalını bundan artıq tərif edə bilərəm,
O da cörək ucundan yox, qazanmaqçün şərəf, şan.

Bayram oldu, mənsə dönüb bu bayramda qul oldum,
Dedim: qoy bu olsun mənim əhvalıma bir mizan.

Göyərçintək körpəcə bir ürəyim var mənim də,
Bu bayramda olsun o da sənin yolunda qurban.

Görüm, səni şad olasan ilin hər mövsümündə,
Səadətə yetişəsən min bayramdan, bahardan.

Yeddi göydən yüksək olsun, möhkəm olsun iradən,
Yerə batsın o kəslər ki, çəkirlər ayağından.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

7.QİYASƏDDİN MƏHƏMMƏD İBN MƏLİKŞAHIN TƏRİFİ

Biz vurğunuq sənə, sənə də dilbər ayinə,
Seyr eylərik səni, səni seyr eylər ayinə.

Ayinə gördü surətini, sən öz hüsnünü,
Səndən bətər vuruldu sənə yeksər ayinə.

Ayinədə camalın edər canları xəyal,
Yersiz deyil ki, aləmə naz eylər ayinə.

Nurlu üzün, şirin dodağın etmiş aşikar
Bir nöqtə içrə atəş ilə kövsər, ayinə.

Ayinəyə vurulma sən, ey ayinəpərəst,
Qəlbim sınar, sənə ola aşiq gər ayinə.

Hər yerdə var dəmir, əridər ahımın odu,
Seyqəl vurub düzəltməsin ahəngər ayinə.

Ayinəyə pərəstiş edib, qiblə söyləmə,
Əks eyleyər camalını, baxsan, hər ayinə.

Min surəti özündə qılan əks bir camal,
Yersiz olar deyə: məni sən göstər, ayinə!

Xaqaninin üzündəki göz yaşlarında, gəl,
Seyr et camalını, sənəma, gör tər ayinə!

Şahın iradəsindən alarsa Günəş ziya,
Baxsan, o Ay üzündən alar, bil, fər ayinə.

Xaqan qeybdən bizə vermiş elə xəbər,
Ki, əks edər özündə necə peykər ayinə...

Şahın ədalətilə rəvadır ki, tərləyə,
Pasdan təmizlənə, öyünə dilbər ayinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey şah, xatirin necə, gör, nura qərq olub,
Hər ölkədə bilir onu dövlətlər, ayinə.

Əzminlə bir silah özünə sazlamış fələk,
Dəva günü əlində tutar mərdlər ayinə.

Ayinəyə cəmalın edə əks-nur əgər,
Nur ilə Cəbrailə verər şahpər ayinə.

Mehrin, məhəbbətin mənə ilham bağışlayar,
Adət budur, Günəşdə vurar pər-pər ayinə.

Düşmən diyarına qəzəbin düşsə toz qədər,
Zülmət çökər o yerdə, qopar məhşər, ayinə!

Mən qəlbə güzgüyəm, sən iradənlə müştəri,
Hümmət camalına qul olub, işlər ayinə.

İslanmışı hüzuruna qoyma, bu rəsmdir:
Çirkinləşər camal, olarsa tər ayinə.

Düşmən vücudu tək əgər ayinə pas tuta,
Fərman yazan qələm ucuna bənzər ayinə.

Qəlbində mehrdən mənə gər olsa bir əsər,
Təbim cila alar, necə ki, cövhər, ayinə.

Əksin görüncə tuti, edər vird hər sözü,
Hər kəlməni ona dedirər əzbər ayinə.

Lütfün məni alıbsa, qəribə görünməsin,
Simü zəri verib, alar aqillər ayinə.

Kor düşmənim satarsa məni, düşmə heyrətə,
Bilməz cahanda qədrini hər mehtər, ayinə

Bir başqa şəxsi mədh eləsəm, əfv qıl məni,
Ayinə olmasa, sayılar xəncər ayinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məncə bu eyləməz səni məndən cüda, necin
Hər dəm gül ilə silsən, olar xoştər ayinə

Hər şairəm deyən mənə çatmaz kəlamda,
Paslı dəmirdən ancaq olar bifər ayinə.

Eyb etmə, açmasam da bu sədparə qəlbimi,
Solğun üzü, nə həzzi, görə peydər ayinə.

Div ərşə çıxmayırsa, o qorxur qovulmadan,
Sevməzlər, eyb açandı deyə, çerlər ayinə.

Bu şerimin rədifinə düz gəlməsəydi,
bil, İcad eyləməzdi heç İskəndər ayinə.

Ayinəyə bu vəsf kifayət deyil, əgər,
Bir zərrə nurunu ona versə hər ayinə.

Şahım, cəlalü-şövkətin olsun o qədr ki,
Hər sübh şərq qarşına tutsun zər ayinə.

Düşsün əlacsız mərəzə düşmənin sənin,
Misdən hazırlasın ona misgərlər ayinə.

8. ŞİRVANŞAH MƏNUÇÖHRÜN TƏRİFİ VƏ ONUN OĞLU AXSİTANDAN ŞİKAYƏT

Ərəb uşağı tək hər əcəm yenə.
Qulağı halqalı qul olmuş sənə.

Hümmətin sığışmaz sənin dünyaya,
Necə bir kuzəyə sığışmaz dərya.

Günəş tək parlayan bir qılıncın var,
O ançaq düşmənin köksünə batar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, iki əlinin feyzini görən,
Göz çəkər behiştin dörd çeşməsindən.

Kim etsə təyəmmüm torpağında, bil,
Ona abi-həyat heç gərək deyil!

İradən göy kimi qat-qat yüksələr,
Rəxnə bir qatma eləməz əsər.

Kəsra, üzüyünü görərsə, inan,
O, öz üzüyünü edər ağacdan*.

Razılıq nəsimin əsəndə ancaq,
Gül açar bu ömür dedikləri bağ.

Ağıl yaşamasa havanla sənin,
Ona xeyri olmaz heç bir qiblənin.

Namələr yazanda adına hər vaxt,
"Qulunuz" yazaraq, imza edər bəxt.

Ali hümmətlisən, vardır izzətin,
Ucalıq hər zaman olsun zinətin.

Qoy kafir adlanım, əgər bu ürək,
İstəmir qapında xidmət eyləmək?

Düşmənin tənəsi səbəbdir buna,
Ki, üzüm tutmayır gəlim qapına.

Ürəyimdə elə qəmlər var ki, bil,
Açıb söyləməyə qadir deyil dil.

Qoy pis göz dəyməsin oğluna, lakin,
O mənə qəlbində çox bəsləyir kin.

Abrımı apardı Axsitan mənim,
Bu yaram sağalmaz heç zaman mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günahım olmadan sandı günahkar,
Onda nə kərəm var, nə də həya var.

O cırmış ehtiram paltarlarımı,
O paltar bir daha yamaq tutarmı?

Sizə qulluq etdim iyirmi qış, yaz,
Sən mənə qiymət ver, oğlun bacarmaz.

9. ŞİRVANŞAH MƏNUÇÖHRÜN TƏRİFİ

O böyük xaqandır mənim pənahım,
Xaqani haqq qalmış daima ondan.

O bir Məhəmməddir, Həssanı mənəm,
Onu mən tanıram, məni də xaqan.

Bu gün söz mülkünün mənəm hakimi,
Şaha bu qüdrətim olmuşdur əyan.

Bəli, hər qızılın meyarı vardır,
Onu bilər məhək, tərəzi, mizan.

İncə mənaları ağıl dərk edər,
Qol bilər ki, necə möhkəmdir kaman.

10. BU QƏSİDƏ QUŞLARIN SÖHBƏTİ ADLANIR

Dan sökülәndə göyün örtüyün açdı külək,
Səma ətirlə doldu rəngdən-rəngə girərək.

Zümrüd göyün sinəsi zər şəfəqlə boyandı,
Bulud buludun üstə halqa vurub dayandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızıl papaqlı səhər qəşəng qəba büründü,
Gecə qunduz xəzini atıb, üryan göründü*.

Qanad çalıb, banladı səhər quşu anbaan,
Sanki təbil çalındı, quşlar uçdu yuvadan.

Sübh, dağlar başından aşıb gəldi sanki çay,
Sudan çıxan balığa bənzəyirdi göydə Ay.

Günəşin nizələri Ayın üzünə düşdü,
Bu nizələr qızıldı, Ay haləsi gümüşdü.

Bənövşəyi niqabda ərəb kimiydi gecə,
Niqabını açırdı o, Günəşi görüncə.

Günəş zərli libasda gəlirdi asta-asta,
Necə ərəblər gedər Kəbəyə dizi üstə.

Xaqani, borcun budur Kəbəyə üz tutub sən,
Ondan qiyamət günü şəfaət diləyəsən.

Çoxu Kəbəni sevdi - necə uşaq zər sevər,
Üz döndərmə Kəbədən, mömin bəndəsən əgər.

Kəbə ibadət evi, hədislərin məhvəri,
Orda nicat gözləyir iztirab çəkənləri.

O məhvərdir, asiman bir dəyirman daşı tək,
Kəbənin başı üstə asılıb hərlənərək...

* * *

Yığıb qızıl oxları kəhərinin tərkinə,
Günəş səhər üfüqdən vüqarla qalxdı yenə.

Göyün gözündə bulud - çalma döndü zəncirə,
Ud əvəzi bitkidən xalça döşəndi yerə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə yanan şam kimi, Gün ucalır, tez sönür,
Gecə bir çıraq kimi gündüz bir heçə dönür.

Selin bitkilər üstə tökdüyü xoş xılta bax!
Su üstündə köpüklər rəngsiz şüşədir ançaq.

Quşlar uşaqlar kimi əzbərləyir "ebcəd"i,
Bülbül "həmd" oxumaqda göstərir məharəti.

Dünən yeni körpələr dəvət olundu bağa,
Birdən göz yaşı tökdü qara bulud torpağa.

Çəmən sarı, qırmızı xələt verdi onlara,
Günəş boyaqçı idi, səba dərzi - donlara.

Güllər məclis qurdular, ətri yayıldı bağa,
Təşt dolusu şam tutub, nərgiz gəldi qabağa.

Lalələrin odundan şama dəyməsin xətər,
Məclisdəki hər şama yağ tökürdü jalələr.

Tala-tala su doldu arxlardan çəmənlərə,
Mərcan rəngli bayrağın qönçə vurdu hər yerə.

Budaqlar qucaq-qucaq incilər səpən zaman,
Süsən iynələrilə paltar tikirdi ondan.

Söyüd budaqlarıyla tonqalı yelləyirdi,
Asiman qucaq-qucaq yerə nur ələyirdi.

Quşlar da bu məclisə gəlirdi hər tərəfdən,
Axşam teldi, göydə Ay rübab idi sədəfdən.

İlk dəfə ağ çiçəyi mədh elədi göyərçin,
Dedi: - Acı yarpaqda şəkər yığır bizimçin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bülbül gülü tərifə başladı şirin-şirin,
Dedi ki: - Gül şahıdır bağdakı çiçəklərin.

Qumru dedi ki: - Güldən qəşəngdir sərv ağacı,
Bir də gördün yel əsdi, töküldü gülün tacı.

Sar dedi: - Sərvə baxın, topaldır ayaqları,
Lalə şamtək bəzəyib düzənləri, dağları.

Səlsəl dedi: - Lalələr əslində iki rəngdir,
Süsənin bir rəngi var, süsən ondan qəşəngdir.

Teyhu dedi: - Süsəndən göy otlar xoşdur mənə,
Bağa gələnin öncə otlar gülür üzünə.

Tuti dedi: - Göy otdan daha xoşdur yasəmən,
Rəngi kafurdan alıb, ətrinisə ənbərdən

Bubbu dedi: - Nərgizin Cəm taxtında var yeri,
Yasəməndən gözəldir Əfrasiyab əfsəri*.

Hamı Ənqa quşunu münsif seçdi bu ara,
O, münsifiər mülkündə xəlifəydi quşlara.

Başçıların hamısı verdi birdən səs-səsə:
- Ənqa quşu əzəldən başçıdır bu məclisə.

Göyərçin bu an dedi: - Ahımdan otlar yanar,
Utanıram deməyə, bu işdə bir pərdə var.

Quşlar yenə dedilər: - Ənqanın yeridir bu,
O yaşmaqlı göyərçin xəcalətdən xar oldu.

Birisi tez yetirdi Ənqaya bu xəbəri,
Ənqa gəlib quşları bir-bir çəkdi irəli.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bülbül səcdəyə gəlib, Ənqaya etdi xitab,
Qırğı da bülbül kimi hörmətlə verdi cavab.

Qumru dedi: - Səndə var ədalət nişanəsi,
Gördün qarğanı boğdu sarı əncir danəsi...

Bax sənin insafına, kəkliyə gördün rəva,
Qayçı edib dimdiyin, qəzəblənsin üqaba.

Biz də sənə bir zaman verdik əgər dərdi-sər,
Güllər ətir yayanda dərdi, qəmi sildilər.

Yüyürək atlar kimi çapıb gələndə bahar,
Elə bil ki, dünyaya gəncliyi qaytardılar.

Bu otlardan, güllərdən hansına üz tutaq biz?
Bu şahların içində hansıdır daha əziz?

Ənqa dedi: - Bağdakı güllərə salsın nəzər,
Bunun əli xınalı, onun saçı sanki zər.

Bax, bu yeniyetmələr tamam mələk nəslidir,
Onlar bəzən süd içir, bəzən meyə meyl edir.

İstəyirəm güllərdən qızılgülün xətrini,
Peyğəmbərin tərindən alıbdır öz ətrini.

Peyğəmbəri mədh edən Xaqaninin təbidir,
Çünki o Xaqaniyə bu ilhamı bəxş edir.

Başqasının önündə şerini edərmi xar?
Heç atarmı dürrünü palçığa bir sənətkar?

Allah, sən özün qurtar şairi fimə, şərdən!
Şirvandır şər ocağı, düşmənlərsə - Əhrimən.

Düyününü özün aç, özün eylə kamiyab,
Bu qərib duasını özün eylə müstəcab.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

11. ÖZ USTADI BƏHAƏDDİN SƏİD İBN ƏHMƏDİ MƏDH

Əbədiyyət aləminə yol saldığım üçün, mən,
Baş əymərəm fani dünya sarayına qətiyyən.

Beş hissimin pəncəsində olmuşamsa giriftar,
Doqquz fələk dərgahından pay alıram qış, bahar.

Nə divlərin tor qurduğu yer qayğısı çəkirəm,
Nə ağlımla sehir, cadu toxumunu əkirəm.

Bu dünyadan bir yaxşılıq axtarmıram heç zaman,
Çünki mənə qiymət qoymur arpa qədər bu cahan.

Fani dünya bir küləkdir, dolanır min kələklə,
Od deyiləm, qızardasan yanağımı küləklə.

Güman etmə çörək payı umum mən yad kəslərdən.
İdrakımın cilovunu nəfs əlinə verim mən.

Dörd ünsürü razı salmaq xatirinə, gəl, inan,
Ağıl və nəfs şahlarını incitmərəm heç zaman.

Tamahkarlıq ehtirası işıqlatmaz bu canı,
Hikmətimin gözlərilə seyr edirəm dünyanı.

Hümmətimin qüdrətilə tapdım xəlvətdə şadlıq,
Onun parlaq işığıyla əldə etdim rahatlıq.

Pərgar kimi bu cahanı dövrə vurub dolandım,
Zünnar kimi bir dairə içində çox dayandım.

Bir fikir ver, bu riyakar, aldadıcı mənzildən,
Taleyimin yardımıyla necə çıxıb qaçdım mən.

Od yağdıran su rəngli bu səma məni etdi zar,
Hava kimi yüngül oldum, torpaq kimi xaksar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Külək kimi icazəsiz açmaram heç məskəni,
Torpaq kimi qoruyaram qəlbimdəki məxzəni.

Su kimi mən hər yetənin kandarında çökmərəm,
Bulud kimi hər tikanın üstə göhər tökmərəm.

Tuti kimi dil açsam da, deyiləm mən hiyləgər,
Qılınc kimi parlasam da, deyiləm mən kinovər.

Ehtiyacım başımı da kəssə, fəğan etmərəm,
Çörək üçün alçaqların qapısına getmərəm.

Xəsislərin əllərində əsir olmam zər kimi,
Var-dövlətdən üz döndərrəm bir vüqarlı ər kimi.

Hər qapıya çörək üçün su tək axmadım, inan,
Ona görə torpaq kimi tapdanıram hər zaman.

Allahıma min bir şükür eyləyirəm qəlbi şad,
Mənə dinar verməmişsə, vermiş bilik, etiqad.

Kənar gəzdim insanlardan, hümmət oldu dayağım,
Hümmətimin sayəsində göyə dəydi papağım.

Dəmir kimi təbimlə mən yoxladım sifətləri,
Yanlarından qaçdım - necə cindən qaçar hər pəri.

Görünsəm də vəsl əlifi kimi hər bir ünvanda,
Heç kəs mənim varlığımdan xəbər tutmaz bir an da*.

Biləsən ki, Simurq kimi vardır adım, şöhrətim,
Lakin bütün nəzərlərdən gizli qalmış surətim.

Qızılgül tək ovcum içrə qızıl yoxdur, bil, aman,
Neçin mənə həqarətlə tənə vurur hər tikan?

Kim bilməyir, mənim ağlım və canımın gövhəri,
Öz işimlə açır daim açılmayan sirləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əşa kimi dilim səpir saf incini aşikar*,
Yaratmışam cavahirlə bəzədilmiş min tumar.

Mən söz düzən Xaqaniyəm, sözlərimdə yox yalan,
İsa məniim əşarıını nəzmə salar hər zaman.

Şükr olsun ki, çəkməmişəm mən xəcalət kimsədən,
Xəciləm bir allahımdan, bir də ustad Əhməddən.

Minnətdaram allahıma, bir də böyük rəhbərə,
Önlərində qələm, pergar kimi baş qoydum yerə.

Zəmanənin başçısına verən dəmdə imtahan,
Sədəf kimi ağız açıb, inci verrəm ərməğan.

Bu gün mənim şerimin də bəlli olar dəyəri,
Layiqincə qiymət alar, razı salsa rəhbəri.

Bəhaəddin Səid oldu Musa kimi mötəbər,
Onun mədhi xəstə cana İsa kimi ruh verər.

Dinin möhkəm sütunudur, sitayişin dayağı,
Gözlərimin sürməsidir qədəminin torpağı.

O, bir mələk sifətlidir, şərəfi var, şanı var,
Fələk ona baş əyərək, qarşısında qul olar.

Günəş ona belə dedi: "Sənə qulam olandan,
Ulduzların aləmində mənəm vahid hökmran.

Məni qoru bəlalardan, bir halıma nəzər sal,
Dilə gəldim hüzurunda, məni əzir qəm, məlal".

Ulduz dedi: "İzzətinin peyki oldum əzəldən,
Ona görə şərq ilə qərb arasında gəzdim mən.

Ey zəiflər pənahı, ey dərvişlərin qəmxan,
Sənin tərif baxçanda mən oldum mərifət barı!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əgər mənə el içində şair adı vermişlər.
Səni tərif edəndə mən oldum belə süxənvər.

İstisqalı xəstə kimi qapına gəldim əlan,
Ki, sən mənə öz feyzinlə verəsən dəva, dərman.

Rəssam kimi yaratsam da mən bir hədis, yaxşı bil,
Can şirəmlə verməliyəm ona həm ruh, həm şəkil.

Bütün məlum elmlərdən olmuşam mən xəbərdar,
İstəyirsən, gəlib yoxla, gör qəlbimdə nələr var.

Başdan-başa qəribədir yazdığım bu qəsidə,
Belə hünər nəsib olmaz yüz Bəşşara, Ləbidə*.

Yaşa daim izzətinlə, dövlətinlə, ey ustad!
M ən də sənin kərəmindən pay alaraq, olum şad.

12. ŞEYXÜL-İSLAM NƏSİRƏDDİN İBRAHİMİN MƏDHİ

Eşq oyun xalçası üstə elə ki, tutdu qərar,
İlk oyunda bizi uddu, elədi dərdə düçar.

Bizlə siz nəqdə nahaqdan belə bel bağlayırıq,
Biz və siz varlığınızla tək ona sığmayırıq.

Bu fələk sorma nədir, sirr evinin dairəsi,
Əql bu dairədə yoxluğun olmuş əsəsi.

Sadə qəlbinlə bu sirri necə sən dərk edəsən?
Binəva, sanma bu dərgaha sən asan gedəsən.

Eşq meyarı salar gövhərini qiymətdən,
Qəlb bazarı salar Yusifini hörmətdən*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağla zahir gözünü, seyr elə dərgahı o dəm,
Tulla süni zirehi, meydana qoy sonra qədəm.

Dərgah ardında xitab ilə xətər var, əlbət,
Orda şahlar şahına xasdı səfa ilə sifət.

Mənəvi qüvvəti mərdlər sırasında axtar!
Zahirən insana oxşar yabanı ot kökü var*.

Nil çayın keçməmiş, əvvəlcə gərək qüsl edəsən,
Sonra sağ qalmaq üçün Misrə tamaşa elə sən!

Tutalım gül kimi al-qırmızı cübbən yoxdur,
Göy libasında bənövşə kimi sən məğrur dur!

Qalx ki, yol üstə dayanmışdır əzəl yolçuları,
Əbədiyyət yolunun yox sonu, dərk eylə barı!

Hümmət ilə atını sən də bu yoldan çap, get,
Qalx fələkdən ucaya, sən fələyi heyran et!

Sufinin keçdiyi yoldan tozu al, sürmə elə,
Qəlbini dostuna ver, munis ol həmsöhbət ilə.

Həmdəm ol yoxsula sən, baxma ki, yoxdur əbası,
Yuva qur orda ki, xoş səsli quşun var yuvası.

Günəş ilə fələyin rəngi də bir, sirri də bir,
Hökmdar ilə şahın hökmü əzəldən birdir.

Qulluğunda dayanıbdır, hamı xadimdir ona,
Göylərin şahı Günəş tək o girib zərli dona.

Xızr tək cübbə və Musa kimi var onda əsa,
İlanı saxlar əsa, dövlətini örtər əba.

Qəlb divanı ləqəb verdi Yer ilə fələkə,
Biri azğın qocadır, digəri çirkin mələkə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Bəli" əhdini "Ələstə" verən ötgəm dilidir,
"La ilahə" qapısında dayanan "la" kimidir*.

Vəcdə gəldikdə - o doqquz fələyin sirrin açar,
Süfrə açdıqda - iki aləmə nur şölə saçar.

Ruzigar ilə fələk rəsmini ondan xəbər al,
Birinin sikkəsi qəlbdir, biri hər işdə cığal.

İsməti sirr Firidununa bayraqdır onun,
Hümməti zərbədir acgözlüyünə fəğfurun*.

Yandı eşq atəşinə, hakimi-eşq gəldi dilə,
Dedi: Xaqani, sənin torpağınam mən ki, belə.

Çat cahan sədri yanında hünərin fəxrinə sən,
Xoş olar, onda gəlib dostlar ilə birləşəsən!

İbrahim tək ucalan İbrahimin şəninə bax!
Fəqr qardaşlarına süfrədə olmuş ortaq.

Nasirəddin ki, şəriət keşiyində dayanar,
Onun elmilə xuda dostları nüsrət qazanar.

Ey qara zülfü ilə qarət edən imanı,
Atəşin eşqin olub könlümüzün sultanı.

Əql eyvanına üz tutsa, ayağı qırılar,
Nəfs meydanına gəlsə, əlinə bənd vurular.

Bir sözündə duyulur tanrımızın yüz kərəmi,
Bir cəfan isə nədir? Ruzigarın yüz sitəmi.

Vermədi bir kəs üzündən bizə aləmdə nişan,
Keçmədi kirpiyinin atdığı oxdan biri yan.

Gəzmişik "Qorxu-rica" aləmini şövqün ilə,
Görürük biz səni, sən isə xəbərsizsən hələ.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qorxmuşuq gah rəqibdən, çəkərək göz səndən,
Etmişik bir baxış ilə rəqibi kor bəzən.

Ləlini odlu Günəş öz belinə etdi kəmər,
Bağladı əjdəhanın ağzını vəslin yeksər.

Nayibəm, indi ki, Xaqaniyə kuyunla sənin,
Eşq divanını məndən də yazarlar, bu yəqin!

Çox bəla çəkmişəm, hicran gecəm olmuşdur uzun,
Mənim ümmid səhərimsən, sabahın xeyr olsun!

Şerlə tükdeşənəm, bir tükə döndüm qəmdən,
Sığmaram bəs niyə dostluq hərəminə yenə mən?!

Sədr şövkətdə Süleyman, adı İbrahimdir,
Nitqi Musa, əli Əhməd əli tək hakimdir.

Olmuş əxlaqı ilə tazə onun köhnə cahan,
Yazda dünya bəzənər ədl ilə insafından.

Bağları sübh yeli, gör, nə müəttar eləyib,
Xoş hava torpağı da müşkə bərabər eləyib.

Göylərin əksi enib arxlara, bir eylə nəzər,
Tökülüb gül ləçəyi, torpaq olub sapsan zər.

Budaq üstündə çiçəklər - elə bil körpə gülür,
Quş qanad çalsa əgər, sanki yerə qar tökülür.

Bağda gül dəftərini rənglədi ustadi-fələk,
Hər varaq ayrıca rəngilə görünməkdə qəşəng.

Lalənin qəddinə Ay qırmızı don tikdi, geyə,
Vurdu al rəngli dona ortada neftdən həşiyə.

Qapımı döydü dünən sübh yeli; - Kimdi? - dedim.
Söylədi: - Qasidinəm, xoş xəbəri al da, gedim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaz havasıyla səba mənzilimə tez girdi,
Zülfünün ətrini yarın mənə töhfə verdi.

Söylədim: - Bağda nə var, bülbülün halı necədir?
Dedi: - Bülbülləri güllər eləyib bağda əsir.

Söylədim: - Kim təzə şerilə tutub dünyanı?
Dedi: - Söz gülşəninin bülbülüdür Xaqani.

Tutduğun yaxşı əməl fəxrlə şöhrətdi sənə;
- Nəsirəddin - deyir aləm, bu da hörmətdi sənə.

Mənə ömrüm boyu dövran eləyib çoxlu cəfa,
Kimə mən ərz eləyim: görməmişəm onda vəfa.

Fələyin qanlı əli başıma saldıqda yüyən,
Boğaza gəldi canım, dərdimi açım kimə mən.

Ət ilə qan kimi cismimdə tutub yer möhnət,
Çıxmasa can bədənimdən, o da çıxmaz, əlbət.

Kehrəba ilə üzüm olsa da bir rəngdə, həmən
Yox gücüm bir samanı qaldırım, artıq yerdən.

Dərdimin yüzdə birin mən dağa söylərsəm,-inan,
Dağ cavabımda çəkər ah ki, budur əksi-sədan.

Kaş öləm, son qoyula zillətimə, möhnətimə,
Bəlkə qəlbi yananım orda çıxa qismətimə.

Mənə göz dağıdı dərdim, sən inan sözlərimə,
Demə ki, yox əlacı, tutiya ol gözlərimə.

Xəstəyəm, kimsəsizəm, yoxdu ürəkdən yananım,
Bir günahım yox ikən, mən niyə böylə dolanım?

Qəlbimi qırdı, məni əzdi fəna hadisələr,
Bəlkə də qaynatamın işləri çox verdi zərər...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəbrailin qanadında səsimi, ya rəb, eşit!
O Səba şəhri kimi yurdlarını viran et!

Sədr Xaqaniyə lütfilə havadar olsun,
Son qoyulsun qəminə, sədr ona qəmxar olsun!

Mənəm ol Azəri-sani, o, könüllərdə İsa.
O, həyat verdi mənə, dərdlərimə qıldı dəva.

Asiman fərşi olub astarı səccadəsinin
Mustafa qibləsidir onda da qiblə, bu yəqin.

Qibləmiz olmuş iki, baxma təəccüblə buna,
O, edibdir Şamaxı içrə yeni Kəbə bina.

Əvvəl o Kəbə idi doğruçu yol göstərənim,
Əbədi qibləm ola kaş bu təzə Kəbə mənim.

Füzəla məskənidir indi şərəfli bu diyar,
Müddəi hər nə desə, sözlərim ağzın qapayar.

Şairin təbi dilər vəsfinə bir nəğmə yaza,
Tel - riya əhli bağırsağları olsun, bu saza.

Hüsnünə şer desəm, qəlbimi verrəm sözə mən,
Bil ki, şer süfrəmizə söz düzərəm tər-təzə mən.

Bəzədim bir yeni üslubla sənət aləmini,
Kimdə var şerə hünər, təqlid edər onda məni.

Düşmənim olmuş o kəs ki, sözə qiymət qoymaz,
Nə rəva, bülbül ilə qarğa ola həmavaz.

Gəlməsəm də qapına, səndə qalır qəlb ilə can,
Möhrə ki, səndədir, artıq nəyə lazımdır ilan?

Bir daha sən məhəyə vurma sədaqətdə məni!
Qəlp bir pul kimi aləm tanıyıb, rədd edəni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Desələr: nöqsanı var, baxma bu laqqırtılara,
Bu sənə bəllidi ki, görmək hara, söhbət hara.

Şerdən özgə mənim yox hünərim, bəlli sənə,
Diləyim səndən odur təkcə: dua eylə mənə!

Bircə arzum budu ki, şövkətü-şənin ucala,
Qismətin dövlət ola, hörmət ola, izzət ola.

Ola duşmənlərinin məskəni o qanlı diyar,
At çapar orda ölümlər, ya da ki, Gün tutular.

13. XOY MÜFTİSİ RÜKNƏDDİNİ, REY ALİMİ RÜKNƏDDİNİ VƏ TACƏDDİN İBN ƏMİNƏDDİNİ MƏDH

Tez şərab ver ki, saqi, başladı kar,
Tez şabaş ver ki, gəldi nazlı nigar.

İş payızda axan sular kimidir,
Yar təzə başlayan bahar kimidir.

Bu işə, bir də o nigara, inan,
Gözlərin eyləyər fələk qurban.

Fironun camını gətir ki, səhər.
Dağ başından Musa əli görünər*.

Saxsı küpdə bir od yatıbdır hələ,
Ağıla od vurar, cana şölə.

Cama bax, orda nəqş olub: "aşiq",
Al şərab üstə görsənir: "məşuq".

Bağlayıb hər ümid yolunu zaman,
Bağlanan yolları açıb dövran.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlb qəm-qüssədən azad oldu,
Çünki, mey qaynayıb cama doldu.

Camda var zəfəranla müşk fəqət,
Tərəzi xəttidir o camdakı xətt.

Hanı xanəndə ilə mey dolu cam?
Verə bu məclisə təzə ilham.

Hanı bəs o qədəh, piyalə hanı?
Gün hanı? Ay hanı? O halə hanı?

Gəl Muğan deyrinə, məni axtar,
Al əlimdən qırılmayan zünnar!

Əql açıb ağzını, danışsa əgər,
Əllərim ağzını mey ilə tikər.

Muğların adətincə xonça götür,
Meyi səkkiz bucaqlı camda gətir.

Camdakı meydə gör nə aləm var,
Elə bil Ay cahana nur saçar.

Badə nuş eyləsə cavanmərdlər,
Onları mey, inan ki, huşdan edər.

Gün şirin üstunə həmişə minir*,
Mey Günün üstünə minən şirdir.

Asiman bircə qurtum içsə şərab,
Yer kimi odlanıb olardı xərab.

Yer əgər bircə cürə meydən uda,
Göy kimi hərlənər, dayanmaz o da.

Üçü dörd ünsürün qaranlıqsa,
Hər üçü parlayar şərab olsa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xumarı qovmağa o məst başdan,
Saqi nar şirəsi edər ehsan.

Nar noğuldan şirindi mey içənə,
Dilbərin ləbləri nar oldu mənə.

Necə kafir - qılıncı çəkdi şərab,
"Kafiri öldürün" deyər mizrab.

Məst olan vaxtda olmasa badən,
Get, bazardan şərab alıb, iç sən.

Sübh çəkmiş qılıncı, qorxma, ucal,
Başın əyyar edər qılınca həlal!

Meyin hökmüylə xonça et fələyi,
İstə ulduzdan, içmə küpdə meyi.

Təzə Aydan qədəh düzəlt, al ələ,
Qədəhi doldur o şəfəqlərlə.

O Sürəyyanı sıx üzüm kimi sən,
Dola ta al şərab ilə badən.

Yediyi torpaq isə, zahid ilan,
Zəhər ifraz edər o ağzından.

An içmiş üzüm suyun tağdan,
Ağzının şəhdidir cana dərman.

Bax şərab içməyən o zahidə bir,
Su kənarında təşnə quş kimidir.

Nə qanır eyşü işrəti mömin,
Ətrin əttar bilir fəqət dəyərin.

Kim mahal bir işə əl atsa, inan,
Ummaz heç kimsə, bil, ağıl ondan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsil insanı kim sanarsa hərif,
Kimsə etməz belə kəsi tərif.

Gər desəu: əhli-dil bir insanı var,
Ürəyin bu sözü edər inkar.

Sən xəyal içrə həmdəm axtarsan,
Öz yolun da çıxar yadından, inan.

Bir xəta eyləsə işində əgər,
Arifə Allah o xətanı keçər.

Yeddi şəxsə əgər nəzir versən,
Xızra tapşır o nəzrini hökmən.

Mey içəndə, unutma, sən ondan,
Torpağa bircə damla et ehsan.

Ey könül, bəsdi, bəsdi, içmə şərab,
Çox mey içmək edir çün əqli xarab.

Eyşü işrət çox olsa, qəm gətirər,
Məst olan etibarını itirər.

Şadlığın axırında, bil, qəm olar,
Hər sağın qarşısında bir sol var.

Daş suya düşsə, qərq olar naçar.
Su daşın qəlbini yarıb çağlar,

Hər sevinc min qəm ilə yetdi sona,
Bir sevinc min qəmə olubdur ana.

Altı, dörddürsə bir üzündə zərin,
Bir, ikidir o arxa üzdə yəqin.

Tarın hər pərdəsi ipək bağdır,
Öküz ətir saçar, o çılpaqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bil, ürək əks edir bədəndə nə var,
Ürəyin halı üzdə əks olunar.

Könülün məlhəmi ağıldı fəqət,
Çəkilər Gün doğan zaman zülmət.

Ağıl eylər şikayət hicrandan,
Qaldırar əllərin rübab tək hər an.

Dəf kimi köynəyi kağızdır onun,
Cəng kimi şalvarı palazdır onun.

Əqli badə yanında eyləmə xar,
Mələyə eyləmə divi salar.

Bəs deyil, ağ bədən o saqidən
Qırmızı mey tələb edirsən sən?

Ödə bənzər o meydə var bir əsər,
Qorxaq içsə, şiri şikar eləyər.

Bir də, mey ağlı da salır kardarı,
Elə bil kəkliyə dönür tərlan.

Məndən öyrən mey içməyi ancaq,
Səhər iç, tövbə et, qəbul olcaq.

Oldu Keyxosrova bu qəlbim cam,
Dünyanın sirrini açar o tamam.

Sən bu camdan halal olan suyu iç,
Harama vurma əl, kənardan keç.

Sədəf tək aç ağız yağışa hər an,
Həzər et bu fəsad üzüm qanından.

Süd əmibsən şirin döşündən əgər,
İçmə dovşan qanından, eylə həzər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əqlimə pərdə çəkmə rəngli sudan,
Odu göstərmə ki, qaçar aslan!

Sidiyin şeytanın töküb də cama,
Təbib ağlın qabağına qoyma.

Sanma əcdadını meyə düşgün,
Əkmə şor torpağa, çalış, su gülün!

Zöhhakın çiyni üstə bir cüt ilan,
Eyşü işrət qurub, içərlər qan.

Firidun ordusu ağıldır, din
Əzəcək o ilanları, bu yəqin!

Saray əhli deyil bu Xaqani,
Ona dostdur bu qəsr dərbani.

Fil deyil, məst olanda hay qopara,
Bir hörümçəkdir o, çıxar divara.

Rumlu bülbül tək ud çalır harda?
Bir sığırçındı qəmli - gülzarda.

Ya da bəzən o söyüdlükdə olar,
Zəngitək orda nalələr qoparar.

* * *

Mavi rəngli bu yer üzündə bəşər,
Kordu, ancaq gözətçilik eylər.

Dünya xəndəkdi-palçıq ilə dolu,
Çulğamış odlu bir hasar da onu.

Bu yanan körpüdən hücum edərək,
Atım sıçradıb keç İsa tək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nədi, pərgar kimi bu nöqtədə sən,
Fırlana-fırlana qalıbsan həmən.

Səndə pərgar kimi iki hal var,
Bir ayağın durub, biri səyyar.

Nədir dünya? O hiyləgər qandır,
Bu səbəbdən o hiylə anbandır.

Yeddi pərdə, dalında pozğunlar,
Bu zibillik kəsifdir, murdar.

Qız - ağıldır, qadınlar - ulduzlar,
Bil, qadın qızlara həsəd aparar.

Fələyə əl açıb dilənmə nahaq,
Nədir o? Bir kasa qara torpaq.

Əqlinin qiyməti dinarsa əgər,
Dinar üçün əl açma, eylə həzər.

Bir bəladır tamah başa, bişekk,
Tamahından başın bəla çəkəcək.

Mis qaba sirkə tökmə, paxrı çıxar,
Tamahı qəlbə salma, canı yaxar.

Çatdı ömrün başa, nə tapdın sən?
Qəm gətirdi sənə yar ilə Vətən.

At ölüb, dırnağı düşüb, əlbət,
Olmasın baytar, olmasın nalbənd!

Baş bədəndən qopub düşərsə əgər,
Tacla əmmamə dərdinimi çəkər?

Yada salmırsa Səncarı Səncər,
Əqil öz xaliqin necə yad edər?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömrümüz Cami-Cəmə çox bənzər,
Sındırıb, ruzigar onu xar edər.

Sındı gövhər kimi, dağıldı daha.
Civə tək toplanıb cəm olmaz ha!

Can əcəldən aman çəkir bəzən,
Necə Əfrasiyab Rüstəmdən*.

Ömrünü yaxşı bil ki, Xaqani,
Qoca dünya edib onu fani.

Getsə ömrün əgər sənin hədərə,
Faydası hər nə isə, say zərərə.

Saçımın hər tükü rübab kimidir,
Baxtıma nəğmələr oxur bir-bir.

Arının, qumrunun xoş avazı,
Bəzəyər gül-çiçəkli hər yazı.

Gül toyunda çinar yaxarsa həna,
Sən təəccüb edib də, baxma ona.

Dərzi ilə yamaqçı - bir sənət,
Necə qardaşdı bəxt ilə sərvət,

Uzadar ömrü bəxt, xoş olsa əgər,
Üzə zinət verər qara gözlər.

* * *

Bəh-bəh, ey bəxt, mehriban canan,
Ey cəfalar çəkən, vəfalı olan.

Burdaca, lap yanımdasan, ancaq,
Gəzmişəm mən səni uzaqda nahaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir cavansan, uşaq sanırdım mən,
Məst bilirdimsə, huşlusan, əhsən!

Yuxlamış bir uşaq sanım necə də,
Oyaq oldun yataqda sən gecə də.

Üzünə mən gecə deyə bilməm,
Bir səhərdir üzün, bilir aləm.

Söyləsəm: gəl, dönək ötən günə biz,
Hirslənərsən buna yəqin, şəksiz.

Sən pozubsan keçən ilin hesabın,
Bağlayıbsan o haqq-hesab kitabın.

Nə qədər muzd verəm, nə faydası var,
Qəbul etməzsən, eyləyərsən xar.

Hazıram mən döyüşməyə hər an,
Silahımdır sənin silahın, inan.

Asiman nizəni salıb əldən,
Çünki nizə vuran Günəşsən sən.

Şöhrəti dillərə düşən quşsan,
Gecə-gündüz qəfəsdə qalmışsan.

Xəyalın fikrimə veribdi qanad,
Ötmüşəm asimanı doqquz qat.

Qanadın altdadır o əhdə vəfa,
Dimdiyində bütün bir ömrə şəfa.

Fələyin sünbülündə dən yemisən,
Sağalıb, sonra uçmusan yenidən.

Qasid oldunmu, təşnə uçmalısan,
Su içən elçi quş qalar yoldan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzərək, qoymusan balıqları mat,
İçmisən sən doyunca abi-həyat.

Bubbusan - sən mənə xəbər gətirən,
Məndən o dilbərə xəbər yetirən.

Təzə gül tək kolunda varsa tikan,
Kimsəyə verməyibsən əsla ziyan.

Sən işıqdan doğulmuş ağ qartal,
Gecənin qarğasın qovub dərhal,

Məndən ötrü ucalmısan fələyə,
İki ulduz hədiyyə eyləməyə.

Bu ilin üç ayı olunca tamam,
Tanış oldu mənimlə bir cüt imam,

İki imam, o iki Rüknəddin,
İki sirr Kəbəsi, iki mömin.

Bu iki ən şərəfli şəxs ilə mən,
Razıyam dostluğa, inan, qəlbən.

Bütün ömrüm boyu bu xoşdu mənə:
Güvənim onların da xidmətinə.

Bəxt edibdir əta bu dövlətimi,
Mən ki, tapdım bu ildə qismətimi.

Taleyim bəxş edib sevinci mənə,
Verdi bir vaxta bir cüt inci mənə,

Nə qədər xalq var cahanda bütün,
Hamıya onlar oldu arxa bu gün.

İki tacdır, inan, bütün bəşərə,
İki ulduzdu, nur saçır da yerə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O iki şəxs ilə görüşdüm mən,
Xəyal asudə oldu şərlərdən.

Göyə bənzər biri lətafətdə,
Biri yer hakimi - xilafətdə.

Biri ruha dayaqdı, hikməti var,
Özü dörd ünsürə olan meyar.

O biri əqlə yol açan varlıq,
Üsuli-dinə etdi memarlıq.

Xoyda xadim isə bu Rüknəddin,
Reydə alim olub o Rüknəddin.

Bu Xoya, o Reyə edib xidmət,
Hər iki şəhrə verdilər zinət.

Bu Günəş qərq edib Reyi nura,
O, Xoy əhlinə oldu Ahura*.

Xoyda bu Şafei əqidə ikən,
Hənəfi oldu Reydə o qəlbən*.

Bu iki din rüknunə öyünüb,
Xoy olub Kufə, Reysə Misrə dönüb.

Xoy Rüknəddini suya bənzər,
Hara getsə, inan, o yer sevinər.

Rüknəddin zəkası vermiş pay,
Rey olub bolluğunda Misr ilə tay.

Bu, Nəbinin hədisin etdi şüar,
O, Əlinin kəlamını təkrar*.

O iki şəxsin olduğu məclis,
Kəbül-Əhbar, Kəbədir, şəksiz*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar olmuşdu sirlərin açan,
Elmlər sərdan, xəzinədan.

Çünki, saqidir, həm də pak onlar,
Həm Əli, həm də Cəfəri-Təyyar.

Söz açam mən üçüncü Cəfərdən,
Toxunar Bərməkilərə hökmən.

Hər ikisi döyüşdə qüvvətli,
Gül kimi incə, həm səxavətli.

Elmdə bürc, dözümdəsə Keyvan,
Günəşə bənzəyir vüqarda, inan.

Bu iki qütbdən alır köməyi,
Dolanır dini-islamın fələyi.

Onlar olmuş şeriətə məhvər,
Bu iki qütbdə o dövr eləyər.

Elmdə dağ deyim, ya da ümman,
Hər sözü dürr olan iki insan.

Çox görübsən dənizdə dağlar əgər,
İndi dağda dənizə eylə nəzər.

Bu iki şəxs tərk edib həvəsi,
Əli tək pakdır onların nəfəsi.

Allahın əmri ilə fikr elə sən,
Əlidir aynada iki görünən.

O Ömərlər kimi dini qoruyan,
Onlar olmuş mənə dayaq hər an.

Biri Təbrizdə Xızr tək məşhur,
Öz həyat çeşməsilə etdi zühur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O biri Reydədir, Məsihi-zaman,
Cismimə, ruhuna olub dərman.

Biri etmiş mənə həmişə kömək,
O birisi mənimlə həmməsləк.

Gör ki, İskəndəri, Bürəhmən üçün,
Mağaraya özü gəlibdi bu gün.

Reydə Mərvin qoca şahı önünə,
Getdi Alp Arslan, faydası nə?

Səncərə dost imiş iki kəffaş,
Çəkər imiş hər həftə onlara baş.

Gün gedib, Şir ilə olar həmdəm,
Ruh ilə çün bədən olur bahəm.

Zərrənin Gün yanında qiyməti yox,
O edər zərrəni nəvaziş çox.

Rey ilə Xoydakı bu bir cüt imam,
Mədh üçün şerimə verər ilham.

Donuz hər asqıranda, burnundan,
Çıxar allahın hökmü ilə siçan.

Onlar asqırsa, şübhə yoxdu, gərək,
Dilə "Əlhəmd" kəlməsi gətirək.

Birdi, Xaqani, qiblə, bəllidi bu,
Sanıram qiblə həm də Reylə Xoyu.

Şerimin onda biri oldu bəyan,
Sözümün şəkkərilə doldu cahan.

Reydə o hörmət etdiyim insan,
Dünyanın fəxridir, bilir dövran.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sədri-Tacəddin, indi əhli-kübar,
Tacidar söyləyir ona aşkar.

Demə sən əşrafın səxavətini,
Söyləmə mömininin ibadətini.

Təxtü tacın əsiridir onlar,
Bunları qul edib əlində dinar.

Dilinin xəncərin çəkir qından,
Heyrət ilə baxır ona dövran.

O, Əmin Salehin əziz xələfi,
Adını fəxr ilə çəkir sələfi.

O kərəm cövhəri, sözə ustad,
Yaradan möcüzə edib icad.

Qəlbimə salmış o məhəbbətini,
Duyuram zülfünün təravətini.

Mehrinə eylə etmişəm adət,
Tələbə sanki öyrənir ayət.

Çün Əmin Yəhya, Cəfəri-Təyyar,
Oldular dinə tac, zamana vüqar.

Said ilə Əmini-Ali, inan,
Dinə başdır, kitaba da ünvan.

Bunun əqli, onunsa pak nəfəsi,
Tərifə layiq oldu hər birisi.

Tacda üçdür, Əmində dörd hərf var,
Bismdə və ilahda da bu qərar*.

...Odur İsa, mənəm ona bəndə,
Tapdım hökmüylə çün həyat mən də.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsaya bəndəlik edər hər kəs,
Gecə-gündüz nədir, inan, bilməz.

İsa olmaq deyil belə asan,
Dara getməz onun tək hər insan.

Elmdə yox bərabərim, ancaq,
Fələk etmiş məni qəmə dustaq.

Sala bilməz kəlamımı gözdən,
Boşboğaz, div sifətli nəzm deyən.

Su itində məgər o qiymət var,
Ona qəndab verə neçin bolğar?

İki fəzlə mənəm bu gün rəhbər,
Gələcək nəslə də çatar bu xəbər.

Şahə qalxarsa mən minəndə kəhər,
Paxıl hər an buna paxıllıq edər.

Yox sözüm meydana təzə gələnə,
Edə bilməz paxıllıq heç də mənə.

Etmərəm mən sələflə bəhs əsla,
Tək çıxıb köhlənim mənim bu yola.

Göz dikiblər mənim sənət varıma,
Oğrunu qarğımaq gəlir arıma.

Oğruda olmasa əgər həya, ar,
Səsini doğrudan betər çıxarar.

Oğru dinsə, başın bəlaya salar,
Yol kəsən öskürərsə, peşman olar.

Paxılı xatirimdə saxlamıram,
Ancaq olmur xəyalım heç aram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yesə yüz il ilan əgər torpaq,
Torpaq axırda, bil, onu udacaq.

Bu qəsidəm də yeddiliklə gedir,
Ən gözəl səkkizinci şerimdir*.

Assalar Kəbənin önündən əgər,
Bil ki, bu şeri Kəbə örtük edər.

İmrul-Qeysin qəsidəsin yada sal,
Bu qəsidəm ona yetirdi zaval*.

Bu məsəldir, o kəs ki, çox deyinər,
Gecə vaxtı odun yığana dönər,

Arının zəhməti axır bal olur,
Şerimin tacı da bu minval olur.

Bu tumar arx kimi behiştə axar,
Dörd gözəl arxıdır onun bu tumar.

Verdim "İnsanlıq" ad, ürəklə buna,
Çün onunla yetişdi məna sona.

Üzrümü dinləsən, "Quran"da da var,
"Xalq" sözü sonda, eyləmə inkar!*

Hamin olsun iki cahanda sənin,
Sənə ruh bəxş edib, ömür verənin...

14. QAZİLƏR QAZİSİ SƏDRƏDDİN ƏHMŞADI MƏDH

Göylər sənin camalını bəzərkən,
Eşqin ilə çiçəkləndi dağ, çəmən.

Ağıl sənin qarşında bir qul oldu,
Dodağından can aləmi doğuldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zülfün oldu mələklərin şeytanı,
Hüsnün oldu ölkələrin soltanı.

Eşqin ilə yarandı bir qiyamət,
Fitvan isə oldu əsil səadət.

Camalına baxan hər göz nurlandı,
Ürək isə sövdan ilə varlandı.

Zülfün ilə pərdələndi fələklər,
Etməyələr ta başını dəngəsər.

Qırsan əgər sən fələyin riştəsin,
Dağıdarsan bu dünyanı sən yəqin.

Bir tükünün həlqəsi itsə əgər,
Cəm üzüyü olmaz ona bərabər.

Dodağından kövsər suyu dad alar,
Xaqaninin qəlbindəsə od yanar.

Sənin qiblən dil açır bir Cövza tək,
Qədəmlərin gövhər saçar dərya tək.

Ellər içrə möhtərəmdir Əhmşad,
Soltan kimi bir qazidir o ustad!

* * *

Ayrılmışam bütün aləm qeydindən,
Varlığımla bağlanmışam sənə mən.

Bu can nədir, mən ki, sənin sayənəm,
Sayəndəsə məndən qaçır derdü qəm.

Fərağında ölüm məni yaxalar,
Hüzurunda əzablarım yox olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonsiz qanlı yaş axıdar gözlərim,
Bir fəğanə dönər ürək sözlərim.

Dilim səndən söz açanda hər zaman,
Adın ilə qəlbim olur şadiman.

De, hicransız vəslə çatmaq olarmı?
Sümüyü heç ətdən atmaq olarmı?

Ciyər odum yandırmışdır naləmi,
Odlu ahım bürümüşdür aləmi.

Günəş mənim gözlərimdə söndü, bax,
Hər şöləsi bir almaza döndü, bax.

Fələklərə qalxsa ahımdan tüstü,
Yeddi fələk səkkiz olar ələstü.

Xaqaninin qəlbi qəmlə doludur,
Dərdi isə bitməz karvan yoludur.

Bircə nəfəs qalmamışdu" onda can,
Sanki Günəş kölgəsidir, ah, aman!

Din Günəşi, ey Müştəri ismətli,
Əzəliyyət, əbədiyyət şövkətli.

Soltanlığa layiqsən, ey Əhmşad!
Bir kəramət sahibisən, könlü şad.

* * *

Bir sehirkar şair mənəm cahanda,
Sözlərimdə möcüz var hər zamanda.

Ağacımdan meyvə dərir şairlər,
Kitabımdan dərs öyrənir sahirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnci səpən təbim tanıdır məni,
Ona çatmaz cavahirlər mədəni.

Nəzmdə, həm nəsrdə mən ustadam,
Yox mənimtək söz yaradan bir adam.

Süfrəm açıq bu qəhətlik ilində,
Mislim yoxdur bizim Şirvan elində.

İlhamımın Yusifini görsələr,
Barmaqların doğrar gözəl hurilər.

Məndən ağıl öyrənmək istəyənlər,
Gəlib, mənim sözlərimdən öyrənər.

Zənginlikdən xəbər verər vəhdətim,
Əzizliyi nişan verər üzlətim.

Bir tərəfdən yoxluq verərkən nişan,
Bir tərəfdən göstərir o xanüman.

Papaq versən, ya da başımı kəssən;
Nə sevinnəm, nə də qəmlənərəm mən.

Söz yaradan şairəm mən dünyada,
İncimərəm kim şerimi dansa da.

Gözlər özü görsün gərək, sözü yox,
Gövhər şəfəq versin gərək, sözü yox.

Can mülkündə olmalıdır şan, şərəf,
Yoxsa olar çör-çöp kimi o tələf.

Biri hər dəm milçək kimi sorar qan,
Biri banlar xoruz kimi durmadan.

Ağıl belə hərzələrdən çəkinər,
Tülküləri saya salmaz şiri-nər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəvə quşu nə quşdur, nə dəvədir,
Od ələyir, min cür bəla törədir.

Bir yaramaz gücənib bir beyt yazar,
Oxuyanda qafiyəsi hal pozar.

İbarəsi zəhərli yay yeli tək,
Mənaları soyuq qışın seli tək.

Mən gülürəm belə yaramazlara,
Amma, varda onlar hara, mən hara?!

Uşaq kimi at çaparlar ağacdan,
Mən baxaram onlara heyran-heyran.

Xaqaninin təbi Məryəm kimidir,
Belə cahil cuhudları kiridir.

Bəsdir Məryəm ismətinə bu dəlil,
Ki, uşağı bir günlükdə açdı dil*.

Bu bəsdir ki, imamı mədh etdim mən,
Təki, mənə toxunmasan Əhriman.

Alimlərin başçısıdır Əhmşad,
Şərəfilə rövnəq tapır bu həyat.

Səs salmışdır bu diyara həşməti,
Cənnətə yol nişan verir isməti.

Dərrakəsi dərk eyləyir aləmi,
Biliyilə açır sirri-mubhəmi.

Hörmüz kimi xeyirxahdır məzaci,
Ona görə ellərə oldu qazi.

Küll-nəfsin sahibi olduğundan,
Gedir onun arxasınca bu cahan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əllərindir səxavətin məxzəni,
Can evidir cəlalının mədəni.

Nəzərlərdən qeyb olana əyandır,
Daim sənin kəramətin həyandır.

İslamiyyət qələsinə hər zaman,
Qələmindir ən mötəbər pasiban.

Düşməninə vurmaq üçün zərbələr,
Odda – nizə, suda isə var sipər,

Mədh edəndə səni, dedi asiman:
Ütarid tək yaz bu mədhi, et bəyan*.

Mədh edirəm bu misilsiz dil ilə,
Çörəkçin yox, ad qazanmaq qəsdilə.

Bil, təbimdə yox tamahın əsəri,
Kim görmüşdür nərdivanda filləri?

Mənə ruzi verir Allah və qələm,
Təmənnasız mən səni mədh edirəm.

Sözlərimi hesab etmə yalvarış,
Mənim təbim yaltaq şair olmamış.

Mən bilirəm, sən də yaxşı bilirsən,
Ki, qətrədə mühiti görürəm mən.

Könlüm olmuş yorğun, məni bağışla,
Bir şəfa ver dərdimə xoş baxışla.

Əcəb olmaz – qələmin edə bir an,
Bu şoranlıq varlığımı gülüstan.

Məlumdur ki, müdrik, alim adamlar,
Kiçikləri etmiş daim bəxtiyar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarışqada vardır Cəmşid mülkündə,
Çibinə də vəhy gələr xoş gündə.

Çobanı da nəbi yola gətirər,
Görünmüşmü çoban olsun peyğəmbər?

Canlılara şahlıq edər Süleyman,
Bir qadına namə yazsa mehriban.

Ya da seyyid atəşpərəst kafərə,
Qələm alıb namə yaza, göndərə.

Ayın nuru gün açdırar tikandan,
Günəş daşı yaqut edər hər zaman.

Bulud qara torpağa gövhər səpər,
Külək kimi gülüstana döndərər.

Kərəmdəndir, ağıldandır bu xislət,
Çox yaraşır sənə bu xoş məziyyət.

Ey vəfası göylərə zinət verən,
Ey zəkası azmışa yol göstərən!

Qoy mənzilin olsun kərəm meydanı,
Qoy səadət atın gəzsin dünyanı.

Seyrəngahın olsun parlaq ulduzlar,
Qoy üzünə gülsün daim ruzigar.

İqlimləri fəth eyləsin kəlamın,
Qoy əbədi olsun sənin məqamın.

Uzaq olsun səndən fitnə və fəsad,
Baxtın daim ayıq olsun, Əhmşad!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

15. BAKLAN SƏDDİNİ BAĞLATDIĞI ÜÇÜN XAQAN MƏNUÇÖHRƏ XİTAB

Sübhün üzü pərdədən çıxdı, açıldı səhər,
Yaydı qızıl telləri aləmə altun göhər.

Asqırığıyla gecə sübhü doğurdu, budur,
Sübh gülərkən Günəş hər tərəfə saçdı nur.

Bitdi nazı ulduzun, güldü səhər, söndü dan,
Tökdü bulud göz yaşı, sürmə yuyuldu haman*.

Sübh fəzanı bulud eylədi xallı pələng,
Sanki maral buynuzu - Ay da göründü qəşəng.

Dəhrəni atdı səhər, Zöhrəni tökdü gece,
Qərq elədi səfrada aləmi Gün, gör necə?!

Sübh geyindi fənək, açdı zərif qoynunu,
Qucdu buludlar onu, oldu zirehdən donu.

Sübh açılan tək gecə qaçdı qara tülkü tək,
Başına qoydu papaq saf qızıldan fələk.

Sübh bütün aləmə oldu qonaqçı məgər,
Süfrəyə nemətləri düzdü əliylə səhər.

İstədi o süfrədə xoşməzə olsun cülab,
Əsdi səba, caminə jaləni etdi gülab.

Sübh gəlib durnalar dövrədə diz çokdülər,
Şam kimi şadlandılar, göz yaşını tökdülər.

Gözmü qədəhdir, tökür mey yerinə göz yaşı?
Şam axıdır saf şərab şölələnərkən başı.

Kuzəni bir quş kimi saqi alıbdır ələ,
Qəlbimizi danə tək sübh odu verdi yelə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sübh dönübdür meyə, badəsi şəbnəm, təmiz,
Sübh kimi saf olan meylə dolub kuzəmiz.

Topladı ulduzları sübh çağı asiman,
Əldə qızıl bir narınc tutdu verə ərməğan.

Bir şaha ki, şahlara hökmü rəvandır onun,
Təkcə bu Şirvan deyil, mülkü cahandır onun.

Məst yatan dilbərim sübh oyandı xumar,
Badə tələb eylədi, sübh meyin hüsnü var.

Öpdü ayaqlarını çəng kimi saçları,
Boynumu qucdu, dedi: - Sübh öpər yar yarı!

Duzlu dadırdı ləbi, göz yaşı içmiş, demə,
Sübh bənövşə saçar duzlu ətir aləmə.

Ləb ləbə qoydu, mənim ruhuma verdi əzab,
Gözlərim içrə bəbək oldu odunda kabab.

Nur ələdi sinəmə sübh kimi ağ üzü,
Sildi ürəkdən bütün qəmlərimi bir sözü.

Harda ki, İsa durar, olmaz ölümdən xəbər,
Məskəni cənnət olan, söylə, əzabmı görər?

Çahi-zənəxdan idi, yoxsa dərin bir quyu?
Sübh idi, o çeşmədən nuş elədim can suyu.

O quyu, o su mənim ağlımı verdi bada,
Sübh çağı məst olan ad-sanı salmaz yada.

Əldə qədəh, Yusifim saqi olubdur məgər,
Nəşə ilə qarşıma badə gətirmiş səhər.

İç! - deyə israr edir, and verir canıma,
Mey kimi ləbdən mənim sirkə tökür camıma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gördü ki, mən, doğrudan, pozmayıram tövbəni,
Aldadıcı sübh tək çəkdi üzə pərdəni.

Söylədi: - Tutmaz əlin mey dolu sağər nədən?
Dinlə bu xoş müjdəni vəcd ilə meyxanədən.

Gərdəyini tərk edib, sübh çıxıbdır üzə,
Atdı qara örtüyü, döndü gecə gündüzə.

Söylədim: - Ey könlümün sübhü, yavaş get, yavaş
Bil ki, çətindir işim, sirrimi, gəl, etmə faş!

Baş da, qızıl da sənin, qaldır, apar, istəsən,
Sübh kimi aşiqi tərk eləyib getmə sən!

Mən deyiləm su, yuyam, üzdən alam pərdəni,
Hər işi asan olan, sanma axar su məni!

Kimdə ağıl sübhünü versə kamalı xəbər,
Su kimi iş görməyi bir kərəlik tərk edər.

Mən sənə, ey tez axan, həsrətəm örnrüm boyu,
Təşnə qoyub canımı, ləbdən ayırma suyu!

Sübh kimi üstümə çəkmə iti dəşnəni,
Dönmə səraba, yetir çeşməyə bu təşnəni!

Ləblərinə, istədim, oğrun atam bəlkə əl,
Faş elədi qəsdimi, Ay tək üzün, ey gözəl!

Çıxdı əlini busədən, doğru demişlər məgər:
Düşmənidir oğrunun Ay işığıyla səhər?

İndi vüsal sübhüdür, lütf eləmirsən, niyə
Hicrin odunda yanan bu xəstə Xaqaniyə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Sübh çağıydı dünən, saldı qapım taqqataq.
Qarşıladım şövq ilə, Xızr idi, gəldi qonaq.

Saldı nəzər halıma xoş, gülər üzlə o pir,
Mehriban avaz ilə dedi: - Sabahın xeyir!

Xoş qədəmindən onun vəcdə gəlib körpə tək,
Fəxr ilə rəqs eylədi, yer dönüb oldu fələk.

Sübh açılanda necə ulduz edər iztirab,
Göydə təvan qalmadı, çıxdı qızıl afitab.

Peyki olub aləmin çərxi-fələk tək gəzir,
Sübh kimi xoşsifət, tazə cavandır o pir.

Başda saçı ağsa da, qüllədəki qar kimi,
Rəngi təravətlidir tazə cavanlar kimi.

Qırx səhərin elminin məğzi olub məktəbi,
Nuh ona bir xəlfədir, ruh açar mətləbi*.

Hüsnü onun eşqdir, eşqin oduyla coşar,
Müşk saçar aləmə, etsə əgər iftixar.

Bərq vurar sübh tək başda bəyaz saçları,
Sanki südab cövhəri ağ boyamış onları*.

Gördü iki aləmin dərdü qəmin atmışam,
Mey-məzəsiz məst edib sübh məni, yatmışam.

Eşq alıbdır girov canımı, yox məndə tab,
Fəqr aparıb mərcimi; halım olubdur xərab.

Gördü qabardır sinəm, ahım uçubdur,demək,
Zəlzələ düşmüş göyə, ziri-zəbərdir fələk.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söylədi: - Xaqaniya, sübh açılıbdır daha,
Durma, səhər müjdəsi şerini çatdır şaha.

Hamilə idi gecə sanki, doğuldu səhər,
Sən də gətir qəlbinin körpəsi varsa əgər!

Açmış ağıldan qanad quş kimi təbin sənin,
Sübh xiridarıdır şah səpən hər danənin.

Sübhdən al xəncəri, kəs o quşun başını,
Töhfə apar şah üçün, at tamahın daşını!..

* * *

Çıxdı dünən Dəlvdən Yusifini üzdə niqab*,
Saldı səhər vaxtı tək aləmə bir inqilab.

Yusif əgər Dəlvdən çıxsa da bir an səhər,
Düşdü nəhəng ağzına, Yunis imiş o məgər?

Saldı ona bir nəzər sübh açılanda nəhəng,
Heybətini görcəyin dil-dodağı oldu çəng.

Odlu sədəf aldı yol, getdi nəhəngə san,
Sübhə dəniz ənbəri səpdi yazın ruzgarı.

Sübh hava meysüzən kuzəyə dönmüş məgər,
Yerdə selin üstünə düzdü hübab şişələr.

Vurdu qələm sübhü şam, bu qələmundur bahar,
Hər naxışın rənginin incə bir əcazı var.

Sübh kimi göz açıb şaxədə hər bir çiçək,
Düymə düyüb hər küpə şivdə zərif incitək.

Yer üzüdür rəngbərəng, göydə qanm əksi var,
Yoxsa çəkib sübh tək xəncərini hökmdar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çətri günəş Xosrovun qüdrətinə sal nəzər,
Gör, qələmiylə əli şahımın etmiş nələr?

Qapqara oldu gecə şah çəkincə qələm,
Vurdu əli göylərə sübh açılanda ələm.

Sərvətə meyl etməmiş, sübhdür onda ürək,
Cəmdəyə qonmaz hüma, ovlamaz aslan böcək.

Ey ver əli sübh tək süfrə açan aləmə,
Ağlı, zəkası, üzü nur saçan aləmə.

Cahü cəlal paltarım onda ki, açdı ətək,
O ətəyə rəngbərəng sübh əli verdi bəzək.

Şövkətini, şənini nurlu Günəş gördümü?
Sübh ayaqlarına düşdü qızıl top kimi.

Oldun ədalətlə sən xalqın ilə mehriban,
Sübh kimi parladı zülmətə dalmış zaman.

Sübhə varınca gecən döndü günün bayrama,
Bayrama layiq libas biçdin o xoş əndama.

Bəlli həqiqət budur: sübh kimi aşikar,
Onda ki, Yusif üzü gün tək üfüqdən nıxar.

Sürmə olar Yəquba, nura dönər göz yaşı,
Vəsmə Züleyxa tapar ta qarala ağ başı*.

Dostuna, həm düşmənə tikdi təbiət necə,
Sübh gəlin paltarı yaz palazını gecə.

Hər nə qədər sübh olar, gözdən itər göydə ay,
Hər nə qədər ki, çəkər göydə buludlar alay.

Hər nə qədər aləmi yaz çevirər cənnətə,
Yay Günəşi doldurar meynələri şərbətə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər nə qədər söz demək xas ola Xaqaniyə,
Nəzm ilə möcüzə göstərə, mədhin deyə.

Qafiyəpərdazları susdura avazəsi,
Sübh necə susdurar bayquşu bülbül səsi.

Sübh onun şerini aləmə yaysa əgər,
Düşsə ilan ağzına, şəhdə dönər, bil, zəhər.

Olsun o gün ki Günəş baş çıxara qərbdən,
Yəni qiyamət qopa, təxtdə sən şah ikən.

Daim iki sübhdə dörd mələk eylər dua,
Bəxt gülə sübh tək, yar ola tale şaha.

Böylə duanı, yəqin, tarın qəbul eyləyər,
Mən də dua eylərəm, Xızr özü "Amin!" deyər.

16. ŞİRVANŞAH AXSİTANIN TƏRİFİ

Sübh ulduzlara çəkibdir kaman,
Lətif əndamlılar odlanıb ondan.
Səhər süfrəsinə sübh oturanda,
Ulduzlar didərgin düşdü bir anda.
Elə bil, əfsundu nəfəsi sübhün,
Dəycək, ulduzları sarsıtdı bütün!
Müftə yeyənlərin bağrına od sal,
İki xəzinə ver, bir qədəh mey al!
Sal qızıl qədəhi küpədək meyə,
Qədəhin oxşasın ağır gəmiyə.
Doldur qədəhini son xəttinədək,
Tərki dünyalığın üstünə xətt çək!
Gümüş sürahidə mey qızılından,
Düzəlt dilbərlərə zərif ərməğan!
Gözəl hədiyyədir şümşad yarpağı,
Büllur buxaqlara az boyunbağı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanı bəzəyən Günəşin özü,
Hilalqaşlılardan çəkməmiş gözü.
Zöhrə mizrabını vurur çənginə,
Nəşin qızlarını oynadır yenə*.
Sənubər şöləsi saçan badədən,
Gözəllər əlində nar gülü gör sən!
Şadlıq məclisinin nərd oynayanı,
Əlini çırpmaqdan göyərmiş yanı.
Meyin cövhərində yaqut, qızıl var,
Səhhəti pozulan min şəfa tapar.
Qızılı, yaqutu fərəh gətirər,
Mey can dərmanıdır, dağıdar kədər.
Mey gətir, daşı düz, yolları bağla,
Bağla, şeşxanada zalımı saxla!
Ölçü bil hər kəsə mey verən zaman,
Sən çalış, fərqləndir yaşı qurudan.
Bədxaha bir qətrə vermişsən əgər,
İçirt xeyirxaha dəryalar qədər!
Xıltı müflisə ver saxsı qədəhdə,
Nəcibə saf şərab cami-sədəfdə!
Cüt şeşi atanda sahib məqamlar,
Zəri cüt yek atar yoxsul adamlar.
Başçılar oturub mey içən zaman,
Ayaq öpməsinə enər asiman!
Xaqani istər ki, çata kamına,
Mey süzə xaqanın qızıl camına.
Dünya hökmdarı Şirvanşah üçün,
Şerin incisindən bir dəmət düzsün.
Böyük xaqanımız Əbülmüzəffər,
Zəfər çalanların önündə gedər.
Xəzran ordusuna qələbə çalmış,
Boynuna Xizəran kəməndi salmış.
Əlindən dəryalar göhərlə dolmuş,
Gövhər taclıların gövhəri olmuş.
Dənizin şor suyu aranmış həmən,
Saf igidlərinin alın tərindən.
Bakı duasını unutmaz bir an,
Olub sayəsində Bəstan, Xavəran!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rey ilə Xəzranı, Zirəgəranı,
Bakı istər etsin şahın qurbanı.
Göylər qılıncına göstərdi mədəd,
Fəth oldu əliylə Şəbəran, Dərbənd.
Güştasb öz oğlundan istədi kömək,
Qızları elinə gətirdi tək-tək.
Mədhinə yazdığım bu qitədən sən,
Bilərsən, şairlər ustadıyam mən!

17. AXSİTAN ŞAHA VƏ ŞAHBANU SƏFVƏTƏDDİNƏ XİTAB

Könül əgər görməmiş diləyinin üzünü,
Könül duyan insanın tapmamışdır izini.
Dönə-dönə axtardı könül iki dünyanı,
Görmədi bir əhl adam duya könül duyanı!
Yolu iki mənzilin enişlidir, yoxuşlu,
Hələ vəfa elçisi keçməmişdir bu yolu.
Vəfa üstü naxışsız zər olubdur əzəldən,
Odur vəfa naxışı atılmayıbdır əldən.
O şey ki, arzulardım, görmədim bu dünyada,
Onu görən olmamış məndən qabaqlarda da.
Tutub ümid yolunu, çoxları etmiş səfər,
Hələ aman yurduna çatmamışdır bir nəfər.
Hey gün gəlib, gün gedib tarix boyu cahandan,
Görən yoxdur: iz qala ötüb keçən karvandan.
Sındıralı belini vəfanın bu zəmanə,
Görən yoxdur: işləsin, desin doğru zəmanə.
Vəfanın qatlanılmış beli xeyli zamandır,
Ovçu fələk əlində ən yaxşı bir kamandır.
Xaqaninin əmrinə əgər salınsa nəzər,
Aydın olar qazancı - dilindən olmuş zərər.
Bəllidir, başı qalxsın, ensin deyə həmişə,
Tərəziyə dilindən asılmaq olmuş peşə.
Mənim kimi söz deyən hələ cahan görməmiş,
Dilimdən çıxan sözdən heç kəs ziyan görməmiş.
O gündən ki, açılmış, danışmamışdır yalan,
Bəs nə olmuş dilimi quş tək qəfəsə salan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Ey Axsitan, sənə tay hələ cahan görməmiş,
Asiman da sənin tək böyük xaqan görməmiş.
Sən məgər Cəmşidsən ki, bu dünya ondan savay,
Elə polad vücudlu bir pəhləvan görməmiş.
Bayrağının zinəti olub "Əbülmüzəffər",
Kaviyan bayrağı da belə nişan görməmiş.
Deyirlər ki, keçmişdə nə Turan, nə də İran,
Rüstəmi-Dastan kimi bir qəhrəman görməmiş.
Sənինsə, ey hökmdar, qullarının içində,
Yüzlərlə Rüstəm var ki, heç Sistan görməmiş.
Şah ilə şah banunu bağ ilə dəniz kimi,
Qəlbi geniş, uca baş heç dudman görməmiş.
Bəxşiş verən əlləri bulud, Günəş, dənizmi?
Adi əldən bir insan belə ehsan görməmiş.
İki ruhla iki nur, bu ikisindən savay,
Bir evdə, bir süfrədə heç bir insan görməmiş.
Dünyanın üfüqləri ismət fələklərində,
Şah xanımından savay işıq saçan görməmiş.
Ölkənin Qiydafəsi, zaman gəzib sənə tay,
Rabiədən savayı bir oxşayan görməmiş*.
O Rabiə əslində Bənati-nəş qızıydı,
Yoxsa elə Rabiə bütün cahan görməmiş.
Məhəmmədə xas olan doqquz arvaddan savay,
Yüz əsrdə ona tay bir axtaran görməmiş.
O səfanı ki, gördü vücudunda Cəbrayıl,
Məryəmin pak cismində bir elə can görməmiş.
Pərdəsində ikinci Məryəmi saxlamaqçın,
Fələk Qeysərdən özgə bir pasiban görməmiş.
Bəxtin hüması uçmuş, bütün cahanı gəzmiş,
Qapısından savayı bir aşiyan görməmiş.
Xurma ağacı duydu ətrini ədalətin,
Xurma içində çərdək xurma açan görməmiş.
Səadət kəcavəsi gəlmədən, bir nəfər də,
Xeyir yurduna dönsün mülki-Şirvan, görməmiş.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Şahbanunun ver əli, səxavəti önündə,
Xəzinələr, mədənlər tab gətirməz bir gün də.
Əgər Kərəmı əlini açmasa Səfvətəddin,
Kərəmin cismindəki ruh da görünməz, yəqin.
Özü gizli sirrdir, pərdədə olmuş nihan,
Ancaq bütün sirrlər qəlbinə olmuş əyan.
Kəbə kimi örtüdən zinət tapıbdır o da,
Ancaq elə Kəbə ki, görən yoxdur dünyada.
Məlikənin vətəni cənnətdir, o mələkdir,
O cənnət ki, şübhəsiz, bir kəs görməyəcəkdir.
Şah İdrisdir, İdrisin cananıdır o dilbər,
Ona nəzər salmağa başqasında yox hünər.
Cəmşid ailəsində xanım olan, ey qadın!
Ailəyə şərəfdir sənin mübarək adın!
Sən sifətcə Sarasan, paklıqda Asiyəsən,
Heç kəsin görmədiyi mehriban Zübeydəsən*.
Hər kəs sənin vəsfini dilə almışdır, inan.
Ağzı dada gəlibdir, sanki gövsər suyundan!
Sənin mədhini yazan oda yansa da, ancaq,
Odunu ya Zəmiran, ya da Tuba olacaq.
Astananda torpağı öpübsə kim, ey pəri!
Zəhmətsiz, əziyyətsiz qucaqlamış gövhəri.
Nə sən kimi məlikə gəlmişdir bu cahana,
Nə mən kimi sehrkar şair görmüş zəmana.
Könlüm elə bəzəndi səni vəsf edən zaman,
Elə bəzək neysandan tapa bilməz gülüstan.
Məclisində dil açıb, vəsfini söyləsəm mən,
Xoş gələr gülşəndəki bülbülün nəğməsindən.
Sənin adın könlümün bağında bir ağacdır,
Xəzan gəlib, qış ötsə, yenə solmayacaqdır.
Sənə nisar etdiyim bu kiçicik mədhiyyə,
Bir müşkdir ki, hələ culğanmamış ipəyə.
Görüncə şer bazarı kasad olubdur təmiz,
Bağladı şairliyin dükanını bəndəniz.
Açdı həllac dükanı, lakin, heç bir zamanda,
Oddan başqa müştəri görmədi o dükanda.
Soruşmadı halımı bir kərə şah xanımı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilsin necə sarsıdır qəmlər yazıq canımı?
Nə halımı soruşan, nə yadına salan var,
Nə bir təsəlli verən, nə dərdimə qalan var.
Çoxlarından istədim əlac ürək dərdinə,
Bilmədilər qəm nədir, xəstə ürək dərdi nə?
İki-üç ildən bəri şah da olub mənə yad,
Nə bir para çörəklə, nə hörmətlə edib yad.
Çoxdan çıxıb aradan ənam, bəxşiş, həvalə,
Bir nəfərdən soruşsun halımı laməhalə.
Şah məndən acıqlıdır, bircə soruşun ondan,
Söyləsin ki, nə xəta görmüş yazıq qulundan?
Şair şah sarayında əl çəkib xidmətindən,
Sonra da məhrum qalıb şah verən nemətindən.
İndi ki, bağlanıbdır üzümə şah dərbarı,
Yad ellərə getməyə icazə versin barı!
Arzum budur, bu işdə vasitəçim olasan,
Səndən yaxşı kimdir o, mənə olsun mehriban?
Bir adam ki, tanımaz səndən yaxşı bir kömək,
Sən də o biçarəyə kömək edəsən gərək!
Dadına çat, naləsin dinlə, göstər mərhəmət!
Onun varı, dövləti ahü fəğandır fəqət!
İstədim bir şer yazım vidalaşıb gedərkən,
Şer deyil, tərif üçün sehr axıtdım dilimdən.
Əlimdəki qələmin iki dilli quşunun –
Görən yoxdur mislini gül budağında onun.
Yəhərləyib, oturdum nitq atına, ucaldım,
Ucalaraq, bu atla Ütaridən öc aldım.
Məlikənin sağlığı bir bağdır ki, heç zaman,
Fəna yeli əsməsin, o bağ görməsin xəzan.
Mələklər lövhəsində zaman onun adını,
Yazsın: "İns ilə canın ən möhtərəm qadını".
ömrü olsun əbədi, günü keçsin kədərsiz,
Sayəsində ölkəmiz yaşasın dərd-sərsiz.
Arzum budur: ömrümdə yüz elə bayram ola,
Şahla xanım ömrünün hər günündən kam ala!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

18. EŞQ VƏ MƏHƏBBƏTDƏ GUŞƏNİŞİNLİK VƏ MƏNUÇÖHRÜN BAÇISI İSMƏTƏDDİNİN MƏDHİ

Tərk qılmaqçın cabanı seçmişəm,
Eşqi canın mehribanı seçmişəm.

Vermərəm dünyaya eşqin zövqünü,
Bir gün olsun, ya bir anı seçmişəm.

Asimanın minnətini çəkmədən,
Mən Günəş rəmzi vəfanı seçmişəm.

Gözlərim tər incilər dəryasıdır-,
Sahilində ləl kanı seçmişəm.

Dastan etmiş Məcnunun eşqin cahan,
Mən bu şövkət, həm bu şanı seçmişəm.

Hər pətək aşiqlərin şan-şan evi,
Şah kimi mərkəz məkanı seçmişəm.

Dərdimə vaqif olan dost istərəm,
Mən qılınc tək "mehribanı" secmişəm.

Dostların zülmü aşıbsa həddini,
Dostunun qədrin qananı seçmişəm.

Mən quşam, sevgi qəfəs, uçsam belə,
Dönmək üçün o yuvanı seçmişəm.

Mən xəyalən yarla həmdəm olmağa,
Axtarıb xəlvət məkanı seçmişəm.

Yar deyəndə mən, elə fikr etməyin,
Gördüyüm hər şux cavanı seçmişəm.

Məndə bu arzu, inan, mənsiz doğub,
Xurmanı tumsuz zamanı seçmişəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yar olmazsa ümid ilə yenə,
Qəlbə munislik nişanı seçmişəm.

Qəlb ümidsizlik yarası aldısa,
Məlhəmim qəmdir, dəvanı seçmişəm.

Dünyada bir güşəni xalqdan uzaq,
Tərk edib gənci-rəvanı, seçmişəm.

Bu yosun basmış olan Ruyindeji,
Tutmağa mən həftxanı seçmişəm*.

Süfrəsi boşdur görüncə bu evin,
Mən qənaətdən qidanı seçmişəm.

Pusqudur, gördüm, bolaya bu qala,
Mən bəsirət pasibanı seçmişəm.

Həm hava yoxdur bu yerdə, həm vəfa,
Çatdırım şəhrə bu canı, seçmişəm.

Yox ələfdən başqa burda özgə şey,
Mən ələfdənsə zəkanı seçmişəm.

Lal cavanmərdlər yerin tapsam əgər,
Dil açıb xoş bir bəyanı seçmişəm.

Düşsə qıfılçı dükanından yolum,
Onda, bil, qıflı-dəhanı seçmişəm.

Hər nə gəlmiş başıma - dildən gəlib,
Susmağın yoxdur ziyanı, seçmişəm.

İtsə də nitqin kilidi, mədh üçün,
Təkcə Bilqeysi-zamanı seçmişəm*.

Mən təmənnasız, xanımlar şahını,
Könlümün tək mehribanı seçmişəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsmətəddin şahda Məryəm hökmü var,
Kandarın cənnət nişanı seçmişəm.

O, Firidun mülkünün tək gövhəri,
Mənı o dərgahda məkanı seçmişəm.

Barigahı Kəbədir bir ölkəyə,
Qibləgah mən də oranı seçmişəm.

Yüksək ulduzdur, səmalar - pərdəsi,
Mənziliçin Fərqədanı seçmişəm*.

Adətin Sara, köməkçin Asiyə,
Xidmətinə insü canı seçmişəm.

Rabiə, həm də Zübeydədir, onun,
Bargahında amanı seçmişəm.

Var inamım çün edə hörmət mənə,
Gövhərin bu əsl kanı, seçmişəm...

Qullarının gəzdiyi torpağı mən,
Börkümə zinət nişanı seçmişəm.

Parlaq ulduzlar alır ondan ziya,
Mən də o parlaq ziyanı seçmişəm.

Bir-iki söz söyləsəm, gövhər verər,
Mənsə gənci-şayeqanı seçmişəm.

Xidmətində az görünsəm, əfv elə,
Çünki Simürğ aşiyam seçmişəm.

Başçılıq zəhmətsə, xidmətdir cəfa,
Mənsə bunlardan asanı seçmişəm.

İllər ilə çəkmişəm xeyli əzab,
Ayrılıqdan mən hamanı seçmişəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fil görən dəmdə yuxumda, diksinib,
Söhbətə Hindustanı seçmişəm.

Yatmış idim, qaldırıbdır hümmətim,
Bu əzabi-cavidanı seçmişəm.

Mədhini töksəm qızıldan büt kimi,
Səcdəyə tək bir xudanı seçmişəm.

Kafər olsam da, sənin məddahınam,
Gözlərəm fayda, ziyanı seçmişəm.

Hər səhər əl qaldırıb dərgahına,
Canına həqdən duanı seçmişəm.

19. ŞİRVANŞAH MƏNUÇÖHRÜN TƏRİFİ

Şahın ədaləti beş növbə təblini çaldı,
Təzadı boşladı dörd təb, birləşib qaldı*.

Çatıb o vaxt ki, aman qasidi hüzurundan,
Verə cahana xəbər ki, nə xoş olub dövran.

Yəqin Xütəndəki yebruh bitkisi dil açar,
Yaxın zamanda o, Vəqvaq ağacı tək danışar*.

Deyər ki, şükr, bu dünyada var böyük bir şah,
Edib vəkil özünə ruzi çatdıran Allah.

Fələk calallı Mənuçöhr Müştərixislət,
O, dinə fəxrdir, ondan calal tapar millət.

Nəsimi insafının çöllərə əsib, ondan,
Zəhər olub ilan ağzında - dərdlərə dərman.

Ədalətilə onun birləşib zamanla aman,
Qəza rıza ilə dostlaşmağa verib fərman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axıtdı qanını qıpçaqların bu meydanda,
Boyandı Çin ipəyi tək-qılıncı al qanda.

Təəccüb etmə, o torpaqda ki, bitir otlar,
Bitərsə başları qıpçaqların olanda bahar.

Nə xoş ki, aləmi-mütləqdə həq çatıb dadına,
Bəqa beratını katib yazıb sənin adına.

Əlinlə tapmasa nuru fələk şamı, əlbət,
Məsihə kəbr canı tək olardı, bil, zülmət.

Sehər qılıncı çəkib sübh tək dilavərlər,
Vuruşmaq əzmi ilə döş-döşə durar ləşkər.

Göründə səndəki Pərvin qıran oxu, hətmən,
Bənat-nəş alar, qorxaraq, tələq göydən*.

Sənin qılıncım oynar görəndə, qından uzaq,
Yerin ödü yarılar, lərzəyə gələr afaq.

Bulud tək əldə o şimşək qılınc, dönərsən oda,
Mələk kimi oturarsan Büraq tək bir ata.

Qidağ oxu uçar ikən sənin kamanından,
Qidağa əks-sədası çatar dağ üstə haman*.

Qılınc əlinlə sənin birləşəndə meydanda,
Can ayrılar bədənindən pisin haman anda.

Tükəndi xəlq, yer altındakı bu ruhlardan,
Güman ki, xəlq edəcəkdir yeni bəşər yaradan.

Başında çətri tutub "Caə Nəsrüllah"ı zəfər*,
Əcəlsə düşməninə içdirər əlilə zəhər.

Ədalətin səbəbindən şahım fələkdə belə,
Günəş Aya çata bilməz ki, endirə sillə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəsəm o xaliqə ki, paklar əzəl dəmdə,
Olublar aşiqi, valeh qalıblar aləmdə.

Nə Şərq, nə Qərbdə vardır sənin kimi Hatəm,
Nə də mənim kimi məddah İraqda, Şamda həm.

Məni yaratdı səni mədh üçün özü yaradan,
Sən isə bəslə məni, layiqəm buna, sən inan!

Mənəm o şəxs ki, hər şerimi yazarkən mən –
Yarar fələk ola dəftər, mələk varaq çevirən.

O nüktələr ki, düşər nəzmimə dəqiq, parlaq,
Yəqin ki, sirrini bilməz "Əbu Əli Dəqqaq"*.

Zəmanə şahları şəfqət bağında meyvə üzər,
Mənim də halıma sal şəfqətin gözüylə nəzər!

Usandı könlüm o göy günbezin cəfasından,
Necə ki, sısqalını sarsıdar müzür dərman.

Cahan məhəbbətin ilə dolub, riza vermə,
Mənim kimi birinə zülm ola, rəva görmə!

Səxavətinlə nayiblər əlindən al məni sən,
Ki, xəlqə ruzi verən nayibi bu gün sənsən.

Bacardığımca sənə mədhlər nisar etdim.
Niyə əzizlər içindən məni kənar etdin?

Cahan mülkü sənin, sən bu mədhə layiqsən,
Yemək ilə Yalağı tərif eyləyim necə mən?*

Hanı o kəs ki, sənin verdiyin bol ənamdan.
Çatıb da sərvətə, tikdirməmiş saray, eyvan?

Fəqət-mənəm ki, mənə taleyim olubdur yad,
Nə razı qaldım özümdən, nə oldu könlüm şad.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Canım yaxıldı oda, təb pas tutubdur, əgər,
Bir ah çəksəm, odunda dəmir belə əriyər.

Fəzilətin dadına çatmasa, budur qorxum,
Rəqiblə üz-üzə gəldikdə mən — xəcalət olum.

Sözün məzacına mədhinlə qatmışam şəkkər,
Ümidimi qıraraq, kamıma axıtma zəhər.

Kərəm qılıb da, mənə qıyma, ehtiyacımdan,
Min odlu ah ciyərdən çəkib, yanam hər an!

Ölüm odu gəzirəm ehtiyac üzündən mən,
Necə həyat suyu axtarar həyatı sevən.

Çörək dalınca canım ayna tək zəifləmiş,
Daraq kimi təpədən dırnağadək olub diş-diş.

Sənin o mərhəmətin dərdimə edər dərman,
Əlac gözləmirəm çünki İbn-İshaqdan*.

Həyat, ölüm nə qədər var ,qapın açıq olacaq,
Cahan əhlinə qəsrin ümid evi qalacaq.

Qapın fələklər üçün qiblədir, cahan əhli.
Dil açdı mədhinə ,sevdi səni bəyan əhli.

Sənə həmişə dua eyləyir bu Xaqani,
Qəbul eyləyə tarın bu əhdü peymanı.

20. MÜZƏFFƏRƏDDİN ELDƏGİZ QIZIL ARSLANIN TƏRİFİ

Ey Məğribin tacdan, fələklərin şahı bu gün,
Məşriqdən üz göstərəndə səndən ziya alar bütün.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pak adamlar qibləsidir sənin qapın hər bir zaman,
Səndən başqa bir qibləgah tanımıram, ey hökmran!

Bu doğrudur ki, vacibdir səcdə etmək bir Kəbəyə,
Gözüm səndən ayrılmaz mən baxım bir özgə qibləyə.

Bacarmadım Kəbəyə mən ziyarətə gedim əgər,
Yaxın Kəbəm olan yerdə nə lazımdır uzaq səfər.

Əgər sənin qənşərində fövtə getsə bir namazım,
Canım qurban olsa belə, yoxdur buna etirazım.

Xidmətinə çatan dəmdə yaraşaram Məsihayə,
Buraxsın öz donuzunu bu gün məscidi-Əqsayə?*

Qoy bədənim olmasın heç, qulluğunda qurbansa can,
Könül möhrə tapmış isə, nəyə gərək olsun ilan?!

Doğrudur ki, müşki ancaq sarımsaqla yoxlayarlar,
Kişi müşkü əldə etsə, sarımsağa hacətmi var?

Çinin müşkü nəğd olanda, nəyə lazım Çin ceyranı?
Qoy otlasın Çin ceyranı çəmənlikdə gül-reyhanı.

İki töhfə göndərirəm - biri candır, biri əsər,
Qaibanə alqışlayar töhfələri uca göylər.

Əşarımın bu divanı inci səpər məclisinə,
Hər bir beytim hüzurunda layiq olar, bil, təhsinə.

Səma sənin torpağını öpən dəmdə, ey hökmran,
Gözlərinə bir tutiya edər onu hər bir zaman.

Xızır qədər ömrün olsun zirvələri aşa-aşa,
Hər günün qoy min il olsun, bu hesabla yüz il yaşa!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

21. İRAQIN BAŞ VƏZİRİ ZEYNƏDDİNİN TƏRİFİ

Sübh qılıb Şərqdən bayrağını aşikar,
Şöləsi o bayrağın şimşəyi xatırladar.
Mavi səmada Günəş qırmızı kükürd ikən,
Yer misinə rəng verib, saf qızıla oxşadar.
Çin şahı Çin güzgüsü qıldı üfüqdə əyan,
Zənci pası göydəki güzgüdən oldu kənar.
Zərli qılıncla Günəş Ay sipərinə vurub,
Tikdi dağın çiyninə ağ əli ilə ciyar*.
Oldu Səmak tutduğu nizə əliylə qələm,
Oldu bu əllə İrəm çeşməli bir laləzar*.
Kölgə sənubər kimi Məğribə düşdü, budur,
Şərqdən etdi Günəş zərli şüşə aşikar.
Günbatana üz qoyub uçdu yerin qarğası,
Etməyə taki onu göy çalağanı şikar.
Oldu Günəş od, gecə yandı qara müşk tək,
Yaydı səba ətrini, ud ilə doldu diyar.
Atdı qızıl örtünü sübh, fələk eylədi,
Pul kimi ulduzları göy gəlininə nisar.
Göy bu qara torpağa saçdı Günəş nurunu,
Parladı fikrin sənin, bəhrələnir şəhriyar.
Asəf ikən, ver əlin Hatəm edibdir səni,
Əhnəf ikən, sözlərin Söhbanı xatırladar*.
Bəxşişi Xalid kimi hədsiz olan Yəhyasan,
Cəfər ikən, olmusan rəydə Harunşüar*.

* * *

Gəldi səhər məst ikən, girdi qapımdan nigar,
Sübhə gül ətri saçır, gözləri olmuş xumar.
Gordü cavanlıq bağım sanki xəzana düşüb,
Dil açıb üzr istədi nazla o siminüzar.
Durdu salam eylədi, aldı sürahi elə,
Söylədi ki, çarədir mey, kim olarsa xumar.
Cam o çiçək ləblərin şövqi ilə güldüsə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəldi sürahi dilə, ağladı hey zar-zar.
İçdi iki-üç qədəh, açdı gözəl ağzını,
Saçdı şəkər ləbləri, güldü gözəl növbahar.
Nitqinin o bülbülü açdı çiçək ləbləri,
Oldu şərabdan üzü lalə kimi aşikar.
Söylədi ki, qəm yemə, meyl elə, gəl, badəni,
Qəm nə gərək var ikən, mən kimi bir qəmgüsar.
Mən kimi iç badəni, ey sözü şirin, bu dəm,
Qəm evini etginən şadlıq ilə tarmar.
Gör necə şölə saçır nurlu Günəş aləmə,
Oldu bərabər gecə gündüzə, gəldi bahar.
Əldə piyala tutub, nuş elə mey şövq ilə,
Nəğmə desin neylə çəng, qoy oxusun sazla tar.
Üç dolu peymanə iç sən vəziri mədh elə,
Söylədi: Xaqaniyə, söylə görək bir nə var?
Bil ki, vəzirdir şaha, ölkəyə tədbir tökən,
Gör ki, onunla edir din ilə mülk iftixar.

* * *

Gəldi xəzan mövsümü, köçdü bu yerdən bahar,
Meynə küləkdən əcəb ağladı hey zar-zar.
Sünbülənin çərxdə yandı fərəh xırmanı,
Köçdü Günəş Mizana, tapdı o yerdə qərar*.
Göylərin zər parçası çatdı Tərazuyə çün,
Gecəylə gündüz bu dəm ölçüdə bir oldular*.
Gümüş zirehli halqa çıxdı yenə aşkara,
Səpdi onun üstə zər, oldu budaqlarda bar.
Sıxdı xəzan almanın çahi-zənəxdanını,
Açdı çəmənlərdə gül, oldu gözəl ruzgar.
Dırnağını meynənin fındığa tutdu payız,
Çəkdi bəzəklə xına əllərinə tez çinar.
Doldu gümüşlə bu an sandığı narıncların,
Qarnına doldurdu o inci, düri-şahvar.
Söylə, neçün məhv edir böylə xəzan yelləri?
Nakəs adamlar kimi edir varı tarmar.
Bax, necə kinlə tökür meynələrin qanını,
Buludları qaldırır asimana dəryalar...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zər dağıdır göy çəmən, aləmə sərvər kimi,
Qönçə açıb ağzını atdı əqiqi kənar.
Yeddi yerin sərvəri, dörd şəhərin sahibi Etdi,
görərkən onu, ən uca göylər də ar.
Ölkədə qoydu nizam, dinə edir ehtiram,
Tabe olubdur ona ölkədə pəncü çahar*.
Fəth eləyibdir Günü, vurğunudur Müştəri,
Göylər onun bəndəsi, bir quludur ruzigar.
Qiblə olubdur onun xətti Ədən dürrünə,
Kəbə sanır səmtini dəhrdə müşki-tatar.
Mədhi olubdur onun uda ətir mənbəi,
Göylər ona fəxr üçün verdi belə ixtiyar.
Oldu səxa gəncinə xaməsi bir əjdəha,
Xatəmi üstə olub möhrü onun aşikar.
Başlığı ondan alıb nazlı müzəffər gəlin,
Gündə o şöhrət hanı almasa ondan mədar...
Gün qəmərə nur verir, sultana sənsən ziya,
Etsə də öz kölgəsi sultanı pərvərdigar.
Ədlin ilə yox bu gün ölkə içində kədər,
Şəmşirinə qan səpib güllər ilə laləzar.
Sən kimi dövran hələ böylə oğul doğmayıb,
Hərçənd ki, dövranın altı min il ömrü var.
Tusda doğulmuş Həsən aləmə səs salsa da,
İndi də sən olmusan aləm üçün iftixar*.
Bəxşiş elə ədl ilə, tədbir elə əql ilə,
Yüz Həsənə, var yeri, olsan əgər hökmdar.
Sehrini etsən bəyan Misri qələmlə əgər,
Misrin əzizi olar cah-cəlalınla xar*.
Din ilə mülk, təxtü tac, qələm, üzük səndədir,
Sağla solunda sənin aləmə sığmaz vüqar.
Ədlin ilə ölkəyə eyləmisən mərhəmət,
Burda hələ olmayıb badə içənlər xumar.
Heybətinə, əzminə arxa durubdur fələk,
Çəkdi sənin dövrünə Mərrix ilə Gün hasar.
Ədlin ilə görməyib atlar ayağı kəmənd,
Tədbir ilə vermisən hər kəsə sən ixtiyar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

22. ATAM NƏCCAR ƏLİNİN TƏRİFİ

...Duzla çörək bəxş edər mehr ilə mehmanına,
Ömr boyu borcluyam mən onun ehsanına.
Verdim ona könlümün dağını, göz yaşımı,
Kim vuracaq böylə nəqş, de, onun eyvanına?
Keçdi ömür dərd ilə, dırnağının rəngi göy,
Böylə ağır qəmlə mən dözmərəm hicranına.
Öz gülüşüylə verib odlu nəfəslər mənə,
Böylə odu salmaram mən o gülüstanına.
Deyləmidir o, mənəm hindli kimi əcəmi,
Can-baş ilə tabeyəm daimi fərmanına.
Eşq deyir: şövq ilə söylə ki, Xaqaniyə,
Yari-əzizdir, olum qurban onun canına.
Dairə çəkdi dünən, bir ata tək, gördü o,
Harda olam, bağlıyam ,ləl ilə mərcanına.
Sənətə ustaddır işləri zərrin Əli,
Möcüzələr bəxş edər sənəti ünvanına.

* * *

Eşq zərif dürrdür, qəlb onun ümmanı,
Qəlb əcəmi bir gözəl, eşq onun dastanı.
Qəlb sağ əllə döyür çənbərini vəhdətin,
Sol əl ilə yoxlayır qulluğuna imkanı.
Qoyma könül aynası paslana, bərbad ola,
Eşq alıb gəzdirir bu ləkəsiz aynanı.
Əql atəşdən yanır, hümmət onun həsrəti,
Təşnədir o camına, süfrəsi can dərmanı.
ilk yaranarkən həyat öncə könül xəlq olub,
Dairədə olmayıb nöqtəsinin dövranı.
Əmin-amanlıqdadır könlümüzün qasidi,
Şəminə pərvanədir yer üzünün divanı.
Gövhərə bənzər könül, qiyməti həddən ziyad,
Bir əbədi feyz olub dəhrdə adı-sanı.
Ancaq, onu qorxudan gildə ediblər nihan,
Bir də ona aşkara çıxmağa imkan hanı?
Qəlb ayaq döydü hey sinədə fəryad ilə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tapdaladı aləmi hiddət ilə cövlanı.
Qəlb səmadən gəlib, yerdə yaranmazdı o,
Odla ki oynar belə varlıqının aslanı.
Oldu könül mənzili dağlı əlindən sənin,
Gör nə bəzəndi nəqşi ilə eyvanı.
Yusifi saldın əcəb sən belə bir zindana,
Sonra qızıldan qıfıl aldı onun zindanı.
Bir gözəli tapdadın mur kimi, sonra da
Milçəyini qovmusan, ta rahat olsun canı?
Palçıq at üstündəki qəlb nə cür şad ola,
Rəxşə gərəkdir onun hökm eləyə fərmanı.
Oldu piyadə, konül, səbr elə olsun vəzir,
Ta keçə bilsin bu dəm yeddi çətin məvanı*.
Böylə könül söhbəti hasili Xaqaninin
Bağlıdır o söhbətə dini ilə imanı.
Eşq uca səslə tez söylədi: Xaqaniyə,
İş böyük işdir, oyan, gör ki, nədir payanı?!

* * *

Çəkdi qoşun qəm yenə əzm ilə, dövran ilə,
Əbləq at altındadır bir belə meydan ilə.
Kim belə bir ordunu odladı, saldı yola,
Ömrü verək nal pulu gəldiyi ünvan ilə.
Qəlbə gələrkən bəla, bil, haradan gəldi o,
Gör necə odlar salıb ümmana əfqan ilə.
İlk bahar olcaq, o dəm Adəmin açdı gülü,
Bağrı qəm oldu, fəqət güllü gülüstan ilə.
Qəm meyi ilə açıb dəhr o meyxanəni,
Bizlər üə başladı saqi o dövran ilə.
Bircə içim bəs edər bizləri məst etməyə,
Bir belə hay-küy nədir şur ilə, cövlan ilə?
Gəldi qəmin selləri, sındı bütün körpülər,
Saldı bu tufanları aləmə neysan ilə...
Qəmlə göbək kəsdilər, gör necə, Xaqaniye,
Aldı bütün qəmləri ölkədə o, can ilə.
Güşənişinlikdə sən hakim olubsan qəmə,
Ver əlini vəhdətə bir belə divan ilə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən hünərin sərvisən, həm atanın övladı,
Tərif elə sən onu sidq ilə, iman ilə.
Hafizi-din, Bülhəsən, bəhri-kəramət Əli,
Bəslədi bu canımı daimi ehsan ilə.

* * *

Dəhr qara süfrədir, el hamı mehmanıdır.
Süfrəsinin yox duzu, bu, onun ünvanıdır.
Getmə bazarlarına, cövrü cəfa satdırır,
Hiylələrin mərkəzi fitnəli meydanıdır.
Sənsiz onun, istərəm, güllər ola başına,
Yoxsan, o kəndin bu gün kim belə bağbanıdır?
Böylə yaşıl köşkdə könlünü yandır oda,
Ahla yanan, bil, onun səqfi-şəbistanıdır.
Gövhərini, get, apar, qoyma o sandıqda sən,
Yusifə məskən onun qorxulu zindanıdır.
Qalmadı bir kimsə bu ölkədə, həm ölkə də,
Bil, səni dərdə salan pozduğu peymanıdır.
Bir də vəfa adlı bir kimsə doğarmı cahan,
Xəstəlik ilə ölən bətai və püstanıdır.
Od qala altında sən xam verilən işlərin,
Dağdan uçan eşşəyin əyri o palanıdır.
Silgilən o əbcədi, rədd elə sevda ilə,
Sirri sənə öyrədən, bil ki, bu Xaqanidir.
Öndə gedir təbinin Cövzası daim onun,
Tale isə arxada nəhs Səratanıdır*.
İndi olur sənətə burda şahənşah olan,
Arxadakı ordunun öndəki sultanıdır.
Sinəsi olmuş onun qan alanın kuzəsi,
Neştəri əlvan edən ancaq onun qanıdır.
Zəlzələ salmış əgər rəxnələr o qəlbinə,
Təmir edən qəlbini şeyx ilə rəhbanıdır.
Şeyxi-mühəndis ləqəb, şöhrəti - Nəccar Əli,
Azərin, İqlidisin ustadı, bürhanıdır...*
Bu atam olsaydı o Nuh yerinə, elm ilə,
Söylər idi: o kimin qorxulu tufanıdır?
Ya atının nalıdır, ya əlinin sənəti,
Ya, fələyin Pərvini, ya göyün Keyvanıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəxşişinə olmayıb heç də bərabər dəniz,
Tişəsi cəngəllərin xəncəri-bürranıdır...
Daxma yaranmış ona çərx bu dəsgah ilə,
Bu fələyin tağı da fəxr ilə eyvanıdır.
Yonsa əgər Mərrixi, rəndəsi küt olsa da,
Sovlamağa o Zühəl əldəki suhanıdır".
Olmayıb əsla iki üzlü mişarlar kimi,
Kim deyəcək bu onun eybi, ya nöqsanıdır?
Heyran olur hər görən elminə, ürfanına,
Sərvər edən aləmə elm ilə ürfanıdır.
Oldu Tuğanşah mənə, Altun anamdır mənim,
Mən də onun sonquru, canım onun canıdır*.
Eyləsə şagird məni, baş qoyaram əmrinə,
Əmri mənim könlümün hakimi, fərmanıdır.
Eylə mübarək bulud böylə sədəf bəsləyib,
Mən kimi övlad onun qətreyi-neysanıdır.
Ruhumu pak bəslədi böylə müqəddəs mənim,
Duz-çörəyi canımın mayəsi, bünyanıdır.
Körpə kimi hey əmər barmağımı əql-huş,
Barmağıma dad verən duzlu nəməkdanıdır.
Ruzuma zamin odur, minnəti yox kimsəyə,
Böylə məni bəsləyən var dolu Şirvanıdır.
Taclara baş əymərəm, qane olub, bilmərəm
Kim haranın əfsəri, kim hara xaqanıdır.
Olsa onunla biri düşmən əgər, qəm yeməm,
Şeytan Adəm nəslinin daimi düşmanıdır.
Qırmızıgöz yağılar öylə qulağı sarı,
Onları ifşa edən Öz işi, tüğyanıdır...
Öz atamın mədhinə həsr elədim şerimi,
Çünki bütün varlığım töhfəsi, ehsanıdu-.
Əql - qoca bir ağac, müntəzir olmuş haçan,
Taxt edəcəkdir onu, ya kuyu çovkanıdır?
Eyləyirəm mən dua, tanrı qəbul eyləsin!
Xeyir verən bizlərə pak, təmiz imanıdır.
Beş dəfə hər gün mənə etdi namazla dua,
Paklar onun canının böylə duaxanıdır.
Getdi qəzadan Ömər, ömrü vəfa qılmadı,
Çox yaşasın Osmanı, yurda nigəhbanıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

23. PEYĞƏMBƏRİN NƏTİ, MOİZƏ VƏ ƏBU-İSHAQ NƏSİRƏDDİN İBRAHİMİN MƏDHİ

(tərkibbənd)

Könül, "can, can" dedin, bəsdir, daha müştaqi-canan ol!
Odur can mülkünə sultan, sən o sultana dərban ol!
Həvəs layiq deyil mərdə, onu hümmətlə başdan at,
Çalış, aldanma, ağlın qarşısında bəndəfərman ol!
Sənə küfr ilə iman örtü olmuş, varsa dərrakən,
Qabaqca küfrdən əl çək, çalış sən, əhli-iman ol!
Əgər arzun igidlərlə at oynatmaqdır aləmdə,
Bu divlərdən uzaqlaş sən, otur təxtə, Süleyman ol!
Onun qəsri qabağında at oynatmaq dilərsənsə,
Uşaqlıq nənnisindən dur, çalış, sən mərdi-meydan ol!
Qara at çapmış olsa o, sən o meydanda ol torpaq,
Ələ çovkan alarsa, top kimi meydanda qəltan ol!
Onun bir ox yarasıyla səni, bil, tərk edər qəflət,
Oxun pişvazına get, sinəni aç, kamil insan ol!
Onun tək olmağa səy et, onunla bir olan yerdə,
Bu yerdən köç edib getsə, nə yaxşı görsən, ondan ol!
Qulaq vermə ki, bayquşlar fəqət viranə istərlər.
Könül mülkün abaddırsa, xaraba içrə pünhan ol!
Sənə bənd oldu Xaqani, hərəmdən xaricə düşdün,
Unut Xaqanini sən də, nədimi-xasi-xaqan ol!
Aman axtarsan aləmdə o dünyanın əzabından,
Ümidin xaliqə bağla, əgər şairsən, Həssan ol!
Odur xalqa şəfaətçi, odur dünyaya peyğəmbər,
Bəni-haşim əlindəndir, olub insanlığa məzhər.

* * *

Diyari-eşqə əql ilə deyil əsla rəva getmək,
Gəlirsə eşq dərdi, şərtdir pişvazına getmək.
Diyari-eşqdə eşqi fəqət rəhbər bilər aşiq,
Şahın əmrilə lazımdır şahın dərbarına getmək.
Həvayə yol da versən, vermə qəlbindən keçən yoldan
Ki, aşiqlər sanarlar küfr, qəlbində həva getmək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsil Türkistana get, orda mənalı adam axtar,
Kimə lazım Çinə adəmgiyah axtarmağa getmək?
Ürək can qeydinə qalsa, yarın vəsli deyil mümkün,
Ətək altında büt, olmaz xuda dərgahına getmək!
Birinci şərtidir aşiqliyin nəfsindən əl çəkmək,
Fəna ardınca yoxluq tərkinə bağlı, fəda getmək.
Ya dilbər məclisində od tutub, qəlbən alışmaqdır,
O ərbabi-səfalarla ya çəkməkçin səfa getmək.
Ürəkdən dərdlisən, zəng tək nədəndir nalə etməzsən?
Yükün ağırsa karvanda, çəkib neyçin cəfa getmək.
Hələ səhradasan, canın xətərdə, bir yolun vardır,
Fəna Kərxin tərk etmək, bəqa Bağdadına getmək*.
Çalış, öz arzuna çat sən, ya bir gün, ya yüz il olsun,
Yarı olmuşsa yol artıq, dayanmaq yox, daha getmək.
Deyilsən canına düşmən, nə lazımdır sənə onda,
İçində can çəkişmək, zahirən əyri yola getmək?
Bu mənzildə pənah axtar, başında keçmə,
Xaqani, Tutubdur yolları cadu, gərək əldə əsa getmək!*
Könül eşqə veribsən, nəfsini öldür, yaraşmaz ki,
Təriqi Müstəfanı Buləhəblə qol-qola getmək.
Bu dünya mülkünə məhvər, bəşər övladına rəhbər,
Cahana nur saçan məşəl, Məhəmməddir o peyğəmbər.

* * *

Həqiqi yol ararsansa, buyur, bu yol həqiqətdir,
Burax ulduzları, yol göstərən tək Ay kifayətdir.
İtir öz varlığın eşqin yolunda əvvəl-əvvəl, get,
Gələr bir səs ki: - Ey azmış, bu yol rahi-məhəbbətdir.
Başından kim keçə bilsə, görər ancaq o dərgahı,
Əgər varsa belə arzun, bu yolla get, səadətdir.
Nədir bir baş? Onun vəslinə çatmaqçın, başından keç,
Onun vəslinə yüz baş, hər başa yüz tac qiymətdar.
Vüsali-eşqə çün çatdın, iki aləm tələb eylər,
Nə arzun var, olar hasil, vüsalı xoş əlamətdir.
Onun eşqilə bağlandın, çəkinmə əsla zəhmətdən,
Məhəbbət meydanı çünki ya qovğadır, ya zəhmətdir.
Qalıb heyrət quyusunda - xilaskar axtarırsan sən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlində ip, durubdur o, yada salsan, kifayətdir*.
Çapıb hümmət atın, artıq bu dünyadan uzaqlaş sən,
Görərsən bir axur onda, içində bollu nemətdir.
Bir alı çək odlu qəlbindən, dodağında alışsın alı,
Desinlər halədir göydə, ya ulduzdur, ya tələtdir.
Atıb sən ayrılıq daşın, gəlib birlik səfində dur,
Önündə bir qoşun var ki, sayı yox, binəhayətdir.
Xəta etmişsə Xaqani, onu əfv eyləsinlər qoy,
Xətaya əvf kim istərsə bu insandan cəsarətdir.
Yerə sahib, göyə məhrəm, o peyğəmbər Məhəmməddir,
İki dünyada xaqanlar ona quldur, rəiyyətdir.

* * *

O bir şahdır, onun üçün enib göydən şəriət də,
Ayağına qoyub başın fələklər də, təbiət də.
Əbədiyyət sarayında qalar almaz kimi nitqi,
Vəzir idi əcəl, daim dayanmışdı itaətdə.
Mələklər dəstəbədəstə yığıldı bayrağı altda,
Rikabında neçə-neçə gəlib durmuşdu millət də.
Onun bayrağı üstündə yazılmışdı "Rəsuləllah",
O qurdu "Lailahə" qəsrinə "illa"nı, əlbəttə*.
"Təbarək" xütbəsi "sübhanə" oldu beş səhər təbli,
"Ləimrək" təxti-"qabə qovseyn"dir nübüvvətdə.
Göyərçin pərdəyə döndü, bulud saldı ona kölgə,
Bu bir olmuş həqiqətdir, verib baş vəqti-hicrətdə*.
Göhər saçmış o əllərdə qələm heç tutmayıb əsla,
Əbədi qaldı hər nitqi, göhər oldu həqiqətdə.
O axşam ki, ilahiylə gedib razi-niyaz etdi,
Gözündə zərrəyə döndü bütün dünya o halətdə.
O, dörd ünsürlə kəşf etdi cəmiyyətdə olan fərqi,
Onun ümman xəyalından yaranmışdır bu nemət də.
Ona dörd canişin olmuş, xilafət taxtına çıxmış,
Yeri vardır, Nəsirəddin otursun o xilafətdə*.
O xalqa başçı olmuşdur, həqiqətdə ulu rəhbər,
Onun səyilə dərk etmiş şəriəti cəmiyyət də.
Şəriətdə, təriqətdə Nəsirəddin imam oldu,
Salındı bayrağı küfrün, daha ömrü tamam oldu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Əbu-İshaq İbrahim səxavət göstərən anda,
Fələk, səyyarələr zərrə saya gəlməz o mizanda.
Onun əynindəki paltar ona zinət olub hər dəm,
Bu köhnə palтarın altda yaşar dahi bir insan da.
Uşaqkən ağlı şəhvət büt evində bütləri qırmış,
Səadət ulduzun gördü, üzün döndərdi ondan da.
Bəli, İbrahimin möcüzlə imanı olan yerdə,
Sala bilməz onu ulduzla büt, yoxdur o imkan da*.
Əgər bəd sözlə yad etdi onu Dəccalsifət bir kəs,
Nə o sözdən, nə o kəsdən nişan yoxdur bu dövranda.
Biri çox istədi fillə dağıtsın Kəbəni, ancaq,
Onu quşlar daşa basdı, yeri duzəxdir olan da*.
Tökə tənqid odun hərgah paxıllar bir kəsin üstə,
Eşitsə İbrahim adın, o atəş də durar yanda*.
İnan, əsli səadətdir bu taledə ola insan,
Bunu təsdiq edər İdris, əgər olsa bu dövranda*.
Yeni bir dünya qurmaqçın əgər səy eyləsə bir kəs,
Ona Allah edər imdad, ola minlərcə düşman də.
Təəssüf ki, gözəl Gəncə olub matəm evi indi,
O rəhbər ayrılıb bizdən, tutub yer bağı-rizvanda.
Təəccüb etmə, bir də zəlzələ qopsa bu torpaqda,
O dağdı saxlayan bu yerləri aram, tufanda.
Deyər hər bitki bu yerdə: o kəs, ya rəb, yoxa çıxsın,
Ki, almışdır onu bizdən bulud tək fəsli-nisanda.
O sədrə afərin ki, düşməninə ot edir nifrət,
Əgər dil açsa insanlar, necə gör yağdırar lənət.

* * *

Ulu həzrət, bəzək vermiş bu dünyaya sənin kölgən,
Çün islama verib zinət sənin fikrin, sənin kəlmən.
Behişt ilə cəhənnəmdən kənarda - qumlu səhrada,
Qalan kəslər səni gözlər qiyamətə kimi hökmən.
Əgər bir düşmənin ölsə, onun əhvalına mütləq,
Qəza xoşhal olar labüd, qədər diş qıcıdar, bil sən.
O dövlət ki, sənin vardır, yanar İskəndərin bağrı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Külə dönməzmi Yəcucun canı, aya, bu atəşdən*.
Paxıllar çox qazan qurmuşlar, amma, mən bilən orda
Elə bir şey tapılmaz ki, səbəbkarı onun sənsən.
Sözüylə işləri, sözsüz ki, bir sifrə bərabərdir.
Bunu bir başqa yerdə söylədim, təkrar qılmam mən!
Qələmlə şux gözəllər ki, yaratdın, gizlənir məndən,
Hədiyyə verməli, pərdə alınsın dilbər üzlərdən.
Bu şeri onlara layiq hədiyyə yazmışam, çünki,
Gəlin pərdə açar üzdən, ona xoş töhfə göstərsən.
An bal sazlayanda qeybdən gəldi xuda vəhyi,
Nə xoşdur çatsa bu Xaqaniyə indi sənin namən.
Əgər sən tanrı tək feyzinlə qılsan, bəndəyə ehsan,
Arı tək can şəfası sazlaram qüdrətli təbimdən.
Calalın yerdədir göylər calalının vəliəhdi,
Ki, mən tək şair ilə öz zamanında müasirsən.
Bəzəkçidir, mənim təbim verər köhnə sözə zivər,
Dirildən köhnəni mən kimi bir ustad var? Göstər!

24. BAĞDADIN TƏRİFİ

Xızır Bağdad çeşməsindən su içib,
Həm də Musa nuru Bağdaddan keçib*.
Dəclə kövsər, Kərx isə cənnət bizə,
Xoş hava Tubasıdır nemət bizə*.
Misrə söylə, az öyünsün bir qədər,
Misrdə Bağdadın hüsnü var məgər?
Nil çayından saf suyu var Dəclənin,
Yox səfası Misrdə bu ölkənin.
Misrdə Bağdaddakı şövkət hanı?
Bu gözəllik, yüksəliş, sərvət hanı?
Bəxş edibdir Qahirə Misrə qürur,
Qahirə Bağdad yanında xar olur.
Səsləyir Bağdad səni, Misri unut!
Misrdən əl çək daha, Bağdadı tut!
Bağdadı mən Misrə oxşatsam bu gün,
Böylə tərif həcvdir Bağdad üçün.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Misrdə döndü xəsislərdən üzüm,
Çünki Bağdaddır səxavət ulduzum.
Bağdadın "ba" hərfi görsənsə əgər,
Misr "mim"i "vəsl əlfi" tək itər*.
Birləşən bu hərflər, bir mənada,
Yaxşı bir ünvan gətirdi Bağdada.
Bağdad olmuşdur binadan sevməli,
Kim söyər Bağdadı, lal olsun dili.
Səndə, ey Bağdad, cənhət ruhu var,
Ətrini aləm nəsimindən duyar.
Kim deyərsə, yoxdur əhlində səxa,
Bu qələt hokmü verən çıxsın yoxa!
Kim vəfasız söyləmişdir Bağdada?
Bir vəfalı varsa, Bağdaddır o da!
Sizdə yoxdursa səxavətdən əsər,
Bağdada gəl, ver əlindən çeşmələr.
Hər kimin köksündə Bağdad hüsnü var,
Güzgüdür ərşə, o sinə parlayar.
Söylədin: kim Bağdadı etmiş bina?
Söyləyim, dinlə: canım qurban ona!
Bir rəvayət var ki, Adəmdən qabaq
Bu məkana cinlər açmışdı ayaq.
Valeh olmuşlar cüyür-ceyranına,
Bağlarında sünbülü reyhanına!
Mən Gülüstan ad verərdim Bağdada,
Əql onu layiq görübdür bu ada.
Vəsfini Adəm eşitmiş bir kərə,
Bağdadı arzu edib, enmiş Yerə.
Bircə yarpaqla behişti tərk edən
Bağdadın gülzanın seçmiş vətən!
Vallahı, Bağdadda bu kol-kos ki var,
Olsa cənnətdə, ora zinət tapar.
Hind vadisi gözəldirsə əgər,
Bağdadın bir hərfi yüz hində dəyər.
Meydanında arzular at oynıdar,
Xoş fikir, xoş söz, səadət ondadır.
Əsrimin oğlanları quldur ona,
Doğdu fikrimdən sənəmlər namına?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sönmədi şöləm mənim, oldu bahar,
Bağdadın yay fəslidir xoş ruzigar.
Sinəm od püskürdü olduqda xəzan,
Bağdadın qış fəsli yay oldu haman,
Naməmi Şirvan səbası, al, apar,
Onda Bağdad vəsfinin xoş ətri var!
Mən möhür vurdum, onu öpdü zaman,
Bu möhürdə vardı Bağdaddan nişan.

* * *

Bağdada ruhum qayıtdı bir daha,
Ərşə qalxdı məskəni, oldu hava.
Hər qadın Bağdadda bir aslan olur,
Qarşısında şir dönüb ceyran olur.
Oğrun-oğrun, gör, necə onlar baxar,
Bağdadın ceyranları aslan yıxar.
Tozlanıb müşk ilə Bağdad gülləri,
Burda korşalmaz dühanın neştəri.
Axşamüstü pərdə çəksə hüsnünə,
Nur səpər əflak Bağdad üstünə.
Qərbə yollansa Günəş axşamçağı,
Sübhədək Bağdad itirməz rövnağı.
Axşam oldu, qarşıma çıxdı səhər,
Sübhdür Bağdaddakı axşam məgər?
Quş kimi qəlbimdən uçdu iftixar,
Ən gözəl tərlanları etdi şikar.
Kim girir Bağdadı görmək qəsdinə,
Bir zireh taxsın zirehlər üstünə.
Ellərə Bağdad yenilməz arxadır,
Qüdrəti bu arxanın imandadır.
Həm xəlifə, həm də peyğəmbər adı,
Bir gülüstana çevirmiş Bağdadı.
Oxşayır Bağdad bədirlənmiş Aya,
Zülmət içrə aləmə saçmış ziya.
Torpağından ki, imam basmış ayaq,
Gözlərə sürmə gərək hazırlayaq.
Özgələrlə sən məni etme qiyas,
Tirməsindən Bağdadın geydim libas.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sübhü Bağdadın gözəldir, incədir,
Hər büsatı, hər işi könlümcədir,
Bağlarında gül açar, bülbül ötər,
Cisimimi güllər ətirdə qərq edər.
Fikrimə vüsət verən, nur bəxş edən,
Bağdada qəlbimdə mən verdim vətən.
Göz yaşımdan pak, ləhcəmdən şirin,
Torpağı candan əzizdir bu yerin.
Bağdadı seyrə dalarkən hər səhər,
Hüsnünə məftun könül vəcdə gələr.
Sanki "i" hərfi adımdan ayrılar,
Onda Xaqani dönər Xaqan olar.
Qəlbimi sıxar kədər, cövrü cəfa,
Var ümidim ki, verər Bağdad şəfa.
Versə bədbəxtlik əgər üz Bağdada,
Görmərəm xoş gün yəqin bu dünyada.
Bağdadın yox ehtiyacı boş sözə,
Kim onu sevsə, gərək dərdə dözə.
Dillər düşmüş adım Simurğtək,
Düşmənim kimdir mənim? Miskin böcək!
Oğrular Bağdadda da pusqu qurar,
Şerimi quldur kimi çırpışdırar.
Etmişəm hər nəğmədə Bağdadı yad,
Quşlara vermiş mənim şerim qanad.
Doğma bildim Bağdadı, açdım ürək,
Uçmağa aldı oxum ondan lələk*.
Çatdı Bağdadın zəkası dadıma,
Qəssi Saidə deyildi adıma.
Qəssə oxşatdı məni bağdadlılar*,
Qəss ərəbcə şerə çəkmiş tunc hasar.
Nə qəribəm, nə fəqirəm, nə əcəm,
Nitqim ilə Bağdada hakim mənəm.
Bağdada yoxsul əcəmlər ki, gələr,
Dostluğu ilə bu yer zənginləşər.
Sanki bir aşiq qalıb həsrət yara,
Hər sevən qəlbə vurar Bağdad yara.
Sarsılar Bağdad dərdi onları,
Dostların bəxti qara, üzlər sarı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağdad eşqi xəstəlikdir bir elə,
Sarsınar bu eşqdən İsa belə!
Solğun üzlər ki, qaradır ya san,
Bağdad eylər qırmızı, ağ onları.
Üzlərinə şəhlaların salsan nəzər,
Bağdada xidmətlə onlar yüksələr.
Mən o gün ki, Bağdada qoydum qədəm,
Tanrıdan bircə səadət istərəm.
Xidmətində qul məni bilsin imam,
Müstəcab olsun, ilahi, bu duam!

25.

Ey açılan sübh kimi parlaq olan mənim röyam!
Şəfəq söküb, sübh açıldı, mən hələ də yuxudayam.

Aldadıcı rəngi ilə sübh gözəl qıza oxşar,
Gah gizlədər çöhrəsini yad baxışdan, gah da açar.

Qövs-qüzeh büsatını üfüqlərdə açmış səhər,
Bircə gözün baxışıyla naxışlanır bütün tellər.

Üfüqlərin gözlərində qaranlıqdan sürmə vardı,
Onu səhər çisələyən qətrələr yuyub apardı.

Bu yumyumşaq buludlar ki, göydə pərən-pərəndilər,
Sübhün əli toxunanda cərgə-cərgə gizləndilər.

Səndələyən ulduz həşiş udmuş kimi yuvarlandı,
Rahiblərin zülfü kimi sübhün halı pərişandı.

Həşiş udub doymamışmı, ulduz belə yuvarlanır?
Altun rəngli o yeganə fətiri də həşiş sanır.

Ey ülviyyət bağçasına camalıyla işıq verən!
Yaşıl səma bağlarının nur çiləyən gülü sənsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yusif kimi o qaranlıq zindanından oldun azad,
Sənə nifrət edən qohum-qardaşı da eylədin şad.

Ey aləmin parlaq nuru, sən Məsihin həmdəmisən*,
Belə nurun sönməsinə məgər razı olaram mən?

Urəyimdə bir yara var, göz yaşlarım ondan axar,
Ruhum onun eşqi ilə əriyərək candan çıxar.

Qorxuram ki, son nəfəsi alım ürək yarasından,
Bu ki inkar edilməzdir, - ürək ilə yaşar insan!

Şirvandandır şikayətim, bu şikayət məni yordu,
Qaytar məni səadətə, bir daha, ey ana yurdum!

Camalının həsrətiylə, xəlvət edib öpərdim mən,
Mümkün olsa, sevmədiyim əmirinin əllərindən.

Ey "Ərrəhman" surəsinə hüsnü ilə timsal olan*.
İkinizi bir göz ilə görürəm mən, deyil yalan.

Sən, ey Dərbənd, ram edənin adı ilə çox öyündün,
Dırnağıyla yer üzünü tapdalayan ata döndün.

Xosrov bürcü zərgər kimi sənə vurdu yaxşı bəzək,
Üzü açıq gözəllərdən sənin hüsnün durdu yüksək.

Gözəl, parlaq bir xələti əmir sənə etdi əta,
O xələti geyinərək, fəxr edirsən bu dünyada.

Aləm sənə sığınmışdır, ey allahın kölgəsi, sən,
Bu əlçatmaz adın ilə haqlısan ki, fəxr edəsən!

Səni döyüş meydanında vəsf eləmək deyil asan,
Seyfəddinin qılıncından qopan yaqut qığılcımsan.

Müzəffər bin Məhəmmədə bəşəriyyət baş əyərkən,
Dünyalara zəfər çalan Məhəmməddir, deyərdim mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavan şahlar qütbüdür ki, çevrilərək zahir oldu,
Döyüşçülər ürəyinə sanki Günəş nuru doldu.

Onun yüksək əxlaqıdır ürəkləri şənləndirən,
Hər əməli insanlara nəciblikdən müjdə verən...

Nəzərində cəvahirin saman qədər qiyməti var,
Bulud kimi səxavətli əllərindən gövhər yağar.

Torpaq onun kəmərindən dönmüş abad xəzinəyə,
Xəzinələr viran qalmış, ver əlinə açmış deyə!

Onun adı minbərlərdə təkrar oldu hər nə qədər,
Söz bitmədi, xətibləri buraxmadı yenə minbər.

Minbər onun əlahəzrət varlığından istər kömək,
Hər xeyirxah işdə ona dayaq olsun minbər gərək!

Sən Allahın hüzurunda ibadətə duran zaman –
Xoşagəlməz qonaq kimi görünmədin hətta bir an!

Qılıncını siyirəndə isitməyə düşdü dağlar,
Yeddi dəniz miqdarında bu dağlardan qan-tər axar.

Ədalətin günəşiydi ,qılıncın ki, çıxdı qından,
Batdı zülmün ulduzları sağ əlinin qalxmağından.

Döyüşlərdə zəfərindən bayraqların verdi xəbər,
Qopdu qoşa gur dərili qalxan tutan güclü əllər.

Torpağında düzgün yolun möhkəm səddi görünərkən,
Xızr dedi: - Ey hökmdar, sən ikinci İskəndərsən!

Ey Qapılar qapısı, sən əbədiyyət qapısısan,
Bünövrən var sərt poladdan, səni yıxmaq deyil asan.

Canım qurban torpağına, yer üzünün cənnətisən,
Dünya görmüş bu şairdən dinlə vəsfi, hikməti sən!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu torpağın yaylasında qocalar ki qalxan tutar,
Qara gözlü çağaların min arzusu, həsrəti var.

İsa onun dağlarının paklığına oldu heyran,
Asiman da yüksəkliyi öyrənibdir bu dağlardan.

Ey xeyirlə qarşılaşan, xeyirxahlar xeyirxahı,
Ey səyiylə, hümmətilə əbədi nurun pənahı!

Sənsən ölmüş ədalətə can qaytarıb, dəbə salan,
Axıb gedən xəzinənin ruhlarını ələ alan.

Sən yaranıb, bəslənmisən, ülviyyətin qucağında,
Başı taclı zalimlərdən uzaqsan el ocağında.

Barmaqların ayrılsa da təsbehlərdən,yəqindir, bax,
Sehrli bir üzük sənin barmağında parlayacaq.

Torpağında diz çökərək, səcdə edər sərkərdələr,
O kəslər ki, önlərində ulduzlar da səcdə edər.

Qəbul elə, camalına bir mədhiyyə yazdım ki, mən,
Yığışdırsın təbiət də xalçasını yer üzündən.

Fəzilətin sayəsində kərəminlə mənə can ver,
Əl tut, ancaq utandıran minnətindən sən aman ver.

Yaşa, xalqın rifahına çalış, qazan əbədiyyət,
Varlıları ardınca çək, qazan, dağıt, qoyma minnət!

Sən allahın qullarının hamısına ol havadar,
Allah özü sənə hami olub, zəfər qazandırar.

26.

Budur, bir fars hicazlıyla yola çıxdı qol-qola,
Kəsra dəxi çağrıldı ki, Nemanı salsın yola.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fələk qədər ülvi təxt qurdu Şeyban övladı,
Sayəsinə işığı da, ruhları da topladı.

Səkkiz cənnət gülzarında ruhlar məskən tapacaq,
Dördüncü göy nur çeşməsi Günəşə xasdır ancaq!

Bəli, bu təxt həm fələkdir, həm də ki, cənnət bağı,
Həm İsanın məskənidir, həm İdrisin yatağı*.

Onun rəhmət torpağıdır Simurğ üçün Qaf dağı,
Bu əcəbdir, nurlu yerdən axır həyat bulağı.

O səxavət Ağrısıdır, Nuh gəmisi dayanar,
Tur dağıdır, çiskinindən Nil dəryası yaranar*.

O Məkkədir, Kəbəsidir aləmə yol göstərən,
Zəmzəmidir könülləri yuyub, paklıq gətirən.

Səmadakı ulduzlar ki, məqamında görünər,
Sayrışarkən məkanına dönməsində var hünər.

O təxt ki, insaf üçün insanlığa dayaqdır,
İnsanlara, canlılara sayəsi sığnacaqdır.

Bütün dünya qalxmaq üçün ona göz dikib ancaq,
Əhvahını bilsə, yəqin o məni qaldıracaq.

Ulu şahın cəlalına aləm olubdur heyran,
Dağlar belə əyilib ki, öpsünlər ayağından.

Yəqin onun duasına əl açıbdır gecələr,
Torpaq ona oruc tutar, göylər ona baş əyər.

Düşmən onun silahını qapıb girsə meydana,
Fərq eləməz, ağıllılar müşk deməz yovşana.

O cənabın hüzuruna çatmaq istər ürəyim,
Qəribə bir qarışqayam, şah təxtidir diləyim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O üç rüknün soltanıdır, mənəm dördüncü divar,
Dördüncünü razı salar payına düşsə kandar.

Bir bitkiyəm, boy ataram onun gur yağışından,
Quru yerdən baş qaldırar bitki, yağarsa leysan.

Mən bir suyam, bəxşişləri göyə qaldırar məni,
Bu rəsmdir, Günəş çıxsa, dağlar sular çəməni.

Mən bir şehəm, o dənizdir, qabarar, gah çəkilər,
Allah elə bəndəsinə gah verər, gah "yox" deyər.

O tanıyır, öz quşunu bilir necə səsləsin,
Ana bilər körpəsini südlə necə bəsləsin.

Qaya ilə suya oxşar kişidəki ehtiras,
Heç bir zaman od soyumaz, qaya da yumşaq olmaz.

Hər arzumu, diləyimi o yetirdi kamala,
Xızr içdiyi sudan mənə gətirtdirdi az qala.

Ciyərimin atəşinə su çiləndi neməti,
Nə canımda tamah qaldı, nə xəstəlik illəti.

Bu qaydadır, şərab içən ifrat etsə, məst olar,
Sərxoşluğun ifratında ölüm kimi qorxu var.

Nemət içrə qərq olanlar bu dünyada çox qalmaz,
Mürəkkəbi çox götürən qələm yaxşı xətt salmaz.

Tərif ilə, xahiş ilə başlanıbdır qəsidəm,
İndi gərək təşəkkürlə ona itaət edəm.

Tərif şair ürəyindən bulaq kimi çağlayır,
Qələm ilə seyqəl tapır, şimşək kimi parlayır.

Mən başladım Əlaəddin tərifini yazmağa,
Qoy Səmidə qəbiləsi işimi qoysun lağa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O Xorasan ağasıdır, müqəddəsdir nizamı,
Zinət vermiş İraqa da, İrana da kəlamı.

Şah libası geyinməklə məmləkəti ucaldır,
Həq danışan dili daim həqiqəti ucaldır.

O cavandır, o alimdir, düz yol tutan vəzirdir,
O Musadır, o Harundur, o Yuşədir, Xızırdır.

Fəzilətli əli ilə elm, hünər ucalar,
Həssan onun bir dırnağı, barmağı Söhban olar.

Tale mənim sorağıma gəlib məni sarsıdır,
Onun qapı döyməyinin həqarət mənasıdır,

Həqiqəti duyan ürək aydın bilir, mən varam,
Mənaların əmiriyəm, qüdrətli sənətkaram.

Görürəm ki, iddəası böyük, fərsiz adamlar,
Deyirlər ki: fəzilətdə Allah məndən pay alar.

Bunlar məni sevindirir şər atdıqca adıma,
Böhtanları deyil, düşməz adları da yadıma.

Zəmanənin Cahizidir Əlaəddin aşikar*,
Sözlərində, əməlində sevinc, həm də kədər var,

Arı kimi həm şəhdi var onun, həm də tikanı,
Arı sancsa, çox incitməz bal yeyən bir insanı.

Əlaeddin xoş sözləri eşidirmi, ey xuda?
Eşidəni öyrənirmi, gətirirmi heç yada?

O düz yolun Keyxosrovu, başında var qoşa tac,
İran ona tabe olub, Rumsa göndərir xərac.

Onun parlaq zəkasından, cəlalından danışsan,
Gecə ötər, xoruz banlar, sübh açılar, sökər dan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şövqü məni qapısına doğru yola salınca,
Elə gəldim, sanki mənim at çapırdı dalımca.

Allah dini rövnəq tapdı sənin əməllərindən,
Arzum budur: bu mübarək cəmalını görüm mən.

Zaman düşmən kəsilibdir, ömür keçir, gün ötür,
Gəncliyimi qaytar mənə, məni murada yetir.

Dünya sənin əlindədir, şadlıqla vur başa sən,
Əsərlərsə mənimkidir, sözlərimdə yaşa sən!

27. İMAM CƏLALƏDDİN ƏL-XƏVARİYƏ

Rübab inlədi, sordum: nədir bu ahü fəğan?
Sənin də bağrına hicran qəmi salıb dövran?

Dedi: gözəl vətənimdə günüm başa yetdi,
Mənimlə qardaş olan dostlarım çıxıb getdi.

Maral görüncə məni ağladı, fəqət gözlər,
Deyirdi: eşqdə axtarmayın şehimdən əsər.

Zəhər kimi acı sözlərlə etdi bağrımı qan,
Piyalə gözləri dərdimə etmədi dərman,

İnad ilə qorudu qız kimi o, ismətini,
Verirlər indi mənə ehtiras töhmətini.

Bu töhmət ilə sinəm sanki parə-parə olub,
Çadırların çökəyi qəlbimin qanıyla dolub.

Günüm qaraldı qızın saçları kimi qəmdən,
Sulandı yer, o qədər qan ki, axdı sinəmdən.

Gəlin, o yazıq qızın halına yanaq, dostlar,
Vəfalı dostluğa, insafa yas tutaq, dostlar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nişanə qalmadı gənclikdəki şücaətdən,
Bilik çadırları, saflıq, quru kəramətdən.

Necə biz ağlamayaq, qəmlərə hədəf olduq?
Xəzan çiçəkləri tək biz açılmadan solduq?

Görəndə halımı, ikrah edirsə dostlar əgər,
Mənim bu halıma düşmənlərim yəqin sevinər.

Gözümdəki yaşı yaquta, ah, döndərdi,
Yol üstünə səpilən bu ucuzlu gövhərdi.

Cəvahirə tutulur mənbəyi olanda sübut,
Məgər sudan yaranır torpağa düşən yaqut?

Səadətin quşu Əsmanı da alıb getdi,
Bu nəhs quşlara tale məni düçar etdi.

Yanaqlarım çəmənə döndü, bitdi sünbüllər,
Ömür ötüncə o sünbüllər oldular xəncər.

Nikah bağladı yarın xəyalı ilə gözüm,
İşıq çoxaldı gözümdə, düyündə qaldım özüm.

Gözümdə sakin olubdur xəyal tək canan,
Nədir səbəb, düzülüb kirpiyimdə titrər qan?

Bu qan ki, yaxdı yanar odlara mənim canımı,
Gözümdəki o xəyalın bəkarəti qanımı?

Qan axanda gözümdən, məni şaşırdı bu qan,
Dedim: necə doğulur hindlidən bir slavyan?*

Qəribədir, yuxuya hamilə olan gecələr,
Xoruz banıyla doğar daima işıqlı səhər.

Üzüm tağında əgər rəngbərəngsə salxımlar,
Qədəhdəki meyə döndükdə ləl rəngi alar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O dilbərin sözü əldən qərarımı aldı,
Vücudumu o sözüylə cəhənnəmə saldı.

"Məhəbbət, aşiqi gözsüz də ağladar" dedilər,
Bəli, göz ağladar, "ha" hərfinə dönərsə əgər*.

Gecə düşən şehi odlu Günəş necə qurudar,
Elə qurutdu ciyər qanımı yanar ahlar.

Gözümdən axsa da yaşlar, o dilbərə güldüm,
Gülüş günahsız uşaqlarda rəsmdir, bildim.

Təbiətim coşar, Hindistanın baharı mənəm!
Bulud kimi bağırıb, göz yaşı töküb, gülənəm.

Soruşdular: - Nə üçün ağlayırsan, ey şair?
Dedim: - Bu ağlamağın mənşəyi məhəbbətdir.

Zaman var idi, mənə sevginizlə mayildiz,
Unutdunuz, nə üçün özünüz min bəlayə çevrildiz?

- Gülürmüsən? - dedilər, söylədim: - Bəli, gülürəm!
Sizə gülüb də, bilin, düşməni seçə bilirəm.

Bizə xəyanət edənlər yəqin cəza alacaq,
Cahan verən bu cəza damcı-damcıdır ancaq.

Mənimlə varlı çağımda o fəxr edən dostlar,
Görəndə yoxsulam indi, həqarət ilə baxar.

Səni o dostluğa, qardaşlığa qəsəm verirəm,
Danış, həqiqəti aç, etiraf gözləyirəm.

Hanı cavab? Məgər göz yaşında qərq oldu?
Kül oldu ahım odunda, səmayə sovruldu?

Cavab almağa tez aşiqin var isran,
Cavab yoxsa da, "amin"lə əl tutun barı!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən hıçqırıqlarımı boğmaq istədim qəsdən,
Məhəbbət hissini, gördüm, uzaqlaşır məndən.

Üzü qızardı onun, bildim eşqdir boğulan,
Mənim üzüm də qızarmışdı hıçqırıqlardan.

Kim eşqə düşsə, bu sevdada can fəda etməz?
Həyat bitsə də, eşqin nəşidəsi bitməz.

Kimin qanında vəfa vardır, eşqlə yaşayar,
Ölərsə də, onu məşuq ilə vəfa yaşadar.

Vəfa dəyərcə iki aləmə bərabərdir,
Onun bahası nə insan qanı, nə gövhərdir.

Burax məni! O sürahi boyunlu dilbərə mən,
Vurulmuşam, demişəm, yanmışam qabaq səndən.

Məni Vətəndə ikən o, çağırdı ibn-cəla*,
Salıbdır indi məni qürbətə həmin adla.

Vətən batırdı mənim bağrıma zəhərli tikan,
Fəqir idim, canıma qəsd hazırladı dövran.

Gəmirdi canımı qürbətdə dişlərilə fəraq,
Bəla nəhəngi məni izlədi ağız açaraq.

Yad ölkələr ətimi çeynədi, tüpürdü mənim,
Cığır tutub gedirəm, qarşıda əziz Vətənim.

Qürur ilə quru xurma kimi məni o şəhər,
Yesə, yeyər ətimi, boş çəyirdəyi tüpürər.

O bir dəniz kimi dalğa vurar, məni aparar,
Alar qucağına, öldükdə sahilinə atar.

"Vətən! Vətən!" deyərək ağladım, canım yandı,
Sümüklərim gözümün yaşı ilə odlandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə geyindi zireh, bir mühib zülmətdən,
Süha çıxıb, onu deşdi, açıldı köksü həmən*.

Tutub da zülməti qovdu Xəzib ilə Səlqa*,
Apardılar geriyə sübh göstərəndə liqa.

Sökəndə dan, oxudu "Vəzzüha" xoruz ucadan
Düşəqaranlığa - tapdı işıq ucu ondan.

Göyərçinim gətirən naməyə nəzər saldım,
İsitmə tutdum, əlim göydə heyrətə daldım.

O namə faciədən, zülmdən verirdi xəbər,
Vəzifə sahibi olmuşdu nanəcib gədələr.

Ürək zəbanə çəkib yandı, gözlərim doldu,
Ucaldı ah dumanı, qüdrətim nəhan oldu.

İki gözümdən axan yaş deyildi, neysandı,
Ətəklərim tökülən göz yaşımla islandı.

Könüldə eşq qopardı dəniz kimi tufan,
Gəmim qırıldı, qalıb dalğalarda sərkərdan.

Əlac qalmadı, Şirvanı bir də tərk etdim,
Könül, sorağına düşmüşdü, Təbrizə getdim.

Qohumların qayığı dalğaya düşüb batdı,
Fəqət mənim qayığımdır ki, mənzilə çatdı.

Düşərgə saldı köçüm bir zaman biyabanda,
Ucaltdı baş çadırımla göyə biyaban da.

Dəniz ki, yurdumu ənginliyiylə qucmuşdu,
Məni uzaqda görüncə acıqlanıb coşdu.

Əməklə hümmətim idi çadırdakı iplər,
Odur, başı qurularkən ucaldı ərşə qədər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gedərkən, həqq yolu Tuba dönəndə sirdaşıma,
Sarındım o ağaca, düşdü kölgəsi başıma.

Belim büküldü, necə qatlanar çadırda ətək,
Əyilmədim qapısında zər əhlinin dəvə tək.

Başım ucaldı, toxundu yaşıl çadır fələyə,
Sevinclə göz yaşım axdı çadırdakı çökəyə.

Vüsal təşnəsiyəm mən, yetirdilər bulağa,
Su verməyib, kuzəmi qoydular da daşqalağa.

Mənə kifayət edər bir udum su, indi fəqət,
Kuzəm deşildi, ömürlük mənəm suya həsrət.

Uşaq ki, bic doğulubdur rəzil anasından,
Atasını tanımaq istəyər, keçincə zaman.

Ana xəyanət ilə əl çəkibsə ismətdən,
Əmin olarmı onun oğlu? Bir düşün bunu sən.

Həyat əlində necə qərq olar utancaq adam,
Bilik suyunda elə qərq olunmağımla şadam.

Mən elmi tutdum, odur qətlimə verən fərman!
Bəli, bu qətldir ancaq bu aləmi yaşadan.

Necə ki, şəm kiçilər şöləsi ucaldıqca,
Kiçildi qəlbim, ona elm nur saldıqca.

Təbiətimdə tamah kökləri qırılmış əgər,
Nə fərqi var? Kərəm əhli verər, xəsis çürüdər!

İşıqlı aləmə həsrətlə kor qalan bir göz,
Nə fərqi var? Gecədir bu şəhərdə, ya gündüz?

Cavanlığımda coşan bir bulaqdı ilhamım!
Hanı o bağ, o bulaq? Əldə boş qalıb camım!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vidalaşanda cavanlıqla ağladım, ancaq,
Deyirdilər ki, arındı bulaq, su saflanacaq!

İradəmə fələyi səqf bilməyirdim mən,
Qapazlayan məni taleyimdi, bəxtim - əyan!

Əyilməsində qürur əhlinin bir hikmət var,
Təvazö əhli olan tez qüsurunu anlar.

Gedəndə sərvətim əldən, buna fikir verdim,
Yerə dikib gözümü, xudpəsəndləri gordüm.

Öyünmürəm, qızılım yoxsa, hümmətim vardır,
Kasıblığın özü də mərdə bir havadardır.

Cahanı mən boşadım üç tələq ilə çoxdan,
Necə geri qayıdır? Çıxmışam ki, var-yoxdan?

Yalançı vədələr ilə ömür başa çatmış,
Çadırcığım da toza, torpağa yaman batmış.

Mənə bu ağlı, bu idrakı xaliq etmiş əta,
Sözün pərisinə oldum fəzilətimlə ata.

Hünərsevərlərə nəzmim kamal dərsi verər,
Cahanda söz kimi yoxdur dəyərli bir gövhər.

Bulud şehiylə əgər körpə otları suvarar,
Sularıyla dənizi doyuran çox çaylar var.

Divarda səy ilə bir tor qurur hörümçəklər,
Yeganə məqsəd - ilişsin o torda milçəklər.

Arı pətəkdə gəlib hazır eyləyir mumdan,
Onun nəcib işi də başlanır əzəl bundan.

Mən indi mədh yazım, ya ki həcv, fərq etməz,
Mənə o şux gözəlin gözlərində kin bitməz!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaman söz eylə zəhərdir ki, söyləsə Həvva,
Bəşər nədir, ilana ölməyi görər o, rəva!

Səfehlərin yemidir hər nə qardaşın toxuyur,
Mənimsə yazdığımı əhli mərifət oxuyur.

Sözümlə tarın xəyalı dolaşdı dünyanı,
Mələklərin dilinə çatdı, aşdı dünyanı.

Böyükdür Allah, o ki bir gecə kiçik qulunu,
Xəyalı ilə alıb, açdı göylərə yolunu.

Mədəd alıb Sərətandan, gözüm işıqlandı,
Məni əzizlədi Cövza ki, nitqim ondandı.

Fəzilətim məni Davud tək etdi peyğəmbər,
"Zəbur" qıldı mənə yaxşını, pisi əzbər*.

Neçə zireh toxudum göydə pəhləvanlar üçün,
Vuruldu halqalara sinədə Günəşlə düyün.

Elə bu dəmdə gözü kor qalan bulaqlar tək
Coşub, şikayətə dil açdı sinəm içrə ürək.

Dedi: - Sinəndə kədər adlı bir böyük qaya var,
Məni əhatə edib, hey sıxar, yerim daralar.

Qəribədir, bədənimdə ürək də vardı mənim?
O hardadır? Bükülübdür kaman kimi bədənim.

Fəzilətimlə cahanda tanınmışam "Əfzəl",
Bu fəzli bəxş qılıbdır xudayi-əzzə və cəl*.

Cəlal sahibinə arxalandım, oldum əmin,
Tutar əlimi məqamı uca Cəlaləddin*.

Odur imam ki, elmi üfüqlərə yol açar,
Mürəkkəbim onu vəsf eyləyəndə ətr saçar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəriətə dayaq olmuş, həqiqətə ayna,
Bəlağət ilə salınmış söz ölkəsi adına.

Böyüklər içrə böyükdür o, həmı do bayraqdar,
Qılıncı elmə yol açmış, uzaqgörənliyi var.

Bilikdə Xızr odur, pak nitqdə Musa,
Xəlil tək yaradar, ruh verər necə İsa.

O, elm çeşməsinə Xızr tək olub rəhbər,
Nəfəs salarsa, bil, İsa kimi ölü dirilər.

Mənim sözümdə əgər gizli ruh qüvvəsi var,
Onun kəlamıdır, ilhamımı çəkib aparar.

O, Qəssdir, atası Sahib-əl-Əyadidir,
Verər kömək əlini, darda qalsa hər şair.

İradə əhlinədir bəzmi cənnəti-əla,
Şərəf bağında onun qaməti olub Tuba.

O qamət ilə tutar Sidrə təxtin üstə qərar,
Onun məqamına ərşin özü həsəd aparar.

Sözündəki duzu almaqçın hər sevən, sevilən,
Biri ağızdan açar su, ikincisi gözdən.

Şirin nəsihəti duzlu söz ilə etmiş əda,
Qəribədir ki, duz ilə dada gəlir halva.

Var idi, gördüm onun məclisində vaizlər,
Günəş o idi, hamı peyk tək onu izlər.

Görüşdüm onda ki, fazillərin ağası ilə,
Gətirdi vəcdə məni mehriban ədası ilə.

Yazanda mədh ona, təb Rəxşi nal saldı,
Yoruldu dizləri onda, çal at gücü qaldı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağam da olsa, o qardaş kimi mənə inanır,
O dostluq əhdinə möhkəmliyi vəzifə sanır.

Təəccüb etmə mənə, yeddi parlaq ulduz əgər,
Onun zəkası önündə, desəm, sönük görünər.

* * *

Qulam xəlifələrin məsləhətçisi olana,
Böyük imam kimi xidmətim rəvadır ona.

Nəcib sifətlərini gördüm, ehtiram etdim,
Dua bilib sözünü, mən səlamına yetdim.

Tanışlığım məni ömrüm boyu sevindirəcək,
Bu xatirə verəcəkdir mənim sözümə bəzək.

Təbiətindən onun duymuşam şəfa əsəri,
Sevincimin sonu yox, atmışam qəmi, kədəri.

Hədiyyəsi mənə dostluqda ehtiram oldu,
O namə ilə ağ əmmamədən tamam oldu.

Qəbul qıldım, onu rədd etmək idi həram,
Gözümdə sürmə kimi gizlədib, əziz tuturam.

Qopar onun nəfəsindən nəsim, həm tufan,
Süleyman əqli duyar sehrlər kəlamından.

O, Turdur, aşa bilməz dizini yeddi dəniz,
O, dörd ünsürü öz varlığıyla tutmuş əziz.

Hilal üzəngisidir, dövr edən fələkdir özü,
Fəzada nur saçan bədrdir mübarək üzü.

Xəyal onu gecə sandı, elə düşündü məgər,
Qaranlıq içrə işıqdan cəmalını örtər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox mətindir o da, bil, hümmətim, iradəm tək,
Təfəkkürümlə zəka zirvəsinə yüksələcək.

Cəlalını nə qədər vəsf eyləsəm, az olar,
O, Nuhdur, onda Cudi dağı ləyaqəti var*.

Məgər görübdür onu Turdə Kəlimullah,
Həra dağından onunla enib Həbibullah*.

Ona hədiyyə gözümdür, qəbul etsə əgər,
Qulu satanda, onun qiyməti yəqin bilinər.

Ona xəzinə dolu inci göndərərdim mən,
Sözün yanında ucuz olmasaydı dürri-Yəmən.

Yazanda, hökm əli ənbər dolu dəvata dönər,
Bəyan səhifəsinə barmağıyla müşk səpər.

Şəkərlə müşk onun barmağından oldu rəvan,
Bu çeşmədən hamı öz dərdinə tapar dərman.

Yanar göz ilə təmənnalı üzdə, baxsan əgər,
Saralmağa qara günlər yəqin səbəb görünər.

Üzü gülərsə, edər xəlq mətləbini rəva,
Gözü qıyılsa, tapar, hər nə dərd varsa, dəva.

Gözündə var yarağan, oxşayır Günəş gözünə,
Qabar-qabar üzü bənzər axar suyun üzünə.

Üzü, gözü yaralandı onu vuran əldən,
Çəkinmədi, daha möhkəm dayandı əvvəldən.

Dözümlüdür, ucalıb fəth qılmış afaqı,
Cahanı nura edib qərq pak əxlaqı.

Gəzib çox ölkələri, olmuş ellərə qardaş,
Odur həqiqətə vaqif, ürəklərə sirdaş.

Vəkilü hakim olub, qurdu ədl ilə divan,
Çıxardı məhkəmədən şahidi deyəndə yalan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yəhudilər onu susdurmağa çalışmışlar,
O, dövrün Həzrəti-İsasıdır, dözər, yaşayar.

Həva, həvəs əli ağlı, fəziləti uçurur,
Qərəz evi bu xərabə yerindəcə qurulur.

O saf bir göz idi, sönmədi, işıqlandı,
Onun odunda alışdı, həva, həvəs yandı.

Cahanı yaxsa da bir göz, nəhayət ömrü bitər,
Ziyası qalsa da daim, özü nəzərdən itər.

Onun ziyası - onun şəridir, cilalanacaq!
Həmişə müşk kimi aləmə ətir saçacaq...

Sözün xəlifəsi Xaqaniyəm, cahan tanıyır,
Qəsidəmi hamı şahanə ərməğan tanıyır.

Bu vəsfi yazdığım insan sadə insandır,
Biliklərin tacı, elm aləmində'sultandır.

Yoxumsa da ona layiq hədiyyə, lələ göhər,
Söz incisin telə düzməklə yatmadım gecələr.

Nəzər yetir ona, hər beyti hikmətin canıdır,
Mürəkkəbi bu kədər mülkü - qəlbimin qanıdır,

Göyərçinim də qazandı bu işdə şanü şərəf,
Alıb da dimdiyinə, uçdu İsfəhana tərəf.

Böyük imam, zəka mürşüdü Cəlaləddin,
Bu şeri töhfə tək eylər qəbul, yəqin!

Həyalı qız kimi ruhum da söz niqabında,
Gedir bu vəsfim ilə qasidin rikabında.

Himayəsində onun bu əsər əmanətdir,
Əmanəti qorumaq dəhrdə səadədir.

Bilik, fəzilət onun sayəsində tapmış aman,
Onu himayəsi altında saxlasın yaradan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏBSİYYƏLƏR

1.HƏBSDƏN ŞİKAYƏT

Hər səhər qalxar göyə ah ilə əfqanım mənim,
Qərq olar qanda şəfəqtək çeşmi-giryanım mənim.

Qurmuşam qəm məclisi, yanmış söyüdtək indi, bax,
Mey süzür məndən mənimçün qanlı müjkanım mənim.

Yüz oyunbazlıq edər, narınca oxşar bu fələk,
Neyləyim səfra ilə odlanmasın canım mənim?

Ah oxumla hər səhər aldım hədəf, etdim şikar,
ol qoca qurdu ayaqdan saldı peykanım mənim.

Pas kimi sardı məni dövran ki, yandırsın, həmən,
Ah odumla yandı, his oldu o dövranım mənim.

Görmüsənmi ki, sarınsın bir çöpə, əfi ilan?
Əfidir zəncir, ayağım çöp, gedir canım mənim.

Bax, necə gör halqalanmış damənimdə əjdaha,
Qorxuram, tərpənsəm, agah olsun heyvanım mənim*.

Qorxmasın ta gözlərimin nənmisində cüt uşaq,
Əjdahanı gizlədər hər an bu damanım mənim*.

Boynuma Zöhhak ilanı saldı ahəngər bu gün,
Çün Firidun xəznəsidir əqlü ürfanım mənim*.

Oxşayır kündə ayağımda dəyirman daşına,
Qanlı göz yaşımla işlər bu dəyirmanım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Paltarım xara, yaxam da göz yaşımla islanar,
Gizlədər Xara dağını rəxti-əlvanım mənim*.

Bu samanla torpağa dönmüş üzümdən göz yaşım,
Palçıq hazırlar, suvansın ta ki, zindanım mənim.

Şam kimi diş-diş olubdur qıçlarım zəncirdə,
Çeynəmiş sanki qıçımı qanlı dondanım mənim.

Qütbtək saxlar məni çarmıx dəyişməz nöqtədə,
Bu Zühəlsima iki Mərrix zənəb-sanım mənim*.

Surtək saldı fəğanım göylərə min vəlvələ,
Bu dəmir kürsüdə olcaq saqi-lərzanım mənim*.

Söykənib divarına zindanın, üz tutdum göyə,
Asimantək güllər açdı çeşmi-giryanım mənim.

Qoz içitək möhnət ilə mən dayandım üz-üzə,
Bağlıdır fındıq kimi zindanda hər yanım mənim.

Gündüzüm qəmlə, gecəm hey "Allah, Allah"la keçər,
Dinləməzmi naləmi o həyyi-sübhanım mənim?

Eylə qorxuncdur bu zindanda mənim hər bir gecəm,
Qorxudar məhşər gününü xovfi-zindanım mənim.

Yüz hasar olsa, aşar ahım və mütləq söndürər,
Şəmini bədxahların, bilsin nigəhbanım mənim.

Nəzr edib, tutdum oruc Məryəm kimi, Məryəmsifət,
Cəbraildən doğdu İsa, pak vicdanım mənim.

Xəstə bir qəlb ilə mümkünmü tutam mən də oruc?
Çün oruc batil edər gözdən axan qanım mənim.

Ağzıma iftar vəqti isti göz yaşım axar,
Yoxdur ondan başqa bir iftara imkanım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sanki sevdalı başım etmiş bəlayə mübtəla,
Qıçlarımı saldı işdən indi rəhbanım mənim.

Dağ dəmir hər dərdə dərmandır deyirlər, ah ilə,
Qızdı zəncirim ayaqda, oldu dərmanım mənim.

Deyləmi gördüm gözümlə, nizəyə döndü tüküm,
Qıvrılıb Deyləm tükütək cismi-piçanım mənim.

Bir rübabə oxşaram, kasəm, xəzinəm boş qalıb,
Boynuma kəndir salıb zülm ilə düşmanım mənim.

Danə qoydum ovcuna - gördükdə bir hindu qadın,
Tapmadı, əfsus, o falçı - harda xırmanım mənim.

Zərtək itmək, gül kimi solmaqdan əsla qorxmuram,
Dilsizəm pərvanətək, çıxmaz bir əfganım mənim.

Əldə hər gül hər qızıl əğlə tikandır, qoymaram,
Bir tikana seyd ola əqli-süxəndanım mənim.

"Zər" sözündə iki hərf var - qovuşmaz heç zaman*,
Razı ollammı qovuşsun zərlə vicdanım mənim?

Samiri tiynətliyəm, Musa təbiət olmaram,
Bir buzov dırnağı olsun möcüzə kanım mənim.

Həsrətəm yayda söyüd yarpağına, qədrimə bax,
Oldu Tuba şaxəsindən yayda yelpanım mənim.

Xurma yarpağı mənəm, yelpazə eylərlər məni,
Çün sərin ahım dodaqda titrədər canım mənim.

Oxşaram müşkə, məni gər yüz hasara salsalar,
Çulğayar dünyanı öz ətrilə reyhanım mənim.

Müşkə kimüxt üz tutub, bir gün dedi rişxənd ilə:
- Sən nə çirkinsən, varımdır rəngi-əlvanım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tez cavabında dedi müşk: - Ey həyasız, az danış!
Ətrim ilə oldu dünya xoş gülüstanım mənim.

Güzgütək zahirdə parlaqsan, içindir qapqara,
Kimyayəm, zahirimdən xoşdu pünhanım mənim.

Kəbəyəm, cümlə mələklər səcdə eylərlər mənə,
Çünki İsa tirməsindən oldu xüftanım mənim.

Məskənim çirkin de olsa, xatirimlə gövsərəm,
Cənnətlə mərac üçün vardır hər imkanım mənim.

Kütbeyin düşmən mağara axtarır gizlənməyə,
Hər biri olmuş, odur, quli-biyabanım mənim.

Abinusam mən, sədəflə batmışam dəryalara,
Olmaram çöp, üzdə olsun kəfiə cövlanım mənim.

Əql məndə, feyz məndə, qəlbü can da məndədir,
Aləmin həqqi nədir ki, verə fərmanım mənim.

Ülviyəm, ruhaniyəm, qeybi doğuldum qüdsdən,
Qoy bunu inkar qılsın xəsm-nadanım mənim.

Şirnim olmuşdur şəriət, nənmim - insaf, dayəm - əql,
Oldu dörd ünsür anam, ülviyyət ərkanım mənim.

Səbrlə doldu təbiət dayəsinin döşləri,
Ki, təriqət oldu aləmdə dəbistanım mənim.

Həm Xəlilüllah kimi oldu atam nəccar Əli,
Məryəmə bacı olub tərsa anacanım mənim.

Gəlmişəm dünyaya mən beylə gözəl, saf çeşmədən,
Xəlq olub ol çeşmədən gövhərli ümmanım mənim.

Fəqr bətnində yetişdim, nitq əli oldu mamam*,
Oldu yurdum elmü ürfan yurdu - Şirvanım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fırfira fırlatmadım qəflət üzündən bir kərə,
Çünki hər an valideyn olmuşdu pasbanım mənim.

Nər dəvəm noğalanızı dadmamışdır sizlərin,
Dolmamış xamlar əlilə kisəm, həmyanım mənim.

Qoy vəbalım düşsün hurilər, mələklər boynuna,
Bakirə meynə qanından dolsa peymanım mənim.

Mey içərsəm də, rəvadır, çün dünən vermiş peşin,
Zəhmət həqqimi mənə cənnətli dehqanım mənim.

Sağərim alsın deyə, torpağa düşdü ruhlər,
Ta behişt içrə içilsin qırmızı qanım mənim.

Nurlu "Quran"la qara daşı gərək hər an öpüm,
Tutsa da gövsər kimi dünyanı ehsanım mənim.

Nitq gənci sahibi, söz mülkunün xaqaniyəm,
Vardır hər bir kəlmədə yüz gənci-xaqanım mənim.

Bax, əlim - Cövza, qələm - Hut oldu, məna –
Sünbülə, Sünbülə Hutdan doğar, Cövza – qələmdanım mənim*.

Yeddi ölkədə yazarsa kimsə iki beytimi, Kafərəm,
Darül-Qəmamə - darul-imanım mənim*.

Bu-ləhəblərlə döyüşməkdən nə qorxum dəhrdə,
Mustafanın mehri olmuş əldə qalxanım mənim*.

Qasimi-Rəhmət, Əbülqasim, Rəsulüllahdır,
Canıma, əqlimə sahib, şanlı sultanım mənim*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2. HƏBSDƏN ŞİKAYƏT VƏ AZAD OLMASI ÜÇÜN RUM QEYSƏRİNDƏN XAHİŞ

Tərsaların xətti kimi tərsinə işlər fələk,
Boynuma bir zəncir salıb, saxlar məni rahibtək.

Bu deyrdə sakin deyil məgər həzrəti İsa,
Ki, Dəccalın işin işlər mina rəngli kəlisa?*

Bax, Məryəmin sapı kimi ikiqatdır bədənim,
İsadakı iynə kimi təkcədir qəlbim mənim*.

Möhkəm iplə əl-qolumu bağlamışlar burada,
Necə İsa bir iynəyə bağlı qalmış orada.

Necə olmuş: Dəccal kimi təkgöz olan bir iynə,
İmkan tapıb, sancılmışdır İsanın sinəsinə?

Rahiblərin paltarıtek gündüzüm olmuş qara,
Hər gecə mən rahib kimi başlaram ahü zara.

Sur kimi nəfəslənən ahlarımla hər səhər,
Mavi damın bacasında yerləşən xaç deşilər*.

Dəryaları buxar edən ahıma tuş gələrək,
İsa üçün toyəmmümgah oldu dördüncü fələk.

Mənə ülvi atalarım olmadılar mehriban,
Odur ki, mən saqınıram İsa kimi atadan.

Mənə bilik ulduzunun nə olacaq faydası?
Mən zülmətəm, parlamaqdır ulduzumun qaydası.

O olmuşsa Keyxosrov tək İran, Turan hakimi,
Niyə zülmət bir quyuda qalmışdır Bijən kimi?

O dörduncü göydə İsa Günəşlə həmxanasa,
Bundan nə həzz ala bilər İsa quşu - yarasa?*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Niyə İsa öz quşunun özü təbibi olmur,
Ki, o quşun kor gözünə özü bağışlasın nur?*

Təbimin bu körpələri birər İsaya oxşar,
Anasının paklığını hər biri etmiş iqrar.

Məryəm xurma ağacıyla göstərmişsə möcüzü,
Mən təbimin paklığına şahid gətirrəm sözü*.

Beş yüz ildir doğulmamış mənim kimi sənətkar,
Yalan yoxdur bu sözümdə, mənim min şahidim var.

Yaralanmış gönlüm oxşar barlı an şanına,
Verdiyim bal bulanmışdır ürəyimin qanına.

Ah odumla alışaraq yanan bu yağlı dilim,
-Tərsamıyam məgər? - Dönüb olmuş mənim qəndilim?

Düşmən məni zəncir ilə bağlamış üç tərəfdən,
Asıb daim odlayırlar, məgər bir qəndiləm mən?

Axıdıram, Məryəm kimi yerə tikib başımı,
Məsihanın nəfəsitək saf olan göz yaşımı.

Necə iki "elif" durar bir "ətəna" sözündə,
"Tən"in o cür dayanmışam arxasında, önündə*.

Mənə zərrə yardım etmir təəssüfu dostların,
Nə lüzumu var bu qədər fəryadın, ahü zarın?

Zəmanənin pislərindən həqqə aparram pənah,
Allahsızı haqq yoluna özü-gətirsin Allah.

Abbasilər qapısına getmərəm kömək üçün,
Səlcuqilər qapısında inləmərəm bircə gün*.

Bu dövrandan görməmişəm nə ədalət, nə kərəm,
Nə Arslan, nə də Bəğra qapısına gedərəm*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yusif yoxdur, qıtlıq günü eləsin məni təmin,
Birdir mənim gözlərimdə Yəhuda, İbn-Yamin*.

Müsəlmanlar mənə qarşı ədalətsiz oldular;
Mən dimimdən əl çəkimmi? Bunun nə mənası var?

Yeddi yerdən din elmini təhsil edənden sonra,
Yeddi kitab üzrə vehyi təhlil edəndən sonra.

Əzbərləyib "Əlhəmdüllah", "Əlkəhf'i, "Ərrəhman"ı,
Həm "Yasin"i, həm "Tasin"i, həm "Mim"i, həm Tahan'i

Miqatdan Həccə gedib, təvaf edib Kəbəni,
Səyü cümar icra edib, görüb əsl qibləni*.

Otuz ildə neçe dəfə cillə tutandan sonra,
Nece gedib əlli günü pəhriz tutum aşkara?

Yəhudanın tay-tuşudur, düşmənlərim, odur, mən,
İsa kimi çox qorxuram gözlənilməz tənədən*.

Nədir əmrin, Yəhudanın sitəmindən qorxaraq,
Mən Sükuba kilsəsinə düşüm əlindən qaçaq*.

Nədir əmrin, gedib küfrün kəndarında yer tutam?
Gözləməyim öz dinimin yolunda ali məqam?

Abxazların qapısını, gedib, döyüm əlimlə?
Rumluların məzhəbinə iqrar edim dilimlə?

Qibləm olan beytüllahdan mən necə üz döndərim?
Olsun Beytülmüqəddəsin mehrabı səcdə yerim?

Əlli ildir müsəlmanam, ağartmışam saçımı,
İndi gedib ayağıma zəncir edim xaçımı?

Məhkumluqdan, gedib, öpüm kəlisanın zəngini?
Zülm əlindən züniar asıb, dəyişdirim rəngimi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Səryanilər" hədisini "İncil" üzrə şərh edim?
"Tövrat"dakı müəmmanı oxumağa mən gedim?

Nacorməklik hara, Məxrac kilsəsində məc hara?
Bokratilər qapısına gedib, istəyim çara?*

Necə, gedib, zahid kimi mağaralarda qalım,
Əynimə bir çuxa geyim, orada "molo" çalım?*

Əvəz edim bir palazla ipək xara köynəyi?
Bətriq kimi yurdum olsun qayaların ətəyi?*

Uşaqların boğazına taxta dua asantək,
Bu yaşımda xaç asarsam, ağılsız olam gərək.

Mənə hörmət etməzlərsə Abxaziyada, nə edim?
Oradan da yola düşüb, Rum ellərinə gedim?

Gedib Rumun heykəlində məktəb açım təzədən?
Mətran qoyan ayinləri başlayım təlimə mən?*

Səqqa oğlu kimi atım ridanı, təyləsanı?
Züniar asım, bərnəs geyim, olum donuz çobanı?*

Verim böyük Tərsiqusun qarşısında imtahan,
Söhbət açım Cəbrayildən, oğuldan və atadan?*

Bir sözümlə nə qədər var üç əsasa inanan,
Haqq yoluna çıxar dərhal tərəddüd quyusundan:

Üsqüf mənim biliyimi üstün tutar, verər həqq,
Yəqub ilə, Nəstur ilə Məlkaya qarşı mütləq*.

Kəşf edərəm öz əlimlə əsrarını lahutun,
Göstərərəm nə deməkdir həyulası nasutun*.

Dərs almağa məndən - gələr dəstə-dəstə keşişlər,
Onlar hələ mənim kimi bir alim görməmişlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deyərlər ki, bu, hikmətdə ikinci Bətlimusdur,
Böyüklükdə, hörmətində şöhrətli Filakusdur*.

Qüstəntinə aparılan yazının hər kəlməsi,
Ölülərə hünut olar, dirilərin sürməsi*.

Mən Musanın əsasını, hardan olsa, alaram,
O əsanı sındıraraq, xaç şəklinə salaram.

Məsihanın eşşəyinin peyinini basıb mən,
Burun qanın dayandırram qoca abidin fövrən*.

Səmərqəndlə Buxaranın xaqanına tac deyə,
Göndərərəm o eşşəyin noxtasını hədiyyə.

Gümrahların göz yaşıyla dırnağını eşşəyin,
Tutduraram mən qızıla, lələ, yaquta, yəqin.

Üç "üqnumu", üç "qurquf ù,öyrənərəm mən əzbər*,
Dəlilərlə məzmununu şərh edərəm müxtəsər.

Nə çay idi, nə cimməkdi, nə yengindən püfləmək?
Bir halda ki, çılpaq idi Məryəm, Cəbrayılsa tək.

Necə yəni bəkarəti pozulmadan, Məryəmin,
Bətnində bir gövhər onun canlandı həmin-həmin?

Necə İsa doğulduğu dəqiqədə açdı dil,
Necə Məryəm sübut etdi ki, o günahkar deyil?

Necə İsa yaratmışdır canlı bir quş palçıqdan?
Necə ölmüş Azərə o yenidən vermişdi can?

Dara çəkilən zaman İsa dedi gedirəm,
Yuxanda öz atamın səsini dərk edirəm?*

Əgər Zərdüşt dini ilə maraqlanarsa qeysər,
Əlim ilə "Zənd-Avəsta" ayinləri dirilər*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deyirəm ki, od nə idi, haradan yarandı "Zənd"
Ki, onların ikisindən ad aldı zənd-pazənd?*

Nə kül idi, yerdə qalan o oddan ki, bir zaman,
Alışaraq yandı, etdi Xəlilüllahı heyran?

Bir möbədi tarazıya qoyub, axtarsam taraz,
Luka oğlu Qəsta onun yəqin pərsəngi olmaz*.

Nə üçündür bədəninə milçəklər fitə bağlar?
Nə deməkdir çəyirtgənin ayağında o şalvar?

Məşhur olan Cin "Ərtəng"i "Tənglüşa"dan gözəl*,
Qeysərlərin şənində mən yazaram təsnif, qəzəl.

Ey Xaqani, bu yaramaz fikirləri boşla sən,
Çünki bu cür fikirləri şeytandır təlqin edən.

İsa üçün nə düşünər alçaq olsa yoldaşı?
Pis vəzirdən nə qavraya bilər sultanın başı?

Bəsdir daha, küfrə son qoy, təzədən imana gəl,
Tövbə eylə dediyindən, arzulardan götür əl.

Söylə: iqrar edirəm ki, böyükdür, təkdir Allah,
Mənim tərif etməyimdən qat-qat yüksəkdir Allah.

Buradadır İzzüddövlə, Rumun böyük hakimi,
Nəyə lazım Ruma dedim yoldan azanlar kimi?

O, İsanın sağ əlidir, həvarilər bayrağı,
O, Məryəmin əminidir, nəsaralar dayağı.

Sən ey İsa təbiətli, Qeysər oğlu, sən məni,
Dinlə bir az, and verirəm bir allaha mən səni;

And verirəm Cəbrayilə, ruh püfunə, Məryəmə,
Həm "İncif"ə, həvariyə, həm İsəbni-Məryəmə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O doğruluq beşiyinə, o bakirə hamilə,
Həm o ələ,o qola ki, mayalandı yel ilə;

Çaxmaq daşı, Əqsa deyri, Beytül-müqəddəsə mən,
And verirəm Şəlixaya, Ənsariyə, pak ikən*.

And verirəm züniar ilə, naqus ilə qəndilə,
Yuhəniaya, Bəheyraya, Şəmmasa, gəl, rəhm elə*.

Həm allaha, həm qurbana, həm Fitrə axşamına,
Həm Məryəmin orucuna, həm heykəl bayramına;

Məryəmə ki, qoymamışdı Yusiflə baş yastığa,
İsaya ki, yerləşməmiş bətndə uşaqlığa;

O ağac ki, həqqin ruhu olmuş onun meyvəsi,
Sən olarsan o ağacın qol-budağı, rişəsi.

And vermişəm o qışa ki, birdən dönmüş bahara,
O qocalmış ağaca ki, cavanlaşmış dübara;

Kəlisada inləyərək "molo" çalan rahibə,
Öz əlilə öz boynuna zəncir salan rahibə.

And verirəm o üç bürcə, o ulduza, o Aya,
O təslisə, o tərbiə, təsdisə, səlasəyə;*

O üçlüyə ki, ucadır samanın ülkərindən,
Dörd yan xaça, külək üçün düzələn bacaya, sən.

Mənə Beytül-müqəddəsi görmək üçün rüxsət al,
Bu xüsusda dünyaların sultanını başa sal.

Ki, üstüva xətti ilə mehvərin xətti əgər,
Birləşsələr, nəticədə bir xaç əmələ gələr.

Layiqdir ki, bu şerimi İsa öyrənsin əzbər,
Təsbihində vird eyləsin hər beytimi səhərlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3.

Ruhum bu can mülkünü tərk edib gedən kimi –
Rahatlığın pərisi atıb getdi qəlbimi.

Bizi barışdıracaq nəfəs idi arada,
Baş alıb, ortalıqdan bir anda çıxdı o da.

Qalmışdı təkcə kölgəm, o da getdi aradan,
Artıq adım, nişanım silinmişdir dünyadan.

Evimin dörd divarı baca kimi söküldü,
Astanası dağıldı, səqfi yerə töküldü.

Könlüm nərd oyununda düşmüşdür şeşxanaya,
Qanlı göz yaşım gərək on yeddini sanaya.

Duzlu su gözlərimdən axdıqca hey torpağa,
Ayağımın altını döndərmişdir duzlağa.

Fələk mənim qəlbimi nişana aldı, atdı,
Atdığı ox işləyib sümüyə, cana çatdı.

Dünən gecə ahıma hədəf etdim göyləri,
Qanlı bulud bir anda çulğaladı hər yeri.

Ürəyimin başında bir kədər tutdu məskən,
Deyəsən, getməyəcək o heç zaman bu yerdən.

Gəlib, çatdı dostumdan məktub gətirən o quş,
O quş ki, səhər-səhər öz yuvasından uçmuş.

Lakin, o gördü əsla ayağa qalxmadım mən,
Qəzəblə endi yerə, kədərlə qalxdı yerdən.

Bir əjdaha yatırdı ayağımın altında,
Buna görə ayağa dura bilmədim onda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayağının üstünə qoyulmuşdu dəmir dağ,
Ayağı dağ altında olan qalxar nə sayaq?

Xaqaninin ayağı açıq olsaydı, əlbət,
Qalxardı, öz yerindən göstərərdi o hörmət.

Zöhhak ilanlarıyla sarınmışdır ayağım,
Onunçundur gözümdən mirvari yağdırmağım.

Ayağıma sarılmış iki əfi ilandan,
Tavadakı balıq tək qovrulur qəlb, yanır can.

Ah çəkərkən, təndir tək alovlanar bədənim,
Odlu ilan tək çıxar alov ağzımdan mənim.

Sataşdıqca gözümə keşikcisi məhbəsin,
Qəlbimin yaraları qovr edir həzin-həzin.

Bir quduz it zindanda keşikcim olmuş mənim,
Ağlar gözümdən şirin yuxum qovulmuş mənim.

Sudan qorxar, deyərlər, quduz it qapmış insan,
Bununçundur ki, mən də qorxuram göz yaşımdan.

Ürəyimin odundan göz yaşım olmuş buxar,
Çəkdiyim soyuq ahdan qışa dönür hər bahar.

Nar danəsinə bənzər tökdüyüm göz yaşından,
Üzüm olur hər gecə şəfəq kimi al-əlvan.

Qıçımı zəncir kəsib, topuğumdan qan axır,
Elə bil yağış seli iri novdandan axır.

Bəlkə ahımdan dəmir qızararaq əriyir,
Onunçün də səslənib dəmir "ələman" deyir?!

Bu dəmir xalxalımı açmaq istəyən zaman,
Zınqrov kimi məndən ucaldı nalə, fəğan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zəifləmiş vücudum bənzər ipək bir telə,
Bu nazik ipək tel də qüssədən gəlmiş dilə.

Divarlar seyr elədi mənim solğun rəngimi,
Onların da üzləri oldu zəfəran kimi.

Göyə fəvvarə vurdu ürəyimdən axan qan,
Öz yolunda palçığa batıb, qaldı kəhkəşan.

Tikanlığın içində çırpınan bülbüləm mən,
Ümidimi kəsmişəm gülüstanın gülündən.

İnsaf, mürüvvət gülü qalmamışkən dünyada,
Etdiyim bu haraydan, bu nalədən nə fayda?..

Ciyərimin qanından ciyərim doymuş deyə,
Mədəmin meyli yoxdur nə suya, nə çörəyə.

Can burda məhv olurkən, nəyə gərəkdir bədən?
Ölürkən ev sahibi, tapılarmı ev güdən?

Torpaqdan ev tikənlər axırda torpaq oldu,
Tikdikləri saraylar, kaşanələr uçuldu.

Sel coşdu, dalğalandı, yaman tufan qopardı,
O, tək paltarı deyil, dərzini də apardı.

Bir qəssab dükanıdır bu fələk ilk çağından,
Qan axır damcı-damcı qəssabın bıçağından.

Bir yan quzu cəmdəyi, bir yanda var tərəzi,
Nə köklük, nə arıqlıq düşündürür bir kəsi.

Yağlı, ucuz bir tikə mənimsəmis hər alçaq,
Mənim tikəm həm arıq, həm də bahadır ancaq.

Dükanda döş, qabırğa, ürəkdir dəyən gözə,
İstədiyi tikəni qəssab vermir heç kəsə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Abır-həya gedincə qorxu qalxır ortadan,
Nəyin dərdini çəkər sürüsü batmış çoban?

Çıxıb getdi, şəhərdən uzaqlaşdı karivan,
Gözətci də bac alıb, çəkildi, getdi yoldan.

Dəvə palçıqda yanmış ildırım zərbəsindən,
Türkmən azad edilmiş dəvənin vergisindən.

Arzulardım həyatda sədaqət, düzgün ilqar,
Ümidlərim puç oldu, vəfasız çıxdı dildar.

Dad çəkdim fərasətsiz, anlamaz böyüklərdən,
Böyük qəmlər bu kiçik könlümü etdi məskən.

Zəni edirdim dünyada var vəfalı adamlar,
Yarım vəfasız çıxdı, səhvimi etdim iqrar.

Yusifin də başına bəlalar açdı dövran,
Qardaşlar arasında baş verən bir nifaqdan.

Bir ilin məhsuludur mənim gündəlik qəmim,
Uzun illər boyunca qəm olacaq həmdəmim.

Budur, yenə törətmiş yaşıl yelkənli fələk,
Fırtınalar qoparan, gəmi qıran bir külək.

Yox, bu tufan yaranmış qəza buyruğu ilə,
Qoy dünyada möminlər yaşasın bundan belə.

Xilas olum deyə mən, bir qüdrətli hökmdar,
Çalışır var gücüylə, artıq nə möhnətim var.

Xaqanini öldürsə şah, onun sarayından,
Qisasını alar bir şah nişanlı hökmran.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4. HƏBS EDİLDİYİ BARƏDƏ VƏZİRƏ MƏKTUB

Nə qədər ki, dövlət sənin qapındadır pasiban,
Açacaqdır qapısını sənə geniş asiman.

Qüreyşilər bayrağınla sənin oldu səfərbər,
Yəmənilər xəncərinlə sənin oldu müzəffər*.

İnsaf gəlib dərgahına, oldu səninlə ortaq,
Zülmü sitəm astanandan qaçdı yaxa yırtaraq.

Fələk sənin qullarının qollarına baş əydi,
Ona görə yüksəklikdə yer tutubdur əbədi.

Öz qələmin rəng vermişdir məharətlə rüzgara,
Gecə, gündüz bu səbəbdən olmuş belə ağ, qara.

Söz Misrinin Yusifləri sağlığına hər zaman,
Nuş eyləyir mənaların badəsini şadiman*.

Mənim bütün varlığımı bürümüşdür qəm, kədər,
Sənin qayğın olmayınca bu varlıqdan nə səmər?

Mənim yüksək qiymətimi təkcə bir sən bilərsən,
Simurğ o vaxt yaşayar ki, Cəmşid ona verər dən.

Gözəl bilər bu mətləbi göy cəlallı hökmdar,
Mənim kimi yer üzündə tapılmaz bir sənətkar.

Baxma, sadə bir xarratın oğluyam mən, bil, Azər,
Xarrat idi, lakin oğlu Xəlil oldu peyğəmbər.

Bu sənətdə hər kəs məndən öyrəndi bir fəsahət,
Sonra, gedib, hazırladı mənə min cür fəlakət.

Bu təəccüb deyil, əgər bir qurşun almaz qıra,
Hünər ona deyərəm ki, almaz polad sındıra.

Gedən zaman bu dünyadan Sənaitək bir ustad,
Əvəz gəldim ona, atam mənə Bədil qoydu ad.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Boğazına dünyanın mən gövhər tökdüm o qədər,
Onu aman deməyə də qoymadı bu gövhərlər.

Sən təbimin bağçasından istə təzə xurmalar,
Gedib, hər bir yaranazın söyüdündən unnma bar!

Hər an xurma ağacından bollu xurma dərərsən,
Yel əsərsə, kəpənəklər uçar ancaq söyüddən.

Əgər qəmdən qocalmışsa vücudum, nə eybi var?
Mədhin ilə bu dünyanı bəzərəm, ey hökmdar!

Tərifini edən qəlbim sınsın gərək hər anda,
Çün xəzinə olar ancaq xarabazar məkanda.

5.

Qəlbə təsir etsə əgər qüssə, qəm,
Odlu göz yaşları yağdırar o dəm.

Tale üz döndərib yıxsa hər kəsi,
Ondan uzaq qaçar hətta gölgəsi.

Ruzigarda vəfa görməmişəm mən,
O, vəfa göstərər bəlkə nüdrətən.

Fələyin nöqtəsiz olur zərləri,
O, nərddə udmuşdur çox hərifləri.

Pəncü-yek oynamış yenə də fələk,
Ki, do-şeş atana hesablar do-yek.

Məni yaxşılıqla utandırmadan,
Pisliklə xəcalət edir hər zaman.

Acgöz bir qarışqa, dilsiz bir quşam,
Əsla qəfəs üçün doğulmamışam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir quş caynağından ordu sınarmı?
Qarışqa gücüylə şəhr alınarmı?

Adətən, arılar vızıldar, ancaq,
İnsan arzularını heç vızıldamaq?

Ayağıma zəncir vurubdur fələk,
Sancır hər halqası ilan ağzıtək.

Bu dəmir halqalar, dişsiz ağızlar,
Necə ki, ağızsız, dişli bir mişar.

Doğrayar meyvəli, göy budaqları,
Bax, eləcə kəsir buayaqları.

Bir dəmir həlqədir, yoxsa ac köpək?
Qapır baldırımı qudurmuş ittək.

Xaqani ahından duman yaratdı,
O duman yuksəlib, göylərə çatdı.

Fələyin pərdəsi yırtıldı bir baş,
Bütün sirrləri faş olundu, faş.

Lakin, iş bunlarla düzəlmir tamam,
Tək yaradan çəkir işlərə əncam.

Düşmən çox olsa da, ölüm gerçəkdir,
Hamısı torpağa çevriləcəkdir.

6.

Xaqani qürbətə basalı ayaq,
Olmuş tək qapılı bir evdə dustaq.

Nə evin içində rahət olur can,
Nə də var bayıra çıxmağa imkan.

Üzü divaradır, sanki hörümçək,
Girmiş daş altına bir qarışqatək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qıfıldır keşikci ona bayırdan,
Daxildə cəftədir ona pasiban.

Nəfəsi - alovdur, göz yaşı - Ceyhun,
Qəlbi - od kürəsi, alı - od onun.

Salınmış dörd yanı bağlı bir yerə,
Açılır qapısı geniş göylərə.

Sükut qıfılını ağzına vurub,
Ümidini haqqa bağlayıb, durub.

Nə qədər bu ümid qonaqdır bura,
Qapını açmayın yad duyğulara.

Xaqani, xoş həyat fikrindən əl çək!
Dünyada tapılmaz dərdsiz bir ürək.

Dörd əsas üstündə dayanmış cahan,
O dörddən hər biri sayılır ərkan.

Sən də öz evinə dörd cəhət axtar,
Çünki, hər təməli dörd səbəb qurar.

Şadlığın şərtisə üç şeydədir, bax:
Məkandır, zamandır, bir də dost, - ancaq.

Dördüncü şərtini görən olmamış,
Çünki, yoxdan xəbər verən olmamış.

7.

Qucaqlayıb dizimi səbrlə səhərlərdə,
Könüllə cismimi acizliyim salar dərdə.

Ətəklərim gözümün qanlı yaşıyla dolar,
Fələkdə əks tapar, qan dolu piyalə olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözüm içindəki bir cüt gözəl doğar hey qan,
Odur ki, basdıraram qanlı körpələr hər an*.

Yazım san üzümün zəfəranı ilə dua,
Bəlkə qısır bəxtimi duam uşağa qoya*.

Zəmanə bildi: bəla xəttinə başım əyilir,
Onun əliylə bəla xətti başıma çəkilir.

Bir odlu nalə edərsəm dəmir kimi candan,
Civə kimi əriyər hər dəmir bu əfqandan.

Yaxıb ciyərlərimi atəşə zaman qəmdən,
Gözüm yaşıyla çölə Dəclələr axıtdım mən.

Kəsər ömür kökünü qəm, odur ki, mən naçar,
Tələş ilə atıram əl füzulluğa təkrar.

Tutubsa təndiri tufan, nə xeyri var qan tək,
O təndirə qapağı qoymağa açım mən ətək.

O gün ki, keçdi Ömürdən, daha geri dönməz,
Bacanda bir də dünənki Günəş gülümsünməz.

Fələk Səyavuş üçün məndən intiqam istər,
Təhəmtənin önünə palçıq at çaparmı bəşər?

Sinəm çapıldı dağın bağrıtək, günahı budur,
Ki, məxzənində Günəş körpəsi qalıb, qorunur*.

Axıtdı yeddi fələk cövrü gözlərimdən qan,
Müsəxxər etdi bu yeddi yeri qopan tufan.

İki öküz - yer ilə göy ikən, o tarlada mən,
Gəzib, bir arpa belə tapmadım, salam xərmən.

Qəfəsdə bağlı qalan Zal kimi fəğan edərəm,
Ki, bəlkə Bəhmənə təsir edə mənim naləm*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kənar edəm deyə qəm çəngini yaxamdan mən,
Boğazım arğana dönmüş, edər belə şivən.

Qəmin mənimlə elə ünsü var ki, il uzunu,
Nə yaz, nə qış o məni tərk edər, nə də mən onu.

Çin ahusu kimi məndən ki, müşk hasil olur,
Əcəb deyil, yediyim yasəmən, qızılgül olur.

Başım diz üstə, könül bağına uçub gedirəm,
Qonub da, Sidrə ağaçında quş kimi ötürəm.

Çəkəndə karvanı mən, qəm də onda bir dəvətək,
Çatanda mənzilə, mütləq belimə yüklənəcək.

Olubsa qəmdən ürək iynənin gözündən dar,
Qəm ilə yüklü dəvə iynənin gözünü tapar*.

Səpib fərəh toxumu bağrıma, kədər dərirəm,
O küpdə bəslədiyim mey çöküntüdür, görürəm.

El içindən qaçaq düşən qəribə Simurğəm,
Odur ki, Zal əvəzi munisim olubdur qəm*.

Zəmanə ünsi nəsimini kəsdi gülşəndən,
Kədər səmumu ilə yaxmışam o gülşəni mən.

Mənim qida verənim fəqr piridir, gördüm,
Fəqirlik astanasın nəfsimə məkan verdim.

Əsərsə gülxənə nəfsim yeli əgər bir an,
Vurar o gülxən odundan həyat suyu fantan.

Biyanı yükləyib Hindistana aparsam əgər,
O ölkədə qəmar udundan heç qalarmı əsər?

Nə vaxtdır ki, səfa əhlinə müridəm mən,
Bir az da deyrdə qoy dərs alım brəhməndən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəvə-pişik oyunu oynayır bu aləm əgər,
Əlimdə təsbeh olur gah mənim də, gah sağər*.

Çətin ki, təb məzəmmətlə mədhdən usana,
Uşaqda rəğbət olur gah lövhə, gah sapana.

Mənimlə rindlərin yetməmiş yolu yarıya,
Yoxumdu Rəxş, əlacsız gərək minəm yabıya.

Yoxumsa müşklü ahu, keci, öküzdən mən,
Gərək tədarük edəm müşk, ənbərü ladən.

Böyüklüyümlə fələktək duram başı aşağı,
Yerim ola bu təvazölə torpağın qucağı.

Məni əzərsə də düşmən, gərək sevəm onu mən,
Əlimdən heç nə zərər görməsin quduz düşmən.

Qılınc ilə hədələrsə, hanı qılınc? Gedərəm,
Onu alıb, öz əlimlə boyunbağı edərəm.

Tamah xərabəsi olmuş əgər mənə məskən,
Gərək öz ağlım ilə xətt çəkim o məskənə mən.

Kəsif aləmə bu gözlərim salarsa nəzər,
Öz hümmətim gözümün qarşısında pərdə çəkər.

Daş hərləyən öküzəm, bağlanıb gözüm möhkəm*,
Nə başım hərlənə, həm də nə yağa göz yetirəm.

Uyub cahandakı var-dövlətə, qalan deyiləm,
Sarınsa bir ağaca, qopmayan ilan deyiləm.

Göyərcinəm ki, mənə namə verdilər, aparam,
Darı döşürsəm əgər, dəstədən geri qalaram.

Xüsusi dostu belə olmasam da haqqın əgər,
Çox ehtimal, gozüm cənnətə məni yetirər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Behişt bağına can, qəlb, ağılla çatsam mən,
Bu üçlük ordakı səkkizliyi edər məskən*.

Mənə cibin kimi ruzi yaranmamış cəmdək,
Mənəm pətək arısı, nemətim - gül ilə çiçək.

Fələkdən istəsəm isti, soyuq təam əgər,
İki fətirlə fələk süfrəmi müzəyyən edər*,

Günəşlə, Ayla əgər qaneyəm Süleymantək,
Niyə qarışqa kimi toplayım ovuntu çörək?

Dəniylə Pərvinin illərlə bəslənib Nəsreyn,
Tamamlayar o iki quşla süfrəmin bəzəyin*.

Təvəkkül əhlinə ruzi verən məgər şahdır?
Yoxumdu şübhə, kərəm sahibi bir Allahdır.

Veribsə can bizə xaliq, özü çörək də verər,
Günah olar buna mən şübhə ilə baxsam əgər.

Ağac əgər o zaman od veribsə Musaya,
Nə vacib onda gətirmək odu bu səhraya?*

Mənim fəzilətimi anlamazlar, almazlar,
Rəvamıdır ki, edəm fəzlimi özüm inkar?

Gətirdilər mənə Bəhram kimi əgər cəhrə,
Qılıncla qarətə keçmək kimə verər bəhrə?*

Sönüb kərəm Günəşi ildırımtək ahimdən,
Gecə fəğanım ilə Zöhrədən qopar şivən.

Hələ bu dul qandan doğmamış kərəm gəlini*,
Rəva deyil, baş əyib, vəsfinə açam dilimi.

Dedim ki, şahlar üçün şer yazmaram daha mən,
Düşünmə: əl çəkərəm büsbütün bu sənətdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

De, hardadır o Tuğan şah ki, mən bir əppək üçün,
Önündə "sənsəni" təkrar edib duram hər gün.

Məsihtək nəfəsim, nitqimin qılıncı ilə,
Gələr Kəlim kimi hümmətimlə lal dilə.

Necə ağız açıb alçaqlara, çörək diləyim?
Qara daş üstünə gövhər suyu, alıb, ciləyim?

Bilik gözünə şəfa bəxş edən təbibəm mən,
Dəva alır göyün ulduzları gözə məndən.

Dedim: könüldəki arzumla Məkkəyə gedərəm,
Açar xəzinəni qarşımda bəlkə pak hərəm.

Qızılla Məkkə müyəssər olar, yoxumdur zər,
Mənə ki, yoxsulam, ancaq xəyaldır bu səfər.

Düşəndə Təbrizə meylim, qəmim daha artar,
Həm Ərze-Rum, həm Arran məni qonaq çağırar.

Mənim ki Ərze-Rum arzumdur, qəsdim Arrandır,
O yerlərə səfər etmək mənə ürəkdəndir.

Qarışqatək yuvama şövq ilə aparram dən,
Quşam, gərək qapam hər danəni ətəklərdən.

İraq ilə Rey edərlər əgər məni dəvət,
Sözümlə bu iki ölkə qəbul edər miniət.

Mənijə Bijən ilə yalvarar ki, şerimdən,
İşıq saçam quyuya ki, dibindədir Bijən*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞİKAYƏTLƏR

1. ZƏMANƏDƏN ŞİKAYƏT

Bu yaşıl gülzardan mən ayrılanda hər zaman,
Bir yeni aləm təfəkkürdən mənə olmuş məkan.

Nə üzük, nə təxt varımdır, "rəbbi həbli" söylərəm,
Turu atəşsiz "ənəllah" övçünü seyr eylərəm*.

Tullaram dəryaya, harda nəfsdən görsəm nişan,
Odda yandırram, ağıldan bir əsər tapsam haman.

Gah bir təxt öz məqamımca düzəldib Sidrədən,
Hümmətimcə gah şüar hazırlaram şerimlə mən.

Bircə anda xərclərəm, hər nə verər doqquz fələk,
Altı gün süfrəm dolarsa, bir gecəmcindir xörək.

Gecə-gündüz gövhərindən qəsrini təbim qurar,
Asiman firuzəsindən tac vermiş ruzigar.

Təbimin şişə evində gör təmiz vicdanımı,
Aç fələkdən pəncərə, dal seyrə ondan canımı.

Gonlümü güzgü edib, abi-həyat nuş eylərəm,
Sən inanmazsan məgər, mən Xızıram, həm İskəndərəm?

Göylərə uçsam, rəvadır, mən səmavi bir quşam,
Cövhərim qiymətlidir, dünyaya zinət vurmuşam.

Bir oyun qurdum, uduzdum bu cahanı torpağa,
Hazıram indi o dünyanı qumara qoymağa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoysa da şeşxanədə beş hiss, dörd ünsür məni,
Udmuşam nərd oynayan dünyada hər üç növbəni*.

Hümmətim "peyğəmbər oldun" söyləyərkən qeybdən,
Eşq əlindən "gəldi həqq" fərmanı aldım onda mən.

Güzgüdür aləm önümdə, tutiyə mən oxşaram,
Başqasına baxmaram, çünki, mənimcin mən varam.

Arxasından güzgünün ağlım nəyi təlqin edər,
Mən onu allam dilə, zahirdə söz açsam əgər.

Bütdür, ulduzdur yanımda, bil, tamahla arizu,
Mən Xəliləm, rədd qıldım həm bütü, həm ulduzu.

Bir zaman "ən nəbüdül əsnam" idi dil əzbərim,
İndi "inmi la ühübbül-afilin"dirrəhbərim*.

Səf çəkib, qarşımda durmuşdur zəmanə divləri,
Dəhrdə guşənişinlikdir mənə izzət yeri.

Divlər ilə çarpışarkən, doğrusu, mən Rüstəməm,
Mən gərək Simurğtək insan gözündən gizlənəm*.

Hər sözüm şirvanlılar bağrına neştər olsa da,
Təbimin şəlıdı İraq əhlinə olmuşdur qida.

Xalq atan yoxsulluğu mən qaldırıb etdim qəbul*,
Sam Zalı atdı, mən aldım, bəslədim, bildim oğul.

İtsifətlər cərgəsində bir heç olsam da əgər,
Şirtəbiətlər məni qiymətli gövhərtək sevər.

Aləmi, Xaqaniyəm, fəth eyləmişsə şöhrətim,
El bilir, Xaqanilikdən yüksək olmuş hümmətim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənsəbi çəkdim dara, gördü fələk, verdi qərar:
- Naibim ol, ey xətib, burda qılınc, minbər də var.

Gönlüm istərdi, öyündümsə onun hökmüylə mən,
Yoxsa, qoymazdım desinlər: "öz-özünü mədh edən".

* * *

Mən kiməm, xilqətdən üstün nəfsimə qiymət verəm?
Xilqətin tacı əgər olsa başımda, kafərəm.

Bir vücudam, əsli yox, sən də məni tilsim tanı,
Sanma bir natiq ki, sağdır, var vücudunda canı.

Zatı yoxluqdan ibarət bir adam bilsə əgər,
Varlığım yeldir mənim, nəqşimdə yox oddan əsər.

Oddur, aşkardır mənim sıfra bərabər xislətim,
Mən Əsəd bürcü ikən, Cövzaya yoxdur nisbətim*.

Nəhsiyəm ulduzların, xalqın vəbalı oldum həm,
Saxta bir varlıq bu aləmdə əgər varsa, mənəm.

Rüknlərdən biveci, həm də zamanın qaysağı,
Mən kiməm bu ölkədə? Alçaqların ən alçağı!

Mən doğulduqda, ağıl təlqin qıldı Adəmə:
"Leysə min əhlik", - buna səhvən sən övladın demə!

Dövrəmi almış dərin dərya, bir odlu körpü var,
Keçmərəm ondan, məni qərq eyləsin qoy dalğalar.

Süni saçlartək həyatdan məndə yoxdur bir əsər,
Gövhərim ənmik kimi bir an parıldar, tez sönər.

Olmadım Əshabi-kəhfə it, Məsihayə ulaq*,
Vəhşiçinsli bir it oldum, həm də bimayə ulaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmdəməm Haruta, həm bərbət çalan o arvada,
Zöhhak əfisi, dəmirci zindanı üstə qada*.

Oxşasam da aslana, qardan düzəltmişlər məni,
Bir öküz sanma öküz şəklində altun kuzəni.

Mən ki, "la movla lehüm"ü dəftərimə salmışam,
Küfr təlimin "nəsullah" məktəbində almışam*.

Kafərəm - Kəbə yıxan, qibləm mənim bütxanədir,
Başıma daş yağdırın, quşlar, yatıbsız, ya nədir?

Dəm vurar dindarlığından mən kimi kafər olan,
Bil, yalançı sübhdən yüz qat yalandır bu yalan.

Daxilən əfi ilan, tavus rəngəm zahirən,
Müxtəsər, bil, yolkəsən divə mənəm yol göstərən.

Həvvanı rüsvay edən mən, Hacərə töhmət vuran,
Zəhradan pərdə qopardan, Məryəmə bardaq quran.

Zənn edirlər ki, hümatək az yeyən, kəmşəhvətəm,
Mən xoruztək dən gəzən, şəhvət əsiri oldum həm.

Mən gecə-gündüz "Quran" bəndindən azad olmuşam,
Aylar, illər, sağər əldə, mey içib şad olmuşam.

Həm Zühəl rəngli dəmirtək od mənim bətnimdədir,
Həm "nəayim" tək hərisəm, çeynərəm odlu dəmir*.

Zahidəm, amma, nə Yəhyatək, brəhmən seyrətəm,
Şairəm, amma, nə Həssantək, Ləbidi tiynətəm*.

Mən zəhərli ətlərindən çox yedim alimlərin,
Bu acı getməz, yusan yüz yol suyunda gövsərin.

Sehrlə ruhanilikdən dəm vurarsam da əgər,
Yaxşı bax, hər zümrəyə məndən əziyyətlər keçər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şerini ustadların inkar işində mahirəm,
Yazdığım laqqırtını vəsf eylərəm ki, şairəm.

Boynuma it muncuğu asdım ki, "gövhər" göstərəm,
Ənbər ad verdim qığa, əlhəq, qəribə bifərəm.

Şir kişilər, mən özümə ad verərsəm də kişi,
Baxmayın, dovşan kimi gah erkəyəm, gah da dişi.

Mən zəifəm, bu zəifliklə əgər zor gəlsələr,
Qalxaram yüksəkliyə, başımsa ərşə yüksələr.

Beynimə zərbə vurun, sərxoş filəm, dönsün qana,
Fil rahatlansa bir an, istər qaça Hindistana.

Mən qıfıl tək xaliyəm, birgözlüyəm, halqavaram,
Hümmət əhli məclisinin kandarında mən varam.

Üzlətin girdabına düşdü ağılla ruh əgər,
Biri yelkəndir, biri ləngər, mənə yoxdur xətər.

Atdı xaqan, basdırın torpaqda, qəm Qarunuyam,
Qərq edin, şirvanlılar, çayda ki, şer Fironuyam*.

Mən adunla heç zaman fəxr etmədim; Xaqaniyəm,
Ac və çılpaqlar səfində var yerim, xəlqaniyəm!

Ad verib "zülmətdəki Xaqani" ariflər mənə,
Safi adlandır ki, yeydir sufi xaqandan yenə.

2. YENƏ ZƏMANƏDƏN ŞİKAYƏT

Mən canu-dildən istərəm qaçmaq vəfanın qoynuna,
Fani dəyirmandır cahan, bağlanmayır canım ona!

İllət budur, zalım fələk tikmiş gözümü qırğıtək,
Qorxar, əlindən mən qaçım, harda ki, görsəm var bəla!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başım kiçiksə qırğıtək, qəlbim geniş ümman kimi,
Rədd eylərəm, tac versələr, əynim qəbul etməz qəba.

Əsmiş vəfa bağında yel, yarpaq tökübdür hər ağac,
Qaçmaqdır ancaq niyyətim; qalmışsa yarpaqsız vəfa.

Gah istərəm baş qurtaram yad sayəsindən bir kərə,
Gah özümdən sayətək səy eylərəm ayrılmağa.

Onda ki, mən biganətək tərk eylərəm öz sayəmi,
Çox istərəm bir aşina qəlbində can tapsın yuva.

Könlümdə ki, min dərd var, çox yaxşı bir həmdərdi var,
Könlün təbibidir o ki, bir dərdimə qılmaz dəva.

Göz ağrısı verməz aman, dərman Günəşdən istərəm,
İllət budur ki, incidər, dərmanım olsa tutiya.

Əqlim məni bəndə çəkir, təklif ilə etmiş əsir,
Bu bəndi qırmaq istərəm, qoy məskənim olsun hava!

Mey müşkə dönmüş, ətrini saçmış səbanın ağzına,
Mey ətrini duydum, odur, axtardığım olmuş səba.

Söylə xərabat əhlinə, atəşpərəstlik rəsmini?
Öyrənmişəm, qəsdim budur, həmkar olum mən onlara.

Atəşpərəstlik cilləsi haqqında məndən et sual,
Qırx sübh getdim onlara mən həmpiyalə olmağa.

İnsaf ilə sorsan əgər, onlar içər dərya qədər?
Mən qaçmağa cəhd eylərəm, gördüm nəhəngindən cəfa!

Atəşpərəst meyxanəsi olmuş səfalı bir kaha,
Mən istərəm ki, o kaha versin mənə zövqü-səfa!

Yeddi nəfər kəhf əhlinin mən səkkizinci üzvüyəm,
Amadəyəm onlar kimi hər möhnətə qatlaşmağa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Firon camı vermə gəl, zahidliyimdəndir məgər,
Firon əhlitək həzər etdim görəndə əjdəha.

Səndə o göhnə mey ki var, versən mənə, ver aşikar,
Pünhan versən, içmərəm, gizli içər əhli-riya!

Bir cam mey ver, nuş edim, ta duymayım "mən"lə "biz"i,
"Mən", "biz" olan yerdə mənə mümkün deyil durmaq daha!

Mən söz açarkən badədən, sən söz salırsan tövbədən,
Bəsdir, usandırdı məni şərh etdiyin bu macəra!

Sübh olcağın mey istərəm, heç bir dua zikr etmərəm,
Zahid əlində təsbehi görsəm, olar halım fəna.

Səcdə üçün meyxanədə mən salmışam səccadəmi,
Üz tutmaram, Kəbə evi bir səcdəgah adlansa da.

Süfrə açanlar "mərhəba!" söylər mənə hər bir zaman,
Mən süfrədən əl çəkmişəm, lazım deyildir "mərhəba".

Doldur, qədəhlər ver mənə, nuş eyləyim ki, istərəm,
Rədd eyləyim mən aşikar, onlar su versə, ya qida.

Yox, yox, mənə mey vermə sən, mey rəngi almış göz yaşım,
Qəsd etmişəm mən bu ucuz meydən kənara qaçmağa.

İndi gecə-gündüz ala bir it kimi olmuş quduz,
Qaçmaq gərəkdir canıma qəsd eyleyincə bu "ala".

Meyl etmərəm mey içməyə, bu rəsmdir ki, it qapan,
Yansa susuzluqdan belə, mümkün deyil baxsın suya!

Cəzb olmağı mən sevmərəm, canım dəmirdənsə əgər,
Qaçmaqdan özgə çarə yox, daşlar olub ahənrüba.

Dostumda ki, yoxdur vəfa, düşmən mənə etmiş sitəm,
Mən onları tərk etmişəm, təkcə pənahımdır xuda!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bir Məsihəm ki, salıb lərzə Yəhuda canıma,
Gah da bir hərzə rahibin qaçdım əlindən dağlara.

Çoxlu bəlalar çəkmişəm insan əlindən dəlirdə,
Zəhləm gedər, görsəm əgər çöldə bitib mərdümgiya.

Məlumdur hər bir kəsə, görsə əsa, qorxar ilan,
Söylər: əsa şəklindəyəm, amma, qənimimdir əsa*.

Arzu əlindən bir zaman aldım qapazlar indi də,
Çəkmiş əcəl şəmşirini, istər ki, çalsın boynuma!

Var bir məsəl ki, oğlağa qaçmağı təklif etdilər,
Qəssabı göstərdi, dedi: oğlaq hara, qaçmaq hara?

Məndə olan beş hissdən dördü yəqin sultan ikən,
Zəhləm damağımdan gedər, təkcə o hissimdir gəda.

Bil, mən haman təkdanəyəm, əkmiş, becərmişdir kamal,
Qaçmaq gərəkdir, getməsin ömrüm dəyirmanda zaya.

Mən bir suyam ki, daima altımda od şölə çəkər,
İyrənmişəm yerdən, buxar ollam havaya qalxmağa.

Gördüm, zamanın qiyməti heçdən də heç qəlp pul kimi,
Tərk eylədi könlüm onu, aludə olmaz qəlp pula.

Bəxtim qaradır, istərəm, ağ əlləri tərk eyləyim,
Ya ki, qaçam göy rəngli bu piri-fələk ağuşuna!

Qorxdum, məni əzsin fələk, indi pənahımdır mələk,
Balta elə qorxutdu ki, qaçdım, sığındım mən ota.

Bəxtim qaradır, həm də bu - gündüztək aydındır mənə,
Qaçdım gecə ağuşuna, ta gözdən itsin bu qara.

Çəkdin qılıncı, söylədin: - Vardırmı başından keçən?
Mən ki, sözümdən qaçmadım, başım qılıncına fəda!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sazda nəva çalsan mənə, bir, ya iki pərdə götür,
Üç pərdə alsan, bil, məni şəksiz, qaçırdar bu nəva!

Söhbət cığallıqdan gedər, onda ki, üç-dörd atmışam,
Təkdir xalını, kimdir mənə görsün, cığal adı rəva?

Bəzən ayaqüstü əgər, atsam qumar qəsdilə zər,
Qaçdım oyundan tez uzaq, heç baxmadım da arxama.

Duşdü xəyalın bəndinə, canım mənim oldu əsir,
Feryad qoparsam da əgər, yoxdur yetən fəryadıma.

Heç bilmirəm, hardan-hara mən bağlıyam bu varlığa,
Mənası yoxdur varlığın, sən mənzilimdirsə fəna.

Heçdir gözümdə kainat, hümmət mənə vermiş qanad,
Ömrum boyu cəhd etmişəm bu kainatdan uçmağa.

Dardır vücudumçun məkan, olmuş ikiüzlü zaman,
Hər iki dünya ömrümə qəsd etdi, çatdırdı sona.

Mən şənü şövkət bilmədim, Sidrə deyil son məqsədim
Mən "Sidrətül-muntəha"ya qaçmaqla verdim intəha.

Sultana baş əysəm əgər, əndamıma lərzə düşər,
Bir ah ilə yanmış cigər, bu aləmi çulğar oda.

Qaçmaq deyəndə təkcə mən bu yeddiqat yerdən deyil,
Həm də qaçırmışdır məni səkkiz şəhər, yəni səma.

Mən yeddi qat Yerdən qaçıb, doqquz fələkdə sakinəm
Sayə o yerdə tapmışam, söykənmişəm tək allaha.

Sanma, qaçıb tərk eyləsəm zülmət xərabatını mən,
Qane olam İsa kimi dördüncü göy eyvanına.

İdrisə oxşatma məni, "xovfun" atıb zindanını,
Qaçsam, qaçam bir əmr ilə səkkiz "rica" gülzarına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə sübh vardır, nə gecə vəhdət yolunda, bəs odur,
Mən qaçmağa amədəyəm gündüz-gecədən daima.

İzlər dəyirmançı məni xaricdə bir bayquş kimi,
Qalmış əlacım ici, qaçam yeddi dəyirman damına.

Dostum, boqa aşiqlərə mütləq fənadan yaxşıdır,
Gör mən necə bir aşiqəm, olmuş işim tərki-bəqa.

Məqsəd əgər varlıqdadır, mən yoxluğu etdim qəbul,
Qaçdım özümdən ki, olam varlıq büsatından cüda.

Mütləq o varlıq sayəsi altında yox olsam əgər,
Axtardığım yoxluq olar onda nəsibim mütləqa!

Atsam əgər bu dar evi, atımı möhkəm nallaram,
Nal salmasın yolda gərək çapsam onu mən dördnala.

Gördüm: fələk ətrafını tutmuş zinakarlar bütün,
Qaçmaqda bildim çarəni, dünya olub darüz-zina.

Tüğyan qoparmışdır vəba, cəmdəklə dolmuşdur cahan,
Mən qaçmasam, bir gün tutar mütləq boğazımdan vəba!

Qəlbimdə qopmuş vəlvələ, bir mətləbim yetmiş ələ,
Mən istərəm qaçmaq elə bir yurda ki, vardır riza.

Vardı gözüm əllərdə ki, bir kəs əta etsin mənə,
İndi deyil lazım mənə, olsa iki aləm əta!

Olmuş kişi heyzi tamah, mən başını kəsdim onun,
Əl açmaram heç bir kəsə, adlansa da sahib-səxa!

Dovşan qadın heyzi görər, bu aləmə məlumdur,
Mənsə pələngəm, nisbətim çatmaz yəqin ki, dovşana?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3. PAXILLARI MƏZƏMMƏT

Sırf yalandır qəlbi əyri kəslərin dil əzbəri,
Fitnə əhli onların olmuş hər işdə rəhbəri.

Şeytan övladı olub, girmişlər insan cildinə,
Xəlqə olmuşlar ləkə, bundan utanmaz üzləri.

Bilməz özləri belə kimdir atası onların,
Bu cəhətdən Adəmə, İsaya var nisbətləri.

Bu cahanda hər biri röhbanü rəhbər olsa da,
Yoxdur əslində nə din, nə doğru yolla işləri.

İl quraqlıq keçsə, adətdir, pətəklər boş qalar,
Kəlləsi boş bu həriflər yelbeyindir, sərsəri.

Canları torpaq ağırlıqda, yelölçən başları,
Oxşayır daşsız tərazuyə, qurublar məhşəri.

Bir quru barsız ağacdırlar o Nuhun qovmutək,
Bir qarının təndirinə bağlanıb ümmidləri*.

Həm qoca, həm gəncləri iblisin ardınca gedər,
Bunların Əhməd deyil, iblis olub peyğəmbəri.

Məscid olmuş onlara sanki uşaqtək bir beşik,
Yəni, həm yatmaq yeri, həm də rahatlanmaq yeri.

Lövhüdə, mənzildə olmuşlar meyidlər ruhutək,
Üzdə insan, cismdə xatırladarlar divləri.

Onların qəlbi sönüb dostluqlarının şəmitək,
Mütləqa bədnam olub arvadlarıtək dinləri.

Var yeri, mən onları göhnə həvəngə oxşadam,
Başları yoxdur, həmişə zərbə almış dibləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göy çadır altında bu şişəboğazlar daima,
Bir sürahidir, salınmış kəndirə gərdənləri.

Bir barama qurdutək acgözdür onlar, lovqarın,
Bal arısıtək, odur, bitmir yenə istəkləri.

Mərdi alçaldıb, tutar namərdi dövrantək uca,
Onların dövran kimi yoxdur vəfada əlləri.

Cütləşib halqa-qıfıltək, oldular erkək-dişi,
Xeyrə yol bağlandı, doğdu, bəslədi onlar şəri.

Lovğalıqla özlərindən dəm vurarlar daima,
Büsbütün əşan boş, naxış olar dəvətləri.

Onların nitqi suyunda bəslənilməz bir fıdan,
Qəlbi qardan da soyuq əşxasdır natiqləri.

Ummayın tər şerlər doğsun quru bir təbdən,
Kim deyər: gördüm şoranlıqda bitən nilufəri?

Qoysalar da şerimə qarşı cürük hədyanları,
Bu-Türabın qarşısında Bu-Ləhəbin yox yeri*.

Çərxin altında uzaqdan baxsalar dörd bir yana,
Aftafanı afitab kimi görər kor gözləri.

Sərsəm olmuşlar bu eşşəklər cəhalətdən, fəqət,
Gəlməz İsa mətbəxindən bir ulaqtək yemləri.

Özlərindən çox aşağıda verirlər yer mənə,
Neftdir onlar, mən gülabam, doğrudur təbirləri.

Sussalar da mən olan yerdə necə dilsiz balıq,
Daldada əfi ilantək var zəhərli dilləri.

Mədənindən təbimin altun saçarkən aləmə,
Dəhşətə düşmüş civətək daşlanar xatirləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Canları tutmuş üşütmə, titrəyərlər qibtədən,
Kürk edib də, üstünə çəkmiş adını hər biri.

Onlara sanki dilimdən asiman vermiş cavab,
"Hirsinizdən partlayın!" - Mən də dedim bu sözləri.

Dil qılıncı onların bir tük də kəsməzdi belə,
Sözlərim oldu bütöv, onlar itiltdi xəncəri.

Cəbrayıl könlüm xəndənginə özü vermiş qanad,
Ehtiyacım yox, hərifdən istəyəm quzğun pəri*.

Onların qəlbi kəlamım meyvəsindən barlanar,
Qarğalar əncir yeyər, məhrum edər bülbülləri.

Bir çörək almaq üçündür - hey döyərlər qapını,
Bir dəyirman üstə getməzlər ki, yoxdur dənləri.

Sümsünərlər şir dalınca tülkütək bunlar mənim,
Bəlkə ceyran dümsüyündən lay ola nemətləri.

Şənimə Bijən kimi dar bir quyu olmuş məkan,
Sübh vaxtı yandırar ahım odu düşmənləri.

Rüstəməm, əldə kamanım, durmuşam mən pusquda,
Qəflətə dalmış nə xoş Əfrasiyabın gözləri.

Qoy haray salsınlar onlar, qorxma, Xaqani, sənə,
Su olub, od olsalar da, çatmaz əsla gücləri.

Ver bəzək, hör zülfünü məna əliylə şerinin,
Çatlasın bağrı rəqibin, görcəyin o dilbəri.

Ey cəhənnəm maliki! Sən onlara vermə əzab!
Hər sözüm oddur mənim, olsa əgər qeyrətləri.

Çarmıxa yeddi cəhənnəmdə çəkirsən, çəkmə qəm,
Mən varamsa, arizu eylər cəhənnəm özləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4. XORASAN ARZUSU

Nə səbəb var ki, Xorasanə məni qoymurlar?
Bülbüləm, bağı-gülüstanə məni qoymurlar.

Yox Xorasan bağında mənə oxşar bir quş,
Bəs nədəndir ki, o bustanə məni qoymurlar?

Mən Əraqın bazarında kimə inci sataram?
Aparım inci Xorasanə, məni qoymurlar.

Yoxsa ki, abi-həyat çeşməsi Məşhəddən axar?
Deyilən Xızr, o samanə məni qoymurlar.

Məgər İskəndərəm, olsun mənə zülmət - Əraq?
Çatmağa çeşmeyi-heyvanə məni qoymurlar.

Məgər İsayəm, olub yer mənə dördüncü fələk,
Səkkizinci göyə, rizvanə məni qoymurlar.

Gülə, reyhanə ətir vermədəyəm İsatək,
Vurmağa əl gülü-reyhanə məni qoymurlar.

Nə günah eyləmişəm ki, susuzumdan yanıram,
Vurmağa su ləbi-ətşanə məni qoymurlar.

Mən məgər murdaram, o, pak, müqəddəs sayılır,
Murdar əl vurmağa "Quran"ə məni qoymurlar.

Mən məgər Əbrəhənin mindiyi divanə filəm,
Getməyə Kəbəyi-dəyyanə məni qoymurlar*.

Şübhə yoxdur ki, Xorasan səmadır, oraya,
Oxşadıb da qoca şeytanə məni, qoymurlar.

Mən bütün yol uzunu şad gəlirdim Reyədək,
Niyə bəs çatmağa cananə məni qoymurlar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rey dəyirmansa, Xorasandır İrəm eyvanı,
Mən dəyirmandayam, eyvanə məni qoymurlar.

Bir öküztək bu dəyirmanda salıb boynuma ip,
Atmağa ağzıma yağdanə məni qoymurlar...*

Mənəm o nütfə ki, üç ay sora qanə dönərəm,
Bətndə dönməyə insanə məni qoymurlar.

Yox Xorasanda mənimtək səhərin mujdəcisi,
Bir xoruztək səhər əfqanə məni qoymurlar.

Mən əzəl sübhüyəm, açsam dodaq, aləm gülocək,
Həsrətəm bir ləbi-xəndanə, məni qoymurlar.

Bir güləm ki, açaram qışda, məni şaxta döyər,
Nə edim çatmağa neysanə məni qoymurlar.

Qəlbimin dərdinə dərman Xorasan saydır,
Başçılar çatmağa dərmanə məni qoymurlar.

Mən bu dəryadə məgər həsrət ilə batmalıyam?
İncidirlər, o kühüstanə məni qoymurlar.

Nəyə lazım, düşəm aslan izinə dovşantək,
Bir adam yoxsa, neystanə məni qoymurlar.

Rey cəhənnəmdir, əzabına dözüb, istəyirəm,
Yol tapım gizli Xorasanə, məni qoymurlar.

Mən bir ulduz kimi gahgah ki, yolumdan azıram,
Müstəqimən rəhi-imkanə məni qoymurlar.

Mərdlərin göz yaşıtək göz kasasında qalıram,
Axmağa sel kimi müjganə məni qoymurlar.

Müştəritək yerim olmuş ikiüzlü Cövza,
Qaldım avarə, Sərətanə məni qoymurlar*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şerimin, müşk kimi ətri Xorasanə dolub,
Getməsəm, müşk dönər qanə, məni qoymurlar.

Yüz qədəm aşmış o meydanı kosum, hərçənd ki,
Əldə kəs, girməyə meydanə məni qoymurlar.

Oturub Rey qalasında, edərəm ömrü hədər,
Çarə yox, Kəbəyi-imanə məni qoymurlar.

Pak Rza qəbrini görmək, görünür, tüğyandır,
Bağlayıb yolları, tüğyanə məni qoymurlar.

Yoxsa, Bəstamə gedənlər hamısı yurdsuz olur?*
Dönməyə bisərü samanə məni qoymurlar.

Əql ilə rəy mənim qəlbimə Mizan olmuş,
Peyk olam Əqrəbi-üsyanə, məni qoymurlar*.

Əql ilə qəlb səadət yolunun qasididir,
Düşməyə vadiyi-xəzlanə məni qoymurlar*.

Var yəqinim, bu iki şir mənə yardım edib,
Şir ikən dönməyə səgbanə məni qoymurlar.

Əqlü ismət mənə vermişsə fərağət tacı,
Girməyə mənsəbi-divanə məni qoymurlar.

Mənəm ol Gavə ki, hümmətlə Firidunbəxtəm,
Əl vuram kürəyə, zindanə məni qoymurlar.

Mən Xorasan həvəsilə vətəni tərk etdim,
İstərəm dönməyə Şirvanə, məni qoymurlar.

Həm vətən ayrısıyam, həm də Xorasandan uzaq,
Alaraq dövrəmi, bir yanə məni qoymurlar.

Mum kimi şəhddən ayrılmışam, indi nə edim,
Qovuşam möhri-Süleymanə, məni qoymurlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fitnə neylər mənə, din ilə bilik dünyada,
Olmağa seyd o fəttanə, məni qoymurlar.

Məni can dərdi, quyu qorxusu, qardaş xətəri,
Döndərib Yusifi-Kənanə, məni qoymurlar.

Nə quyu qorxusu billəm, nə də can təhlükəsi,
Hazıram qəsd qılam canə, məni qoymurlar.

Hergiləm, düşmənəm o tac ilə taxta ki, bu gün,
Dönməyə əsl müsəlmanə məni qoymurlar.

Məni bir kəs kimi meydanə salıb düşmənlər,
Dişlərin qırmağa mərdanə məni qoymurlar.

Mən dənizdən göyə qalxan o buxaram ki, bu gün,
Yenidən yağmağa ümmanə məni qoymurlar.

Mənəm o güclü qığılcım ki, çaxıb şimşəktək.
Dönməyə əxtəri-rəxşanə məni qoymurlar.

Qoymayırlarsa, Xorasanə, nə eybi, olaram,
Təbrizin şəminə pərvanə, məni qoymurlar.

Bu iki yerdə mənim məktəbü dükkanım var,
Getməyə məktəbü dükkanə məni qoymurlar.

Vermişəm var-yoxumu gərci bu qövmə rüşvət,
Göz dikiblər təni-üryanə, məni qoymurlar.

Bu tüfeyliləri mən yemləməyə məcburam,
Yoxsa onlar yığılıb kanə məni qoymurlar.

5.

Zəmanədə axtarma rahatlıqdan bir əsər,
Umma ki, dünya sənin dərdinə dərman edər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qem odunda yan, kül ol, yaddan istəmə məlhəm,
Öz dərdinə özun qal, kimsəni bilmə həmdəm.

Çərxin qumar evində hərif tapılmaz sənə,
Dəhrin karvansarası düşərgə olmaz sənə.

Nəhəng udsa da səni, haray salma, səbr elə,
Girdabda boğulsan da, əl uzatma sahilə.

Vəfa adlanan sifət zamanədə tapılmaz,
Gözləmə ki, o edər səni bəladan xilas.

İçmə, qədəh tutarsa qarşına müflis fələk,
Süfrəsindən bu xəsis dünyanın alma çörək.

Yanıb, ümid xərmənin külə dönsə də əgər,
Göz dikmə ki, ruzigar zərərini ödəyər.

Razı olma dünyada hamin olsun padişah,
Suda boğul, aparma naqqa balığa pənah.

Vermə dünyaya könlün - o qiymətli gövhəri,
Çünki bu dünya deyil o gövhərin dəyəri.

İlahiyyat ərşinə səni üzlət çatdırar*,
Bundan yaxşı nərdivan o məqama harda var?

İnsanlara dikmə göz, hümmətinə arxalan,
Göz çək novdan suyundan, sənə layiqdir ümman.

Şadlıq xəzinəsinə ağalıqla yiyələn,
Ruzi verən mələyə heç vaxt ağız açma sən.

Qənaətin vəsfində dörd kitab oxumusan,
Tamahkarlıq dərsinə başlama əlifbadan.

Varlanmağa çalışma, yoxsulluğu et süar,
Yelqovana baş əymə, külək sənə at olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könlünün boğazına şərab tökmə kuzətək,
Sürahitək yetənə xidmət etməkdən əl çək!

Acından ölsən belə, xəsislərin önündə,
On dilli sünbül kimi, gedib, əyilmə gündə.

Sümük qapar pərilər insanların əlindən,
Mələk kimi qoxu çək, sümüyə göz dikmə sən!

Qoy ürəyin ağrısın, qızdırmadan cana gəl,
Gülqənd üçün, nar üçün ona, buna açma əl!

Qızdırmanı kəsməyə qarğı lazımsa əgər,
Kəs tamah barmağını, - qarğını əvəz edər.

Kamalın, əqlin ki, var, nə zor axtar, nə zər gəz!
Cəhrəçinin ipliyi bafta üçün gərəkməz.

Ehtiyacın darğası tabe ikən Qubada,
Mülkündən qorxma, demə: Tuğan gəlsin imdada!

Dostlara bel bağlama, tək yaşa, azad yaşa!
Həmdəm axtarıb, açma ağız qohum-qardaşa.

Yusifin əhvalını hər zaman yad edərək,
Aciz qalsan, istəmə qardaşlarından kömək.

Zaman sərgərdan etmiş səni, məkan-bağrı qan,
Umma fərəh, rahatlıq nə məkan, nə zamandan.

Dörd yol ayrıcı dünya vəhşətlə dolmuş daha,
Ünsiyyət xəlvətini axtar, sığın Allaha.

Bu ərşin quşu səndən əgər tələb etsə dən,
O dəni topla ancaq göylərin sünbülündən.

Ey Xaqani, ümidin ipini kəsmiş zaman,
Ömr ipini kəssə də, aman istəmə ondan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6.

Afiyətdən nişan tapmayıram,
Dərd-qəmdən aman tapmayıram.

Uçuram, quş kimi cahanı gəzib,
Özümə aşiyan tapmayıram.

Hər gecə göz yaşı axır üzümə,
Yüz baharü xəzan tapmayıram.

Bəxtim itmiş, dalınca hey gəzirəm,
Uzun illər, nişan tapmayıram.

Mənə bəxti fələk veribsə, neçin,
Ona bir pasiban tapmayıram?

Fələyi mən yerə vurardım, heyf,
Göylərə nərdivan tapmayıram.

Hünərim var, səadət axtarıram,
Onları həmməkan tapmayıram.

Su ilə odmudur məgər onlar,
Bəs nədən mehriban tapmayıram?

Ömr sərmayəsi mənə gətirər,
Nə səbəbdən ziyan? Tapmayıram.

Gəzirəm bir qonaq ki, süfrəsinə,
Ola layiq bu can, tapmayıram.

Təbimin doğduğu bu körpələrə,
Gəzirəm, bir həyan tapmayıram.

Tamahım qarğa, hümmətimdir hüma,
Sümük istər, aman, tapmayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qorumaqçün bu canı divlərdən,
Nə dua, nə "Quran" tapmayıram.

Yeyirəm şəm kimi özüm özümü,
Çörəyə yox güman, tapmayıram.

Vəhşixanə olan bu aləmdə,
Bir nəfər dost, inan, tapmayıram.

Doludur bu cahan adamla, fəqət,
Dil bilən, hal duyan tapmayıram.

Dövrəmi aldı kinli düşmənlər,
Halıma bir yanan tapmayıram.

Düşmənə mən gərək pənah aparım,
Dostları hər zaman tapmayıram.

Hamı Firondur, hamı canavar,
Bir əsa, bir çoban tapmayıram.

Aləmin şahına gərək sığınam,
Başqa ümmid, güman? Tapmayıram.

Bir cahan arzular ki, Xaqani,
Ola rahət bir an, tapmayıram.

7. ÇÖRƏK

Rüsvay etmərəm özümü bir daha, çörək!
Öz ruhuma odu edərəm mən qida, çörək!

Nakəsdən almaram çörək, öz qanımı yeyib,
Batsam qana, sənə demərəm "aşina", çörək!

Mən bir pələng ikən it olum, bir də it kimi,
Qaçsam çörək dalınca bu gündən sora, çörək!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həsrət qalım Günəş üzünə, Ay camalına,
Baxsam sənin dalınca, gözüm kor ola, çörək!

Gözdən civə alıb, tökərəm mən qulağıma,
Namərd süfrə açsa, desə "əssəla" çörək!*

Mən ağ çörək alınca qara qəlbli kimsədən,
Çıxsın canım, bu varlığım olsun fəna, çörək!

Qartək çörəkləri, buz olur amma sözləri,
Mən bir xəlifəyəm, məni şanma gəda, çörək!

Yaltaqlara çörək verilir, mən bacarmaram,
Qul olmağı səninçün o alçaqlara, çörək!

Düşsün başım aşağı dəyirman suyu kimi,
Açsam ağız, "çörək" desəm, ey bivəfa çörək!

Qoy olmasın çörək, mənə bir hikmət əhlitək,
Vardır qida cahanda çörəkdən səva, çörək!

Bir də "çörək" desəm, dilimi doğrayın mənim,
Abrım töküldü, etmədi bir kəs əta çörək.

Ahu kimi düşüb çölə, daim ot otlaram,
Qoy verməsin bu kənddə mənə kəndxuda çörək.

Şahdan çörək uman dilim olsun dilim-dilim,
Verdi çörək yerində mənə yüz cəfa çörək.

Cənnətdən ayrı saldısa bir buğda Adəmi,
Əzmü iradədən məni qıldı cüda çörək.

Adəm behişti tərk elədi, mənsə yurdumu,
Buğda ona qənim, mənə də sən bəla, çörək!

Ya rəb, mənimlə Adəmin al intiqamını,
Məhv eylə buğdanı, çalış alsın cəza çörək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Namərdlərin əlilə, ilahi, nə vaxtadək,
Qəlbində mərdlərin açacaqdır yara çörək?

Verməz fələk çörək mənə, aya, nədir səbəb,
Namərd fələk məgər mənə görməz rəva çörək?

Ruzi yazan mələk də baxıb qarə bəxtimə,
Pozmuş mənim adımı ki, etməz əta çörək.

Xaqani, bax, tamahla çörək vermiş əl-ələ,
Əz onları, edincə səni mübtəla çörək.

Namərdlərə açınca ağız, haqqa üz çevir,
Şahlardan istəmə, sənə versin xuda çörək!

8.

İndi ki, yer üzündə insafdan yoxdur nişan,
Könül, sən də vaxt ikən, hazırlaş, göç dünyadan.

Ölüm darvazasının qabağında çadır qur,
Bacü xəracı verib, gözləmə heç bir aman.

Dünya bağında yaza qalmayıbdır etibar,
Az yaşayır burada yarpaq, olsa da cavan.

İnləmə bu cahanda eyşü işrət naminə,
Salma həbsə ruhunu rahatlanmaq üçün can.

Yaraşmaz o quşa ki, məqamı var ərşdə,
Yerdə, mətbəx bacası üstə qura aşiyan.

Uşaqsan, bu yer əhli səni bahar zəni edir,
Bax, tamaşa üçündür, bil ki, vəfasız cahan.

Qəlb dərmanı istəmə sən arzu təbibindən,
Sümüyündən tabaşir hazırlayar o, inan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uyma dünya rənginə, onda yoxdur cavanl;q,
Qocanı heç edərmi ənliklə kirşan cavan?

Acı sudur, üstündə buzdan körpü salınmış,
O, zərli bir səqfdir, ay işığı nərdivan.

Abı çadır gölgəlik olarkən başın üstə,
Günəş necə yol tapar qəlbinə qaranlıqdan?

De, dövrün sitəmindən qurtara bilərmisən,
Haçan xoşluq bəxş edər sənə mavi asiman?

Yoxdur yaşıl yelkənin görən yaş olduğunu,
Çox gəmilər batırmış girdabında bu ümman.

Ey həkim! Nə anladın fələyin gərdişindən,
Oynayırsan od ilə, nə təmənnan var oddan?

Rəngi od üfləməkdən qızaran atəşpərəst,
Qara üzlə gələcək məhşərə, cismi üryan.

Bu fələk bir təştdir, Yer onda bir yumurta,
Toşt-yumurta elmini bilmirsən, öyrən ondan!

Yoxsulluq üz verdikdə, sufilərə yaxınlaş,
Yoxsulluqda şaddırlar, varlanarkən pərişan.

Get, onlardan xəbər tut, yoxsulluq gör nə şeydir,
Əsərini müəllif ən yaxşı edər bəyan.

Yoxsulluqda taparsan əbədilik nəqşini,
Ondan başqa nə varsa, tez gedəcək aradan.

Cahü-calal olurkən qəlbində iki qiblə,
Yoxsulluğun verməli hələ iki imtahan.

Qara donlu yoxsulluq batırarkən başını,
Ağzına torpaq atar ağ geyimli varlanan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoşdur guşənişinlik, zorla zərə uyma gəl,
Qəm yemə dövlət üçün, yoxsulluqdur şərəf, şan.

Şahlıq tacın var ikən, nə lazım həsir papaq?
Sənin Barbəd sazın var, qoy tütək çalsın çoban.

Cahanda bir kimsədə yox insanlıq gövhəri,
Əgər varsa, de, gəlsin, əslindən versin nişan.

Harda bir əhl adam var, alçaq da onunladır,
Bəli, qarışmış artıq mal ətilə zəfəran.

Saf qızıl yer tapıbdır qatırın palanında,
Kafur dənəsi artıq secilməyir darıdan.

Püxtələşdimi insan, soltandır insü-çinə,
Hələ ki, püxtə deyil, ya vəhşidir, ya şeytan.

Nə qədər arpa ciydir, eşşəyə yemdir, fəqət,
Bişdikdə, şərbət kimi olar xəstəyə dərman.

Ruzigar ətəyindən kəramət gözləmə, gəl,
Ey Xaqani, əl götür mövhumi xülyalardan.

Tuğan fərmanlarına, təxtü tacına baxma,
Yoxsulluq yazısıdır çalmandakı bu fərman.

Bir qitəndə dediyin o hikməti xatırla:
"Çörəkçin alçalmaram ölsəm belə acımdan".

Sənət tacidansan, odur, yerin başdadır,
Başqaları qapının ağzında salmış məkan.

İraq əhli sözünün təsirindən tərləmiş,
Çatmış şöhrətə, xeyrə adınla yurdun Şirvan.

Ona görə xoş gəlir şerin bu vəhşi yerdə,
Torpaq peyinli olsa, yaxşı bar verər bostan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə də atan, anan xeyirxah övlad kimi,
Çağırmadadır səni, boş qalmasın xaniman.

Tərpən, nədən yer kimi tərpənməzsən belə sən?
Tərpən ki, dünya bir gün uçub, olacaq viran.

Qəlbin həsrətlə qaynar, tıxanıbdır boğazın,
Pivə kuzəsi etmiş səni bir neçə nadan.

Qovm da müxtlifdir qovmun hərfləritək,
Üzüağ, qəlbiqara eyləmiş onu dövran.

Siçan kimi yer qazan, pişiktək hiyləgərdir,
Mozalan kimi sancan, hörümçəktək tor quran.

Dinə inanmasan da, başçısan dindarlara,
Atəşpərəst gahintək dəvət yerindir Damğan.

Məhəmməd Əbu-Cəhli xəcil etdiyi kimi*,
Onları xəcil etsin səndəki şirin zəban.

İlahi, Xaqaninin qəlbi yaman sınıqdır,
Feyzinlə dərdlərinə şəfa ver, ey yaradan!

Əgər qəbul etməyir hamı onu burada,
Sən qəbul et orada, hamı olsun peşiman!

9

Nə vara, dövlətə salaram nəzər,
Nə də şan-şövkətdən varımdır əsər.

Yad edə bilərəm nə ötən günü,
Nə də gələcəkdən tutaram xəbər.

Payızda gül açan ağac kimiyəm,
Nə yarpağım olar, nə verrəm bəhər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə parıldayan böcəyəm, amma,
Gündüz nə işıq var məndə, nə hünər.

Kəsəu qabağını ürəklə candır,
Yoxsa yerim olar ən uca göylər.

Yox, yox, bəd başlayıb mənimlə fələk,
Qorxuram ki, olsun bundan da betər.

Fələk bir şüşədir – divlərlə dolu,
Mənim axtardığım bəşərdir, bəşər.

Buzovpərəstlərin əlindən qaçıb,
Öküzpərəstlərlə eylərəm səfər.

Yağır bəla oxu hər bir tərəfdən,
Guşəyə çəkilmək məni hifz edər.

Ömrüm gecə-gündüz keçir yuxuda,
Gecələr gözümə yuxu az gedər.

Korların günüdür qəm gecələrim,
Üzümə açılmaz işıqlı səhər.

Getmiş uzunqulaq yuxusuna baxt,
Onun arxasınca gedərəm məgər?

Su kimi köpüklə zirehlənsəm də,
Ümidim yoxdur ki, qazanam zəfər.

Zirehtək bədənim göz-göz olsa da,
Gözum yox aləmə yetirəm nəzər.

Yayda olan kimi, mənim qışda da,
Yanır öz ahımın odundan ciyər.

Varsa da can evim, açılmış süfrəm,
Yoxdur bu süfrədə dadlı xörəklər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tutaram miniyi kirayə ilə,
Nə minik varımdır, nə də qul, nökər.

Nə atım, yəhərinı, nə silahım var,
Nə də üzəngimi tutur bir nəfər.

Canım saman çöpü, səbrim bir arpa,
Var arpa-samanım ancaq bu qədər.

Fələk - çadırımdır, torpaq - döşəyim,
Göz yaşı - içdiyim sudur, müxtəsər.

Təbrizdən Əbhərə, oradan Reyə,
Səfərə çıxaram, olmasa xətər.

Təbriz taleyindən uzaqdır Əqrəb,
Deməli, görmərəm Əqrəbdən zərər.

Bürcis ulduzutək hutdan gəlmişəm,
Sərətan bürcüdür duracağım yer*.

Doğrudur, dənizə bənzəyir İraq,
İnanmıram tapam orada gövhər.

Dəniz kənarında sədəf kimi mən,
Susuz can versəm də, tapılmaz sipər.

Onun sədəfində gözüm yox, bilin,
Lakin, nəhəngindən edirəm həzər.

Guşənişinliklə azadlıq kimi,
Nemətim var ikən, dürr nəyə dəyər?

Özgə qapısına inci səpmərəm,
Yoxdur söz incimə əvəz, bərabər.

Papağım küləkdən, başım oddandır,
Tacidar dalınca düşmərəm hədər.

Döymərəm şahların qapısını mən,
Nə də bir qapıya başım əyilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

10. ŞİKAYƏT

Qəlbimin bir aşinasın görmürəm,
Dərdimin əsla dəvasın görmürəm.

Gər uçuqlarsa dodağın, təb gedər,
Dərdimə dərdin qidasın görmürəm.

Qəm çəkim, qəmdən qaçımmı? Qəmlərin,
Qəmdən özgə mən şəfasın görmürəm.

Dünyada bu qəlbimə həmdəm olan,
Dostluğun heç bir binasın görmürəm.

Səhv qıldım, dost dedim insanlara,
Bir nəfər də biriyasın görmürəm.

İndi bu "dostlar" ki, almış dövrəmi,
Yox elə gün ki, cəfasın görmürəm.

Çatladı bağrım, elə yer yox - gedim,
Şad olum ki, dost ədasın görmürəm.

Etmişəm Simurğtək Qafı məkan,
Qaneyəm Qafa, ətasın görmürəm.

Uçsun abı körpüsü çərxin ki, mən,
Arxının abi-rizasın görmürəm.

Qəlbdə sürmə həvəngi əks edir,
Fələyin özgə ədasın görmürəm.

Bil, təvəkkülçün kilid qəlbimdədir,
Qəlbdən başqa sərasın görmürəm.

Təngdir sinə təvəkkülçün, fəqət,
Mən onun daxil fəzasın görmürəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zahirən sürmə döyən var bir həvəng,
Batinən sürmə qarasın görmürəm.

Bir pətəkdir, bil, təvəkkül xanəsi,
Ağzı dardır, xoş ğəzasın görmürəm.

Qış ayında xurmayam, şaxta çəkib,
Mən yazın zövqü səfasın görmürəm.

Qəm ilantək daxilimdə qıvrılıb,
Var amanımsa, nəvasın görmürəm.

Kimsə zəhrimdən zərər görməz mənim,
Kimsənin qəhrin, bəlasın görmürəm.

Qəlbimi mənzil edib yoxsulluğa,
Səbrdən yaxşı xilasın görmürəm.

Fəqr xoşdur, çünki, dörd mənzildə mən,
Könlümün isti yuvasın görmürəm.

Ləngər atmaqçın da, qurşundan savay,
Bu yerin ahənrübasın görmürəm.

Pis təbiətli olan insanların,
Mən çırağında ziyasın görmürəm.

Heç kərəm əhli satarmı hümmətin?
Böylə bir hümmət bəhasın görmürəm.

Qalmışıq Tai, Yəminidən geri,
Onların bizdə səxasın görmürəm!*

Çün, geri qalmış bu tayfa içrə mən,
Bir ağıllı rəhnümasın görmürəm.

Qalmamış onlardan indi bir kişi,
Kəhkəşan içrə sühasın görmürəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi ünsürlər məhəbbət doğmayır,
Dörd ananın mərd balasın görmürəm*.

Gözləmə, Xaqani, heç kəsdən vəfa,
Mən bu dövranın vəfasın görmürəm.

11.

Bizə ürək yandıranın od yağır dodağından,
Kim od görüb ürəkləri üzərliktək yandıran?

Günəş hər vaxt saralanda bayram olur mənimçün.
Çunki yarın hilal kimi olur qənd ləbi əyan.

Qoynu lətif ipək kimi, qəlbi palaz parçası,
Mənsə hicran palazında, istərəm onu hər an.

Göz yaşımla döndərirəm üzümü bir duzlağa,
Çünki, gözüm yığır duzu yar güləndə durmadan.

O ürəyi rəhmsizin xam işləri üzündən,
Sinəm içrə həlqələnir odlu ahım hər zaman.

Soyuq yeldən, istərəm, o od halqası soyusun,
Ta ki, qızıl nal düzəldim göhləninə mən asan.

Qulağında olan sırğa nə günah işləmiş ki,
Başı üstə asılmışdır qara saçı altından?!

Nəsihəti qulağımın həlqəsidir, nə fayda?
Qulağının halqasısa öyüd eşitməz ondan.

Xaqanini satın almış, onun halal quludur,
Bəyənmirsə, heçə satsın, nə çox müftə qul alan.

O, fələkdən qorxmur əsla, dövranından çəkinmir,
Onu əsir edə bilmir cəlalıyla asiman!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göy çəməndə həyat gəzmir, çünki, onun qoyunu,
Qəssab olub, üzür xalqın boğazını, tökür qan.

O, qönçətək Örtülüdür, söyüd kimi dərdlidir,
Sərv kimi əyilməzdir güclü qəlbi qururdan.

O, Xızrdır, döndərər ev-eşiyini üzlətə,
Həm də o, öz şöhrətinə görə olmuş Xızırxan.

Bu hümmətlə yaxınlaşdı bir yaramaz, naçinsə,
Onun əzab-əziyyəti odundan oldu büryan.

İt milçəyi ağ qartalla bir yuvaya sığındı,
Qara torpaq aşdı onun taleyinin başından.

Simurğ ikən, qarğa kimi neçin cəmdək yedi o,
Niyə uca pərvazını verdi əldən o tərlan?

Düşük uşaq nəfəsimdən mənim həyat tapdısa,
Əl tapınca, özü oldu hayatıma od vuran.

Bəllidir ki, günəş suyu buxar edib qaldırar,
Gör, su necə soyuqdur ki, Günəş olmuş natəvan.

Qoy təbindən doğulan söz olsun onun balası,
Belə övlad olar ancaq istedadlı atadan.

Bu süd kimi, şərab kimi sözü paxıl görəndə,
Sirkə kimi coşar, sözü olar boş hərzə-hədyan.

Rəngcə birdir süsən ilə sarımsağın yarpağı,
Batil olar sarımsağın rəngi öz qoxusundan.

Mənim sehrim düşsə əgər o Zərdüştün oduna,
Zərdüşt odu oxuyacaq onu su kimi rəvan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

12.

Nuş edərəm fələk qəmin ağlamaqdan, yazıq mənə!
Çərxi-fələk kəmənduinə bağlı qalan, yazıq mənə!

Odlu günəş doğar, sərin sübh nəsimini qovar,
Könlüm alovlanar, kədər verməz aman, yazıq mənə!

Qıldı fələk mənə cəfa, könlümü qırdı körpütək,
Mən bu su rəngli körpünü qırram haçan? Yazıq mənə!

Qəlbdən arzu rişəsin qəm beli ilə kəsmişəm,
Can yoluma əcəl töküb sanki tikan, yazıq mənə!

Yoxluğun arxasınca mən qaçmadayam külək kimi,
Mən yoxam, amma, hər vücud məndən əyan, yazıq mənə!

Yel necə göynəyin edər tozdan, haman o yel mənəm,
Göynəyim oldu varlığa təkcə nişan, yazıq mənə!

Ağzıma hər qədər gələr abi-həyat təbdən,
Ağzıma od salar yenə ahü fəğan, yazıq mənə!

Yanğımı əql çeşməsi söndürüb, indi qorxudan,
Əql bulağına atım daş bu zaman? Yazıq mənə!

Süfrəmin artığın yeyər Cəm kimilər, rəvamıdır,
Mənsə olum qarışqatək rizə yığan? Yazıq mənə!

Kəbədəki qara daşı öpmüşəm, indi mən necə,
Nakəsin ağ əlin öpüm? Çıxmadı can, yazıq mənə!

Tacım ilə Günəş kimi torpağı nüra çulğaram,
Lüt gəzərəm özüm, batar nura cahan, yazıq mənə!

Dostlarımın həyatına mən süpərəm, əcəb budur,
Düşmən ölərsə, həm mənəm mərsiyəxan, yazıq mənə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Harda qalıb qılınc, kəsə başımı, ta olam xilas,
Dərdli ciyər qabarlanıb, oldu suhan, yazıq mənə!

Öz vətənimdə bir güləm, dövrəmi çulğamış tikan,
Qürbətə düşdüm, odlanıb, yandı tikan, yazıq mənə!

Gəlsə kərəm sözü dilə, gözlərim ağlayar mənim,
Cismimi qanda qərq edər əşki-rəvan, yazıq mənə!

Ağladı qan kərəm gözü, gör dedi qarə bəxtimi,
Yasəmənəm, qırıb, tökür badi-xəzan, yazıq mənə!

İnlədi bu cahan dedi: - Yox bu çəməndə gül, çiçək,
Verdi kərəm əli sənə qum, ye, dolan! - Yazıq mənə!

13.

Cahandan kənarda özünə yer axtar!
Ağıl xariçində olan rəhbər axtar!

Qələm al, iki aləmin üstə xətt çək!
Ucalmaq üçün göylərə, şəhpər axtar!

Cahandır sənə fərş, ondan yapışma!
Fələkdir sənə ərş, get, göylər axtar!

Sənə gözdağı varlığındır, gərəksə,
Əgər tutiya yoxsa, get, cövhər axtar!

Ölənlər yanında yerin var cahanda,
Çıx ondan, həyat istəsən, can ver, axtar!

Deyər 'Allaham" burda çox yolkəsənlər,
Burax onları, xaliqi-əkbər axtar!

Bu beş darvaza, dörd həddi, o doqquz,
Və yeddi olan ölkəyə zivər axtar!

Şahı, sultanı anma, dərd əhlisənsə,
Çalış, rindləri dostluğa məzhər axtar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Açar şahların mülkünə istəyirsən?
Gədanın kilim altını yeksər axtar!

Gözü toxlara can dərmanı vermə,
Ciyərtəşnələr bezminə gövsər axtar!

Könül bağı, dərd bülbülü nəğməsini,
Dilərsənsə, Xaqanidən əzbər axtar!

14.

Dəhrdə bir əhl insan tapmadıq,
Eşqə layiq nazənin can tapmadıq.

Əhli göydə axtaraq bundan belə,
Çünki, gəzdik yerdə hər an, tapmadıq.

Ey ömür, əylən, dayanma, ey ümid,
Xəstə olduq, dərdə dərman tapmadıq.

Doldu dünya süfrəsinə cır an,
Bir əsər onlarda baldan tapmadıq.

Söylədin: axtar, cahanda var vəfa,
Birgə axtardıqsa, ünvan tapmadıq.

Pusqusunda çox oturduq göylərin,
Tülkü çox gördük, bir aslan tapmadıq,

Dəhrdə yüz min Süleyman var, fəqət,
Sehr üzüklü bir Süleyman tapmadıq.

Çox zaman tərk eylədik Xaqanini,
Biz onuntək bir süxəndan tapmadıq.

Görmədi mülki-Xorasan mislini,
Tay ona, hətta, İraqdan tapmadıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

15.

Fikir, xəyal odundan tutuşub, canım yanıb,
"Allah, Allah" deməkdən axır dəhanım yanıb.

Fələk mənim sinəmə elə bir od vurub ki,
Ürəyimdən od alıb, tabü təvanım yanıb.

İşlərimi zay etdi mənim bu can yanğısı,
Fələyin xamlığından ruhi-rəvanım yanıb.

Ahımın şöləsindən, xalqın gözü önündə
Pərdədə saxladığım sirri-nəhanım yanıb.

Mən dövlət axtarırdım, zillət çıxdı qarşıma,
Dedim: - Odsan, - bu sözü deyən zəbanım yanıb.

Görmüşsən od yandırar necə nazik ipəyi?
O cür, qəm şimşəyilə mənim ərkanım yanıb.

Şerim əgər od salar qəlbə, səbəb odur ki,
Gövhər saçan xatirim, təbi-rəvanım yanıb.

Söz mülkünün naibi Xaqaniyəm, həsəddən
Göylər mənə qəhr edib, alışıb, canım yanıb.

16

Düşüb ürəyimin oda danəsi,
Onunçün xoş gəlir naləmin səsi.

Göylərə yüksələn ahımdan mənim
Göyün səkkiz olub yeddi qübbəsi.

Mənəm susuz bitən xurma ağacı,
Od düşüb canıma, artır şöləsi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yanıldım, ağac yox, neylufərəm ki,
Qərq edər canımı gözüm çeşməsi.

Qəlbim səhhət sanar bəlanı, vallah,
Bəlakeşlik olub onun pişəsi.

Oxdana düz gəlir hər zaman oxum,
Ümidlə doludur könül şişəsi.

Mən şadam, naxışım "yek" gəlib zərdə,
"Şeş" atan hərifin çoxdur qüssəsi.

Mən bəla atıyla çatdım mənzilə,
Xal-xal at minənin yox düşərgəsi.

Yel olub, uçdumu mindiyim o at?
Yollarda qalmamış bir nişanəsi.

Balıqqulağından kiçikdir yerim,
Dəniztək dünyanın var təhlükəsi.

Bu dünya, naxışsız zərlə olsa da,
Naxışlanmış onun nərd təxtəsi.

Xaqani, dünyaya uyma gəl artıq,
Aşiq öldürməkdir onun şivəsi.

17.

Yer üzündə hansı könlün payı qəm deyil?
Təsəllisə kimiyadan az ədəm deyil.

Ürəyinin yarasına torpaq səp ancaq,
Çünki onun əlacı heç bir məlhəm deyil.

Məyusluğun qarşısını ahınla saxla,
Ahla həmdəm ol ki, sənə yar həmdəm deyil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsanlığın tarlasında vəfa sünbülü
Bitdiyinə heç bir insan xatircəm deyil.

Susuzluqdan yandı bütün arzu gülləri,
Çünki ümid buludunun gözü nəm deyil.

Pay verəndə əskik olmaz dostlar yanından,
"Vay" deyəndə sənə bir kəs, bil, məhrəm deyil.

Dostlarından hər hansına şikayət etsən,
Səbr et, - deyər ki, Allahın lütfu kəm deyil.

Bilirsənmi, bu aləmdə asudə kimdir?
O kəsdir ki, xalq yanında möhtərəm deyil.

İlin yalnız iki günü şadlıq üçündür,
Yaxşı baxsan, onda belə xalq xürrəm deyil.

Bu aləmdə elə bayram göstərin ki, o,
Yüz minlərlə insanlarçün bir matəm deyil.

Dur, Xaqani, süfrəsini tərk et cahanın,
Çünki şadlıq düşərgəsi bu aləm deyil.

18.

Ürəyimə zəmanənin əli neştər vurduğundan,
Sinəm necə lalə açdı, laxta-laxta olduqca qan.

Bu yaranı, deyin, kimin şəfəqqətli əli bağlar?
Bu dövranda məni sevən nə dost qalmış, nə qohum var.

Nə şəhərin hökmdarı bir arzuma əməl edir,
Nə ordular sərkərdəsi bir müşkülümü həll edir.

Ürəyimin min dərdi var, bu dərdləri yoxdur duyan,
Nə dərdimə dərman edən, nə yarama məlhəm qoyan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oxuyan yox, qanan yoxdur yazdığım xoş sətirləri,
İsti təndir görünməyir, nəyə sahın fətirləri.

Anasız bir quzu kimi mənim naləm göyə qalxar,
Nə qoyunum quzulayır, nə şaxəmdə nübarım var.

Mənim soyuq nəfəsimdən qızmar yayda şaxta düşər,
Nə ehtiyac ağ çadıra, ağ paltara, qışsa əgər?

Dörd kitabdan məlum oldu, yeganəsi mənəm əsrin,
Müqəddəsəm öz dinimdə, bunu yəqin bildi dörd din.

Şahdan çörək istədikdə, o mənə naz, qəmzə verər,
Zəmanədən su istəsəm, qabağıma qoyar zəhər.

Ey sahibim, maaş üçün yetər verdim başağrısı,
Bundan belə sən də mənim əzabıma olma razı.

Çörək üçün, paltar üçün çox incitmə məni, Tanrı!
Qələmimdən, əllərimdən yetir mənə sən onları.

19.

Mal və şöhrət sahibidir bu gün alçaq adamlar,
Nəfsə əsir olanların bazarıdır bu bazar.

Bu ötərgi qəm evində varsa şadlıq əsəri,
Onlar olar şad ki, yoxdur insanlıqdan xəbəri.

Keçmə önə bu dünyada, get, üzlətdə tut qərar,
Qoy yuxarı başa keçsin daldan gələn adamlar!

Yaxşı adam pislik görür bu dünyaya gələndən,
Nə eyləsin dünya, ancaq pislik gəlir əlindən.

Çalış, alçaq adamlardan tikə alma dünyada,
Onlar səni rüsvay edər, gedər hörmətin bada.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzdən parlaq olsalar da, içləridir qapqara,
Ayna adı vermək olar bu cəhətdən onlara.

Qanmazların əlindədir var-dövlətin hamısı,
Yeyər İsa süfrəsindən nemət eşşək arısı.

Namərdlərlə xədimlərdir tutan bu gün cahanı,
Bu dövrandır xacələrlə xəsislərin dövranı.

Ey Xaqani, pak duyğuyla bəzə hər bir sözünü,
O dünyada bir məqama çatdır barı özünü.

20.

Fitnə ayaq üstə ikən oturmaqda yox etibar,
Məhəbbətin bayrağı da öz yerində tutmuş qərar.

Mənə hər nə lazımdırsa tamam-kamal varım idi,
Təkcə eşqin möhnətinə həsrət idim, o da ki, var.

Səbr belə möhnət ilə bir an ayaqlaşa bilməz,
Ayaqları bağlı deyil, səbr, odur, durmaz, qaçar.

Səbr məndən uzaqlaşır, nə eyləsin, üzürlüdür,
İti qılınc üzərində, deyin, necə durmaq olar?

Zəmanənin budağının yaraşığı olan bir kəs,
Ümidimin rişəsini qazıyaraq, atdı kənar.

Nə qədər ki, çərxi-fələk bu fikrindən dönməmişdir,
Fəna işim daha bədtər fənalığa olur düçar.

Kimdən edim şikayəti, kimdir məni dərdə salan,
Bilməyirəm, kargüzardır, ya ki, böyük bir hökmüdar'

İlan vuran dadü-fəryad edər ilan yarasından,
İlan isə ofsunçudan gileylənib, haray salar.

Ey Xaqani, tərk et sən də bu dünyanın mənzilini,
Bu mənzilə düşən hər kəs rahatlığa həsrət qalar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

21.

Vəfa ətri bağışlarmı gülündən bir kəsə aləm?
Cahan durduqca olmaz,olmamışdır bir könül xürrəm.

Söz açma, gəl, bu aləmdən, tapılmaz onda heç bir vaxt,
İki dost ki, ürəkdən bir, sözündən bir ola həmdəm.

İtin sabit vəfasından söz açmışlarsa insanlar,
Nə vaxtdandır görən yoxdur vəfalı bir bəni-adəm.

Vəfanın gövhərini yer üzündə gəzmə bihudə,
Onu göy xəznəsində axtaran olsa, tapılmaz həm.

Nə bir dərman, nə bir məlhəm bu aləmdən təmənina et,
Hərə bir xəstəliklə getdi, heç kəs tapmadı məlhəm.

Bu varlıq aləmindən qaç, ədəm təxtində sən əyləş,
İnan, heç kim bu mənzildə murada yetməmiş bir dəm.

Gecə olmuş qıfıl, gündüz rəzə bu qəmli məhbəsdə,
Tapılmaz bir açar, məhbəs açılsın,.ta dağılsın qəm.

Bu vəhşət aləmində gəzmə, ey Xaqani, ünsiyyət;
İlan ağzında İsa möcüzündən kimsə vurmaz dəm.

22.

Zəmanədə qalmamışdır vəfadan bir əlamət,
Bu dünyada nə dost qalmış, nə dostlarda sədaqət.

Dünya açıb əl-qolunu bizə etməkçün cəfa,
Əfsus, onun qarşısında dayana bilməz vəfa.

Yaxdı vəfa gülşənini hansı atəş tər-təmiz,
Ki, qalmadı nə qurudan, nə də yaşdan onda iz?!

Həyatımı elə yerdə tükdən asdı fələklər,
Əcəl ilə aramızda yol qalmadı tük qədər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimə deyim öz dərdimi, sınamışam insanı,
Bir kimsədə görməmişəm mən insanlıq nişanı.

Ey Xaqani, çək gözünü alçaqlar dərgahından,
Ciyərinin qanını ud, qalmamış dərdə qalan.

23.

Tilsiminə düşmüşəm mən qəzanın, yaxşı bax!
Nə sovrulan tozum var, nə əsir olmuş torpaq.

Könlüm vurğun, həvəsim eşqin əsiri olmuş,
Gördünmü bir zəncirlə bağlansın iki dustaq?

Başım çox bəla çəkir qəlbim yol göstərəli,
Bələdçim quldur oldu, mən - sərxoş, mənzil - uzaq.

Könlünün ətəyini nəsib etsin yaradan,
Yol üstündəki tordan xəbərim olmayacaq.

Nəfəs çəksə əsir quş, demək, uçmaq istəyir,
Sən bu fəryad torundan xilas olma bir sayaq.

Torpağın havasıyla qol-qanad çalan ürək,
Şəkildəki qönçətək heç vaxt açılmayacaq.

Neştər duyuram bütün ürəkdən dodağadək,
Yaralanmış ciyərim soruşur: nədir bu dağ?

Gəzib ənqa quşunu dönməkdənsə torpağa,
Qənaət ceyranım tutmaq üçün qur duzaq.

Ayıq baxtın feyzilə görən göz istəyirəm,
Göz yaşım şəbnəm olsun, səhərin üzü yarpaq.

İmtahan taracına getdin, Xaqani, axtar,
Azadlıq kürəsinin tozunda iksir ancaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

24.

Bu dünyada mərdlik, sədaqət hanı?
Gül bitirməz bu fələyin güldanı.

Bax, dul qaldı kəramətin atası,
Doğmadı bir düzlük dünya anası.

Vəfasızdır kəc dolanan ruzigar,
Bir toz qədər onda yoxdur etibar.

Bu fələyin xonçasında var ancaq,
İki fətir - biri sarı, biri ağ*.

Bir paxıllıq dərdi düşüb aləmə,
Yarəb, məni ona düçar eyləmə!

Xaqaniyəm, tamahın süfrəsindən,
Tamamilə əlimi üzmüşəm mən.

Mərd deyiləm, mərdlik umsam dünyadan,
Ki, mərdliyi yoxdur onun binadan.

Hümmətim var yenilməz Rüstəm kimi,
Məhv edərəm mən tamahın divini*.

Xacə mənə çörək vəd etdi əgər,
Dildə mənə verdisə min vədələr,

Dedim ona xatir qoyaraq, sənə,
Ehtiyacım yoxdur sənin töhfənə.

Çox dost olar, dost yolunda cahanda,
Zəhər içər şərbət kimi bir anda.

Xacə vədə olmadı heç vəfadar,
Paxıllarda olarmı heç düz ilqar?

Əgər Xacə su qatdısa aşıma,
Gətirdisə bir çox bəla başıma,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncitdisə bu qəlbimi, nəhayət,
Bildim ki, çox yaramazdır o xilqət.

Gec bildim ki, onda yoxdur etibar,
Bu yoxdan bəhs etməkdə nə məna var?

25.

Bu zülmkar dövranda mən bir vəfa görmədim,
Üzü qara taledə mən bir səfa görmədim.

Zəmanəylə qumarda nə qədər ki, uduzdum,
Nəqşində cığallıqdan başqa məna görmədim.

Mən sizi bilməyirəm, özümsə çox sınadım,
Zəmanənin işində qanun-qayda görmədim.

Həmnişinim gölgədir, həmdəmim ahü nalə,
Mən özümü onlardan bir an cüda görmədim.

Gözümün nuru sayə, qəlbimin dostu nalə!
Dünyada sizin kimi müşgülgüşa görmədim.

Zəmanə dostlarını çox sınadım, nəhayət,
Əhdinə sadiq olan bir aşina görmədim.

Mən aləm xariçində vəfa axtaram gərək,
Çünki, aləm içində onu əsla görmədim.

Ürəyimin başında parçalaram yaxamı,
Bir çox ürəklərdə mən, gəzdim, riza görmədim.

Sanki yoxa çıxmışdıx mərdlik bütün dünyada,
Bir dəqiqəm olmadı ki, yüz cəfa görmədim.

Eşitdim ki, meyvə var zəmanənin bağında,
İllər boyu axtardım, bir çağala görmədim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rahatlıq qazanında bişən xörəklər içrə,
Fəqirlikdən başqa bir dadlı ğida görmədim.

Ruzigarın vurduğu yaralara səhərin,
Şərabından təsirli heç bir dəva görmədim.

Ey Xaqani, nalə et, zəmanənin sazında,
Həzin naləndən başqa, xoş bir nəva görmədim

26.

Şirvanda olsaydı qanan adamlar,
Heç səfər fikrinə düşməzdim, inan.

Olsaydı xoş günüm Təbrizdə hərgah,
Ərmən torpağında salmazdım məkan.

Ərməndə olsaydı qiymət verənim,
Başqa bir diyara getməzdim ordan.

Nə qədər çalışdım, çapaladımsa,
Mənimlə olmadı fələk mehriban.

Yüyürdüm, yoruldum ümid yolunda,
Taleyim gülmədi üzümə bir an.

Ciyərim həsrətlə qana döndüsə,
Ürək istəyinə yetmədi, aman!

Yoxluq pərdəsinə büründü istək,
Yalvardım, girmədi əsla qapımdan.

Dünyaya sığmayan hümmətim vardı,
Ona dar gələrdi hər iki cahan.

Arzum, istəklərim dərya qədərdi,
Birinə çatmağa olmadı imkan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ruzinin suyu da bulaq gözündən
Ancaq iki qətrə axdı çox zaman.

Könlümün bir quru yarpağı yoxdu,
Duymadı yaşıllıq ətri cahandan.

Əlimi üzmüşəm bolluqdan, axır,
Bəxtin tarlası da bar vermir əlan.

Mənə verilənlər gərək deyildi,
Gərək olanı da vermədi dövran.

27.

Xaqani, dövrdən etmə şikayət,
Oldusa qürbətdə hər işin pamal.

Zəmanə səndən də yazıq gündədir,
O, kərəm etməyə tapmayır macal.

Qürur qıfılmı qəlbindən götür,
Səndə öyünməyə qalmamışdır hal.

O zaman ürəyin rahat olar ki,
Onda qürur divi olmasın xəyal.

Bircə ümmid qalıb - Öləndən sonra,
Bizə dayaq olsun rəbbi-zül-calal.

Utandır, yola sal ağaları sən,
Yalandan başqa yox onlarda kamal.

Ölən ağalara, gəl, matəm saxla,
Kərəm ağacından qalmamış nihal.

Söylə, ey Xorasan, Şəhabın hanı?
Söylə, ey Isfahan, nə oldu Camal?*

Axtarsan bu yeddi iqlimi əgər,
Tapmaq kərəm əhli olmuşdur mahal.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə alçaq adamda, nə cavanmərddə,
Deyil öz yerində nə hal, nə əhval.

Kimdə dövlət varsa, hümməti yoxdur,
Kimdə hümmət varsa, yoxdur onda mal.

28.

Kim rahatlıq nişan verər? Verməz.
Kim bəladan aman verər? Verməz.

Bircə azad nəfəs alım deyə, mən,
Ruzigarım bir an verər? Verməz.

Qəlbimizdə ələm düyünləndi,
Çərx onu bir açan verər? Verməz.

Bir kəs, axır, ürək qəmi dağıdan,
Bir xeyirxah nişan verər? Verməz.

Axırı odlu ahımın gəmisi,
Sahilə doğru yan verər? Verməz.

Gəmimi dalğa qırsa da, bir kəs,
Yelkənə bir təkan verər? Verməz..

Axtarır ədli göydə Xaqani,
Haqqını asiman verər?Verməz.

29.

Nə vaxtadək sitəm çəkəcəyəm mən?
Gölgə kimi qaçacağam özümdən?

Ağzı bağlı, boğazı dar neymiyəm?
Zülm əlindən haray salıb, inləyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir insaf et, ağlamayım neçin mən?
Axı, insaf görmədim bir kimsədən.

Gecə-gündüz ala iti nə qədər,
Məni qapıb edəcəkdir dərbədər?!

Nə vaxtadək yuyunmaqçün hər alçaq,
Aftafatək belim bükük qalacaq?

Tərəzitək bəs nə qədər hər zaman,
Çıxarılsın dilim mənim boynumdan?

Bircə yol var, rahat qalını deyə mən,
Gərək kəsim öz dilimi dibindən...

Deyirsən: "Qəm çəkmə, olma mükəddər",
Bu sözləri dinləyim bəs nə qədər?

Dəniz kimi, bulud kimi coşaram,
Mümkün deyil susam, qalam mən aram.

Qəlbi sınıq Xaqaniyəm, bəli, mən,
Görüb, susmaq gəlməz əsla əlimdən.

30.

Əzəl gündən bu dünyada olmamışdır əhli-vəfa,
Görünməmiş öz əhdinə sadiq olan bir aşina.

Təkcə bizim ölkəmizdə vəfa yoxdur, zəni eləmə,
Yer üzünün heç yerində ondan bir iz yoxdur əsla.

Qanı qanla yu, qalmayıb rahatlıqdan heç bir nişan,
Öz-özünə həmdəm ol ki, tapılmayır dostdan vəfa.

İnsanların məzacında insanlığı az axtar ki,
Çalağanın yuvasından qanadlanmaz heç vaxt hüma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə inan, Adəmin ilk toxumundan bu vaxtadək,
İnsanlırın tarlasında bitməmişdir mərdümgiya.

Vəhşət basır, səhraya get, ünsiyyət tap vəhşilərlə,
İnsanların arasında vəhşətə yox tapan şəfa.

Bu firuzə günbədin sən vəhdət təbli çal altında,
Çünki, vəhdət sədasından başqa yoxdur xoş bir səda.

Alt-üst elə sərin ahla sən bu yaşıl nərdtaxtanı,
Heç bir hərif oynamamış cığallıqsız taxtada.

Sən arzunun gözlərinə mil çək, barı görməsin ki,
Heç bir zindan qaranlıqda çata bilməz bu dünyaya.

Boş arzuyla əlac olmaz ürəyinin mərəzinə,
Çünki, təkcə kükürd ilə əldə edilməz kimiya.

Ey Xaqani, dünyada kəs və nakəsdən aranı kəs,
Heç bir dərdin sahibinə tapılmamış verən dəva.

31.

Bu dünyanın zatında, bax, heç insafdan yoxdur əsər,
Rahatlıqçün, səadətçün yaranmayıb sanki bəşər.

Bu aləmdə dərdü qəmdən azad, rahat yaşamaqçün,
Zəmanənin anasından doğulmamış bircə nəfər.

Fəlakətin dalğasından təkcə onlar xilasdır ki,
Hələ varlıq yurdu olan bu dünyaya gəlməmişlər.

Kim içmişdir zəmanənin qədəhindən bir şərbət ki,
Öldürücü zəhərlərə olmamışdır o bərabər?

Söylə, necə qorusun ki, aləm səni bəlalardan,
Onun özü bəlalardan qorunmaqçün qalxan gəzər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fələk ömür sarayına lağım atan bir oğrudur,
Əbəs yerə əyilməmiş onun beli kaman qədər.

Asudəlik axtarma sən mavi çadır altında, gəl,
Aləm bilir, olmamışdır bir kimsəyə bu müyəssər.

Döz aldığın yaralara, Çünki, bütün insanlara,
Yara vurar, məlhəm verməz mürüvvətsiz bu fələklər

Matəmsora yaranmışdır, bax, bu aləm, anla bunu!
Sən fələyin mavi rəngli paltarına sal bir nəzər.

Ey Xaqani, bu dünyanın al sözünə qulaq asma!
Qayda budur, on sözündən ikisinə əməl edər.

32.

Qan içməkdən başqa bir şey cananlardan gözləmə,
Vəfasızdan vəfadarlıq heç bir zaman gözləmə!

Bu zamandan, bu zamanın yetirdiyi kəslərdən,
Cəfakarlıq gözlə, amma, dərdə dərman gözləmə!

Vərəmlədin keçirdikcə gözəlləri sınaqdan,
Bu dünyada bir xoş əməl sən onlardan gözləmə!

Yaxşılardan yamanlığın mümkündür baş verməsi,
Yamanlardan yaxşılıqsa olmaz, inan, gözləmə!

Meydən əgər sirkə almaq hər bir zaman mümkünsə,
Sirkədən mey almağa heç olmaz imkan, gözləmə!

Gəl, vəfasız yardan, könül, istəmə bir köməklik,
Qan içəndən sən özünə qayğı bir an gözləmə!

O həyasız çinə bənzər, əgər insan olsaydı,
O vaxt adam inciməzdi, bunu ondan gözləmə!

Sən, ey könül, öz nalənlə Xaqaniyə kömək ol,
Sənə qəmxar olmaqlığı bu dostlardan gözləmə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu nalə də faydasızdır, Çünki, gözü baxtının,
Açılmaz heç həşrə kimi, yoxdur gümanı, gözləmə!

Sən yarlardan kömək umma, onlar yar yox, mardırlar.
Yeri gəldi, sancacaqlar, heç bir aman gözləmə!

33.

Qaçsan, fələk arxanca, bil, kaman çəkir,
Dünya xarablaşır, hamı ondan aman çəkir.

Olma fələklə dost, deyil xoş təbiəti,
Tərk et cahanı, burda qalan ələman çəkir.

Dünya bəzəkli bir ilana oxşayır ki, o,
Üzdən gözəldir, aləm işindən ziyan çəkir.

Əhrimən oldu cümlə mələklər zəmanədə,
Öz dərdinə qal, özgə ayaqdan yaman çəkir.

Yeddi fələklə altı cəhət heç dəyişməmiş,
Aləm bizi dəyişdirərək, imtahan çəkir.

Zəncirləmiş fələk yeri ulduzları, onun,
Olmuş minik atı gecə-gündüz, inan, çəkir.

Xaqani, ağlama ki, sənin ahü-naləni,
Dəhrin sazında nəğmə yerinə fəğan çəkir.

34.

Neylim, zəmanə dərdinə məlhəm tapılmayır,
Dərmançün axtarır bütün aləm, tapılmayır.

Heç bir ürək bu göylərin altında il boyu,
Şümşad kimi tazə və xürrəm tapılmayır.

Hər kim otursa pəncərəsində bu göylərin,
Cəngi-zəmanədən o müsəlləm tapılmayır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yoxdur sevinc, ol qəm ilə həmnişin, könül!
Cəmşid, qoşul bu matəmə, xatəm tapılmayır.

Əfsus, ömür sazını gökdən salıb əcəl,
Matəm yaxınlaşır, neyi-matəm tapılmayır.

Xaqani, ol nəfəs ki, həyatın qənimidir,
Bəsdir, sinəndə qəbrə göm, həmdəm tapılmayır.

35.

Ey könül, dəhrin nəvası qalmayıb,
Rahət ömrün də bəqası qalmayıb.

Ol səlamətlik baharından bu gün,
Bir yaşıl yarpaq səfası qalmayıb.

Qorxuram insanları gördükdə mən,
Könlümün bir aşinası qalmayıb.

Hər kimi görsə könül, ondan qaçır,
Hər kəsin çünki vəfası qalmayıb.

Qəm pası çeynər bu ömrün gövhərin,
Silməyə bir şey bu pası, qalmayıb.

Bəxtə bax ki, bir dəmir dağdır qəmim,
Aləmin ahənrübası qalmayıb.

Döz əzabə, etmə, Xaqani, fəğan,
Kimsədə şadlıq əsası qalmayıb!

36.

Ey ruzigar! Ömrümü eylədin hədər,
Bu zülmün sürəcək nə vaxta qədər?

Qırmısan acıqla can damarımı,
Dünyanı qan aldı, bağla birtəhər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu başı aşağı təştin altında,
Tökdüyün nahaqq qan yetməzmi məgər?

Kim ipək toxudu zülmət gecədə?
Cəfanla kim yedi ömründən bəhər?

Sayəndə nakəslər vardan barındı,
Kimsəsiz olanlar yanar, inləyər.

Eşşəyin palanı xəzdən, tirmədən,
İtin xaltasına düzülür göhər.

Haramzadələrə yapışıb, qalma,
Mən sənin öz halal oğlunam əgər.

Zamanın anası sənin tumundan,
Payımı doğmaqçın lazımdır illər.

Xəstədir Xaqani zərbələrinlə,
Gərək kəsilməsin xəstədən nəzər.

Ey könül! Hər kəsdən vəfa gözləmə,
Hər qamış kolundan alınmaz şəkər.

Naməhrəm dünyadan qurtarmaq üçün,
Məhrəm tap ki, olmayasan mükəddər.

37.

Zəmanənin əlindən kimsə aman tapmadı,
İnsan oğlu dünyada xoş bir zaman tapmadı.

Gecəylə gündüz ömrün iki hesabdandır,
Onlardan aman əsla heç bir insan tapmadı.

Getdi rahatlıq dolu o vaxtlar ki, bir kəsin,
Qəm odu ürəyinə gizli məkan tapmadı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir elə vaxt gəldi ki, şad insan axtaranlar,
Yer üzünü dolandı, ondan nişan tapmadı.

Öyrənmiş vəhşiləri əhl hesab etmə sən,
Simurğu axtaranlar bir iz ondan tapmadı.

Ey Xaqani, özünə həmdəmmi axtarırsan?
Onu bu vaxta qədər bir axtaran tapmadı.

38.

Xacə mənə yaxşılığın qapısını bağladı,
Nə edim ki, pisliyinə onun ağız açmayım?

Peşə etmiş, hara çatdı, pisliyimə danışsın,
Çalışır ki, mən də onu pisləməkdən qaçmayım.

Tövbə, tövbə, dözümlüyəm, bir adamın haqqında,
Rəvamıdır, pis danışıb, pak ağzımı bulayım?

Qoy nə qədər bacarırsa, xacə məni pisləsin,
Mənsə onu vəsf etməkdən geri addım atmayım.

Pis danışır, qoy danışsın, ləyaqəti ondadır,
Mənim ancaq pislik deyil, yaxşılıq olmuş payım.

Əgər mənə qarşı o öz gövhərini göstərir,
Mən də açım gövhərimi, o sönsün, mən parlayım.

39. ZƏMANƏDƏN VƏ ÖZ TALEYİNDƏN ŞİKAYƏT

Ah, bəxtimin qələmi qırılıbdır ucundan,
Taleyim bir tük kimi asılı qalmış ondan.

Xoşbəxtlik hər könülü arzusuna yetirər,
Qələmdir ki, hər şeyə naxış vurar, can verər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir qələm ki, qırıqdır qəm dolu ürəyimdən,
Necə ümid bağlayım naxışına yazıq mən?

Kimin ki, qara bəxti, gözündə ağ ləkə var,
Bu ağlıqdan başına gələr qara bəlalar.

Bu ağlıq gözümüzdən titə kimi qoparaq,
Sanlaydı taleyə, bəxtimiz olaydı ağ.

Qanadıtək qaradır qarğanın da gözləri,
O gözlərin içində vardır ağlıq əsəri.

Nə faydası qızılın, qalsa dağın belində,
Qızıl dönər kəmərə, olsa insan əlində.

Bədənim dırnaq kimi sümüyə döndü, dostlar,
Səbəb odur: bəxtimin gözündə dırnaqça var.

Dərdə, qəmə peşkəşim tək sümük olacaqdır,
Çunki, qəmin özü də it xasiyyət qonaqdır.

Biliyin ömrü-günü başa çatdı, nə etmək?
Düzəm, düz insanlara bəxti kəc baxsın gərək.

Qarşındakı Günəşə baxmayıbsanmı məgər,
Başını əyri tutan gölgəsin əyri görər.

Rahat bir nəfəs alsam, mənə quracaq kələk,
Əhriman təbiətli əyri dövr edən fələk.

Acgöz at ki, gözünü axura dikmiş ancaq,
Haylasan, etinasız, sənə çəp-çəp baxacaq.

Yoxsa məni düzəltmək istəyir kəcbaxanlar?
Yoxsa məndə hələ də əyrilikdən əsər var?

Qaydadır, türk kəc baxar oxa hədəf alanda,
Ox hədəfə tuş dəyər bu baxışla bir anda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O kəsin ki, zahiri doğru, içi yalandır,
Üzdə qalxan görünər, qıvrılmış bir ilandır.

Gövdəsi əyri ağac çox da boy ata bilməz,
İslanmış bir göyərçin mənzilə çata bilməz.

Gecə-gündüz iki it, bir ovçudur ruzigar,
Fələk bir göy şahindir, sürətlə qanad çalar.

Bir ovlaqdır bu aləm, bizi ovlasın deyə,
O iki it yerdədir, şahin qalxmışdır göyə.

Ağlım havaya qalxmış, şahintək qanad çalar,
Görsün şahinlə itlər necə edirlər şikar?

İtlə şahin izinə düşmüş aciz bir quşam,
Qorxudan paralanmış, ciyərimi udmuşam.

Halım yamandır, yaman, ürəyimdə yox tavan,
Halla ürəkdən ötrü daim xətərdədir can.

Cansağlığı mənimçin təkcə arzudur ancaq,
Əfsus ki, o həmişə arzu olub qalacaq.

Hər arzunun dayağı bir ümiddir dünyada,
Canlılar ümid ilə verər ömrünü bada.

Arzu elə bir əldir, tamah tingini əyər,
İstək onun göküdür, tapmaq - yarpaqla bəhər.

Tamah asandır, ancaq çətin işdir istəmək,
İstəməkdən çətindir istəyi əldə etmək.

Arzum olan bir şeyi istədikdə dünyadan,
Sərxoş ikən ödəyir istəyini çox asan.

Lakin, dünya qurulmuş nanəcib təməlindən,
Ayılcaq, verdiyini, tutur, alır əlindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zamanın məktəbində önümdə bir lövhə var,
Üstündə gecə-gündüz "arzu" sözü yazılar.

Bu məktəbdə bir uşaq hələ görməmişəm mən,
Ki, vəfa surəsini deyə bilsin əzbərdən.

Necə vəfa ayəsi unudular? "Quran"da
"Ufu biəhdi" sözü var surə qurtaranda*.

Mənim könlüm bakirə, qız-oğlandır əhdimiz,
Qız-oğlanın yanında bakirə qalar təmiz.

Bakirə könlüm çəkər dad qəzanın əlindən,
Şəhrəbanu inləyir Ömərin işlərindən.

Gölgəm yerdə sürünər, deyil məndən xəbərdar,
Ahım dağı uçurar, fələklərə od salar.

Dəniz öz dalğasıyla dağın bağrını yardı,
Səs balığa çatmadı, Çünki, qulağı kardı.

Keçdi, hey keçdi ömür, illərini say, ötür,
Yaş əlliyə çatdımı, haqqı-hesabı bitir!

Qətrə-qətrə yaş süzür kirpiyin novdanından,
Sənin arzun budur ki, Xəzər yaransın ondan?

Kirpiyindən axan su abırını saxlayır,
Günəş qılıncı dəyən dağ qülləsi parlayır.

Qızıl tələb etmirəm, qızıla can atanlar,
Xəzan yarpağı kimi ayaqda tapdalanar.

Kimin başı qızılla zəmanədə yüksələr,
O baş yerə dikilər, sikkə zərbəsi yeyər.

Qızıl həvəskarının, tutaq ki, ağlı vardır,
Ağlın qızıl pul kimi üzü qabar-qabardır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömür uzun, ya, gödək, sayılır nəfəs-nəfəs,
Hər nəfəs qəm sayılır, qəm gətirir hər nəfəs.

Qəm dünyadan doğulmuş, qəmdir, baxsan hər yana,
Qəm o qədər böyükdür, sığmayır bu cahana.

Cəfasıyla bu dünya özü qəmi doğurur,
Baltadır ki, oduna qığılcımla od vurur.

Qığılcımdan başlanan alov güclənəcəkdir,
Od aləmi tutanda balta nəyə gərəkdir?

Fərəh bir səhifədir dünyada, qəm min varaq,
Qismətimiz, müxtəsər, qüssə isə bir qalaq.

Gilə layiq görüldüm vücudumla gül ikən,
Ürəyim qanla doldu, paltarım oldu tikən.

Qəm ürəkdən doğuldu, yedi ürək qanımı,
Qidası hər uşağın məgər ana qanımı?

Od əvvəlcə bir ağac ürəyində doğular,
Şölə saçar hər yana, min ağacı adlayar.

Bu oyunbaz fələyi yeddi şirindil uşaq,
Al diliylə edibdir öz əlində oyuncaq*.

Həyat gecə-gündüzün ikirəngli teliylə,
Yelpazətək dartınır gah elə, gah da belə.

Gecə köçsə ulduzlar türklər kimi səmadan,
Bu göçməkdən həyatın karvanı çəkər ziyan.

Necə quldur pusquda kəsər karvan yolunu,
Qarət edər malını, bağlayar əl-qolunu.

Xacə gördü könlümü, batıb dərdə, kədərə,
Dedi: - Dərd ondadır ki, sən çıxmısan səfərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

De görüm, haradasan, nə yeyirsən? Söylədim:
- Yediyim öz qanımdır, olan budur, nə edim?

Nə xörək, hansı xörək, haradadır o xörək?
Əli qanda qalana, söylə, xörək nə gərək?

Dedi: - Mənə cavab ver, nədir arzun dünyada?
Sənə zəhər içirir, verir ömrünü bada?

Dedim: - Məni dərk cdən qəlbi təmiz bir insan,
-İstəyim, arzum budur mənim ancaq dünyadan.

Ömrümün son anında olsa belə həmdəmim,
Ölsəm, rahat ölərəm, ürəkdə qalmaz qəmim.

Elə günə qalmışam - yaşamağım hədərdir,
Tikan güldür mənimçin, qanqal isə şəkərdir.

Boyun vurmaq olubdur hər qılıncın arzusu,
Vəhşinin axtardığı çöldə otdur, göldə su.

Qılınc əgər baş vurur, o baş baş olsun gərək,
Xoşdur qəssab kəsdiyi keci gök olsun, erkək.

Səfeh, əfəl adama heç yaman göz dəyərmi?
Anadangəlmə bir kor gözağrısı çəkərmi?

Cahil eyşü işrətdə, fazil əziyyətdədir,
Fəzilət unudulmuş, cəhl isə qiymətdədir.

Xəzinələr alçağın, möhtacdır azadələr,
Bu qisməti yazanın gözü kor olmuş məgər?

Fazilləri zəmanə zülmünə seçmiş hədəf,
Asudədir zülmdən bu aləmdə bişərəf.

Güvənin cod palazla, çuvalla nə kini var?
Tirmə, Şüştər ipəyi olsa, kəsib doğrayar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşlər tərsinə dönmüş, zamanın, yaxşı baxsan,
Donunun üzü bezdir, astarısa qumaşdan.

"Aləm" sözü "elm"dən yaranmışsa da, ancaq,
Cəhalət bu aləmdən elmi qaçaq salacaq.

Budaq məna kəsb edib, gök mənanı itirmiş,
Zəmanənin şaxəsi belə bəhər yetirmiş,

Can quşuna ürəyin qanadı qüvvət verər,
Gəz ağacından oxa Zali-zər qiymət verər.

Pak insanın qəlbini fələk, adətdir, qırar,
Zali-dəstan atası tərəfindən atılar.

Elm əhlinin ürəyi əcəb böyük ürəkdir,
İdris Öz şüuruyla göyə yüksələcəkdir.

Ömür gülüstanını, zaman bazarını gəz,
Gülü tikan, qazancı ziyan etmişdir əvəz.

Hər xoş xəbər dalınca yetişir bir bəd xəbər,
Hər məhərrəm ayının ardınca gəlir səfər.

Aclığı al gözünə, alçaqlara əl açma,
Aslan yesə, tülkünün himayəsinə qaçma.

Zamanə ki, əliylə həyat süfrəsi saldı,
Qab dibi yalayanlar o süfrədən kam aldı.

Cavanlıq xərmənində bəzək olan sünbülü,
Gördü fələk, yandırdı, göyə sovruldu külü.

Ağlamaqda qapılar açmağa varsa hünər,
Ümidin tarlasını bitirə bilməz məgər?

Qamış isitmə kəsir? Bəs niyə onda aslan,
Qamışlıqda yaşayır, isitmə getmir ondan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deyirlər: qara xətdir yaman gözü dəf edən,
Üzü qara ləkəli Ay əriyir bəs nədən?

Ağlayıb, mən deyirdim dünən özüm-özümə:
Ürəyim parçalanıb, qanı dolmuş gözümə.

"Dostlar ölmüş!" Çatınca qulağıma bu xəbər,
Sanki mənim qəlbimi iki yerə böldülər.

Qulağı sayəsində öldürülsə bir adam,
Qam gedər hədərə, istəməzlər intiqam.

Bəli, səbəb qulaqdır, düzünü bilsən əgər,
Xəzərdə məskən salan qunduzu öldürürlər.

Qan nöqtəyə döndərdi ürəyimi bu səfər,
"Səfər" o nöqtə ilə çevrilib oldu "səqər"*.

İlboyu qürbətdəyəm, vətənimdən didərgin,
Doqquz ay yollardayam, üç ay mənzildə əzgin.

Yox, yox, şükürlər olsun, bəxtim tutub əlimdən,
Barsız ağac, boş bazar, necə şükr etməyim mən?

Vədələri bəxtimin çoxdur, gəlməz hesaba,
Ancaq vəfa sözünü salmayıbdır kitaba.

Şadlığın gəmisində mahir gəmiçidir bəxt,
Səadət tarlasında ustad əkincidir bəxt.

Yerə düşsün bəxtimə xain baxan bəbəklər,
Bəxtimin qapısında qara quldur fələklər.

Bəxt quşunun arzunun yuvasında yeri var,
Səmasından səhərin gün görpəsi doğular.

Bəxtimdəndir bəlkə də, mənim yazdıqlarımdan,
Dünyanın hər yerinə göndərirlər ərmağan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nemətlərlə, bəxt ilə mümkündür istirahət,
Su ilə, ya kəsəklə almaq olar təharət.

Fəxr edirəm Şirvanla, vətənimdir o diyar,
Günəş qərbin önündə haqqlı edər iftixar.

Təbriz gözəl şəhərdir, orda qalmaq şərəfdir,
Qətrəni inci edən yaxşı mənzil - sədəfdir!

Niyə doğma yurdunda qala bilməyir insan?
Bəli, tər incilərə sədəfdir qara zindan!

Şəhərlər arasında Təbrizin şöhrəti var,
Ancaq Şirvan şərifdir, izzəti, hörməti var.

Demə, Şirvanın adı şər sözündən yaranmış!
Şərəfvandır, dünyada xeyirlə ad qazanmış.

Düşündükcə, görürəm, vətənimdir Şərəfvan,
Ancaq adında düşmüş illət hərfi ortadan.

Eyib tutma Şirvana, Xaqaniyə gühnə sən!
Demə, "şər"lə başlayan şəhərin oğluyam mən!*

İki hərf ki, deyirsən, ləkəsidir şəhərin,
Şəriətin əvvəli, axırıdır bəşərin.

Şərqin, Qərbin əvvəli şərdir, ğərdir, nə edək?
Günəş Şərqdən çıxıb, Qərbə getməsin gərək?!

"Qərib" kəlməsinin də əvvəli "ğər" oxunar,
Dəniz, quru qəribi olub məşhur adamlar.

Bəlkə də söyləyərsən, Kaşğər müşkü bifərdir,
Çünki "Kaşğər" sözünün son iki hərfi "ğər"dir.

"Bədəxşan" sözünün də əvvəli "bəd"dir, amma,
Ən yaxşı gövhərlərin kanı olub dünyada.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təbrizin də adında "təb" sözü vardır, ancaq,
Hər xəstə o şəhərə gəlsə, şəfa tapacaq.

Bir heyvan var Tibetdə, müşk ondan doğulur,
Özü hünər kanıdır, adı ancaq ahudur.

40.

Göylər dolandı, mən işə səmanı tapmadım,
Dövran cətinlik ilə doldu, mən asanı tapmadım.

Zatında əyrilik dolaşan bu zəmanədə,
Kim düzlüyü görubdü ki, mən anı tapmadım?

Nitqim tutuldu, Çünki, mənə həmdəm olmadı,
Dərdim çoxaldı, dərdimə dərmanı tapmadım.

Hirslə fələk ox atıb, vurdu qəlbimə,
Axtardım, ancaq oxdakı peykam tapmadım.

Bir süfrə açdısa bu fələk qarşıma mənim,
Gündən savay orda bir əşyanı tapmadım.

Mindim ümid atma ciddü cəhd ilə,
Bəxtim gətirmədi, ona meydanı tapmadım.

Qalxdım böyük hünərlə bu sonsuz səmayə mən,
Orda səadət ulduzu Keyvanı tapmadım.

Sındırdı çərx qamətimi, baxmadı mənə,
İçdi sutək qanımı, nanı tapmadım.

Yusif kimi Misirdə olub müntəzir müdam,
Çox səy qıldım, ol məhi-Konanı tapmadım.

Gəzdim cahanı mən də İskəndər kimi, fəqət,
Zülmət içində gizli o abi-heyvanı tapmadım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Etdi xərab könlümü Əfrasiyabi-dəhr,
Ey vay, yardım üçün Rüstəmi-dastanı tapmadım.

Mən bülbüləmsə, qırğı kimi susmuşam, budur,
Çün nəğməmə dəyər verən süxəndanı tapmadım.

Xaqaniyəm, zəmanə əlindən fəğandayam,
Çünki,yanımda bir üzü xəndanı tapmadım.

Haqq söz dediklərimi görüb, söylədi fələk:
Gəzdim cahanı sən kimi Xaqani tapmadım.

41. ZƏMANƏDƏN ŞİKAVƏT

Könül asudəlikçin zamin oldu,
Köçüb, üzlət evində sakin oldu.

Ürəkdə xoş sabahın nuru güldü,
Yalançı sübhtək arzum tez öldü.

Burulğandan məni qurtardı vəhdət,
Xilaskar Bijənə Rüstəmdi, əlbət.

Mən üzlət mülkün etdim qəmlə abad,
Cahan dərdü qəmindən oldum azad.

Dəmir ancaq dəmirlə yumşalar, bil,
Qəm ilə sən də könlündən qəmi sil!

Mənim ruzi anam sonsuzdur, olsun,
Könüldə, gözlənir, şadlıq doğulsun.

Yemək nə, oruc nə, tamah sönərsə?
Gecə nə, gündüz nə, gözlər gedərsə?

Könlümə istərəm, atəş verim mən,
Ürək şad olarsa, nə lazım bədən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Süleymantək ilahi mehri ilə,
İşıqlandı ürək nur möhri ilə.

Nə qönçətək belim bağlıydı dostdan,
Nə vurdum süsəntək düşmənə tikan.

Boynuma salsa da kəndir fələklər,
Dörd tağlı çadrını istərəm məgər?

Balıq qulağıyca yer olsa, bəsdir,
İlan ağzında yer tutmaq əbəsdir.

Civə tökmüş qulağıma bu dövran,
Eşitməz olmuşam söz dul qadından.

Ürəyim bir alovlu təndir oldu,
Odur ki, ətəyim tufanla doldu.

Axıtdı qanımı göy təştə dövran,
Gözüm yaşıyla aləm oldu mərcan...

Rəzillər xəznə üstə, mən əzabda,
Simurğ küllükdədir, milçək gülabda.

Sənətə olsa da məndə ləyaqət,
Qadın təblilərdən qorxuram fəqət.

Məni əyyam gördü, olmuram ram,
Yüyən saldı odur ağzıma əyyam.

Qələmim bir ilandır əldə, bilsən,
Onunla hikmətim olmuş müəyyən.

Qarışqa əqrəbə divan tutantək,
Əzər əqrəbsifət əşran görcək.

Həqqiqətdən alıbdır şerim ilham,
Həqqiqətdir nə ki, nəsr ilə yazsam,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bitər kafur ağacı Hinddə ancaq,
Misirdəki ağac isə verir yağ.

Nə şerim bir kəsin şerinə oxşar,
Nə tikməmdə yadın mirvarisi var.

Nə qarşımda divan vardır, nə dəftər,
Nə İsaçın həvəng var, nə ciçəklər.

Mənim qəlbimdədir, bil, abi-heyvan,
Dilim iymən çölündə oldu çoban.

Göyərçinlər məsciddə salsa məskən,
Darı verrəm qələmlə nöqtələrdən.

Xəyalım bir yeni məna doğanda,
Yeni saxsı olar göylər bir anda.

Qəhətlik baş verərsə şerdə, mən,
Yağıştək məna yağdırram dilimdən.

Əgər Zöhrə qurarsa göydə məclis,
Oxur sazla mənim şerimi, şəksiz.

Bağışlar Müştəri çalmayla dəftər,
Verər Mərrix yəqin qalxanla xəncər.

Xabər tutmaz, fəqət, korlar bu nurdan,
Susanlar laldır, ondan nə umursan?

Bir ovucdur onlar – İsmayililər,
Bunlar bir dəstədir - israyililər*.

Vücudu, qəlbi sırf murdardır, onlar,
Dəvəquşu kimi atəş udarlar.

Qazantək başsız olmuşlar - qapaqsız,
Təza baş tapdılar, ancaq, papaqsız.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaranquştək göyə baş qaldırarlar,
Yerə quyruq doyüb, zağça olarlar.

Beyinsizdirlər, ancaq, dalları çağ,
Deşiklə iynə tapmış qiymət ancaq.

Həmişə Rüstəmə böhtan deyərlər,
Fəqət, Rəxşin əmudundan öpərlər.

Tələqin edib kufilərin hədisin,
Hay qoparar uşaqtək, bilməz neçin.

Biri Zuzənlidir, biri Təbrizli,
Deyil pis işləri dünyada gizli.

Biri "haşa"nı "haşa"dan ayırmaz,
Biri "Bəhmən" nədir, "bəhmən" nə, qanmaz*.

Bağından təbimin meyvə yığarlar,
Oğurluq bəs deyil, şaxın qırarlar.

Utanmazlar, məni farsca söyərkən,
Fələk türkcə deyər onlara: "Sənsən!"

Fələyə ar ola, məncə, eyibdir,
Nədəndir onlara insan deyibdir.

Mənə tənə vurar miskinlər ancaq,
Dolanmaz dövrəmə hər nadan, axmaq.

Cavab da vermirəm onlara əsla,
Giv, Bəhmən axmaqla çıxmaz cidala*.

Ahımla onlara od vurmuşam mən,
Necə ki, odlanar atəşlə xirmən.

Fil elə qorxmaz ki, sapand daşından,
Qorxar Əbabilin kiçik quşundan*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yayıldıqca adım dünyaya, aşkar,
Paxıllıqdan ölərlər, qızdırarlar.

Əcayibdir, Məhəmməd ki, doğuldu,
Bürəhmən bütləri sındı, dağıldı.

Xaqani, Simurğtək qaldır adını,
Sındır leşxorların qol-qanadını.

Əbləh adamların ağzını tik sən,
Tükünün saqqalın qopar dibindən.

Tülkünün buğundan düzəldib iynə,
Ver onu dərziyə - muncuq düzənə.

Bu divxislətlərdən sən umma vəfa,
Gülşən az çəkməyib tikandan cəfa.

Bağla ümidini peyğəmbərə tək,
Onun dərgahıdır hər yerdən yüksək.

"Kaf" ilə "nun", "yasin", murad və rəhmət,
Onun kərəminə bağlıdır fəqət*.

Onun əlindədir kilidi, bilin,
Yeddi göy günbəzin, səkkiz behiştin*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏRSİYƏLƏR

1. ARVADININ ÖLÜMÜNƏ

Qəlbimdəki bu dərdimi dərmanə satmaram,
Sağlıq da üstəlik verələr canə, satmaram.

Dərman məni əritdi, fəqət dərd bəslədi,
Xoşdur bu dərdü qəm, onu ümmanə satmaram.

Ey xacə, biz əbəs yerə bazarə gəlmişik,
Sən şadlığı, mən isə qəmi anə satmaram.

Dərd ilə könlünü yaşadan müştəri hanı?
Bu sirri mən dodaqları xəndanə satmaram.

Neytək dodağlarından alıb sirri dostların,
Ol sirri həmdəmim olan insanə satmaram.

Dilsiz neyəm, gözümdən olar faş sirrlər,
Başqa yol ilə onları cananə satmaram.

Bir ney kimi başım da kəsilsə dilim kimi,
Bir kimsədən nə söz alaram mən, nə satmaram.

Məhv olmuşam, bu məhvdədir varlığım mənim,
Bu yoxluğu xəzinəyi-mərcanə satmaram.

Mən o qılıncı ki, verəcək başıma nəcat,
Yüz tac versələr mənə şahanə, satmaram.

Zəhrini nuş edib o qılıncın gülə-gülə,
Mən böylə zəhri balla dolu şanə satmaram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əmmaməmi qadınlar üçün çadra eylədim,
Adəm geyən o xələti-əlvanə satmaram.

Bəhramə şah verdi ləçək, bir telin onun,
Rüstəm geyən dəbilqəyə, xüftanə satmaram.

Yanmış ciyərlərimə olan örtü xam gönün,
Bir zərrəsin yüz ətləsi-tabanə satmaram.

Hər həftə bir gecəm ki, keçər yar ilə mənim,
Altı günü əvəz verə biganə, satmaram.

Şah xidmətindəsənmi? - Soruşdun, dedim ki: -Yox
Bir an azadlığı şaha, xaqanə satmaram.

Xaqani istəməz verə alçaqlara könül,
Bələmdə kəhf itini yüz aslanə satmaram*.

İsanın iynəsini qaraqəlbə verməræm,
Məryəm telini pərdəni yırtanə satmaram.

2.

Hüsnün bağı olmadan qoy mən cahan görməyim,
Qəmin dağı olmadan ruhi-rəvan görməyim.

Şadlığımın əsası vüsalındır, sevgilim,
Onsuz qoy ürəyimi heç şadiman görməyim.

Əbədiyyət çeşməsi lütfün olmasa hərgah,
Özümə qəm odundan heç vaxt aman görməyim.

Mənim ürəyim sənin ətrinlə yaşayardı,
Qəlbimi o ətirsiz heç bir zaman görməyim.

Ruhumun aşinası, gözəl ətrin olmadan,
Həyatımda şirinlik, təravət, can görməyim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qədər ki, canımda qüvvət var, nəfəsim var,
Bu canımı qəmindən heç qurtaran görməyim.

Gözümün qabağında, göyərçin kimi, sənin,
Adımdan başqa bir şey qanad çalan görməyim.

Sərv kimi qamətin iraq ikən gözümdən,
Qoy gülüstan içində sərvi-rəvan görməyim.

Sənsiz, mənim əzizim, səmanın gərdənində,
Günəşin incisindən bir iz, nişan görməyim.

Mən ürək danəsini uzun illər ərzində,
Şadlığım tarlasında sünbül açan görməyim.

Qəlbimin güzgüsündə xəyalından başqa mən,
Can surəti, ey nigar, bir dəm əyan görməyim.

Sənինsə xəyalının güzgüsündə özümü,
Tükə bənzər xəyaldan başqa bir an görməyim.

O dünyada vəslinə çatmaq məqamınadək,
Bu dünyaya qəlbimi bağlı olan görməyim.

Bizim hicranımızın göz yaşından özgə bir,
Yer üzünü çulğayan başqa tufan görməyim.

Açdığım vaxt sinəmin dəftərini, orada,
Ancaq sənin eşqindən başqa ünvan görməyim.

Sənin məhəbbətinlə ömrü başa vursam da,
Sənə olan eşqimi sona çatan görməyim.

Dedin ki, məndən sonra başqasını sevərsən,
Yox, yox, başqa sevgiyə əsla güman görməyim.

Sənsiz dünyada, ey yar, mən hara, şadlıq hara?
Yuxuda da könlümü mən kamran germəyim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqaninin halını soruşarsan? Onuntək,
Bu dünyada heç kəsi mən pərişan görməyim.

Düşmənim də bircə gün belə hala düşməsin,
Kor olum, dostlarımı halı yaman görməyim.

Bu Təbriz şəhərində sənin dərdini çəkən,
Xaqanidən başqa bir qəmli insan görməyim.

3.

Var idi mənim vəfalı yarım,
Xoş keçdi onunla ruzigarım.

Yıxdı evimi bu bədnəzərlər,
Korlandı işim və iqtidarım.

Vardı bərəkətli, bollu süfrəm,
Oldu nə yaman bu gün güzarım.

Oynardı əlım xəzinə ilə,
Yoxdu yaşayışda intizarım.

Sordun: - Var idi yarın? Dedim: - Ah!
Var idi mənim də şəhriyarım.

Mən ki, belə kimsəsiz deyildim,
Var idi mənim də bir nigarım.

Yar yox, o, bir ömrə yadigardı,
Var idi demək ki, yadigarım.

Sirrim qapalı qalardı yaddan,
Sirdaşdı mənə o gülüzarım.

Qəm qorxusu bilməz idi könlüm,
Qəmlər darıdandı qəmküsarım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəmsizliyimin qəmin çəkərdim,
Əldəydi mənim hər ixtiyarım.

Şadlıq atını çapardım onda,
Artardı o yarla iftixarım.

Əsdi nə zaman ki, qəm xəzanı,
Soldu bu konül bağım, baharım.

Qəm kəsdi göküm və nalə şaxım,
Məhv oldu göküm və bərgü barım.

Bir ney kimi öz odumla yandım,
Var idi könüldə çün şərarım.

Hər bir kəsə söyləsəm inanmaz:
Olmuşdu mənim də sazgarım.

Tənhalığımı görüb düşündüm;
Varmış, görəsən, mənim də yarım?

4. OĞLU RƏŞİDİN ÖLÜMÜNƏ

(tərkibbəhd)

Baş yola çıxmalıyıq, çarəsiz olsaq da əgər,
O evi atmalıyıq ki, görünür onda xətər.
Ey könül, cismimizə batdı kədər mismarı,
Nallayıb can atını, qılmalıyıq əzmi-səfər.
Gecə-gündüz atına yükləyərək qəm yükünü,
Yedək atlarına zəng asmağa bir ah yetər!
Üz tutub tanrıya, izah qüaq dərdimizi,
Hədəf olsun oxuna ahımızın bəlkə qədər.
Gahi əfqanə açaq ağzımızı, nalə edək,
Gah da oxtək olaq amadə, edək qəmdən həzər.
Gahi alt-üst edərək dagları bir ah ilə,
Bağlayaq tüstüsü ilə dolanan çərxə kəmər.
Yox bu dünyada vəfa, göz yaşı tutsun yolunu,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Salmasın ta gözümüz bir də bu dünyaya nəzər,
Bəhrəsiz keçdi cavan günlərimiz, yetdi sona,
Əlimiz indi əbəs boş kisədən bəhrə gəzər.
Odlu su gözdən axar ağzımıza, qoymaz ki,
Alınız odlu nəfəslə sala dünyaya şərər.
Qərq edək başı qələmtək qara göz yaşlarına,
Verə ah tüstüsü dünyaya qələmtək zivər.
Ürəyin dərdi ağırdır, göz isə qan axıdır,
Çalışıb tutsaq o mərcanı, ürək dərdə dözər,
Bu gəlinlər ki, geyinmiş gözümüzdə qaraya,
Ağlayaq, göz yaşımız onlara düzsün gövhər!
Ah odundan fələyə hər səhər ox yağdırarıq,
Şişədəndir ucu, oxlar hədəfə etməz əsər.
Fələyin səqfini mümkünsə yıxa ahlarımız,
Səyimiz qəm yolunu kəsməyə bir işdir - hədər.
Hünərin qancığasından nə qədər bağlansaq,
Fələyi yıxmağa bizlərdə tapılmaz o hünər.
Naləmiz sinədə namə aparan bir quşdur,
Namə xoşdur, başıbağlı asıla pərdən əgər.
Çox da tez uçma sən, ey quş, aparırsan namə,
Bağlayaq ta üzümüzdən ayağın altına zər.
Bağlayaq sədd gözümüzdə iki Yəcuca bu dəm,
Qalmışıq indi ki, zülmətdə necə İskəndər.
Haqqlıdır, toy tuta torpaq, qucuyub incimizi,
Şadlanar, biz ona toy töhfəsi versək nə qədər.
Qüssədən aldı qızıl rəngi üzün, Xaqani,
Oğlun əkhlinə döndər, onu tabutuna sər!
Hünərin xəznədan, elmdə gövhərdi Rəşid,
Anaya qiblə, atasına bəradərdi Rəşid!

* * *

Elə bir dərd varımdır, ona dözməz İsa,
Bu o dərddir ki, sağaltmaz onu aləmdə dəva.
Boş yerə qaçdı könül, dərdinə dərman gəzdi,
Varmı bir öylə dəva ki, Özü yar olsun ona?
Yetmədi dadıma kamımca ümüd divanım,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qovular məhmil əgər qafilədən dalda qala.
Mətləbə yetməz əlim, etmə təəccüb buna sən,
Bu qısa əllə gözüm mətləbi seçmiş ucada.
Qanlı sel yetdi dizə, coşdu, belimdən keçdi,
Qorxuram, çatsa dodaqlarıma, tez başdan aşa.
Oldu ömrün günü axşam, mən isə sanki şəfəq,
Qanda qərqəm ki, bitə qəm gecəsi, sübh açıla.
Uçdu sinəmdəki oddan civətək səbrü qərar,
Səbr ucarsa, çata bilməz, dalıca yüz quş uca.
Əkdim arzu toxumu, vurdu əcəl ildırımı,
Nəyə lazundır əkin ki, bəhəri odda yana?
Çatmadı ağzıma arzumca olan bircə tikə,
Ruziyə çatmaz əlin, alnıma yazmazsa qəza.
Könlümün ruzisi torpaqdır, hünər kanı mənəm,
Bil, hünər sahibinə ruzi yetirməz əsla!
Fələyin sakiniyəm, qəmlə kədər əzdi məni,
Göz yaşımdan yaranıb dövrü bərimdə qovğa.
Ağlamaq da kömək etmir mənə, qan ağlayıram,
İstərəm, yardım edə qan, məni tufanda boğa.
Gah axan, gah kəsilən göz yaşımın tufanı,
Gah topuqda dayanar, gah çıxar qurşağıma.
Kəsilib axmada oxşar duza bu göz bulağım,
Qoymaz əsla məhəl o isti yaya, buzlu qışa.
Gah Ceyhuntək axar ki, qovuşa Seyhunə,
Gah Xəzər tək dayanar, bağrına axsın Volqa.
Ağlamaq, gah əsəbi dayə kimi ağ südünü,
Qısqanar gözdə iki qara gcymiş uşağa.
Yüyürərək bir uşağa göz yaşım oxşar ki, onu,
Hey tutub saxlayaram, can atır ancaq bayıra.
Dərd əlindən əlimin arxasını çeyniyərəm,
Mənə qəm süfrəsi verməz, nə edim başqa qida?
İstəyirdim dişim ilə ciyərimi gəmirim,
Nə edim ki, ciyərim dişdən uzaqdır amma!
Bağrını çoxlu qəmə məskən edən Xaqani,
Oğul hicranı qəmi bağrını da yaxdı oda.
Qəlbimin gövhəri, can şəmi idim, söndün,oğul!
Qara bəxtim kimi məndən niyə tez döndün, oğul?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Dərd bir dərd deyil, yazmaq üçün bir dəftər acım,
Ömrü çatmış başa, mümkün deyil artıq pər açım.

İki ciddi gileyim vardır əlindən fələyin,
İki dünyaya sığışmaz, birisini gər açım.

Yolçular sübh fərəhlə açar öz yüklərini,
Mən şikayət yükümü sübh gözümdə tər açım.

Sarmaşıqtək sarılıbdır canıma dərdü bəla,
Mənə bu candan gecə-gündüz necə möhnətlər açım?

Həlqətək sardı məni ah, mən o həlqə ilə,
Döyüb ümid qapısını, istərəm çənbər açıb.

Göynəyim oddur əgər, üst geyimim göz yaşıdır,
Can hövlilə gərəkdir yaxamı yeksər açım.

Səbr əgər istəsə də indi ciyərparəsini,
Səbirsiz bir ciyərin dərdini kim dinlər, açım?

Bir vəfa əhli hanı, qəlbimə təskin olsun,
Qəm çəkən dost hanı, ta ki ona mən qəmlər açım?

Can telim bir düyüm olmuş, qısalıb, barmaqtək,
Qalmayıb məndə hünər dırnağı, müşküllər açım.

Vurmaram təbli qürur ilə damında hünərin,
Qəm divarını gərək aşmaq üçün şəhpər açım.

Yuyaram qanım ilə damü divardan suvağı,
Mən bu hal ilə, rəvadırmı, üzə sellər açım?

Döşənibdir yola qəmlər tikəni, mən naşad;
Əjdaha verməz aman, xəznə tapıb, gövhər açım.

İstədim qırğı kimi bir də şikarə qalxım,
Sem yeli vermədi möhlət mənə artıq, pər açım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Açmaram bir daha dünyaya baxan gözlərimi,
Kor olum, bir də ona baxmaq üçün mənzər açım.

Qeyrətimdən tikərəm gözlərimi əql ilə,
Çarə yoxdur ki, gərək almağa ibrətlər, açım.

Bağladım yeddi qapı xalq üzünə aləmdə,
Ta durub yeddi qatında fələyin azər açım.

Gözümün nurunu söndürdü yaman bəd gözlər,
Nə rəvadır, gözümü, görməyə pis üzlər, açım?

Qəlbi məhzun, canı bərklikdə dəmir Xaqani,
Yandı, kül oldu, bu dərdi kimə, ey ellər, açım?

Mən başı daşlı necə qəbrdə qanlı kəfəni,
Oğul üstündən alıb, görməyə gül peykər, açım?

Ey təzə bədr, qaranlıqda buraxdın atanı!
Ey Ütarid, nə yaman odlara yaxdın atanı!

* * *

Firqətində bala, bundan da betər yansın atan,
Söndü şəmin, kor olub, qüssədən odlansın atan.

Dostların çıxmaya ta qarşısına yolda onun,
Tərk edib aləmi, öz qəbrinə yollansın atan.

Çün ərəbcə, dəricə söhbətini dinləməyir,
Gözü çıxsın, qulağına civə daşlansınatan.

Qəbrinin torpağı nur ilə Mina çeşməsidir,
Qəbrinin başına qurban kimi fırlansın atan,

İncə ruhunla gömüldün, bala, torpaqlara sən,
Qana dönsün ciyəri, qəbrini hey ansın atan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Torpaq altında yatırsan bu gün, ey mehr-giya!*
Torpaq üstündə bitən ot kimi tapdansın atan.

Yusifim, aləm üçün abi-həyatdınsa əgər,
Qurd qapanlar kimi sonsiz su deyib, yansın atan.

Gül kimi qanə boyandı dodağın, gözlərinə,
Xurmatək qan yerisin, xar ilə oxlansın atan.

Kəkliyim! Qanlı dodaqlar ilə uçdun, gözü qan,
Bir turactək sənin ardınca qanadlansın atan.

Dərdinin güclü əli, bax, belə məcbur etmiş,
Ki, cilik barmağa dönsün, iki qatlansın atan,

Çün qəzanın əli qapmışdır əlindən qələmi,
Bir kağız göynək ilə tezcə alovlansın atan.

Cana sən bayram idin, tərk elədin dünyanı,
Sənin ardınca əcəl Rəxşinə atlansın atan.

Hünərin canı - kamalın, göhərin kanı - xətin,
Canımın gövhəri, sənsiz nə hünər qansın atan?

Ürəyi dağlı anan oldu qəmində nalan,
Qoy ki, ondan daha çox odda alovlansın atan.

Tabutun zinəti, zərbaf kəfənin telləritək,
Bükülüb qəddi, saralsın üzü, tablansın atan.

Torpaq altındasan, ağlar sənə üstündə fələk,
Fələyin dövrü kimi tərsinə firlansın atan.

Üzdə yaşıl xətüvün, əldəki qarə xətüvün,
Həsrətilə gərək hər xətti görüb, dansın atan.

Saçının xaçı görünməz, xətüvün zünian,
Kaş rahib kimi zəncirlərə bağlansın atan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən kimi başqa əzizi nə olub, nə olacaq,
Taki sənsiz yenə öz ömrünə aldansın atan.

Atanın canı idin, cismini tərk etdin, oğul!
O başı daşlını nalan qoyub, getdin, oğul!

* * *

Tabutunu qılınc kimi, oğul, tutdurub zərə,
Şah tacıtək qərq edərəm məzarını gövhərə.

Arzulardım: davatını tutduram mən qızıla,
Tabutunu zərə tutdum, ey kaş, girəydim yerə.

Tabutunun narıncına axıb qanlı göz yaşım,
Bir qırmızı alma kimi narınc çarpar nəzərə.

Qələmdantək tabutuna örtük biçib tirmədən,
Baş daşını incilərlə bəzərəm zər-zivərə.

Mişkim ilə göyhərimdir siman, ayaq torpağın,
Onlarla mən təzələrəm öz eşqimi hər kərə.

Sürtüb ayaq torpağını təsbeh kimi üzümə,
Əl yazını dua kimi yüksəldərəm göylərə.

Sənsiz, oğul, bar-bağçamı, məktəbimi tərk edib,
İlk zərbəni endirərəm şerə, elmə, hünərə.

Sənə qarşı vəfasızlıq göstərdi ata yurdum,
Mən o yurdun əsasını gərək verəm sellərə.

Səndən sonra nə lazımdır mənə çadır, kaşanə?
Od vuraram eyvanıma, dolandığın evlərə.

Naləm ilə parçalaram eşidənin qəlbini,
Var-yoxumu səndən sonra sovuraram yellərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anan qırdı qələmini, qəmin mənim belimi,
Geydim matəm paltarını o qırılmış kəmərə.

Ayın axır gecəsitək çulğanmışam qaraya,
Bəs haçan mən kəfən geyib, oxşayaram qəmərə?

Gecə keçər, sübhə kimi axıdaram jaləni,
Ta gözümün qarasında ağ titə rişə verə.

Ey günəşim, əldə çıraq axtarıram səni mən,
Bu çıraq da ahım ilə sönər, çıxmaz səhərə.

Mənim sərin ahlarımla sönən hər bir çırağı,
Ciyərimdən qalxan atəş hər an tutar şərərə.

Qədər sənin matəmində məni salmış odlara,
Mən də gərək bu dünyanı zindan edəm qədərə.

Göz yaşımdan piyadam var, sərin ahdan süvarim,
Zəfər çallam onlarla mən fələkdəki qeysərə.

Günüm qara, paltar qara, qapım üstü qapqara,
Bunu görüb, bürünmüşdür fələk qara məcərə.

Sənin qəmin nəhəgərlik aşıladı ruhuma,
Matəmində döndüm,'oğul, bir yeni nəhəgərə.

Ağlayanlar ətrafımda sıra ilə düzülmüş,
Söylədiyim mərsiyələr düşmüş artıq dillərə.

Arzum, ömrüm, cavanlığım bada getmişdi, ancaq,
Oğul dərdi üstün gəldi bütün başqa dərdlərə.

Uca sərvim, bilmirəm mən, nə əsər qaldı səndən,
Sən dünyadan köçüb getdin, bu xəbər qaldı səndən...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5.

Ey xacə, ömrünü hesaba al bir,
Gör neçə ikirəng aləm dövr edir.

Hiyləylə dolu bu gecə-gündüzdən,
İzim hasilimiz, xeyrimiz nədir?

Dünya bir süfrədir, loğması zəhər,
Həyat bir yuxudur, ölümsə - təbir.

Xaqani, Rəşidin qəmində sənin,
İşin havaxtadək ahü nalədir?

Davudun göz yaşı, Nuhun novhəsi,
Sənin Yusifinə etmədi təsir*.

Səndən ruh alaraq, keçmiş zamanda,
Verdilər oğluna çəkənde təsvir.

Əlindən alınan oğluna əvəz,
Deyəsən, ömrünü artırdı təqdir.

Rəşidin tez getdi, sənsə çox qaldın,
Onun hesabına yaşadın, ey pir!

6.

Günəşə bənzəyən bir oğlum vardı,
Basdırdım mən qara torpağa nagah.

Anası dözmədi oğul dərdinə,
Əlimlə dəfn etdim onu da, ey vah!..

Ulduztək bir qızım var idi, onu,
Qabil bir oğlana verdim bir sabah.

Qızımı damadə verərək, dedim:
Qızılı torpağa tapşırıram, ah!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən qaldım, bir də ki, Əbdül Məcidi,
Bir Allah qoy olsun ona da pənah.

Yoxsa da Şirvanda havadan heç,
Bəsdir, yar olarsa ona bir Allah.

7.

Rəşidim ölən zaman ona belə söylədim:
Ürəyində nə arzun varsa istə, müxtəsər.

Cavab verdi ki, arzu həyat üçün gərəkdir,
Həyat əldən gedərkən arzu qalarmı məgər?

8.

Təəssüflər, oğlum Rəşid, ömrümün tək meyvəsi,
İyirmiyə çatan kimi bir nəfəsdə, aman, getdi.

Bu dünyada bir o idi həyatımın zəxirəsi,
O ömür ki, gecə-gündüz arzularla hər an getdi.

Belə oğul getdi, sonra evimdə bir qız doğuldu,
Araz kimi göz yaşım da qaldıraraq tufan, getdi.

Qız olduqda ürəyimi elə qəmlər bürüdü ki,
Nə mən, nə də başqasının ürəyindən o qan getdi.

Qızım da bu dərdlərimə sufiyanə nəzər salıb,
Bu cahana daha üç gün baxdı, sonra yaman getdi.

9.

Yenicə doğulan qızım gördü ki,
Qarşıda gözlənir min bəla, öldü.

Qeybdən gələn o töhfə duydu ki,
Dərdlərə olacaq mübtəla, öldü.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O kiçik gövhərim yaxşı anladı,
Ki, çox pis yaranmış bu dünya, öldü.

Bildi ki, ürəyim dərdə düşəcək,
Üzünü tutaraq binəva, öldü.

O, böyük qızımı pərdədə görcək,
Dedi: -Kifayətdir bir cəfa, -öldü.

10. FƏLƏKİ ŞİRVANİNİN VƏFATINA

Fələki doğmuşdu sehrimdən mənim,
Olmuşdu göylərin sirrinə agah.

Heyif ki, tez öldü, çox yaşamadı,
Fələkim tez getdi əllərimdən, ah!..

Bir dəfə asqırdı və ruhu uçdu,
Əzrail söylədi: rəhm etsin Allah!

11. ƏMİSİ KAFİYƏDDİNİN VƏFATINA

Aləmin zatında şadlıqdan tapılmaz bir nişan,
Adəm Övladı adamlıqdan uzaqdır, sən inan!

Həmdəm axtarma, çəkil, üzlət evində tək otur,
Qəm evi dünyada yoxdur bir nəfər dərdə qalan!

Dördbucaq firuzərəng bu çadırın altında sən,
Çarmıxından qəmlərin heç vaxt tapmazsan aman!

Çək dizə qəm damənini, dərdə döz, yox bir nəfər,
Qəmsiz olsun bu cahanda, qəmliyə yox əltutan!

Həbsə sal ahı dodaqda ağzını yandırsa da,
Çünki yüz yol söyləsən də, dərdini yoxdur duyan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məlhəm axtarma, yaran vardırsa, heyvanlar kimi,
Ağrıya döz, gəzmə, tapmazsan ona məlhəm qoyan!

Dəfn olundu bir nəcib insan, qəmində cır yaxa,
Bir belə matəm nə yer görmüş hələ, nə asiman!

Cərx nəqqaşxanəsində yox vəfa rəngindən iz,
Rəng nədir? Tapmaz vəfa ətrini heç bir axtaran!

Qeybdən bir səs gəlir daim sənə, xatırladır:
Yer üzündə, bir könül tapmazsan, olsun şadman!

Çulğamış Qafdan Qafa dünyanı vəhşətli gecə,
Sur çalınmazsa, sökülməz sanki bu zülmətdə dan.

Bəxt tacı isteyirsən? Gəz səlamət altunu,
Yoxsa aləm butəsi verməz sənə zər ərməğan.

Bubbutək varsa başında tac əgər, tuti kimi
Qəlbinin boynunda odlu halqa vardır Cavidan.

Arzu bitməz, bu quraqlıqda axıt göz yaşını,
Bundan özgə su tapılmaz, qoyma yansın busitan!

Dünyanın darvazası əslində dar bir həlqədir,
Kim göcər bu həlqədən, qəddini qılmazsa kaman?

Xəstə canla heç zaman getmə fələk eyvanına,
Olmamış ordan zəhərsiz bir kərə dərman alan!

Axirətdə afiyət axtar, nə bu aləmdə sən,
Fəhmdən naqisdir əqrəb quyruğundan şəhd uman!

Ömr buz üstə qurulmuş bir binadır, yaxşı bil!
Çox da, Xaqani qızışma, qorxuram, uçsun binan!

Dəhr qoy qanda boğulsun, torpağa ensin fələk,
Tapmayıbdır çün əmin nə onda, nə bunda məkan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ümmətin püştü-pənahiydi o dahi filosof,
Mənzili oldu, yəqinimdir, ən ali kəhkəşan.

At oda hikmət kitabını, əminəm getmiş bada,
Vur daşa camı, daha Cəmşid deyildir hökmran!

Elmi ürfan Rəxşini peylə və ya qandalla san,
Rüstəmi-dastan hanı? Keçsin ağılda həftxan?!

O ağıl ustadının şagirdi olmuşdur fələk,
Bir elə dahi müəllim görməmişdir bu cahan!

İstəsən, asan taparsan daima yüz min üzük,
Bir üzükdə Cəmşidin nəqşi fəqət olmaz əyan!

Göz ciyərdən, qəlbdən qan çəkdi, tökdü torpağa,
İndi artıq nə damarlarda, nə gözdə qaldı qan!

Matəmində elə yanmışdır ki, Keyvan bir daha,
Bir əkincitək yoxa çıxmış o göhnə tarladan.

Müştəri gözdən bu qəmdə tökdü qan neysan kimi,
Qandan özgə yox kitabında onun şərhi-bəyan!

Ruhu cismindən onun ayrıldı, bu qəmdən yəqin,
Bir-birindən ayrılar, dörd rükn də tapmaz aman!

12. ƏMİSİ OĞLU VƏHİDƏDDİNİN VƏFATINA

Aman! Getdi yer uzünün filosofu bu dünyadan,
Hikmət, məna göylərinin sirrin açan getdi, aman.

Onun əmin olan nəfsi qayıtdı öz məkanına,
Eşitmişdi "Mənə tərəf dön!" əmrini yəqin ordan.

Kamal əli torpaqlardan o qiymətli cəvahiri,
Qaldıraraq, asimanın kəmərinə taxdı nişan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fələk özü üçün onu təbibliyə aparmışdır,
Sınamişdır təsirini dərmanının zaman-zaman.

Çatan kimi göy üzünə, həmin saat ulduzların,
Titrəməsi kəsilmişdir, əlac etmiş böyük loğman.

Göyün yeddi bəzək ilə paltar geyən hurisi də,
Ayağına sürtmüş oldu yanağını çox mehriban.

Onsuz bütün əqrəbası ölmüş kimi qaldılar, ah!..
Qəbilənin Adəmiydi, İsa kimi verərdi can.

Cümə günü əcəl gəlib, apardı o filosofu,
Ki, Nuhun da gəmisini cümə günü tutdu tufan.

Ey Xaqani, əmin üçün matəm saxla, göz yaşı tök!
Çünki, əmin ata kimi etdi səni qabil insan.

13. NƏSİRƏDDİN İBRAHİMİN ÖLÜMÜNƏ

Gecə gizlincə şəkkər səpməyə başlar gözüm qandan,
Dizimlə alnımı cütləşməyə məcbur edər dövran.

Qəm ilə diz-dizə gəldim, yaxam oldu ətək, indi,
Ətəkdir ki, ayırmışdır başımı diz qapağımdan.

Dizimlə birləşər başım, vücudumsa olar halqa,
Təfəkkür taciri sazlar haman bir halqadan mizan.

Könül – Kəbə, bədən - halqa, necə halqa, əgər görsən,
O diş-dişlikdə bir zərrə secilməz Zəmzəm ağzından.

Kim eşqə bağlamış ehram, gərək başı dizə ensin,
Təfəkkür yaxşıdır Mərva, Səfa dağına qaçmaqdan*.

Nədəndir Kəbəyə, ehramə sən aludəsən bunca?
Yəqin, örtükdə gördün Kəbəni, ehramı da üryan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Salıb yer diz qapağımda daraqlanmış əlim, çünki,
Bənövşə başıtək başım əyilmiş ahü zarımdan.

Çəyirtgə kimi qanlı göz yaşında mən də islandım,
Çəyirtgə fikrə daldıqda dağılar qan qol-qanadından.

Qırıb ağlın ayaqlarını, nəfsi salmışam bəndə,
Deyil sərraf könlüm ki, ala nəqd ins ilə candan.

Həvəs naxoşlayıb, yatmış ümidsizlik yatağında,
Başı altında nadanlıq qolu, əqlim yatar məstan.

Bəkarət qanına batmış gözüm, çünki, kədər gizlin,
Tapıb ülfət bəbəklərlə, alıbdır kam onlardan.

Günəş nuru səhərlər boylanar, baxsın, gözüm içrə.
Necə vəcdə gəlib, oynar bəbəklər şadmanlıqdan?

Sinəmdə qıvrılıb ahım, necə bir çənbər atəşdə,
Qızar, həm qıvrılar, can qurtarammaz yumrulanmaqdan.

Üzüm torpağa dönmüşdür, gözüm yaşı təmiz qanə,
Yanaqlarım dönər lələ, gözümsə lələ olmuş kan.

Kədərli hər gecəmdir hamilə bəhcətli bir sübhə,
Çıxar lağmım o gəncə kim qalıbdır Ali-Samandan*.

Könül qəm dərsini atmış, buna yol vermərəm, çünki,
Kədər ustaddır, könlüm ona şagird - əzbərxan.

San rüxsarım al qanla boyanmış, çünki, şagirdə,
Olanda bayram, ustadı bağışlar lövheyi-əlvan*.

Üzümdə göz yaşın görcək "əlif"lə nöqtə şəklində,
Oxu qəm rəmzini, öyrən, bu Məddü Həmzədən asan*.

Gözünü bağladım hirsin, tamahın dişini qırdım,
Necə katib yazar "mim"i, necə "sin"i yazar divan*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə vəhdət bağında bir şərikdir həzrəti-İsa,
Verib canı, ucuz aldım ikinci səhmi İsadan*.

Necə, gör, olmuşam sahib Məsiha mülkünə, dözməz,
Fələk, bir kinli düşməntək mənə nizə çəkər oddan,

Günəş də, qibtəsindəndir, mənə qarşı silahlanmış,
Alıb Makan kimi zubin, tutub Deyləm kimi qalxan.

Mənə Simurğü vəhdət güzgüsü göstərmiş aləmdə,
Süleyman mülkünə mən sahibəm üzlətdə qalmaqdan.

Nə ali mülkdür üzlət ki, hümmət süfrə saldıqda,
Qarışqası olar Simurğ, Süleymansa ona mehman.

Könüldən qəmləri hümmət əlimlə qovmalı, çünki,
Milçəkqovan edər şahlar gözəl tavus qanadından.

Zəmanə qəlbimi şad etsə, təbimə yamanlıqdır,
Camaat şad olar bayram günü, bədbəxt öküz - qurban.

Könül bir mənzil etmiş, dalda qalmış çoxları,
Çünki, Yorulmuş daşlı yollarda miniksiz, mat, sərgərdan.

Qalıb yetmiş qara pərdə içində qəlb, naçarəm,
Onu pak eyləyim yetmiş suda hər növ zülmatdan.

Könül bir dərdə düşmüş ki, əlacı - çarəsizlikdir,
Çəkibdir göz sağalmaqdan, keçirməkdə ağır böhran.

Hələ İsfəndiyarım kecməmişdir yeddi tilsimdən*,
Hələ Ruyindəj olmuşdur gözəl dilbərlərə zindan*.

Könül əylənmək istərkən əqil şahı xitab etdi:
- Həvəs badilə söndürmə həyat şəmini, ey,nadan!

Təfəkkür güzgüsündə sən, nəzər qıl, əksi-can axtar,
Oxu sən "Əhsənüt-təqvim"i çox diqqətlə "Quran"dan*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deyil hər gördüyün hərzə, qiraət etdiyin - işvə,
Deyil aləm sözü möhməl, kəmali-həqqdə yox nöqsan*.

Tamah paltarım şərin əlilə çır, gər aqilsən,
Yu nəfsin heyzini əqlin suyunda, gər müsəlmansan!

Əgər şahin isən, paltar qəmi çəkmə tavuslartək,
Heyiz dovşan kimi görmə, əgər çəngəldə aslansan.

Demişlər torpağı xəlbirlə, bu bazardan ötsən,
Ki, həqq sərrafları çox rizə tökmüşlər qızıllardan.

Qızıl almaq üçün sən xəlbirə torpaq tökən yerdə,
Qızıl torpaqlara töksən, ölərsən ehtiyacından.

Birinci hərfə nöqtə olmağın mənası vardırmı,
Ki, dolğunluq üzündən "Əbcəd"in son hərfi olmuşsan?*

Əgər dünyaya bir meyyit namazı qılmaq istərsən,
Gözün yaşı ilə sən al dəstəmaz, ey didəsi giryan!

Bu dərdü qəm evində, gər, təbibin olsa eyş, işrət,
Kifayətdir, onunla, bil, olar hər dərdinə dərman.

Zəmanə süfrəsi oxşar dolabə, kasələr boşdur,
Kasa gəzdirmək olmuşdur işi çərxin əzəl başdan.

İradə atəşində dəhr əyarın yoxlayıb, gördüm,
Qızıl zəni etdiyin dəhrin pulu kəmmayədir oddan.

Bu sərgərdan fələk yeldir, zamansa bir gəmi olmuş,
Gəmi bir kor kimi aban yelilə qaldı sərgərdan*.

Fələk bir yorğa atdır ki, cıdır meydanı çox dardır,
Qısar quyruğuna boynun, bu meydanda edər cövlan.

Cəfadır hər işi çərxin, sən isə borclu düşmüşsən,
Deyil mümkün ayaq basmaq kənara kəc mədarından.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahan xalqın belində bir məşəqqətli ağır yükdür,
Dözər bu siqlətə sərxoş dəvə, çün məstdir heyvan.

Qovuşmuşdursa iqbalə əgər şahlar bu aləmdə,
Səadətdən ümidin kəs ki, aləmdir sənə düşman.

Kədərlə birtəhər uzlaş, ələmli gündə xoşhal ol,
Saman altında su vardır, kamalında isə nöqsan.

Şikayət etmə möhnətdən ki, səbr ilə Günəş nuru,
Sarı yaquta bəxş etmiş qızıl rəngi, olub taban.

Günəş ol, nurlu iman ol, xərabə evlərə nur saç,
Verər xələt necə üryan gördükdə Günəş hər an!

Əgər dərvişsən, dərvişlərin halına rəhm et ki,
Günəş çılpaq ikən, çılpaqlara xələt edər ehsan.

Əgər öz ruhuna uyğun yoxundur dost aləmdə,
Yaman bir dosta ol qane, meyitdir dostsuz insan.

Necə İsayə bir iynə səfərdə etdi yoldaşlıq,
Ki, təkgözlükdə qalmazdı geri təkgözlü Dəccaldan.

Əgər Simurğsən, dinin Qafında, get, məkan eylə
Ki, "qaf"sız olsa gər ünqa, ünaya çevrilər nalan*.

Silahla dinini saxla, arı şəhdi qorumaqçün,
Zireh geymişdir əyninə, tikandan sazlamış peykan.

Özün Adəm libasında, fəqət, batində zalimsən,
Bütün pis adətə dərsi alıbsan sanki şeytandan.

Demə azadəyəm, aldatma xəlqi bu libasınla,
Hamarsan zahirən oxtək, təbiətcə kobud suhan.

Çəkiclə başına hərdəm döyərlər fil kimi, Çünki,
Düşübsən Kəbə şəklinə, belə dördkünc zindansan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəsindir, az danış Musa hədisindən Yəhudatək,
Ki, doqquz ayə yox, bu yeddi rəngdir şəninə şayan*.

Soyun azadəlik tacını, dərvişlik libasını,
Kimi aldatmaq istərsən qara xirqənlə, ey şeytan?

İuda kimi ciyninə san bir parça tik fövrən,
Görəndə bir müsəlmanı ki, olmuş yadlara dərban.

Çətinlik üz verən gündə səbirli ol ki, acizlər,
Gedər quyruq bular itlər qabağında yalaqlıqdan.

Qoca arvadlara oxşar zinakarlıqda nakəslər,
Pozarlar qüslü, nara oxşamaz onlardakı püstan.

Dönübsən bir su məşkinə ki, gah dıqsan, gah istisqa*,
Açıb hər süfrəyə ol, pay umarsan hər bir astandan.

İmarət axtaran tavus - ayağı gildədir daim,
Tutar dik başını bayquş, o şahdır, ölkəsi viran.

Qara geymiş şəvə azad ad almışdır, fəqət, yaqut,
Geyib atlaz donu, salmış onu qul halına dövran.

Fəqət, dərvişlər arxında vəfadan bir əsər qalmış,
Vəfalı quşsan, ol qane, dən ilə su al onlardan.

Necə azadədir dərviş olanlar dərd çəkməkdən,
Necə möhtacdır cahü cəlala dəhrdə xaqan.

Otuz il çəkdi, ta Xaqaniyə kəşf oldu bu mətləb,
Ki, sultanlıq gədalıqdır, gədadır əsldə soltan.

Əzəl divanına qüdrət yazanda ilk fərmanı,
Əmirlik cümləyə, Xaqaniyə şahlıq verib ünvan.

Özü Azər kimi nəccar Əli Şirvanlı sülbündən,
Bir İbrahim doğulmuşdur, tapar məna bəzək ondan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Soruşsan: kimdi son şair? Fələk söylər ki: Xaqani!
Onunla şer xətm olmuş, onunla bağlanıb divan.

Eşitsə şerimi, bil, Əhməd-Muxtar söylər ki:
- Sağ ol, şair, yəqin etdim ki, sənsən dəhrdə Həssan!

Xorasan eşqi könlümdə günəştək cilvələnmişdir,
Fəqət, ayrılmadım şahın Əraqda ordugahından.

Əraqda Nəsirəddinin vəfatından xəbər bildim,
Deyil tək mən, Əraq oldu bu qəmdə didəsi giryan.

İbrahimin canı inlər, edər həm Kəbə min nalə,
O İbrahimə kim, Kəbə əliylə olmuş abadan.

Mənə həm Nuh idi o, həm də İbrahim idi, əfsus!..
Qalanlar cümləsi naəhldir, Nəmrud, yeri Kənan*.

O idi Əhmədə varis, ona Əhməd xitab etdi,
Ki, "Farüqi-fəriqeynsən" və "züniureyn"i-"Quran"san*.

O, xətti əjdaha möcüzlü Musa çün vəfat etdi,
İlantək qıvrılıb, Musa kimi huş uçdu başımdan*.

Gecə qətran, günüz kafur olan gündən bulud hasil,
Ki, dönmüş gözlərim kafurə, olmuş paltarım, qətran.

Əgər kafur ilə qətran edir məhrum uşaqdan bəs,
Necə onlar mənə doğdu qəm ilə dərdi - qız, oğlan!

Əmoğlu dərdi od vurdu, oduntək canımı yaxdı,
Damarlarım kül oldu tüstüsü çıxdı damağımdan,

Sözüm matəm libası geydi, susdum mən də Məryəmtək,
Ölübdür İsayi-sani, sükut etdim, olub büryan*.

Deyin, bilsin Əli, dövran yetirdi qətlə Osmanı,
Əli dünyanı tərk etsin ki, ayrı düşmüş Osmandan.

Vəhid ölmüşdü - İdrisi və Loğmanı bu dövranın,
Əcəl çatdıqda, acizdir həmi İdris, həmi Loğman*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

14. SULTAN SƏNCƏRİN HƏBSİ VƏ MƏHƏMMƏD İBN YƏHYANIN VƏ FATI HAQQINDA

Gördüyün abad Misir xərab olubdur yaman,
Kəramətli Nil çayı səraba döndü haman.

Səadət sərvi döndü şərr odunda gömürə,
O gömürdə ciyərlər yaxılıb oldu büryan.

Müsibət tufanında axan göz yaşlarıyla,
Göpüklənən qanlı sel qübbə yaratdı qandan.

Göz yaşları qırx qarış qalandı torpaq üstə,
Bəlkə qırx addım uca qalxdı ay işığından.

Sağlamlığın surəti, bir də rahatlıq izi,
Baxanların gözündən pərdədə oldu pünhan.

Könül vermə fitaəylə əlbir olan dünyaya,
Qal o filin halına ki, zövq alır yuxudan.

Ömür vəfasız olmuş, qəza isə amansız,
Tale dönüb, dəhşətlər asılmış yaxamızdan.

Qəza atı qaçanda küləkçatmaz olsa da,
Sonsuz gecə ahıdır sizi ondan qoruyan.

Püskürən atəş verər bitkilərə min əzab,
Əzabdadır od özü lal axan yumşaq sudan.

Dünya zülm evi oldu, aqillər hara getsin,
Arı nə şirə çəksin, zəhərlənib gülüstan.

Yer kürəsi titrəyir qızdırmalı qocatək,
İztiraba düşübdür amanverməz qovqadan.

Sən dünyanın işini dünya üçün əzab bil,
Necə qartal lələyi tutdu özünə divan*,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fələklərin bəzəyi matəm libası oldu,
Ulduzların üzünə niqab düşdü qaradan.

Dördüncü fələk belə matəm evinə döndü,
Günəşin matəmində Cəbrail ağlayır qan.

Təziyə məktubunu çatdırmaqçün aləmə,
Gecə-gündüz olmuşdur iki göyərçin inan!

Xəyalın çal-çapında axan qanda boyanıb,
Atlas geymiş hinduya oxşadı göydə Keyvan.

Darayarkən gecənin saçlarını fələklər,
Dövranın ağ saçına ənbər səpdi asiman.

Fələyin çalğı çalan əli işə başlayıb,
Gecədən tel düzəltdi, hilalı etdi kaman.

Gördüm: səf çəkib, ağlar göy üzündə mələklər,
Səhərin azançısı qalxıb verəndə azan.

Qulağına səhərin dedim: bu halət nədir?
Çərxin büsatı dönmüş, halı olmuş pərişan?

Ciyərindən bir odlu ah çəkib səhər dedi:
- Əfsus ki, təməlindən alt-üst oldu Xorasan.

Fələk Məhəmməd Yəhya başını verdi bada,
Səncər düşdü zindana, möhnət oldu zindanban*.

Bu şah dustaq olarkən xəlifə batdı qəmə,
Bu imamın qətlində peyğəmbər oldu giryan.

Təsadüfən duzlüyün telini qırdı bidət,
Qayda-qanunu pozub, göyə yüksəldi şeytan.

Öz qızıl silahını çəkmə, ey Günəş, yenə,
Səncərin qılıncı, bax, qına girdi qəzadan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey Müştəri, o əlvan ridanı at başından,
Məhəmmədi - Yəhyanı boğdu artıq teyləsan.

Dada yetiş, ey Adəm, yurdun xərabə qaldı,
Sənin o nəcib oğlun ölüb getdiyi andan.

Sən ey can gülşəninin bülbülü, zar-zar ağla,
Xoş ötən qumru uçdu şəriət budağından.

Ey hidayət əlinin zülfüqarı, pas at ki,
Elmin Əbutürabı torpaqda oldu pünhan*.

Xaqani, bu əsrdə vəfa umma kimsədən,
Bu darısqal dünyada əsər yoxdur vəfadan.

Hadisələr filinin ayaqları altında,
Vəfa Kəbəsi olan Xorasan qaldı viran.

Sən arzu edirdin ki, Xorasana gedəsən,
Fikrindən daşın, göçdü oradan omnü aman!

Bu səfər həvəsini qatla, qoy bir kənara!
Sənin taleyin kimi dəyişib, döndü dövran.

Könül dərdiylə uzlaş, qal Şirvan məhbəsində,
Bu dərdi azuqə al, məhşər gününə yollan!

Çox başağrısı çəkdi gül kuzənin içində,
Dönüb gülaba, oldu baş ağrısına dərman.

Son iqbal quyusundan su çəkməyə tikmə göz,
O dolçalar deşilib, iplər didildi çoxdan.

İllər keçər taleyin sənə kömək edincə,
Dörd aydan sonra ancaq şərab olar qəradan.

Üzlət səni dünyada səadətə çatdırar,
Ömrün boyu bağlanan qapıları açarsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzlətin ver əlidir əqlini zəngin edən,
Necə bulud varlanar dənizin ehsanından.

Qara qarğa xəlifə paltarı geyinsə də,
Simurğ alıb bu adı, olub quşlara soltan.

Dövran boşboğazların atı yanınca getsə,
Möcüz olmuşdur sənin şerinə cilov tutan.

Zəmanə naqisləri əvvəl-əvvəl əzizlər,
Başlar kiçik barmaqdan hər şeyi hesablayan.

Küləkdir, buludları qovaraq təbil çalır,
Qorxma bu yaş dünyanın quru gurhagurundan.

Ağıl qəsrində oldun quşların ən yaxşısı,
Düşməninsə cəhalət çölündə rəzil heyvan.

Dedin: Ey Allah, qurtar tamah əlindən məni,
"Amin" nəyə lazım ki, qəbul olunmuş duan.

15.

Cahanda qəmlərimi təkcə bir duyan var idi,
Fərəhli günlərim olmuşsa, o səbəbkar idi.

Görübsən ac quşu, bir danəni necə qaçırar?
Elə qaçırdı mənim qəlbimi kədərlə qübar.

Fələkdən istədiyim bir qarın çörəkdi əgər,
Fələk dedi: - Ciyərini yeyər sənin kimilər.

Hər ay başı mənə bayram büsatı qurdu fələk,
Hilal boş qabını göstərib dedi: - Ye görək!

Qəhətlik ildə zəkat istədim fələkdən mən,
Neçə çanaq külək ölçdü, dedi: - "Apar məndən!"

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedim: Yanar gecə bəxt ulduzum, oyaq qaldım,
Kor etdi üstü məni, istiyə damaq qaldım.

Əlimdən aldı səadət ümidini qürbət,
Könül ziyanı apardı, qazancı - qəm, möhnət.

Əlim çatar nəyə Təbriz kimi şəhərdə? Budur,
Yarım çörək və gözümdə Acıçayın suyudur*.

Bizim toxumdan olan torğara düşüb qalmış,
Toxum bu torpağın altında dinçini almış.

Toxum göyərsə əgər, möhnətə düçar olacaq,
Kədər orağı biçib başım, yerə salacaq.

Əlindəki odu əzdim əlimlə, yandı fələk,
Odur məni qəm ayağıyla əzdi torpaqtək.

Qarışdı qanla su, kirpiklərimdən axdı yerə,
O torpaq udunu döndərdi atəşin göhərə.

Məni bir ömr qəmin pəncəsində əzdi zaman,
İzzəddinin ölümü bağrımı edibdir qan*.

Məzarı üstə, xəcalət çəkib, oturdu fələk,
Axıtdı torpağına qanlı göz yaşın seltək,

Qatıb da göz yaşı Ay, kəhkəşan torpağına,
Suvaq hazırladı aliməkan torpağına.

Dedim: - Fələk, nə edibsən, bu nə fələkətdir,
Məgər bizə qan içirmək sənincin adətdir?

Fələk utandı işindən, qopardı ahü fəğan,
Qulaqlarımla eşitdim ki, ağlayırdı o, qan.

Şəriət əyninə dinin əli biçəndə libas,
Onun sözü, qələmindən ən-arqac aldı əsas.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, dinə Mehdi ikən, halımı görüncə yaman,
Məsih oldu mənə, etdi dərdimə dərmanı*.

Vüqarı, hörməti, təmkini rəhbər oldu mənə,
Bu can, bu şan ilə şövkət müyəssər oldu mənə.

Mənim, neçə-neçə, Təbrizdə yaxşı dostum var,
O, təkcə dost idi ki, dosta can edərdi nisar.

Nə bağlayir məni Təbrizə, yoxsa İzzəddin?
Onunla arzularım torpağa gömüldü yəqin.

16. ƏMİSİ KAFİYƏDDİN ÖMƏR İBN OSMANIN ÖLÜMÜNƏ

Ahımla cigər yandı, kəsilmiş nəfəsim də,
Yox dərdimi şərh etməyə bir həmnəfəsim də.
Dostlar mənə pay verməyir, ölsəm də acımdan,
Göstərməyir üz Ay işığı çünki bacamdan.
Həmdəmsiz, inan, ömr hədərdir bu cahanda,
Qolsuzsa əgər, üzgüçü neylər boğulanda?
Ümmid eləyirdim ki, vəfadar taparam mən,
Əfsus ki, vəfa gövhərini vermişik əldən.
Yox kimsə, fəqət, qəmlər olubdur mənə həmdəm,
Dost yoxdur, olub yoldaşım ancaq quru gölgəm.
Yox kimsəyə meylim, məni dövran eləyib xar,
Qurd dişləyən insan suya meyl eyləməz izhar.
İndi o qara bəxtli, qara günlü mənəm, mən,
Qəflət yuxusu daştək asılmışdı gözümdən.
Yandım - əridim şam kimi, öldürdü məni qəm,
Yaydan çıxan oxtək yayılır aləmə naləm.
Odlu nəfəsim isti dəmirci kürəsindən,
Civə kuzəsi ağzı genişdir ürəyimdən.
Ancaq yenə də xoş günə ümmid var, əlbət,
Bir qətrə sudan inci yetirməzmi təbiət?
Sən zəhmətə qatlaş ki, rahatlıq yaradandır,
Yetkin və təmiz mey ki, var, o kal qoradandır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər nə ki, doğulmuş, onu bəxş etdi təbiət,
Dolda su çıxırsa, quyudandır bu kəramət.
Dəlirin gedişin dərk eləməz qəlbsiz olan kəs,
Xəlfə adına saxta qızıl sikkə götürməz.
Bu hadisə yaxdı məni, tüstüm göyə çıxdı,
Dad, möhnət əlindən ki, mənim şirəmi sıxdı.
Avarə topam ki, nə əlim, nə ayağım var,
Yonduqda əzərlər, oyun olduqda qırarlar.
Solğun bənizim bir oda düşmüş gülə oxşar,
Gah tərləyirəm, gah canımı çulğayır odlar.
Arpa ki, yoxumdur, nəyə lazım bu çuval-qab?
Qəlbimdi bənövşə, gözümün yaşıdır inab.
Oldum qoca o Zal kimi lap görpə ikən mən,
Çünki məni dostlar hamısı saldı nəzərdən.
Xalq vermədi, şadlıq mənə ümmid gətirdi,
Zalı atası atsa da, Simurğ götürdü.
Hümmət dedi: mal-dövlət əgər gəldi, uzaq et,
Üzlət dedi: yoxsulluq əgər gəldi, qonaq et
Bir qəlbdə şöhrət ola, hörmət ola bilməz,
Nizə edilən qarğıda şərbət ola bilməz.
Alçaqların açma qapısın, eylə qənaət,
Baxma hilala sap kimidir, bədr olar əlbət.
Sincab geyimindir, Günəş isə Sərətanda*,
Günlər gödəlir, artmaz adın, bil, bu zamanda.
Dövran nə zamandan bəri şadlıq edir ehsan?
Səqlabda haçandan bəri fil bəsləyir insan?*
Ummaz bu cahandan kərəm hər aqil olan kəs,
Zərrab balığın pulunu sikkə kimi kəsməz.
Dəhrə çəkib, ey dəhr, mənim qanımı tökmə,
Qanı axacaqdır özü, sən dəhrəni çəkmə!
Qəssabı çağırmaz balığı kəsməyə kimsə.
Ölmüş görəcəkdir balığı, şayəd o gəlsə.
Xaqani, cahan zülmü ipə bənzəyər, hərdəm,
Tov versən ona, bağlayacaqdır daha möhkəm.
Bir pul ki, qədər verdi, əsil, saxtası olmaz,
Bir söz ki, qəza yazdı, yalan, doğru-pozulmaz.
Aləm xətinə xət çək, özün bir kəsə satma!
Qəlbin bədənindən ayır, əmlakə can atma!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahil olana sözlərinin mənası çatmaz,
Çör-çöp həmişə üzdə gəzər, dəryada batmaz.
Söz oğrusu, söz sərrafı heç vaxt ola bilməz,
Kəndir eşənə kəndirbaz adı verilməz.
Nə oldu o hər kəlməsi hikmət dolu insan?
Nə oldu ədəb kanı, hünər bəxş edən o can?
Nə oldu fəzilətdə bütün varlığa gövhər?
Nə oldu əmim Kafiyəddin, ali nəsəb ər?
Nə oldu mənim varlığımın hamisi? Getdi!
Əmi demirəm, Çünki, atamı əvəz etdi.
O, həm mənim, həm əcdadımın fəxri, pənahı,
O, nəslimizin həm bugünü, həm də sabahı.
O, təbimə yol açdı mənim, tutdu əlimdən,
O getdi, nəyim vardı, tamam getdi əlimdən.
Təbim əmimin hümməti ilə belə parlar,
Qüvvət alır, əlbəttə, beyindən bu damarlar.
Pisliklәri dəf etdi o, hikmət çəmənindən,
İnsafa çağırdı bizi, div qaçdı önündən.
Osman atası, ismi Ömər, fikri münəvvər,
Əqlində Ömər Xəyyama, Xəttabə bərabər.
Oxşardı iki şəxsə hər hikmətdə o, şəksiz,
Bir həzrəti İsa, biri də həzrəti İdris.
Vermişdi Ay, ulduzlar onun təxtinə seyqəl,
Üstürlıbı Ay, qövsi-quzeh çəkdiyi cədvəl.
Məktəbli uşaq olduğumu dərk elədim mən,
ol vaxt ki, bir oğru göhəri qapdı əlimdən.
Hindli nə bilir indi bu qəlbimdə nələr var,
Bilməzsə kiməm, geydirəcək sadəcə paltar.
Çün beytlərin sayı gəlib qırx beşə çatdı,
Qurtar sözü, şair ki, bu şerin, başa çatdı*.

17. YENƏ DƏ MƏRSİYƏ

...Mümkün olaydı kaş, canım balü-pər açа*,
Simurğtək bu göhnə qəfəsdən çıxıb uca.
Bir məskənə gedəm ki, əzəldən olub məqam,
Faniliyi atıb, orada aşiyan quram.
Qaldım əlində fitnə-fəsadın bu gün əsir,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu kündəli ayaqlara bax, gör, nə cür əsir?
Qalmış bu göy qəfəsdə vücudum, nə eyləyim?
Qəmxanəmi nə növ ilə viranə eyləyim?
Heyrətlər ümmanında yaman qərq olub canım,
Bir yer tapılmayır, özümə mən pənah sanım.
Hər gün günəş batanda, gələndə o kölgələr,
Ancaq, soruşmağa məni də qəm, kədər gələr.
Zəmzəm kimi bu gözlərim ağlar zaman-zaman,
Kəbə önündə sinəmi yırtıb, edim fəğan.
Heyrət oduyla varlığımı yandırıb bəla,
Vermiş müdam güllərimi bu fələk bada.
Sərvət nə axtarım, mənə torpaq nəsib olub,
Bilməm nə bağ salım ki, gülüm əkmədən solub.
Xəncər dilimlə ox kimi bu sözlərim yəqin,
Olmaz dəvası qövr eləyən sinə dərdimin.
Verdi fələk bu xırmanımı badə yüz kərə,
Saldı əcəl də gövhərimi qarə yerlərə.
Qəlbimdə ah, ah, mənim şimşək oynadı!
Qəmlər seli başımdan aşıb coşdu, qaynadı.
Zalım fələk həmişə pozub dəmli çağımı,
Söndürdü qəm yelilə o şadlıq çırağımı.
Etdi həyat gülşənimin güllərin xəzan,
Söndürdü bəxt ulduzumu alçaq asiman,
Sındırmaq istədi bu sənubər vüqarımı,
Aldı ölüm balam deyilən novbaharımı.
Hicran odu soyutdu mənim isti canımı,
Gör bir, necə dağıtdı fələk xanimanımı.
Əs, ey səba, o Qüdsə tərəf eylə bir səfər,
Çatdır bu odlu ahımı yəzdanə birtəhər.
Söylə ona ki, getdin əgər qüdsi aləmə,
Döndərdi bu həyatımı dərdin cəhənnəmə.
Göylər sənə əgərci olubdur bu gün məqam,
Mən isə Müştəri kimi sərgəştə olmuşam.
Dərdin, müsibətin sənin, ey həqq nişanəsi,
Fəryad edən könül, eşidilməz fəqət səsi.
Hər kəs çatar həyatda əgər nazü nemətə,
Fövtun salıb məni necə gör dərdü möhnətə.
Qüssənlə parə-parə olub könlüm, ah, aman,
Bir halqatək qapında qalıb, eylərəm fəqan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

18. SƏDRƏDDİNİN VƏFATINA

Bu dünya bənzəyir bir peymanəyə,
Doldusa, yəqin ki, boşalacaqdır.
Sədrəddin öləndə, yeri boş qaldı,
İnam yox: bir də bu yer dolacaqdır.

19. VƏHİDƏDDİNİN VƏFATINA

Vəhid üçün darıxırdım, hicran məni əzirdi,
Görüşünə can atdımsa, baş tutmadı heç zaman.
Qulağıma gəldi onun "vəfat etdi" xəbəri,
Qulağımın deşiyindən çıxdı canım, ah, aman!

20. BƏHAƏDDİN ƏHMƏDİN VƏFATINA

Ürəyimdə tapılmaz bir nişanə fərəhdən!
Xilas edə bilmərəm canımı dərdü qəmdən!

Dərdə qalanlar hamı, əfsus, ölüb getdilər!
Xəbər gəlməz varlığı yoxluğa tərk edəndən!

Zülm əliylə qırıldı asimanın zənciri,
Dadına çatan olmaz, hər nə qədər səsləsən!

Yerdə qoluzorlular gündə yüz min qan tökür,
Göydə yoxdur tökülən qana qisas istəyən!

Göydə iki çörək var: biri sarı, biri ağ*,
Fələk süfrənə qoymaz bir tikə o çörəkdən!

Başının kasasında sevda qazanı qurma!
Sən bu qara kasadan çətin xörək yeyərsən!
Bu iki rəngli dünya azadələr başına,
Çələng qoymayacaqdır tavusun taleyindən!

Gəlininə yəqinin kəbin kəsilməmişsə,
Könül ayrılan deyil talaqla fərziyyədən!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şoranlıqdan axarmı suyuşirin çeşmələr?
Əhdə vəfa gözləmə bu zəmanə əhlindən.

Ey Xaqani, hər zaman zəmanədən həzər qıl!
Zəmanədən yapışsan, zaman görməyəcəksən!

Div təbiətli dövran aman verməyəcəkdir:
Aman tapsın insanlar amansızlıq əlindən!

Xaqaninin vücudu tükənməz xəzinədir,
Xaqanlara, xanlara o bağlanmaz ürəkdən!

Bu məqamı tapınca ürəyi, elə xoşdur,
Ağalara qalmamış o xoş ürəkdə məskən!

Abrını tökərək, bir tikə haram çörək,
Miniətlə qəbul etməz Tuğan ilə Təkindən!

Abır ki var insanda, ən böyük kimiyadır,
Şüurlu insan verməz bu kimiyanı əldən!

Zəmanəyə yalvarıb, tələb etmə səadət,
Verməyəcək onu ki, verməmişdir əzəldən!

Ömür bir həftədirsə, sərvət altı günlükdür,
Dünyanı versələr də, o bir günü vermə sən!

Kainatın gözünə çəkilməz din sürməsi
Bir Xütən ahusunun kiçicik göbəyindən!

Xəlqlərin sevimli rəhbərinin dalınca,
Səadət, kamranlıq göçdü bu yer üzündən!

Bəhaəddin yox isə, necə bizim zəmanə
Üz tutaraq göylərə, deyəcəkdir: - Mənəm, mən!

Əhməd kömək etməsə ulduzlara səmadə,
Onlar bəxti, taleyi edə bilməz müəyyən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

21. ŞEYXÜL-İSLAM ÜMDƏTƏDDİN MƏHƏMMƏD İBN ƏSƏD TUSİ NİŞABURİNİN VƏFATINA

O pirimiz ki, sübhliqa Xızrdır adı,
Hər sübh Xızr çeşməsidir ağzının dadı.
Alçaq olar önündə o Cəmşid gövhəri,
Xamdır yanında, bil ki, günün nur cövhəri.
Qüdsün odur müridlərinə təkcə rəhnüma,
Bəzən də təkələrdə olar xəlqə pişva.
Orda tutar sağ əldə o, səccadəni müdam,
Burda sol əldə xalqa verər mərifətlə can.
Vüsətli xanəgahının yeridir səqfi-asiman,
Bundan da ülvilikdə edər, istəsə, məkan.
Qoysa ayağını o səfadən əgər kənar,
Əshabi-Kəhf Şamda o dəm biqərar olar.
Əqsay məscidində alar dəstəmazını,
Bil, Məscidul-həramda qılar o nəmazını.
Saldı kəraməti onun ümmana körpülər,
Odlu səmayə eyler, əgər istəsə, səfər.
Hər gün fələk calalilə Şərqin səhər donun,
Nurlar saçan günəştək üzündən alıb onun.
Zülmət içində nur kimi o, parlayıb yanar,
Sərməstdir həyatda, o, camsız olub xumar.
Haqq nurunu o yollarına eyləyib çıraq,
Heblülmətin ona belə yolda böyük dayaq.
Ayla günün də aynasına baxmaz heç vədə,
Verməz könül bu rəng dəyişən sübhə-şamə də.
Taydır əbası bu fələyin göy qəbasına,
Təsbihi də bərabər onun Sürəyyasına.
Hind cövzütək dolubdur içi beyninin tamam,
Çin müşkütək ətirli olur ondakı kəlam.
Ənqa - qarışqası o səxavətli süfrənin,
Zal da qarışqatək olub ənqayə həmnişin,
Zaltək qoca görünsə uşaqlıqda, aqibət,
Rüstəm kimi salıb o divin boynuna kəmənd.
Ürfan ilə odur bizə hər anda nur saçan,
Nurla odur bu torpaq üzündə səhər açan.
Kürkündə düymələr elə bil çərxin ulduzu,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zülmətdə parlayar onun ulduz kimi üzü.
Gahdan da göy geyər bu uca asiman kimi,
Qoynu xəzinədir, doyurar görsə hər kimi.
Bəzən o ağ geyər, elə bil çağlayan sudur,
Əzası göstərir ki, həyata bəzək budur.
Gahdan da Gün kimi o, libassız camal açar,
Üryan olan fəqirlərə hər yerdə nur saçar.
Adəm vücudunun "əlif ǐ, "dal"ı, "mim"idir,
Qırx gündə dörd əsillə yaranmış həkimidir*.
Ondan görüb "əlif' ki, namaz vaxtı qəd çəkər,
"Dal" ilə "lam" kimi əyildikdə bel bükər.
Gahi Büraqtək ötər o yeddi göyləri,
Gah yeddi başlı divi edər ram gövhəri*.
Şəmşirdir onun nəfəsi cəhli kəsməyə,
İşdə, əməldə sufidir o, "mən, mənəm" deyə.
Aşiqdir eşqə, eşqi onu etdi paydar,
Məcnuni-Amiri kimi eşqində bərqərar.
Baxdıqca göz o surətə, doymaz, yenə baxar,
Bir çöhrə ki, üzündən onun nur süzüb axar.
Vermişdir aynaya o, gözəllik məziyyəti,
Göstərdi qibləyə əzəli istiqaməti,
Tufan içində eşqə odur Nuh hər zaman,
Sam ilə Ham ilə olub asudə, şadiman*.
Meynə kimi gözündən onun mey süzər müdam,
Şadlıq odunda müşk kimi ətrdir təmam.
Vəcdə gələndə qumru kimi rəqs edər müdam,
Şux gözlərində eşq sözü tapmış intizam.
Heyrətdədir fələk, baş əyər ehtişamına,
Yer rəqsini görüb, ucalar göy məqamına.
Yeddi fələk gərək ki, o pirə mürid ola,
Məskən gərək bu fəzl ilə səkkiz behişt ola.
Gəldi Məsihtək soruşa qəmli halımı,
Yox eyləyə vücudu əzən bu məlalımı.
Baş ağrısından indi əlim başda görpətək,
Görpə anasına başını söykəsin gərək.
Çəngəm, yanımda indi rübabım mənim hanı?
Boşdur xəzinə, yox daha o sərvət imkanı.
Göy mətbəxində isti, soyuq - var iki çörək,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olmuş fəqət bu süfrədə onlar mənə yemək.
Qəm mərd üçün qidadır, o dünyaya uymasa,
Qan şəmşirə ciladır, əgər qında olmasa.
Rədd eylədi o, dünyanı, güldü bu aləmə,
Güldükcə o, şərarə töküldü bu aləmə.
Sərdabəni görəndə o, tərk etdi hücrəni,
Döndərdi hücrədən əbədi nurlu çöhrəni.
Əyləşdi, xütbə ilə mənə eylədi xitab:
- Müşküllərin var isə, sual et, verim cavab.
Fındıq kimi qapalı işarətlə dinlə son,
Aydın badam kimi mənə söylə nə istəsən.
Sordum ki: - Söylə, çatmaq olarmı mələklərə?
Mümkün olar, - dedi, - əgər bağlanmasan yerə.
Mümkünmü, öldürəm, de, canda olan bu divi mən?
Əlbəttə, gər əlində qılınc olsa şərdən.
Ərz eylədim ki: - Çapmaq olar göydə göhləni?
Bağlansa zəhmət ilə, - dedi, - yıxmaz o, səni.
Sordum ki: - hardadır mədəniyyət xəzinəsi?
Orda ki, - söylədi, kəsilə nəfsinin səsi.
Çıxmaq olar, - dedim, - belə bir vadidən məgər?
Bəli, - dedi, - səməndini sən bəsləsən əgər.
Yeddi şahın, - dedim, - sözünü söyləmək olar?
Mat qalmasan oyunda, - dedi, - eyləmək olar.
Xaqani, qəm libasını oğlun geyindirib sənə,
Mürşid əzasını qara dontək gey əyninə.
Ruhlar hamı geyindi bu gün qəm libasını,
Göçmüş görəndə bir belə hümmət balasını.
Şeyxül-əimmə, ümdeyi-din, düz yola imam,
Sədrül-şəriə, söhbəti-həqq, müftiyi-giram.
Bir elm Kəbəsi, qələmi, məclisi, təmiz,
Zəmzəmlə qarə daşa bərabərdi, şübhəsiz.
O, Zəmzəm idi, cümlə cahan təşnələr kimi,
0, Məkkə idi, xəlq sevən sinələr kimi.
Zəmzəm kimiydi, bil ki, dilim vəsfinə müdam,
O Məkkədə nə cür ki, daşa eylədim salam.
O, Bu-Hənifə rütbədə və Şafei-bəyan,
Kufəylə Misr, həm də Nişabura pasiban.
Tərk etdi ta Nişaburu pakizə xilqəti,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təbriz tapdı burda Nişabur hörməti.
Təbriz adəti yenə Təbrizdədir təmam,
Təbriz onunla oldu yeni Rövzətüs-səlam.
Kufə qılıb o, Təbrizi, qurban olum ona,
Layiq göründü burda bu torpaq ayağına.
O hümmət ilə tapdı Atabək yeni həyat,
Sultan ilə bu gün ona gəldi böyük səbat.
Sultan ilə Atabək onunla səfər qılıb,
Ayla günəş şəfəqsiz olub, nursuz qalıb.
Getdi o, sinələr hamısı dağlanıb bütün,
Ay pərdədə tutuldu, günəş gölgədə bu gün.
Çin Tibbəti yaratdı onun ülvi türbəsi,
Müşk ilə ənbərin yayılıb artdı rütbəsi...
Şərq ilə Qərbdə elə pirdən bu ümmətə
Düz yol göründü həqq ilə düz istiqamətə.
Gövhər kimi o, ümməti düzdü ipək sapa,
Ümmət bu sapda bəlkə dönüb intizam tapa.
Cahü cəlalı bayram ayı ehtişam ilə,
Zatı onun orucluq ayı ehtiram ilə.
Kimdi Qəzali, ya ki, Cüveyni, o idi tək,
Olmaz ona Nizam, Gündərini tay eyləmək...*
Öldü o pir, indi nə zülmət, nə nur gərək,
Ruh yoxsa, bu vücudə nə kədər, nə şur gərək.
Neylər qələm-kitabı, əgər yoxsa o imam,
Sərkərdə yoxsa, de, nəyə lazımdır at, nizam.
O, sureyi-həqqayiq idi, mən də ayəsi,
"Həqq ayəti" demişdi mənə çünki naməsi.
O namə bir duaydı Ənidü Rəqib üçün*,
Müşk-ənbərin içində onu saxlaram bu gün.
Bu namə bir sənəddi mənə ta ki, mən varam,
Namə deyil, o "ürvəyi-vüsqa liənfisam"*.
O yeddi üzvümə asılan yeddi tilisim,
Saxlar məni bəladən o, pis gözlə baxsa kim.
Alnımdadır o namə qiyamət günündə də,
Heyrət doğru yəqin, onu orda görəndə də...
Vəsfi "Quran" kimi bizə mütləq məram olub,
Paka həlal, napaka ancaq həram olub.
Onsuz bir an qələm götürüb yazmaram daha,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həssan yazarmı yoxsa Məhəmməd bu dünyada?
Sinəmdə qövr edir hələ də oğlumun dağı,
Şeyx ilə getdi bir də bu dağın sağalmağı,
Yüz oğlum olsa da, ona mən qurban eylərəm,
Gəldi əcəl, bu günsə fəqət əfğan eylərəm.
Yandırdı ağutək qara hicranı könlümü,
Mümkünmü bir də şad edə dərmanı könlümü?
Bir "Qaziyəl-qüzat, həccətül-islam, Zeyndin"*
Asan bu cahanda qalar daima yəqin.
Həqqin qılıncı Əfzəli-ibni-Məhəmmədi,
Tale yaratdı, ta qorusun o həqqiqəti.
Qoy dinləsin duanu xudavəndi-laməkan,
Bir də eşitməyim belə bir dərdi heç zaman.
Bir qiblədir vücudu onun əhli-həqq üçün,
Eylər salam göylər ona böylə həqq üçün.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜXTƏLİF ŞEİRLƏR

1. MƏDAİN XƏRABƏLƏRİ

İbrətlə bax, ey könlüm, bu aləmə, gəl, bir an,
Eyvani-Mədaini ayineyi-ibrət san*.

Dəcləylə güzər eylə bir dəfə Mədainə,
Bir Dəclə də sən gözdən torpağına tök nalan.

Bax, Dəclə tökər gözdən yüz Dəclə qədər qan-yaş,
Göz yaşı deyil, atəş süzməkdə yanağından.

Bax! Dəclə göpüklənmiş, hər dalğa dodağında
Bir eylə uçuqdur ki, doğmuş ürək ahından.

Gör, Dəclənin həsrətdən bağrı nece yanmışdır,
Söylə, eşidibsənmi, su odda ola büryan?

Dəryaya verir Dəclə illərlə tükənməz qan,
Sən Dəcləyə bir pay ver, gözdən tökərək al qan.

Qopsa dodağından ah, qəlbindən alov hərgah,
Tən yan donar Dəclə, tən yan saçar vulkan.

Zəncirə düşən Dəclə zəncir kimi qıvrılmış,
Eyvani-Mədaini görcək yer ile yeksan.

Göz yaşları dil açsın, eyvana xitab etsin,
Bir kəlmə cavab alsın qəlbin qulağı ondan.

Başlar öyüdə hər an diş-diş divan qəsrin,
Sanki dil açıb, söylər tarixini hər dəndan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bayquşların ahından ağrır başımız daim,
Göz yaşı gülabıyla et dərdimizə dərman.

Hər bülbülü bir bayquş, hər nəğməni bir növhə,
İzlər bu cahan içrə, olma buna, gəl, heyran.

Biz ədl sarayıykən, zülm ilə xarab olduq,
Zalimlər olan qəsrə, gör, neyləyəcək dövran.

Sarsıtdı kim əflaka qalxan belə eyvanı,
Göylərdəki qüvvətini, etdi ya fələk viran?

Ağlar gözümə güldün, sordun: Bu nə - matəmdir?
- Çox gülməlidir burda hər ağlamayan insan.

Nə zali-Mədainin Kufə qarısından kəm*,
Nə hücrəsi təndirdən naqis tutular bir an.

Kufəylə Mədaini mənada bərabər tut,
Təndir qala qəlbinlə, gözdən tələb et tufan.

Bir vaxt bu eyvanın astanasını üzlər,
Saldıqları nəqş ilə etmişdi nigarıstan.

Burda nökər olmuşdur Babil şahı illərcə,
Bu qəsrə qulam olmuş bir vaxt şəhi-Türküstan.

Etmiş buradan bir gün şiri-fələkə həmlə,
Cürətlə o aslan ki, yonmuşlar onu daşdan.

Zəni eylə o əyyamdır, fikr ilə nəzər sal, gör,
Dərgah haman dərgah, meydan haman meydan.

Söylər: ayağın bərk bas, göz yaşını tök rahat,
Biz torpaq olub getdik, sən də diri torpaqsan.

Atdan yerə en, üz sürt torpağına, seyr eylə,
Fil pəncəsi altında, şahkan, mat olub Neman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yox filləri Nemantək torpağa salan şahlar,
Fil kimi gecə-gündüz onları əzər dövran?

Təqdirə baxın, bir vaxt fil aciz edən şahlar,
Şahmatda qalıbdır mat - bir fil kimi sərgərdan!

Nuşirəvanın qanın Hürmüz qafa tasında,
İçmiş, belə məst olmuş torpaq dediyin ətşan.

Tacında onun bir vaxt vardısa nəsihətlər,
Minlərcə nəsihət var beynində bugün pünhan.

Kəsra ilə narıncı, Pərviz ilə tərxunu,
Çoxdan unudulmuşlar, torpaqla olub yeksan.

Düzdürdü qızıl tərxun öz süfrəsinə Pərviz,
Süfrə bəzənib, oldu zər səbzəli bir bostan.

Pərviz yox olmuşdur, ondan daha söz açma,
Get, "Kəmtərəku" söylə, zərdən tərə yox əlan*.

Sordun: - Hara getmişlər indi o böyük şahlar?
Bir hamilədir torpaq, çox udmuş o, şah, xaqan.

Çox gec doğacaq torpaq, qayda belədir əslən,
Tez nütfə tutan kəslər doğmaz o qədər asan.

Meynə yetirən meydir Şirinin ürək qanı,
Pərviz cəsədindəndir ol küp ki, qoyar dehqan.

Udmuş nə qədər, bilsən, zalimləri bu torpaq,
Lakin, yenə doymaz bu acgöz adam udmaqdan.

Görpə qanını sürtər rüxsarına ənmiktək,
Bu döşu qara kaftar, ağ qaşlı bu bmiman.

Xaqani, bu dərgahdan sən daima ibrət al,
Ta almaq üçün ibrət gəlsin qapına xaqan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dərviş bugün umsa şahlar qapısından pay,
Dərvişdən umar bir gün ruzi, onu bil, soltan.

Adət belədir: Məkkə töhfə verər hər şəhrə,
Sən töhfə Mədaindən al, qoy bəzənə Şirvan.

Hər kəs aparan təsbeh çün Cəmrə gilindəndir,
Təsbeh al o yerdən ki, torpağa donüb Səlman*.

İbrətlə bu dəryaya bax, dadlı suyundan iç!
Olmaz keçəsən ətşan bu Şətt kənarından*.

Kim gəlsə səfərdən, bil, bir töhfə verər dosta,
Qoy ərmağının olsun hər dostuna bu dastan.

Bax, gör ki, bu şer içrə nə sehr yaratmışdır,
İsa kimi bir sərsəm divaneyi-hikmətdan.

2. ŞİRVANIN TƏRİFİ

Şirvan ki var, hər cəhətdən ülviyyətin anasıdır,
Onun hər cür səhər yeli dərdlərimin dəvasıdır,

Mən vətənə qurban olum, qurulmuşdur sədaqətdən,
Bağdadı da dolandıran onun bollu qidasıdır.

Şirvan əhli alicənab yaranmışdır, başdan-başa
O yer gözəl təbiətli bir lətafət məvasıdır.

Bağdad isə bir əlillər ölkəsidir, orada, bax,
Hər tərəfi çulğalayan ahü nalə sədasıdu-.

Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,
Gözləri tox, ürəkləri sanki kərəm dəryasıdır.

Çörəkləri arpadan da olsa, yenə qanedirlər,
Düyü qədər pulu olsa, qürrələnməz, ədasıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi Şirvan mənə həsrət qalmış ağır intizarda,
Çünki, ora ədəb yurdu, cəsur şirlər yuvasıdır.

Mərifətdə Şirvan əhli yüksək durur ərəblərdən,
Xaqaniyə həyat verən doğma yurdun havasıdır.

3. SAVALAN DAĞININ TƏRİFİ

Səadət qibləsi Savalan dağı,
Şərəfdə Kəbətək qazanıb şöhrət.

Kəbə yaşıl geyər, ağ bürünər o,
Çünki, ehram tutan geyər ağ xələt.

Bir yerdə oxudum fəzilətindən,
Üç ildir çəkirəm görməyə həsrət.

Getdim ki, başına dolanım onun,
Dağlar anasıdır çünki o afət.

Başdan ayağadək örtükdədir o,
Deyir: - Bakirəyəm, - açınca söhbət.

Min illər ömr edən bu qoca qarı,
Desə: - Bakirəyəm, - yalandır əlbət.

Gəldi daxmasına Xızr ilə Musa,
Yoxsul daxmasıyçın çəkdi xəcalət.

Qarının yekədir burnu, bu örtük,
O eybi örtməyə eləyir xidmət.

Dedim ki, çadranı üzündən götür,
Kim dedi qız kimi üzünü gizlət?

Dedi ki, dörd aydan sonra bir külək,
Qapanda çadramı, görünər surət.

Xaqani, gəl, onda bakir sözünlə,
Başına çadra sal, anandır, gizlət!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4.

İraqa, İrana eyləsəm səfər,
Başıma yağıştək yağar simü-zər.

Orada şairə qiymət verən var,
Xəzinəm ləl ilə, gövhərlə dolar.

Şahlar məclisimdə diz çökər mənim,
Başıma tabaqla zər tökər mənim.

Bakir sözlərimin aşiqi olan,
Ariflər əlimi öpər hər zaman.

Nemətə, dövlətə qərq olaram mən,
Bannar el, oba mənim süfrəmdən.

Lakin, üzüm gülməz, gözlərim ağlar...
Qəlbimdə dağ qədər ağır intizar.

Vətən həsrətilə töküb göz yaşı,
"Ah, vətən!" deyərəm mən hər söz başı.

Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.

İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,

Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz.

Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizdir ata.

Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5. REY ŞƏHƏRİNİN İQLİMİNİ MƏZƏMMƏT

Reyin yaxşı adamından uzaq olsun qara gün,
Reyin abu havasının başına kül tökülsün.

Mən düşünüb, qan ağlaram, görən necə qalırlar?
Bu cəhənnəm guşəsində o behiştlik adamlar.

Reyin abü havasına düşsə əgər bir nəfər,
Qəlbi suya dönər yəqin, canıysa badə gedər.

Rey pisdirsə, yaxşıların əlindədir rəyasət,
Çox razıyam başçılardan şəhərdəndir şikayət.

Yaxşı məni yaxaladı Reyə gəlcək yamanlıq,
Pis mənmişəm, nə edərdim, Rey olsaydım bir anlıq.

Deyirlər ki, Əqrəbdədir Reyin tale ulduzu,
Xəbərsizəm ondan, mənə əqrəb oldu Rey özü.

Soyuq olar əqrəb tökən zəhər, məndə bəxtə bax,
Rey cəfası zəhərindən isitmə tutdum ancaq.

Qurban olsun İsfahanın Rey dağına, düzünə,
Tutya olsun İsfahanın torpağı Rey gözünə.

Gözüm lütfü kərəm görmüş Reyin nəcib əlindən,
Reyin suyu, torpağıdır məni üzüb qəhr edən.

Reyin böyük adamları, alimləri, doğrudan,
Hökmdarım, havadarım, pənahımdır hər zaman.

Fikri azad fazilləri göstərərək kəramət,
Mənə hörmət eylədilər, göstərdilər mərhəmət.

Hörmət qoyub, yer verdilər gəldiyim gün kübarlar,
Mən onlara canü dildən minnətdaram, minnətdar.

Xorasana getmək üçün icazə yoxsa mənə,
Rey əzabı çəkməkdənsə, dönmək xoşdur vətənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qayıtmağa icazəm var əgər Təbrizə san,
Minnətdaram, bu hörməti etmiş Rey hökmdarı.

Qətlim üçün əldə qılınc Rey arxamca çapır at,
Boynu düşsün Reyin, bəlkə tapım əlindən nicat.

Əzrayılla qarşılaşdım bir gün səhər nagəhan,
Ayaqyalın qaçır, gördüm, Rey yaydığı vəbadan.

Dedim: - Sən də baş götürüb qaçırsanmı, Əzrayıl?
Dedi: - Necə mən binəva durum Reyə müqabil?

6. BAĞDADIN ŞEYXLƏR ŞEYXİ HAQQINDA

Xətti-Bağdada qədər camıma mey süz, ey yar!
Yükümü Bağdada çatdır ki, mənəm məst, xumar!

O səliqə, o bəzək vardı ki, gömrükxanada,
Mənə bac verdi sevincdən, işim oldu pərgar.

Biz o karvansaradan ki, səfərə başlamışıq,
Öz əlinlə məni o mənzilə bir də qaytar.

Cəhd edirdim bu səfərdə: yetişim Kəbəyə mən,
İndi meyxanəçinin kuyinə könlüm can atar.

Tut əlimdən, sən Hənutiyyəyə vardır da məni,
Etmə Şuniziyənin adını bir də təkrar*.

Söylədin: yetmiş iki həccə bərabərdi bu həcc,
Bu sözün məsxərədir, məsxərəyə kim inanar?

Söylədin: Kəbə sənin başına hərləndi özü,
Sanma, şair belə əfsanələri doğru sanar.

Açmadı Kəbə qapı, mən qapını döysəm də!
Qapını döymək ilə kimsə muradına çatar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ətəyindən də yapışdım, o məni dinləmədi,
Dinləməz Kəbə məni, işlərimə şübhəsi var.

Kəbə rədd etdi məni, gördü bunu meyxanə,
Yalvarıb söylədi: gəl, keçmə yanımdan, bizar!

Kəbədə aslan igidlər məni rədd eylədilər,
Deyrdə itlər hazırlar mənə xaçla züniar.

Xam şərab xıltını almaqda ki, yanmış gömürəm,
Qədrimi meykədə saqiləri yaxşı anlar.

Bir məhəkdir hamıya Kəbə evində qara daş,
Dəyərin alçaq imiş, bəlkə məhək eylədi xar.

Qara daş indi mənə nazlı gözəllər xalıdır,
Zəmzəmim - mey küpü, Kəbəm dəxi meyxanə olar,

Sənə məscid, mənə meyxanə bugün məskəndir,
Sənə səccadə gərəkdir, mənə züniar yarayar.

Cənnətə din riyakan aparmaz, mən isə,
Bağlaram sidq ilə züniar, canım oddan qorunar.

Ehtiyac yox bu riyakarlığa bir zərrə qədər,
Fisqimin faydası vardır mənə tam bir xalvar.

Bu ibadətdən, olar yaxşı, gedib, mey içəsən,
Canıma çoxlu ibadət deyil, az xılt yatar.

Lalə mey içdi, olub məst, qabıqdan çıxdı,
Mənə də mey içiribsən, bu qabıqdan qurtar!

Mən ibadət yerinə gül kimi badə içərəm,
Qəbrimin torpağı qoy gül yerinə versin xar.

İçərəm mey ki, kəsib dayə bununla göbəyim,
Çəkmərəm əl bu əməldən, mənə etmə israr!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox da qorxutma qılıncınla mənim başımı sən,
Kaş qılıncın qol olub, qoynumu qucsun o ki, var!

Çəkməsəm miniətini, taxt qoyasan şahanə,
Oturam şam kimi, qarşımda düzülsün əhrar!

Miniətim var, qoyaraq nət kənarında məni,
Xoş gülüb öldürəsən, sanki çıraq, nazlı nigar!*

Göndərib bir nəfər eyyar, dedin: kəs başını,
Qanım ilə boyasın xəncərini o qəddar.

Bir nəfər oldu xəbərdar sənin qəsdindən,
Göndərib, eylədi ol sirri mənimçün izhar.

Məni öldüməyə əyyar qılıncı nə gərək!
Sən özün xəncəri çək, qanımı tök, ey dildar!

Məni sən öldür, əzizim ki, əlin yüngüldür,
Qoyma məndən çata kamə ağır əlli əğyar!

Məstü kafər adı Xaqaniyə verdin, amma,
Görmeyib kimsə bərabər mənə'mömin, huşyar!

7.

İki aləmdə bir iş var ki, bizlər qəmdən azadıq,
Könül, əylən səhər vaxtı, iki aləmdən azadıq.

Kəm atdıq biz, bu dünyanı, uduzduq aləm əhlinə,
O dünyanı girov qoyduq ki, orda kəmdən azadıq*.

Adəm ağıl əkən bu tarlada qabil bəhərdirsə,
Ağıldan öylə bizarıq ki, biz Adəmdən əzadıq.

Ağıldan ki, barı qəmdir, məhəbbət torpağı xoşdur,
Uzaqlaşdıq ağıldan biz, odur ki, qəmdən azadıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahanda eşqimiz varsa, nə qəm var, can gedir badə?
Süleyman hazır ikən, təxtdən, xatəmdən azadıq.

Meyin bir damlası ətrilə məst oldu bizim həmdəm,
İçib dərya qədər, məst olmadıq, həmdəmdən azadıq.

Meyi xəlvət içənlər, bil, hərifi gizli saxlarlar,
Biz aşkar qurmuşuq mey məclisi, məhrəmdən azadıq.

Yetir meylə dolu saxsı qabı torpaq dodağıma,
Daşa vur cami-Cəmşidi ki, camdan, Cəmdən azadıq.

Tapıbdır zinət ulduzdan, fələk bir taqü tarəmdir,
Xərabat əhliyik biz, taq ilə tarəmdən azadıq*.

Cəfa yağdırdı ox, biz qorxmadan canı sipər etdik,
Yara aldıqda öpdük şövq ilə, məlhəmdən azadıq.

Tutub din ilə qəlbi, bizləri tərk etdiniz, bizdə,
Nə din vardır, nə qəlb, siztək halı bərhəmdən azadıq.

Qurub zahidliyindən tor, ibadətdən vurursan dəm,
Torundan vaqifik biz, vurduğun o demdən azadıq.

Bizə cənnət, cəhənnəmdən söz açma, əngini yorma,
Ki, biz sən çaldığın neydə o zildən, bəmdən azadıq.

Yetər, Xaqaniya, Zəmzəmlə Kəbə söhbəti artıq,
Gətir badə ki, biz həm Kəbə, həm Zəmzəmdən azadıq.

8. HİKMƏT VƏ NƏSİHƏT

Sənə fitva vermərəm, hiyləyə əl atasan,
Xalqlar üçun ölümdür hiylə bəlası, inan!

Vəfa bünövrəsinə lağım atan hiylədir,
Bu bunövrə canları hər bəladan gizlədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burax lağım atmağı, budur, açılıb səhər,
Lağım atan həmişə işıqdan çəkmiş zərər.

Hiylə oğurluq kimi şiriudir əvvəl-əvvəl,
Acılığı duyular sonra - kəsildikdə ol.

Nə qədər ki, doğrudan, nifaq ilə xəstəsən,
Naçaqlıqdır nəsibin, hey sağlamlıq istə sən.

Hiyləgərlik üzündən sənin üzün qızarar,
O üzv ki, qızarır, yəqin ki, onda şiş var.

Vəfa məhəlləsində, çalış, məskən edəsən,
Bil ki, bu möhkəm evdə hər qəmdən asudəsən.

Sənə vəfalı olmaq tövsiyə etdim, amma,
Bu gün vəfadan bir iz, görən, varmı dünyada?

Az dostluq et həyatda, dostluq etsən də əgər,
Güzəşt olsun şüarın, budur dostluqda hünər.

Əgər korluq pərdəsi gəlməmişdir gözünə,
Birini dost qovubsa, yaxın qoyma özünə.

Bir şəxsin ki, öz dostu haqqlı vurub belindən,
Pisliyinin əcridir, tutma onun əlindən!

Dosta xain çıxanı dostu səribsa yerə,
Cəmşid də olsa, qoyma baş qaldırsın göylərə.

Qovubsa bir nəfəri töhmətlə dostu, aman,
Ev adamın da olsa, qoyma girə qapından.

Zorla İrəm bağından bir tingi çıxarsalar,
Əkmə onu bağında, peşmançılıq verər bar!

Paxıllıqdan birisi dürr əkmişsə bağçada,
Qırma, tikan olub o, ayağına batsa da!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başqasının əliylə yüksələrsə bir alçaq,
Əlbəttə, qədir bilməz, duz-çörəyi danacaq.

Gildən İsa düzəltsə bir quş, quşdur, deməli,
Qələm olar bir qamış, yonarsa İdris əli.

Mərhəmət etsən əgər, o qədər et bir qula,
Səndən qulun sahibi şadlana, razı qala.

Əshabə xasiyyətli deyil, məncə, bir insan,
Keşişlər razı qalsın, İsa incisin ondan.

Sənin hörmət etdiyin, öydüyün bir anlamaz,
Zəni edər ki, heç nədə dahidən geri qalmaz.

İt həmişə it qalar, tumarlasan da əgər,
Aslanın qabağından sümük qapıb gəmirər.

Nanəcibin yalandan qoltuğuna vermə sən,
Zatıqırıq sevir ki, onu tərif edəsən.

Bir məsəl var: nökəri tərifləsən, qudurar,
Sanar, əmin oğludur, qulluğunu unudar.

Xidmətçinin yerində o-bir daha oturmaz,
Elə bilər ağadır, heç bir işə əl vurmaz.

Böyüklər sayəsində düşər kiçiklər yada,
Şaha xidmət üzündən qiymətlidir piyada.

Hər kiçik bir böyüyün xidmətində yüksələr,
Allahın sayəsində möhtərəmdir peyğəmbər.

Böyük səni vursa da, özü yerdən qaldırar,
Bircə "yox" qarşısında dilində min "bəli" var.

Gah qəzəbindən coşar, gah sənə bəxşiş verər,
Dalğalı bir dənizdir, sinəsində incilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Böyüklərdə yumşaq yox, sərt olmalı təbiət,
Sıldırım qayaların sifətidir bu sifət.

Sərtliyindən qazanmış qılınc belə etibar,
Rüstəmi-Zal da onun qəbzəsinə dayanar.

Su yumşaq olsa da, xaindir təbiəti,
Rəngi sadə, uçurub dağıtmaqdır adəti.

Daş isə sərtliyilə doğruçudur, əmindir,
Həkəm olsun, ya məhək, o nə desə, yəqindir.

Su bağrına basıbdır daşı əgər şövq ilə,
Daş bətnində uşaq var, Günəşdəndir hamilə;

Xülasə, bir axmağı ağıllıya tutma tay!
Ağıllını baş bilib, səfehləri ayaq say!

Salma qəmə, möhnətə ağıllı insanları,
Qənimətdir xalq üçün, bil, onların canları.

Səfehlərin başını fələklərə ucaltma,
"Bizə nə var" deyərək, ciyinlərini atma!

Adam demə hər yetən avaraya, amandır!
Adam var, təbiəti şeytandan da yamandır.

Böyüklüyü göstərmir uca boy, enli kürək,
Hümmətiylə böyükdür yumruq boyda bir ürək.

Şahların bir diş çöpü incidərsə çinaqdan,
Qiymətlidir çobanın əlindəki çomaqdan.

Yuxu göz qapağını örtmək istərsə əgər,
O göz qarşısındakı çıraqdan nazmı çəkər?

Yumulan göz çırağı necə qiblə tanıyar,
Onun ki, qarşısında qaranlıq mehrabı var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kavə Firidun qədər şöhrətə çatan zaman,
Heç yadına düşərmi görük, çəkic və zindan?

Möcüzəsilə İsa rəngi özü sazlayar,
Ona nə nil gərəkdir, nə də ki, başqa aşqar.

Böyüklər oxşar Aya, ətrdə müşkü ənbər,
Kiçiklər nə müşk ətri, nə Ay ziyası verər;

Təbiətcə düşməndir başçılara gədalər,
Bəli, bəli! Rütubət müşkü görüb hədələr.

Əksinədir gileyi kiçiklərin çox zaman,
Hay-küy salır, özünün xeyrini anlamadan.

Təbilin əndamına döşənsə də zərbələr,
Bayraqdır ki, ürəyi əsər, öndə yeriyər.

Bizim zəmanəmizdə belə qayda varsa da,
Şagird gölə gözüylə baxmamalı ustada!

Şagird gölə olmasın deyə, ona gərəkdir,
Ustad bilsin ağlını, ağıl ona köməkdir.

Ədəbli ol, unutma, ədəb qılıncı ilə,
Ərəb Əcəm mülkünü asan keçirmiş ələ.

Canının tilisimi ədəbdir, bax bu sözü
- Başındakı tacına yazdırmış Kəsra özü.

Göyərçin ki, başını xilas etmiş bıçaqdan,
Kəbə evi damında ədəblə tapmış məkan.

Sədaqətlə, ədəblə xalqa yaxınlıq et sən,
Elə bil ki, tanrlıya yüz ibadət etmisən!

Ehtiyacsız xaliqə səcdə edərmi onlar
- Bütə pərəstiş edən qəlbiqara şamanlar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cahilləri öymə ki, sərvəti var, malı var,
Elmiylə, hikmətiylə öyünməli insanlar.

Hünərindən danışdın, bəsdir bir neçə gəlmə,
Cah-cəlal sahibinin eybini də az bilmə!.

Günəşə şərəf deyil, açsan quzu süfrəsi,
Günəş üçün şərəfdir təkcə bir andın "və"si*.

Dinlə bu incə fikri, Xaqanidən pay apar,
Onun söz mizanının öz xüsusi vəzni var!

Yaxşı qorun pislərdən, demə bu söz yalandır,
Pis adam ya kor əqrəb, ya da ki, kar ilandır!

9.

Xaqaniyəm, qəlbim azaddır mənim,
Ağlım, idrakımdır yol göstərənim.

Qoymaram bir daha qəlbim paslana,
Qeybi nişan verir mənə o ayna.

Paslanmaz dünyada könül aynası,
Azadlıq təmizlər hər tozu, pası.

Yalandan məddahlıq eyləmirəm mən,
Doğru sözlər axır daim dilimdən.

Duyğular cismimdə ulu sultandır,
Təkcə damağımdır ki, pay umandır.

Kəsb yox, yaşadır məni təvəkkül,
Səbr ilə rizaya vermişəm könül.

Çöryin yemərəm heç bir namərdin,
Hər iki dünyamın ruzisidir din.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təyəmmüm etmərəm murdar torpağa,
Tanrı qismətimi salmış bulağa.

Kəşf- ürəyimə işıq saçandır,
Yəqin - gözlərimdən pərdə açandır.

Ağıl sayəsində hüma adım var,
Quzğun təbiəti mənə ardır, ar.

Bəxtim barmağıyla işimi əyər,
Məni barmaq ilə göstərər hünər.

Mən pakam, açmadım bu dünyadan bəhs,
Dünya ki, napakdır, tərifə dəyməz.

Mənə vermədilər nə istədimsə,
Karıma gəlmədi nə verdilərsə.

10.

Ey Xaqani, çörək üçün öz abrını tökmə sən,
Bil, abrını tökən tamah canı alar əlindən.

Bilirsən ki, nələr çəkdi Adəm buğda ucundan,
Onun kimi dərdə düşər çörək deyən hər insan.

Yol üstündən qırıntılar daşıyan qarışqalar.
İnsanların ayaqları altında tapdalanar.

Gör, nə cürə qarmağına çörək taxan o uşaq,
Balıqları o çörəklə aldadıb, ovlayacaq.

Boğaz üçün suda balıq keçirsə öz canından,
Təəccübə dəyərmi heç, canından keçsə insan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

11.

Gəl, ürəkdə hər nə varsa, göstərək,
Yaxşı insanlar yolunda baş verək.
Mehribanlıq eyləyək dərd əhlinə,
Var-yoxu dərvişə təslim eyləyək.
Etməyə qurban o nazlı dilbərə,
Bizdə ancaq din qalıb, bir də ürək.
Yar bizi görcək, daş atdı, biz isə,
Qənd ataq, ehsanına "əhsən" deyək!
Hüsnünə göz dəyməməkçin, biz oda,
Gəl, üzərlik yox, tökək gözdən bəbək.
Çapsa da tale atın bizdən kənar,
Biz vəfanı bir kəməndə döndərək.
Ovlasaq bu fənd ilə, əla olar,
Tutmasa baş, başqa bir tədbir gərək.
Çoxmu bədxahlar əlində xar olub,
Yalvaraq, hakim bizə etsin kömək,
Daşlayaq, fitnə bizə çəksə qoşun,
Dost tapaq, dərd sahibinə dost gərək!
Canını Xaqaninin gövhər kimi,
Biz böyük xaqana töhfə göndərək!

12.

Köçmək vaxtı gəlib çatmış bu vəfasız dünyadan,
Göç yolunda qalan bizik, çoxdan gedib karivan.

Yol üçün bir azuqəmiz yoxdur, ancaq nə edək,
Səfərimiz uzağadır, xəbərsizik yollardan.

Ata-ana, oğul-uşaq, qohum-qardaş göçdülər,
Biz nə qədər qalacağıq qafil, səfil, sərgərdan?

Gözlərimiz görür hər gün göçdüyünü dostların,
Bunu görən göz nə üçün ibrət almır onlardan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qara torpaq altındadır məskənimiz nəhayət,
Tələş ilə qurmaqdayıq burada biz xaniman.

Toplasa da bu dünyanın dövlətini, varını,
Bir kəfəndən başqa gora nə aparır, de, insan?

Qəbristanın bir güncüdür bizim əsil yerimiz,
Ömrümüzün xoş anıdır o mənzilə keçən an.

Sən kərimsən, əfv edənsən, rəhm edənsən, ey Allah,
Əlimizdən tut ki, bizik qol-qanadsız, natəvan.

Yemək, yatmaq hayındayıq biz ömrümüz uzunu,
Xaqaninin axırım xeyir elə, ey yaradan!

13

Qəm yemə, dünyada yoxsa həmdəmin, ol şadkam,
Üzlətin təblini döydür, tut fələklərdə məqam!

Əlhəzər, bir kimsənin göz dikmə malü mülkünə,
Əyməsin dik başını dünyada izzü ehtişam!

Dövrümüzdə baş eyənlər daima təğlub olur,
Canına and içmə dostun, düşmənina olma ram!

Sən fələklə düşmən oldun, başqalardan çək gözün,
Öz piyalən xıltını iç, kimsə ilə tutma cam!

Süfrəsindən padşahın it kimi umma sümük,
Öz ətindən, öz qanından nəfsinə sən ver təam!

Sən hünər şahinisən, uç, ovla bu quzğunları,
Kimsədən alma yemək, şahinə cəmdəkdir haram!

Cami-ehsanınla sən aləmləri sirab elə,
Badə tutma. kimsədən cam alma, ölsən təşnəkam!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qətreyi-nisanə qane ol sədəftək dəhrdə,
Ağzını açma balıqtək hər suya sən sübhü şam!

Başqalardan ruzu alma, kor çırağa oxşama,
Şam kimi ol, öz vücudunu yeməkdə et davam!

Zəfəran olsa əgər aləmdə möhnət dərmanı,
Dərdü möhnətdən saral, dön zəfərana sən tamam!

Öz evində öz qonağın ol, götür öz camını,
Öz adın tut, öz meyin iç, öz yarından istə kam!

Kimsədən alma çörək bu dəhrdə, Xaqaniya!
Öz ürək qanını ye, ey şairi-aliməqam!

14.

Günəştək sən də, Xaqani,
Tək olmaqçün çalış hər an.

Kamantək qəmzəsi yarın,
Atıbdır sinənə peykan.

Ağardı saç, yarın qaçdı,
Ürək qaldı cavanlıqdan.

Ki, can qurtarmağa oğru,
Qaçar sübhün tüluundan.

Başındakı bu ağ tüklər,
Deyil kinli fələkdən, qan!

Bu ağ tüklər köməkçindir,
Verilmiş bəxtinə ehsan.

Başı vaxtsız ağartdınsa,
Ömür oldu baharıstan.

Bu ağ tükdən kədərlənmə,
Uzun ömrə odur mizan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecələr qısa keçmişsə,
Demək ki, tez sökülmüş dan.

Kamal əhlini tənəylə,
Edər rüsva çox nadan.

Adın dünyanı tutmuşdur,
Sözündə sirrlər pünhan.

15.

Xaqani, güvənmə çox da dövlətə,
Dövlət bir gölgədir, deyil payidar.

Kim dövlətlə, malla məğrur olarsa,
Atəş meydanında qarğı at çapar.

Əvvəli sübh isə, axırı güldür,
Birinin ömrü az, biri tez solar.

Fələyin xumundan çıxan o rəngə,
Aldanma ki,onda matəm rəngi var.

Baxma ki, dövlətə çatdıqca xoşsan,
Ona çatmaqda da yoxdur etibar.

Çox dövlət var ki, o doğurar möhnət,
Oddan da kül qalar sonda yadigar.

Möhnət də vardır ki, sonu dövlətdir,
Qış bitən zamanda gülər nəbahar.

Dövlətin əvvəli qürur olsa da,
Ortası oyundur, sonu ahü zar.

Şəraba bənzər ki, əvvəli – fitnə,
Ortası - məstlikdir, axın - xumar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

16.

Ey xacə, Xaqaninin üzündən suyu tökmə!
Töksən, bu su ömrünü zavala məhkum edər.

Bir kimsənin yarpağı könülləri qırarsa,
Öz ömrünün budağı qırılar, yeməz bəhər.

Yaxşılara yamanlıq istəyən bir adamın,
Yaxşı baxsa, özünün qarşısına çıxar şər.

Hər kəs kəssə həyanın gözündəki damarı,
Əcəl onun ömrünün damarını tez kəsər.

Dostlarına dünyada zəlillik istəyəni,
Özü zəlil bir halda dünyadan köçüb gedər.

Yaxşılığa yamanlıq eyləyən namərdlərin,
Özü öz əməlinin cəzasına yetişər.

Mustafa naməsini parçalayan Pərvizin,
Parçalanar göynəyi oğlu vuranda xəncər*.

17.

Ey Xaqani, könül vermə bu dövranın dovrünə,
Dövran yalnız bir həftədir, həftə özü yox fəqət.

Gecə-gündüz qara gümüş, ağ qızıldır dəyərsiz,
Bundan başqa ömrə vermə bir qara pul da qiymət.

Fələk ki var, bir sünbüldür, zəkatına dikmə göz!
Dəyməz onun paylarına götürdüyün bu miniət.

Zəmanədə varın yoxsa, ağılın nə xeyri var?
Əli vardan boş olanın zəkasına nə hacət?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu həyatın xoşluğuna uyma, fələk cəlladdır,
O, yaxşıya, pisə baxmaz, baş kəsmək - ona adət.

O keçiyə bax ki, necə qaçır uşaq dalınca,
İstər alsın əlindəki mövüçünü o əlbət.

Bilmir, axır öləcəkdir o uşağın əlində,
Bir keçinin ölümünə bir mövücmüş kifayət.

18.

Mərd odur, dərdin əlindən etməsin heç ahü zar,
Dərd odur, mərdin yanında daim olsun bərqərar.

Kim qurub şadlıq büsatı qəm çölündə şövq ilə,
Eşq gülzarında seyrə o qazanmış ixtiyar.

Kim varı yoxluqla silmək istəsə heç qorxmadan,
Qoy o, varlıq xeyməsin yoxluqda qursun aşikar.

Eşq əlindən saxsı qabda, mey alıb, nuş eyləsə,
Cami-cəm peymanəsin bir tən ilə gözdən salar.

Sol əlində toplasa cümlə cahanı varını,
Sağ əlin bir zərbəsilə cümlə sərvət məhv olar.

Zülfü cananın edərsə hökm kafər olmağa,
Mərd deməzlər aşiqə imanda olsa paydar.

Yar camalı nurə çulğarsa cahanı pərdəsiz,
Sübhdən dəm vurmağın nə zövqü, nə mənası var?

Mərd kimi Xaqani bu alçaq saraydan hər zaman,
Göylərə yüksəltdiyi bayraqla etmiş iftixar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

19.

Var idi, Xaqani, ömür xəzinən,
Getdikcə azalır o da ki, ey vah!..
Ağardı bəxtinin qara gözləri,
Qaraldı ağ üzü vüqarının, ah!..

Ömrü itirməkdə xalq bərabərdir,
Dünyadan dərviş də, şah da gedəcək.
Başı qızıl taclı şahlardan tutmuş,
Papağı ot olan çobanlaradək.

Səhər hər kəs üçün bir cür açılır,
Axşam hamı üçün bir olacaqdır.
Ömrünü mənasız keçirən kəslər,
Dünya bazarında aldanacaqdır.

Fələyin gərdişi ömrü azaldır,
Ömrü də, cismi də əridir fələk!
Ömür əmirdən də, məndən də gedir,
Günləri itirir şah da mənimtək.

Məntək zavallının, səntək əmirin,
Bir cürə azaldır ömrünü ay, il.
Birdir əjdahayçın qarışqa, xərçəng,
Samanla çınqıla fərq qoymayır sel.

Yandırıcı oda, iti orağa,
Yaş ilə qurunun heç fərqi varmı?
Şam gözləyə bilməz küləkdən aman,
Oda pambıq pənah heç apararmı?

Şah işdən xəbərsiz, mənsə xəbərdar,
O taxtla məşquldur, mənsə azadam.
Sərbəstəm, şah isə tamaha əsir.
Qanıram, şah azıb yolunu tamam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

20. NƏSİHƏT

Pis adamlardan həmişə eylə, Xaqani, həzər!
Etməsən, pislər səni dinsizliyə vadar edər!

Pak insanlar kimi allaha bağla etiqad,
Əzməsinlər ta səni torpaqtək alirütbələr!

Din vücudunda bir ağ xal olmasın, görmə rəva,
Ta qara xətt çəkməsinlər ömrünə bu əhli-şər!

Dini insafdan ayırma, Çünki, dindarlar hamı,
Dini hifz etsin deyə, insafa, rəhmə söykənər.

İstəsən ixlas əhlindən günah baş verməsin,
İncimə öz dostlarından, bir günah etsə əgər!

Dilxor olma tənəsindən heç zaman nakəslərin,
Rəsmdir, Ay nur saçanda, qibtədən itlər hürər!

Fazil insanlarla dost ol, ta ki, qansınlar səni,
Dost avamdırsa, Günəş olsan, səni bir Ay bilər.

Varmı nöqsanı hilalın ki, yeni Ay görcəyin,
Şadlanar, vəcdə gələr, "bəh-bəh" deyərlər kəbrlər.

Dost nəciblər cərgəsindəndir əgər Cəmşidtək,
Boynuna çəksən mişar, nə inciyər, nə "uf" deyər.

Qəmzəli olma, Günəştək göylərə qaldırma baş,
Gölgətək yoxsa taparsan bir quyu içrə məqər.

Qaşqabaqlı olma, qəlbi pak insanlar yəqin,
Dözsələr də gah sənə, gah da olarlar kinəvər.

Bundan artıq olma daxildən gümüştək laybalay,
Yoxsa, zindanda qalarsan butə içrə sanki zər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birkönüllü ol cahanda, birkönüllü olmayan,
Xalq gözündə qiyməti birdən ona qalxar məgər?

Birkönüllü olmayandan açma söz, bir ölkədə,
İki sultanın adı ilə oxunmaz xütbələr.

Başını qaldırma, qaldırsan, bu tac sahibləri,
Başını boş bir papağa döndərər, beynin tökər...

Səy qıl, olma böyüklərçin saman altında su,
Sən təmənia ilə dostluq etmə, bunda var xətər.

Başçılardan arxada əyləş çatanda mənzilə,
Kim gəmidə dalda əyləşmiş, qabaqca o düşər.

Dostluq etsən, hər işində qorxmaz ol, mərdanə ol,
Qorxaq olsa ordunun sərkərdəsi, çalmaz zəfər.

Umma, nakəslərdə olsun mərd adamlar hümməti,
Fildə, ya topda olarmı şah görən işdən əsər?

Başçılar hər nə deyərsə, yaxşı dinlə, et əməl,
Salmasınlar ta ki onlar da sənə əyri nəzər!

21.

Xaqani, filosof başlamış cədəl,
Ki, niyə sözümə qoymursan məhəl.

Edir səfsətəni cədəldə pünhan,
Ona da fiqh adı qoyur o nadan.

Çəkib adi misə qızıl suyunu,
Xam adam axtarır, yamasın onu.

Oyunbazlar kimi düzəldib tələ,
Üstünü basdırır torun çör-çöplə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quşu da xoş dillə salaraq dama,
Kəsərlər başını yetməmiş kama.

Sənə din elmindən bəhs açar özü,
Sonra da küfr ilə qurtarar sözü.

Onunla bir işə başlasan, gərək,
Sən uşaq olasan, o isə dəllək.

Əvvəlcə o qoyar ağzına şəkər,
Sonra bədənindən bir parça kəsər.

22.

Həqqiqət yoluyla gedənlər ki var,
Yoxsulluq taxtında padşahdırlar.

Meydanda - döyüşsüz pəhləvanlardır,
Məclisdə - hamısı tacsız hökmdar.

Kəbətək müqəddəs, yolları düzdür,
Səmadə görürlər Ayı aşikar.

Göydə ahlarıyla çadır quraraq,
Özləri ah içrə tutmuşlar qərar.

Xəyallar evində yaşasalar da,
Aldada bilməmiş onlan ruzgar.

Gecənin meyindən məst olsalar da,
Səhərin sirrindən agahdır onlar.

Hər iki dünyada, Xaqani kimi,
Dostdan gözləyərlər dosta etibar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

23. YALANÇI KİMYAGƏRLƏRİ VƏ İKSİRİ MƏZƏMMƏT

Ey Xaqani, din elmi, bil, kimiyadır, unutma,
Könüllərin məxzəninə layiqdir bu kimiya.

Əgər nəfsin bir mis kimi pas atarsa bir zaman,
Onu silmək üçün yalnız budur yararlı dərman.

Bundan başqa hər bir şeyə kimyadır desələr,
Qulaq asma, təlimində ömrünü etmə hədər.

Göstərərlər əjdahanın əməlini bir daha,
Deyərlər ki, su da olar halqalanmış əjdaha.

O əjdaha başını ki, quyruğuna yetirər,
Baxanları heyran edib, quyruğunu gəmirər.

Bu cəhllə, din elmini öyrənib, qoy yanbayan,
Müşkü daim sarımsaqla eyləyərlər imtahan.

Bu iksiri yoxlamışdır böyük İskəndər əvvəl,
Ona alim Ərəsrudan keçmiş idi bu ərnəl.

Lakin, onlar yetmədilər bir məqsədə, nəhayət,
İskəndəri, Ərəstunu utandırdı bu hikmət.

Bu iş mənhus adamların bidətidir əzəldən,
Bu sənəti yoxlamaqçün ömürlər getmiş əldən.

Tamahkarlar bu boş yola xam xəyalla getdilər,
Ata-baba mirasını dağıdıb, puç etdilər.

Bir tamahla yol kəsənə zilləyərək gözünü,
Rəhbər deyib, nədən ötrü alçaldırsan özünü?

Məgər hiylə Günəş kimi torpağı zər edərmi?
Torpaq hiylə sayəsində heç qızıla dönərmi?

Yolkəsənə rəhbər deyib, düşmə dərdə, ələmə,
Qaranlıqdan, Günəş, olmaz ki, nur saçsın aləmə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günəş əgər bir qızıla kəramətlə salsa nur,
Min il keçsə, həmin qızıl tapmaz yenə bir qüsur.

Bil, Günəşdir məharətli kimyagər dünyada,
Salma başqa kimyanı, iksirləri sən yada.

Zər eşqilə çoxlarının qəlbi çəkir əziyyət,
Lakin, ruzi həqqdən çatır, hədər gedir bu zəhmət.

Bəziləri qızıl görcək, olar onun əsiri,
Tazə Ayı görən kimi, dəli qırar zənciri.

Boyu kiçik, qiyməti çox qızıla bir sal nəzər,
Gör bir, necə kiçik boyla salır böyük fitnələr!

Məgər sən heç oxumadın "Yəknizunəz-zəhəbi?
" "Yomə yəhma" ayəsində göstərilmiş səbəbi*.

Bir nəzər sal, yer üzündə harda varsa bir fəqir,
Harda varsa səfalətin pəncəsində bir əsir.

O zavallı ya şairdir, ya münəccim, yaxşı bax!
İşləri ya fəlsəfədir, ya da iksir axtarmaq.

Biri küfrə yuvarlanıb, digəri boş xəbərə,
Hər ikisi yoxsullaşıb, batmış dərdə, kədərə.

Ey Xaqani, sən arxalan əqlinə, şəriətə,
Fəlsəfəni füls hesab et, uyma şana, şöhrətə.

24.

Fəzilət, Xaqani, baş ağrısıdır,
Həmişə dərdlidir fazil adamlar.

Hünər sahibləri, ağıllılar da,
Dərdi-sər içində edir ahü zar.

Taca baş ağrısız kim əl tapıbdır?
Harada ilansız xəzinə qalar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başçılıq bəlasız əldə edilm-əz,
Döyüşsüz şöhrətə çatmaz bir sərdar.

Fil əziz olsa da, lakin, hər yetən,
Dəmirlə beyninə döyər biqərar.

Sürməni nə qədər narın üyütsən,
Onun qiyməti də o qədər artar.

Göbəyi kəsilən zaman, uşağa,
Mamanın yazığı gəlməz, aşikar.

Sözüm bal kimidir, paxıllar, amma,
Bal yeyib, ağzından tökdü zəhrimar.

An pətəyindən bal tutan adam,
Toxunmaz arıya, arılar sancar.

Odur ki, üzünü palçıqla örtər,
Bal tutmaq istərkən ağlı olanlar.

Musanın əlləri palçığa batmaz,
Xızr xəzinəyə çəkməli divar*.

Sən bilik şirinin balası ikən,
Cəhlin qarışqası edir səni xar.

Sən fərəh sərvisən, güman etmə ki,
Qəm sənin üstünə səpməz toz, qubar.

Hünərin bir ceyran müşkünə bənzər,
Nə əcəb, müşkdən başını ağrıyar?

Ceyran göbəyindən ətir alanda,
Vaxt olar, adamın burnu qanayar.

Ətirin tutmuşdur bütün cahanı,
Eylə yaradana şükrünü izhar.

Bil ki, naşükürlük kafura bənzər,
Ki, müşkün ətrini vurub dağıdar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

25.

Bu göylər şahının lütfü mənə sayə salıb hər an,
O itmiş könlümə indi dübarə olmuşam sultan.

Ürək dil açdı, şükr etdi ki, qurtardım fəlakətdən,
Nə yaxşı, - söylədi canım, - tükəndi möhnəti-zindan.

Könül ki, oldu asudə, özümdən bir məsəl qurdum,
Deyim, şirin məsəldir bu, qulaq as, ləzzət al ondan!

Gedib məğribzəminə, bir kişi dərya kənarında,
Dararkan başını, bir tük yerə saldı o, başından.

Köçüb sonra o Məğribdən, güzan Məşriqə düşdü,
Külək əsdi, yağış yağdı, yarandı bir neçə tufan.

Otuz il keçdi ol gündən, yenə səyyah gəlib qərbə,
Haman yerdən götürdü öz tükün, oldu buna heyran.

Buna Xaqaninin halı, onun Abxaza ezamı,
Qəribə oxşayır. bir bax, necə dövr eyləyir dövran.

Olub Abxaz ona Məgrib, şahın dərgahı bir dərya,
Zavallı canı bir tüktək düşüb qalmış ora nalan

Əgər bir vaxt o da canın taparsa tük kimi təkrar,
Ona məna edib, bir də gülərmi nanəcib düşman?

Olub indi mənə həmdəm səsi çaş-baş vuran bir ney,
Əlimdən öz neyimi, gör, necə aldı fələk asan.

Açılmış bir gül ağzıdır mənim ağzım bu gün yalnız,
Bu dünyaya səpər yaqutü firuzə o gül əlan.

Fəqət, əfsus ki, heç gülməz könül, Rey mülkü də olsa,
O hər vaxt sadə bir sözlə olardı nəşəli, xəndan.

Bu Kür Ceyhun olar, Tiflis Səmərqəndi qoyar dalda,
O vaxt ki, Tiflisə Kürlə gələr Xaqani və xaqan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

26.

Ey Xaqani, pis yoldaşdan ehtiyat et, qorx ondan!
Yoldaş əgər pis olarsa, yol düz olmaz heç zaman.

Bir nanəcib sənə yaxın olmasıyla fəxr etsə,
Sənin fəxrin o olar ki, sıxılarsan arından.

Naçins adam sənin yaxşı əməlini pis edər,
Sənin yaxşı sözlərinlə yaxşı olmaz o nadan.

Pislər səni öz halına salar axır, necə ki,
Qızıl civə içrə qalsa, rəngində tapar nöqsan.

Əgər qızıl civə ilə ağarıbsa, Xaqani!
Gör bir, necə qızaracaq, onu sən oda atsan.

27. ANASI HAQQINDA

Ey Xaqani, bu dünyada hər zaman,
Anan vermiş zəhmətilə sənə can.

Su və çörək qıt olsa da, atmadın,
Yurdun oldu bu əzablı, dar Şirvan.

Heç bir kəsə sən olmadın tüfeyli,
Kömək aldın allahdan və anandan.

Sən oturdun kölgə kimi ananın,
Cəhrəsinin kölgəsində anbaan.

Ey ağ qartal! Nə vaxtadək olacaq,
Ana yanı vücuduna aşiyan?

Nə vaxtadək göyərçintək ağzıyla,
Sənə ruzi verəcəkdir öz anan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə vaxtadək, atasız, bir İsatək,
Ana ilə tanısınlar səni? Qan!

Bir dəfə də Xızr kimi yola çıx,
Bəsdir oldun anasıla həmxanimanı!

Sən qiymətli bir dürrsən, nədəndir,
Oldun ana astanasında pünhan?

Sən ağıllı övladsansa, dilə gəl,
Ana kimi özünü danla, utan!

Hər nə etsən, ana haqqın unutma,
Anan edib sənə canını qurban.

Bu ananın xatirinə, düşməndən,
Gələn dərdə dözsün gərək hər insan.

Qorx o gündən ki, səni də tək qoyub,
Əbədilik anan köçər dünyadan.

28. ATASINDAN ŞİKAYƏT

Bir atam var, çox dözülməz xasiyyətə malikdir,
Onu xalis yanar oddan yaratmış pərvərdigar.

Sanki əkiz doğulmuşdur Nəmrudun Azərilə,
Ona təlim verən usta olmuş Yusifi-nəccar.

Təbiəti kərkisitək mahir olmuş yonmaqda,
Onun xasiyyəti mişantək kəsib doğrayar.

Hər gün fələk sitəmindən o eyləyər şikayət,
Gecə Zühəl ulduzuyla səhərədək çarpışar.

Mərrix əgər olsa idi sakin birinci göydə,
Dərhal ona əl uzadıb, vurardı iki mismar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağırlaşıb hərəkəti, qıçlarını tutub yel,
Başı isə dazlaşaraq, əqli pərsəng aparar.

Köhnəlmişdir libasıtək vücudunda dərisi,
Əti sanki bədənində əprimişdir aşikar.

Nə üzündə həyası var, nə başında sövdası,
Hamımızın üzərində ağır bir yükə oxşar.

Yazıq anam minbər kimi qısılmışdır bir küncə,
Minarətək baş qaldırmış üstündə o zülmkar.

Baxmayaraq, zəmanənin mən ən yaxşı oğluyam,
Osa mənim hünərimi özü üçün bilir ar.

Deyir: - Kaş ki, bu Xaqani bir toxucu olaydı,
Olmayaydı söz mülkündə belə qabil sənətkar.

Nə etməli, atam odur, bir oğulam ona mən,
Ağ olmaram, o nə qədər eyləyərsə məni xar.

Axır mənə çörək verib, bəsləmişdir birtəhər,
Böyük Allah, qoru onu, bəlalardan çək kənar.

29. ŞİRVANŞAHLARIN BİR VƏZİRİ HAQQINDA

Ey zülmü Yəzidilər mülkünü viran edən,
Sən ikinci Yəzidsən, dəm vurma çox Əlidən*.

Mənim İsa nəfəsli olduğumu danırsan,
"Quyruğusan o Dəccal eşşəyinin" dedim mən.

Hünərdən çox dəm vurma, çünki, hünər atına,
Sən ancaq quşqun oldun, mən isə ona yüyən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nanəcib bir qatırsan, lakin, qatırlar içrə,
Başı sərt, dırnağıysa yumşaq olan rəzilsən.

Qumlu, kaşanlı, həm də dərgəzinli vəzirlər*,
Ağalıqda başdırlar, sənı alçaq, xeyrə düşünən.

Əshabi-kəhf kimi, bil, hər üçü ölüb getdi,
Onların dördüncüsü, yəni ki, it oldun sən.

Xaqani qeyzə gəlmiş, dili var qılınc kimi,
Təslim ol, bu qəzəbin təkcə səbəbi sənsən!

30. RƏŞİDƏDDİN VƏTVATA CAVAB

Qalmadımı bir əsər bu dünyada vəfadan?
Niyə yoxdur mənimlə üns tutan bir insan?

Deyin, laqeydlik-hara, saf ürəklilik hara,
Necə həmdəmim olsun ürəyi odlanmayan?

Mumdan xurma ağacı qayırmaq asansa da,
Ondan xurma ləzzəti almaq deyildir asan.

Dostların firqətindən mən elə gündəyəm ki,
Az qalıb kölgəmi də məndən ayırsın hicran.

İnsanlıqdan bir xəbər çatarsa qulağıma,
Gözümün bəbəyini müjdə verərəm, inan!

Eşidəndə fələktək lətafətə bürünər,
Danışanda, mələktək nəğməsi bəxş edər can.

O, Misir qələminin cırıltısı kağızda,
Ya da ərəb atının seyhəsidir gurlayan.

O Barbüdün səsimi, sazın, mismarın səsi?
Setarmı, ya çalınan kasəgər ilə arqan?*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göyərçinin, qumrunun, ya bülbülün səsidir,
Xoş sədalı quşların nəğməsidir, ruhacan.

O ünqa pərdəsində qumrunun xoş səsimi?
Ya Xaqani şerində yar dodağı deyir: canı?

Bu cür səslər o qədər oxşamayır könlümü,
Bunlardan daha xoşdur dostdan yetişsə peyman.

Sədri-zaman naməsi qasidsiz, göyərçinsiz,
Mənə dünən yetişdi ancaq badi-səbadan.

Səba - bir bubbu quşu, qəmlə dolu evimsə,
Bir Səba şəhəridir, Sədri-zaman - Süleyman.

O ağıldan, təbdən iki bahar yarandı,
Biri bütün el üçün, digəri mənə ehsan.

Ümumi yaz bəzədi dünyanı, xüsusi yaz,
Mənə çatan şerdir şairlər ağasından.

Rəşidəddin dövləti əbədi bayramımdır,
Nəzmi, nəsri, bil, mənə oldu böyük ərmağan.

Əgər onun şerinin səsi dağa çatarsa,
"Rəşidəddin" sədası gələcəkdir o dağdan.

O sədrin qələminin, naməsinin nəqşindən,
Mənim qaralmış qəlbim oldu yenə çırağban.

Nəzmin, nəsrin birlikdə oxşar Nəşə, Pərvinə,
Kim görübdür onları bir nüqtədə dayanan?

Günəş kimi nur saçır ibarələr, nə əcəb,
Nəş ilə Pərvin durur Günəş ilə yanbayan?

Ürəyimin dərdinə, pərişan əhvalıma,
Salamla fərəh verdi,nəvaziş ilə dərman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazısının yaqutdan, qızıldan mənası var,
Qızıl fərəh bəxş edən, yaqut sövda sağaldan.

Məni Xızır bulağı adlandırır o dərya,
Ancaq yüz qat acıyam mən dərəmnə suyundan.

Cövza bürcü oxşadır əgər məni Günəşə,
Otuz günlük Ay kimi görünməzəm nurundan.

Vardı söz kisəsində otuz bir cəvahiri*,
Qiymətcə min bir ada bərabərdi doğrudan.

İyirmi beş söz aldım öz yaşıma bərabər,
Kövnün altı günüdür, altı beytinə baxsan.

Məgər bu zəmanənin quraqlıq illərindən,
Ona pənah aparmış canın susuzluğundan?

Açdı beş barmağıyla sözün qapılarım,
Qurtardı can mülkümü qəhətlikdən, vəbadan.

Ey həyat bəxş edənim, Sözüm çiysə, bağışla,
Əmimin ölümündən ürəyim oldu büryan.

Sıldırım qayalara çırpılmış büllur camdan,
Daha yaman ürəyim olmuş şikəstə, viran.

Bənzərəm mən o göydən asümış sürahıya,
Ki, boynuna bağlamış ipi doğrayır siçan.

Ürəyimin səfası, fikrimin parlaqlığı,
Əmimdəndi, öldü o, getdi həvəs canımdan.

O haqqın tərəfdan, bizim arxamız idi,
Çəkdi insafsız fələk onun üstünə kaman.

Xaqani, söz sehrini qəsidən ilə göstər,
Yaşadacaq o səni yaşadıqca bu cahan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoşbaxtsan, bu dövləti adına bağışladım,
Məndən belə tərifi eşitməmiş bir insan.

Bir eşşək dəm vurarsa möcüzəmdən, səsin kəs,
Dinməzsə, daha xoşdur dünyada eşşək olan.

Anla ki, gəbrlərin kamanında yox hünər,
Xəlilin dörd quşunu havada alsın nişan*.

"Axmaq özünüzsünüz" deyərəm onlara mən,
Varımla dolananlar mənə tuturlar nöqsan.

Olsalar da "bilikli ağac" söz axtaranlar*,
Yenə də ağacımdan meyvə alarlar hər an.

Təmiz duam daima sənin arxanda olsun,
Dua edilmək üçün yaratmış səni dövran.

31. DÜNYAYA UYMAMAQ ÜÇÜN NƏSİHƏT

(Din başçılarından Nəcməddin Əhməd Simgərə)

Könül, vəhşət min zəhmətə saldı məni, ah, ələman!
Bu vəhşilər səhrasından qaç, uzaqlaş dayanmadan!

Keç zülmətin çovğunundan, ta çıxasan işıqlığa,
Boğ quraqlıq bəlasını, ta görəsən bir gülüstan.

Yusif kimi bir əzizi hümmətindi azad edən,
Hümmət ilə çalış qurtar yeddi zindan çarmıxından.

Nə vaxtadək dövrün quru axuruna bağlanacaq,
Elə at ki, onun üçün kiçik otlaqdır asiman?

Bu zahiri zər bəzəkli, içərisi zibilxana,
Zəmanənin binasını adlandırma nigaristan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəzmək yeri deyil dünya, bu bağçada neyşəkərin,
İçi sünbül yarpağıtək zəhərlidir, uzaq dolan!

Sən yanırsan gecə-gündüz oda, lakin, naşılıqdan,
Gündüz çevik neylüfərsən, gecə acan zəfəransan.

Nə vaxtadək gecə-gündüz bataqlıqdır, qaranlıqdır,
O abinus, busa hindu, secilməyir ağ qaradan.

Rahatlığın narıncına həsrət qalıb bu can bağı,
Görmür dostluq nəsimini könül adlı bu sərvistan.

Qəm adına könül xütbə oxuduğu bu diyarda,
Əbədiyyət naxışını sikkəsinə vurmaz cahan.

Gəl, fələyin işvəsinə bel bağlama, çünki, onun;
İşləri də özü kimi təməlsizdir əzəl başdan.

Bir də gördün, Bənatüniəş ulduzutək başın üstə,
Bu firuzə rəngli yelkən caynağına uçulursan.

Mükünmüdür birləşəsən müradınla, çatarmı heç,
De, Bəhrami-Çubinəyə ağac atlı bir pəhləvan?

Atlanınca üzlət şahı, qapısını ört arzunun-
Canını nal bahasıtək atına sən eylə qurban!

Tamahkarın ürəyini daim yanmış görəcəksən,
Ancaq, ona üzlət meyi edə bilər, dava, dərman.

Ürək süfrə açan zaman, ulduzlardır ona cibin,
Çalış ruzi yeyəsən sən ancaq könül xonçasından.

Ürəyinin günəşi ki, öz qapından girdi sənin,
Öz gölgəni çölə çıxar, əgər bunu bacarırsan.

Sən ki, yoxluq nişanını bağlayıbsan öz boynuna,
Ətəyindən tuta bilməz artıq sənin gövnü məkan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəzəkçinin zəhmətinə Günəş üzü möhtac deyil,
Nəyə lazım Cəmşid minən ata döşlük bərk poladdan?

Sən bu şadlıq məktəbində hələ təzə bir şagirdsən,
Hələ ağzın möhürlüdür, uşaqlıq et, sakit dayan!

Mərdanəlik yoxdur Adəm övladının cövhərində,
Ağız açıb, kərəm umma barı şeytan balasından!

Fəqirlikdən məclis qurub, zəni et Mehdi cadırıdır,
Əzab görsən, bil ki, yetir sənə Dəccil ordusundan?

Yəcuc tutdu hər tərəfi, ey İskəndər, kömək elə,
Devlər yeddi ölkə aldı, imdadə gəl, ey Süleyman!

Var-yoxunu uduzanın nərdi yoxluq evindədir,
Güçün varsa, gəl, bu göhnə büsatı et yerlə yeksan.

Kişi yoxluq aləminə girsə, tapar həmdərdini,
Mum o zaman alışar ki, od almışdır incə sapdan.

Qəlbi ürkək necə oynar bu dünyanın sazı ilə,
Suya necə baxa bilər qudurmuş it qapan insan?

Sən vəhdətdən bir söz belə açma qanmaz adamlara,
Ağılsızdır naçinslərdən şəfqət, kərəm, şadlıq uman.

Naəhllər fitnəsindən İsa qalxıb getdi göyə,
Bir naçinsin fəsadıyla Adəm etdi tərki-çinan.

Rəhnümalıq etmək üçün bu yurda, ey müftə qasid,
Bubbu kimi nə vaxtadək ölümündən qorxacaqsan?

Bu camaat boş küləkdir, umma işa yarayalar,
Üstündə od, ayağının altında su edər tüğyan.

"Əlif" kimi tək dolansan daim başda olar yerin,
Başqasıyla birləşincə, kecib sonda otурarsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağıl sürter pişik kimi başını əl-ayağına,
Can telini doğramasın sənin o-bu sanki siçan.

Hadisələr pələnginin yaralısı olduğunçün,
Gərək pişik olsun sənə xasiyyətcə xoş pasiban.

Ruzigarın dörd fəslinə dörd təkbirlə vida söylə!
Dörd ünsürün balıncını alçaqlara ver ərməğan.

Nə vaxtadək vurğunsan sən altun buzov surətinə?
Zəhər dolu bir keciyə haçanadək sən qonaqsan?*

Çək hümmətin dəvəsini fəqirliyin yollarına,
Fələk ruzi versin sənə, yerin olsun bir kəhkəşan.

Yaşamağı dərvişlərdən öyrən, bil ki, dərvişlərin,
İcraçısı Cəbraildir, Mizbanı isə Rizvan!

Zərin, zorun eşqində sən can vermə ki, uşaq belə,
Öz bəbəsin əziz tutar yüz cür sümük oyuncaqdan.

Göy bürçünün birincisi sıfırdır ki, fəqirlikdə*,
Birincilik almaq üçün sıfrı götür sən xaniman?

Ey Xaqani, gəl, fəqirlik guşəsini xəlvətgah et,
Ləyaqətli bir dövlətə yetişərsən bu məkandan.

Od vur cahü cəlala sən, ver küləyə Təkin əlin,
Üzdən suyu quyuya tök, bax, torpağa dönmüş Tuğan.

Tamahı qır təxtə döndər, otur, hökm et tacbəxşə,
Acgözlüyə arxa döndər, pəhləvanla dur yanbayan!

Nə Raziüddövlə razı qalmış behişt həyatından,
Nə Səfiülmülk simasında şadlıqdan var zərrə nişan*.

Əgər cahil eyb tutsa paltarına, zərər yoxdur,
Ay tutulmaz it hürəndə, göpək hürər, keçər karvan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Donun neçə rəng olsa da, qəlbin bircə rəng olsun qoy,
Təbüdir, İsa qəlbin qapısında açmış dükan.

"Quran"ı da al və sarı rənglə yazmaq olar, bəli,
Sən də sarı, ya qırmızı paltar geysən, deyil nöqsan.

Bal arısı naxışlıdır, qarışqadan hünərsizmi?
Qarğadanmı gözəl deyil - tavus quşu geymiş əlvan?

Çalış, gültək, cavanlıqda qoca görün aşiqlərə,
Zahidlərtək sərv kimi qocalıqda olma cavan!

Şöhrətpərəst zahidlərlə ünsiyyəti sən vur yerə,
Müştəritək görünərlər, Mərrix kimi içərlər qan*.

Nəfəsləri təkəbbürlə hərzə yanan təndir kimi,
Fitrətləri fətir kimi həm dadsızdır, həm cansıxan.

Onların qırx saxlaması xaçpərəstin pəhrizidir,
Fitələri fərqlənməz heç məcusların züniarından.

Bu göy paltar içində yox mərdlik, vəfa nişanəsi,
Göy geyimli fələk olmuş can əridən, ömr azaldan.

Nə vaxtadək yanacaqsan möhnət evi yurdun üçün?
Sən deməklə Şirvan dönüb olmayacaq, bil, xeyirvan.

Uçub tərlan balasıtək, qon şahların qolu üstə,
Milçək yeyən qulunclara, burax, qalsın sənin yuvan.

Ata, ana əzizi, de, çoxmu səni saxlayacaq,
Anan cəhrə sayəsində, tişəsilə yazıq atan?

Beşiyini qəm tərpədir, hadisələr dayən olur,
Ey bu vəhşət beşiyində əl-ayağı bağlı qalan!

Aslan kimi bir kişisən, burax daha süd əmməyi,
Bu zəhərli döş bəs haçan çıxacaqdır de ağzından?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hadisələr qırsa sənin ümidinin kəmərini,
Fikr eyləmə, Nəcməddini mədh etməkdir ona dərman*.

Qırdı bidət bütlərini Simgərin xoş iqbalı,
Yer üzündə qızd büt də qiymətdə bir heçdir, inan!

Onun dördkünc minbərini alıb səkkiz göy hammalı,
Qaldırmışdır asimana, mələk tutmaz yerdə məkan.

Ey Adəmə varis olan, natamamdır işim mənim,
Ey dünyaya İsa olan, cana gəldim bu dünyadan*.

Oğlun, qızın yoxdursa da, haqq yanında hörmətin var,
Bilmirsənmi "Quran"dakı "Ləmyəlid"də var şərəf, şan*.

Erkək tavus kimi qırıb yumurtanı, sonsuz yaşa, Sərçə,
toyuq keşik çəksin, cücə alsın yumurtadan.

Övladdan da qiymətlidir məna dolu fikirlərin,
Ailədən əzizdir o mənalar ki, yaratmısan!

Qafdan Qafa, şərqdən qərbə gəzsən belə, tay tapılmaz,
Sənin kimi şəriətci, mənim kimi şer yazan.

Aslandakı asqırıqdan törəmiş bir pişik kimi,
Xoş təbimdən doğulanlar kəsilmişdir mənə düşman.

Şöhrətimin düşmənləri necə dostum olar, deyin?
Mən bəstamlı oldum sanki, onlar isə əhli-Damğan*.

Haqq bu xarrat balasına vermiş elə bir istedad,
Ki, Nəmrudtək yadlar onun üzərinə çəkir kaman*.

Tək tozuma çatmaq üçün öldürürlər özlərini,
Fəqət, xəstə dəvə önə keçə bilməz saribandan.

Yüz minlərcə heyvanların dərisini soyar qəssab,
Ancaq, fələk birisini edər dirəfşi-Gaviyan*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

32. VERİLMİŞ MÜLKÜN GERİ ALINMASINDAN ŞİKAYƏT

Şahdan tərif tacını istəmirəm geri mən,
O verdiyi çörəyi geri istəyir nədən?

Padşahın hökmünə baxırdı iki diyar,
Oldu yeddi iqlimə söz tacımla hökmdar.

Şah mənə verdi çörək, mən ona cantək əsər,
Çörək yeyilib gedər, söz yaşayar min illər.

Səkkiz cənnət, doqquz göy verdim şaha xəzinə,
Beş yumurta gəliri olan kənd verdi mənə.

Beş kəndlinin verdiyi onda bir vergi qədər,
Duaçıya verdim ki, şaha dua edələr.

Mən çırağam, verdiyim nuru geri almaram,
Padşah bir Günəşkən, nurunu aldı tamam.

Günəş Aya nur verər, verdiyini qaytarar,
Səxavət Günəşidir, demək, bizim şəhriyar.

"Qoğal kiçikdir" deyə ağlayırdı bir uşaq,
İt yüyürüb, əlindən cəld onu da qapdı, bax.

Qul verər zillətilə şahın adına zinət,
Sarımsaqla yoxlanar Çin müşkündə keyfiyyət.

Tibet müşkü və Misir yağı yoxlanan zaman,
Sarımsaq ilə kəvər məhək daşıdır, inan!

Fərruxi bir mədhinə bir kənd aldısa əgər*,
Mənim hər bir beytimin qiymətidir bir şəhər.

Yaxşı hesab eləsək aradakı fərqi biz,
Yüz mindən də çox olar mənim haqqım, şübhəsiz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən nəzmdə, nəsrdə qələmimlə rəhbərəm,
Rəhbərlik qüdrətimi təsdiq eyləyir qələm.

Şerə keçmiş şairlər saçmışsalar əgər nur,
Məni görüb deyərlər: ən böyük şair budur.

Məna tükü demirəm qələmlə, bilir dostlar,
Düşmənlərin hər tükü edər sözümə iqrar.

Şah əlində görəndə mənim şerlərimdən,
Axsitanın mədhini, alovlandı qibtədən.

Dedi: - Əfsus, bu məddah bizim olaydı gərək,
Belə tərifə layiq bizik bu dünyada tək.

Nədmlər dedi: - Əhsən Xaqaniyə bir daha,
Şirvanşahın mədhini vermiş bizim padşaha.

Dedim: - Düşüb qiymətdən verdiyiniz hədiyyə,
Lakin, mənim töhfəmin haqqı var ölməzliyə.

33.

Dəcləyə düşdü güzarım dünən axşam səhvən,
Orda, gömrükxanada çoxlu gözəl gördüm mən.

Sahili sarmış idi busə, gülüş, işvə səsi,
Qönçə-qönçəydi səmatək yerin əsmər sinəsi.

Orada gördüm əcəm rindlər, ərəb cananlar,
Xoş geyinmiş hamısı, gözləri şəhvətlə yanar.

Bir əcəm oğlu qoca gəldi qəribü nalan,
Gözü - bağlı, ayağı - xəstə, vücudu - üryan.

Üzünə göz yaşı axmış, qurumuş dil-dodağı,
Ciyəri yansa da, ahıyla donub əl-ayağı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetişib, Dəclə kənarında yıxıldı o həmən,
Çöldə biçarəni salmışdı ətəş taqətdən.

Belini əymiş idi qüssə, kədər, dərdü bəla,
Qalmamışdı gücü bir zərrə ki, çaydan su ala.

Ağız açdı, bir ərəbdən su rica etdi qoca;
O dedi: - Ay qoca, pul ver, nəyə lazım bu rica?

Qoca ərz etdi: - Pulum yoxdur, igid, mən fəqirəm,
O ərəb söylədi: - Allah səni kəssin, ey əcəm!

Bir deyin, mən nə yazım insafı yox Bağdaddan,
Qocaya bircə udum verməsu bir insan.

Şöhrətin tutsa da şair kimi bu dünyanı,
Çəkmə Bağdad adını, yoxsa pulun, Xaqani!

34. TƏMSİL

Kufəli bir gözəl kor bir əcəmlə,
Oturub eşqdən edirdi söhbət.

Dedim həmin kora: - Aldanma qıza,
O sənin puluna salmış məhəbbət.

Axmaqlıq ucundan aldanma ona,
Belə bir məsəl var, ver buna diqqət:

Eşşəyə dedilər: "Buyur toya gəl",
Eşşək qah-qah çəkib güldü, nəhayət.

Dedi: "Siz istəyən rəqqas deyiləm,
Nə də çalğıçıtək tapmışam şöhrət.

Hamballıq etməyə çağırırsınız,
Su, odun daşımaq lazımdır, əlbət".

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

35.

Tapılsa ehl, ona can nisar edərdim mən,
Özümü əhli-cahandan kənar edərdim mən.

Məni qanan əgər olsaydı Yerdə bircə nəfər,
Səmanı tərk, Yeri ixtiyar edərdim mən.

Vəfa görəydim əgər mən bu şux gözəllərdə,
Qoyub ayağına baş, ahu-zar edərdim mən.

Vəfa, üzündəki o pərdəni ataydı əgər,
Nələr düşündüyümü aşikar edərdim mən.

Xilas edəydi əgər düşmənim məni məndən,
Başına ruhumu qurban şüar edərdim mən.

Qılınc mənim başım üstündə qan axıtsaydı,
Sevinc əşki töküb, iftixar edərdim mən.

O yer ki, varlıları yox eyləyir, biləydim əgər,
O yerdə varlığımı bərqərar edərdim mən.

Səhər verib də o can cürəsi zəkatından,
O kəs ki, vird oxuyur, dürdxar edərdim mən.

Şahın başındakı tacda olan o ləli qapıb,
Ona bu saxsı küpü bir məzar edərdim mən.

Həvəs yoxumdur, ürəklə əgər ova çıxsam,
Kamandan hər oxuma bir şikar edərdim mən.

Cahanda qarşımı, bil, kəsməsəydi Xaqani,
Nə idi xan ilə xaqan? Xar edərdim mən!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

36.

Göç təblinin səsinə oyandım səhər-səhər,
Keçdi gecə nə tez, deyə, yandım səhər-səhər.

Dərdin ağrı yüküylə min illik yolu ötüb,
Nə "uf' dedim, nə yolda dayandım səhər-səhər.

Oldum xilas dərdü qəmindən bu aləmin,
Eşqin bağında ruhumu sandım səhər-səhər.

Gördüm ki, var önümdə səadət xəzinəsi,
Nə qəflət eylədim, nə yubandım səhər-səhər.

Söndürdüm ahım ilə fələklər çırağını,
Sönmüş çırağın ətrini andım səhər-səhər.

Tökdüm gözümə yol qumunu tutiya kimi,
Üz görməsin gözüm, - budur andım səhər-səhər.

Əhli-kamal pərdəsi dövründə çərx edib,
Nə sirrdir o pərdədə qandım səhər-səhər.

Könlüm qədəh tutub, mənə səsləndi: "Nuş, nuş!'
İçdimsə də, könüldən utandım səhər-səhər.

Xurşid məst oldu görüncə məni xumar,
Xurşidi qucmağa mən uzandım səhər-səhər.

İynə batırma könlümə nahəqq yerə mənim,
Naz ilə qəmzədən, bil, usandım səhər-səhər.

Yalnız demə ki, parçaladım mən libasımı,
Eşqinlə qəlbdən yaralandım səhər-səhər.

Canımdakı hərarəti bilmə şərabdən,
Yandırdığın o atəşə yandım səhər-səhər.

Xaqaniya! Sözün ölüyə can verər sənin,
Sənsən Məsihi-əsr-inandım səhər-səhər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

37.

Vəslin gözəl gülşənindən əsən mehi sezmişəm,
Ətəyimi yığışdırıb, yar dalınca gəzmişəm.

Bələdcisiz yetişmişəm onun vüsal kuyinə,
Hüzuruna vasitəsiz gəlib çatmışam yenə.

Qanadımı burda qoyub, demişəm ki, dilbərin,
Qanadıyla səmalara yüksələrəm mən yəqin.

Məhəbbətin xəncərilə əzəliyyət quşunun,
Boğazını üzdürmüşəm qapısında mən onun.

Əbədiyyət atınısa bəzəyərək, yadların,
Acığına, bağlamışam qapısında dildarın.

Gah üzündən, gah ləbindən dişləyərək xeyli şən,
Vəd etdiyi saf şərabı nuş etmişəm əlindən.

Xaqaninin adı belə çıxmışdı öz yadından,
Xatırladı o dildarın dilindən çıxan zaman.

Heç bir aşiq görmədiyi kef görmüşəm, müxtəsər,
Təəssüf ki, yuxudaydı mən gördüyüm bu keflər.

38.

Püstə ağzın, iki yaqut dodağına and olsun!
Lalə kimi qızaran gül yanağına and olsun!

Zülfün ilə zirehlənmiş ox kimi düz qəddinə,
Kəman çəkən, oxlar atan müjganına and olsun!

Mərmər kimi bədəninə, atlas kimi üzünə,
Narınc sinən, alma kimi buxağına and olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki nərgiz, iki sünbül, iki qızıl gülünə,
Sərv boyun, şümşad qolun - budağına and olsun!*

Üzük qaşı ləblərinə buxağının tuğuna,
Bu qızıl gül pərəyi, o zanbağına and olsun!

O qızıl gül yanağının məstediçi meyinə,
Ənbər kimi tər düzülən çinağına and olsun!

Ləli-ləbin kanarında o nadir incilərə,
Gümüş bədən, altun bəzək növrağına and olsun!

Sənin o gül üzünə ki, Zöhrə kimi nur saçır,
Harut kimi qəlb aldadıb, qaçmağına and olsun!*

Yəmən gölü gərdəyində xumarlanıb uyuyan,
İki həbəş gəlininin yatağına and olsun!*

Qulaqdibi kəsmə telin, qulaqdakı sırğana,
Qoşa zəncir saça halqa vurmağına and olsun!

Qana dönən ciyərimə, durmayan göz yaşıma,
Bu halıma ağız yumub, susmağına and olsun!

Nəfəsimdən çıxan tüstü, ürəyimin şöləsi,
Qıvrımsaç al yanağında qalmağına and olsun!

Həsrətinlə, ey nazənin, bağrım başı qan olmuş,
Qəm odunda yanan cismin cızlağına and olsun!

İki tük ki, mən aşiqi hər bəladan qoruyur,
Qara zülfün yadigan olmağına and olsun!

Aramızda bircə nişan varsa sənlə mənim,
O sözdür ki, quşlar düşüb sorağına and olsun!

Nə qədər ki, ürək vurur, can qalır öz yerində,
Can sənindir, könül qurban ayağına, and olsun!

Sən çox yaşa, Xaqanidə daha ürək qalmamış,
Gec gələrək məni nalan qoymağına and olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

39.

Bilmirəm ki, könlüm düşüb nə dərdə, axıb, dırnağımı boyadı qanı,
Dərdim azalmadı dırnaq qədər də ömrümün kədərlə keçdi hər anı.
Qəlb o qaniçənin oldu torpağı, soldu gözəlliyi, soldu novraqı;
Bir ovtək sərgərdan gəzirkən dağı, qanıyla gülüstan etdi səhranı.
Urəyim o hüsnə uyandan bəri, sitəmdən, cəfadan qandır hər yeri,
Qəlbimi incitdi o gözəl pəri, əfsunla könlümün oldu sultanı.
Anladım işindən fikrini bütun, oyunda hər zaman o gəldi üstün,
Təzə bir qəm verdi dilbərim hər gün, üzünün həsrəti əritdim canı.
Xaqani, gecələr rəqiblədir yar, onunla bir yerdə görünür əğyar;
Deyirlər: harda ki, bir xəzinə var, üstündə qıvrılıb yatar ilanı.

40.

Yalandır, deyirlər Yəmən daşında,
Günəşin şüası ləl etdi peyda.

Neçin öz eşqilə daş qəlbli dilbər,
Mənim göz yaşımdan ləl düzəldər?

Zülfünü edəli könlüm aşiyan,
Mən ümid əlimi üzmüşəm ondan.

Ürəyim bir ipək qurdudur, bəli!
Özünə hazırlar kəfən öz əli.

Könül öz qəmilə özü oldu çak,
Öz əlilə etmiş özünü həlak.

Xaqani vermişdir qəmdən imtahan,
Daha nə istəyir bu könül ondan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

41.

Od püskürən xasiyyətin rüsva etdi aşiqləri,
Otur, söndür bu atəşi, ey könlümün can çövhəri!

Bəsdir bunca şurü fəqan, nahaqq yerə axıtdın qan,
Şikar etdin bu qədər can, yıxar səni bu, ey pəri!

Zülfün pərişan oldu, yar, müşk, ənbəri eylədi xar,
Sərv qəddinin, bil, ey nigar, dünyada yox bərabəri.

Urəyimi çaldın haman, saçlarında etdin nihan,
Bir demədin ki, ey filan, gəl, gör bu qəlbi-müztəri.

Hicran atın çapdın bətər, sən qəndimə qatdın zəhər,
Şadlığımı boğdu kədər, ey könlümün sitəmkəri!

Bütün quşlar və balıqlar vətənində azad yaşar,
Mənsə sənə bəndəm, a yar, səndəsə yox rəhm əsəri.

Qəlbim itibdir, ey gözəl, axtar onu, insafa gəl,
Tapan kimi sən, əlbəəl ver mənə o dərbədəri.

Aşiqlərə sən daima ləblərinlə verdin şəfa,
Xaqaniyə neçün dəva vermirsən, ey can dilbəri!

42.

Qan tökürsən, qorxmayırsan, daha xoşdur belə əyyar,
Çalıb qəlbi qaçmayırsan, daha xoşdur belə tərrar.

Od vurubdur mənə qəmzən, gör bir, necə yanıram mən,
Qəlbim, canım getdi əldən, daha xoşdur belə dildar.

Hər gün gəlib bir qərara, qəlbə vurdun təzə yara,
Məstlik edib çəkdin dara, daha xoşdur belə azar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən bir nursan gözdən nihan, bir pərisən məndən qacan,
Bir busənə bu can qurban, daha xoşdur belə bazaar

Ciyərimi yedin, gözəl, qana döndü ürəyim, gəl,
Tükünə də vurmadın el, daha xoşdur belə qəlıxar.

Mən bir quşam işdə ustad, yar toruna düşdüm, ey dad!
Bu dərd ilə oluram şad, daha xoşdur belə rüzgar.

Bil ki, ölmüş qəlbim çoxdan, sən İsasan, ver mənə can,
Mən tək aşiq olmaz, inan, daha xoşdur belə bir yar.

Gör ikinci İskəndəri, Cəmşid kimi bir sərvəri,
Hikmətlidir söz gövhəri, daha xoşdur belə əşar.

Keyxosrov can bağışladı, Səyavuşun çıxdı adı,
Bəhram mindi fələk atı, daha xoşdur belə sevar.

Bu inçinin tayı olmaz, ulduzdan da o sərəfraz,
Ütaridtək al qələm, yaz, daha xoşdur belə göftar.

Şan-şöhrətli, böyük xaqan, İsa dəmli şahi-Şirvan,
Fərmanıyla yaşar dövran, daha xoşdur belə sərdar.

Budur, indi sənsiz varam, sənsiz olmur canım aram,
Sənsiz daha yaşamaram, daha xoşdur belə ilqar.

Ver canını, ey Xaqani, olsun canın yar qurbanı,
Razı salsan şux cananı, daha xoşdur belə rəftar.

43.

O dildarın dodağından bir cam almaq olarmı heç?
Yaman bərkdir əli, ondan bir kam almaq olarmı heç?

Vüsalma o dildarın əldən gedər zərin, varın;
Ləblərindən gözəl yarın ilham almaq olarmı heç?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, tünd olsa bu mətləbdən, söz açma sən şirin ləbdən,
Belə bir vaxt məhi-şəbdən peyğam almaq olarmı heç?

Kömək etsə sənə ruzgar, ağuşuna gələr o yar,
Lütf etməsə o gülüzar, məram almaq olarmı heç?

Ey Xaqani, olubsan xam, istəyirsən o yardan kam,
O fitnədən belə məqam ənam almaq olarmı heç?

44.

Ey canlara afət mənə bir de, kimin cananısan?
Qəlbim vurulmuşdur sənə, bəs sən kimin ceyranısan?

Ey qışda yaztək gül açan, əslin nədir, vəslin haçan?
Al rəng ilə ənbər saçan, hansı bağın xəndanısan?

Sən, ey gözəl, ey bəxtəvər, ey qəlbləri çalan dilbər,
Bir de görüm, parlaq qəmər, hansı göyün tabanısan?

Gəl, aç sədəf, yəni ağız, gəl, səp göhər, yəni ki, söz,
Gizlətmə sən məndən, a qız, hansı qəlbin imanısan?

Hər tükünə, ey məhliqa, bir ölkə olmuşdur fəda,
Yersiz olar sormaq sana: ey can, kimin sən canısan?

Bizimləsən, bizdən kənar, ruhtək görünməzsən, nigar,
Bizim deyilsən bəs, de, yar, axı kimin soltanısan?

Aşiqin oldu Xaqani, hüsnü camalın heyranı,
Ey qəlbimin ruhu, canı, söylə, kimin cananısan?

45.

Sənə nə etmişəm, nigar ki, adlanım bietibar?
Yolunda mən gözəllərin sevdasından oldum kənar.

Mənə etmə belə sitəm, sənsən mənə, bil, möhtərəm,
Qəddim olur qarşında xəm, hazıram hər əmrinə, yar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəfa etməz nazlı gözəl, qəlbimdə məhv olur əməl,
Könlüm sənə yuvadır, gəl, öz əlinlə eyləmə xar.

Xarab etmə könlümü sən, kinlə sənə baxmadım mən,
Sevgin çıxmaz ürəyimdən, sənə olsun canım nisar.

Bu ürəyim dönüb qana, düşüb zülfündə zindana,
Pənah qalıb zənəxdana, o al dodağa, gülüzar!

Ürəyimdən gələr xəbər, rahatlığa xoş müjdələr,
Əsən zaman səhər-səhər nəsimin, ollam bəxtiyar.

Göz yaşıma sal bir nəzər, biri gümüş, birisi zər,
Olsun sənə afərinlər, kimiyanda məharət var.

O Əfzələm ki, hər zaman ona sən idin mehriban,
İndi neçin bəs qovursan, sən bil, bilsin pərvərdigar!

46.

Bu dünyada bir könül ki, ola biqəm, tapılmaz,
Kimiyadır, qəmlərinə şərik, həmdəm tapılmaz.

Sinəndəki yaraların torpaq doldur içinə,
Bil ki, elə yaralara başqa məlhəm tapılmaz.

Geri qaytar ciyərindən qopan odlu ahları,
Soyuq ahlar çəkmək üçün köksündə dəm tapılmaz.

Bircə vəfa sünbülünü, insanlıq tarlasında,
Bu dünyanı başdan-başa bugün gəzsəm, tapılmaz.

Arzumuzun əkinləri susuz qaldı həmişə,
Ötdü ümid buludları, tarlada nəm tapılmaz.

Hamı sənə məhrəm olur nemət verən zaman sən,
Möhnət günu hey nalə çək, yari-məhrəm tapılmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir dostuna qəmlərindən etsən əgər şikayət,
Deyər: - Allah kömək olsun, xalqda kərəm tapılmaz.

Bilirsənmi bu aləmdə kim asudə yaşayır?
O adam ki, batsa aləm, onda ələm tapılmaz.

İldə əgər iki şənlik günü vardır xəlq üçün,
Nəzər salsan, görərsən ki, iki gün həm tapılmaz.

Təbüdir, yoxdur elə bayram günü cahanda,
Qurulmasın yüz min yerdə o gün matəm, tapılmaz.

Qalx ayağa bu cahanın süfrəsindən, Xaqani!
Bu süfrənin sahibini görən xürrəm tapılmaz.

47.

Xəstələndim Reydə mən, qayğıçəkən adamlar,
Zərif ürəkleriylə ürəyimi aldılar.

Ürəyimi yerindən üzürdüm tər xurmatək,
Özəyi çıxarılmış ürəyim deyil ürək.

Əzab odu, dərd odu cəhənnəmdən betərdir,
Dünyanın cəhənnəmi canı üzən kədərdir.

Anam, sevgilim hanı? Soruşuram özümdən,
Parçalanır ürəyim, qanı axır gözümdən.

Beyin xurma ağacı, gözümə sancdı tikan,
Yol göstərən gözümün çanağına doldu qan.

Hüsnunə vurulduğum Rey adamaldadandır,
Sevənlərin ruhunun aldanması yamandır.

Xəstəliyimdən doğan ağrılar çox ağırdır,
Getməlidir əlacsız, kimi əcəl çağırır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zamanım ruhu çəkər öz ardınca hər kəsi,
Onun ruhunda vardır Məryəm oğlu nəfəsi.

Arzu elə dağdır ki, əlçatmaz zirvəsi var,
İnsan hər gördüyünü arzusuna oxşadar.

Gördüyümü tərk etdim, axtarmaram bir daha,
Həyat gözü min bəzək verir adi qulağa.

Kamal gözü bərəli, çaş qalıbdır dünyada,
Necə Günəş batarkən çaş görünür səmada.

Torpaq sənə anadır, deyir: məni abad et,
Ananın çağrışım dinlə, könlünü şad et.

Qala kimi evləri hasar dövrəyə aldı,
Pəncərələr daraldı, var-dövlətim azaldı.

Təbib gəldi, xəstəlik vergisini almağa,
Ölmüş bilib, başladı məni ələ salmağa.

Mənə işlətmə verdi, zəhləmi tökdü tamam,
Nəyə vardı iştaham, dedi: - Haramdır, haram!

Sevdiyim Reydir mənim, yerim yataq olsa da,
O, şərəf Kəbəsidir, mənə yasaq olsa da!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏZƏLLƏR

1.

Bizə nazlı baxışınla könüldən bir xəbər göndər,
Al bu canı, bahasına dodağından şəkər göndər!

Mən bir sadə qulunam ki, dünya bundan xəbər tutmuş,
Zülfündən bir tel ayırıb, öz quluna kəmər göndər!

Danışmağı bəhanə tut, aç o şəkər dodaqları,
İki dünya xəracına bərabər bir göhər göndər.

And olsun o gözlərinə, bizdə candan əsər yoxdur,
O ruh verən nəsimindən bizə sən bir əsər göndər.

De, bu hicran davasında kaman çəkib, kim ox atdı,
Bu döyüşə girmək üçün vəslindən bir kəhər göndər.

Gəl, bu odlu qəlbimizi yaxma cəfa atəşində,
Öz vəfandan dərman düzəlt, bizə də bir qədər göndər.

Vurğunundur bu Xaqani, ürəyini verdi sənə,
əgər qəbul edirsənsə, bizə bir şad xəbər göndər.

2.

Aşiqlik dünyasına qədəm qoymayan insan,
Ürəyinə gözündən axıtmamışdır al qan.

Hər kəsə ki, vurmayıb qəm oxunu məhəbbət,
O, eşqin qüdrətini biləcəkdir haradan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevginin mənasını duya bilməz o kəs ki,
Günü vüsaldan ayrı keçməmişdir bircə an.

Könlünü ovlayanla bircə kəlmə kəsmədən,
Aşiq edər canını, könlünü yara qurban.

Dostun eşqinin odu gecə-gündüz alışmış,
Şölə saçır ürəkdə, olmuş canım çırağban.

Eşqin yolu bağlanıb, sirri nədir, ilahi,
Heç bir aşiq məhrəmtək girməyir qapısından.

Yazıqlar, vay o qəlbi yanmış aşiqlərə ki,
Bir qədəm ayrılmamış eşqin astanasından.

Onun şadlıq gününü görən yoxdur, gün nədir?
Ona toxunmamışdır şadlıq yeli arxadan.

Xaqaninin könlünü şadlandırdı həvəsi,
Dərdü qəm yazılmayıb ona əvvəl binadan.

3.

Hər kirpiyi sinəmə bir təzə peykan atar,
Oxlar sınar qəlbimdə, ciyərimdən qan atar.

Tərsa üzünü görsə, dodağı möcüzündən,
Təsbeh alar əlinə, zünnarı çoxdan atar.

Könüllər cuşa gələr telinə şanə çəksə,
Üzünü açsa, aləm səcdəsinə can atar.

Eşqinin aləmində fitnə qoşun qaldırar,
Hüsnünün meydanında fələklər qalxan atar.

Şikara gəlsə hərgah qəlbimi, şadlığından,
Ayağının altına özünü qurban atar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başından keçənlərə o daş ürəkli sultan,
Daş yaqdirar, mərhəmət fikrini başdan atar?

Eşq yolunda candan keçənsən, ey Xaqani!
Qadan bu yola ancaq fədakar insan atar.

Təbinin töhfəsini dəryaya tulla, bəlkə,
Xarəzmdə sahili güclü bir tufan atar.

Adın şah sarayında çəkilməyə təzədən,
Bəlkə sənin adına fələk bir fərman atar.

4.

Labi yaqut, üzü Gün kimi dilbər, gecə şən,
Qapımın agzına məst halda gəlib durdu həmən.

Qapını döydü yavas, səslədi: - Oglan, bir qalx!
Mən sorusdum: - Gecə kimdir bizi narahat edən?

Dedi: - Cagrılmamış olsam belə, dostam, qonagam,
İstəməzdim sənə baş agrısı vermək qəsdən.

Qapıdan girdi, sevincdan uca bir səslə dedim:
- Nə qəribə gecədir, ah, nə gözəl ovdu galan!

Meyi vəsf etdim urəkdən, gecəyə şükr elədim,
Dostumu mənzilimə bunlar idi cün gətirən.

Olmasaydı gecə hərgah, üzü olmazdi açiq,
Olmasaydi mey əgər, yar utanardi məndən.

Söylədim tövbəliyəm, içməmişəm çoxdandır,
Mən onu sındıraram ki, gecəmiz keçsin şən.

Ey gumüş üzlü, qadam haqqi qəbul etsən əgər,
Bu qızıl çölhrəmi verrəm ki, saralmis qəmdən.

Dedi: - Xaqani, zərə oxşamayır rüxsarın,
Dedim: - əfv eylə, görünməz gecə zar, bilmirsən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5.

Könlüm çıxıb gedibdir, bilməm nə cur bəla var,
Mən ki, əziz tutardim, bəs bunda nə qəza var?

Zənmim çatan məkandan sordum, soragın etdim,
Əldən düsüb, yoruldum, bu yolda çox cəfa var.

Hey axtarıb, soruşdum, bir tapmadım nişanə,
Ya rəbb, onun başinda nə gizli macəra var?

Etdim güman ki, bəlkə qaçmışdım- eşq əlindən,
Eşqə düşüb o, yoxsa zənmimdə bir xəta var?

Suymuş məgər çəkildi, torpaga hopdu, getdi.
Ya quş olub o uçdu, başında nə hava var?

Üç gün soragın etdim, car çəkdim hər tərəfdə,
Ondan bu həndəvərdə nə sovt, nə səda var.

Kimdir xəbər verən bir yorgun, qərib urəkdən?
Aya, bu darda axir bir dəva, bir dava var?

Dil açdi bir usaq ki, Xaqani, olma qəmgin!
Bir afətin telində bir qəlbi mübtəla var.

6.

Hədisi-tövbəni at bir kənara, badə gətir!
Xumarı dəf eləmə, mən xumara badə gətir!

Rəva deyil iki qiblə namaz, ya badə,
Nəmazə hövsala yoxdur, etibara badə gətir!

Demə: səhər gülə oxşar, qara gecə mişkə,
O ətrü rəngdə mey tap, bu zara badə gətir!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könüldə dini tutub, vermə yol xürafatə,
Ki, mane olmaya mən meyküsarə badə gətir!

Ömür keçir yaxasın yırtaraq, ətəklə onu,
Salıb bu məclisə, ol biqərarə badə gətir!

Şərab carçısına hazıram deyəm "ləbbeyk",
Mənimlə həmdəm olan dosta, yarə badə gətir!

Səhər duası nədir, istərəm səhər qədəhin,
İcazə al, məni-büxtiyarə badə gətir!

Behiştin arxına, Xaqani, ehtiyacın yox,
Behişt ürəkdi, dur ol cuybarə, badə gətir!

7.

Ay nə lazım, sən kimi məhru kifayətdir mənə,
Gül nə lazım, sən kimi xoşbu kifayətdir mənə.

Sevgilim, əqlim olubdur eşqinin divanəsi,
Çəkmə zəncir fikri, ol geysu kifayətdir mənə.

Göz yaşımdırsa buludsuz bir yağış yağdırmayan,
Bir buludtək zülfi-enbərbu kifayətdir mənə,

Hüsnünü seyr etməyə yox ehtiyac ayinəyə,
Əllərintək bir zərif güzgü kifayətdir mənə.

Zülfünün rəngi mənim mərac gecəmdir, şübhəsiz,
Qabə qövseynin - iki əbru, kifayətdir mənə.

Ehtiyacım yox, nə lazımdır hümanın kölgəsi,
Sayeyi-kuyində olsam, bu kifayətdir mənə.

Qəsd qılmış tökməyə Xaqaninin qanın fələk,
Qətlim üçün sən kimi dilucu kifayətdir mənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

8.

Can bəxş edərəm cana gər ləblə şəkər versən,
Ləbdən mənə, dildarım, bir cani-digər versən.

Qızdırmalıdır qəlbim, ləlində də neyşəkkər,
Qızdırmamı dəf eylər neyşəkkər, əgər versən.

Səndən belə bir dərdlə xoşdil deyiləm cana,
Razı olaram bundan bir dərdi-betər versən,

Kuyindəki itdən də əskik mənə ad verdin,
Məndə bu ada layiq varsa bir əsər, ver sən!

Sən bir qaragöz türksən, ağ bir qulunam mən də,
Xoşdur mənə tac versən, yainki kəmər versən.

Pərvanəsiyəm eşqin, şəmində pərim yanmış,
Çırpınmadayam, cana rəhm et, mənə pər ver sən

Qəmzənlə, dodağınla qarşımda dənizsən, bil,
Gah canıma qəsd eylə, gah dürrü göhər ver sən!

Xaqaniyə söz verdin bir vaxt göhər verrəm,
Mən bəxşişə möhtacam, xoşdur bu səhər versən.

9.

Bax, yenidən bu könül dərdin ilə yar olub,
Ömr çatanda başa eşqi giriftar olub.

Yar çıxınca çölə, şəhrə düşüb vəlvələ,
Eşqi görərkən ağıl qaçmağa vadar olub.

Verdi həyat, sevgilim, bir gülüşün qəlbimə,
Şöleyi-hüsnünlə can yurdu şərərbar olub,

Əldə bəla xəncəri, ayrılıq etmiş hücum,
Varlığa son qoymağa hicr səbəbkar olub.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pəncə atıb ceyranın boynunu sındırdı şir,
Göyərçin də şahinin caynağında xar olub.

Səbrimi, aramımı, dinimi də aldılar,
Təkcə qalan ruh mənim qəlbimə qəmxar olub.

10.

Bildim ki, bu nazından bir ləhzə dayanmazsan,
Könlümdə olan dərdə hərgiz sən inanmazsan.

Mənası nədir, düşsəm torpağına zillətlə?
Öpsəm də ayağından, bir halıma yanmazsan.

Söz vermiş idin kamə, amma, nə bu tezliklə,
Bir ömr keçib getdi, öz vədini anmazsan.

Bir busə verib, çəkdin ondan da peşimanlıq,
Bir də belə bir səhvin ardınca dolanmazsan.

Mən ölməli olsam da, barı sən özün öldür!
Lakin, bilirəm, lütfən, qanıma bulanmazsan.

Xaqaninin hərdən bir döydün qapısın, gördün,
Qan mənzilini basmış, qaçdın, daha anmazsan.

Xaqani, öz eşqində sabitqədəm ol, can qoy,
Baş getməsə bu yolda, vəslini qazanmazsan.

11.

Səndən, gözəlim, özgə kəsdə nəzərim yoxdur,
Dərdü qəmi-eşqindən başqa kədərim yoxdur.

Dünyanı bütün gəzsəm, olmaz sənə oxşar can,
Avarə bu könlümtək heç yanda yerim yoxdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş qoysam ayaqların altında, nə qorxum var.
Vəslin mənə mümkünsə, başdan xətərim yoxdur.

Tək bir gecə də olsa, tərk eyləmərəm kuyin.
Hər daş ola bir darğa, xövfüm, həzərim yoxdur.

Səndən mənədək, canan, min illik uzun yoldur,
Məndən sənə bir addım yoldur, xəbərim yoxdur.

Milçək kimi, Xaqani, sərsüfreyi-vəslində,
Cimçəşmə əgər gəzsə, bil ki, zərim yoxdur.

12.

Xəcil etmiş üzün, gözəl, qəməri,
Dodağın saldı qədirdən şəkəri.

Nazını ordusu edəndə hücum,
Qaçdı əqlimin keşikçiləri.

Yetişib, döydü könlümün qapısın,
Qapını qırdı tutdu ol şəhəri.

Mən kədərdən şikəstə xatir idim,
Olmuş indi eşq dərbədəri.

Elə ox vurdu kirpiyini sinəmə,
Ki, o ox tikdi sinəmə ciyəri.

Gözləmə naməni göyərçindən,
Çünki sınmış onun da balü pəri.

Sənə dastan yazırdı Xaqani,
Qələmi sındı bitməmiş əsəri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

13.

Yer daşını,şövq ilə cana dilə!
Ətri-vəfa istəsən, ondan dilə!

Aləmi gəz,axtar öz həmçinsini,
Cum dənizin qərinə, mərcan dilə!

Yer üzü sənə qalmağa layiq,
Gəz fələyin, göydə bir eyvan dilə!

Ortaya qoyma canını süfrətək,
Mərdə verib canını mehman dilə!

Yer üzü şeytan qoşunuyla dolub,
Yandıraraq şəmi, Süleyman dilə!

Ey ürəyi yaralı Xaqani, qalx!
Əhl tapıb, dərdinə dərman dilə!

Xızr kimi iç səfərin zəhrini,
Sonra gedib, çeşmeyi-heyvan dilə!

Xeyri bu Şirvanda görən olmayıb,
Xeyri uzaqlarda sən hər an dilə!

At daşını cümlə qohum-qardaşın,
Arxa üçün özkə bir insan dilə!

Yusifə, gör, neylədi qardaşları,
Dostluğu, qardaşlığı yaddan dilə!

İçmədə Şirvan suyunu min nəhəng,
İçməli su, get, Xorasandan dilə!

Cəhd elə dəryanı keçəndən sora,
Tap Təbəristan, tərəbistan dilə!*

Məqsədü amalını Amüldə gör,
Görgana get, Yusifi ordan dilə!*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

14.

İsminin zikrində dastan tapmışam
Məni bu adla abi-heyvan tapmışam

Hər öpəndə kuyinin torpağı
Eylə billəm ətrdən can tapmışam

Asitanəndə durub, bir qul kimi ,
Asimanə yüksəlib, şan tapmışam

Sən hüma adlandıran gündən məni ,
Mən qidam üstxandan tapmışam

Qəm torundan, rəhm qıl, qurtar məni
Aşiyan şövqünü çoxdan tapmışam

Əldəki sərmayəm eşqindir sənin ,
Ömrdən, hərçənd, nöqsan tapmışam

Aşiqəm, aşiqlərin xaqanıyam
Söz atı altımda cövlan tapmışam

15.

Qəlbim kimi odludur dəhanım,
Çəkməz, odur, ismini zəbanım,

Səbrim kimi, qorxuram ki, yansın,
Ağzımda adın, əzizi-canım!

Fəryad elədim, ürək odundan,
Ağzımda alışdı öz fəğanım.

Kəsdi başım üstünü kədər, qəm
Alçaldı bu cismi natəvanım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən torpağam,yüngüləm küləkdən,
Ağır gəmiyəm, dəmir sükanım.

Ağırlığım olmasaydı hərgah,
Alnımdan olardı göy məkanım.

Qaspax necə ayrılar dəmirdən-
Ayrıldı həmişəlik rəvanım.

Mən təşnəyəm it qapandan artıq,
Yoxdur bir içim suya gümanım.

Su almaq olarmı özgələrdən?
Müftə od əsirgəyir zamanım*.

Səndən iraq, öylə xəstəyəm ki,
Vəslin kimi qalmayıb nişanım.

Bir şairəm, el bilir yayılmış,
Hər ölkəyə şöhrətimlə şanım.

Xaqani, elə dəyişmişəm ki,
Yoxmuş, deyəsən, nə ad, nə sanım!

16.

Nə afət olmusan, ən xırda dərdin hicrandır,
Nə dürrsən ki, onun az bahası bir candır!

Gözəllik aləminin şahı zülfün altında,
Üzükdə möcüzələr var, adın Süleymandır.

Cahanda bir qaniçəntək tanındığın gündən,
Bu qaniçən fələk öz etdiyinə peşmandır.

O yerdə ki, açılır söz sənin fərağından,
Görərsən, ordakı evlər tamam virandır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəxi ümidə nə hacət, belim bükülmüşdür,
Suyum başımdan aşıb, damənim dolu qandır.

Vüsaldan mənə, Xaqani, az danış ki, məni,
Bu dərd öldürəcək - vəsl, ya ki, hicrandır!

17.

Ya vəslin üçün nişan gərəkdir,
Ya dərdimə son qoyan gərəkdir.

Qəmdən yanıram, o şux görmür,
Şöləm gözünə əyan gərəkdir.

Sən, vəslimi et tələb deyirdin,
Ondan mənə bir nişan gərəkdir.

Bir gün yetəcək vüsala könlüm,
Lakin, buna çox zaman gərəkdir...

Daim məni yersiz incidirsən,
Təqsirim ola bəyan gərəkdir.

Dünya ikiüzlü, bəxtim on rəng,
Sən bir ürək ol, aman, gərəkdir.

Viranəyədir bütün lağımlar,
Gənçinəyə yol tapan gərəkdir.

Bir qamçı kimi əlində zülfün,
Göylər atını çapan gərəkdir.

Zülmət gecəyə şəvə saçından,
Zövq ilə bəzək vuran gərəkdir.

Dən qalmadı ömr sünbülündə,
Qəlbin dəni yandı, can gərəkdir.

Xaqani olub fəsaneyi-eşq,
Əldə belə dasitan gərəkdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

18.

Bizi öz şirin dilinlə ələ al, əzizlə, canan!
Quru bir salamla bəxş et neçə xəstə qəlbə dərman.

Əl uzat bizə, zəmanə sənə bəlkə hörmət etsin,
Sonu olmayan cəfaya özü son qoya bu dövran.

Bizə mehriban olsan, qəsəm ahu gözlərinə,
Sevinər fələk, bir ittək qapımızda olsa dərban.

Canımız sənin kəcavən, dalıca qaçır bir attək,
Bizi tərk edib gedirsən, nə lüzumu var, qala can?

Oturanda, məclisində bizi özgədən soruşma!
Nə nişanə axtarırsan? Sən özün bizə nişansan!

Dilimiz xəta edibdir, onu qəmzən ilə bağla,
Gələcəkdə açmasın söz nə cəfa, nə ayrılıqdan!

Sənə Xaqani qısıldı, canını nisar qıldı,
Əgər istəsən yenə can, canımız canına qurban!

19.

Könüldə aşiyan etmiş xəyalın,
Verib can, istərəm bəzmi-vüsalın.

Qapında torpağa üz sürtərəm ki,
Nəsibim ola didari-çamalın.

Kamalın qarşısında acizəm mən,
Camalından müzəyyəndir kamalın.

Üzün nuru gecəmi etdi gündüz,
Nə bədrin var sənin, nə də hilalın.

Soruşdun yarü dildarı məndən,
Müəmmadır mənimçün bu sualın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəyalın canıma həmdəmdi, canan!
Xəyalından soruş, bil, vəsf-halın!

Əgər Xaqanini görmək dilərsən,
Xəyalına gətir sən öz xəyalın!

20.

Fəsli-gül oldu, gülüm, cami-güləfşan gətir,
Keçdi dünənki xumar, indi mənə can gətir!

Öpmə sən əğyar əlin, uyma rəqibə, gülüm,
Mey dolu sağər götür, nəğl ilə reyhan gətir!

Sübh açılıb,könlümün arzuları dil açar,
Mütrübü sal yanına, çəngi-nəvaxan gətir!

Sübh şərabı qızıl camə tökülsün gərək,
Sən də qızıl camdə içmək üçün qan gətir!

Sübh açılıb, çərxdə sındı qızıl badələr,
Qönçə gülüm, mey töküb, məçlisə xəndan gətir!

Rəhm elə, Xaqaninin qanını tökmüş fələk,
Qan yerinə qan dolu badeyi-əlvan gətir!

21.

Eşq hücum eylədi, çatdı yüzə bir qubar,
Etdi sürahi kimi qəlb evimi tarmar.

Vurdu yara dəmbədəm qəlbimə eşqin sənin,
Qanda boğuldu könül, etməz önündən fərar.

Könlümü verdim sənə şux-sitəmkər, nedim?
Sındı piyaləm, quzum oldu pələngə şikar.

Hicrin odu canıma qəsdilə yanğın salıb,
Göz yaşı səpdikcə, bu can alışıb odlanar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən kimi cananımın hicri gözəl vəsldən,
Hicrin edər bağrı qan, vəslin isə can alar.

Çəkmə yanımda mənim bir daha, gəl başqa ad,
Baş sənə lazımsa, gəl, kəs başımı, tez apar!

Gördü qara gözlərin, sinədən uçdu ürək,
Fitnə bu Xaqaniyə öz ürəyindən doğar.

22.

Hakimi-canım niyə candan şikayət dinləməz?
Bəndələr fəryadım dərgahi-vəhdət dinləməz.

Asitanında qoyub üz torpağa, qan ağlaram,
Aşiqinə ol sənəm etməz kəramət, dinləməz.

Ah keçər büryan olan qəlbimdən, ağzımdan çıxar,
Həm ağızdan qəlbə qaytarsam, nəhayət, dinləməz.

Hər zaman söylər mənə: şərh et məhəbbət sirrini!
Mən hekayət başlaram, ol bikifayət dinləməz.

Aşiqin qəsdinə girmiş pusquya əldə kaman,
Ox atar, sinə yarar, qanun və adət dinləməz...

Gündə halımdan soraq istər mənim təskin üçün,
Ərşə qalxan naləmə verməz də qiymət, dinləməz,

Zülfü altında qulağı gizlənib cəsustək,
Ah eşitməz, vay eşitməz, bir nəsihət dinləməz,

Mən şikayət eylərəm ki, od düşübdür canıma,
Yar əlində olsa da əmri-təbabət, dinləməz.

Gözlərindən incitək yaşlar tökən Xaqaniyə,
Bir məhəl qoymaz nədən ol nazlı afət, dinləməz?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

23.

Gözüm yollardadır, bəlkə xəbər gəlmiş olar səndən,
Olaydı qismətim, vəslin şərabından içəydim mən.

Əgər səndən yetişməzsə mənə bir saf şərab, dilbər!
Şəfa camın dibindəymiş, mənə xıltı çatar hərdən.

Vəfa qasidləri məndən sənə məktub yetirməzsə,
Heç olmazsa, əzabından mənə pay ver, edim şivən.

Əgər vəslin bizə qismət deyilsə, dost, düşmən var,
Salamımın cavabında salam göndər, cavab ver sən.

Qurulmuş yollarım üstə riyadan, hiylədən yüz tor,
Budur qorxum, düşər, dostum, ayağın bu tora birdən.

Qaçar əqlim bir avarə kimi daim hey ardınca,
Əgər kuyinə çatmazsa, yəqin bir yer edər məskən.

Ləbin vəslinə yetməkçün bütün imkana əl atdım,
Ki, Xaqani yetib kamə, olaydı bəlkə bir an şən.

24.

Eşqin dənizində boğulub könlüm, əzadır,
Dinlə bu həqqiqi sözü, zəni etmə riyadır!

Tökdü qanımı ayrılığın, çəkdi qılıncı,
Yaxdı canımı odlara, hicrin na bəladır?

Tufan qoparıb, tutdu könül mülkünü eşqin,
Rəhm et, boğulan aşiqinin halı fənadır!

Olsan da bu tufanda bizimlə özün, amma,
Tufan topuğundan, bizə başdan da ucadır.

Üstün tutaraq başqasını bizlərə, getdin,
Heç söyləmədin ki, biz harayıq, o haradır?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

25.

Niyə söz açım könüldən sənə, məhrəmim deyilsən,
Qəmimi duyanmasan da, yanıram sənin qəmindən.

Bütün aləmə əyandır, çəkirəm sənin cəfanı,
Mənə sən vəfalısanmı? Deyə bilmərəm ürəkdən.

Ürəyim yoxa çıxıbsa, əvəzində kaş biləydin,
Onu sən qapıb apardın, demək, ovçu dilbərimsən!

Mənə bir nəfəs yaxınlaş, duyum ətrini bir anlıq,
Ciçəyim, o ətri məndən niyə sən əsirgəyirsən?

Canımı fənaya verdi qara zülfünün kəməndi,
Ödə qan bahası, ban, mənə ləli-ləblərindən*.

Ləbinə pənah apardım, məni, söylədim, qəbul et!
Dedi: - Şəhddən gözün çək, qana qane ol, çəkil sən!

Bu Həqayiqi qapında nə qədər fəğana gəldi,
Ona bircə kəlmə söz də demədin vəfa üzündən!

26.

Rəhm qıl, canan, bu cam başına qurban verim,
Xəncərinlə qəlbimi yar, qoy önündə can verim.

Var-yoxum dünyada bir candır, nədir əmrin, onu,
Xəncərinə tapşırım, ya başına qalxan verim?

Əldə xəncər sən dursan, gözdə mirvarid mən,
Göz nədir, istər sənə gövhər dolu ümman verim?!

İstəsən can gövhərini, bağlaram qurşağına,
Hazıram, bu qəlbimi ağuşuna hər an verim.

İynəsində yüz tel inci saplayır kirpiklərim,
Sinənə, ya daməninə səpməyə fərman verim?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hüsnünə cilvə verirsən bir gözəl tavus kimi,
Gəl, qəbul et gözlərimi, hüsnünə həmyan verim.

Sən quruca bir salam ilə dilin islat mənə,
Mən sənə kirpiklərimdən tərtəzə mərcan verim.

Sən o ruhani vücudunla görün Xaqaniyə,
Mən bu nurlu gözlərimi cisminə ehsan verim.

27.

Xəncərindən, eylə bir baş varmı ki, tapsın aman?
Baş bada getməzsə, bitməz eşq dərdi heç zaman!

Çıxmamış eşqin kamanından bir ox ki, sinəmə,
Qoşmasın bir ox ona mütləq qəzayi-asiman!

Qan tökər minlərlə hər an torpağa qəmzən oxu,
Bəs nədən yoxdur qılıncında sənin bir qətrə qan?

Ey gözəllər sultanı, bidad edirsən zülmdə,
Padşahsan, bildiyin eylə, çəkinmə darğadan.

Bunca zülm etdin mənə, varmı alan səndən qisas?
Adil hakim qalmamış, yoxdur ədalətdən nişan!

Astananda dərd ilə, qəmlə günüm yetdi sona,
Odlu ahımdan bacamdan göylərə qalxar duman.

Gündə min yol səbr dərsinə baxıb əzbərlərəm,
Yadda qalmaz, çün qulağım səndə qalmışdır hər an.

Keçdi illər, bircə an hicran qəmi əskilmədi,
Məndə vəslin həsrətilə nə ürək qaldı, nə can.

Min kərə "Ya rəb" çağırdımsa, mənə rəhm etmədin,
Ey xuda, xoşbəxtliyə yoxdur daha məndə güman!

Faydasız "Ya rəb" deməkdən yoxsa, Xaqani, səmər,
Bəlkə də "Ya rəb"bi qoymuş kölgədə ahü fəğan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

28.

Könlümüz necə, gördün ki, xəbərsizdir yar,
Ovladı, yıxdı bizi, yerdə qoyub, getdi nigar.

Biz onun hüsnünü gördükdə, xəbərsiz düşdük,
O xəbər tutmadı bizdən, çəkilib getdi kənar.

Ovlayanda bizi, göz qıydı o, bir ovçu kimi,
Sonra lütf ilə nəzər salmadı ki, noldu şikar?

Dedi: yoxdur aramızda ikilik; pozdu özü,
Birliyə and içərək, əhdini qıldı inkar.

Bəxt vəfa etmədi, yar vəsli əlimdən çıxdı,
Sinəmi deşdi oxu, qəlbimə saldı odlar.

Vəslinin məclisi xoşdur, dedilər, yollandım,
İstədim daxil olam, tez qapını bağladılar.

Cəhd qıldım, düşəm o məclisə damdan, bacadan,
Heyf, hümmət quşumun nə gücü, nə şəhpəri var.

Eşq nərdində uduzmuş oyunu Xaqani,
Daşı şeşxanəni tutmuş hər oyunçu uduzar.

29.

Onun eşqi olmasaydı mənə göylərin qəzası,
Canıma aman verərdi, barı, eşqinin bəlası!

Ayağım əgər dəyəydi yerə vəslinin yolunda,
Gecə göydə saxlamazdı əlini onun duası.

Məni sirr pərdəsində qara zülfü yaxmasaydı,
Yayılardımı cahana belə eşq macərası?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Canımı bəlaya salmış, bilirəm, yəqin fəraqı,
Niyə çıxmayır başımdan yenə vəslinin havası?

Cana afət oldu, saldı canımın evində məskən,
Can içində olmasaydı, az olardı can xətası.

Xaqani kaş olaydı qapısında bir gözətçi,
O zaman olardı qəbri uca göyləmi fəzası.

30.

Ey eşq odunda qan olan xəstə ciyərlər,
Sevdaya düşən başlar hamı badə gedərlər.

Aşiq başına eşqin ilə şur salıbsan,
Zahid ürəyində alovundan var əsərlər.

Ruhlar sənin hicrində qızıl qanla boyanmış,
Vəslin həvəsiylə alışıb yandı ürəklər.

Eşqində zəmanə məni şeşxanəyə salmış,
Vəslinçin ümid daşıma yol yoxdur, a dilbər!

Keçdim, bu mənim səhvim idi, kuyin önündən,
Adət budur, aşiqlər hamı səhv eləyərlər.

Xaqaniyə hüsnün xəbəri çatdı, xəbərsiz,
Qaldırdı özündən bütün aləmdə xəbərlər.

31.

Namən ilə tez mənə imdada çat!
İkicə barmaq kağızla dada çat!

Yandırıb, hicrinlə öldürdün məni,
Bir sifarişlə mənə bəxş et həyat!

Söyləmə başqa təbibə dərdimi,
Ey Məsihim, dərdlərimi sən sağalt!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Firqətində taqətim əldən gedib,
Əl mənim, damən sənin, bir əl uzat.

Mən hələ zalım fəraqından sənin,
Alınadım yarım vüsalına bərat!

Allah, Allah, mən səfərdən bezmişəm,
Sən mənə sayəndə bir məskən yarat!

Dərdliyəm, dərman evindir ləblərin,
Busə ver, dərmanıma gülqənd qat!

Mən müsibətlər görən Xaqaniyəm,
Bir xəyal ol, nazımı çək, işvə sat!

32.

Bu əyyarlıq odu onun qırdı mənim əyarımı,
Gərdəninin gümüşüsə apardı etibarımı.

Xaçtək qıvrım saçları da çəkdi məni kəlisaya,
İsa dəmli al dodağı saldı dara güzarımı.

Çay daşıtək nalə ilə hey qaçıram zaman-zaman,
Qəmzələri bu yarımın alıbdır əldən varımı.

Eyləmişdir para-para eşq mənim qəlbimi, bax,
Qara xalı etdi qara mənim də ruzigarımı.

Bu könlümü verdim onun zülflərinə, qalmadı tab,
Getdi könül, aldı mənim səbrimi və qərarımı.

O gördü ki, eşqə düşən bu qəlb evi viran olub,
Can evimi yıxdı bu eşq, aldı hər ixtiyarımı.

Çıxardar eşq, möhrəni əjdaha çəksə kamına,
Ancaq ilanın ağzına saldı mənim mədarımı.

Mənə dedi: - Ey Xaqani, abrın-həyan qalmadı heç!
Göz yaşımdır aparan abır-həya, vüqarımı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

33.

Bir gül, ey gül, qönçeyi-xəndanına qurban olum,
Canına qıyma, o nazlı canına qurban olum!

Vəslinə can atmağımdanmı məni tərk eylədin?
Can dözərmi möhnəti-hicranına? Qurban olum!

Getdin, ey dilbər, gəzər daim dalınca gözlərim,
Hardasan, bildir mənə, ünvanına qurban olum!

Mərhəmətlə bir nəzər sal bu pərişan halıma,
Ya bir ox vur sinəmə, peykanına qurban olum!

Gül üzün, qönçə dodağın, sərv qəddin, ey gözəl,
Hansı bağda bəslənib, bağbanına qurban olum?!

Söylədin: vəslə yetər aşiq, dözərsə möhnətə,
Bitdi səbrim, qıl vəfa, peymanına qurban olum!

Bəsləmişdim bir quzu qurban ayağın altına,
Keçdi Qurban, gəlmədin, qurbanına qurban olum!

Qul kimi Xaqani üz tutmuş sənin dərbarına,
Ver icazə, hüsnünün xaqanına qurban olum!

34.

Yerləşməz aşiqin ürəyi cana,
Hümməti sığışmaz bütün cahana.

Eşqin məqamını dərk edən insan,
Baş əyməz o yeddi qat asimana.

Ağıl versə ona tac, külək papaq,
Aşiq boyun əyməz belə ehsana.

Eşq çöl quşudur, hər yeri gəzsə,
Qayıdar can adlı bir biyabana.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin, illər keçdi, bu quş hey gəzir,
Hələ də qonmayır bir aşiyana.

Sövda karvanına mənzil o yerdir,
Ki, ağıl girməsin orda meydana.

Rahatlıq yüz ağac uzaqda qalmış,
Nə qədər can atsa, çatmaz karvana.

Eşqin ləzzətini sən nə bilirsən?
Hələ o salmamış səni heycana.

Xaqani, mərdlərin məhrəmidir eşq,
O nəsib olmayır namərd olana.

Məhəbbət bilir ki, əhl adam yoxdur,
Onunçün meyl etmir heç bir insana.

35.

Hanı bir yel, apara könlü gülüstanə tərəf,
Tutaraq bəlkə yaxamdan, çəkə cananə tərəf.

Ürəyim düşdü iki dərdü bəla ortasına,
Gah gedər kakilə, gah zülfi-pərişanə tərəf.

Can çətinliklə çıxır, başımın üstə tez gəl,
Gözlərin tez aparar canımı müjganə tərəf,

Yusifi cəzb elədi, bil ki, Züleyxa yuxusu,
Çəkdi Kənandan onu Misrə - o samanə tərəf.

Xəbər et nazlı kamandarə ki, öz şəstilə,
Çəkə bu qəlbimi bir ləhzədə peykanə tərəf.

Mən susuz qalmışam, əfsus, pərəstarım yox,
Ki, çəkə ləblərimi çahi-zənəxdanə tərəf.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O xumar gözləri heç meylə ayılmaz əsla,
Bir cam aşiq qam içsə, el atar canə tərəf.

Biz onun xəncərinə hazır olan qurbanıq,
Kaş.ki, bir ləhzə baxa biz kimi qurbanə tərəf.

Ağlayarsa belə bir nalə ilə Xaqani,
Qorxuram göz yaşı çəksin onu tufanə tərəf.

36.

Müşk səpir aləmə sübhün əli novbahar,
Hər daşa zinət verir jalə ilə ruzigar.

Qoydu oyunbaz bulud qarşıya yaz sehrini,
Hər bir ağacda səhər sehr eləyir aşikar.

Lalə ciyərqan olub, aldı Günəşdən şüa,
Qumızı don geydisə, daməni odda yanar.

Bülbül ötər şövq ilə indi bahar eşqinə,
Gör, gəlini gülşənin oldu necə gülüzar.

Bağda göyərçin məgər Xaqanidən dərs alıb,
Hər budaq üstündə o, şer oxuyur biqərar?!

37.

Sənin nazın, gözəl yarım, edibdir aləmi heyran,
Mənim də qəlbimin dərdi sağalmaz, olsa min dərman.

Qapındakı itə hər gün gərək yüz can verəm töhfə,
Ona diş həqqi bundan az yaraşmaz, ey mahi-taban!

Hanı məndə o cürət ki, tapım astanına bir yol,
O dar yolda ki, yoxdur bir nəfəs də çəkməyə imkan.

Sənin eşqin olan qəlbə sığışmaz bir də can eşqi,
İki Rüstəm olan meydanda bir Rəxş eyləməz cövlan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni qəmzə oxunla öldürüb, sonra saçın yoldun.
Nə öldür sən, nə də saç yol, bu nə matəmdir, ey canan?

Nədir Xaqaninin canı, ola qurbanlığa layiq,
Budur, olmuş iki aləm sənin bir hüsnünə qurban.

38.

Bu üzmüdür, ilahi, ya da bir Aydır tamam?
Bu zülfmüdür, xudaya, ya da şikar üçün dam?

Günəş Covza bürçünə daxil olar hər ildə,
Desinlər ki, Günəşdir sənin önündə qulam.

Yaşadığın zamanda gözəllik sənə xasdır,
Rüsvay olmuş eşqində səni sevənlər müdam.

Sənə layiq bir canı yoxdur xalqın dünyada,
Sənə halal olan şey hər kəsə olmuş haram.

Dedim ki, səbr etməklə işim düşər yoluna,
Yəqinim oldu indi, bu bir xəyal imiş xam.

Mən toruna düşmüşəm, məstəm sənin meyinlə,
Ax, bu necə tordur, ya bu nə meydir, ey xudam?

Hər bir hicran gecəsi - sübhə çatan zamanda,
Rəqiblərdən qorxaraq, dönüb olur tez axşam.

İlk badəni içərkən mənliyimi unutdum,
Qorxuram ki, məhv etsin məni bu ikinci cam.

Zülfün "lam"ı olmasa, "nun"a dönər qamətim*,
Ey Ay, bu necə "nun"dur, ya o zülfün necə "lam?"

Dedin ki, Xaqanitək vardır çoxlu aşiqim,
Göstər, görüm, varmıdır ondan vəfalı adam?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

39.

Bir tük qədər, ey könlüm, azad ola bilməzsən,
Qəmdən tükə dönmüşsən, bil, şad ola bilməzsən.

Qəm gəldi, xarab etdi rahatlıq evin, heyhat!
Alt-üst elədi, bir də abad ola bilməzsən.

Mən çox poladı gördüm - atəşdə suya döndü,
Sən də su olarsan, bil, polad ola bilməzsən.

Torpaq sənə qəm verdi, qəm atəşinə yandın,
Odla yox olan, ey su, azad ola bilməzsən.

Gəzdikcə ədalət sən, tuş gəlmədəsən zülmə,
Ölsən də, ədalətdən imdad ala bilməzsən.

Gövhər tapa bilməzsən, ömrün boyu dağ çapsan,
Dağ çapmaq ilə axır Fərhad ola bilməzsən.

Meydani-məlamətdə bir kəs ola bilsən də,
Eyvani-səlamətdə bünyad ola bilməzsən?*

Gültək qəm anasından qan içrə doğuldunsa,
Şadlıqda meyə ancaq həmzad ola bilməzsən.

Qanlı yaş axıtmaqla Kufə kimi qərq oldun,
Bir gün belə həşmətli Bağdad ola bilməzsən.

İstərsən əgər, şah ol, istərsən əgər, dərviş,
Hər halda, bu qəmlərdən azad ola bilməzsən.

Xaqani, gələr bir gün, aləm səni xatırlar,
Lakin o şən aləmdə, ey dad, ola bilməzsən!

40.

Sən ey xumar gözləri könülləri yaxan yar,
Qıvrım saçın kəməndi canları etmiş şikar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Huri kimi camalın səhranı cənnət etmiş,
Aşiqlərin də ahı dəryanı eylər buxar.

İki ayda bir dəfə görüş vəd eyləmişdin,
Oldu iki gözüm dörd, qaldım sənə intizar.

Qəmlə doldu ürəklər o kinli kirpiyindən,
Şəkər dodağlarından qəmin özü bal dadar.

Sancdı bir əqrəb kimi ilan şəkilli zülfün,
İlan şəkilli əqrəb, de, harada görən var?

Saçlarımın kəməndi alıb getdi könlümü,
Ənbərli qıvrımında həbsə saldı, ey nigar!

Bu zavallı ürək, bax, getdi gözdən, könüldən,
O qərarsız zülfündə gecələr tutmuş qərar.

Astananda hər gecə eşqin ilə Xaqani.
İki ağlar gözündən qanlı yaşlar axıdar.

41.

Gecəm xurşidə tor oldu, məger zülfi-nigardır bu?
Bu adi bir gecə, yoxsa ki, eydi-ruzigardır bu?

Deyirlər ki, behişt içrə gecə olmaz, nədən bilmək?
Gecəm bir cənnətə dönmüş, mənimçün aşikardır bu.

Fərəhdən axdı göz yaşım saralmış çöhrəmə, çünki,
Canım şadlıqla səsləndi ki, ya rəbb, vəsli yardır bu?

Görüb ol dilbərin hüsnün, qərarım getdi bir anda,
Dedim ki, yeddi örtükdən çıxan bir nobahardır bu.

Qızıl xalxalıtək düşdüm ayağına, dedi dilbər:
Üzün xalxalımın rəngindədir, nə ahü zardır bu?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtirdim başımı, bir diş götürdüm gül dodağından,
Üzük qaşında Cəmşidin, - dedim, - nəqşi-nigardır bu?

Ləbində busədən bir yer qalarkan söylədi əğyar:
Məriz olmuş, hərarətdən ləbində bir qabardır bu.

Gileyləndi dodağımdan dodağı, söylədim: - Canan!
Qana qan almışam səndən, nə yersiz ahü zardır bu?

Günəş kimi soyunduqda, səhərtək pərdə atdıqda,
Alıb ağuşə bir aytək, dedim: - Nə gül üzardır bu?

Rəqibim istədi məndən ayırsın yarı, cananım,
Dedi: - Əl çək, nə etsə, bil ki, sahib-ixtiyardır bu.

Bu gün Xaqani şerindən dəyərli yadigar yoxdur,
Ədalətli şaha məndən gözəl bir yadigardır bu.

42.

Taqətim yox ki, mənim mənzili-cananə çatım,
Natəvan murəm, heyim yox ki, Süleymanə çatım.

Təşnə gəzdim bu çölü, Xızr mənə açmadı yol,
Bəlkə bir növ ilə mən çeşmeyi-heyvanə çatım.

Gecə - zülmət, yol - uzaq, pusqu qurub yolda rəqib,
Bilmirəm, bəs necə ol sərv-xuraman çatım?

Edirəm şükr şikayət yerinə Yusiftək,
İstəyir mən şərəfə, ya da ki, zindanə çatım.

Ovçumun yaxşılığın bülbülə təsvir edərəm,
Qoy səlamət buradan bircə gülüstanə çatım!

Atəşin göz yaşının taqəti yox qətrəsiyəm,
Qüvvə yetməz ki, çıxıb navəki-müjganə çatım.

Vəslə çatmaq sənə müşkül görünür, Xaqani!
Yol çətindir, deyiniz, bəs necə asanə çatım?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

43.

İsa dəmli yarım məndən əsirgədi bir dəmini,
Öz dərdilə xəstələndim, əsirgədi qədəmini.

Buna neçə məna verim ki, o Günəş camallı yar,
Səhər çağı əsirgədi öz ətrilə şəbnəmini.

Necə busə ümid edim onun yaqut dodağından,
Salamı da əsirgədi, artırdı hey sitəmini.

Boynumda bir halqa vardır, vəfa göyərçini kimi,
Osa mənim Kəbəm ikən, əsirgədi hərəmini.

Yar cövrünə dözməyərək, göynəyimi kağız etdim,
Yarım isə əsirgədi məndən kağız-qələmini.

Göz yaşımla min fəsillik namə yazdım o dilbərə,
Əsirgədi o, mürəkkəb suyuyla bir rəqəmini.

Qəribədir, yenə o yar Xaqanini salmır yada,
Nə oldu ki, əsirgədi o şux məndən kərəmini?

44.

Getdikcə bu eşqin mərəzi pur xətər oldu,
Dərman elədikcə ona, döndu bətər oldu.

Eşqin odu yandırdı mənim canımı, eyvah,
Bu vaqeədən cümlə cahan baxəbər oldu.

Həsrətdə qalıb, vəslə ümid eyləmişəm mən,
Zülmətdə qalıb, istəyim hər an qəmər oldu.

Sənsiz, gözəlim, hicrə dözüb zəhr içərdim,
Gəlcək yanıma zəhr dönüb bal, şəkər oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gördüm səni, hər dərdü qəmim getdi, dağıldı,
Əhvalıma bax, sanki gecəydi, səhər oldu.

Xaqani, sevin indi, yarın rəhinə gəlibdir,
Bundan sora könlün, deyəsən, bəxtəvər oldu.

45.

Eşqin işin içindən əlini çıxararkan,
Fitnə-fəsad verdi baş ruzigarda çox yaman.

Hər kəs sənin kuyinə yarım dəfə düşdüsə,
İnan ki, bir nəfəsdə min dəfə o verdi can.

Min bir neştər batırdı qəlbə hər işvə, qəmzən,
Dodağın min iş açdı canın başına, canan!

Təbiətin pələnglər adətini tutunca,
Qıymadı bu çəməndə azad gəzə bir aslan.

Söylədin: səbirli ol, işin düzələr əlbət,
Vay olsun o işə ki, onu səbr edər asan.

Sən yasəmən budağı olursan başqasına,
İş mənə catandasa, dönüb olursan tikan.

Sənin eşqinin odu gizli düşdü könlümə,
İndi aşkar od çıxar Xaqaninin canından.

46.

Gözəl yarım, çıxıb seyr eylə, səhra, gör, nə əlvandır
Qızıl gül ərğavan ilə şərabi-vəsl içən andır.

Gülə bülbül deyər: - Nərgiz edir min naz, min işvə,
Məgər nərgiz bunu bilmir ki, bağrı qönçənin qandır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə susən nəsihət eyləyir ki, eşqə aldanma!
Nəsihət dinləməz aşiq, bu susəndənmi pünhandır?

Fələk tarac edib baqını büsatını, verər badə,
Yaşıl bir örtük altında gülün halı pərişandır.

Amandır, getmə gülzarə ki, nadan bir tikan səhvən,
Sənin barmağına batsa, könüldə, bil ki, tufandır.

Gözəl dilbər, bu hüsn ilə əgər bağa qədəm qoysan,
Görərsən: şalına lalə, qəbanə sərv heyrandır.

Əgər badi-saba bağda duyarsa zülfünün ətrin,
Verib qəlbin, alar, söylər ki, qiymət indi yüz candır.

Səba ilə mənim ortamda bir qovğa qopar onda,
Deyərlər: bu küləklə çarpışan nisan nə nadandır!

Canım nə qədər var, mənə canan sən olarsan,
Candan da əziz olsa bir insan, sən olarsan.

Sən indiyədək qəlbim üçün qəlb idin, ey yar,
Bundan sora da canım üçün can sən olarsan.

Hər yarəm əgər olsa, onun məlhəmi sənsən,
Hər dərdim olarsa, ona dərman sən olarsan.

Könlün necə istərsə, elə ver mənə fərman,
Ömrüm nə qədər var, mənə soltan sən olarsan.

Eylərsən əgər şerhini iman ilə küfrün,
Baş hərflə sərlövhəyi-divan sən olarsan.

Bundan belə aldatma məni küfrlə, dinlə!
Xaqaniyə həm küfr, həm iman sən olarsan.

Xaqani nədir? Gəlsən əgər, ey gözü şəhla!
Əlbəttə ki, Xaqaniyə xaqan sən olarsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

48.

Ey nazlı gözəl, şur ilə meyxanədə rəqs et!
Məst ol, çal, oxu, məclisi-məstanədə rəqs et!

Rəqqasə əgər məst ola, şövq ilə edər rəqs,
Ey badə, bir az sən də bu peymanədə rəqs et!

Adabı atıb, an burax, boş sözə baxma,
Məhrəm də yaxındır bizə, biganə də, rəqs et!

Batində, fəqət, aşiq ilə rəqs elə, zahir,
Aqil də sənə söyləsə, divanə de, rəqs et!

Məlumdu təkəbbür aparır zövqü, səfanı,
Bəzən uşaq ol, sən elə tiflanə də rəqs et!

Bir ov yarasından tökülən qan kimi qayna,
Coşğun ürək ol, sineyi-pərvanədə rəqs et!

Xaqani, gedib bağdakı bülbüllərə uyma,
Bayquşların avazına viranədə rəqs et!

49.

Eşqin ilə, dilbərim, bax, əql sərgərdan qalıb,
Görcəyin gül çöhrəni, can gözləri heyran qalıb.

Eşqinə düşmüş məgər gündüz, gecə bu çərxtək,
Tutmayır aram, odur avarə, sərgərdan qalıb.

Hər iki aləmdə, çünki, görmədi bir aşina,
Ol Günəş misli cəmalın pərdədə pünhan qalıb.

Kim görübsə zülfunün çovqanım, bir top kimi,
Başı meydanda onun çovqanına qurban qalıb.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim itirsə başını, versə könül sən dilbərə,
Halı zülfüntək pərişan, kan bisaman qalıb.

Kim görübsə səndəki ağ dişləri bir an belə,
Dişləyib barmağını, ömrü boyu heyran qalıb.

Kim sənin vəslində bir abi-həyat axtardısa,
Ömrü varkən dəstgiri-zülməti-hicran qalıb.

Hər kimə vəslin nəsib olmuş tələbsiz, dəhrdə,
Bir sağalmaz dərd ilə, gördüm ki, bidərman qalıb

Sən kimə verdin könül - oldu cahanda kamyab,
Bu səbəbdən hər iki aləmdə cavidan qalıb.

Bil, sənin eşqində, ey dilbər, yazıq Xaqaniyə,
Ağlayan gözlər qalıb, bir də dili-büryan qalıb.

50.

Könlüm yetər, nəhayət, o vüsalə,
Can qovuşar o gül üzlü cəmalə.

Ağlayıram ki, göz yaşım incitək,
Səpələnsin gül dodağa, o xalə.

Mən cürbəcür onu xəyal edəndə,
Məcnun olub, düşürəm min xəyalə.

Dəli könlüm yarpaq kimi titrəyər,
Hər düşəndə gözüm o cüt hilalə.

Səbrim tutmuş indi hicran orucu,
Bəlkə bir gün çatsın eydi-vüsalə.

Ucadırsa vüsalının məqamı,
Çatar axır əlim qəsri-cəlalə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qanad çalar ümidimin bülbülü,
Bir güc alsa səndən o pərrü balə.

Vüsalına nə tez çatdı bu könlüm,
Qorxuram ki, vaxtsız gələ zəvalə.

Xaqanini tez-tez yada salsa yar,
Onun şeri çatar yüksək kəmalə.

51.

Tərifi gül camalın düşdükdə bu cahanə,
Valehlərin sədası yüksəldi asimanə.

Gah örtdü, gah da acdı zülfün o məh cəmallı,.
Dünyanı tutdu zülmət, çevrildi sirr əyanə.

Kim ki, sənin odundan şamtək alışdı, yandı,
Güldü, gülüş od oldu, min şölə saldı cana.

Aşiqlərə ki, bunca cövrü cəfa sən etdin,
Mən görmədim bir aşiq dərddən gələ fəğanə.

Hər bir quşa o zülfün bir gün sənin tor olsa,
Bir də o quş qayıtmaz ömründə aşiyanə.

Ruhun xəzinəsindən qiymətlidir, bil, eşqin,
Mən valehəm bu lələ məskən olan o kanə.

Al sən mənim canımı, bir busə ver, a canan!
Bir busəyə bu canım, səncə, dəyərmi, ya nə?

Xaqaniyə nə lazım qılıncla həmlə etmək,
Can verməyə yolunda o axtarır bəhanə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

52.

Yarım mənə cəfasını bir an kəm etmədi,
Yandırdı qəlbimi oda, çeşmin nəm etmədi.

Düşmən də xəlqdən utanıb, üzdə sülh edər,
Bir böylə sülhü də o mənə bir dəm etmədi.

"Etmə" deməklə oldu dilim incə tük kimi,
Lakin, o, tük qədər sitəmindən kəm etmədi.

Bir gün, heç olmasa, üzünü göstərib mənə,
Qəmlə dolu bu könlümü o xürrəm etmədi.

Yarım bir incitək, çalışıb, deşdi sinəmi,
Yardı sədəf kimi, yarama məlhəm etmədi.

Eşqi əsir eylədi, bax, dərdli könlümü,
Bir anlığa onu Özünə məhrəm etmədi.

Zülm eyləməkdə bənzədi yarım bu aləmə,
Lakin, o yarım eyləyəni aləm etmədi.

Xaqaninin yolunda töküb qəm tikanları,
Bircə tikan götürməyə qəddin xəm etmədi.

53.

Könül, gəl, bu eşq ilə peymam tazə eylə!
Eşqin bəratı ilə, gəl, canı tazə eylə!

Küfrünə əvvəl-əvvəl iman gətir və sonra,
İman dedikdə, dərhal imanı tazə eylə!

Aşiqlərə yaraşmaz bütsüz namaza durmaq,
ol bütpərəst, o köhnə ünvanı tazə eylə!

Sürmə quru yerdə sən gəmisini xəyalın,
Qəlbində yanğı varsa, tufanı tazə eylə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər dərdinə, inan ki, dərdin özü dəvadır,
İndi yenə bu dərdə dərmanı tazə eylə!

Əgər iki aləmdən xərac almaq dilərsən,
Əvvəl eşqin verdiyi fərmanı taze eylə!

Gözəllərin gözündən gələn qəmzə oxuna,
Sinə aç, qəlpələnmiş yaranı tazə eylə!

Könül, bahar sevirsən, gözəllər də bahardır,
Onlara bax, könüldə bostanı tazə eylə!

Bir güldandır bu dünya, onun reyhanı qəmdir,
Sən, gəl, eşqin suyuyla reyhanı tazə eylə!

Bu dünyada məcnunluq unudulub getmişsə,
Gəl, ey Xaqani, keçmiş dastanı tazə eylə!

54.

Eşqində, ey gözəl, rahat olmaq həramdır,
Eşqin odunda yanmayan hər kimsə xamdır.

Heç kəs sənինlə çatmadı bir arizusuna,
Yoxluq məhəbbətində yeganə dəvamdır.

Vəslin yolu əgər yüz il olsa, nə eybi var,
Lütfün olursa, bircə qədəmdə tamamdır.

Şəhrin bütün əhalisi eşqinlə məst olub,
Söylə, bizi bu halə salan hansı camdır?

Eşqin yolunda var-yoxu qoyduq qumara biz,
Dərdin bizi mat etdi, bu nə intiqamdır?

Cövrü cəfanı etmədin heç vaxt müzayiqə,
Vəslin bizə neçün bu cahanda haramdır?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər qəlbə qəsd edib, ona min dağ vurmusan,
Min ad qoyub o dağa, deyərsən qulamdır.

Xaqaninin ürəkdə bir atəşli dağı var,
Öyrən, görək, ona verilən hansı naməlumdur?

55.

Hüsn atın sən, ey gözəl, meydanda, gəl, cövlana sal!
Başını aşiqlərin döndər kosa, çovqanə sal!

Eşqi gah tac eyləyib, qoy başına aşiqlərin,
Zülfünü gahi kəmənd et, boynuna mərdanə sal!

Sinənin eşqində aləm sinəsinə daş vurar,
Ey gözəl, sinəndəki o kosları zindanə sal!

Hüsnünə heyran baxarlar cənnətin huriləri,
Bir nəzərlə onları xar eyləyib, həycanə sal!

Qəlbimin qanı nədir, töksün yerə ol xəncərin,
Əqlimi, gəl, al mənim, bu ruhumu al, qanə sal!

Küfr, iman sülh edib, qalx, bircə göstər hüsününü,
Fitnə qaldırmaq dilərsənsə, o zülfü yanə sal!

Axır, ey xurşidi-taban, kim icazə verdi ki,
Sən Xorasanə salan qovğanı, gəl, Şirvanə sal?

Bağçaya baxsan, yəqin bülbül ölər, gül xar olar,
Bir nəzər, ey can alan, bu gülşəni-xəndanə sal!

Bəlkə vəslin naməsi bir ayrı adla başlayır,
Hörmət et, Xaqaninin, gəl, adını payanə sal!

56.

Nə gözəlsən, ruh açansan, lütfkarsan, ey nəsim!
Kədərləri dağıdan bir nobaharsan, ey nəsim!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göyərçintək gətirirsən yardan xəbər mənə sən,
Nə xoşxəbər elçi kimi xoşrəftarsan, ey nəsim?!

Sənilə bu gözlərimə işıq gəlib Yəqubtək,
Elə bil ki, Yusifimdən yadigarsan, ey nəsim!

O vüqarlı, süsən iyli türk gözəlin görəndə,
Mənim könül sirrlərimi sanayarsan, ey nəsim!

Əhvalımı deyib, ondan mənə cavab al, gətir,
Şirin dilli, həzin səsli ruzigarsan, ey nəsim!

Səni onun xaki-payı, gətir xaki-payindən,
Gözlərimə sürmə edim, mənə yarsan, ey nəsim!

Mən zülfündən söz açmağa qorxuramsa, sən necə,
Cəsarətlə gedib, orda dolanarsan, ey nəsin!

Könlüm onun zülfu içrə yaman bəndə düşübdür,
Bəlkə mənə öz könlümü qaytararsan, ey nəsim!

Özü əgər saxlayarsa, ürəyimi, qoyma sən,
Sən ki, mənə öz vədəndə vəfadarsan, ey nəsim!

Özün gizli olsan belə, sehrin aşkar görünür,
Sanki, şair Xaqanilə həmqatarsan, ey nəsim!

57.

Sənin kuyində bitmiş xar mənimçün tazə süsəndir,
O zülfün hər teli yurdsuz qalan bu qəlbə məskəndir.

Sənin kuyində gözdən ol qədər qan-yaş axıtdım ki,
Qapında hər daşın bağrı o qandan lələ mədəndir.

Fələklər oldu həmdərdim, mənimtək geydi göy köynək
Görüncə həmdəmim qüssə, işim ah ilə şiyvəndir.

Gözüm səndən savay dilbər dalınca baxmaz, ey canan!
Odur hər kirpiyim bir göztikən xunabə suzəndir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O vaxtdan ki, sənə mən dost deyib, elani-eşq etdim,
0 gündən bax, bütün aləm mənimlə qanlı düşməndir.

Görəndə eşqimi hər kəs, yəqin etdi bu çılğınlıq,
Həmişə atəşin eşq ilə yan sevdiyimdəndir.

Sənin sevda torunda bəndam, ey dilbər, inan, yoxsa,
Göyün yeddi qatı Xaqaniyə yaxşı nişimandir.

58.

Səhər açıldı, gözəl, şişə aç, gətir badə!
Günəş kimi mənə sən badə ver bu dünyadə.

Səmadə bayram ayrı çün yəhər qoyur atma,
Gül üzlü saqi, tələs, meylə, gəl, yetiş dadə.

Açıb niqabını üzdən, məni alovlandır,
Ki, şam kimi axıdım göz yaşı bu sövdadə.

Könül ki, olmayacaqmış əlinlə abadan,
Barı xərab edib, od vur bu mülki-bərbadə.

Gülabı tərli üzündən axıt o şərbətə kim,
Şəkər ləbin mənə bəxş etdi ləli səhbadə.

Sənə sayanda mənim sevgilim günahlarımı,
Keç onları kərəminlə bu qəlbi-naşadə.

Görüb də şerini Xaqaninin, bir insaf et,
Tabaqla inci mükafat ver o ustadə.

59.

Keçmiş gecə, ol yarə isitmə əsər etdi,
Göndərdi dalımca, gecə vaxtı xəbər etdi.

Getdim, əlimi dişləyərək, söylədim, ey vah!..
Bu hansı mərəzdir ki, o böylə həzər etdi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gördüm ki, saralmış, üzü - odlu, özü - lərzan,
Guya ki, Günəş məğribə sarı səfər etdi.

Mənı əmr elədim, hazır ola qanı alan, oldu,
Qan almağa o neştərini karigər etdi.

Açdıqca yara neştər onun şah damarında,
Hər neştəri xəncər kimi qəlbimdə yer etdi.

Neştərlə qolundan qan alanda onun hər an,
Qəlbimdən alıb qan, məni ondan betər etdi.

Hər qəmzəsi məndən nə qədər tökmüş idi qan,
Axdı biləyindən gözəlin, teşti tər etdi.

Xaqani üzü sanki haman teşt idi zərdən,
O teştə axan qansa gözümdən güzər etdi.

60.

Hüsnünün yüzdən birinə malik olmaz novbahar,
Sən qədər zülm etməmiş məzlumlara bu ruzigar.

Bərqərar olmaz bir an əsla bu dünyanın işi,
Kaş sənin eşqin olaydı öz yerində bərqərar.

Qoy qına üryan qılıncı, boş yerə gəzmə hərif,
Yoxdur aləmdə sənə qarşı duran bir namdar!

İxtiyarın kimdədirsə, yoxdur ondan bir əsər,
Mən kimi bir binəvayə verməmişsən ixtiyar.

Bir belə dövranda səndən qaçmaq olmaz, bil bunu,
Çünki, azad insana dövran amansız tor qurar.

Yox şikayət etməyə haqqı, çəkirsə kim qəmin,
Çünki hər bir dərdli qəlbə ol qəmindir qəmküsar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bilib xasiyyətin, heç busədən söz açmıram,
Anlayar bu rəmzimi ol kəs ki, vurmuş şalmar.

Sən de, ey Xaqaninin könlü, rahatlıq istəmə,
Eşq olan yerdə rahatlıq, bil, tuta bilməz qərar.

61.

Hicran gecəsi sübhə qədər odda yanır can,
Xoş söz desən, əlbəttə, sağallam mən, a ceyran!

Sən yaxşı bilirsən, bu könül təkcə sənindir,
Ömrüm tükənibdir, nə olar qeydimə qalsan?!

Qeyrət çəkərək, hey dodağı dişləyirəm mən,
Gəlsən mənim ağuşuma, ollam sənə qurban.

Sən vədə veribsən, alacaqsan canı məndən,
Mən qorxuram, ey yar ki, bu vədən çıxa yaddan.

Kirpikləri dırnaqla düzərkən gözüm üstə,
Almasları cəzb etdi mənim barmağım asan.

Xaqani belə inciləri səpdi cəhana,
Eşqinlə o gəlmiş belə ilhamə, a canan!

62.

Bəzilərin fikrincə alçaq olsaq hamıdan,
Lakin xalqın içində bizik nəcib bir insan.

Dövlətlilər şaddırsa qəbul zamanı əgər,
Qəbulşuz da biz olluq möhtərəm, üzü xəndan.

Əgər sən muradına çatmaqla fəxr edirsən,
Bu icz ilə biz səndən artıq olluq kamran.

Əgər meylə keflisən, bil, səndən daha artıq,
Qəlbimizə kef verir öz qəmimiz hər zaman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlbdə acı qüssələr, üzdə şirin xəndəmiz,
Heç üzümüz turşumaz, gül kimiyik - ərğəvan.

Zöhd ilə göstərirsən kəramətli özünü,
Biz də bu minval ilə yüksəlirik anbaan.

Heyf ki, getdi bada ömrümüz, oldu hədər,
Ömrə təəssüf deyə, göz yaşı oldu nişan.

Keçdi keçən günlərim, qaldı gələn günlər ah
Hər açılan sübhə Gün nuru olar ərməğan.

Söylədin: "Xaqaniya, dərdini dərk etmirik",
Biz daha azadəyik, ey bizə laqeyd olan!

63.

Vardır şikayətim bu bətər ruzigardən,
Etdi yaman xəcil məni o qəmküsardən.

Dostlar da, ailəm də mənə çəp baxır, niyə?
Rəncidə qalmışam fələki-kəcmədardən.

Möhnətlə qəmlər indi əsir eyləyib məni,
Onlar hücum edir mənə dörd bir kənardən.

Heyrətdəyəm: zəmanə məni xar edir neçin?
Salmış neçin məni belə o etibardən?

Ömrüm, günüm tükəndi mənim qəmlər içrə,
ah, Halım dolandı, düşdüm əcəb iqtidardən!

İzhar edim kimə, axı, bu dərdü qəmləri,
Mən binəsibəm əhldən, həm ruzigardən.

Bir həmdəmim olarsa tapardım rahatlığı,
Canə gəlib canım bu uzun intizardən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi nə mərdlik, nə vəfadən əsər qalıb,
Simürğtək yox oldu bizim ruzigardən.

Heç bir kəsə zəmanədə yox etibar, inam,
Sanki köçüb gedib hamısı bu diyardən.

Derlər bu il uğurlu olar bəxti şairin,
Baxmış fələk məgər üzünə xoş mədardən.

Xaqaniyəm, mən Əhmədə pabəstəyəm, budur,
Soltan mənəm söz əhlinə hər bir əyardən.

64.

Hüsn rikabında, bax, şəmsü qəmər getmədə,
Ləblərin ardınca da şəhdü şəkər getmədə.

Dünyada avarətək gəzmədə aşiqlərin,
Onların ardınca əql zirü zəbər getmədə.

Kimsə görərsə səni, gözləri dərdə düşər,
Hüsnünün atəşilə gözdən əsər getmədə.

Səbr kəsad oldu bu eşq bazarında, ah,
Eşq yolunda tamam ruhü ciyər getmədə.

Hasili Xaqaninin dərd, qəm olub, yolunda,
Sanki qələm baş üstə şamü səhər getmədə.

65.

Qəlbimdə hicr dərdi asan ola bilərmi?
Gəldi qiyamət, əhval şadman ola bilərmi?

Hüsnünlə kamransan, mənsə hicran əsiri,
Hicran əsiri, söylə, xəndan ola bilərmi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Peyğam eyləmişdin, əhvalı bildirim mən,
Sənsiz bu dərdə, söylə, dərman ola bilərmi?

Ceyran kimi bu aşiq "yahu" çəkir dəmadəm,
Bundan kəsərli nalə, əfqan ola bilərmi?

Hicrində xəstələndim, aciz qalıb təbibim,
Hicran olanda, sağlam bir can ola bilərmi?

Mən istərəm bu sirri pünhan edim bəşərdən,
Odlu suyun məkanı pünhan ola bilərmi?

Peyğam ya ki, namən gəldikdə torpaq ollam,
Bir ov ki, seyd olurdu, seyran ola bilərmi?

Tellə tikilsə namə, göz yaşı möhr olarsa,
Bundan daha mükəmməl ünvan ola bilərmi?

Zulfünlə bağlı namən gəldikdə, tufan etdim,
Şəkk etmə: göz yaşıyla tufan ola bilərmi?

Xaqani ah içində, canı gedir əlindən,
Ya rəb, belə sitəmkar canan ola bilərmi?

66.

Gecələr şam kimi yanır xəyalın,
Can bağın bəzəyir sənin cəmalın!

Məhəbbət günəşi hər gün saçır nur,
Olmuşdur o ancaq sənin misalın.

Fitnələr şahının ləşkəri hər il
Olmuşdur həmişə o zülfü xalın.

Gözəllik Rəxşini çapma hər yana,
Aləmi dağıdar zərbin, vəbalın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən sənin işvənə könül vermişəm,
De, kimə dəyməmiş sənin zəvalın?

Xaqani daima arzulayır ki,
Ona nəsib olsun bir gün vüsalın.

Hər gün xəyalında sənsən, gecələr,
Bil, onu bağrına basır xəyalın!

67.

Qəlbi yanan aşiqə xislətin etməz vəfa,
Çünki, sənin xislətin Öyrəşib etsin cəfa.

Mən hədəf oldum sənə, zülmünə dözdüm, gözəl,
Vur oxunu qəlbimə, dərdimə olsun dəva.

Pərdə çəkibsə gecə sirrimin üstə mənim,
İstərəm ahım odu gündüzə pərdə tuta.

Leyk rəqib qorxusu, bir də gümansızlığım,
Qoymadı bol ah çəkəm, ta ki, tutulsun hava.

Qiymətini sevginin qəlb nə bilsin axı,
Söylə, bilirmi sədəf nədir göhərçin bəha?

Çatsa üzündən əsər gülşənə bir azca, bil,
Rədd eləyər Novruzun töhfəsin badi-səba.

Qəlbi vururkan sevər Xaqani daim səni,
Bəlkə onun eşqine qəlbin edə etina!

68.

Eşqinin xəyalı, sevgili canan,
Başımdan çıxmayır mənim bircə an.

Xəyalın canıma bir od salıb ki,
Söndürməz, qopsa da yüz kərə tufan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz dona girirəm, neyləyim, səndə,
Eşqdən görünmür kiçik bir nişan.

Eşq ilə yaşadım məni bu vaxtadək,
Ölüncə dönmərəm əsla bu yoldan.

Dərdimi yazırkən əllərim əsdi,
Canınçün, qalmamış vücudumda can.

Xaqani dərdini şərh etmək olmaz,
Əgər yazılsa da yüz belə dastan.

69.

Bilməzdim ki, başıma bəla imiş məhəbbət,
Bu cahanda tək mənə qarşı bəslər ədavət.

Bir dəstə gül göründü gözlərimə uzaqdan,
Yaxınlaşıb nə gördüm? Yanar odmuş o afət.

Gümüştək çıxdı əldən səlamətlik, neyləyim?
Daş altından əlini çıxarmadı fərasət.

Səbr qaçıb, qurtardı məhəbbət meydanından,
Gördü hərif güclüdür, özündə yox mətanət.

Dörd barmaq yol ayırır məhəbbətlə cəfanı,
Yüz ağacdır vəfadan əhdə qədər məsafət.

Könül qaldı geridə vüsalın karvanından,
Çünki mənzil uzaqdır, at - axsaq, yol - narahət.

Xaqaninin naləsi ötüb keçdi fələkdən,
Hər addımda eşq ona göstərdi min fəlakət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

70.

Eşqinin sədası cahana düşdü,
Hər səni sevən kəs ziyana düşdü.

Hələ gəlməmişdin bu dünyaya sən,
Şöhrətin yayıldı, hər yana düşdü.

Dərdin ürəyimə bir od vurdu ki,
Alovu yüksəlib, Keyvana düşdü.

Sən indi rahat ol, könlümün adı
Məlamətlə dilə, dəhana düşdü.

Heç tapa bilərmi işlərim əncam?
İndi ki, bu fitnə meydana düşdü.

Öldürmək istəyən rəqib cəld durub,
Dedi: - Nə yaxşı ov nişana düşdü.

Xaqani, ilanla bağban məsəli
Burada - yerində dastana düşdü*.

71.

Tellərini dağıtma, yarım, bizə ziyandır,
Qəmgin-qəmgin oturma, dünya qopar, amandır!

Qəza qılıncıdır o, itiləmə qəmzəni,
Bu işvə-naz deyildir, qətlim üçün fərmandır.

Əgər qorxum varsa da sənin düşmənlərindən,
Mənə hirsin tutursa, bu onlardan yamandır.

Acığın işvədənsə, eybi yoxdur, razıyam,
Buna heç bir söz olmaz, buna dözmək asandır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir kəs yaman danışsa əgər məndən, inanma,
Coşub çıxma özündən, hiddətlənmə, yalandır.

Yerindən oynayaraq hədələmə bir kəsi,
Xüsusən, bir şəxsi ki, sənlə həmzəbandır.

And olsun, pisliyinə danışmadım bircə söz,
Şahiddir öz xəyalın, halım ona əyandır.

Rəva deyil, hər gözü gül üzünə bağlamaq,
Səni görən hər aşiq camalına heyrandır.

Mən vəfalı aşiqəm, sən də eşqə sadiq ol,
Bizim ki, bu eşqimiz ağızlarda dastandır.

Əgər varsa günahı, Xaqani öz canıyla,
Üzr istəyir, istəsən, canım sənə qurbandır.

72.

Sevdanın bayrağı alidir, ali,
Səbrimin kisəsi qalıbdır xali.

Eşqə öz xoşumla tutulmadım mən,
Zərurət əlimdən aldı macalı.

Mənim taleyimlə eşqin ulduzu,
Elə dostlaşıb ki, yoxdur zavalı.

Vüsal budağına əlim çatmayır,
Onun ucalıqda yoxdur misalı.

Zülfünü görərkən xoş, gülərəm mən,
Çünki, xatırladır təzə hilalı.

Xaqani könlündə nə yazılmışsa,
Onun qəmilədir öz həsbi-halı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

73.

Könlüm tutmamışdır oxuna süpər,
Sənin hədəfindir bu qanlı ciyər.

Bu bir qaydadır ki, sənin yolunda,
Başından keçənlər vüsalə yetər.

Vəslin fəzasında, çox qəribədir,
O quşlar ucar ki, qanaddan keçər.

Əcəl görpüsünə bənzəyir eşqin,
Oradan keçməyən yoxdur bir nəfər.

Mən sənin xəstənəm, sən mənə laqeyd,
Kimin dərdi vardır bu dərddən bətər?

Xaqani sənindir, halına qal, gəl,
Səndən özgə yoxdur dostu, a dilbər!

74.

Mərdlikdən savayı nə günahım var,
Ki, məni illərlə anmırsan, ey yar?!

Dedin ki, qaçmaram, yenə də qaçdın,
Dedin: zülm etmərəm, oldun zülmkar.

Hicran sözü üstə durur barmağın,
Çevir bu vərəqi bir yol, nə olar?

Sənin sərxoşundur, yıxma könlümü,
İgid sayılmayır sərxoş yıxanlar.

Döyüşdə Rüstəmdir tək bərabərin,
Məndə o güc hanı, vuruşdan nə kar?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atının tozuna çatsam, nə fayda?
Arada yüz illik bir məsafə var.

Sənin surətini rəsm etmək üçün,
Xaqaninin qəlbi qan olmuş, nigar!

75.

Çünki, düşüb ürəyim zülfün içrə kəməndə,
Bəzən şamtək ağlaram, gözüm gülər bəzən də.

Gah oxudur açmadan məktubunu vüsalın,
Gah xəyalın izlərəm gecə çöldə, çəməndə.

Sən gözəllik sultanı, eyvanında mən qulam,
Qurban edib canımı, keşikçiyəm dövrəndə.

Məni salıb torpağa o badamı gözlərin,
Püstə kimi sinəmi yırtıb açmışam mən də.

Qurban verdim canımı, ancaq layiq deyildir,
Ona görə qalmışam boynu bükük, şərməldə.

Həsrət çəkmə sən bizim ötüb keçən günlərə,
Ümid yerim var hələ ki, şad olum vəslində.

Əgər ölüm yazıbsa, Xaqani, yarın sənə,
Buna sevin, şükr elə ki, oldun ona bəndə.

76.

Dostluğunda bir sədaqət görmürəm, görmürəm!
Sirr saxlayan qəlb, mətanət görmürəm. görmürəm!

Vəslin üçün var başımda min xəyal hər gecə,
Bundan şirin arzu, niyyət görmürəm, görmürəm!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər məclisdə olsan, gözüm səndədir, nazənin!
Məclislərə səntək zinət görmürəm, görmürəm!

Həsrətinlə yaş tökəndə gözlərimdə hər dəfə,
Dəryalardan kəm əlamət görmürəm, görmürəm!

Mən sevirəm səni, Çünki, sərvsən, ey gözəl!
Sən kimi sərvqamət görmürəm, görmürəm!

Sitəmindən ağlamazdım, indi isə ağlaram,
Zəhmətimə, Çünki, qiymət görmürəm, görmürəm!

Nəzərimi valeh edən bu çöldə, bu çəməndə,
Üzün kimi gözəl surət görmürəm, görmürəm!

Ey Xaqani! Bülbül kimi mən necə ötməyim bəs,
Ki, onuntək zərif xilqət görmürəm, görmürəm!

Bu meydanda, ədalətlə desək biz, eşqdə,
Xaqanitek xoş təbiət görmürəm, görmürəm!

77.

Qoydun gözlərimi üzünə həsrət,
Sinəmdə ürəyim sən oldun, afət!

Səsim yetişməsin deyə bir yana,
Kəsdin nəfəsimi, qalmadı taqət.

Kimi yaralasan nazü qəmzənlə,
Ona əlac olmaz, qopsa qiyamət.

Sən üzüb, aldıqca canımı əldən,
Yandım, söndürmədin, ey bimərhəmət!

Özün nicat vermək istədin qəmdən,
İpi yan yolda doğradın, fəqət!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni Məcnun edib, sonra qaçırsan,
Bəlkə sərxoşsan, ey fərişdə surət?

Göyə qaldırırsa vüsalın məni,
Alçaldır başımı ayrılıq, möhnət.

Şadlıq qədəmini genişçə at sən,
Biz dərdi-eşqinlə tutaq ünsnyyət.

Məni dəyişsə də hicran əzabı,
Necəsən, saxlaram səni əmanət.

Özünü sevənsən, xudbinsən, gözəl!
Yoxdur Xaqanidə ancaq bu xislət.

78.

Yar əlindən nə haldayam, eşitmədin, ey dost, məgər?
Qəmi məni öldürsə də, incimədim bir tük qədər.

Yar eşqindən üzüm gəlmir nəfəs çəkib, söz açmağa,
O cananın sevdasında çəkdi başım nələr, nələr...

Ey göyərçin, yetir yara heç olmasa bu naməmi,
Pərvaz elə, yanına uç, gətir mənə cavab, xəbər.

Simürğdən soraq tutan bu göyərçin könlümə bax!
Ürəyimdə dərdi gör ki, yenə yardan vüsal dilər.

Aman, uçma heç bir zaman özgə bürclər üzərindən,
Xoşdur, mənim evim-bürçün, qapım-çölün olsa əgər.

Qafil uçma, göyərçinim, birdən mənim düşmənlərin,
Yolun üstə şahin kimi qalxıb, səni şikar edər.

Ayağına qızıl rəngli surətimi bağlaram ki,
Qumrov bilib, dəyməyələr, qayıdasan sən birtəhər*.

Xaqaninin qəlbi onun arzusuyla dən-dən oldu,
İstəmədi məni yarım heç də yarım arpa qədər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

79.

Nə əlim çatdı sənə, nə qismət oldu vüsal,
Nə də o camalını tərifə qadir xəyal.

Bu yazığ gözüm səni bircə dəfə görəndə,
O bircə nəzərdən də qopdu min cür qilü qal.

Çoxdandır hicrindəyəm, odur, qəlbim sınıqdır,
Nə bir salam göndərdin, nə məndən sordun əhval.

Əl çatmayır vəslinə, buna görədir, canım.
Dodağımdan keçərək, başımdan aşdı dərhal.

Məlamət kamanından atılan hər ox, budur,
Dəlib keçdi sinəmdən, qəlbimə verdi zaval.

Lakin, yenə qaneyəm uzaqdan baxmağına,
Mənim də ruzum buymuş fələklərdən, ehtimal.

Qapından ayrılmağa könül razı olmayır,
Xaqaninin öz qəlbi bu işi sanır mahal.

80.

Qanadları kəsilmiş bir quşam mən, a canan!
Başı kəsik şam kimi qarşındayam hər zaman.

Rəqibimin yanında mən üzünə baxmıram,
Qorxuram ziyan dəyə sənə bu bəd baxışdan.

Vəfasızlıq qılıncın kəsir min-min başları,
Aşiqləri edirsən bir-bir qanına qəltan.

Döyüşçünün kamanı oxuyla can alantək,
Sən də oxunla mənim ürəyimdən vurursan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağlayantək qırırsan sən məhəbbət əhdini,
Söylə, belə olarmı sevgidə əhdü peyman?

Yazıq canım xəyalın, vüsalın aləmində,
Min qorxulu mənzili keçir bir-bir durnadan.

Üzənginin altında, gör bir, neçə ürək var,
Gör, təxtinin yanına tökülüb neçə qurban.

Xaqani yar eşqində zəncirləri qırdısa,
Yenə qaldı məlamət həlqəsində pərişan.

81.

Gör, haraya göndərirəm mən səni, ey badi-səhər,
Get, o vəfa günəşinə tez yaxınlaş sən birtəhər.

Ağzı bağlı bu naməni yetir sən o mehribana,
Ancaq hara getdiyini heç bir kəsə vermə xəbər.

O ünsiyyət aləmindən gələn səfa cilvəsisən,
Yenə gedib, o ünsiyyət aləminə eylə səfər...

Elciliyə layiq bilib, göndərirəm səni, lakin,
Qızıldan bir don geyərək, buludlardan eylə həzər.

Həva-həvəs öz əlilə düyün vurmuş can telimə,
Göndərirəm səni, açsın düyünümü o füsungər.

Bir an belə dayanmadan, kecib gedir ömür, aman,
Yubanmadan, təcili get, ona söylə: - A simbər.

Xaqaninin qəlbindəki nəhayətsiz dərdü qəmə,
Dərman verib, olac elə, özün ona yetir nəzər!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

82.

Asimani bir bəladır səndə olan məhəbbət,
Həmişəlik bir həyatdır sənin vüsalın, əlbət.

Şəvə kimi saçlarının sayəsində ürəyim,
Fələklərin nuru ilə qonşu oldu, nəhayət.

Ürəyimi əsir etdi saçlarının kəməndi,
Mən də bunu gözləyirdim saçlarından, həqqiqət.

Bu aşkardır, Günəş kimi işıq saçan qəlbimi,
Qara zülfün sayəsində gizlətmişsən, ey afət!

Hərçənd ki, odu pulsuz verərlər hər məkanda,
Eşqin odu havasına can verirəm mən hər vəxt.

Fələk özü gözətçidir kuyunun astanında,
O qoymaz ki, varlığına dəysin zərər, xəsarət.

Könülləri ələ gətir, könül ələ gətirmək,
Ta qədimdən gözəllərə olmuş ülvi bir adət.

Xaqaninin hər kəlməsi sənin sayəndə, dilbər,
Xəzinəyə bərabərdir, az deyildir bu qiymət.

83.

Məhəbbət bir bəladır ki, yoxdur onun dərmanı,
Aşiq canı tərk etsə də, ata bilməz cananı.

Məhəbbətin zəncirinə bağlanandan, hər gecə,
Salar zülfü halqasına qəlbimdəki halqanı.

Dedi: - Uzun ömür lazım, yetişəsən vəslimə,
Məmnun etdi məni, ancaq, bu qədər ömür hanı?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi necə bel bağlayım o dildarın əhdinə?
Ömür gödək, fələyinsə yoxdur bizə ehsanı.

Onun hiddət yüklərini çəkə bilmir bu könlüm,
Yoxdur belə yük çəkməyə gücümüzün imkanı.

Onun bəla kamanının yayı bikar qalıbdır,
Ürəyimin sağ yeri yox, yaralaya peykanı.

Dünya bina olan gündən o dilbərin hüsnünün,
Bərabəri yoxdur əsla, gəzsən bütün dünyanı.

Özu məni rüsvay edib, özü mənə deyir ki:
- Ey Xaqani, sus ki, deyil şikayətin zamanı.

84.

Arzum canan vüsalıdır, bilmərəm kimdir əğyar,
Mən xəzinə üstündəyəm, ilandan nə qorxum var?

Yar fikrincə, mənim səbrim arpadan da kiçikdir,
Qızıl arpa dənəsiyəm, neylər mənə alovlar?

Bilsə əgər, eşqi ilə sinəm şan-şan olubdur,
Bir tük qədər rəhm eyləməz mənə yenə o dildar.

O buğdayı, nazlı gözəl mənə nəzər salarsa,
Qiyməti bir arpa olan canı edərdim nisar...

Ləblərivçin çıxsa əgər can dişimin dibindən,
Peşkəş billəm, əvəzində bircə busə versə yar.

Eşqi çəksə məni dara, ya ki, salsa darğaya,
Ürəyimə qorxu salmaz nə o darğa, nə o dar.

Xaqaninin ürəyinə məhəbbətin xəncəri,
Sancılsa da, başdan keçər, eşqini etməz inkar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

85.

Müşkə oxşar saçlarından meh ərməğan göndər bizə!
Başı bağlı bir tükünü, yar, həvadan göndər bizə!

Canımızın əbədilik havadarı - dodağından,
Şərbət içirt, bir öpüş də özün ehsan göndər bizə!

Bilirsən ki, bizik sənin həm vurğunun, həm qurbanın,
Bir gün yaşa bizim üçün, vəslinlə can göndər bizə!

O zülfündən bir tükü al, biz yazığı bəndinə sal,
Qan bahası qənd oğurla dodağından, göndər bizə!

Gəl, üzündən aç örtüyü, gözlərimiz işıqlansın,
Günəş batsa, sən işığı camalından göndər bizə!

Gah yuxuda yetir bizə vüsalının pəyğamını,
Gah da vəfa salamını sən səbadan göndər bizə!

Xaqaniyə hər an yetər min dərdü qəm həsrətində,
O min dərddən biri üçün, rəhm et, dərman göndər bizə

Sən bunların heç birini etməsən də, insafa gəl,
Heç olmazsa, o qəlbi ki, aparmışsan, göndər bizə!

86.

Süsən iyli, at qürurlu, "sənsən" deyən türk nigar,
Hərdən nəzər salar, ancaq, yaxın gəlməz o dildar.

Mən dərdimdən dişləyirəm öz əlimin dalını,
Ki, üzümü görməməkçin ayağına baxır yar.

Gözəllərin adətidir dostluq ilə içər qan,
Dost olmadan içdi mənim al qanımı o qəddar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ah çəkməkdən dilim tükə döndü, tüküm dil açdı,
Öldürdü, bir tükümü də incitmədi fusünkar.

Qaqim, qunduz camallı yar gözəl Bolğar türküdür*,
Kamanını çəkməyə də məndə yoxdur iqtidar.

Könül verdi qanmazlara, çıxdı mənim əlimdən,
Göyərmiş diz qapağımda əllərimin izi var.

Arzu etdim mən vəslinin ətrin duyum, yar dedi:
O Xaqani kimdir, mənim vüsalımdan pay umar?

87.

Parlaq üzü qarşısında yox Aya məhəl qoyan,
Zülfü ətir saçdığından tapılmadı müşk alan.

Zülfü ilə camalının vəsfi tutcaq dünyanı,
Küfr ilə din kimiyası düşdü bütün rəvacdan.

Sındırıldı tövbə, səlib boyunlardan asıldı,
Hər yerdə ki, söhbət düşdü o mey rəngli dodaqdan.

Eşq odundan abrısını xilas etsə bir aşiq,
Mən deyiləm o bir nəfər, biabıram mən, aman!

Xələt biçdi məhəbbəti alçaqların boyuna,
Vallah, mənə papaqlıq da qalmadı o parçadan.

Namərdlərə gül payladı bağçasından məhəbbət,
Mənə, hətta, o vermədi gözüm üçün bir tikan.

Onun cövrü cəfasına alışıbdır Xaqani,
Nə etməli, vəfa izi silinmişdir dünyadan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

88.

Sənin eşqin xırda-xırda nəfəsimi kəsdi, yar!
Öz alımla öz sinəmdə açdı dərin yaralar.

Eşqin ilə gizli bir ah saxlayırdım ürəkdə,
O ah qalxıb boğazıma, məni qəhərlə boğar.

Eşqin salıb canıma od, mənə dedin: - Ağlama!
Sızıldayan oddur, ancaq eşqin məni qınayar.

Öldürərək öz-özünü könül sənin qəmində,
İndi məni yaxalayıb deyər: - Sənsən günahkar.

Eşq istər ki, lalə kimi çıxım tamam qabıqdan,
Qızıl gültək, göynəyimdə tutmaq istərkən qərar.

Dedim: - Səbir əlacmıdır Xaqaninin dərdinə?
Bunu mənə eyib tutdu eşqə vaqif olanlar.

89.

Gəl, gəl, sakit olsun bir dəm tufanları gözümün,
Yollarına inci səpsin müjganları gözümün.

Tozlu yollar keçərək, gəl, gözüm üstə yerin var,
Yusun ayaq tozlarını ümmanları gözümün.

Ürəyimin yanğısını göz qanımla yatırsan,
Onu yenə odlandırar vulkanları gözümün.

Camalının nəqşəsini gözlərimlə çəkmişəm,
İndi cənnət nəqşi saxlar mərcanları gözümün.

Gah eşqimin qollarıyla qucaqlaram səni mən,
Gah da axar damarımdan al qanları gözümün.

Gəlsən əgər ölən zaman Xaqaninin üstünə,
Bu gəlişin olacaqdır dərmanları gözümün!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

90.

Vəsfin dildən-dilə düşdü, aşiq olduq camalına,
Gül üzündən xəbər tutub, düşdü könül xəyalına.

Sən ciyəri yananları xam təsəvvür etmə, gözəl,
Yanmağa bizdə var həvəs, çatmaq üçün vüsalına.

Vüsalından məhrumuqsa, təəccüblü deyildir bu,
Hanı bizdə ləyaqət ki, məhrəm olaq camalına.

Qərq olmuşuq məhəbbətə, təşnəsiyik vüsalının,
Arzusudur qəlbimizin: çataq o xəttü xalına.

Rədd etmə, gəl, qəbul elə mənim bu quru canımı,
Sən qurudub aşiqləri, salıbsan bir ney halına.

Bizim qırıq könlümüzdə hazır durur yerin sənin,
Sən bir gülsən, biz güldanıq sənin o xoş nihalına.

Xidmət üçün hüzurunda dayanmışıq hər bir zaman,
Sən bir bayram axşamısan, biz oxşarıq hilalına.

Başağrısı olar, deyə, sənə salam vermirik biz,
Bais olmaq istəmirik bir an dərdü məlalına.

Vücudumuz başdan-başa olub göz-göz, baxır sənə,
Nərd zəritək oynat bizi, əhsən sənin cəlalına.

Bu Xaqani deyir: heçə dəyməsə də vücudumuz,
Bu bəsdir ki, bir tikanıq güllər açan kamalına.

91.

Qismət olarmı vəslin bir gecə, ey dilaram?
Nakam olan cahanda mümkünmüdür ala kam?

Cuşə gələr məhəbbət, qəlbə düşər tələtüm,
Şölə çəkərsə atəş, qalmaq olarmı aram?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Can yad edib ləbini, ey kaş, etməyəydi,
Öylə şikar deyil, o ləblər bizə ola ram.

Şövqü odunda yandım, bəlkə o püxtələşsin,
Meysiz həvəs qazanı qızmaz, həvəs qalar xam.

Xaqani, yar yoxsa, səbrin nəyə gərəkdir?
Bu dövləti tapınca əyyam lazım, əyyam.

Eşq oduna yanmasan düşməz adın dillərə,
Dağlanıb odlananda, adın çıxar, vəssəlam.

92.

Biz qəmə öyrənmişik, ey dost, göndər qəm bizə,
Qüssədən bir töhfən olsa, yolla sən hər dəm bizə.

Yırt libası əynimizdə, evmizi döndər gülə,
Xələtin dərdü qəm olsun, peşkəşin - matəm bizə.

Yad edərkən bizləri, göz gəzdir öz ətrafına,
Göz yaşı tapsan, unutma, göndər ondan həm bizə.

Xəstədir canım, xəyalın dərdimin dərmanıdır,
Hicrinin bimarıyıq, ver vəslini məlhəm bizə.

Çəkmisən zəncirə zülffinlə sən itmiş Yusifi,
Halqalanmış zülffinün sirrini aç kəm-kəm bizə.

Bax, sənin zülffin aparmışsa Süleyman xatəmin,
Qoy o qalsın, öz ləbindən yolla bir xatəm bizə.

Sığmayır Xaqani bu dünyaya qüssəndən sənin,
Qəmzən ilə öldür, olsun məskən ol aləm bizə.

93.

Nə etmişəm ki, məni qəm tapdağı edibsən?
Nə xəta işlədim ki, cəfa kam aldı məndən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncimədim, qəlbimə vurdun cəfa tikanı,
Zərif gül yarpağıtək söz dedim, incidin sən.

Kirpiyinin ucuyla qəmzən çağu-dı məni,
Qanımı içdi, dedi: - Get, get, layiq deyilsən!

Çataram şux qəmzənin haqqına məndəki səbr,
Namərdlikdən deyildir, mərdliyimdəndir, bilsən.

Yolda rastlaşanda biz,salam verirəm sənə,
Acıqla cavabında "əleyk" deyib keçirsən.

Yandırdın yaş-qurumu soyuq cavabla mənim,
Kim görübdür bu qədər soyuq atəş törədən?

Demə ki, Xaqaniyə daha nə etmək olar?
Nə etməliydin, etdin, mənə əsirgəmədən.

94.

Bu hüsnünün sədası fəth edər asimanı,
Eşqinin şahı alar, ey büt, iki cahanı.

Kəmənd etsə özünu adətincə saçların,
Tutar quşu havada, göydə məhi-tabanı.

Sənin üzün bir aydır gözəlliyin göyündə,
Doğan zaman üffiqdən, bəndə salar bu canı.

Hicrin bütün aləmi salmış qəm ayağına,
Nədən vəslin əl tutub, yox etməz bu bəlanı?

Əgər tezliklə hicran ayaq çəksə ortadan,
Vüsalının əlləri məhv edər hər cəfanı.

Bilmirsən, xoş xasiyyət nədir, mən də bilmirəm,
Ancaq, gözəl nigarsan, bunu bilir Xaqani!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QİTƏLƏR

1.

Sən qiymətli gövhər ikən, qəvvas kimi baş vurub,
Tapdın təbin dəryasından daha qiymətli gövhər*.

Xaqaninin başı bağlı qoyduğu xəzinənin
Tilsimini açmaq bircə sənə oldu müyəssər.

Heyrətdəyəm ki, ilhamın zərlerini atarkən,
Necə oldu, öz beşinlə beş atdın, ey füsünkər?!*

2.

Şahların sarayı bir dənizdir ki,
Orada sədəf yox, yüz min nəhəng var.

Arzu gəmisini salmaz heç zaman,
Bu coşğun dəryaya, ağlı olanlar.

Bir inci verməz də, can almaq üçün,
Hər dəqiqə sənə min oyun tutar.

Könül, gəl, sən ağlın pənahında ol,
Ki, ağıl tamahın boynunu vurar.

Bir tikə çörəyə, suya qane ol,
Nə sərvət, nə mənsəb, nə ağa axtar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3.

Ey Xaqani, sən şahların xidmətindən uzaqlaş,
Ki, yaxanı qurtarasan siyasət damğasından.

Şərab dolu qədəh kimi gəzmə şahlar əlində sən,
Bağrın olar qan dənizi, kirli sutək tullanarsan.

Yaxınlaşıb, uzaqlaşsan, Günəş bilib onları, bil,
Ay kimi, gah bədr olsan da, tez incəlib yox olarsan.

Bənatüniəş ulduzu tək bir gecənin müddətində,
Hey yüksəlib alçalarsan, qəbul ve rədd olan zaman.

4.

Kimse söz atdı ki, Xaqani artıq,
Yaraşmır saraya, böyük xaqana.

Bəli, doğru dedi, su daşımaqçün,
Layiq olmamışdır div Süleymana*.

Saraydan əziyyət görmüşəm, bir də,
Geniş qəlbim sığmaz o dar zindana.

5.

Xaqani, dövlətin ağacındakı,
Şaxədən bar dərib yeməyə dəyməz.

Dünyanu bu yağlı, şirin loğması,
Ona sərf edilən əməyə dəyməz.

Şahların əlindən sədəqə almaq,
Onlara mədhiyyə deməyə dəyməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6.

Dövlət yeni, padşah yeni, vəziri də yenidir,
Yeni şəhə vəziriylə qiymət verər adamlar.

Məndən şahın vəzirinə yetir bu bir sözü sən,
Aqil olan bu bir sozü qulağında saxlayar.

Elə etmə xalq desin: heyif göhnə vəzirdən,
Ədalətlə rəftar elə, adın qalsın yadigar.

7.

Var-dövlət istədim dünyada, ancaq,
Onu alçaqlardan qəbul etmədim.

Mən çox istəyirdim, vermədi dövran,
Az verdi, mən "gərək deyildir" dedim.

9.

Gecə göç əzmi ilə ayrılanda Şirvandan,
Təəssüf eylədi qəlbim, ciyər alovlandı,

Yanıb fəraq oduna, mən Arazla uzlaşdim,
Araz görüb halımı od tutub, o da yandı.

Ahım kimi iti axdı, qəmim kimi coşdu,
Xüruşə gəldi könültək, kədərlə çalxandı.

10.

Xəlifə deyir ki, dəbirim olsun,
Məqamın əlimlə göylərə qalxar.

Dəbirəm, doğrudur, yazım misilsiz,
Lakin, baş əymərəm bu işə, zinhar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir dəbir olmaqla nə fəxr edim ki,
Vəzirlik mənimçün deyil iftixar.

Mən bir Günəş ikən, ulduz olmaram,
Borc papaq qoymaqda nə məziyyət var?

11.

Soruşdun ki, ürəyində rəğbət yoxdur şahlara?
Bəli, yoxdur sultanlara rəğbətim zərrə qədər.

Rey valisi qoymadısa Xorasana gedim mən,
Nə eybi var, bundan mənə yetişməz heç bir zərər.

Lakin, bu gün heç kəsə də verməsəydi icazə,
Gərək mənə başqalardan fərq qoyaydı o sərvər.

Mən gedirəm Xorasanda alimlərin yanına,
İşim yoxdur oradakı əmirlərlə, müxtəsər.

12.

Xaqani, sən bilik xəzinəsisən,
Bəs nədən cahillər qazanır hörmət?

Arslana verdilər şahlıq rütbəsi,
Bəs nədən pələngə yetişdi xələt?

Balığın bədəni gümüşlə doldu,
Sədəf daş içində çəkdi əziyyət.

13.

Hicrətin beş yüz ili dövri-kəmal olmuş yəqin,
Ondan əvvəl beş yüz il olmuş bizə dövri-məhal.

Xalq bir səslə deyir: Xaqanitək bir şairi,
Doğmamış ilk beş yüz il, adlansa da dövri-kəmal.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

14.

Mən o Xaqaniyəm ki, bu dünyanı,
Gözəl dərk etmişəm fərasətimlə.

Mən mərdi, namərdi bir məhək kimi,
Tanıtdım dünyaya öz qüdrətimlə.

Nakəsdən görmədim mən bir yaxşılıq,
Yoxladım mən bunu sədaqətimlə.

Pislərin əlindən yaxşılıq gəlməz,
Mən pislik etmərəm öz hümmətimlə.

15.

Gənclik bir qızıldır, ömrün əlindən,
Düşərək torpağa, yox oldu birdən.

Tapmaq həvəsilə həmin qızılı,
Torpağı yuyuram göz yaşımla mən.

16.

Xaqani dərdlidir arvad əlindən,
Bu aləm bir dərdli könülə dəyməz.

Qürbətdə bir arvad aldı ki, onun,
Yüz nazı bir anlıq müşkülə dəyməz.

Birinci arvada dəyməz sonrakı,
Yüz qarğa bir gözəl bülbülə dəyməz.

Dünyaya dəyəni torpağa döndü,
Birini aldı ki, heç gülə dəyməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

17.

Kərimləri medh edirəm, nə üçün də etməyim?
Xəsisləri həcv etməyi sevmənişəm heç zaman.

Mənim bütün divanımda ikicə həcv yoxdur,
Axtar behişt gülzarını, tapa bilməzsən tikan.

18.

Xaqanidən yuxanda oturdunsa, nə olar,
Nə bu sənə bir hünərdir, nə də Xaqaniyə ar.

Çünki, göydə qara üzlü, pis əməlli Zühəl də,
Xoş sifətli Müştərinin üstündə tutmuş qərar*.

Harada ki, su neft ilə birləşərsə, qaydadır,
Aşağıda su yerləşər, yuxarıya neft qalxar.

Görmədinmi, xırmanda da döyüm vaxtı həmişə,
Ağır dənler alta yatar, boş saman üstə çıxar.

19.

Dedin ki, heç kəsə baş əymə əsla,
Çünki, mərd doğuldun bu dünyada sən,

Doğrudur, bu şadlıq gülüstanında,
Gül açdım qocalar duasıyla mən.

Əmim yol göstərdi, kəmala yetdim,
Öyrətdi o mənə çoxlu elmü fən.

Öləndə söylədi: - Görüm, desinlər,
Şərqin də, qərbin də Əfzəli sənsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

20.

Rahatlıq axtarma sən, ey Xaqani!
Axtarsan hər yeri, tapa bilməzsən.

İflasa uğramış dünya evində,
Kimiya iksiri tapa bilməzsən.

21.

Ey Xaqani, başına kül, öz qanına qərq ol, ağla,
Səni torpaq üzərindən qaldıran mərd torpaq oldu.

Sən əminlə tanınmısan, atan vəfat edən kimi,
Əmin səni aralığa çıxardaraq dayaq oldu.

22.

Dosta yaxşılıq olmuş əzəl gündən niyyətim,
Dost dostuna həmişə olmalı yaxşı sirdaş.

Dostum pislik etsə də, mənə xoşdur, qoy etsin,
Ah, mənim pisliyim də xoş olaydı ona kaş!

23.

Hər gecə göylərin yüksək qatına,
Xaqaninin ahı qalxıb, ucalar.

Doğmuşsa ruzigar onu, yenə də,
Sındırır qəlbini yenə ruzigar.

Şüşə yaransa da daş parçasından,
Lakin daş şüşəni asan parçalar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

24.

Qorxum budur, aləmə düşər səs,
Qəlbim sənə paybənd olarsa.

Canan! Çatılar xudaya, şəksiz,
Zülfündən əgər kəmənd olarsa.

25.

Ey Xaqani, Bağdadda gəzmə vəfalı insan,
Saxtakarlar yurdunda vəfalı ələ düşməz.

Axıtsalar Dəclətək insanların qanını,
Bağdadlının gözündən üzünə gilə düşməz.

26.

Yoxdur bir şey dünyada nadir olsun vəfadan,
Əhl adamın vücudu az olub kimiyadan.

Simurğ kimi, aləmdə dostun ancaq adı var,
Yox, Simurğ tez tapılar sədaqətli aşnadan.

27.

Ey ədalət bağçası Bagdad, əhsən, mərhəba,
Dövrənə dövr eyləyir səyyarələr, çərxi-fələk.

Ah, gözəldir dağların, göy bağların, şadsan müdam,
Həşmətin dörd göy deyil, səkkiz behişt olsun görək.

Hər cürə rəngin, iyin var, hər cürə xasiyyətin,
Heyf, yoxdur səndə mərdlik, bir də ki, həssas ürək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

28.

Xaqani! Zəmanə pis zəmanədir,
Pislərin yaxşılıq gəlməz əlindən.

Pislərdən yaxşılıq umma, razı ol,
Qorx ki, yaxşılardan pislik görəsən.

29.

Deyək ki, qəlbimiz təmiz deyildir,
Adımız təmizdir axı dünyada.

Kobud bir axmaqla bəhs edəndə mən,
Susub hörmət etdim bu təmiz ada.

Dünyada əcayib şeylər çox olar,
Bəzən qurşun verir almazı bada.

30.

Xaqaninin bu dünyada dörd şey gəlir xoşuna:
Gəl, bu dördü əldən vermə, yaxşı dostsan əgər sən.

Kasıblara kömək etmək, sirri möhkəm saxlamaq,
Badə içib, sərxoş yarın öpmək şirin ləbindən.

31.

Sən bir ilan sifətlisən, daim şəkər yeyirsən,
Xaqani bir tuti ikən, yedikləri zəhərdir.

Bax fələyin bəxşişinə, zəmanənin zülmünə,
Kim ki, torpaq yeməlidir, yediyi neyşəkərdir.

Xaqaniyəm, bu dünyada qəlbim elə safdır ki,
Mənə pislik edənə də verirəm xoş mükafat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nacinslərin dillərindən zərər çəkdiyim dəmdə -
Allahımdan gözləyirəm mən yaxşılıq, iltifat.

Demirəm ki, ey allahım, sən onlara bəla ver,
Deyirəm: ver mənə düşmən bəlasından sən nicat!

32.

Əgər sən bilməsən, Ütarid bilir yəqin,
Mən kiməm, qələmimdə nə kimi bir qüvvət var*.

Min il gərəkdir ta ki, hünər gülüstanında,
Biliyin budağında gül mənimtək verə bar.

Hər əsr, hər dövrdə mənim mislim tapılmaz,
Bir də şair Xaqani yetirməz bu ruzigar!

33.

Kasıb rahat yaşayanda, əzab çəkər varlılar,
Demək, ağıl sahibləri axtarmazlar var, dövlət.

Dövlət bənzər al şəraba, az içdinmi, ruh verər,
Çox düşərsə, ağlı pozar, yaradar min fəlakət.

34.

Çoxdan vardı ürəyimdə Xorasanın arzusu,
Reydə ikən arzulardım: yerim olsun Xorasan.

Rey valisi kəsdi mənim diləyimin yolunu,
Bəndə saldı istəyimi, etdi məni pərişan.

Çələləddin! Mən bu addan çox şikayət edərdim,
Nə edim ki, utanıram öz xeyirxah oğlundan.

O çox fəsad törətmişdir, ocaqları dağıtmış,
Xeyri de o, qəlbim kimi məhv etmişdir hər zaman,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

35.

Sən fəqirə bircə dirhəm verərkən, ey Xaqani,
Əvəzində iki behişt istəyirsən xudadan.

Belə isə, verdiyinə kərəm dedin nə üçün?
Bu ki, aydın bir riyadır, kərəm olmaz riyadan.

Buna necə kərəm demək olar ki, sən bir pula,
Behişt almaq istəyirsən əvəzində səmadan.

Sən bir verib, haqqdan iki tələb edən zamanlar,
Aç gözünu, bir fərqləndir öz riyanı səxadan!

Bilirsənmi kərəm nədir: harda gəda gördünsə,
Var-yoxunu verib, bir şey ummayasan gədadan.

36.

Ey Xaqani, pay ummaqda getdi abırın, həyan,
Bəsdir, alma bircə loğma bir kimsədən heç zaman.

Xəstələnmiş ürəyinə dava-dərman istəmə,
Dərd artırır, çünki, ona ediləndə bir dərman.

Bu qaydadır: sınan şeyin qədri sonra bilinər,
Sınıq qəlbə təsəlli ver, bunu yaxşı anla, qan!

Sən dəvənin boynundakı qızıllara baxma çox,
Qan bahasın dolandırır öz boyununda o heyvan.

Zəni edək, lap dəvə boynu oldu qızıl mədəni,
Nə mənfəət görür o bəs gəzdirdiyi qızıldan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

37.

O qarayanızdır, mən ağ saçlıyam.
Belə qaldırırıq fərqi aradan:

Qara rəng vururam mən ağ saçıma,
O qara üzünə sürtür ağ kirşan.

38.

Xaqani Xaqanla oturan zaman,
Yeri axırıncı cərgədə olar.

Neçə ki, birinci hərf ikən "əlif',
Birləşəndə tutar axırda qərar.

39.

Xaqani çəkildi üzlət evinə,
Bu ev çox yaxşıdır şah sarayından.

Qənaət içkisi ruzisi oldu,
Budur zəmzəm sulu və abi-heyvan.

Ruziyçün qəm çəkməz bacardıqca o,
Ruzinin qesydinə qalır yaradan.

Yaşamaq ruzilə mümkünsə əgər,
Ruzi də taətlə yetişər hər an.

Xaqani istəməz ruzi kimsədən,
Allah ruzisini verir firavan.

Süleyman vermədi yem qarıncaya,
Möhtacdır ruziyə çünki Süleyman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

40.

Cəfadır, etmə mənə sən bele xitab soyuq,
Nə vəqtədək verəcəksən mənə cavab soyuq?

Soyuq cavab, yəqin ki, ürək şəfası deyil,
Sağaltmaz heç mərəzi olsa, gər gülab soyuq.

41.

Bir cücəni sürət ilə qovlayırdı bir uşaq,
Dedi, onu öldürməkdir ovlamaqdan məqsədi.

Ey Xaqani, bizi də o cücə kimi ruzigar,
Qovar, qovar, öldürməkdir onun hər an məqsədi.

42.

Qoşub şəhvət ardınca, ömrümü bada vermə,
Onsuz da həyatını bada verir bu fələk.

Bir canın varsa hərgah, can alanın ikidir:
Biri can alan dünya, biri can alan mələk.

43.

Xaqani, üç şeydən gözəl, de, nə var:
Cavanlıq, rahatlıq, bir də güzaran.

Sənin ki, hər ücü varındır, şükr et,
Onları bir yerdə tapmaz hər insan.

44.

Olsaydı Fərhadın qeyrəti əgər,
Qoymazdı Şirinə baxsın hər ötən.

Namussuz, yarını nəqş etdi daşa,
Qəlbinin lövhinə nəqş etməliykən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

45.

İnanmazdım ki, dağ dağa qovuşar,
Qovuşar adamlar, məşhur məsəl var.

Dağ cismimə möhnət dağı qovuşdu,
Bəs neçin, de, məndən qaçır adamlar?

46.

Bilikli olmağın zərərdir sənə,
Gücsüzlük qüdrətdir, hünərdir sənə.

Biliyin cövhəri biliksizlikdir,
Xaqani, "bilmirəm" sipərdir sənə.

47.

Əgər səndən aşağıda oturmuşsa Xaqani,
Zənni etmə ki, sən sədrsən, o isə kəmqədrdir.

Cah-cəlallı bu məclis bir dairədə qurulmuş,
Dairənin hər yerində kim otursa, sədrdir.

48.

Rütbəm mənim hümmətimlə uyğun deyil əzəldən,
Hümmətim də razı deyil rütbəsindən sərasər.

Xudavənda, bu uyğunsuz işə necə dözüm mən?
Axı neçin uyğun gəlmir taleyimlə bu işlər?

Ya rütbəmi hümmətimə görə qaldır sən, ya da,
Hümmətimi rütbəm qədər alçalt, olsun bərabər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

49.

Sən qara torpağa su versən əgər,
Bir il də gül açar qarşında bostan.

Sənin torpağınam, lütfünlə su ver,
Yüz cürə gül açım qarşında hər an.

50.

Ona on qızıldır doğru sözlərim,
Qızıla bürünmüş olmasam da mən.

Nə zərər, zubini düz atsa bir türk,
Çox da o, deyləmli deyil əzəldən.

51.

Ey Xaqani, kim yerişdə yamsılasa səni, bil,
Qarğadır o, qarğa səkməz kəklik kimi heç zaman.

Çox uşaq da arzular ki, zər tərəzi düzəltsin,
Narınc alıb, göz düzəldər tərəziyə qabıqdan,

Bənzəsə də ilanotu görünüşcə ilana,
Biri dosta dərman olar, o birisi alar can.

52.

Mən ki Xaqaniyəm, iki cahandan,
Nə yaxşı, nə yaman bir şey istəməm,

İstəyim dünyada tək azadlıqdır,
Allahım əvf etsin, behişt istəməm.

55.

Qürbətdə ürəkdən nalə edərsəm,
Bu nalə olacaq səhhətim mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızdırma içində şərbət düzəltsəm,
Göz yaşım olacaq şərbətim mənim.

Qurumuş beynimi işə salarsam,
Dərdü qəm olacaq qismətim mənim.

54.

Eşşəyini hər kim salsa çirkabına şəhvətin,
Ömür atı cilovunu qırıb qaçar durmadan.

Şəhvət yolu bəlalıdır, unutma bu sözümü,
Söndürər can atəşini şəhvət suyu hər zaman.

55.

Mənim pisliyimə danışmış xacə,
Onun pisliyini deməərəm, inan!

O, məni pisləyir on cürə, lakin,
On cür tərifləərəm onu hər zaman.

Nə desəm, min dəfə artıqdır xacə,
Nə desə, min dəfə artığam ondan.

56.

Ey Xaqani, könül vermə gücü artan dostuna,
Düşməndən də zərər görsən, qüssələnmə-heç zaman.

Allahdandır yaxşı-yaxşı nə baş versə dünyada,
Buna görə dost-düşməndən olma heç vaxt bədgüman.

Allah özü nəzər salsa sənin güzaranına,
Nə düşməndən xovf et, nədə kömək gözlə dostlardan!

Bir dostuna arxalanıb, işə əncam vermə heç,
Bu dost bir gün düşmən olub, sənə vurar çox ziyan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşmənə də kinli olub, zərər vurma ona sən,
Dönüb bir gün dost olarsa, halın olar pərişan.

Dostun sənin hünərini tərifləsə, nə eybi,
Ancaq düşmən eyib tutsa, artar hünərin, inan!

Çünki, ondan qorxub, daim çalışarsan cəhd ilə,
Dostun isə tərifindən boş təkəbbür taparsan.

Demək, düşmən tənəsinin mənasında dostluq var,
Kəmalə tez çatmaq üçün sənə olar nərdivan.

Belə isə, uzaq düşmən yaxın dosta çevrilər,
Dostunsa öz tərifilə kəsilər sənə düşman.

Kimlə dostluq etsən, ona həddən artıq bağlanma.
Düşməndən də qafil olma ki, xətərə düşər can.

Sözlərimi əgər qəbul etməyirsə şüurun,
Onda bil ki, şüurunda vardır böyük bir nöqsan.

57.

Kim əldə böyüksə, adlanar imam,
Kim ürək çalarsa, ovçu adlanar.

Xaqani, bilmirəm kim belə dedi:
Kim qılınc vurarsa olar hökmdar.

58.

Hər kimi qudurtsa dövləti, varı,
Axırda rast gələr min fəlakətə.

Kül olsun başına elə dövlətin,
Ki, salar sahibin dərdə, möhnətə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Afərin deyərəm o dövlətə ki,
Sərf olar həmişə xalqa xidmətə.

Külək səpələrsə göyə torpağı,
Yenə də döndərər yerdə nemətə.

59.

Yolunda nə əzab çəkərsəm, xoşdur,
Səndən ümidimi kəsməmişəm mən.

Layiqəm hər cürə töhfənə, nolar,
Gəlib ruh verəsən bədənimə sən.

60.

Mən dərya könüllü Xaqaniyəm ki,
Buludum Günəştək ildırım çaxar.

Sən də mənim kimi dəbirsən, lakin,
Mən düzəm, sən isə xəbis, riyakar.

Qan tökür qəssab da, cəllad da, ancaq,
Cəlladla qəssabın böyük fərqi var.

61.

Ey Xaqani, nalə etmə belə ürək dərdindən,
Kim görmüşdür nalə ilə şəfa tapsın dərdü qəm?

Zəmanədə xəstələnən bir kəs xoşluq görməmiş,
Hiyləgərlik peşə edən bu zəmanə əhlindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

62.

Arxında su yoxsa, qorxma, Xaqani,
Gümanı ki. yenə də selin gələcək.

Çox da indi halın ağlar keçirsə,
Nəhayət, ürəyin bir gün güləcək.

Fələk şəfəqlərdən rəng ala-ala,
Qəddinə xələtlər biçib tikəcək.

Nura qərq edəndə Günəş aləmi,
Əzablı, qaranlıq gecən bitəcək.

63.

Xəzinə versələr mən Xaqaniyə,
Mənim verdiyimdən çox olmaz, inan.

Fələk heyran qalmış bu əsrara ki,
Nələrə qadirdir bir müdrik insan.

Şahlardan layiqcə aldığını o,
Bədxaha miniətsiz bağışlar hər an.

Xaqaninin qəlbi bir çərxə bənzər,
Bu yandan alar, hey verər o yandan.

64.

Sən yaxşı adamsan, Xaqani, ancaq,
Sənə pislik edir naəhl adamlar.

Onlar yaxşılığı öyrənir səndən,
Sonra pisliyini edirlər təkrar.

Doğrudur, od ilə sınanar qızıl,
Qaydadır sarımsaq müşkü sınayar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

65.

Şahım, iki cürə narahatam mən:
Könlümdə şübhələr yaşayır qoşa.

Qorxuram xoşuna gəlməyə mədhim,
Ya da mükafatın gəlməyə xoşa.

66.

Fələk yaxşı bilir: nəzmü nəsrdə,
Mənimtək dünyada yoxdur bir nəfər.

Boyanım sudursa, xəyalım oddur,
Odla su sazişi görülmüş məgər?

Musanın oduyla Xızrın suyunu,
Təbim birləşdirir hər axşam-səhər.

İki divanımda - ərəbcə, farsca,
Yoxdur bircə söyüş, bir həcv, müxtəsər.

67.

"Yar"ı "Mar" hesab et, bətərdir, çünki,
Marın zəhərindən yarın zəhəri.

Yarlar mar olsalar, biganə xoşdur,
Yarların afəti əzər ciyəri.

Xaqani, sən xalqı tərifladikcə,
Yağdırır başına o bəlaləri.

68.

Xaqani, haqqlısan nalə etməkdə,
Çünki, yoxdur sənin dostun, aşinan.

Düşmənin torpaqdan sayca artıqdu",
Dostlarınsa azdır kimiyalardan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

69.

Bu bəndən Xaqani üzr istər səndən,
Üzrünü qəbul et sən də, ey xuda!

Ona verdiyini vurma üzünə,
Etdiyi günahı, gəl, salma yada.

Kərəm sahibinin barigahında,
Unudulmalıdır əta və xəta.

70.

Şadlıqda – qəflətdən, dərddə - ağıldan,
Çəkinib ömür sür bir həqqiqətlə.

Xaqani, uzaqlaş iki rənglidən,
Yaşa ya ağılla, ya da qəflətlə!

71.

İlahi, hər dərdim sənə bəllidir,
Özün əlac eylə mənim dərdimə.

Ya qara baxtımın üzünü ağart,
Ya da qara rəng vur ömür xəttimə!

72.

Bu dünyanın sərvəriyəm, təbim mənim rəvandır,
Cənnətin dörd bulağı da axır təbimdən yeksər.

Hümmətimin sayəsində varlanıram həmişə,
Can mülgünü qazmadıqca əldə olmaz bu gövhər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

73.

Mənuçöhr Salardan soruşdu bir gün: -
Dünyada ən yaxşı nədir, ay Salar?

O dedi: - Bu fani aləmdə ancaq,
Müdrikdə hikmətdir, kərimdə girdar.

74.

Ey Xaqani, yaxşı bax yaradanın sirrinə,
Nəqşəsində hər daşın min bir gizli sirr var.

Amandır, heç bir şeyin zatına xor baxma sən,
Orda dilsiz danışan ürək açır çox əsrar.

Hər ürəkdə - bir kədər, hər qönçədə - bir ciçək,
Onlara əyri gözlə sən nəzər salma, zinhar!

75.

Kərəmlə vəfanın işığı söndü,
Bu iki cinsdən az de, Xaqani.

Kərəmin ayağı kəsilmişdir, bax,
Vəfa deyilən şey varmıdır? Hanı?

Kərəmə yas saxla, ölüb getdi o,
Odlu mərsiyəylə yad et vəfanı.

76.

Zəmanə əhlindən göstər, o kimdir
Ki, onu vəfalı hesab edirsən?

Yaxşı bil, vəfalı dost olmaz sənə,
Örtülü qərəzlə dostunam deyən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xacə sənə desə: - Dostunam sənin! –
Cavab ver: - Nə cürə dostun olum mən.

Ki, işim yaxşısa yaxınlaşırsan,
Pisləşən zamanda olursan düşmən.

Dost odur, yıxılsam tutub qaldıra,
Halım pis olanda tuta əlimdən.

Mənimlə dostluq et tam sədaqətlə,
Dostluq şərtlərinə rəayətlə sən.

Məndən baş verərsə bir xəta əgər,
Son, onu görsən də, içiməyəsən.

Düşmən hücum etsə mənim üstümə.
Ona olmayasan məsləhət verən.

77.

Ata köçüb getsə bir gün dünyadan,
Dudimana oğul sahib olacaq.

Əgər şir meşədən köçüb getsə də,
Nərəsi meşədə daim qalacaq...

78.
Mən kiçik bir şairəm, susdurulmuş, əzilmiş,
Üz tutub, söz deyirəm qüdrətli bir ustada.

O yüksəlmiş söz ilə həqqiqətin fövqünə,
Ən uca mənsəb ona nəsib olmuş dünyada.

Nə cürətlə, bilmirəm, ona namə yazıram,
Onun yanında kiməm, adım şair olsa da?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hanı məndə yağmağa hazırlaşan o bulud?
Hanı elə qılınc ki, zəfər çala davada?

Tale mənim təbimi etsə də söz çeşməsi,
Tapmadım qiymət verən, əfsus ki, istedada!

79.

Eşqin əzablarından sənə şikayətim var,
Məni dinlə, bağrımı hicran odu yandırar.

Nur qalmadı gözümdə, tökdükcə göz yaşları,
Gəncliyim eşq odunda yandı mənim, a dostlar!

Kaş gözüm kor olmadan yar üzünü görəydim,
Kaş verəydi eşqimin cavabını o dildar.

Səni sevdim, süründüm, dostlar məni danladı,
Danlaq məgər aşiqi eşq əlindən qurtarar?

Qədəh götür, mey gətir, dumanlandır başımı,
O şərabdan içirt ki, Günəş kimi nur saçar.

Bu rəsmdir, deyirlər, duman çöksə Günəşdə,
Sərab olan vadilər dəniz kimi parlayar.

80.

Xaqanlığa yaxınsa da mənim əsil nəsəbim,
Bu məqamın hər cəhəti varsa bütün hesabda,

Söz xaqanı şöhrətini qazanmışam mən özüm,
Əlimizlə zinət tapıb hər bir kəlmə kitabda.

Sözdə mənə tay deyilsən, ey məni inkar edən,
Mümkünmüdür kainatı gizlətmək bir niqabda?

Yusif kimi səyyarələr üzəngimdə gedərkən,
Dolda mənə yer verməyi şan bilirlər, savab da!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

81.

Könül, yorma məni, sakit ol bir az,
Səadət qayğısız, əzabsız olmaz.

Xoşbəxtəm, siz məni tərif etməyin,
Mürşüdsüz bir kamil əsər yazılmaz!

82.

Reyi cənnət görən ac müsafirlər,
İsrafla daraşdı nazü nemətə.

Çoxu xəstələndi, təəccüblüdür,
Kim bu xəstəliyi yayıb cənnətə?

83.

Təbriz tərəfdədir Qafın qülləsi,
Könlüm o şəhərdən ayrılmaz bir an.

Tacəddin zamanın Simurğudur ki,
O uca qüllədə salmışdır məkan.

Günəş dövrə vurub gəzdi fələkdə,
Təbrizdə özünə seçdi aşiyan.

Ordadır Məşriqin şaqraq çeşməsi,
Ordadır Moğribin dənizi - ümman!

84.
Sevgilimlə qədəh tutub mey içirdik, nagahan,
O dilbərin dodarından gecə son öpüş aldı.

Müşk bizdən əsirgədi rayihəli rəngimi,
Dan sögüldü, Günəş qızıl don geyinib, ucaldı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səba aldı şəbnəm düşmüş qızıl gülün ətrini,
O mübarək töhfə ilə sevgilimə yan aldı.

Gül ətrini duyan kimi, asqıraraq, o mələk
Açdı xumar gözlərini, qolun boynuma saldı.

85.

Asudə olsaydım əgər bircə an,
Darül-xilafədə yazardım divan.

Bardada atılmış bir daş olsam da,
Yüksəyəm bu xurma ağaclarından.

Məhəbbət cagırır Şirvana məni,
Əhdim var onunla, pozmaram, inan!

Bağdadlı dostlarım məni atdılar,
Bilirdim, onlardan çəkərəm ziyan.

86.

Paklığıyla nəzərimdə cilvələndi o afət,
Heyran etdi məni onun dilindəki lətafət.

Dedi: - Dinlə, söhbət açım kərəmindən Hatəmin,
Yadda saxla, ən gözəl bir öyüddür bu rəvayət.

Malı yığma, tələf elə özgələrin xeyrinə,
Sənin üçün böyük qazanc sayılar, bil səxavət.

Gənclər malı əllərinin zəhmətilə qazanar,
Gənc adamın xəsisliyi qəm-qüssədir, fəlakət!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

87.

Dərdim azalsın deyə, qoyun yanıma dərman,
Zəifləmiş ürəyim indi çıxmış aradan.

Sual sual dalınca verirsiniz, nə deyim?
Qızlar dedi: - Halaldır bəhrələnə pay uman.

Məni Şirvana çəkən adamları deyildir,
Rahatlanır səsindən Şirvanın cismimdə can!

88.

Bağdadın çox yaxşı bal paldası var,
Cənnət nemətidir sanki, bal dadar.

Orada yaşadım, köçüb gedəndə,
Paldayla fal açdım, gəldi: "Qaç, qurtar!"

89.

Zaman keçdi, kamal qaldı gözü yerə dikilmiş,
Utandı ki, köməyinə kimsə möhtac deyilmiş.

Əl-Möhtədi xəlifənin zamanında, deyirlər,
Xalq içində ixtilafa guya xitam verilmiş.

90.

Məclisləri, məhzərləri döndərirəm gülşənə,
Sözüm olmuş göçəriyə, şəhərliyə xəzinə.

Nəzmim, nəsrim külək kimi xatirimdən qoparaq,
Ölkə gəzir, məsəl olur, düşür ellər dilinə.

Sanki ulduz salxımıdır şerim, mənim əlimlə,
Sıxılaraq, xalqa dadlı şərab olur hər dənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zina oğlu zındıqların şərrindən doğmasaydı,
Qəza əsir salardımı onu quduz düşmənə?

Duz qatarsam sözlərimə insanların əliylə,
Böyük izzət, sonsuz şöhrət qazandırar bu mənə.

Qələmimdir qoşaağız, iti Yəmən qılıncı,
Əlim oxşar Saidətül-Qeysin yazan əlinə.

91.

Şerin gözəl fikirləri qanadında uçuram,
Üfüqlərə nur ciləyən ulduzları qucuram.

Sən mətlələr qəsrini qur fəzilətin bağında,
Şer ağacın bar versin ta yüksələn budağında.

Mətin oldun, səni qəza sıxa bilməz heç zaman,
Hiylə qursa, vura bilməz yerə səni asiman.

Ayağına kölkə salmış yoxsa Simurğ qanadı,
Şərəf olub dünya üçün Cəlil bin-Rafe adı*.

Bilik onda, kərəm onda, ağıl, düha ondadır,
Hər kəlmədə şeriyyətin gövhərini yaradır.

Ona yazdım: düşüncələr səni sıxarsa əgər,
Sözlərimi dinləyənlər qəm oduna su səpər.

92.

Başçıları razı salıb, xalqın dadına çatan,
Qoruyacaq bütün xalqı ən dəhşətli bəladan.

Sözün düzü, o şöhrətin zirvəsinə çatsa da,
Nə təmənia, nə diləyim, nə arzum vardır ondan.

Bizə feyzi Allah verib, o da geri qaytarır,
Haqq yoluna qayıdanlar azad olur cəzadan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

93.

Qiyamətdə haqq yanında peyğəmbərdən savayı,
İkinci bir şəfaətcim var'sa, odur Şafei*.

Tale məni tərk edərsə, bu uğursuz həyatda,
Gözlərini yerə dikməz, kömək edər Rafei.

94.

Qəzvin cənnət qapısıdır, İdrisi o cənnətin,
Şafeinin pakürəkli naibidir, bil, yəqin!

Kim səadət qapısını əgər açmaq istəsə,
Rafeini ata sansın, açar etsin hümmətin!

95.

O pak insanı mədh etdim, İraqda şanlı sultandır,
Bu mədhim sehri-Babildir, İraq əhlinə şayandır.

Kəlamı qüdrətindən titrədi dünyanın ərkanı,
İlan ovsunçunu çaldı, boyu sərvi-xuramandır.

İraqın şahı paklıqda nümunə olmuş hər xalqa.
Belə bir adəmə düşmən demək, əlbəttə, nöqsandır

Odur, din bayrağım qaldıran əzm ilə aləmdə,
Həyat durduqca dünyada o bir layiqli insandır!

96.

Yüksəlişçün oldu mənə səma İraq torpağı,
Ağuş açıb, oldu mənə ana İraq torpağı!

Dərd əlindən paslanarsa təfəkkürün güzgüsü,
İnanıram, ona verər cila İraq torpağı.

Boğularsam yoxsulluqdan əgər şərəf yolunda,
Saçacaqdu yollarıma ziya İraq torpağı!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dənizləri keçəcəkdir mənim hümmət qayığım,
Qoymayacaq, yıxsın məni dalğa, İraq torpağı!

Kəbə mənə qucaq açdı, meyl elədi İsfahan,
Çəkdi məni sənə tərəf sevda, İraq torpağı!

Məni qultək xidmət üçün çağırırdı İsfahan,
İndi oldum öz-özümə ağa, İraq torpağı!

Ey Fatimə, eşqin hakim kəsilibdir qəlbimə,
Səndə çatar əlim şirin suya, İraq torpağı!

Yol göstərdin, şerim ilə zirvələrə yüksəlim,
Ürəyimi döndərmisən dağa, İraq torpağı!

Görüşünə tələsirlər fikrin bakir qızları,
Adlarını nigahına sala İraq torpağı.

İsfahanda bu gəlinlər duvağını açmadı,
Sənə gərək o duvağı aça İraq torpağı!

97.

Mübarəkdir Novruzun, ey ümmətlərə sərvər,
Ki, səninlə birlikdə təbrik olunur ellər.

Zəmanənin Novruzu yüksək ruhlar sayılır,
Ağzın haqq günəşidir, saçar işıqlı gövhər.

Sənsən din günəşini zirvələrə qaldıran,
Əcəm mülkündə Şirvan Novruzu bayram eylər.

Bir Novruzu var elin, mənə bayram igidir,
Biri Novruzun özü, biri sənsən, ey rəhbər!

98.

İmadəddin pak ruhumun sazıdır, onunla mən,
Hədislərin əsrarını qoruyuram ləkədən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sayəsində göçərilər üzləşdilər uğurla,
Həyat tapdı firavanlıq, ölüm çıxdı səhnədən.

Qəribədir, vücudumda daha taqət qalmamış,
Sağlam ikən dəyişilir əhvalım isitmədən.

99.

Müsabiqə aparırkən, məni məndən soruşsan,
Müasirim olanlardan məni seçmişdir zaman.

Bəxş eləmiş dövran mənə neçə ülvi məziyyət,
İdrakımın təlqinində məndə artıqdır hümmət.

Təfəkkürüm çox genişdir, məntiqimdir möcüzə,
Gətirmişəm şerim ilə yeni mənalar sözə!

100.

Dedilər ki, saqqalına əcəb yaxıbsan həna,
Oxşatmısan qaralıqda pozduğun inkar "nun"a*.

Bəli, həna qoymuşam mən, belə bir adət vardı,
Peyğəmbər də, imamlar da - hamı həna qoyardı.

Qocalıqın rəngi bilib, çal saqqalı imamlar,
Gizlətməyə çalışmışlar, bunun məgər eybi var?

Ağ tük Allah izni ilə bir nur kimi parlayır,
Boyamışam, Allah özü Günəşi də boyayır.

Gün tutulur, demək, Allah ona başqa rəng verir,
Bu rəng ilə insanların taleyini göstərir.

Görəndə ki, çallaşmışam, yaş axıtdım gözümdən,
Gömür kimi yandı, qara xətlər açdı üzümdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaş yerinə yanağıma gözümdən axdı qanlar,
Bu qaydadır, qan hər yerdə quruyarsa, qaralar.

Ömrüm boyu ürəyimdə eşq odu alovlanır,
Ürəyimin ahla çıxan tüstüsüdür, qaralır.

Peyğəmbər öz dostlarına eyləmişdir vəsiyyət,
Sürmə çəkin, həna qoyun, qocalıqdır əziyyət.

Qocalanda gözlərinə dünya qara görünür,
Demək, gənclik səmasının parlaq ulduzu sönür.

Ağ saç mənə tənə vurur, deyir: şair, qocaldın,
Qocalığın dərdi budur, tükdən də töhmət aldın.

101.

Yəməndə hər qıza baxdım, dedim ki, ceyrandır,
Bu könlümün evi onlar gəzən biyabandır.

Yəmən olubdu məgər şux gözəllərin vətəni,
Maralların beşiyi ətirli gülüstandır.

Yəməndə silsilə dağlar fələklərə ucalır,
Baxanda zirvəsinə qərb ayı nümayandır.

O kəs ki, ömrü boyu eşqdən oruc tutdu,
Yəmən hilalını görcək, dedi ki, şəbandır.

Yəmən gözəllərinə səcdə eylərəm hər an,
Gözəl qadınlara könlüm həmişə heyrandır.

Deyirlər: əhdə vəfa gözləmə gözəllərdən,
Yəmənli əhd qılarsa, vəfası asandır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RÜBAİLƏR

1

Xaqani olmuşdur sözün Xaqanı,
Doludur ləl ilə sözünün canı.
Sözə bu gün elə rövnəq verdi ki,
Fəth edib onunla bütün düyanı.

2

Şer səmasının günəşiyəm mən,
Üstünəm əsrimin şairlərindən.
Günəş kainatın şahı olsa da,
Sözümə qul olur hər səhər erkən.

3

Sözümlə şərbətə çevrilər zəhər,
Sözüm fələkləri aşıb fəth edər.
Kim söz gülabını başına vursa,
Görməz ömrü boyu bir də dərdi-sər.

4

Gölgədə qalmaram bir kal meyvətək,
Günəşəm, gərdişim bu sonsuz fələk.
Kişilikdə haqqı olmayanların-,
Namərdəm, salmasam başına ləçək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5.

Xaqani, hümmətlə yaşasan əgər,
Olmazsan mənsəbə, qızıla nökər.
Yolu əyri gedən vəzirdən başdır
Yolunu düz gedən mərd piyadələr*.

6.

Xaqani, səndə bu hümmət var ikən,
İstəmə fələkdən öz ruzini sən.
O sənə ruzini necə verər ki,
Özü ruzi gözlər zəhmət çəkəndən.

7.

Fələyə söz ilə bu gün ox atdım,
Onun zəncirini qırıb qopartdım.
Sözlərim baldan da şirindir, çünki,
Təbimin şəkərin mən ona qatdım.

8.

Olsam da, əzizim, layiqli bəndən,
Sevsəm də bu gözəl şəhrinizi mən,
Şirvanı özümə Kəbə sanıram,
Kafirəm, döndərsəm üz bu Kəbədən.

9.

Xaqani, xoşluqla həyat sür müdam,
Qəm yemə, dünyadan almadınsa kam.
Qəmli olanda da xoş ol həmişə,
Zəni et: gəlməmisən dünyaya tamam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

10.

Eşqinin odunu alovlandırdın,
Mənimtək min aşiq qəlbi yandırdın.
Sən kimdən öyrəndin bu zalimliyi?
Ürəyi eşqindən tez usandırdın.

11.

Uçanda könlümün quşu əlindən,
Ya atın nalını salanda, həmən.
Burovuz vücudun qalacaqdırmı?
O getsə, bəs onda sən Özün kimsən?

12.

Eşqində olmuşam zarü-pərişan,
Eşqinin oduna yanmışam hər an.
Mən sənin ən sadiq aşiqinəm, bil,
Eşqimə ən layiq sənsən, a canan!

13.

Ey tərsa gözəli, ol mənə qəmxar,
Hər bir kəlisada səni sevən var.
O xaçtək hörülən saçından, barı,
Bir tük ver, bağlayım belimə zünnar!

14.

Eşqdir gönuldən hər dərdi silən,
Eşqdir dunyada hər dili bilən,
Eşqdir eydəyən varlığı - yoxluq,
Qəmdən qurtararsan ancaq eşq ilən.

15.

Ey Aydan, pəridən gözəl nazənin,
Pəri, Ay qarşında bir quldur sənin.
Ağlımı, huşumu əldın əlimdən,
Belə zülm etməkdən nədir məqsədin?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

16.

Xaqanı öpdükcə şirin ləbindən,
Hərarət içində qovrulur bədən.
Dodağın yəqin ki, alovludur, yar,
Yoxsa bu hərarət haradan, nədən?

17.

Yuz dəfə çalışmış böyük Yaradan,
Nəhayət, yaratmış sənin kimi can.
Bizim arzumuzu alıb nəzərə,
Hüsnündə qoymamış zərrəcə nöqsan.

18.

Ayüzlüm qamətdə bir sərvə bənzər,
Yanağı od kimi yanar hər səhər.
Məğrib Günəşinin şəfəqləridir,
Onun camalında görünən xətlər.

19.

Ey hüsnü şəhərdə şöhrətli canan,
Min aşiq vəslini arzular hər an.
Hüsnündən nur alır sənin Günəş də,
Sən - huri balası, behiştin - Şirvan.

20.

O zəncir zülfünü, gəl, arxana at,
Mən dəli oluram, onu az oynat!
Fikrim var ki, durum qurbanın olum,
Gözəlim, özün də şərait yarat!

21.

Yatanda yuxumdan çıxmır xəyalın,
Oyandım, fikrimdə gəzir vüsalın.
Dinimi, canımı almaq istəsən,
Olsun hər ikisi sənin halalın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

22.

Mən şeyda bülbüləm, sən - qızılgülüm,
Sənsiz mümkün deyil şadlanıb gülüm.
Səndən ayrı qalsam, dilim lal olar,
Səni görən kimi açılar dilim.

23.

O kaman qaşının divanəsiyəm,
Hüsnünün odunun pərvanəsiyəm.
Mənəm nilufəri gün camalının,
Xəyal aləminin məstanəsiyəm.

24.

Zülfün düşən kimi gözəl simayə,
Saldı camalına ötəri sayə.
Ey behişt mələyi, düzünü söylə,
Kim sənə süd vermiş, kim olmuş dayə?

25.

Yoxladım özümü səfərdə sənsiz,
Saldım öz canımı min dərdə sənsiz.
Canıma salaraq qəm atəşini,
Yanmışam axşam da, səhər də sənsiz.

26.

Gözəllər mənimtək sənə qul olar,
Kədərlə ağlaram sən güləndə, yar.
Sən xəfif küləksən, mən isə torpaq,
Tünd əssən, inan ki, ollam tarmar.

27.

Dedin ki, olaram mən sənə kömək,
Səbr elə, darıxma, dərdə dözərək.
Axı səbr hanı, iqtidar hanı?
Mmi dərdlə doludur bu qönçə ürək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

28.

Gündüz fəraqından yandı ürəyim,
Gecə vüsalını andı ürəyim.
Gündüz çox titrədi ürəyim sənsiz,
Gecəni cəhənnəm sandı ürəyim.

29.

Ey könül, yenə də gəlmişdir bahar,
Nəsimin ətrindən badə tutub yar!
Mən olum, mey olsun, yarın dodağı,
Acanda üzünü fərəhlə gülzar.

30.

Sən, ey vəfasızım, sən, ey qan tökən,
Bilirsən: qəmxaram sənə əzəldən.
Sən cəfa edirsən, mən isə vəfa,
Onu sən bilirsən, bunu isə mən.

31.

Günəş görən zaman hüsnünü bir dəm,
Elə bil başına dolandı aləm.
Utanıb saraldı, üfüqdə batdı,
Bir qara don geyib, saxladı matəm.

32.

Dedim: "Nə güçün var, ey böyük soltan?
"Dedi: "Nə istəsən edərəm ehsan!
"Dedim: "Şah olsan da, qüdrətin çatmaz,
Keçən bir günümü sən qaytarasan".

33.

O axşam ki, könlüm mehmandır sənə,
Elə bil bir cənnət bəxş olur mənə.
Canım yanındadır, bir fərman da ver,
Bu gecə qovuşsun canım bədənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

34.

Gözəlsən, gözəllik mülkünə soltan,
Camalın qoymuşdur aləmi heyran.
Lütflə nəzər sal bu Xaqaniyə,
Sən Günəş, o isə torpaqdır bu an.

35.

Mən idim xəlvətdə, bir də o dildar,
Zülfünü boynuma dolamışdı yar.
Düşmənlər qapının dalında gəzir,
Mən vüsal içində, gözlərim xumar.

36.

Alçaq adamların tənəsn hər an,
Ağırdır fələyin zülmündən, inan.
Yar hicri onlardan ağırdır, lakin,
Yüngüldür yenə do möhtac olmaqdan.

37.

Gecəni zülmət et saçınla, canan,
Ey vüsal gecəsi, bitmə heç zaman!
Ey bulud, pərdəndə, gəl, Ayı gizlət,
Ey sabah, lütf edib bir az da yuban!

38.

Hüsnüntək nur yoxdur Ayda, doğrusu,
Səni sevənlərin gəlməz yuxusu.
Hüsnünün odunu Günəş görüncə,
Dedi: "Vay oduna yandım, hanı su?"

39.

İstərəm mən olum yarıma qurban,
Bu cavan ömrüm də sənindir, canan!
Könlün can almağı diləyirsə, gəl,
Səndən qılınc olsun, məndən isə can.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

40.

Çəmənində səs-səsə verəndə quşlar,
Sürahi quşu da ruhumu oxşar*.
Bülbül gül eşqində nəğmə qoşarkən,
Bir çay kənarında olaydıq, ey yar!

41.

Adın düşməmişdir bir an dilimdən,
Yadımdan çıxmadın xəyalda da sən.
Adın çəkiləndə bir yerdə, dərhal
Bütün vücudumla qulaq oldum mən.

42.

Yanında daima bir qəfəsin var,
Uçdu bu qəfəsdən tutduğun quşlar.
Xaqani bir hüma quşudur, indi
Düşməyə çalışır qəfəsinə, yar!

43.

Günəşsən, mən səni sevən nilufər,
Canım göz yaşımda qərq olub yeksər.
Bədənim göyərib, üzüm saralıb,
Gecələr ölərəm, dirilləm səhər.

44.

İşvəkar gözlərə olanda heyran,
Möcüzə yaratmaq istərəm haman.
Saqinin can alan gözünə baxıb,
Badə qanadında uçuram hər an.

45.

Ey mənim dərdimi görüb şadlanan,
Sənin hicrindəndir bu dərdim, inan!
Xaqani qoy sənin qurbanın olsun,
Nə ola, yadına düşə bu qurban.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

46.

Vüsalə pərdə çək gecə, ey qəmər!
Ey fələk, pərdəmi yırtma, et həzər!
Sübhün qapısını bağla, ey gecə!
Açarı quyuya tulla, ey səhər!

47.

Gözünə bir qulun gözü tərs baxdı*,
Gözümün gözündən göz yaşı axdı.
Gər gözə pis gözdən göz dəyərsə kaş,
Sənə göz dəyməsin, şairin baxtı.

48.

Alçaq adamlarla doludur cahan,
Mümkünmü yaransın müqəddəs insan?
Belə təmiz adam tapılmaz indi,
Xaqani, gözləmə, keç gələr karvan!

49.

Od yanar eşqinin odunda, canan,
Od şikayət edər bu yanar oddan.
Üzündə o xalı hər görən dedi:
Hindlidir, oturub bu odda yanan*.

50.

Qəzəbli bir pələng olma, a ceyran,
Qurda da rast gəlsən, yetirmə ziyan.
Eşqində ürəyim yarı bölünmüş,
Gəlmişsən, qayıtma sən yarı yoldan.

51.

Dodağın qönçəsi ülkərə misal,
Lalənin bağrıdır üzündəki xal.
Hicrində qönçətək ürəyim qandır,
Barı nərgizinlə məni yada sal*.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

52.

Könlümə bir xəbər çatanda səndən,
Ürək həyəcanla döyünür həmən.
Ürəyi qapında basdıracağam,
Eşitsin naləsin hər gəlib-gedən.

53.

Gördüm dostlarımı bir-bir dünyada,
Yoxladım onlan kənddə, obada.
Əba qurşağıtək bağlandılarsa,
Yenə də bir düyün qaldı ortada.

54.

Mən sənə aşiqəm, ay üzlü nigar,
Saldın can quşumu toruna, ey yar.
Sənin ucbatından rüsvay olmuşam,
Al mənim canımı, canımı qurtar!

55.

Vurub dağıtdığın qəlbi ələ al,
Vurduğun şikarın, gəl, hayına qal!
Təqsiri olmayan Xaqanini sən,
Ya öldür, ya sağ qoy,ya zindana sal!

56.

İçimdə yanğın var, qəlbdə həyəcan,
Qan rəngli odlu bir badə ver, canan!
Elə bir badə ki, içən dəmdə mən,
Od üstə od düşsün, qan üstünə qan.

57.

Ağlımı əlimdən aldı məhəbbət,
Könlümü qəm, kədər eylədi qarət.
Çətindir xəyalə gətirmə vəsli,
Çox az ələ düşər belə səadət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

58.

Gəiclik fələk kimi etməyir dövrəi,
O necə dolansın od sönən zaman?
Onunla pis günüm xoş keçərdisə,
Onsuz xoş günlərim pis keçir, inan!

59.

Badə məclisində məni yad etsən,
Gedər bu qəm-kədər, şadlanaram mən.
Zülmdən əl çəkib, mərhəmətli ol,
Qəlbim azad olsun qəmdən, qüssədən!

60.

Üç busə vəd etdi dünən o canan,
Gecə sübhə kimi yatmadım bir an.
Gündüz görüb dedim: "Əhdə vəfa et!"
Çiyin atıb dedi: "Xam xəyaldasan!"

61.

Qəmin başdan-başa məni yandırdı,
Dərd içrə şam kimi alovlandırdı.
Ağlamaq, sızlamaq bilməzdim, ey dost,
Bunu da həsrətin mənə qandırdı.

62.

Sən Allah, canımı almaq istəsən,
Elə et, azca da inciməyim mən.
Əvvəlcə məst elə dodağlarınla,
Sonra kirpiklə vur nəştərini sən.

63.

Dilbərim, edəndə zülfünü çövkən,
Qəlbimi top kimi atıb tutursan.
Hicrana tapşırma gecələr məni,
Bütün dünya olur gözümə zindan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

64.

Dərvişdə ilahi kəramət vardır,
O bədən mülkündə bir hökmdardır.
Onda qüdrət vardır yerdən göyəcən,
Hər şeyi bilənəkdə o çox pərgardır.

65.

Bəxtim qoymayırsa çatım vüsalə,
Qoy alsın canımı o ləməhalə.
Yarımın yanında olum sağ ikən,
Onsuz qalmaqdansa gəlim zəvalə.

66.

Hər həftə o iki həftəlik qəmər*,
Gəlib Xaqanini yoxlardı səhər.
Məlumdur, zərrədə əks edər Günəş,
Bəs zərrə Günəşə necə meyl edər?

67.

Mən səni gizlicə sevirəm, canan,
Saraltma üzümü, qoy yanmasın can.
İstərəm ki, canım qurbanın olsun,
Razısan, qətlimə özün ver fərman.

68.

Zülfün camalını bəzəyir, ey yar,
Əzəldən müvafiq yaranmış onlar.
Camalın bahardır – gecəylə gündüz,
Həmişə baharda bərabər olar.

69.

Dedin ki, gedirəm, getmə, a canan!
Getsən, bil ki, məni öldürər hicran.
Canım boğazıma gəlib, əmin ol,
Sən çıxıb gedən dəm çıxacaq bu can.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

70.

Gecənin zülmətin qovmuşdur səhər,
Tez ol, dur, şərab ver, sevimli dilbər!
Oyan, aç o nərgiz gözlərini sən,
Əbədi yatacaq bir vaxt o gözlər.

71.

Zəhmətsiz nəsibim olur xoş vüsal,
Sənsiz soruşuram səndən hal-əhval.
Xəyalın önündə xəyalə döndüm,
Nə gözəl birləşir xəyalla xəyal.

72.

Xaqani, olsa da ağlın sənə yar,
Eşq ancaq könlünü qəmdən qurtarar.
Eşq odu varımsa, cəhənnəm heçdir,
Cəhənnəm özü eşq odunda yanar.

73.

Ovçum, Xaqanini etdinsə əsir,
Öldürmə, axı o ölmək istəmir.
Bir quşdur, tutmusan, qanını tökmə,
Ucarsa sən tutub təzədən gətir!

74.

Başımda bir nazlı yar sevdası var,
Ancaq, inadından dönmür o nigar.
Bu gün səhər çağı qarşıma çıxdı,
Dedim: "Əmrin nədir, ey sevimli yar?"

75.

Ürəyim sənindir, quru canam mən,
Mirvari səndədir, boş ümmanam mən.
"Səbirli ol" deyə, halımı pozma,
Elə səbr üzündən pərişanam mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

76.

Ey Dinmə, düzünü yanan əyirsən,
Əhməd Nəsr aslandır, Şətrəbə də mən*.
Quyudan qəsr üstə salIrsan kölgə,
Quyuya salırsan nuru qəsrdən.

77.

Daşlara çarparaq axdıq su kimi,
Döşə tikan yükü taxdıq su kimi.
AxIr vətəndə də dincəlmədik biz,
Getdik, daim önəbaxdıq su kimi.

78.

Aləmi məhv etdi eşqin, a canan,
Hər görən zülfünə bənd oldu, inan.
Xumar gözlərini göräntək, çıxdı
Bayəzid Bəstami ibadətgahdan*.

79.

Ayla Gün üzünə olmuşlar nökər,
Zülfunü etmisən üzünə süpər.
Ürəklər ovlayar pərişan saçın,
Deyəsən, şikara çıxıbdı leşkər.

80.

Bu quru canıma əziz mehmansan,
Canım səninkidir, mənə canansan.
Hər səni ki,örəndə ölüb dirilləm,
Sən mənə həm dərdsən, həm də dərmansan.

81.

Məktubun gələndə gecəydi, ey yar,
Onu oxuyuram hər gecə təkrar.
Onun mənasının nurilə sanki,
Gecə Günəş doğur evimə aşkar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

82.

Günahım olmadan üzr istədim mən,
Yüz dəfə əfvimi dilədim səndən.
Yerinə yetirdim mən öz borcumu,
İstər qəbul elə, istər etmə sən.

83.

Bir pislik etmədim mən o dilbərə,
Günaha batmadım mən bircə kərə.
Günahım yox idi, yüz tövbə etdim,
Baxmadı, son qoydum bu tövbələrə.

84.

Qarşımda həmişə bir Bu - Ləhəb var,
Hər müsbət işə bir mənfi tələb var.
Ağ gündüz önünlə var qara gecə,
Hər qədəm başında bir biədəb var.

85.

Sən haman daşqəlbli gözəlsən, canan!
Əzəlkindən artiq şirinzəbansan.
Min dəfə mən artıq aşiqəm indi,
Sən isə min dəfə çox can alansan.

86.

Hey tənə vurursan mənə, a dilbər,
Canıma əqrəbtək sancırsan nəştər.
Qəmindən ürəyim parça-parçadır,
Od üstən od vurur belə tənələr.

87.

Canıma yeni dərd verir o canan,
Hicr ilə eyləyir qəlbimi şan-şan.
Onda var dünyanı yandıran qəmzə,
Məndəsə fələyi titrədin fəğan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

88.

Xaqanı, nəfsdə təmizsən əgər,
İnanma boynuna bir sillə dəyər.
Xəncərlə kəsilsə boynun, yaxşıdır,
Sillə vurmaqdansa sənə bir nəfər.

89.

Aşiqin siması saralmalıdır,
Arabir üzünü tər almalıdır.
Qoynuna ay üzlü nigar alanın,
Cibində bir qucaq zər olmalıdır.

90.

Sənin məclisindən qalmışam kənar,
Mey kimi qanıma qərq olmuşam, yar!
Sən mey məclisində şənsən, bilirəm,
Mənsə qan içində, işim ahüzar.

91.

Düşürsən cürbəcür xəyalə hər gün,
Cırırsan get-gedə səbir örtüyün.
Bildim ki,zərrəcə gəlməzsən rəhmə,
Onunçün mən səni atdım büsbütün.

92.

Xəyanət də oddur, diqqətlə baxsan,
Xainlər qurtarmaz canını oddan.
Bircə qırılcımdan alışar xırman,
Bircə xəyanətlə od tutar cahan.

93.

Zülm etdin sən mənə bu qədər, bəsdir*
Bəsdir elədiyin sitəmlər, bəsdir.
Zülmündən halıma daşlar ağladı,
Ey daşqəlbli qatil, di yetər, bəsdir!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

94.

Qulağım səsdəydi, xəbərsiz qaldı,
Vəslin gözlərimi nəzərdən saldı.
Könlüm xislətini düşmədi başa,
Yorulub, min cürə xəyala daldı.

95.

O pəriüzlüyə olub vəfadar,
Başqa gözəllərdən qaçmışam kənar.
Sərçətək dən tələb etmərəm, çünki,
Hüma adı qoymuş mənə o dildar.

96.

Bir an əl çəkmirsən yenə zülmündən,
Səndən heç mərhəmət gözləmirəm mən.
Mən necə bir öpüş tələb edim ki,
Bilirəm, üzrlə rədd edəcəksən.

97.

Bizə gözmü dəydi yoxsa, a dilbər,
Yenə də üz verdi ayrılıq, kədər.
Dilimiz bağlandı, nitqimiz susdu,
Dərddən lalə kimi dağlandı cigər.

98.

Xaqani əl çəkdi sevimli yardan,
Özütək işi də olmuş pərişan.
Pərvanə Günəşə can atır, lakin,
Özünü çırağa vurur hər zaman.

99.

Dad çəkdim hicrindən, xasiyyətindən,
Sənin əllərində aciz oldum mən.
Nə əlin mey verdi, nə gözün güldü,
Ancaq əzab verdin ömür boyu sən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

100.

Ey könül, o şuxdan olmaz sənə yar,
Onun sevgisinə yoxdur etibar.
Dilinə gətirmə heç yar sözünü,
Onu at, bəladan canını qurtar!

101.

Ləbindən öpməyə məndə yox həvəs,
Öpmüşdür onları axı başqa kəs.
Dodağın dirilik suyu olsa da,
Xızr ona dəymişdir, karıma gəlməz.

102.

İşi kələk olan bir para adam,
Şəriət qanunun dəyişər tamam.
Lakin, heç dəyişməz qəzanın işi,
Onlar çalışsa da hər səhər-axşam.

103.

Ürəklər saçının əsiri olar,
Cadugər gözlərin canları alar.
Uzun gecələrdə mənim ürəyim,
Zülfünün ucunda hey təbil çalar.

104.

Nurlandı qızılgül şamlarıyla bağ,
Lalə məşəlilə qızardı çöl, dağ.
Bir odlu yanağın şəfəqləriylə,
Gözümün çırağı işıqlandı, bax.

105.

Şam ürək oduyla alışan zaman.
Başı bədənini əritdi haman.
Pərvanə odlanan görəndə şamı,
Yandınb özünü elədi qurban.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

106.

Məclis al şərabla tez işıqlanar,
Badəylə göz gülər, üz işıqlanar.
Meysiz gil qədəhi istəyən olmaz,
Mey ilə ürəkdə söz işıqlanar.

107.

Ey könül, qızıldan qədəh istəməm,
Saxsı piyalə ver, yox olsun bu qəm.
Qəbrimin üstündə tikan bitməmiş,
Doldur piyaləmi meylə dəmadəm.

108.

Pərvanə eşqdən tutunca xəbər,
Alışdı atəşdə o, axşam, səhər.
Şam ilə bir yerdə yandı pərvanə,
Aləmə yayıldı ondakı hünər.

109.

Al şərab yaxşıdır qəmlənəndə sən,
O zaman mey dostdur, ağılsa düşmən.
Ömrün ki, cilovu əlində deyil,
Çalış ki,yəhərdən tez düşməyəsən.

110.

Ey gözəl, gecədir, bəs vəslin hanı?
Yolunu gözləyir dərdli Xaqani.
Gəl, sənə söyləyim dərdimi bir-bir,
Gəlməsən, yandırram bütün cahanı.

111.

Güldü xəyalınla könül çəməni,
Güzgü cilalandı görəndə səni.
Səhərin dodağı əbədi gülər,
Görəndə könlümdə bitən süsəni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

112.

Kimin ibadətdə yoxsa qüsuru,
Parlayar üzündə səadət nuru.
Xalq onun üzünə hörmətlə baxar,
Artar xalq içində onun qüruru.

113.

Çətinsə həyatda vüsalın əgər,
Xəyalın Xızrtək düz yol göstərər,
Gecəli, gündüzlü səni istərəm,
Şahiddir sözümə Günəşlə ülkər.

114.

Zülfün bənövşəni saldı torpağa,
O, qulluq halqası taxdı qulağa.
Zülfünə qul olcaq, şərəfi artdı,
Şöhrəti yayıldı çəmənə, bağa.

115.

Ey tərsa gözəli, ey ruh bəxş edən,
Sənə adi sənəm ad vermərəm mən.
Sitəmin tük kimi incəltdi məni,
Lap tükə dönmüşəm "moyi" deməkdən*.

116.

Xaçpərəst, ağbəniz yarın eşqilə,
Danışdım Abxazda gürcücə belə:
O qədər mən ona "moyi" dedim ki,
Döndü dilim tükə, hər tüküm dilə.

117.

Xaqani, sən adi piyadasan, bil,
Yeddi ev keçməyin çox asan deyil*.
Keçsən də, çox çətin vəzir olasan Ki,
yolu kəsmişdir bir qoşun qatil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

118.

Dostuna söz verdin, əməl et hər an,
Əhdini, əzizim, pozma heç zaman.
Hər nəfəs aldıqda allaha şükür et,
Ta kərəm göstərsin sənə Yaradan.

119.

Məhəbbət yarası aldıqda ürək,
Ahımdan, naləmdən titrədi fələk.
Sillələr zərbindən gül rəngli üzüm,
Göyərdi səmatək, saraldı Aytək!

120.

Ürəyim yüz para olmuş qəmindən,
Şadlığa, fərəhə həsrət qaldım mən.
Nəciyəm, mən sənin dərdinlə ölüm?
Şirləri tülküyə döndərmisən sən.

121.

Vəfa axtarırdı bu yazıq ürək,
Yolunu azmışdı, arardı kömək.
Özünə istərdi tapsın bir həmdəm,
Bəlxdə çıraq tutub gəzən çinlitək.

122.

Qəlbdə təzə qəmlə köhnə dərdim var,
Onlar bircə sözlə olur aşikar.
Nə qədər mən sağam, atmaram səni,
Ölərsəm, sən özün bilərsən, ey yar!

123.

Üzüldü vəslinə can atan bu can,
Səbrim də tükənib qurtardı, inan.
Zəni etmə: ürəkdən dərdim yox olmuş,
Əzmişdir ruhumu tükənməz hicran.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

124.

Çəkiləu qüssəyə dəyməz bu dünya,
Min əzaba dəyməz bir vüsal əsla.
Yazıq bir piyadə vəzir olmaqçın
Sürünə-sürünə gedir az qala.

125.

O vaxt ki, cavandım, odluydu ürək,
Mən də fədakardım bir pərvanətək.
Pərvanə odlandı, atəşim söndü,
Bizdən torpaqla kül qaldı bir ətək.

126.

Canım qəm yükünü çəkdi neçə il,
Güzgüyə baxmaq da mənə xoş deyil.
Ovçum, bəlkə məni sevdiyindəndir,
Qəfəsdə saxlayır belə müttəsil.

127.

Xosrovun gözütək bəxt yuxuludur,
Şirinin ləbitək gözüm suludur.
Məcnunun canıtək bu dərdli canım,
Leylinin qəlbitək qəmlə doludur.

128.

Qəm odu ciyərin suyunu aldı,
Ciyərim yandıqca səbrim azaldı.
Deyirlər: "Səbr ilə ciyər sağalar".
Səbrim də ciyərlə yanıb qaraldı.

129.

Odlu göz yaşlarım axar hər zaman,
Odla su içində yatıram, inan.
Eşq odu suyumu buxar etsə də,
Safam sutək yenə eşqdə, canan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

130.

Xaqani, ümidin kəsildi əlbət,
Heç kəs daha sənə eyləmir hörmət.
Biganə oldular göhnə dostların,
Yeniyetmələrdən umma məhəbbət.

131.

Ömrüm hədər getdi, çatmadım kama,
Köməksiz düşmədi işim nizama.
Sən mənə nə kömək edə bilərsən,
Ömrü qaytaramu fələk adama?

132.

Nə ov iti kimi cumursan belə,
Tülkütək qurursan hər kəsə tələ.
Başın açılmayır kef aləmindən,
Qorxuram, ömrünü verəsən yelə.

133.

Gəncliyim qüssədə, ələmdə keçdi,
Günlərim, bilirsən, nə qəmdə keçdi.
Dostların ölümü belimi bükdü,
Ömrüm mərsiyədə, matəmdə kecdi.

134.

Xaqaninin qəlbi qəmlə odlandı,
Səbir de bu odda alışıb yandı.
Yanan görən zaman şamı pərvanə,
Ona həmdəm olub, bir alovlandı.

135.

Təzədən qövr etdi yenə göhnə qəm,
Ürəyim bu dərdə tapmadı məlhəm.
Sağlamlıq axtardım, tapa bilmədim,
Dünyada rahatlıq görmədim bir dəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

136.

Heç oldu varlığım, heç oldu həyat,
Bu ev də, bu fərş də heç oldu, heyhat!
Nisyə, nəqd, nə varsa, cavanlığımdı,
Hamısı heç oldu, ey dadü-bidad!

137.

Gör necə bəlayə düçar olub can?
Qəza ox yağdırır başıma hər an.
Deyirlər: "Nə üçün nalə edirsən?"
Necə ağlamasın bu dərdlə insan?

138.

Sən getdin, könlümə doldu kədər, qəm,
Gözüm yolda qaldı, tapmadım həmdəm.
Demirəm: sən şərab içmə, iç, fəqət,
Əndazə bilən bir saqiylə hərdəm.

139.

Ahım üfüqləri tutmuş sərasər,
Ahımdan dumana bürünmüş göylər.
Ümid ayağına batar hər tikan,
Ömür şüşəsinə daim daş dəyər.

140.

Xaqani dünyadan, de, nə aldı? - heç.
Ya da əllərində, de, nə qaldı? - heç.
Bir şadlıq şamıdır, sönsə, heç olar,
Bir Cəmşid camıdır, sınsa, oldu heç!

141.

Cavanlıq gecəmin sabahına bax,
Yansı qapqara, yarısı dümağ.
Çəkdiyim bu soyuq nəfəs, deyəsən,
Axırda başıma qar yağdıracaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

142.

Qurtarmaq çətindir bu dərd əlindən,
Birləşə bilməzsən təzə ayla sən.
Huridən, pəridən vüsal gözləmə,
Yaxşılıq gözləmə belələrindən.

143.

Bu bənd ki, vurdular qəlbimə mənim,
Lağımdır, qəlbimə atmış düşmənim.
Səbri tükənən bir ürək məhv olar,
Dayaqsiz çadıra dönmüş bədənim.

144.

Canıma od vuran məhəbbət budur,
Mənə qan udduran o afət budur.
Dərd hesab etmirəm bu dərdləri mən,
Dərdimi yar bilmir, əsil dərd budur!

145.

Xaqani, həyatın əsasıdır qəm,
Xeyr ilə, şər ilə doludur aləm,
Can əzəl,sitəmlə bədənə gəlmiş,
Bədəndən çıxarar yenə də sitəm.

146.

Ey saqi, dəyişməz rəngim heç zaman,
Ürəkdən nalələr ucalır hər an.
Şərabı ya az ver, ya çox, nə xeyri,
Hərlətməz bu daşı o selin, inan!

147.

Qəlbimin dərdinə dəva ediniz,
Məni o dilbərə fəda ediniz!
Məcnunəm, səhrayə qaçmaq istərəm,
Məni zəncirləyib, rüsva ediniz!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

148.

Qaç paxıl, yalançı adamlardan sən,
Qaç südə su qatan hər hiyləgərdən.
Yalançı sübhün də işığı olmaz,
İmana nur çatmaz belə səhərdən.

149.

Ömrümün bağında becərildi qəm,
Qalmadı nə sərvim, nə də ki, laləm.
Dərd ilə sovruldu xırmanım tamam,
Məhv oldu sünbülüm samanla bahəm.

150.

Ulduzdan parlaq bir mirvarim vardı,
Günəşdən daha çox işıq saçardı.
Əlimdən qapdı tez bu zalım fələk,
Göylərin tacına töhfə apardı.

151.

Odlara salma bu yazıq bədəni,
Həyamı aparıb, xar etmə məni.
İndi ki, əlindən yaxşılıq gəlmir,
Barı pislik edib, incitmə məni.

152.

Tapanda ariflər yanında mənzil,
Eşqin göməyilə həll olar müşkül,
Mən qəmdən nə edim şikayət, çünki,
Dərd-qəmlə doludur bu yazıq könül.

153.

Xaqani hünərə şanlı soltandı,
Şam kimi o qızıl kürsüdə yandı.
Canım əritdi öz atəşilə,
Göz yaşı içində yanıb, odlandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

154.

Xaqani nə etsin, çəkməsin dərd, qəm?
Onun ələminə vaqifdir aləm.
Şamın da başı od, canı pambıqdır,
Başı bədənini əridir hər dəm.

155.

Xaqaninin dərdi gözlərdən pünhan,
Can - xəstə, göz - yaşlı, ürəksə - al qan.
Qoy olsun işvəkar yarın vəslinə,
Can - töhfə, göz - müjdə, ürəyim - qurban.

156.

Hanı ürəyimin dərmanı zəhər?
Hanı həyatıma son qoyan xəncər?
Hanı o zərbə ki, məhv etsin məni?
Könlüm nagəhani bir ölüm istər.

157.

Qəm odu il boyu yandırır, aman,
Su dəyən od kimi edirəm fəğan.
Torpağın üstündə əsirəm yeltək,
Küləklə sovrulur torpaq kimi can.

158.

Dərdim var ki, sonsuz səmayə sığmaz,
Naləm hər ucalan nidayə sığmaz.
Dedin: "Axı, nədir dərdin dünyada?"
Elə bir dərdim var, dünyayə sığmaz.

159.

Ürəkdən yanıqlı fəğanə gəldim,
Ahımın oxuyla sinəni dəldim.
Boş yerə dolandım Ayla Gün kimi,
Gündüzlü-gecəli endim, yüksəldim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

160.

Ey edən könlümü qəmlərə məskən,
Könlümün bağında qəm açdı süsən.
Qəm ilə üzbəüz gələndən bəri,
O mənə düşməndir, mən ona düşmən.

161.

Hardasan, ey mənim itən mirvarım?
Səni necə tapım, sevimli yarım?
Kimdən bircə-bircə soruşum səni?
Dünyanı gəzməyə yox iqtidarım.

162.

Getdi göz yaşımı tökən o dilbər,
Getdi canı qurban etdiyim sərvər.
Ürəksiz, cansız bir vücudam indi,
Nal salan köhlən at necə yol gedər?

163.

Görürəm, üzünü hərarət alır,
Əqrəbin içində ayın saralır*.
İsa sehri varsa dodağlarında,
Neçin bəs canında qızdırma qalır?

164.

Hüsnün gözəlləri salır həycana,
İşvəkar gülüşün ruh verir cana.
Qəlbimin dərdinə dərman dişlərin,
Nədən möhtac olub indi dərmana?

165.

Ətirli nəsimlə gəldi novbahar,
Bəs neçin bir nəsim göndərmir o yar?
Dərdə bax, qönçələr pardaqlananda,
Pərdəyə büründü gül üzlü nigar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

166.

Başıma-od tökür könlüm, bir də sən,
Yolumda tor qurur könlüm, bir də sən.
Can getdi zülmünlə, könlümü atma,
Mən getdim, dur-otur - könlüm, bir də sən.

167.

Yarım gəmidədir, əsir ruzigar,
Gözlərim yaş töküb, dəniz yaradar.
Qəribə hal vardır onunla məndə:
Yel mənim əlimdə, yel əlində yar*.

168.

Yolunda qılıncla öldürülsəm mən,
Xoşdur bunu əgər sən istəyirsən.
Ayağım onunçün dərdə düşüb ki,
Ayrıla bilməyim bir daha səndən.

169.

Yar getdi, könlümü verdi hicrana,
Hicransa od saldı bu yazıq cana.
Elə uçuqlatdı dodağımı ki,
Yara həsrət qalım mən yana-yana.

170.

Ey fələk, ayımı səfərdən döndər,
Qoy yolda fikrini dəyişsin dilbər.
Bir-bir eşit mənim ürək arzumu,
Sonra gedib yardan tez gətir xəbər!

171.

Eşitdək - şirləri yıxan ceyranım,
Yas tutmuş, qalmadı canda tavanım.
And olsun cananın canına, sanki,
Qəlbimin yasına qərq oldu canım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

172.

Ay üzlüm, gəmidə qorxu çəkən mən,
Gəmitək çalxanıb, titrəyir bədən.
Külək bir şad xəbər gətirsə ondan,
Quruyar göz yaşım, könlüm olar şən.

173.

O xumar gözlərin necədir, canan?
Varmı badamında püstə kimi qan?*
Necəsən, gözağrın keçdimi indi?
Ey mənim günəşim, dərdimə dərman!

174.

Bilirsən, nə üçün Qəffardır Allah?
Yəni, əfv edəcək kim etsə günah.
Sən ki, cahillikdən günah etmədin,
Əfvdən məhrumsan, yazıq, ol agah!

175.

Dün gecə ləbini dişlədim, canan,
Ondan isitməyə düşdü bu gün can.
Dişim dodağına toxunduğuyçun,
Odun dodağımı yandırmış, inan.

176.

Xaqani, rahatlıq yoxdur dünyada,
Fələklə vuruşan çatmaz murada.
Cəmşidə qalmayan bu qoca dünya,
Nə eybi, qalmasa bir yoxsula da.

177.

Xaqani, itibdir can da, ürək də,
Çətindir rəhm ola zalım fələkdə.
Ya çoxlu duz olar, ya heç duz olmaz,
Onun bişirdiyi hər bir xörəkdə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

178.

Fələkdən yaxşılıq görməmiş bir kəs,
Ondan xoşluq umma ömrünə əbəs.
Kül olsun fələyin başına, özü,
Başına tökülən gülə də dəyməz.

179.

Xaqani, bu bəla yurdunu at, get,
Bu qəm ocağını söndürüb, şad get.
Bənd etmiş səni bu fələk verən can,
Canını fələyə qaytar, azad get!

180.

Xaqani, tükənməz zülmü fələyin,
Gör, necə olmuşdur əhvalın sənin:
Bənzərsən bir hamam qazanına ki,
Suyu gözün verir, odu ürəyin.

181.

Sarımsaq kimi ol - dərdlərə dərman,
Qəlbinin oduyla soğantək odlan!
Xaqani, içində coş tərə kimi,
Keşniştək sözünə ləzzət ver hər an.

182.

Buğdayı sifətin behiştə bənzər,
Aşiqlər Adəmtək dövrəndə gəzər.
Buğdaya dəyməmiş Xaqani əli,
Cənnətdən qovdular onu bixəbər.

183.

Əzablar içində ömr oldu yarı,
Sonra fələk verdi mənə dildan.
Ey fələk, nə miniət qoyursan mənə,
Ömrümü almamış vermədin yarı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

184.

Biz ki,mədrəsədə qələt dərs aldıq,
Mənaya çatmayıb, ləfzdə qaldıq.
Eşidən gülər bu uydurmaya ki,
Nöqtəni misratək hesaba saldıq.

185.

Xaqani, qəlbinə dağ basmış fələk,
Duzsuzdur dünyadan aldığın çörək.
Hər şey əyridirsə, bəs düzlük nədir?
Düzlüyü, faydanı bəs kimdən görək?

186.

Bir ayda taparaq bir-iki imkan,
İstəsəm görüşəm yarımla bir an.
Fələk qoşun çəkib, kəsər yolumu,
Yaradar qəm dolu kədərli hicran.

187.

Fələk bu taleyi düzəltsə əgər,
İtən ürəyimdən gətirsə xəbər.
Qəlbimdən söndürsə hicran odunu,
Vüsalə qovuşub sağalar ciyər.

188.

Fələk Xaqanini buladı qana,
Ayımı bürüdü qatı dumana.
O dodaq ki, onu hər gün öpərdim,
Bu gün torpağında gəldim fəğana.

189.

Ey fələk, vurmuşsan qəlbimə nəştər,
Ey şənlik badəsin qıran hiyləgər.
Zülmünün müddəti sonsuzdur, lakin,
Mehrinin növbəti bircə an qədər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

190.

Uzaq ol zəmanə adamlarından,
Bu müdrik sözləri unutma bir an!
Saat şüşəsitək saf olsalar da,
İçləri toz ilə doludur, inan.

191.

Hər gün fələk mənə verir yeni qəm,
Edir alçaqların əlilə sitəm.
Səfil adamların göməyidir o,
Pay üçün mən səfil olmaq istəməm.

192.

Sözdə misilsizsə Xaqani əgər,
Ona alçaqlardan zərbələr dəyər.
Şöhrəti başına bəladır, çünki,
Hünər sahibinə zəhərdir hünər.

193.

Deyirlər: hər min il bu qoca dövran,
Yaradar vəfalı, müdrik bir insan.
Birin yaratmışdır biz doğulmamış,
Birin də yaradır biz ölən zaman.

194.

El səni çox sevər, lovğalanmasan,
Elinə xeyir ver, çəksən də ziyan.
Xurma ağacıtək paltarını at,
Torpağa dayanıb yüksəl hər zaman.

195.

Xaqani, uzaqlaş namərd adamdan,
Həmişə mərdlərin yanında dolan!
Yarıma pərvanətək çıraq oduna,
Zanbaqtək Günəşdən işıq al hər an.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

196.

Kim malü dövlətlə etsə iftixar,
Şübhəsiz, nəzərdə hörmətsiz olar.
İndi ki, özünə gülmüşdür tale,
Dünyada maldan çox səadət axtar!

197.

Ömür ötüb keçdi bir kam almadan,
Yarın vüsalına tapmadım imkan.
Hardadır, qoy gəlib öz ayağını,
Gözümün üstünə qoysun o canan!

198.

Ey bəxti xoş olan, zəkası kamil,
Bu dünya malına, gəl, olma mayil!
Sabah bədənindən çıxan kimi can,
Düşmənlər malını dağıdacaq, bil!

199.

Xaqani, kim sənə eyləsə sitəm,
Sən ona yaxşılıq elə dəmadəm.
Yaxşılıq elə bu dünya əhlinə,
Əgər bilməsə də qədiri aləm.

200.

Təkəbbür göstərib, fəxr etmə, aman,
Təkəbbürlə çatmaz murada insan.
Gözəlin saçına bənzə, əzizim,
Hər görən ürəyi tez ovlayasan.

201.

Vurma Xaqaniyə acı tənələr,
O, səndən nə qorxur, nə qaçmaq istər.
Ölməkdən, yanmaqdan çəkinməz əsla,
Hanı od, hanı o zəhərli xəncər?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

202.

Tüstün öz bacarıdan çıxacaq bir gün,
Quşun yuvasından ucacaq bir gün.
Deyək, dostun üçün yaşadın yüz il,
Ölüm düşmən üçün yıxacaq bir gün.

203.

Ey Allah lütfilə var-dövlət tapan,
Hərdəm, bir yazığa rast gələn zaman,
Gərəkdir sən ona kömək göstərib,
Edəsən könlünü bir az şadiman.

204.

Kişiyə şərəfdir bilik, etibar,
Hörmət təvazölə olar bərqərar.
Özünü çəkənlə oturma, bil ki,
Həmişə yüngül şey yüksəkdə olar.

205.

Ey qəlbi nur alan bir mərifətdən,
Günahla özünü salma hörmətdən.
İmana qəsd edir nəfsin, ayıq ol,
Özünü qoru sən bu qəbahətdən.

206.

Baxsa üzünə ay necə etməz heyrət,
Aşiqləri etdin yuxuya sən həsrət.
Göylərdə günəş qısqanaraq söylər ki,
Yandın oda mən bəs su hanı, ey afət.

207.

Züniardı xətin, üzün Məsih bayramı,
Ənbər saçına qurban edər can hamı.
Könlüm mənim od, saçın çəlipa olsun,
Kuyində əgər olsa sədə axşamı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

208.

Nur saçdı üzün göydə günü sındırdı,
Tər basdı, xəcalət belini lap qırdı.
Sarsıldı, xəcil oldu, Qərbə üz tutdu,
Yas paltarı geydi, onu qəm yandırdı.

209.

Xaqani, sənə, düzdür, ağıl heyrandır,
Həmdərdin olar, eşqə qul olan, can yandır.
Eşqin odu var səndə cəhənnəm neylər?
Yanmışdır o od odunla, bu, candandır.

210.

Könlümdə bir od var onu tutmaz göylər,
Qəlbimdəki dərdi de necə dil söylər.
- Dünyada - soruşdun - nə qəmin, dərdin var?
- Bu dərdimi dünyaya desəm dərd eylər.

211.

Zər yox, elə gil qədəh gətir, ey könlüm,
Batdım qəmə, qurtar məni bir, ey könlüm.
Qəbrimdə tikanlar bitəcək bir gün, gəl,
Gülgün meyi gil qədəhdə ver, ey könlüm.

212.

Alçaqlara olmuş bu cahan bir meydan,
Hər yerdə yetirməz nəcib insan dövran.
Xaqani, bu dünyada sən insan gəzmə,
Yollarda oturma, hələ gəlməz karvan.

213.

Bir bax, necə bu rafizilər şeytandır,
Gör bir necə bidin, necə bimandır.
Əhdində vəfa, sözündə düzlük yoxdur,
Xaqanini xariçi bilir, nadandır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

214.

Dünyada bilirsən nə götürdüm? Heç nə.
Dövrandan ələ mən nə gətirdim? Heç nə.
Şadlıq şamıyam, heç nəyə döniom sönsəm,
Cəmşid camıyam, sınanda gördüm heç nə.

215.

Xaqani, əgər olsa nəsibin himmət,
Axtarma hər alçaq kimi sən var-dövlət.
Düz get yolunu, olma, ey aqil, fərzin,
Mümkünsə piyada ol, yolu sən düz get.

216.

Xaqani, tutub dünyanı bidad, yeri,
Tərk et bu kədərxanəni sən şad yeri.
Can verdi fələk sənə, səni qul etdi,
Qaytar sən onun borcunu azad yeri.

217.

Xaqani, cəfa görsən əgər hər kəsdən,
Pisliklə ona vermə cavab gəl qəsdən.
Burda elə iş tut ki, cahan əhliylə,
Qəm çəkmə özün görəndə hər nakəsdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞƏRHLƏR

Səh. 22.

Dörd hambal belindən atır yükünü...

Dörd hambal - orta əsr fəlsəfəsinə görə varlığın əsasını təşkil edən dörd ünsür: su, od, torpaq və hava.

Misranın məntiqi mənası dünyanın dağılmasını ifadə edir.

Səh. 22.

Göy atı tərk edir göyün tağını,
Salır həm nalını, həm dırnağını.

Göy atı - Günəşə işarədir.

Beytin məntiqi mənası fələklərin dağılmasını ifadə edir.

Səh. 23.

İndi din göyündə Dəccallar çoxdur,
Heyif ki, xilaskar bir Mehdi yoxdur.

Dini xurafata görə dünyanın sonu çatanda *Dəccal* adlı təkgözlü bir naxələf meydana atılıb xalqı fitnə-fəsad yoluna aparmağa çalışdıqda, guya, qeyb olmuş 12-ci imam Mehdiyi-axirəzzəman zühur edib onu öldürəcək və xalqı fəlakətdən xilas edecəkdir.

Beytin mənası: Zəmanədə *fitnə-fəsad* törədənlər çoxdur, lakin, insanları bu fəlakətdən qurtaran bir adam yoxdur.

Səh. 25.

Bir möhnət odudur cana simü zər,
Düz olar, qızıla deyilsə "azər".

Azər - od, zər isə qızıl deməkdir.

Göründüyü kimi, bu iki söz arasında oxşarlıq var. Burada Xaqani qızılı - zəri möhnət atəşinə - azərə bənzədir.

Səh. 25.

Zərdüştün adının əvvəlidir zər,
Zərə səcdə edir atəşpərəstlər.

Zərdüşt oda sitayiş edənlərin peyğəmbəridir. O, eramızdan əvvəl yaşamışdır.

Göründüyü kimi onun adı *zər* sözü ilə başlanır. Xaqani atəşpərəstlərin eyni zamanda zərə - qızıla sitayiş etdiklərini nəzərə çarpdırır.

Səh. 25.

Tamah dəmirindən geyinsən paltar,
Qızıl paltarına miqnatis olar.

Xaqani demək istəyir ki, tamahkar adamları qızıl özünə daha çox cəzb edər.

Səh. 26.

Çoxdan öyrənmişəm büt qırmağı mən,
Qaçmışam atəşə baş əyənlərdən.

Büt sındırmaq - İbrahim Xəlilullah peyğəmbərə isnad edilir. Xaqani demək istəyir ki, o, atəşpərəstlikdən üz döndərib, bütpərəstliyə də nifrət edir. Yəni, İslamı əsas din kimi qəbul edir. Bu beytdə Xaqaninin adının İbrahim olmasına da işarə vardır.

Səh. 26.

Altıbaşlı dünya arzular insan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızıl yeddibaşlı ilandır, ilan.

Altıbaşlı dünya dedikdə, Xaqani altı cəhəti nəzərdə tutur ki, bu da yenə dünya deməkdir. *Yeddibaşlı ilan* qədim Azərbaycan əfsanələrində bədii surət kimi istifadə edilmişdir ki, o da insanları udan yerə (qəbrə - ölümə) işarədir. Yerin yeddi qat olması fikri də bununla bağlıdır.

Səh. 26.

Pars odu püskürür dodaqlarımdan,
Edib hind xəncəri qəlbimi şan-şan.

Pars odu - atəşpərəstlərin oduna işarədir. Yəni, Xaqani "ahım odludur" deyir. *Hind xəncəri* də onun qəlbini yaralayan qara bəxti, kədəri ifadə edir.

Səh. 26.

Başıma bir çəkic zərbəsi dəydi,
"Əlif" qamətini "mim" kimi əydi.

Klassik ədəbiyyatımızda çox zaman qamət ərəb əlifbasında düz duran əyilməyən *"əlif"*hərfinə oxşadılır, əyri bel isə "mim" hərfinə bənzədirlər.

Burada Xaqani düşmənlərin zərbəsilə öz qəddinin əyilməsini "əlif"in "mim"ə dönməsi kimi ifadə etmişdir.

Səh. 27.

Yüksəlir göylərə, o, zəncir təkin,
Keçir ayağına Bənatin-nəşin.

Xaqani ağzından çıxan ahların halqa-halqa göyə yüksəlib, Yeddibacı ulduzunun ayaqlarına keçdiyini nəzərə çarpdırır. Yəni, onun ahları göylərdə ulduzlara qədər yüksəlir.

Səh. 27.

Ey yeddi çəmənə yaşıllıq verən,
Ey, altı gəlini al bəzəndirən.

Burada - *yeddi çəmən* ərzin orta əsrdə bölündüyü yeddi iqlimə işarədir. Altı gəlin isə altı cəhəti ifadə edir.

Səh. 29.

Bədənim dərd üçün bir kor quyudur,
Bir dəmir dağıdır, qürurla durur.

Beytin mənası: bədənim dərdlərlə dolu olduğu halda o, dəmir dağı kimi bu ağırlığa dözür və öz qürurunu itirmir.

Səh. 30.

"Bir" gəlib "min" olar, əgər onu sən,
Yerindən üç xana sola köçürsən.

Məlumdur ki, bir rəqəmini üç xana sola çəkəndə o, minlik xanasına düşür. Xaqani burada "birə-min artar" ifadəsinin bir rəqəminin yerini dəyişməklə əmələ gəldiyini göstərir.

Səh. 30.

Piyadan keçdimi yeddi xanəni,
Udmaq çətin olar, çox güman, səni.

Şahmat oyununda piyadanın taxta üzərində *yeddi xana* keçib, səkkizinci xanada vəzir olduğuna işarədir. Bu zaman, şübhəsiz ki, hərif oyunu uduzmuş olar.

Beytin mənası budur ki, əgər sən yeddi təbəqədən ibarət olan dünyanı ötüb keçsən, ali məqsədə çatmaq, çətinliyə qalib gəlmək olar.

Səh. 30.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mustafa torpaqda yatdığı üçün...
Mustafa – Məhəmməd peyğəmbər.
Səh. 30.
Dördüncü iqlimə çatdır özünü...
Dördüncü iqlim - İraqa işarədir.
Səh. 30.
Dördüncü növbədə yarandı insan,
Sırada dördüncü kitabdır "Quran".

Bu və bundan əvvəlki beytlərdə Xaqani dörd rəqəminin şərafətindən bəhs açır. O, dörd ünsür, dördüncü göydən bəhs etdikdən sonra, məxluqatın ən şərəflisi olan insanın nəbatat, cəmadət və heyvanatdan sonra yarandığını, "Quran"ın 4-cü müqəddəs kitab olduğunu qeyd edir və buradan nəticə çıxararaq 4-cü iqlimə düşən İraqı tərifləyir.

Səh. 31.
Dövrün əmirinin fərmanıyla mən,
Nəhayət, qurtardım Şirvan bəndindən.

Dövrün əmiri Şirvanşah Axsitan, *Şirvan bəndi* isə şah sarayıdır. Bu və bundan sonrakı beytlərdə Xaqani özü Şirvan deyil, Şərvan demişdir.

Səh. 32.
Torpağı İsaya tutiya verər,
Daşları Musaya kimiya verər.

Bu beyt məşhur dini əfsanə ilə bağlıdır. Məlum olduğu üzrə, *İsa peyğəmbər* guya korun gözünü açmışdır. *Musa peyğəmbərin* isə əli işıq vermişdir. Xaqani burada Qohesfan torpağının bərəkət qüdrətini göstərmək üçün onun İsanın gözlərini işıqlandıra biləcəyini, Musanı özünün möcüzəsi ilə heyran edəcəyini nəzərə çarpdırmaq istəyir.

Səh. 32.
İki top qoymuşdur Xuzistana o,
Üç zərbə vurmuşdur Hindistana o.

Burada şahmat oyunu nəzərdə tutulur. Məlumdur ki, şahmatda iki topun dal-dala durması düşmən üçün boyük təhlükə yaradır, xüsusilə düşmənin eyni xanasına *üç zərbə* yönəldilərsə, bu təhlükə bir az da artır.

Burada Xaqani, şahmat oyununa yaxşı bələd olduğunu göstərməklə bərabər, Qohesfanın Xuzistan və Hindistandan daha məhsuldar olduğuna işarə edir.

Səh. 33.
Həm oddur, həm sudur onların dili.

Xaqani Qohesfan əhalisini iki dilli (iki üzlü) adlandırır.

Səh. 33.
Samirilər kimi danışan zaman,
Od, alov püskürür ağızlarından.

Samirilər - Musa peyğəmbərin əleyhinə gedən Samir adlı yalançı və hiyləgər bir qoşun başçısının tərəfdarla.

Səh.34.
Bir zərrə qədərdir yarımda Seyhun,
Bir korun göz yaşı qədərdir Ceyhun.

Seyhun və Ceyhun - Orta Asiyada qoşa çay adıdır. Xaqani İraqda axan çayı tərif edərkən onu Seyhun və Ceyhun çaylarından daha şərafətli sayır.

Səh.34.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu hüma üzlünün ördəyi, sən bil,
Simurğun özündən heç kiçik deyil.

Xalq nağıllarında *hüma* mifik səadət quşu, *ünqa ya Simurğ* - müdrik xilaskar, əfsanəvi quşdur.

Xaqani İraqda axan çaydakı ördəyi bu əfsanəvi quşlardan üstün tutmaqla, onu mübaliğəli surətdə tərifləmək istəmişdir.

Səh.34.

Olur qulaqlarda Barbəd nəğməsi.

Barbəd - Sasani şahlarından Xosrov Pərvizin məşhur çalğıçı və xanəndəsidir. Firdovsinin "Şahnamə"sində və Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında onun sənətkarlıq qüdrəti geniş təsvir edilmişdir.

Səh. 34.

Balıq tutmaq üçün gələr Süleyman,
Onları qızardar Məsihlə Rizvan.

Süleyman - məşhur ecazkar Süleyman peyğəmbər, *Məsih* - İsa peyğəmbər, Rizvan isə behiştin qapıçısının adıdır.

Beytin məzmunu yenə İraq çayının mədhi ilə bağlıdır.

Səh. 34.

Ya hərf üzərində sükundu guya.

Ərəb əlifbasında səsli hərflər yoxdur, onlar işarələrlə göstərilir və əksər halda onlardan istifadə olunmur. *Sükun* - durğu və ya səssizlik işarəsidir ki, xüsusilə, bu işarədən heç istifadə edilməz.

Xaqani bu misrada dünyanı gərəksiz sükun işarəsinə oxşatmışdır.

Səh. 34.

"Əl-əbdü" deyərdi qullar sayağı.

Əl-əbdü - mən qulam deməkdir.

Səh. 34.

Yerin sakit yatan öküzü, budur,
Onun fərmanının bir sübutudur.

Dini əfsanəyə görə guya Yer kürəsi bir öküzün üzərində, öküz bir balıq üzərində, balıq isə sonsuz bir dəryadadır. Guya öküzün bir tükü tərpənərsə, yerdə zəlzələ əmələ gəlir.

Xaqani demək istəyir ki, Xəlifənin hökmranlığı zamanı yerin öküzü onun fərmanı ilə sabit durur və yerdə də sakitlik hasil olur.

Səh. 35.

Tur dağı yandırmaz oda Musanı,
Yandırar, əlbəttə, azğın insanı.

Dini əfsanəyə görə Musa peyğəmbər guya *Turi-Sina* dağında Allahla danışarmış, başqası isə buraya çıxmaq istərkən yanarmış.

Xaqani Xəlifənin sarayını da Tur dağına oxşatmış və buraya daxil olmaq istəyən adamları yandıracağını bildirmişdir.

Səh. 35.

Müştəri sifətli və Ay camallı,
Zühəl həmayilli, Mərrix kamallı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burada - Xaqani Xəlifənin qoşun əhlini tərif edərkən onları səyyarələrin xüsusiyyətləri ilə müqayisə edir. Burada - *Müştəri* - (Yupiter*), Zühəl* - (Saturn), *Mərrix* - (Mars) səyyarələrinin adı çəkilir.

Qədim *astrologiyaya* görə Müştəri səadət və mülayimlik, başına tac qoymuş Zühəl hökmranlıq, Mərrix müharibə, qəzəb rəmzləridir.

Xaqani hər üç əlamətin Xəlifə qoşununda mövcud olduğunu qeyd edir.

Səh. 36.

Sanki zər atırdın, gəldi də çahar.

Yəni bəxtim gətirdi.

Məlumdur ki, nərd oyununda ilk əvvəl zərlərin qoşa dörd gəlməsi nəqş hesab olunur.

Səh. 37.

Xilqətin dörd arxı, görürsən əgər,

Sənə qibtə edər, paxıllıq edər.

Xilqətin dörd arxı - dörd ünsür: su, od, torpaq və havadan ibarətdir. Xaqani demək istəyir ki, yaradılış özü sənin şərafətinə qibtə edir.

Səh. 37.

"Zəbur" nəğməsidir şirin nəğməsi...

Gözəl səsli Davud peyğəmbərin "Zəbur" (dini kitab) oxumasına işarədir.

Səh. 37.

Xəlilullah olmuş dövründə atam,

Deməli, əslində nəccar oğluyam.

Məlumdur ki, Xaqaninin atası Əli nəccar idi. Məşhur *İbrahim Xəlilullah* peyğəmbərin atası Azər də nəccar olduğundan İbrahim Xaqani özünü İbrahim Xəlilullah və atasını da onun atası Azər ilə müqayisə edir.

Səh. 37.

Qəlbimin oğlunu qurban gətirdim.

Xaqani, İbrahim peyğəmbərin öz oğlu İsmayılı qurban etdiyini xatırladaraq, öz şerlərini qurban gətirdiyini bildirir.

Səh. 38.

İndi, bir özün de, şad olmazmı bəs,

Kənandan çıxaraq Misrə çatan kəs?

Bu beytdə məşhur Yusif və Züleyxa əhvalatı yada salınmışdır. Bu dastana görə Kənanlı Yəqubun oğlu Yusifi öz qardaşları quyuya salıb qayıtdıqdan sonra yoldan keçən tacirlər Yusifi quyudan çıxarıb, Misirə aparırlar. Yusifin diri olduğundan xəbər tutan Yəqub çox sevinir.

Bu hadisə həm "Quran"da, həm ayrıca mənzum əsər halında, həm də Füzulinin "Hədiqət-üs-süəda" əsərində geniş təsvir edilmişdir.

Səh. 38.

Əgər üzük qaşı qiymətlidir, bil,

Onun muma işi düşməmiş deyil.

Məlumdur ki, qədim zamanlarda böyük adamlar öz üzük qaşlarına adlarını yazdırar və onu möhür kimi işlədərmişlər. Əksər halda bu möhür mum üzərində basılarmış.

Xaqani demək istəyir ki, o qədər qiymətli üzüyün də ən dəyərsiz muma işi düşür.

Burada şair, Xəlifənin də Xaqani şerinə müəyyən mənada möhtac olduğunu nəzərə çarpdırır.

Səh. 40.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu üzüyün qaşı bahadır, düzü,
Camın gövhəridir, Cəmşidin gözü.

Tarixi əfsanəyə görə guya, qədim İran padşahı *Cəmşidin camı "geytinüma",* yəni dünyanı göstərən adlanmışdır. Bu sehrli camda arzu edilən şəxsin harada və nə vəziyyətdə olduğu görünərmiş.

Burada Xaqani Cəmaləddinin verdiyi üzüyün Cəmşidin camından daha üstün ecaza malik olduğunu qeyd edir.

Səh. 40.

Bu üzük zidd olmuş, bil, Əhrimənə...

Zərdüştilərə görə şər və qaranlıq allahı olan Əhrimən Cəmşidin möhründən qorxub qaçmışdır. Burada - Xaqani, Cəmaləddinin verdiyi üzükdən də şər və fəlakətin uzaq olacağını qeyd edir.

Səh. 41.

Onun hüzurundan, öpərək yeri,
Sədi-Əkbər kimi qayıtdım geri.

Sədi-Əkbər səmada öz hərəkəti zamanı irəli və sonra geriyə dönən xoşbəxtlik səyyarələrindən birinin adıdır (Çox ehtimal ki, Müştəri səyyarəsi nəzərdə tutulur).

Xaqani öz dövrünün nücum elminə nə qədər yaxşı bələd olduğunu göstərməklə, eyni zamanda özünü xoşbəxt hesab edib, İraqdan geri döndüyünə işarə edir.

Səh. 41.

Gəlib hüzuruma, dil tökdü bubbu.

Şərq əfsanələrində *bubbu (hüdhüd)* quşu Süleyman peyğəmbərdən Bilqeysə xəbər aparıb-gətirən qasid kimi təsvir edilmişdir. O, eyni zamanda xəbərçi rəmzi kimi də məşhurdur.

Burada - Xaqani şahın üzüyü almaq üçün gələn yaltaq elçisini də həqarətlə bubbu adlandırır.

Səh. 43.

Qəzəb Tuğan şaha tərəf çəkərdi,
Tamah Təkin şaha tərəf çəkərdi.

Tuğan şah - Səlcuqilərdən Səncər şahın oğludur. (XII əsr) Təkin şah-qəznəvi silsiləsinin banisinə işarədir (X əsr).

Səh. 43.

Yeddi qat gözümdə tez işıqlandı,
Doqquz qat elə bil alışdı, yandı.

Yeddi qat - yeddi təbəqədən ibarət hesab edilən yerə, doqquz qat-doqquz təbəqədən ibarət hesab edilən fələklərə işarədir.

Səh. 44.

Adəm qırx səhərdə görmüşsə nələr.

Dini əfsanəyə görə guya Allah insanların babası hesab edilən Adəmi 40 gün müddətinə yaratmışdır.

Səh. 44.

Boynunda var idi onun həmayil,
Yox, dörd kitab idi, həmayil deyil.

Dördkitab - dörd müqəddəs kitaba işarədir ki, bunlar "Tövrat", "Zəbur", "İncil" və "Quran"dan ibarətdir.

Səh. 45.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söhbətə başladı; yarım hilalı,
Açılar-açılmaz, mən oldum halı.

Yarım Hilal - Xızrın dodaqlarına işarədir. Yəni o, ağzını açan kimi mən mətləbi anladım.

Səh. 45.

Günəşi andıran parlaq sədəflə,
Otuz iki ulduz parladı səflə.

Burada - birinci misra Xızrın ağzına, ikinci misra isə onun dişlərinə işarədir.

Səh. 47.

Durma kölgəsində ikiranglinin...

İkiranglı - gecə və gündüzə, başqa sözlə, ikiüzlü dünyaya işarədir.

Səh. 48.

Dörd ana, doğrudan, qəribədir bu:
Nə üçün, görəsən, üç inci doğdu?

Dörd ana - dörd ünsür (su, od, torpaq və hava*), üç* inci isə mövcudatdan (nəbatat, cəmadat və heyvanat) ibarətdir.

Xaqani demək istəyir ki, necə oldu ki, dörd ünsürdən biri-birinə bənzəməyən üç tipli varlıq əmələ gəldi.

Səh. 49.

"Quran"ı bəzədi Osmanın qanı.

Məlum olduğu üzrə "Quran"ı yazan üçüncü böyük xəlifə Osmandır. O öz evində öldürülərkən qanı yazmaqda olduğu "Quran" üzərinə tökülmüşdür.

Səh. 49.

Son uçmaq istəsən Turi-Sinayə,
Heç zaman meyl etme Puri-Sinayə.

Turi-Sina - Musa peyğəmbərin guya Allahla danışdığı dağın adıdır. *Puri-Sina* isə məşhur filosof təbib Əbu Əli ibn Sinadır.

Xaqani demək istəyir ki, əgər sən də Musa kimi Allahla danışmaq şərəfinə nail olmaq istəyirsənsə, Əbu Əli ibn Sinanın dalınca getmə!

Səh. 49.

Gəl, ey Puri-Əli, üz tut Allaha,
Gəl, Əbu-Əlidən az danış daha.

Puri-ədli Xaqani özüdür.

Yəni, ey nəccar Əlinin oğlu Xaqani, Əbu Əli Sinadan az danış!

Səh. 50.

Gəl, dinə arxalan, unutma dini,
Böyük sanma yunan Uqlidisini.

Üqlidis (Evklid) eramızdan əvvəl IV əsrdə yaşamış məşhur yunan alimidir. İlk dəfə nücum və riyaziyyat elmi sahəsində böyük şöhrət qazanmışdır. Xəyyam və Nəsirəddin Tusi onu yaxşı tanımış və yeri gəldikcə tənqid də etmişlər.

Səh. 51.

Nəmrudtək səni də dünya aldatmış.

Nəmrud - qədim Misirdə Allahlıq iddiası edən hökmdardır. Guya o, bu dünyada cənnət və cəhənnəm yaratmaq fikrinə düşmüşdür.

Səh. 51.

Bu solğun üzlüyə qapılma bir an,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu qoca kaftarın tez qaç yanından.
Solğun üzlü və qoca kaftar - dünyaya işarədir.
Səh. 52.
Hərənin Dəccaltək bircə gözü var.
Dəccal dini əfsanəyə görə insanları aldadan hiyləgər bir fırıldaqçı olub, guya qeyb olmuş 12-ci imam zühur edərək, insanları onun şərrindən xilas edəcəkdir.
Səh. 53.
Məhəmməd Mahmudun möhrüylə yeksər,
Damğalı qul oldu bütün ölkələr.
XII əsr Abbasi xəlifələrindən Müqtəfibillahə işarədir.
Səh 53.
Bənzət Buqubeysi Əlvənd dağına.
Buqubeys İraqi-ərəbda, Əlvənd isə Həmədan yaxınlığında olan dağdır.
Səh. 55.
Onu qeyd edərlər aydın: *bağı-dad.*
Bağı-dad - ədalət bağı.
Səh. 58.
Yazmış hər birinə Müqtəfi sözü.
Müqtəjibillah - Abbasi xəlifələrindən birinin adıdır.
Səh. 61.
Bir "mim"dən elə bil bir "sin" qurmuşdur,
Ya da bir "əlif"dir, halqa vurmuşdur.
Ərəb əlifbasında "mim" hərfinin başı kiçik bir dairə təşkil edir. *"Sin" hərfi* isə dişli olur. Birinci misrada Xaqani iplərin quyunun kənarını kəsməsini "mim"in (dairənin) "sin" olmasına bənzətmişdir.
İkinci misrada ərəb əlifbasında "əlif'in düz yazıldığı qcyd edilir, bu hərf də burularsa, "mim" və ya dairə halına düşə bilər.
Bu beytdə müəllifin məqsədi, İraqi-ərəbdə olan məşhur Zəmzəm quyusunun kənarını ip kəsdiyindən, onun diş-diş olmasını göstərməkdir.
Səh. 62.
Əl atıb fələyin doluna dərhal,
Ayın şüasıyla bu quyuya sal.
Fələyin dolu - XI bürc - Dolça (Dəlv) bürcünə işarədir.
Səh. 62.
Gahi "dal", "gah "əlif", gah da olsun "lam".
Xaqani namaz qılarkən alınan vəziyyəti hərflərin şəklilə müqayisə edir.
Səh. 63.
Açdı dodağından Rum kilidini.
Yəni: ərəbcə danışmağa başladı.
Səh. 64.
Mahmud öz qəmini dağıtsm deyə,
Fil ilə mat verdi o, Ünsüriyə.
Mahmud – məşhur Sultan Mahmud Qəznəvi, Ünsüri isə onun saray şairidir (X əsr).
Sonrakı beytdə Xaqani özünü də böyük şahmat ustadı hesab edir.
Səh. 65.
Xurma bağlarını əkmiş Cəbrail,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Suvarmış onları hər gün İsrafil.

Cəbrail və İsrafil dini xurafata görə Allaha ən yaxın mələklərin adlarıdır.

Səh. 66.

Əlinə kim Gavə dirəfşi alsa.

O, iki ilanıdan xovf etməz əsla.

Gavə - qaniçən Zöhhakı taxtdan salan dəmirci Gavə, *dirəfş* - onun bayraq kimi qaldırdığı döşlük, iki ilan - Zöhhakın ciyinlərində bitən və insan beyni yedirilən ilanlara işarədir ("Şahnamə" surətləri).

Səh. 67.

Həyatım bir zaman divə tuş oldu,

İyirmi iki il ömrüm puç oldu.

Şair 22 il şahlara mədh yazdığına təəssüf edir.

Səh. 67.

Bir yer var, orada xətər mahaldır,

Süheylin yeridir o yer - şimaldır.

Süheyl - şimal qütbündə görünür və xoşbəxtlik ulduzu hesab edilir.

Səh. 69.

Simurğam mən dinin o Qaf dağında,

Simurğ - xilaskar əfsanəvi quş. *Qafdağı* - Qafqaz dağları silsiləsində bir zirvə. Əfsanəyə görə Simurğ (yaxud Ünqa) bu dağın zirvələrində yaşamışdır. Burada Xaqani özünü dinin Simurğu adlandırır.

Səh. 69.

Hüma quşu kimi sümük yedim mən.

Əfsanələrə görə *hüma* səadət quşu hesab edilir və guya o ancaq sümük yeməklə dolanır. Nağıllarda hüma quşu kimin başına qonarsa, (və ya kölgə salarsa) onu padşah edərlərmiş.

Səh. 71.

Mənhus adlansa da, adı Keyvanın,

Zöhrədən kəm deyil şəni, inanın.

*Keyvan (*Zühəl - Saturn) Günəş sistemində böyük səyyarədir ki, qədim astrologiyada o, bədbəxtlik ulduzu hesab edilmişdir.

Zöhrə (Nahid - Venera) isə məhəbbət ilahəsi və səadət ulduzudur. Xaqani demək istəyir ki, Keyvan öz böyüklüyü ilə üstündür.

Səh.72.

Tərk et bu iki mıx, yeddi pərdəni...

İki mıx - gecə və gündüz, *yeddi pərdə* - yeddi təbəqəli Yer. Xaqani demək istəyir ki, bu dünyanı tərk et!

Səh. 73.

Şamın ayağını qoparıb haman,

Başına qoymuşdur Misr utanmadan.

Şamın ayağı (son hərfi) "mim" hərfidir ki, Misrin başında yazılır. Beytin mənası: Şamın ayağı Misrin başı qədər şərafətlidir.

Səh. 73.

Misrə nöqtə qoysan, tez müzürr olar.

Ərəb əlifbasında Misir sözünün üzərinə nöqtə qoyduqda o, müzürr oxunar. Burada - Xaqani Misirin öz zatında bir müzürrlük olduğuna işarə edir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qeyd: XII əsrdə İsmaililər firqəsi Misirdə bərkiyib, İslam dininin bəzi ehkamları əleyhinə getdikləri ücün Xaqani Misiri pisləyirdi. İraq (Şam) isə bu zaman İslamiyyəti onlardan müdafiə edirdi.

Səh. 74.

Məsulun torpağı dördüncü səma,
Bu göydə mövcuddur Günəş və İsa.

Qədim astrologiyaya görə Günəş dördüncü göydə hərəkət edir və İsa da guya göyə - Allahın yanına gedərkən, onun yaxasında anası Məryəmin iynəsi sancılmış olduğundan, yer maddəsinin göyə ləyaqətli olmadığı səbəbinə, o da dördüncü göydə ilişib qalmışdır. Buna görə də Günəş və İsa, guya, eyni göy halqasında yerləşmişlər.

Səh. 75.

Əli möcüzələr göstərən dəmdə,
Cam da heyran qalır bu sehrə, Cəm də.

Cəm - eramızdan əvvəl yaşamış mifik İran padşahlarından Cəmşidin ixtisarla deyilmiş adıdır.

Cam - onun dünyanı əks edən sehrli camı.

Səh. 75.

Cam özü bəladır xalqa, xilqətə,
Onunçün düşmüşdür özü illətə.

Burada *illət* sözü cam kəlməsində olan əlifə işarədir. Ərəb dilində üç hərf illətli (xəstə) hesab olunur: "əlif", "vav", "yay".

Xaqani demək istəyir ki, "cam" sözündə xəstə hərf olduğu üçün o, insanlara zərər və xəstəlik gətirir.

Səh. 76.

Ona Nizamülmülk ad qoydu zaman,
Sonra dediyindən oldu peşiman.

Nizamülmülk - məşhur "Siyasəmamə" əsərinin müəllifi və Məlik şah Səlcuqinin vəziridir. O, dövlət quruluşunda böyük islahatlar yaratması ilə məşhurdur. Xəyyamla müasirdir.

Burada Xaqani Cəmaləddini Nizamülmülklə müqayisə edərək, onu bir az da yüksək qiymətləndirir.

Səh. 76.

Bununçün dünyanı düzəldənlər, bil,
Ona ad verdilər ikinci Xəlil.

Xəlil - İbrahim Xəlilullaha işarədir. O, Kəbədə bütləri sındırıb, bütpərəstliyə son qoyduğu üçün şöhrət qazanmışdır.

Səh. 76.

Mədəsi İsatək, vücudu - Yəhya.

İsa, Yəhya - peyğəmbər adlarıdır.

Səh. 77.

Sənin gövhərini bu cərxi-fələk
Dörd gövhər başına tac qoydu, bişekk.

Dörd gövhər - dörd ünsür (su, od, torpaq və hava).

Səh. 77.

Tutub Abbasilər sayəndə qərar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Abbasilər – Əməvilərdən sonra gələn ikinci böyük ərəb xilafəti Bu xilafət VII əsrin ortalarından başlayaraq XIII əsrə qədər davam etmişdir.

Monqollardan Hülaku xan bu xilafətə son qoymuşdur.

Səh. 77.

Süleyman tikdirən zamanda bina,

Ona əcinnələr oldular bənna.

Əfsanələrə görə Süleyman peyğəmbər quşların, heyvanların, div və əcinnələrin padşahı idi.

Xaqaninin bu beyti də həmin məsələyə işarədir.

Səh. 77.

Qiyməti üstündür belə bürclərin,

İskəndər tikdirən bürclərdən, yəqin.

İskəndər - Yunanlı İskəndər və ya Makedoniyalı İskəndər Zülqərnəyn adı ilə məşhur sərkərdədir. O, Yunanıstandan tutmuş Hindistana qədər hərbi səfər etmiş və böyük bir ərazini öz hakimiyyəti altına almışdır. Aldığı yerlərdə sədlər və bürclər tikdirməklə məşhurdur.

Səh. 77.

Ey Keyvan şərəfli, Səmak cəlallı,

Ey Rizvan sifətli, behişt cəlallı.

Keyvan - (Zühəl) Saturn səyyarəsi. *Səmak* - işıqlı ulduz adıdır. Rizvan - guya behiştin qapıçısıdır.

Səh. 78.

Üstürlab kimi o fitnə törədir.

Üstürlab - orta əsrdə göy cisimlərinin yerini müəyyənləşdirən nücum alətlərindəndir.

Səh. 78.

Olsa da zahirdə adları Buzər,

İşdə Buləhəbdən daha da bədtər.

Buzər - Məhəmməd peyğəmbərin yaxın köməkçisi, *Buləhəb Haşimi* isə peyğəmbərin ziddinə gedən əmisidir.

Səh. 79.

Otuz ildən sonra baş verib bir sirr,

İyirmi bir bəla törəyəcəkdir.

Bu səhifədə qeyd edilən beytlərdə Xaqani bildirir: bəzi üzdəniraq münəccimlərin dediyinə görə, guya 30 il sonra (1186-cı ildə) ulduzlar aləmində bir çaxnaşma olacağından kürreyi-ərz məhv olacaqmış. Bu iddiaya bir çoxları inanıb, təşvişdə olduqları halda, Xaqani (həm də Nizami) bu xəbərə inanmamışdılar (Doğrudan da, sonralar - yəni, 1186-cı ildə heç bərk külək də əsməmişdi).

Səh. 80.

Vəta, Adəm, Xızır və Musa üçün...

Dördü də peyğəmbər adıdır.

Səh 80.

Tikərəm, şübhəsiz, onu "Yasin"dən.

"Yasin " - "Quran"da surə adı; matəm və təziyədə oxunur. Xaqani də bu surəyə üstünlük vermişdir.

Səh. 80.

Bir möcüz göstərib mənalı sözdən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sudan, oddan paltar toxuyaram mən.

Bu beytdə Xaqani öz şeirlərinin su kimi axıcı və od kimi hərarətli olduğunu göstərmək istəmişdir.

Səh. 80.

Üç bacı bağlasın başına ləçək.

Uç bacı - üç ulduza birlikdə verilən addır.

Səh. 81.

Musa ağacıdır ağacım tamam,

Tuba budağından düzəlib taxtam.

Guya Musa peyğəmbərin ağacı (əsası) möcüzə göstərib, əjdahaya çevrilər və düşmənləri udarmış. *Tuba* da behiştdə bitən müqəddəs ağacdır.

Xaqani atasının dülgərlik sənətinə işarə edərək, öz şeirlərinin pak və möcüzə yaradan olduğuna işarə edir.

Səh 82.

Hermes haradadır, hanı o alim?

Gəlsin ki, təxtini özüm düzəldim.

Hermes - Misir riyaziyyatçısıdır. Hermesi tarixdə hesab, həndəsə, musiqi və tibb elmlərinə bələd olan qədim yunan alimi kimi tərif etmişlər.

Səh. 82.

Nuh hanı ki, ona verim yadigar,

Bu memar təbimdən səttarə pərgar?!

Dini rəvayətə görə *Nuh* peyğəmbər zamanı dünyanı sel basır və Nuh belə bir selin olacağını guya əvvəldən bildiyi üçün gəmi qayırıb, öz adamlarını və istədiyi heyvanları suda qərq olmaqdan xilas edir. Xaqani dülgər olan Nuha öz şairlik təbilə *pərgar* verməyə qadir olduğunu bildirmək istəyir.

Səh. 82.

Nə qədər məskənim bu xoş məkandır,

O, Şərvan deyildir, bir Xeyrəvandır.

Xaqani həmişə "Şirvan"ı "Şirvan" kimi işlədir. Demək istəyir ki, nə qədər mən buradayam, o, şər yeri deyil, xeyir yeridir.

Səh. 82.

Sənətdə Azərdi, söhbətdə İsa,

Tabut qayırardı o Xəlilasa.

Azər- İbrahim Xəlilullah peyğəmbərin atası nəccar idi. Xaqani bu beytdə demək istəyir ki, onun atası Əli də nəccar olub, tabut qayırardı. İsa kimi söhbəti ruh açan idi.

Səh. 82.

O da bir Əliydi - adlı dilavər,

Mən isə önündə bir sadiq Qənbər.

Bu beytdə Xaqani, atasının adı Əli olduğu üçün, onu *imam Əliyə,* özünü isə imam Əlinin sadiq qulu olan *Qənbərə* oxşadır və bununla atasını sonsuz dərəcədə sevdiyini bildirir.

Səh 83.

Çoxdandır bu kasa gəzdirən fələk,

Pay istər həmişə şerimi görcək.

Kasa gəzdirən fələk - göy qübbəsi və çərxi-fələyə işarədir. Beytin mənası: Bütün dünya mənim şerimdən pay alır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 84.

Mənalar kişisi o qoca anam,

İkinci Rabiə kimiydi tamam.

Rabiə - IX əsrdə yaşamış, öz dindarlığı və paklığı ilə şöhrət qazanmış bir ərəb qadının adıdır. Xaqani, öz anasını da pak və dindar göstərmək üçün onu ikinci Rabiə adlandırmışdır.

Səh. 84.

Ona da Məryəmtək atdılar böhtan,

O da Zəhra kimi paylardı ehsan.

Məryəm - İsa peyğəmbərin anası. Onu töhmətləndirirdilər ki, atasız uşaq doğmuşdur. Lakin, o, müqəddəs qadın olduğu üçün, töhmətlər onun ləkələnməsinə səbəb olmadı. Guya, yeni anadan olan İsa dil açıb, anasının günahsız olduğunu söyləmişdir.

Zəhra - Məhəmməd peyğəmbərin qızı Fatimeyi-Zəhradır. Xaqaninin anası İslamiyyəti qəbul edən xristian qızı olduğuna görə, Xaqani onu həm Məryəm, həm də Fatimə ilə müqayisə etmişdir.

Səh. 84.

Nəsturi qızıydı, nəsli, məbədi.

Nəsturi - xristian məzhəblərindən biridir. Xaqaninin anası eyni zamanda atəşpərəstliyə mənsub bir ailədən çıxmış olduğundan, o həm Xristianlıq, həm də Atəşpərəstliyi atıb, İslam dinini qəbul etmişdir.

Səh. 84.

O, bir Filakusdu bizim dövrana.

Filakus - eramızdan əvvəl Yunan başçılarındandır.

Səh. 84.

Myastu yolunda əyləşərdi şad,

Siyruni dilini bilərdi azad.

Myastu - xristianlıq məbədlərindəndir. *Siyruni dili* - Suriyada yaşayan xristianların dili.

Səh. 84.

O, Züleyxa kimi bir xanım ikən,

Sonra Yusif kimi qul oldu birdən.

Xaqani anasının Zuleyxa kimi adlı-sanlı olduğuna və sonra Yusif kimi qul sifətində satıldığına işarə edir.

Səh. 85.

Üveys kimi bəndəm o arvada mən.

Üveys - Məhəmməd peyğəmbəri son dərəcə sevən əshabələrdəndir. Xaqani də Üveysin Məhəmmədi sevdiyi qədər anasını sevdiyini nəzərə çarpdırır.

Səh. 85.

Mən təbib əmimdən almışam ilham,

Yeddi söz mülkünün bir Boqratıyam.

Xaqaninin təbib əmisi - Kafiyəddin Ömər ibn Osmandır. *Yeddi söz mülkü* - yeddi iqlim və ya bütün dünyaya işarədir. Boqrat (*Hippokrat)* - tibbin babası adlanan məşhur yunan təbibi. Eramızdan təqribən 5 əsr əvvəl yaşamışdır. Xaqani şöhrətdə özünü Boqrata bərabər tutur.

Səh. 86.

Onunçün məskənim olmuş asiman,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dördüncü göy olub mənə bu Şirvan.

Guya, Günəş və İsa dördüncü göydə olduğu üçün, Xaqani özünü Günəşə və İsaya müqabil tutub, Şirvanı dördüncü göy hesab edir.

Səh. 86.

Onun əl suyundan yarandı kövsər,

Rəfrəf- dükanının rəfinə bənzər.

Kövsər - guya behiştdə axan, baldan şirin, süddən ağ bulaq suyudur. Rəfrəf - Məhəmmədi göyün yüksək qatına qaldıran nur atma deyilir. Məhəmmədin möcüzələrindən biri də barmağından su axıtmaq idi.

Xaqani demək istəyir ki, əmisinin dərmanları kövsər suyu qədər şəfa-vericidir.

Səh. 86.

Qarikon kimidir acı sözləri,

Acı tərbəd kimi boşdur özləri.

Qarikon, tərbəd – dərman üçün işlədilən acı bitki adlandır.

Səh. 86.

Tərbədtək içləri zəhri-həlahil.

Zəhri-həlahil - quyruğu çömçə kimi olan əfsanəvi həlahil adlı heyvanın "sidiyi" guya son dərəcə zəhərlidir. O, öz zəhərini ona hücum edən heyvanın üzünə çırparaq, onu zəhərləyib öldürür.

Səh. 87.

Əvvəlcə birlikdən altmışa atdı,

Sonra da altmışdan otuz yaratdı.

Birlik - bir dəqiqə; *altmış* (*dəqiqə)* - bir saat. *Altmışdan otuz yaratmaq* - otuz gün - bir ay.

Xaqani demək istəyir ki, əmim təbabətdə olan bütün dəyişiklikləri və dünyanı mənə öyrətdi. Sonrakı beyt də həmin mənanı ifadə edir.

Səh. 87.

Atam dözməyərək dərdə cahanda,

Sam Zalı atantək məni atanda...

Bu və bundan sonrakı beytlərdə Xaqani məşhur "Şahnamə" surətlərindən istifadə edir. Məlumdur ki, əfsanəvi qəhrəman Rüstəmin babası Sam pəhləvan anadan eybəcər doğulmuş, ağ tüklü, tunc bədənli oğlu Zalı (Zal - qoca deməkdir) meşəyə atdırmış və bu uşağı guya Simurğ quşu öz yuvasında balaları ilə birlikdə bəsləmişdir.

Xaqani də bu beytlərdə özünü Zala, atasını Sama, əmisini isə Simuğr quşuna bənzətmişdir.

Səh. 88.

Əhmədə əmisi necə oldu yar...

Əhməd - Məhəmməd peyğəmbərin adlarından biridir.

Səh 88.

Atam mənə verdi ağır bir cəza,

Ərəblər o zülmü edərdi qıza.

Bu sözü "Quran"da axtar, tap, öyrən,

Get, oxu "və izəl-müvəddə"ni sən.

"Quran"da olan bu ayənin mənasından məlum olur ki, ərəblər Məhəmmədə qədər öz qızlarını diri-diri basdırar və ya yandırarmışlar.

Xaqani bu beytdə atasının onunla rəftarını ərəblərin qızlara olan rəftarına bənzədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 88.

Aldı kainatdan yeddi dəmir mil,
Bir halqa boynuma etdi həmayil.

Xaqani demək istəyir ki, əmisi yeddi mühüm elm sahəsindən bir həmayil düzəldib, onun boynundan asaraq, kainat sirlərinə vaqif etmişdir.

Səh. 88.

Əvvəlcə o mənə öyrətdi "əbcəd",
Mənə Həqqayiqi dedi, nəhayət.

Əbcəd - ərəb əlifbasına deyilir. Burada ərəb hərflərinin hamısı xüsusi məna verməyən 8 kəlmə ilə ifadə olunur.

Məsələn: Əbcəd, həvvəz, hütti, kələmən, səfəs, qərəşət, səxiz, zəzığ. Xaqani deyir ki, əmim mənim savadsızlığımı ləğv etdi və sonra mənə Həqqayiqi təxəllüsü verdi.

Xaqani gənclik zamanı Əfzəl, Əfzəli və Həqqayiqi təxəllüsü ilə şerlər yazmışdır.

Səh. 88.

Nəhayət, çatdırdı "vənnasə" məni...

"Vənnas" - "Quran"ın son sözüdür. Xaqani "Quran"ı oxuyub qurtardığını bildirir.

Səh. 89.

Dəlillə, sübutla eylədi bir-bir,
"Quran"ın yüz on dörd sirrini təbir.

Xaqani "Quran"ın 114 surədən ibarət olduğuna və onların sirrini öyrəndiyinə işarə edir.

Səh. 89.

Çox asan yol ilə o mahir insan,
Etdi "bir", "iki", "üç", "dörd", "beşi" bəyan.

Klassik Şərq ədəbiyyatında 1-9 rəqəmlərinin müəyyənləşmiş mənaları vardır: *Bir* - Allah, *iki* - iki dünya, *üç* - nəbatat, *çəmadat,* heyvanat, *dörd -dörd ünsür:* su, od, torpaq, hava, *beş* - hiss: dad bilmək, görmək, eşitmək, ləms və iyi bilmək (bəzən beş rəqəmi - Məhəmməd peyğəmbərin əbası altında gizlənənlərə də aid edilir ki, bunlara "Pənctəni-ali-əba" deyilir.), *altı* - cəhətlər: ön, arxa, sağ, sol, yuxarı və aşağı, *yeddi* - yerin yeddi təbəqəsi, *səkkiz* - behiştin səkkiz qapısı (göyün təbəqələri), *doqquz* - doqquz fələk (doqquzuncu fələk guya Allahın qərar tutduğu yerdir.)

Xaqani yuxarıdakı beytdə əmisinin rəqəmlərin bu sirrini ona öyrətdiyini xəbər verir.

Səh 89.

Sonra dörd kitaba saldıqda nəzər,
Verdi dörd əsasdan ətraflı xəbər.

Dörd kitab - dörd müqəddəs kitab: "Zəbur", "Tövrat", "İncil" və "Quran", *dörd əsas* - dörd ünsür - su, od, torpaq və hava.

Səh. 89.

Kəsdi salxımını qara oraqla,
Qəzavü-qədərdən dərs alan Covza.

Covza - səmada olan 12 bürcdən üçüncüsü. Astrologiya elmində bu bürc cüt oraq və cüt uşaq şəklində rəsm edilir.

Xaqani öz vəziyyətinin ağırlaşdığını bildirmək istəmişdir.

Səh. 90.

Etdi "Nun vəl-qələm" taleyimi zar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ərəb əlifbasında "nun" beli bükülmüş hərf olduğu üçün, Xaqani öz əyilmiş qəddini bu hərfə oxşatmışdır. *"Nuni-vəl qələm ", "Yasin " - "Quran"* surələrinin adlarıdır.

Səh. 90.

O, mənə ad qoydu: Həssani-əcəm.

Burada: Həssan - Məhəmməd peyğəmbəri tərif edən məşhur ərəb şairi (VÜ əsr) Həssan ibn Sabitə işarədir ki, ona Həssani-ərəb demişlər.

Xaqani demək istəyir ki, əmisi onu Əcəmin Həssanı hesab etmişdir (Ərəb olmayanlar əcəm adlanırdılar.)

Səh. 90.

İzzəddin olmuşdur mənə qəmküsar.

İzzəddin - Xaqaninin müasirlərindən şair İzzəddin Şirvaniyə işarədir.

Səh .91.

Zəmanə Söhbanı susub, qalar mat.

IX əsrdə yaşamış məşhur ərəb alimi Söhban ibn Vaila işarədir.

Səh. 93.

Mən, ölüb qurtaran tuti kimi, ah,

Nəhayət, ölümə gətirdim pənah.

Məşhur Hind təmsili nəzərdə tutulur. Bu təmsildə tuti qəfəsdən can qurtarmaq üçün özünü ölülüyə vurur və sahibi onu ölmüş bilib, qəfəsdən çölə atdıqda uçub azad olur, Bu misal bir çox Şərq klassikləri tərəfindən istifada edilmişdir.

Səh. 94.

O murdar uşağı qaşqabaqlıdır,

Həm də yeddibaşlı, dördayaqlıdır.

Yeddibaşlı - ilan, *dördayaqlı* - eşşək. Xaqani düşmənlərini zəhərli ilan və eşşək adlandırmışdır.

Səh. 94.

Hər zaman "ələmovt" deyib dururlar,

Heyf ki, "əlmovtdan" uzaqdır onlar.

Bu beytdə *"əlmovt"* sözü iki mənada işlədilmişdir. Birinci misrada Məlikşah Səlcuqi (XI əsr) zamanında Həsən Səbbahın başçılıq etdiyi İsmaililər firqəsinin sığındığı yerin adı - Ələmovt qalası (İranda Qəzvin ilə Gilan arasındadır), ikinci misrada *"Əlmovt"* sözünün mənası olan *"ölüm"ə* işarədir. Xaqani demək istəyir ki, kaş Ələmut qalasında yaşayanlar (yeni İsmaililər) öləydilər.

Səh. 94.

"Dal" kimi, "nun" kimi əyri qalıblar.

Ərəb əlifbasında *"dal" və "nun "* əyri şəkilli hərflər olduğu üçün Xaqani düşmənlərini bu hərflərə oxşatmış və onları eyri, naxələf adlandırmaq istəmişdir.

Səh. 94.

Onlar etibarda Kufə əhlidir.

Kufə - Ərəb İraqının böyük şəhərlərindən biridir. *Kufə əhli* İmam Hüseynə beyətə söz vermişdilər, lakin çətin ayaqda öz vədlərindən üz döndərdilər. Bu zamandan Kufə əhli vəfasız, əhdini danan kimi işlənməyə başlamışdır.

Səh. 98.

Bərcis bu söhbəti eşidən zaman,

Kəsdi öz əlini Günəş qolundan.

Bərcis - Müştəri, yaxud Yupiter səyyarəsi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani, bədmi tərzi-ifadə olaraq, şəfəqin qan rəngində olmasını Müştəri əlinin kəsilməsi kimi izah etmişdir. Eyni zamanda guya Müştəri Xaqaninin parlaq ilhamını görüb, öz yerini ona verdi.

Səh. 100.

Bu məna Xızrın hər kəs ələkdən tutsa Musatək,

Suyu xatırladar Xızrı, Əli möcüzdə Musanı.

Dini əfsanəyə görə Xızr ilə Musa iki müasir peyğəmbər olmuşlar. Musa özünü dövrünün ən böyük alimi sanırmış; lakin, Xızrın daha böyük alim olduğunu görüb, ondan çox şeylər öyrənmişdir. Dini xurafata görə, hər ikisi insanları heyrətdə qoyan çoxlu möcüzələr göstərmişlər.

Xaqani burada demək istəyir ki, Musa Xızrın mənalı möcüzələrini öyrənən kimi, mənim zəhmət və yaradıcılıq məktəbimi keçib, yazdıqlarımın mənalarını dərk edənlər də Xızır və Musa kimi alim və ecazkarları aciz qoyarlar.

Səh. 101.

O "əbcəd" ki, mənə ustad təlim etdi təcridi,

Saralmış çöhrəmə yazdı qızıl xətlə gözüm qanı.

Təcrid *əbcədini yazmaq* - (tək və insanlardan ayrı yaşayış dərsi) - dünya həvəslərindən və nəfsin tələblərindən əl çəkib, güşənişin olmaq deməkdir.

Məlumdur ki, Xaqani bir zaman saray həyatının rəzalətlərinə dözməyərək, özbaşına, tək və azad yaşamaq üçün Şirvanşahlar sarayından qaçıb getmiş və bunun da nəticəsində yolda tutularaq, həbs edilmişdir. Burada şair deyir ki, mən təcrid dərsini qanlı göz yaşlarımla solğun üzümə yazdım.

Səh. 101.

Oyun həngaməsi qurmuş uşaqlar, mən baxıb gördüm,

Qara möhrə durar, göy möhrə dövr eylər bu meydanı.

Qara möhrə - Yer kürəsi, göy möhrə - səma, göy deməkdir. Burada Xaqani deyir: böyük bir kədərlə tamaşa edib, görürəm ki, insanların mərəkə və təlaşları içində yer dinc, asudə olduğu halda, göy (dövran, tarix) onun üstündə çox oyunlar çıxarır.

Səh. 102.

Ağıl qorxardı təbimdən, əlacı gördüm heyrətdə,

Necə Musa deyirkən eylədim tabutu zindanı.

Dini rəvayətə görə, qədim Misirdə Firon münəccimlərin dediyini doğru sanaraq, inanmışdı ki, bəni-İsraildən bir oğlan törəyəcək və onu öldürüb, taxtına sahib olacaqdır. Buna görə o, bəni-İsrailin doğulan bütün oğlan uşaqlarını öldürmüşdü. Musanı isə anası gizli doğaraq, ölümdən xilas etmək üçün bir sandığa qoyub, Nil çayına atmışdı. Xaqani burada öz həyatını dövrünün zalım hakimlərinin zülmündən qorumaq ücün əqlinin dəlalətilə təbini diri-diri (tabutda) zindanda saxlamağa məcbur olur. Yəni, istədiyini yaza bilmir.

Səh. 102.

Günəşdir hümmətim, rindəm, özüm aləmdə şahənşah,

Minib ərşi, yatırmışdır dizi üstündə İsanı.

Şairin obrazlı ifadəsincə, göylər Günəşin dizi altında, guya göyə çəkilmiş İsanın da başı onun dizi üstündədir. Xaqani: məndə Günəş hümməti var, - deməklə özünü "müqəddəsat"la bağlayır, yəni içində yaşadığı qaranlıq feodal cəmiyyətindən üstün olduğunu bildirir.

Səh. 102.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Süleymana bərabərdir hər hümmət sahibi dərviş,
O, "rəbbi həbli" təblinin səsindən titrər eyvanı.

Rəvayətə görə, Süleyman həm peyğəmbər, həm də böyük dövlətə malik bir padşah olmuşdur. Dərviş isə kasıb həyat keçirən bir adamdır.

Xaqani deyir ki, məndəki Günəş hümmməti hansı dərvişdə olsa, o, Süleymana bərabərdir. Bu cür hümmət sahibi olan dərviş meydanın qabağında: "Ey yatanlar, oyanın!" - deyə qışqırar.

Səh. 103.

O İskəndərsifət Xızrın hava - taxtı, ağıl - tacı,
O aqil sərxoşa süfrə - rzadır, can - mehmanı.

Dini rəvayətə görə, Xızr peyğəmbər zülmətdə dirilik suyunu icərək, daimi ömür qazanmışdır. Guya o, hər yeri gəzərək, fəlakətə düşən insanlara kömək edir.

İskəndər - bütün dünyanı fəth etmək xəyalına düşmüş olan İskəndər Zülqərneyndir. Bu beytdə şair demək istəyir ki, Xızırda İskəndər qəlbi var, deməli, o da bütün dünyaya malikdir; lakin Xızrın taxtı hava, tacı isə ağlıdır (Dini xürafata görə, Xızr yel kimi uçub, istədiyi zaman istədiyi yerə çata bilərmiş).

Səh 103.

Xəzinədarı - fikr, ilham, keşikçi - şər ilə tovfiq,
Əsiri - nəfs ilə amal, qul etmiş çərxi, keyhanı.

Yəni onun (Xaqani kimi Günəş hümmətli dərvişin) iki xəzinəçisi (fikir və ilham), iki muhafizəçisi (Allahın qanunu və yardımı), iki pislədiyi şey (nəfs və arzu), iki xidmətçisi (Yer və göy) vardır.

Səh. 103.

Nə Hind cibalıtək qurmuş sitəmlə qəsri-tağuti,
Nə Çin xaqanıtək zülm ilə düzmüş tacə mərcanı.

Cibal - Hindistanda Lahur padşahlarına verilən addır. *Tağut* - orada insanları azdıran bir büt (şeytan) adıdır. Beytdə deyilir: nə Lahur padşahı kimi zülm ilə şeytan üçün taxt qurmuş, nə də Çin padşahı kimi zülmkar olmuşdur.

Səh 103.

Onun təslim ocağında odundur təxti cibalın,
Onun ixlas atına nal edərlər taci-xaqanı.

Onun (yəni dərvişin) mətbəxində cibalın taxtını odun edib, yandırarlar; onun ixlas atına Çin xaqanının tacından nal qayırarlar.

Səh. 103.

Azadlıq meydanında at çapırmaq könlünə düşsə,
Kosu - amal olar, əqlin ayağı - əldə çovqanı.

Çovqan - atlı cıdır oyununda topu tutub, almaq və qaçırmaq üçün işlədilən ucuəyri bir ağac adıdır. Bu beytdə Xaqani demək istəyir ki, əgər azad yaşamaq istəyirsənsə, artıq tamah və arzunun başını top, ağlın ayağını da o topu vuran çovqan et! Yəni, azadlıq və xoşbəxtlik istəyən adam ehtirasları deyil, ağlını özünə rəhbər etməlidir.

Səh. 105.

Süleymanam demə, əvvəl yanından divləri rədd et, Qov, öldür, ya tutub zəncirə çək quli-biyabanı! Xaqani burada demək istəyir ki, Süleymanlıq (padşahlıq) iddiasına düşməmişdən əvvəl divləri, yəni yamanlıq, zülm, acgözlük, bədxahlıq, fitnəkarlıq və bu kimi pis sifətləri ya qəlbindən qov, əsir et, ya da öldür!

Səh. 105.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişi heç vaxt iki aləmdə mənzil fikrinə düşməz,
Ki, Mizan Nahidindir, görməz o Mizanda Keyvanı.

Nahid - (Zöhrə) ulduzu, həddi-buluğa çatmış qız, ya məhəbbət ilahəsi deməkdir. Astrologiyaya görə, Nahid ulduzu Mizan bürcü dairəsində görünər, Keyvan (Zühəl) ulduzu öz hərəkəti zamanı bu bürcə daxil olmaz.

Səh.105.

Ayaq torpağını al mərdlərin, başına tac eylə,
Qızıl tac alma, vermə oğruya sən sirri-pünhanı?

Xaqani burada demək istəyir ki, yerin ehtiraslarına əsir olmayan mərd adamların torpağını öz başına tac elə, onu oğruların, namərdlərin qızıl tacından üstün tut, sənə qızıl tac versələr də, sən onlara sirr vermə!

Səh. 106.

Bütün dərvişlərin şahı olubdur Əhmədi-Mürsəl,
Ki, "Nuni-vəl-qələm" "Quran"da səbt etmiş bu fərmanı.

Əhmədi-Mürsəl - Məhəmməd peyğəmbərin adlarındandır. *"Nuni-vəl*-qələm" "Quran"ın 68-ci surəsidir; məzmunu varlıların fəqirlərə, kasıblara kömək etməli olduğu haqqında təbliğatdan ibarətdir. Xaqani burada demək istəyir ki, Məhəmməd peyğəmbər fəqirlərin tərəfdarı olmuşdur.

Səh.106.

Fəqirin xirqəsində bəxyələrdə rəmzlər vardır,
Ki, anlar "lövhi-məhfuz"u açanlar bu müəmmanı.

Xirqə - dərvişlərin geydikləri uzun paltar; rəmzlər - mənalı, kinayəli sözlər; "lövhi-məhfuz " - müqəddəs yazılar lövhəsi; müəmma - düyümlü söz, anlaşılmaz ifadə deməkdir.

Burada Xaqani demək istəyir ki, yoxsulların, dünya malına əsir olmayanların mənəvi yüksəkliyini ancaq "müqəddəs yazılar"ın qaranlıq sirlərini başa düşənlər anlaya bilər.

Səh. 106.

Atarsa qol-budaq neysan ayında kükrəyən əncir,
Onu xoşbəxt sanma, qarşılar pəjmürdə abanı.

Neysan - aprel, aban - oktyabr ayıdır.

Beytdən belə bir məna çıxır ki, əncir ağacının göyərib, qol-budaq verən aprel ayındakı təravətinə deyil, oktyabr ayında solub, pərişan olan halına bax; yəni, müvəqqəti gözəlliyə və gəlib-gedərgi dövlətə bel bağlama.

Səh. 106.

Fəlakətsiz səadət umma dövranda, yəqin bil ki,
Hilal iqbalına qarşı təbiət qoydu Sərətanı.

Hilal - aypara, Ayın ilk günlərindəki görünüşü, iqbal – xoşbəxtlik, səadətli gələcək deməkdir; Sərətan - ulduzşünaslıqda on iki bürcdən biridir. Bu beytdə deyilir: sən aləmdən daimi səadət istəyirsən, amma onun özündə də o istədiyin yoxdur. Ay hilal vaxtında gündən-günə artıb gözəlləşdiyi halda, Sərətan (əqrəb) əksinə olaraq, düşkünlüyə doğru (geriyə) gedir. Xaqani burada cəmiyyət həyatındakı ziddiyyətləri təbiətdəki ixtilaflarla tutuşdurur.

Səh. 107.

Salıbsan Bijəni həbsə sən, ey Əfrasiyab, yatma!
Durubdur pusquda Rüstəm əlində tiği-bürranı.

Bijən - Rüstəmin bacısı oğlu. *Əfrasiyab* - qədim Turanın əfsanəvi padşahlarından biridir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bijən Əfrasiyabın qızı Mənijə aşiq olmuşdu. Mənijə də onu sevmiş və atasından gizli olaraq, sarayda gizlətmişdi. Əfrasiyab bu əhvalatı bilmiş, Bijəni yeddi il bir quyuda həbs etmişdi. Rüstəm bir tacir paltarında Turana gəlib, Mənijənin köməyilə Bijəni quyudan çıxararaq, İrana aparmışdır. Xaqani bu şeirdə həmin rəvayətə işarə edir.

Səh. 107.

Qoyuntək bağlamış quyruq sənə dövran, belindən at,

Onu, qoy gavü mahinin dağılsın qəsri, ərkanı.

Xaqani burada *qoyun* deməklə Günəş aləminin on iki bürcündən biri olan Quzu bürcünü, *gavü* mahi dedikdə öküz və balığı nəzərdə tutur. Dini xürafata görə, guya yer öküz üstündə, öküz balıq, balıq isə su üstündə qərar tutmuşdur. Bu beytdə deyilir: göyün qoyunundan dünya sənə quyruq bağlamışdır. Qoy dünyanın malı və ehtirasları səni əsir etməsin.

Səh. 107.

Xorasan bir hərəmdirsə, Məlikşahdır ona Kəbə,

Səmərqənd bir fələkdirsə, bir ulduzlar Qədərxanı.

Xorasan İranın şimal-şərqində bir vilayətdir; imam Rzanın qəbri bu vilayətin mərkəzi olan Məşhəd şəhərində olduğundan, bura müsəlmanların ziyarətgahı sayılır. Buna görə də Xaqani *Xorasan bir hərəmdir,* yəni müqəddəs yerdir deyir.

Məlikşah - səlcuq şahlarından üçüncüsü və on böyüyüdür (1054-1092). Onun Şərqi Türküstandan Misri qədər uzanan böyük dövlətinə Xorasan da daxil olmuşdur. Məlikşah, məmləkətin bir çox yerlərində olduğu kimi, Xorasanda da binalar saldırmışdı; Xaqani *Kəbə* dedikdə buna işarə edir.

Qədərxan - Türküstanda olmuş Xütən xanlığının X əsr hakimlərindəndir. Qədərxan Səmərqənddə bir çox abadlıq işləri aparmışdır.

Səh 108.

Məlikşah "od-su" adlandı, su axdı, atəşi söndü,

Kül oldu, torpağa döndü, məkan qıldı Sifahanı.

Məlikşah Səlcuqi iyirmi il hakimiyyət sürəndən sonra Bağdadda ölmüş, meyidi isə İsfahana gətirilib, özünün tikdirmiş olduğu böyük bir mədrəsənin meydançasında basdırılmışdır.

Səh. 108.

Vurarkən Səncərə şəbxunu Gurxan fateh adlandı,

Əcəl Gurxana şəbxun vurdu, kor oldu şəbistanı.

Səncar – Səlcuqilərin ən böyük hökmdarlarından olmuşdur (XII əsr); şəbxun - gecə basqını; şəbistan - yataq otağı deməkdir. Gurxan-Sultan Səncərə basqın etmiş qaraxatayların əmirlərindəndir.

Səh. 108.

Bakir məna Məryəminin Cəbraili, bəli, mənəm.

Məryəm - İsa peyğəmbərin anası olmuş və guya İsanı bakirə ikən doğmuşdur. *Məlaikə* Cəbrailə işarədir.

Xaqani burada yazdıqlarının başqa şairlər tərəfindən yazılmamış, orijinal, Məryəm kimi "bakirə", toxunulmamış olduğunu, özünün isə Cəbrail kimi əsərlərinə ruh verdiyini göstərir.

Səh.108.

Ağlın Tuğanşahına həm vəkil, həm nayibəm mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tuğansah - Cənubi Azərbaycanın hökmdarı olan Atabəy Məhəmməd ibn Eldəgizdir. O, Cahan Pəhləvan (Tuğansah) adı ilə məşhur olub, Azərbaycanda Səlcuqilər hakimiyyətinə son qoyaraq, hakimiyyəti tamamilə öz əlinə almişdı. Xaqaninin burada *"ağlın Tuğanşahı"* deməsi də özünün şeirdə qüdrətli olduğuna işarədir.

Səh. 108.

O Həssanın qəlbin yeyən bu nəzmimin həsrətidir,
O Söhbana sillə vuran bu nəsrimin qüvvətidir.

Həssan (Həssan ibn Sabit) - ərəblərin məşhur şairlərindən olmuşdur; Məhəmməd peyğəmbərlə bir əsrdə yaşamış və ona bir çox mədhiyyələr yazmışdır.

Söhban (Söhban Vail) – xəlifə harun ər-Rəşid zamanında (876-809) böyük bir ədib, həmçinin natiq olmuş, dil və üslubunun zənginliyi ilə şöhrət qazanmışdır. Xaqani burada həm nəzmdə, həm də nəsrdə dövrünün on məşhur şairlərinin ona paxıllıq etmələrinə işarə edir.

Səh 109.

İlhamımın Büraqı da hansı yerdə salarsa nal,
Fələk onu döyüş üçün kəskin qılınc edər dərhal.

Büraq - guya Məhəmməd peyğəmbərə göydən göndərilmiş bir atdır. Dini rəvayətlərə görə, Məhəmməd bir gecə (merac gecəsi) bu atla göyə çəkilmişdir. Xaqani burada təb və ilhamım göylərdə uçan Büraq atma bənzədir, ilhamından doğan əsərləri isə mübarizədə Büraqın nalından qayrıla bilən kəskin qılıncla müqayisə edir.

Səh. 109.

Mən əmirəm, dilim ərşin sərvətinə bir açardır,
Dediyimə Məhəmmədin hədisində sübut vardır.

Məhəmmədin iki hədisi: 1) Şairlər sözün əmirləridir; 2) Göyün altında bir xəzinə var ki, onun açarı şairlərin dilidir.

Xaqani bu beytində həmin hədisləri nəzərdə tutur.

Səh. 109.

Bir neçə haqq tapdalayan Yusifə də dedi hədyan,
Məhəmmədin sözlərini yalan saydı neçə nadan.

Yusif- Yəqub peyğəmbərin oğludur. Dini rəvayətə görə, o, hədyan və böhtanlara tutulub, zindana atılmış, yeddi il zindanda qalmışdır.

Bu beytdə Xaqani: "Bir para dargöz adamlar Yusifin də gözəlliyinə paxıllıq etmiş, bir yığın ləyaqətsiz adamlar Məhəmmədin də sözlərinə inanmamışlar", - deməklə özünü nadan bədxahlardan müdafiə etmək istəyir.

Səh. 109.

Məna yurdu Hindistanda Adəm kimi tutdum qərar,
Sənət yurdu Çində "mərdüm-giya" olmuş bu ulaqlar.

Hindistan - Şərqdə öz təbmi zənginliyi və gözəlliyi ilə məşhur olan bir ölkə kimi tanınmışdır. Dinlər tarixinə görə, Adəm cənnətdən Hindistana (Sərəndəb dağına) atılmışdır.

Xaqani şerin birinci misrasında həm əsərlərinin gözəlliyini və zəngin məzmuna malik olduğunu "məna Hindistanı" təşbihilə ifadə edir, həm də özünün cənnətdən gəlmiş adam kimi düzlüyünü göstərir.

Mərdüm-giya - lifləri qıvrım saç kimi əyri-üyrü olan və qoparılması insan üçün guya təhlükəli sayılan adama oxşar bir bitki köküdür, Xaqani ikinci misrada öz düşmənlərini

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

eşşək adlandıraraq, təbiətlərində heç bir doğruluq-və düzlük görmədiyi üçün surətlərini mərdum-giyaya bənzədir.

Səh. 110.

Haqqlıdırlar - bir səbəbdən onlar olsa mənə düşmən,
Çünki Süheyl ulduzutək öldürürəm bicləri mən.

Süheyl ulduzu - cənubda çıxan parlaq və sabit ulduzdur. Qədim ulduzşünasların fikrinə görə, guya Süheyl ulduzuna bic doğan arvad baxsa, şikəst olar, əgər onun doğduğu uşaq baxsa, ölər.

Səh. 110.

Ad qoşunu olsa onlar, mənim yeltək qələmim var,
Onlar Yəcuc tayfasısa, mənim nitqim sura oxşar.

Ad – Ərəbistanın cənub-qərbində yaşamış, öz babaları olan Adın adı ilə adlanmış bir tayfa olmuşdur. "Quran"da göstərildiyinə görə, bu tayfa Hud peyğəmbərə biət etmədiyindən, soyuq və şiddətli bir küləyə tutulub, məhv olmuşdur.

Yəcuc (və Məcuc) – rəvayətə görə, Asiyanın şimalında və Çin sərhədində yaşamış iki tayfa olmuşdur; boyları çox kiçik, özləri qarət və talançılıqla məşğul olub, başqa xalqlara çox ziyan vurarmışlar. *Sur* - guya qiyamət günü ölüləri diriltmək üçün İsrafilin çalacağı şeypurdur.

Xaqani burada öz mühitindəki ziyankarları kafir Ad nəslinə və qarətçi Yocuc tayfasına bənzədir. Adlarla mübarizədə ilhamının yelilə cırıldayan qamış qələmini Yəcularla mübarizədə İsrafil suru kimi guruldayan şeypur sədasına bərabər tutur.

Səh. 110.

Deyirlər ki, özümüzük dəniz güclü o Xaqani,
Bəli, onlar Xaqanidir, ortasından atsan "qa"nı.

"Xaqani" sözündən "qa"nın düşməsilə "Xani" qalır ki, bu da öz qarnını güdən yalavaclara, işarədir.

Səh .111.

Nə təhqiq, nə zöhd, nə vəz dən
Kiçik söz də bilməz, inan, Ünsüri.

Təhqiq - bədii janrlardan biri; zöhd - dünya həvəslərindən uzaq, pəhrizkar, günahsız həyatı təsvir və təbliğ edən bədii janrdır; *vəz* - tərbiyə və nəsihət əsərləri deməkdir.

Ünsüri (Əbülqasım) - Qəznəvilər dövlətinin banisi Sultan Mahmudun saray şairlərindən olub, Məliküşşüara adını almışdır.

Ünsüri böyük mal-dövlət sahibi olmuş, əsərlərinin çoxunda Sultan Mahmuda mədh yazmışdır. Xaqani bu şerini Ünsürini ondan üstün tutan bir adama cavab olaraq yazmışdır.

Səh .111.

Beş-on beytə almışdı yüz qul, qızıl,
Alındıqda Hindustan, Ünsüri.

Sultan Mahmud Qəznəvi öz səltənətini böyütmək üçün Hindistana 12 dəfə basqın etmiş,bir çox şəhərlərini almış, mal-dövlətini talan etmişdi. Xaqani burada Sultan Mahmudun Hindistanda etdiyi həmin qarətciliyi mədh edən Ünsüriyə işarə edir.

Səh. 112.

Nə nəzmiydi pərvan, nə nəsriydi nəş,
Olammazdı şəmsi-cahan Ünsüri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani deyir: Ünsürinin nəzmi xırda ülkər ulduzları kimi, nəsri isə nəş ulduzları kimi olmuş, onda heç bir zaman Günəş parlaqlığı olmamışdır; yəni, Ünsüri ona deyilən tərifl ərə layiq böyük şair deyildir.

Səh. 112.

Nə Söhbanı, nə Yörəbbəyanı Ünsüri.

Söhban - VIII əsrdə yaşamış məşhur ərəb ədib və natiqlərindəndir; Yörəb - ərəb leksikologiyasının banisi, böyük bir alim olmuşdur. Xaqani burada Ünsüridə məşhur adamlarla müqayisə edilə biləcək heç bir böyüklük olmadığını göstərir.

Səh. 113.

Qart qarının qarşısında kimsə mərdlik edə bilməz,
El uşaqtək acizdirsə, mən olmaram uşaqtək zar.

Qart qarı - qoca dünya.

Beytin mənası: Çoxları uşaq kimi nadinc olaraq, bu qoca dünyaya əsirdirsə, mərdanəliklə bu qoca qarıya (dünyaya) meyl salmaram.

Səh 113.

Zaman başa vuranda Sənainin dövrünü.

Sənai - XI-XII əsrin ən böyük şairlərindəndir. Qəznədə doğulmuş, orada da ölmüşdür. "Hədiqətül-həqiqət" adlı məşhur əsərin müəllifidir. Xaqaninin sevdiyi şairlərdən olmuşdur.

Səh. 113.

Getdisə də bir dahi üçüncü iqlimdən, ah!
Beşinci iqlimdə bir dahi insan doğuldu.

Şərq şairləri yerin Şimal yarımkürəsini yeddi iqlimə (məntəqəyə) bölürlər. Xaqani burada üçüncü iqlim dedikdə Qəznəni, beşinci iqlim dedikdə isə Şirvanı nəzərdə tutur.

Səh. 114.

Tarixlərə baxanda gördüm Bəhmən öləntək,
Tarixdə İskəndərtək bir hökmran doğuldu.

Bəhmən - İranın İskəndər Zülqərneyn istilasından əvvəlki padşahlarından olmuşdur.

Səh 114.

Düz danışan Yusifin şirin dili susanda,
Onun varisi Musa tez anadan doğuldu.

Dinlər tarixi üzrə, Yusif peyğəmbərdən sonra peyğəmbərlərin ən böyüyü Musa olmuşdur.

Səh. 114.

Əbu-Hənifə öldü, axşamüstü həmin, gün,
Şafei dan ulduzu çıxan zaman doğuldu.

Əbu-Hənifə - İslamiyyətin II əsrinin birinci yarısında yaşamış böyük bir alimdir. İslam qanunşünaslığının (fiqhin) banilərindən biri və onun ilk tərtibçisi olmuşdur. Hənəfilər məzhəbinin əsasını qoyan həmin Əbu-Hənifədir.

Şafei - rəvayətə görə, Əbu-Hənifə ölən axşamın səhəri doğulmuşdur. *Şafei* - həmçinin İslamiyyətin ən böyük alimlərindən biri, Şafeiyye məzhəbinin banisi, eyni zamanda şair olmuşdur.

Səh. 115.

Oxşayır ceyrana saqi, qədəhi zər öküzə,
Meyi dovşan qanıdır, istər edə qurbanım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani burada demək istəyir ki, həyat gözəldir, o mənə zövq verir, amma, tale o şərabı qana döndərərək, məni məhv etmək istəyir.

Səh. 115.

Samiri zər öküz istər, ona ver; Musatək,
Mənə ver abi-həyat, yandı ləbi-ətşanım.

Samir qədim Şərqdə əla qumaşlar toxunan bir yer olmuşdur. Samiri Samirdə yaşamış bir adamdır; Musa peyğəmbərin vaxtında o, qızıldan bir buzov qayırıb xalqı düz yoldan azdırarmış. Xaqani deyir: qızıl öküzü (şərabı, insanları düz yoldan çıxaran dövləti) Samiriyə ver, mənə isə Musanın istədiyi abi-həyatı ver.

Səh .116.

Göz yaşı tökdü qədəh, söylədi: mən Pərvizin,
Torpağından əmələ gəlmişəm, ey xaqanım!

Pərviz - müstəqim mənada Sasani şahlarından məşhur Nuşirəvanın nəvəsinin adı, məcazi mənada isə xoşboxt, təntənəli həyat sahibi deməkdir. Xaqaninin bu beytində həmin söz hər iki mənada işlədilmişdir.

Səh .116.

Mələk üzlü, bəd niyyətli fələk istər Cəmşidə,
Divlər bir qul olduğutək bəlkə ola xidmətim.

Yəni, bu dünya mələikə paltarında bəd niyyətli yırtıcıdır; məndən, divin Cəmşidə xidmət etdiyi kimi, özünə xidmət tələb edir. Bu beytdə Xaqani öz dövrünün zahirdə mələk kimi görünən hökmdarlarının əslində insan qanı içən bir cəllad olduğunu göstərir.

Səh .117.

Xızr dilə gəlib, mənə dedi Kəbə adından:
Rədd eləmə, bil ki, odur mənim vəli-nəmətim.

Bu şeir Məsul vəziri Cəmaləddinin adına yazılmışdır. Son dördüncü misradakı Xacə həmin Cəmaləddinə işarədir. Bu adam Məkkəyə gedib, Kəbəni təmir etmiş, guya buna görə də Xızr Kəbəyə hörmət üçün Xaqaniyə xitab edərək demişdir: "Cəmaləddinin töhfəsini rədd etmə, çünki o, Kəbəni təmir etmişdir" (Cəmaləddin Xaqaniyə qiymətli bir üzük vermişdir. Bax: "Töhfətül-İraqeyn" əsərinə).

Səh 117.

İyirmi yaşdan azsa da sinnim, mənimtək bir cavan,
Görməmiş doqquz fələk söz sənətində kamiran.

Buradan Xaqaninin hələ iyirmi yaşında ikən mahir bir şair olduğunu öyrənirik.

Səh.117.

Dəvatımın üzü sadə, içi dərin dəryadır,
Qara suyu nəhəngiylə əcəb ona oxşayır.

Dəvat – mürəkkəbqabı deməkdir. Xaqani deyir: mənim dəvatım zahirdən kiçik bir qaba oxşasa da, batində dərin bir dənizdir, onun qara suyunun içində gəzən qələmim bir nəhəngdir.

Səh. 117.

Görübsənmi necə sökər dan qaranlıq bağrını?
İki mənada dəvatım nurlu dana oxşayır.

Yəni, mənim dəvatımın içində həm qaranlıq, həm də işıq vardır; həm gecə kimi qaradır (mürəkkəb), həm də bağrından Günəş (parlaq əsərlər) doğan bir nur mənbəyidir.

Səh. 117.

Musa "yədi-beyza"sının timsalıdır bu dəvat,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qələm dəxi inci səpən bir ilana oxşayır.

"Yədi-beyza"-ağ əl. GuyaMusa peyğəmbərin göstərdiyi möcüzələrdən biri də bu imiş ki, elini qoltuğuna soxub çıxardıqda, əlindən nur çıxarmış: *İnci səpən* - əfsanələrə görə Söban adlı bir ilanın ağzında işıq saçan bir gövhər varmış. Eyni zamanda, guya Musa istədiyi zaman əsasını ilana döndərə bilirmiş. Xaqani burada dəvatını Musanın nurlu əlinə, qələmini ağzı gövhər səpən ilana bənzədir.

Səh .118.

Xaqaninin təbi tutmuş cilovundan Ceyhunun,

Dəvatısa Səmərqəndi - Xızırxana oxşayır.

Xızırxan – səlcuq hökmdarlarından Məlikşah zamanında Mavəraünnəhrdə (Orta Asiyada Ceyhun nəhrinin - indiki Amu-Dərya çayının şimalında olan yerlər) hakimiyyət sürmüş, qoşununun coxluğu və xəzinəsinin zənginliyi ilə məşhur olmuşdur.

Beytin mənası: Ceyhun nəhrinin cilovu Xaqaninin təbi əlindədir, ona görə də onun meyli Xızırxanın Səmərqəndinə tərəfdir. Burada Xaqani təb və ilhamının zənginliyini bildirir.

Səh. 118.

Zül-Yəzən oğlu kimi onlar bunu inkar edər.

Zül-Yəzən – peyğəmbərin əshabələrindən olub, yaxşılığa nankorluq edərmiş.

Səh 118.

Olmayıblar Şah Tuğan aləmdə çün söz mülkünə.

Şah Tuğan - Çingiz (moğol) sulaləsindən qudrətli hökmdardır. Mənası: rəqiblər söz mülkünə (Tuğan şah kimi) hakim deyildirlər.

Səh. 118.

Hiyləgərlikdə hamı əfsunçu Dimnə olsa da...

Dimnə - məşhur hind alleqoriyasında hiyləgər çaqqalın adıdır. O, Şirə yaltaqlıq edib, onun yanında bir mövqe tutmaq istərkən, hiyləsinin üstü açılaraq, məhv olur ("Kəlilə və Dimnə" əsəri).

Səh. 119.

Qülləsində dağların yüz min riyazət çəksə də,

Töhmət əhlinə deyərlər: bu Brəhməndir məgər?

Brəhmən - qədim Hind allahı Brəhmaya qulluq (sitayiş) edən ruhani başçısına deyərlər.

Beytin mənası: hər ittiham edilib, dağlara göndərilənləri Brəhmən adlandırmazlar.

Səh .119.

Fitnə Rəxşini minib, ox sazlayırlar hiylədən,

Rüstəm olmazsa, yetər İsfəndiyarını zərər?!

Rüstəm və İsfəndiyar - "Şahnamə" qəhrəmanları, Rəxş – Rüstəmin atının adıdır.

Beytin mənası: rəqiblər Rəxş minib, hiylədən ox hazırlasalar da, Rüstəm olmadıqları üçün, İsfəndiyara bir zərər dəyməz. ("Şahnamə"də Rüstəm haça oxla İsfəndiyarın gözlərindən vurub, onu öldürmüşdür.)

Səh119.

Olsalar da "ov"suz "Firon" onlar, məndəki,

Ağ əlin ecazını görməkdə yox onlarda fər.

Firon - Musa peyğəmbər vaxtı hökmdar. Ağ əl - Musanın mocüzə göstərən, işıq verən əli.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beytin mənası: rəqiblər naqis Firondurlar, onlar mənim ecazkar əlimin qüdrətini bilməzlər.

Səh. 120.

Gövhərim nəccardır, təbin nəcib övladına,
Tişəsi altında bir mahir ata əl gəzdirər.

Xaqanı özünün nəccar oğlu olduğunu nəzərə çarpdıraraq, təbinin yaratdığı övladını (şeirlərini) bir ata hünərilə rəndələyib, safa çıxardığını bildirir.

Səh. 120.

Nəzm tufanında onlar mütləqa tapmaz nicat,
Arvadı, oğlu kimi Nuhun, mənə ləc getdilər.

Bu beytdə məşhur Nuh tufanı yad edilir. Şair bu əfsanəvi hadisədən bədii istifadə ilə Xaqani istedadını inkar edən rəqiblərin özünün nəzm tufanında qərq olduqlarını bildirir.

Səh. 122.

Kafinin təbidir hünərə əsgər,
Əsgəri ney kimi şəkərdir, şəkər.

Əsgəri - qamış şəkəri bitən yer adıdır. Beytin mənası: Əmim Kafi-yeddinin təbi şirin və mənalı sözlər xəzinəsidir.

Səh. 122.

Gülqənd, o qarğıya paxıllığından,
Boğazda zəhərdir, ciyərdə tikan.

Beytin mənası: Kafiyəddinin əsərlərinə qənd və gül paxıllıq edir, yəni, onun yazdıqları qənddən şirin, güldən ətirlidir.

Səh. 122.

O qələm hüsndə Yusifə oxşar,
Görsə göy gəlini əlini doğrar.

Rəvayətlərə görə, Züleyxanın evinə qonaq gələn gəlinlər alma soyarkən Yusifin gözəlliyinə heyran qalaraq, öz əllərini kəsmişlər.

Beytin mənası: o, elə misilsiz və gözəl yazır ki, heç bir qələm onunla rəqabət edə bilməz.

Səh. 123.

Gümüş və şəkərdən təbi, damağı,
Təmğacın kanıdır, Şüştərin bağı.

Təmğac - Orta Asiyada çoxlu mədənlərilə məşhur bir vilayət olmuşdur. Şüştər (və ya Şüstör) - İranın Xuzistan vilayətində bir şəhərdir, bura su bəndləri və bağları ilə məşhur olmuşdur.

Səh. 123.

Gümüş bərabərdir gözündə daşa,
Ləldir qələmindən qopan talaşa.

Yeni: onun qələmindən ləl - cəvahir (qiymətli sözlər) tökülür, ona görə də gümüşün onun yanında qiyməti yoxdur.

Səh .124.

O, suların cilovunu yığdı bir qış yeli tək.

Yəni, qış küləyi suları dondurub, hərəkətdən saxladığı kimi, o da suyun qabağını kəsib, axınını saxladı.

Səh. 127.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xurma, söyüd bakirə Məryəmidir bağların,
Gül isə İsa kimi açırdı dodaqların.

Xaqani yazın ilk günlərində təbiət mənzərələrini təsvir edir. Yəni: bağ hələ bakirə Məryəm kimidir, ağaclar təzə-təzə yarpaqlayır, gül da yeni anadan olmuş İsa kimi hələ təzəcə dil açır.

Səh .127.

Qar əriyib, yerinden bənövşə çıxan zaman,
Heyrət etmə, kafurun kanıdır Hindustan.

Şərq şairləri, yeri gəldikcə, kafuru məcazi mənada ağlıq, Hindustanı isə qaralıq mənasında işlətmişlər. Burada Xaqani deyir ki, ağ qarın altından qara bənövşə çıxsa, təəccüb etmə, çünki, ağ kafurun da mədəni qara Hindistandır.

Səh. 128.

Dərvişsayaq qumrunun beynin qurutmuşdu qəm,
Nəsrin bunu görəndə, tez ona verdi məlhəm.

Burada Xaqani təbiəti, baharı, quşları, çiçəkləri təsvir edir; klassik poetikada nitqləndirmə üsulu ilə insanların əhvalını quşlara, çiçəklərə keçirir.

Dərvişsayaq qumru - qumru sözünün məcazi mənalarından biri: məhrumiyyət çəkən və əziz kimsələrindən ayrı düşən adam deməkdir.

Səh. 128.

Məğlub etdi davada Zöhrə ilə Dəhrəni,
Nizəsilə Dəhrəni, qılıncıyla Zöhrəni.

Şahın şücaətini mübaliğəli tərifləyərkən, Xaqani onun Zöhrə və Dəhrə ulduzlarını da məğlub etdiyini bildirir.

Səh. 129.

Sinəsi can Kəbosi, dörd yanıdır bu cahan,
Rüstəmi - dindir, ona yeddi fələk həftxan.

Xaqani şahı Rüstəmi-Zalla müqayisə edir. Rüstəm əgər həftxanı (yeddi tilsimi) sındırmışdısa, şahın sındırdığı tilsimlər yeddi fələkdir. Buna görə Xaqani şahı dinin Rüstəmi adlandırır.

Səh. 131.

Sanki yuyulmuşdur dişi yanmış bir uddan sübhü, bax!

Ud- qədimdə Hindistandan gətirilən qiymətli bir ağacdır ki, yananda xoş ətir verir, onun kömürü ilə də dişi yuyub ağardırdılar.

Bu misrada deyilir: sanki sübhün dişini ud kömürü ilə yuyub ağartdılar, yəni, səhər açıldı.

Səh. 131.

Xurma ağacı əkdi şəb, bax Pərvinə, olmuş rütəb,
Bu sənətə etmiş əcəb valeh o məstan sübhü, bax!

Burada: *xurma ağacı* - gecə qaranlığı; Pərvin (biri-birinə çox yaxın yerləşmiş ülkər ulduzları) - xurma salxımı; *rütəb* - təzə, dəymiş xurma deməkdir. Xaqani deyir: gecə xurma ağacı əkibmiş, budur sübh vaxtı ülkərdən salxım sallanır, səhər bu nəfis və incə sənətə gülür.

Səh .131.

Aşiqlər ahına məgər çoxdan nişanlıymış səhər?
Bir odlu peykanla edər sədparə xoftan sübhü, bax!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Peykan - ox və nizə ucu; *sədparə* - yüz parca; *xoftan* - arxalıq kimi pambıqlı geyim deməkdir. Beytdə deyilir: gecəni keçirmiş aşiqlərin ahı, odlu oxlar kimi, gecənin qara paltarını yırtıb parçaladı (səhər oldu).

Səh 132.

Saqidəu al camı-zəri, iç, yad elə saqiləri,

Bəxş et mənə tər ləbləri, birsə, son üç san sübhü, bax!

Saqi - şərab paylayan*; cami*-zər - qızıl qədəh deməkdir. Xaqani bir sübhün açılmasını üç sübhün açılması kimi təsvir edir.

Səh. 132.

Keyxosrovanə cami-mey, onda Səyavuş qanı - mey,

San atəşi-Kavusi-Key qılmış zərəfşan sübhü, bax!

Keyxosrov - qədim İran padşahlarından Keylər sülaləsinin üçüncü hökmdarıdır. Firdovsinin "Şahnamə"sinə görə, Keyxosrov Səyavuşun oğlu və Keykavusun nəvəsi olmuşdur; Səyavuş öz ögey anasının ona atdığı böhtan nəticəsində atası Keykavusdan acıq edib, Turana qaçmış, Turan padşahı Əfrasiyabın qızı Firəngizlə evlənmişdir. Orada da yenə böhtana düşüb, Əfrasiyab tərəfindən öldürülmüşdür. Sonralar Firəngiz Səyavuşdan Keyxosrovu doğanda Əfrasiyab uşağı öldürmək istəmiş, lakin, onu qaçırıb, dağda çobanlar arasında böyütmüşlər. İranlılar Turana gələrək, Keyxosrovu tapmış və onu aparıb babası Keykavusa çatdırmışlar. Keykavus atəşpərəstlərə məxsus bir təntənə ilə Keyxosrovu öz yerinə taxta çıxararaq, şah etmişdir.

Xaqani bu beytdə: Keyxosrovun şərab qədəhləri, Səyavuşun qanı, Keykavusun atəşi deyərkən, həmin tarixi əfsanələrə işarə edir. Beytin məzmunu isə açılan sübhün şəfəqlərinin şərab, qan və atəş rənglərilə müqayisə edilməsidir.

Səh. 132.

İslama olmuş hökmran Darayi-dövran Axsitan,

Bəhramdan ədli rəvan, Pərvizi-İran Axsitan.

Dara - İranın qədim padşahlarından - Keylər sülaləsinin doqquzuncu və sonuncu hökmdarı olmuşdur; onun dövründə İran böyük bir əraziyə malik idi. *Axsitan* - Şirvanşahlardan ikinci Mənuçöhrün oğludur; atası azərbaycanlı, anası gürcü olmuşdur. Xaqani və Nizaminin müasiridir.

İranda Bəhram adlı bir neçə hökmdar olmuşdur. Xaqaninin burada adını çəkdiyi *Bəhram* - Bəhram Çubindir, o, Sasanilərin 21 - ci padşahı olan dördüncü Hörmüzü, çox zalım olduğu üçün, yıxmış və onun yerinə keçmişdir. *Pərviz,* yaxud *Xosrov Pərviz* - Hörmüzün oğlu, Nuşirəvanın nəvəsidir. Xaqani bu beytdə Axsitanı keçmişin belə məşhur və güclü şahları ilə müqayisə edir.

Səh. 133.

Sağlıq de xaqan naminə, mey iç, sənə can bəxş edə,

Bəlkə o fateh şah sənə lütf ilə Turan bəxş edə.

Burada *xaqan* deyərkən Axsitan nəzərdə tutulur. *Turan* - Türküstana və ümumiyyətlə, qədimdə türk xalqlarının yaşadığı yerlərə iranlıların verdiyi addır.

Səh .133.

Məclis pərilər yurdudur, bəzmi-Süleyman onda gör!

Quşlar durubdur səfbəsəf, bir xoş gülüstan onda gör!

Bəzmi-Süleyman-Süleyman peyğəmbərin məclisi deməkdir. Dini rəvayətlərə görə, Süleyman bütün heyvanların və quşların dilini bilirmiş; istənilən zaman onlar Süleymanın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məclisində hazır olurmuş. Xaqani burada Axsitanın məclisini Süleyman məclisinə bənzətməklə onun şərəfini yüksəldir.

Səh. 133.

Davud əşkindən nişan peymanəyə qan axdı, qan,

Quştək süralı verdi can, oldu nəvaxan onda, gör!

Davud - Süleyman peyğəmbərin atasıdır. Rəvayətə görə, Davudun o qədər gözəl səsi varmış ki, oxuyanda heyvanlar və quşlar da heyran qalıb, onu dinlərmişlər. Bu səs Şərq şairlərinin əsərlərində "ləhni-Davudi" adlanıb tərif edilir. Lakin Davud peyğəmbər bəzi pis hərəkətlər etmiş və nəticədə etdiklərinə peşiman olub, çox ağlamışdır.

Davudun əşki (göz yaşı) - onun ağlamağına, *odlu nəvaxan* - gözəl səsinə işarədir.

Səh 133.

Kəbə evində heç zaman büt aşiqinə yox aman,

Bütlər evini Kəbə san, Zəmzəm-xumistan onda gör!

Kəbə - Ərəbistanda Məkkə şəhərində müsəlmanların ziyarətgahıdır; Zəmzəm – Kəbənin yanında bir su quyusudur; müsəlmanların əqidəsinə görə, onun suyu müqəddəsdir. *Xumistan* – meyxanə deməkdir. Xaqani bu beytdə demək istəyir ki, bütpərəstlərə Kəbədə aman vermirlərsə, sən get, bütlərin, yeni, gözəllərin yurdunu özünə Kəbə san, meyxanəni də Zəmzəm bil. Yəni: dünyanın kefini, ləzzətini buraxıb, dini vədlərə aldanma!

Səh. 133.

Manqal dönüb olmuş qəfəs, tavusla qarğa həmnəfəs,

Əflakə göz dikmə əbəs, Mərrixü Keyvan onda gör!

Tavusla qarğa - burada od ilə kömür deməkdir. *Mərrix* - Günəş sisteminin böyük ulduzlarındandır. Qan kimi qırmızı göründüyü üçün Xaqani burada odu Mərrixə, kömürü Keyvana bənzədir. *Keyvan* - Zühəl ulduzudur; yeddinci təbəqədə, yəni uzaq bir guşədə olduğundan işığı az gəlir.

Səh 134.

Şimmantuluq bir dayətək, zəncibədən, rumi ürək,

Məryəm kimi doğsun gərək İsanı dehqan, onda gör!

Zəncibədən - bədəni (zahiri görkəmi) qara; *rumi ürək* - içi, qəlbi ağ deməkdir. Xaqani bu obrazlarla qara tuluq içində ağ şəraba işarə edir. İkinci misrada həmin şərab tuluğu hamilə Məryəmə, içindəki isə ruh verən İsaya, yəni şəraba bənzədilir. *Dehqan* - burada şərabçı deməkdir.

Səh .134.

Bərbət düşüb cansız qalar, bir ölçüdə dörd rükn var,

Bir boydadır səkkiz damar, Zöhrəylə Mizan onda gör!

Bərbət - simli bir musiqi aləti; dörd rükn - bərbətin kasasının (başının) dörd küncü; səkkiz damar - onun səkkiz simi deməkdir; *Zöhrə* - dan ulduzu; *Mizan* – Tərəzi bürcü, üç qardaş ulduzlardır. Zöhrə ilə Mizan bürcündəki dörd ulduz bərbətin üstündəki dörd parlaq düyməyə işarədir.

Səh 134.

Bir körpə zəncidir tütək, on dayəsi var ağ, qəşəng,

Doqquz gözüysə şux-şəng, yüz gözsə heyran, onda gör!

Beytin izahı belədir: *tütək körpə zəncidir* - balaca və qaradır; *on dayəsi var* - üstündə on barmaq hərəkətdədir: *doqquz göz* - tütəyin doqquz deşiyi; *yüz gözsə heyran* - onun (tütəyin) gözəl səsinə uyub, mat-mat baxan adamlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh .134.

Dəfsə şahın çovqarına, min nəqşli eyvanına,

Ovlaqdakı cövlanına oxşar yüz heyvan, onda gör!

Cövlan - hərlənmə, dolanma. Burada Xaqani dəfin girdəliyini şahın çovqanına, ətrafındakı bəzəklərin şahın eyvanındakı naxışlara, oynaya-oynaya çalmarkən əl üstündə hərləndirilməsini şahın ovlaqda ov dalınca qoşmasına, iç kənarlarından asılan gümüş və zınqırovcuqları, habelə onda çəkilmiş ovlaq və heyvan surətlərini şahın ovlağında olan cürbəcür heyvanlara bənzədir.

Səh .134.

İskəndəri-atəşsinan, hər sirri Xızrasa duyan,

Keyxosrovi-Arəşkəman həm sənsən, ey şah, həm atan!

İskəndər – məşhur İskəndər Zülqərneyndir; *sinan* - mizraq ucu deməkdir. *Keyxosrov* - İran şahı; *Arəş* - qədim İranda misilsiz bir oxatan olmuşdur;

Xaqani burada həm Axsilanın, həm də onun atası Mənuçöhrün hünərini atəş mizraqlı İskəndərin, Arəş kimi ox atan Keyxosrovun və hər sirri bilən Xızrın hünərinə bənzədir.

Səh. 134.

Yusif kimi qurdla barış, əhd ilə peyman tazələ!

Yusif- Yəqub peyğəmbərin oğludur. Qardaşları onu quyuya atmış və atasına yalandan xəbər vermişlər ki, guya Yusifi qurd yemişdir. Xaqani burada həmin tarixi əfsanəyə işarə edir və Axsitana deyir ki, Yusif kimi qurdlarla barış, yəni düşmənlərini özünə ram et.

Səh. 135.

Dörd ünsürü xar eylə, xar, əşkinlə tufan tazələ!

Dörd ünsürü xar eylə - "bu fani dünyaya qiymət vermə" deməkdir.

Səh .135.

Qəddi-sərvi-bağı-İrəm, Şəmi-Şəbistani-hərəm,

Rüxsarıdır bağı-Əcəm, kuyin gülüstan görmüşəm.

Bağı-İrəm - cənnət kimi bağ; *bəzmi-hərəm* - yaxın və doğma qadınlar, qızlar məclisi; *ruxsar-yanaq*; bağı-*Əcəm* - qızıl gül bağı deməkdir. Xaqani Dəclə kənarında gördüyü bir gözəli bu təşbehlərlə tərif edir.

Səh. 136.

Tərrar zülfündə onun Bağdadı pünhan görmüşəm.

Yəni: onun saçları Bağdad gənclərinin ürəklərini oğurlayıb, özündə gizlətmişdir.

Səh 136.

Zülfüylə Dəclə mişkdəm, Dəclə "dalı"tək zülfü xəm,

Dəclə kimi ondamı həm olmuş xuraman, görmüşəm.

Mişkdəm - mişk qoxusu verən; "dal" - ərəb əlifbasının şəklində yazılan "d" hərfi; "xəm" - bükülmüş, bükük deməkdir.

Beytin mənası: o gözəlin zülfü Dəclə sözündəki "d" hərfi kimi bükülmüş, qıvrım saçlarından Dəclə çayı mişk qoxusu verir və o, Dəclənin axımı kimi xuraman yeriyir.

Səh. 138.

"Zənd"i qələt bildim deyə, atəş mənə durmaz yiyə,

"Quran" qaçar məndən göyə, mən əhli-iman olmaram.

"Zənd" – zərdüştilərin (atəşpərəstlərin) müqəddəs kitabı olan "Avesta"nın eramızın ÜI əsrində bərpasına deyilir. Bu, İskəndər tərəfindən məhv edilmiş əsl "Avesta"nın yadda (hafizələrdə) qalan variantıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani deyir: Mən "Zənd"i qələt bildiyim üçün atəşpərəst deyiləm. "Quran"ı da dərk eləmədiyimdən məni iman əhli saymırlar.

Səh. 150.

Zöhrə - Əsəddə gövhəri, Bəhram - əlində xəncəri,
Ulduzlar olmuş ləşkəri, fəthində "Quran" görsənər.

Yəni: *Zöhrə* ulduzu onun (şahın) gövhəridir; Mars ulduzu (Mərrix ya Bəhram mifologiyada buna müharibə Allahı deyilir) - silahı, ulduzlar-qoşunudur; görünür, Turanı alacaqdır.

Səh 138.

Azdır hələ ki, rəyəti, Bolğar və Xəzran görsənər.

Bolğar - orta əsrlərdə Volqa boyu və Ural dağları ətrafında yaşamış türk tayfalarından birinin adıdır. *Xəzran* - xəzərlər, orta əsrlərdə Xəzər dənizinin şimalında Volqanın hər iki sahilində yerləşən Bolğarlar ölkəsinin cənubunda yaşamış türk tayfalarından birinin adıdır.

Bu misrada Xaqani deyir: görünür, şah bolğarları və xəzərləri də alıb öz dövlətinə qatmaq istəyir.

Səh. 138.

Salsa atı bir nal əgər, Rüstəm onu şəmşir edər,
Mum alsa xatəmdən əsər, "hirzi-Süleyman" görsənər.

Rüstəm - "Şahnamə"nin məşhur qəhrəmanı. *Süleyman* - bütün canlılara ağalıq edən Süleyman peyğəmbər. Onun sehirli üzüyü muma basıldıqda tilsimləri sındırarmış. *Xatəm* - üzük.

Xaqani şahı mübaliğəli şəkildə Rüstəm və Süleymandan üstün tutur.

Səh .139.

Şahdır Günəş, təxti - Əsəd, çərx isə meydan görsənər.

Əsəd - şir, aslan; burada: Aslan bürcü deməkdir. Günəş bu bürcə iyul ayında girir. Xaqani burada şahı Günəşə, taxtını Aslan bürcünə, onun hərəkət meydanını isə göyə bənzədir. Eyni zamanda şair şahın taxta oturmasını Günəşin aslana minməsi obrazında verməklə İran dövlətinin emblemin (Şirü xurşidə) işarə etmiş olur.

Səh. 139.

Göylər - üzəngi, at - külok, sanki Süleyman atlanıb,
Atlı - pəri, at - div kimi, qüdrətli sultan atlanıb.

Qədim əfsanələrə görə, guya külək də Süleyman peyğəmbərin ixtiyarında imiş və hər zaman onu minib, istədiyi yerə gedərmiş.

Səh .140.

Mehdi kimi çalmış zəfər, olmuş çoban, qayğı çəkər,
Dəccaldır dövran məgər? - Qurd kimi düşmən bəsləyər.

Mehdi - xalq arasında Mehdiyi-sahibəzzaman adlanan qeyb olmuş 12-ci imamdır. Dini xurafata görə, guya o, dünyanın axırında, yəni zülm əlindən artıq yaşamaq mümkün olmadığı zaman zühur edəcək, dünyanı düzəldəcəkdir. Dəccal - yalançı, ziyankar bir adam olub, guya dünyanın axırında zühur edib, özünü Mehdi adlandıracaq, lakin Mehdi tərəfindən öldürüləcəkdir.

Xaqani burada şahı Mehdiyə, onun düşmənlərini Dəccala bənzədir.

Səh .140.

Şah əvvəlinci Mehdidir, sani Süleyman olsun həm.
İnsan ona xidmətçidir, cinlər də dərban olsun həm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dini rəvayətə görə, cinlər də Süleyman peyğəmbərə tabe olub, ona qulluq edərmişlər.

Səh 140.

Keyvan - qılınc, nüsrət - yolu, Bəhram - peykan olsun həm.

Keyvan - Zühəl ulduzu; *nüsrət* – kömək; Bəhram - Mərrix (Mars) ulduzu, mifologiyada müharibə allahı; *peykan* - oxun ucu deməkdir.

Şerin mənası: şahın zəfər çalması üçün Zühəl ulduzu ona qılınc, Mərrix ox, nizə olmuşdur.

Səh. 141.

Bəzmi behiştə oxşayır, səhnində sidrə hökmü var,

Sədrin görən Kəbə sanar, hər hökmü fərman olsun həm.

Səhn - həyət, meydan deməkdir. *Sidrə* - guya göyün yeddinci təbəqəsində elə bir yerdir ki, ondan o yana mələklər, nə peyğəmbərlər gedə bilməmişlər; *sədr* evdə, məclisdə birinci (baş) yer.

Beytin mənası: şahın məclisi behişt kimi bir yer, həyəti göyün ən yüksək məkanıdır; oturduğu yer Kəbəyə bənzər, hər hökmü bir fərmandır.

Səh. 141.

Camı - Günəş ol sərvərin, gör, Müştəridir əlləri,

Cam - ayneyi-İskəndəri, mey - abi-heyvan olsun həm.

Yəni: şahın qədəhinə və əlinə baxsan, Günəşlə Müştəri ulduzunu görərsən. Onun parlaq camı İskəndər Zülqərneynin güzgüsü kimidir, içindəki şərab isə dirilik suyudur (İskəndərin güzgüsü Ərəstunun ixtira etdiyi bir güzgü imiş; guya onu İskəndəriyyə şəhərində uca bir qalanın üstündə qoyub, oradan 100 kilometrlərlə məsafədə hərəkət edən düşməni müşahidə edrmişlər).

Səh. 141.

Əzmi bütün bal oldu pər, bəzmi butün fal oldu fər,

Bəxş etdiyi mal oldu zər, fəzli onun can olsun həm.

Əzm - bir işi etməyə möhkəm niyyət, işin qəti həlli; *bal və pər* qol-qanad; fal və fər – təntənə və xoşbəxtlik əlaməti deməkdir.

Səh .141.

Mədhi mənə təlqin edər ilhami-yəzdan hər nəfəs,

Hər fikrimə "amin" deyər İdris və Rizvan hər nəfəs.

İlhami-yəzdan hər nəfəs - hər nəfəsdə Tanrı ilhamı təlqin edər; *İdris* -İdris peyğəmbər; *Rizvan* - cənnətin qapıçısı.

Səh. 142.

Baş hərfidir eydin hilal, olmuş fələkdə bərqərar.

Eyd - ərəbcə bayram deməkdir. Onun baş hərfi şəklində olur; zahiri görünüşü ilə bu hərf yeni Aya (hilala) bənzəyir. Xaqani bu bənzəyişdən istifadə edərk, demək istəyir ki, yerin bayramında göy də iştirak edir.

Səh 142.

Əyri qaşı Zalın yenə dağlar başında parlayar.

Ərəb əlifbasında Zal sözünün birinci hərfi şəklində yazılır ki, bu da həm qaşa, həm də hilala (təzə Aya) oxşayır. Burada Zalın əyri qaşı dedikdə, təzə Ay nəzərdə tutulur.

Səh. 143.

Mütrüb olub tutisayaq, düşmüş işə barmaq dodaq,

Bərbət fəğanı sinədən, mizmar boğazından çıxar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mütrüb - burada: fleyta çalan; bərbət - simli musiqi aləti; *mizmar* - fleyta deməkdir.

Səh143.

Bax bir o qara buynuza, qamı deşilmiş gürzədir,

Ovsunçu qorxmaz heç nədən, gürzə dodağından sorar.

Qara buynuz - burada abnus adlanan sərt və qara hind ağacından qayırılmış musiqi aləti deməkdir. Xaqani onu, formasına uyğun olaraq, qarnı deşilmiş gürzəyə bənzədir. Ovsunçu həmin aləti məharətlə çalan adamdır ki, qorxmadan ilanla öpüşür, yəni, dodağı ilə üfürüb çalır. Bundan sonrakı beytlərdə də musiqi alətləri bədii vasitələrlə yad edilir.

Səh. 143.

Bir dəfvuran ustanı gör, dəfdə şikaristanı gör.

Səf-səf duran heyvanı gör, bir-birlərilə çarpışar.

Sikaristan - ovlaq deməkdir. Burada Xaqani məclisdə çalınan dəfin kənarlarına rəsm edilmiş ovlağın və bu ovlaqda çəkilmiş biri-birilə döyüşən heyvanların şəkillərini təsvir edir.

Səh. 144.

Altun sədəfdir, ya Günəş xərçəngə böylə yar olub,

Xərçəng isə pərvanətək qorxmaz, od ilə oynayır...

Xərçəng - burada Günəşin ətrafında dolanan on iki bürcdən biridir. (Bu bürc Sərətan da adlanır) Günəş bu bürcə iyun ayında girir. Xaqani burada Günəşi bir qızıl sədəfə, Xərçəng bürcünün ulduzlarını isə od qatarına bənzədir və bunun pərvanə kimi Günəşin ətrafına dolandığını göstərir.

Səh. 145.

Bostanı, gah-gah sal yada, onda san üzlü Günəş.

Dörd bir yanı on aypara, hər il üzə bir yol çıxar.

Burada şair: *Sarı üzlü Günəş* - dedikdə qovunu bildirir, on *təzə ay* isə qovunun üstündə olan təbmi xətlərə, on dilimə işarədir ki, bunların da hərəsi bir təzə Aya (hilala) bənzəyir.

Səh. 145.

Ey İsaya naib olan dodağı iki mərcan,

Ey, atəşdən qüdrətilə abi-həyat yaradan.

Naib - əvəz edən, müavin deməkdir. Şerin mənası: ey İsa nəfəsli (Müvəffəqəddin), ey böyük alim!

Səh 145.

Ey, zəhəri sağaldıcı olan hər bir dərmandan!

Yeni: ey acı (doğru) sözləri hər kəsə kömək olan, düz yol göstərən.

Səh 145.

Qanadları altındadır vəslin Simurğ quşunun,

Kölgəsində bəsləmişdir vüsalını Süleyman.

Yeni, sənin ağlına və biliyinə çatmaq mümkün deyildir. Burada Xaqani Müvəffəqəddinin biliyini Simurğ quşunun uca bildiyi, əlilişməz yüksəkliklərə, bu biliyin geniş və dərinliyini isə Süleyman peyğəmbərin sonsuz dövlətinə bənzədir.

Səh 146.

Bülbüllərdən yuz Barbəd əyləşib hər tərəfdə...

Barbəd - Sasani şahlarından Xosrov Pərvizin məşhur çalğıçısıdır.

Səh. 147.

Calalının nərdi üstə doqquz qatlı fələyə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qabaqca o altı oyun bağışlayır hər zaman.

Altı oyun bağışlamaq - mahir oyunçunun oynadığı adama oyunun əvvəlində etdiyi güzəşt deməkdir. Beytin mənası: o, (Müvəffəqəddin) ağıl və tədbir işlərində zəmanənin ən böyük adamlarından qat-qat üstündür.

Səh. 148.

"Əlif" ilə "sıfır" kimi yalqız və boş qalmışan.

"Əlif" Hərfi ərəb əlifbasında şəklində yazılır; bu, eyni zamanda bir, tək deməkdir; "sıfır" (o) - içi boş bir dairədir. Xaqani öz yalqızlığını "əlif"ə, yoxsulluğunu isə "sıfıra" bənzədir.

Səh 148.

Bəli, kiçik bir təndirdən yaranmışdır o tufan!

Kiçik təndir - burada: şairin yanan qəlbi, tufan isə onun göz yaşlarıdır. Bu isə Nuh tufanının çörək bişirən bir qarının təndirindən başladığı əfsanəni də yada salır.

Səh. 148.

Arranlı bir namussuzun axmaqlığı üzündən,

Bax, ey Allah, gör ki, neçə qəlb evi oldu viran.

Arran - Xaqani dövründə Azərbaycanın bir vilayəti, Beyləqan da Arranın bir hissəsi olmuşdur. Burada Xaqani "*Arranlı bir namussuzun...*" dedikdə Mücirəddin Beyləqanini nəzərdə tutur. Mücirəddin Xaqaninin şagirdi olduğu halda, özünü müəllimindən üstün tutmuşdur.

Səh .149.

Odur mühit dənizləri, Ümman, Ceyhun, Nil çayı,

Dağlardansa Cudi, Həri, ya da ki, Qafü Səhlan.

Birinci misrada çay, ikincidə dağ adları verilir. Xaqani bu beytdə dörd böyük çay ilə dörd yüksək dağı göstərərək, aşağıdakı beytdə bunların səkkizinin də Müvəffəqəddinin səxavətindən çox kiçik olduğunu söyləyir.

Səh. 149.

Günəştək saf ürəklisən, Müştəritək təqvalı,

Xasiyyətdə Məhəmmədsən, ehsanda şahi-Mərdan.

Təqvalı - Allahdan qorxan, mömin adam deməkdir; şahi-Mərdan - İmam Əlidir. Bu beytdə Xaqani Müvəffəqiddinin Allaha necə ürəkdən bağlı olduğunu Müştəri ulduzunun Günəşə bağlı olması ilə, onun sifətlərini Məhəmmədin və Əlinin sifətlərilə müqayisə edir.

Səh 149.

Tərif etmək xəyalıyla səndə olan kamalı

Bəndəniz bir Ütariddir, ya da söz bilən Həssan.

Ütarid - Günəşə ən yaxın ulduz, Həssan - Məhəmməd peyğəmbərə ən yaxın olmuş və ona mədhiyyələr yazmış şairdir. Xaqani bu beytdə özünü Ütaridə və Həssana bənzətməklə Müvəffəqəddini Günəşlə və Məhəmmədlə müqayisə edir, eyni zamanda özünün ona ən yaxın xeyirxah bir adam olduğunu göstərmiş olur.

Səh. 149.

Məhəmmədəl-Mustafanın qapısında, bəllidir,

Sədaqətlə xidmət etmiş qulu Ənəslə Səlman.

Ənəs – Məhəmmədin yaxın xidmətçilərindən olmuş, on yaşından iyirmi yaşına qədər (Məhəmmədin ölümünə qədər) ona qulluq etmişdir. *Səlman* (*Səlmani* - fars adı ilə tanınır)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- məşhur alim olmuş, özünü qul kimi Məhəmmədə satdırmışdır. Xaqani burada özünün Müvəffəqəddinə sədaqətini Ənəslə Səlmanın Məhəmmədə olan sədaqətilə müqayisə edir.

Səh. 150.

Bax, bu xurdad ayı içrə çiçək açan ağacın,
Meyvəsini aban ayı yığışdırar bağıban.

Xurdad ayı - farsların üçüncü ayı (may*), aban* – səkkizinci ayıdır (oktyabr). Burada, habelə bundan əvvəl və sonra gələn bir neçə başqa beytdə Xaqani Müvəffəqəddini gec mədh etdiyi ücün ondan üzr istəyir və bunun daha yaxşı nəticəsini necə biləcəyini müxtəlif misallarla təsdiq edir.

Səh 150.

Bir cəza ki, Neman onu gördü Nuşirəvandan.

Neman (Neman ibn Münzir) - orta əsrlərdə Ərəb İraqında öz mərkəzi şəhərinin (Hiyrə) adı ilə adlanan bir ərəb məmləkətinin 18 hökmdarından biri olmuşdur. Hiyrə uzun zaman Sasanilərin hakimiyyəti altında olmuş, onun məlikləri də Sasani hökmdarları tərəfindən təyin edilmişdir. Neman 22 il Hiyrədə Nuşirəvanın və onun oğlu Xosrov Pərvizin vassalı vəziyyətində hakimiyyət sürdükdən sonra Mədainin Qəsr-Kəsra sarayında yaşayan ərəb rəislərindən Zeyd ibn Ədnin fitnəsi ilə Nuşirəvanın əmrilə öldürülmüşdür.

Səh. 157.

Kəsra, üzüyünü görərsə, inan,
O, öz üzüyünü edər ağacdan.

Kəsra - İranın qədim padşahlarından Sasanilər sülaləsinə mənsub olan şahlara verilən ümumi addır. Xosrov sözü də öz etimologiyasına görə Kəsra ilə bağıdır.

Səh. 159.

Qızıl papaqlı səhər qəşəng qəba büründü,
Gecə qunduz xəzini atıb üryan göründü.
Səhər şəfəqə büründü (Günəş çıxdı).
Gecənin boz rəngi yox oldu.

Səh .161.

Bubbu dedi: - Nərgizin Cəm taxtında var yeri,
Yasaməndən gözəldir Əfrasiyab əfsəri.

Bubbu – şanəbubbu quşu. Cəm - Cəmşid. *Əfrasiyab* -"Şahnamə" surətlərindən Turan padşahı.

Mənası: nərgiz gülü taxta oturub, başına tac qoymuşdur. O, yasəməndən gözəldir.

Səh. 164.

Görünsəm də vəsl əlifi kimi hər bir ünvanda,
Heç kəs mənim varlığımdan xəbər tutmaz bir an da.

Vəsl əlifi - mürəkkəb söz arasında yazılıb, oxunmayan "əlif"ə deyilir. Məsələn, Əbdüləli adında olan "əlif" kimi.

Səh. 165.

Əşa kimi dilim səpir saf incini aşikar...

Əşa ibn-Qeys - yeddinci əsrin əvvəlində yaşamış ərəb şairidir.

Səh. 166.

Belə hünər nəsib olmaz yüz Bəşşarə, Ləbidə.

Ləbid- Əbu-Əqil ibn-Rabiə (VII əsr) və Bəşşar ibn Bürd (VIII əsr) məşhur ərəb şairləridir.

Səh 166.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlb bazarı salar Yusifini hörmətdən.

Yusif peyğəmbərin Misir bazarında satılmasına işarədir. Burada Yusif xitab edilən şəxsin heysiyyət və ləyaqətinə işarədir.

Səh 167.

Zahirəu insana oxşar yabanı ot kökü var.

Bu misrada məşhur jenşen xatırlanır ki, onun kökü insana bənzəyir.

Səh 168.

"Bəli" əhdini "Ələstə" verən ötkəm dilidir,

"La ilahe" qapısında dayanan "la" kimidir.

Beytin mənası: O, əzəliyyət çağırışına "bəli" cavabını verərək "Allahdan başqa Allah yoxdur" sözünün əvvəlində olan "La" kimi kəmərini bağlayıb hazır durmuşdur. Yəni: əsil dindardır.

Səh. 168.

İsməti sirr Firidununa bayraqdır onun,

Hümməti zərbədir acgözlüyünə fəğfurun.

Firidun - Cəmşid nəslindəndir. Dəmirçi Gavə üsyan edərək, qan içən Zöhhakı öldürüb, onu taxta oturtmuşdur ("Şahnamə").

Fəğf'ur - Qədim Çin hökmdarlarına verilən ümumi addır.

Səh. 172.

Dağ başında Musa əli görünər.

Musa peyğəmbər guya Tur dağında əlini qaldıranda parlaq işıq vermişdir.

Səh .173.

Gün Şirin üstünə həmişə minir.

Əsəd (Şir) bürcünə işarədir. Günəş bu bürcdə olur.

Səh .179.

Can əcəldən aman çəkir bəzən,

Necə Əfrasiyab Rüstəmdən.

"Şahnamə"də Rüstəm Turan şahı Əfrasiyabın kəmərindən tutub başı üstə qaldırdıqda kəmər qırılıb, Əfrasiyab qaçmışdı.

Səh. 182.

Bu Günəş qərq edib Reyi nura,

O, Xoy əhlinə oldu Ahura.

Rey - İranda şəhər adı. Ahura (Hörmüz) - oda sitayiş edənlərdə xeyir allahı. *Xoy* - Cənubi Azərbaycanda şəhər.

Səh. 182.

Xoyda bu, Şafei əqidə ikən,

Hənəfi oldu Reydə o qəlbən.

Safei, Hənəfi, Maliki və Hənbəli - İslamda dörd məzhələdir ki, onların banilərinin adları ilə məşhurdur.

Səh 182.

Bu, Nəbinin hədisin etdi şüar,

O, Əlinin kəlamını təkrar.

Nəbi - Məhəmməd peyğəmbər. *Əli* - İmam Əli ibn Əbi Talib (I imam).

Səh. 182.

Kəbül-Əhbar Kəbdir, şəksiz.

Kəbul-Əhbar – Kəb ibn Mane həmirayə işarədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, məşhur yəhudi alimlərindən idi. Xəlifə Ömər vaxtı İslamı qəbul etdi.

Səh. 185.

Tacda üçdür, Əmində dörd hərf var,
Bismdə və İllahda da bu qərar.

Xaqani mədh etdiyi Tacəddin ibn Əminəddini tərif edərkən bu adların hərf sayı etibarilə "Bismillah"a uyğun gəldiyini bildirib, bu adlarda şərafət olduğunu nəzərə çarpdırır.

Səh .187.

Bu qəsidəm də yeddiliklə gedir,
Ən gözəl səkkizinci şerimdir.

Bu beytdə Xaqani Məkkə divarından yeddi məşhur şerə (müəlləqati-səbə) işarə edərək, öz şerini onların yanından asılmağa layiq səkkizinci şeir hesab edir.

Səh. 187.

İmrəl-Qeysin qəsidəsin yada sal,
Bu qəsidəm ona yetirdi zaval.

Məkkə divarından yeddi şerin ən qüvvətlisi məşhur Ərəb şairi İmrəl-Qeysin hesab edildiyi üçün, Xaqani öz şerini onun şerindən üstün hesab edir.

Səh. 187.

Üzrümü dinləsən, "Quran"da da var,
"Xalq" sözü sonda, eyləmə inkar!

Xaqani "Quran"ın "nas" (nisan, xalq) sözü ilə bitdiyinə işarə edir.

Səh .191.

Bəsdir Məryəm ismətinə bu dəlil,
Ki, uşağı bir günlükdə açdı dil.

Dini rəvayətə görə Məryəm İsanı atasız doğduğu üçün, onu ismətsiz hesab edənlər vardı. Yeni doğulmuş oğlu İsa dil açıb anasının günahsız olduğunu söyləmişdir.

Səh 192.

Ütaridtək yaz bu mədhi, et bəyan.

Ütarid - Merkuri səyyarəsi. Guya səmada katiblik işini o aparır:

Səh .194.

...sürmə yuyuldu haman.

Burada sürmə gecənin qaranlığına işarədir.

Səh 197.

Qırx səhərin elminin məğzi olub məktəbi,
Nuh ona bir xəlfədir, ruh açar hər mətləbi.

Qırx səhər - Adəmin qırx günə yaranması.

Beytin mənası: Şah Adəmin yaranma hikmətini bilir, Nuh peyğəmbər isə ikinci Adəm adlandığı üçün xəlifə (əvəz edən) hesab edilir. Buna görə də şahın hər əmri mənalı və ürək açandır.

Səh. 197.

...südab cövhəri

Südab bitki adıdır. Onun suyu ilə baş yuyulduqda qara saçın rəngt ağarır.

Səh. 198.

Çıxdı dünən Dəlvdən Yusifim üzdə niqab.

Yusif- Günəşə işarədir. Dəlv - XI bürc.

Burada eyni zamanda Yusifin quyudan dol içində çıxmasına işarə var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 199.

Sürmə olar Yəquba, nura dönər göz yaşı,
Vəsmə Züleyxa tapar, ta qarala ağ başı.

Bu beytdə məşhur "Yusif və Züleyxa" dastanına işarə edilir. Əfsanəyə görə Yusif şahlığa çatanda atası Yəqubun üzü güldü, qocalmış Züleyxa cavanlaşdı.

Səh. 201.

Zöhrə mizrabını vurur çənginə,
Nəşin qızlarını oynadır yenə.

Nəş - Şimal qütbü yaxınlığında ulduz toplusu. *Zöhrə* - (Venera, Nahid) - parlaq səyyarə, məhəbbət ilahəsi.

Səh 203.

Ölkənin Qiydafəsi, zaman gəzib sənə tay,
Rabiədən savayı bir oxşayan görməmiş.

Bu beytdə adı çəkilən *Qiydafə* "Şahnamə"də İskəndərə ağlı ilə qalib gələn qadındır. *Rabiə* isə paklıqda nümunə olan məşhur ərəb qızıdır.

Səh. 204.

Sən sifətdə Sarasan, paklıqda Asiyəsən,
Heç kəsin görmədiyi mehriban Zübeydəsən.

Sara - İbrahim peyğəmbərin arvadı. *Asiya* - hökmdar Fironun arvadı. *Zübeydə* - Abbasilər xəlifələrindən Harun-ər-Rəşidin arvadı.

Səh .207.

Bu yosun basmış olan Ruyindeji,
Tutmağa mən həftxanı seçmişəm.

Bu beytdə "Şahnamə" dastanlarından İsfəndiyarın yeddi tilsim sındırıb, *Ruyindej* qalasına çatması xatırlanır. Xaqani özünü qəhrəman İsfəndiyara bənzədərək, yeddi tilsim sındırıb, eşq qalasını fəth etdiyini bildirir.

Səh .207.

Təkcə Bilqeysi-zamanı seçmişəm. Bu misrada Şirvanşahın bacısı İsmətəddini məşhur "Süleyman və Bil-qeys" dastanında gözəlliyi tərifl ənən Bilqeyslə tutuşdurub, onu öz zəmanəsinin Bilqeysi adlandırır. Sonra "ismətəddinə Məryəm (İsanın anası) hökmü var" dedikdə onu daha da yüksəyə qaldırır.

Səh. 208.

Mənziliçin Fərqədanı seçmişəm.

Fərqədan - səhərə yaxın üfüqdə görünən cüt, parlaq ulduza deyilir. Xaqani bu misrada İsmətəddinin məqamını asimana yüksəldir.

Səh .209.

Təzadı boşladı dörd təb, birləşib qaldı.

Bu misrada dörd təb - dörd ünsürə işarədir. Şair deyir: şahın ədaləti sayəsində ünsürlər arasında olan ziddiyyət aradan qalxdı.

Səh. 209.

Yəqin Xütəndəki yəbruh bitkisi dil açar,
Yaxın zamanda o, Vəqvaq ağacıtək danışar.

Orta əsrdə *Vəqvaq* adlı cəzirədə bir ağac olmuş ki, o külək əsəndə danışığa bənzər səs çıxararmış. Həmin ağac da Vəqvaq adlanmışdır.

Beytin mənası: şahın ədaləti sayəsində Xutən şəhərində (Çindədir) bitən yəbruh adlı ot belə Vəqvaq ağacı kimi dil açar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 210.

Görüncə səndəki Pərvin qıran oxu, hətmən,
Bənat-nəş alar, qorxaraq, tələq göydən.

Pərvin - (Sürəyya) kiçik ulduz toplusu.

Vənat-nəş - Şimal qütbündə 7 bacı adlanan ulduzlar.

Səh. 210.

Qidağ oxu uçar ikən sənin kamanından,
Qidağa əks-sədası çatar dar üstə haman.

Qidağ- Qıpçaq çölündə bir dağın adıdır. Sivri oxları buradan gətirmişlər. Beytdə şahın sərrast ox atması tərifləmir.

Səh. 210.

Başında çətri tutub "Caə Nəsrullah"ı zəfər.

Misranın mənası: Zəfər onun başı üstündə qalibiyyət bayrağı tutmuşdur. "*Caə Nəsrullah* " - Gəldi Allahın köməyilə qalib olan.

Səh .211.

O nüktələr ki, düşər nəzmimə dəqiq, parlaq,
Yəqin ki, sirrini bilməz "Əbu Əli Dəqqaq".

Şeyx əbu Əli Dəqqaq Həsən ibn Məhəmməd - məşhur Sufi şairlərdən biri olub, nişaburludur. Qəznəvilər dövründə (IX-X) yaşayıb. Hicri 405-ci ildə vəfat etmişdir.

Səh. 211.

Yəmak ilə Yalaqı tərif eyləyim necə mən?

Yəmak və Yalaq - türk şahlarının adlarıdır.

Səh. 212.

Əlac gözləmərəm çünki İbn-İshaqqdan.

İbn İshaqq - məşhur təbib Hüseyn ibn İshaqqa işarədir (IX əsr).

Səh. 213.

Xidmətinə çatan dəmdə yaraşarmı Məsihayə,
Buraxsın öz donuzunu bir gün Məscidi-Əqsayə?

Məsiha - İsa peyğəmbər. *Məscidi-Əqsa* - Beytül-müqəddəs (Yerusəlim).

Səh. 214.

Zərli qılıncla Günəş Ay sipərinə vurub,
Tikdi darın çiyninə öz əli ilə ğiyar.

Giyar - yəhudilərin öz üstünlüklərini göstərmək üçün çiyinlərinə tikdikləri sarı parçaya deyilir.

Beytin mənası: Günəş öz zərli şüaları ilə Ayın qalxanına (üzünə) sarı rəng vurub, dağın zirvəsini işıqlandırdı.

Səh. 214.

Oldu Səmak tutduğu nizə əlilə qələm,
Oldu bu əllə İrəm çeşməli bir laləzar.

Səmak - Astrologiyada əlində nizə tutan fələk surətlərindəndir (ulduzdur). *İrəm* - bağ (behişt).

Beytin mənası: Fələyin nizəni qələmə dövdərən ulduzu yer üzündə behişt yaratdı.

Səh 214.

Asəf ikən, ver əlin Hatəm edibdir səni.
Əhnəf ikən, sözlərin Söhbanı xatırladar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Asəf- məşhur Süleyman peyğəmbərin ağıllı vəziri. *Hatəm* - səxavətdə məşhur ərəb dövlətlisi. *Əhnəfibn Qeys* - ağıllı, müdrik alim *Söhban ibn Vail* - fəsahət və bəlağətdə məşhur alim.

Səh. 214.

Bəxşişi Xalid kimi hədsiz olan Yəhyasan,
Cəfər ikən, olmusan rəydə Harunşüar.

Yəhya ibn Xalid və onun oğlu Cəfər əliaçıqlıq və rəhmdillikdə, Harun isə mürüvvətdə ad çıxaran görkəmli ərəb başçılarıdır. Xaqani vəzir Zeynəddini yuxanda adları çəkilən məşhur şəxslərə oxşadır.

Səh 215.

Sünbülənin çərxdə yandı fərəh xırmanı,
Köçdü Günəş Mizana, tapdı o yerdə qərar.

Sünbülə - Astrologiya elmində altıncı bürc. *Mizan* - yeddinci bürcdür. Günəş Sünbülə bürcündə olarkən bahar, Mizan bürcündə olanda payız olur.

Beytin mənası: bahar keçdi, payız gəldi.

Səh.215.

Göylərin zər parçası çatdı Tərəziyə çün,
Gecəylə gündüz bu dəm ölcüdə bir oldular.

Yəni Günəş Tərəzi (Mizan) bürçünə daxil olduqda gecə-gündüz bərabər oldu, payız başladı.

Səh. 216.

Ölkədə qoydu nizam, dinə edir ehtiram,
Tabe olubdur ona ölkədə pəncü çahar.

Pənc - beş hiss. *Çəhar* - dörd ünsür.

Beytin mənası: Vəzir (Zeynəddin) ölkədə nizam-intizam yaradaraq, hisslərini ağlına tabe etmişdir.

Səh 216.

Tusda doğulmuş Həsən aləmə səs salsa da,
İndi də sən olmusan aləm üçün iftixar.

Səlcuq Məlikşahın vəziri Nizamülmülk adı ilə məşhur olan *Həsən ibn Əli* öz idrakı ilə bütün Şərqdə ad qazanmışdı. Xaqani mədh etdiyi vəzir Zeynəddini həmin Nizamülmülkdən üstün tutur.

Səh. 216.

Misrin əzizi olar cah-cəlalınla xar.

"Yusif və Züleyxa" dastanında Misir padişahı *Misrin əzizi* deyə yad edilmişdir.

Səh 218.

Oldu piyada könül, səbr eylə olsun vəzir,
Ta keçə bilsin bu dəm yeddi çətin məvanı.

Xaqani bu beytdə özünü şahmat oyununda olan piyadaya bənzədir. *Yeddi çətin xanəni* keçdikdən sonra vəzirə çevriləcəyini, yəni, maneələrə qalib gələrək, qüdrətli şair olacağını bildirir.

Səh. 219.

Öndə gedir tbinin Cövzası daim onun,
Tale isə arxada nəhs Sərətanıdır.

Beytin mənası: Xaqaninin təbi Cövza kimi yüksək olduğu halda, bəxti (taleyi) Xərçəng (Sərətan) bürcü kimi geri qalır (alçaqdadır).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh 219.

Şeyxi-mühəndis ləqəb, şöhrəti - Nəccar Əli,

Azərin, İqlidisin ustadı, bürhamdır.

Xaqani atası Nəccar Əlini öz sənətinin mühəndisi adlandırır, İbrahim peyğəmbərin atası məşhur *Nəccar Azərdən* və yunan həndəsə alimi *İqlidisdən* (Evklid-eradan əvvəl III əsr) üstün tutur.

Səh .220.

Oldu Tuğanşah mənə, Altun anamdır mənim,

Mən də onun Sonquru, canım onun canıdır.

Xaqani burada atasını səlcuq şahlarından Tuğanşaha, (İbn Alp Arslan - XI əsr), anasını şah arvadı Altuna, özünü isə sonqura (xidmətçiyə) bərabər tutur.

Səh. 222.

Fəna Kərxini tərk etmək, bəqa Bağdadına getmək.

Kərxi - Bağdad yaxınlığında qəsəbə adıdır.

Səh. 222.

Tutubdur yolları cadu, gərək əldə əsa getmək.

Burada Musa peyğəmbərin əjdahaya çevrilən əsasına işarə edilir ki, onunla Musa sehrkarları məğlub etmişdir.

Səh. 223.

Qalıb heyrət quyusunda - xilaskar axtarırsan sən,

Əlində ip, durubdur o, yada salsan, kifayətdir.

Bu beytdə Xaqani eyhamla "Şahnamə" dastanında quyuya salınmış Biyjəni, Rüstəmin ip sallayıb, onu çıxarmasını bildirir. Yəni: hər işdə ümidli olmaq lazımdır.

Səh223.

Onun bayrağı üstündə yazılmışdı "Rəsuləllah",

O qurdu "La ilahə" qəsrində "illa"nı, əlbəttə.

Bu və bundan sonra gəlsən beytlərdə Xaqani Məhəmməd peyğəmbəri mədh edərək, onun Allahın elçisi (Rəsulu) və dilində *"Allahdan başqa Allah yoxdur "* şüarı olduğunu nəzərə çarpdırır. Sonrakı beytdə: "Təbarəka", "Sübhanə", "Ləimrək" - "quran" ayələrinə işarədir.

Səh. 223.

Göyərçin pərdəyə döndü, bulud saldı ona kölgə,

Bu bir olmuş həqiqətdir, verib baş vəqti-hicrətdə.

Peyğəmbər düşmənlərdən ehtiyat edib, Məkkədən Mədinəyə köçən zaman göyərçinlərin ağ pərdəyə çevrilərək, onu gizlətdiyinə və buludun onu dumana bürüyüb, görünməz etdiyinə işarədir.

Səh. 223.

Ona dörd canişin olmuş, xilafət taxtına çıxmış,

Yeri vardır, Nəsirəddin otursun o xilafətdə.

Peyğəmbərin dörd canişini - onun vəfatından sonra hökmran olan dörd böyük xəlifəyə (Xüləfay-e Raşidin) – Əbubəkr, Ömər, Osman və Əliyə işarədir.

Xaqani demək istəyir ki, onun mədh etdiyi Əbu İshaqq Nəsirəddin İbrahim də belə böyük xəlifələr səviyyəsində hörmətə malikdir.

Səh. 224.

Bəli, İbrahimin möcüzlə imanı olan yerdə

Sala bilməz onu ulduzla büt, yoxdur o imkan da.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məkkədə bütləri sındıran İbrahim peyğəmbər möcüz sahibi olub, odda yanmamışdı. Xaqani mədh etdiyi Əbu İshaqq Nəsirəddin İbrahimi də belə kəramət sahibi hesab etmişdir.

Səh. 224.

Biri çox istədi fillə dağıtsın Kəbəni, ancaq,

Onu quşlar daşa basdı, yeri duzəxdir əlan da.

Dini rəvayətə görə, Kəbəni dağıtmaq üçün fillə hücum edən dinsizin başına saysız-hesabsız qaranquşlar dimdiklərində daş gətirib,tökmüş və Kəbəni hücumdan xilas etmişlər.

Səh. 224.

Tökə tənqid odun hərgah paxıllar bir kəsin üstə,

Eşitsə İbrahim adın, o atəş də durar yanda.

Burada Xaqani özünün mədh etdiyi Nəsirəddin İbrahimi möcüzə göstərib, odda yanmayan İbrahim peyğəmbərlə müqayisə edir.

Səh 224.

İnan, əsli səadətdir bu taledə ola insan,

Bunu təsdiq edər İdris, əgər olsa bu dövranda.

İdris - öz elmi kəşflərilə məşhur olan peyğəmbərdir. Qədim elm tarixində bəzən onu məşhur alim Hermeslə eyni hesab edirlər.

Burada Xaqani mədh etdiyi Əbu İshaqq Nəsirəddin İbrahimin böyük alim olduğuna işarə edir.

Səh. 225.

O dövlət ki, sənin vardu", yanar İskəndərin bağrı,

Külə dönməzmi Yəcucun canı, aya, bu atəşdən.

İskəndər Zülqərneyn özünün hərbi səfəri zamanı boyları qısa zülmkar Yəcuc (və Məcuc) adlanan tayfaya qalib gəlib, onları odlamışdır.

Xaqani mədh etdiyi Əbu İshaqqı İskəndərdən də üstün, qüdrətli göstərmək istəmişdir.

Səh 225.

Xızır Bağdad çeşməsindən su içib,

Həm də Musa nuru Bağdaddan keçib.

Şair Bağdadın suyunu abi-həyata bərabər tutur. Musanın Tur dağıvda gördüyü nurun da Bağdaddan keçdiyni bildirir (mübaliğəli tərif).

Səh. 225.

Dəclə gövsər, Kərx isə cənnət bizə,

Xoş hava Tubasıdır nemət bizə.

Dəclə Bağdaddan keçən böyük çaydır, burada o behiştdə axan Kövsər suyuna müqabil tutulur. Bağdadın yaxınlığında olan Kərxi şair əsil cənnət hesab edir ki, onun xoş havası cənnətdə bitən Tuba ağacının rayihəsinə bənzədilir.

Səh 226.

Bağdadın "ba" hərfi görsənsə əgər,

Misr "mim"i "vəsl əlifi"tək itər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Vəsl əlifi" ərəb əlifbasında iki sözü birləşdirib, lakin, oxunmayan "əlif"ə deyilir. Məsələn Əbdülkərim sözünün ortasında duran "əlif" kimi.

Misr sözünün birinci "mim" hərfi görünməz olsa, mənası itər.

Şair bununla Bağdadı Misirdən üstün tutur.

Səh. 228.

Uçmağa aldı oxum ondan lələk.

Oxun kamandan çıxıb, hədəfə düz getməsi üçün onun ardına quş lələyi taxırlar.

Mənası: o mənə kömək etdi.

Səh. 228.

Qəssə oxşatdı məni bağdadlılar.

Qəss - Əbu Ömər Əhməd ibn Əhməd - XI əsrin məşhur ərəb şairidir.

Səh 230.

Ey aləmin parlaq nuru, sən Məsihin həmdəmisən.

Məsih - İsa peyğəmbər, dini rəvayətə görə onun məskəni dördüncü fələk, yəni Günəş olan göydədir.

Buna görə də Xaqani Günəşi İsanın həmdəmi adlandırır.

Səh. 230.

Ey "Ərrəhman" surəsinə hüsnü ilə timsal olan.

"Ərrəhman" "Ouran"ın 55-ci surəsi olub, rəhmdilliyə təbir olunur. Xaqani bu vasitə ilə mədh etdiyi şəxsin rəhmli olduğunu nəzərə çarpdırır.

Səh. 233.

Bəli, bu təxt həm fələkdir, həm də ki, cənnət bağı,

Həm İsanın məskənidir, həm İdrisin yatağı.

Dini rəvayətə görə *İsanın məskəni* dördüncü göy (fələk), Günəş mənzili hesab edilir. Guya İsa göyə, Allahın ("atasının") yanına uçanda anası Məryəmin iynəsi onun döşündə olduğu üçün dördüncü göydə ilişib qalmışdır.

İdris peyğəmbər isə hələ ölməmiş guya, cənnətə gedib, qayıtmışdır.

Burada mədh edilən Əlaəddinin taxtı şərafətdə, mübaliğə üsulu ilə, dördüncü göyə - Günəşə, həm də cənnətə müqabil tutulmuşdur.

Səh. 233.

O səxavət Ağrısıdır, Nuh gəmisi dayanar,

Tur dağıdır, çiskinindən Nil dəryası yaranar.

Dini rəvayətə görə guya dünyanı su basandan sonra, Nuh peyğəmbərin gəmisi Ağrı dağında oturmuşdur.

Tur dağı - Musa peyğəmbərin Allah ilə danışdığı Turi-Sinaya işarədir. Beytdə tərif edilənin səxavəti, əliaçıqlığı mədh edilir.

Səh. 235.

Zəmanənin Cahizidir Əlaəddin aşikar.

Cahiz - məşhur "Əl bəyan vət-Təbyin" adlı əsərin müəllifi olub, çox fəsahətlə danışarmış (IX əsr). Onun müridləri özlərini "Cahiziyyə" təriqətinə mənsub hesab etmişlər.

Səh. 237.

Qan axanda gözümdən, məşq şaşırdı bu qan,

Dedim: necə doğulur hindlidən bir slavyan?

Hindli - qara göz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Slavyan - qanlı göz yaşı.

Burada rənglərin oxşarlığından bədii istifadə edilmişdir.

Səh 238.

Bəli, göz ağladır, "ha" hərfinə dönərsə əgər.

Ərəb əlifbasında "Ha" hərfi iki gözlü yazılır.

Səh. 239.

Məni Vətəndə ikən o, çağırdı ibn-cəla.

İbn-cəla - vətəndən ayrı düşənin oğlu, qərib.

Səh. 240.

Gecə geyindi zireh, bir mühib zülmətdən,

Süha çıxıb, onu deşdi, açıldı köksü həmən.

Tutub da zülməti qovdu Xəzib ilə Səlqa.

Süha, Xəzib, Səlqa - Kiçik Ayı bürcü yaxınında olan ulduzlardır, səhərə yaxın görünürlər.

Xaqani səhərin açıldığını dan ulduzlarının görünməsilə bildirir.

Səh .240.

Sökəndə dan, oxudu "Vəzzüha" xoruz ucadan.

Vəzzüha - işıqlandı deməkdir. "Quran"da *"Vəşşəms və züha"* ilə başlayan surəyə işarədir, yəni Günəş doğdu.

Səh. 243.

Fəzilətim məni Davudtək etdi peyğəmbər,

"Zəbur" qıldı mənə yaxşını, pisi əzbər.

Davud - gözəl səsi olan peyğəmbərdir. Klassik ədəbiyyatda Ləhni-Davud (Davudun səsi) xoş səsə misal olaraq göstərilir. "Zəbur" (və ya "Məzamir") Davud peyğəmbərə nazil olan müqəddəs kitab.

Səh. 243.

Fəzilətimlə cahanda tanınmışam "Əfzəl"

Bu fəzli bəxş qılıbdır xudayi-əzzə və cəl.

Birinci misrada "Əfzəl" sözü burada iki məna verir:

1. Xaqaninin öz ləqəbi (Əfzələddin). 2. Fəzilətli. Xudayi-əzzə və cəl-əziz və calal sahibi - Allah.

Səh. 243.

Tutar əlimi məqamı uca Cəlaləddin.

İraqda din başçısı imam Cəlaləddin Xavəriyə (İsfahaniyə) işarədir. O, şairi zamanın xəlifəsi Əl-Müqtəfibillahın yanına aparıb, ona təqdim etmişdir.

Səh 246.

O, Nuhdur, onda Cudi dağı ləyaqəti var.

Nuh peyğəmbər zamanı dünyanı su basdıqda, o öz tərəfdarlarını gəmisinə toplayıb, qərq olmaqdan xilas etmiş, su aşağı enəndə Nuhun gəmisi guya Ağrıdağın yüksək zirvələrindən biri olan Cudi dağına oturmuşdur.

Səh. 246.

Məgər görübdür onu Turda Kəlimullah,

Həra dağından ovunla enib Həbibullah.

Kəlimullah - Musa peyğəmbər (Allahla danışan).

Həbibullah - İbrahim peyğəmbərə işarədir.

Səh. 248.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bax, necə gör halqalanmış damənimdə əjdaha,
Qorxuram, tərpənsəm, agah olsun heyvanım mənim.
Damən - ətək, əjdaha - burada zəncir deməkdir.
Səh. 248.
Qorxmasın ta gözlərimin nənnisində cüt uşaq,
Əjdahanı gizlədər hər an bu damanım mənim.
Yəni bəbəklərim bu canımı üzən zəncirləri görməsin deyə, onlan ətəklərimlə örtürəm.
Səh. 248.
Boynuma Zöhhak ilanı saldı ahəngər bu gün,
Çün Firidun xəznəsidir əqlü ürfanım mənim.
Xaqani burada *Zöhhak* ilanı dedikdə, boynundakı zənciri nəzərdə tutur; yəni: bədənim dəmir zəncirli olsa da, ruhun elm xəzinəsidir.
Səh. 249.
Gizlədər Xara dağını rəxti-əlvanım mənim.
Xara dağı - çaxmaq daşı kimi bərk qayaları olan dağdır; rəxtiəlvan -rəngbərəng (xara) paltar deməkdir.
Misranın mənası: həbsxananın daş döşəməsini əynimdəki paltar örtür, yəni: mən quru yerdə yatıram.
Səh. 249.
Qütbtək saxlar məni çarmıx dəyişməz nöqtədə,
Bu Zühəlsima iki Mərrix zənəb-sanım mənim.
Zühəl və Mərrix ulduz adlarıdır. Zənəb-buxov deməkdir.
Beytin mənası: həbsxananın bir küncündəyəm, iki buxovla çarmıxa çəkilmiş kimiyəm.
Səh. 249.
Bu dəmir kürsüdə olcaq saqi-lərzanım mənim.
Saqi-lərzanım — titrəyən qol-qıçım deməkdir.
Səh. 250.
"Zər" sözündə iki hərf, var qovuşmaz heç zaman
Ərəb əlifbası ilə "zər" sözü şəklində biri-birinə bitişməyən iki hərflə yazılır.
Xaqani deyir: mənası qızıl olan bu iki hərfin özü biri-birilə birləşmir, o halda mənim qəlbim onunla necə birləşə bilər?
Səh. 251.
Fəqr bətnində yetişdim, nitq əli oldu mamam.
Yəni yoxsullarla keçindim, yalnız dilimlə həyatımı təmin etdim.
Səh. 252.
Bax, əlim - Cövza, qələm - Hut oldu, məna – Sünbülə Sünbül Hutdan doğar, Cövza - qələmdanım mənim.
Cövza - Əkizlər bürcü; *Hut* - Balıq bürcü; *Sünbülə* - Bakirə qız bürcüdür. *Əlim* - Cövza: əlimdə ox var (Cövzanın surətinə; işarədir); *qələm* - hut: qələmim (balıq suda olan kimi) murəkkəbdədir; *məna* - Sünbülə: yəni - yazdıqlarım (hələ heç kəsin yaratmadığı) bakirə əsərlərdir. *Sünbülə Hutdan* doğar: qələmimdən bakirə (eşidilməmiş) şeirlər çıxar.
Səh 252.
Yeddi ölkədə yazarsa kimsə iki beytimi,
Kafərəm, Darül-Qəmamə - dörül-imanım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Darül-Qəmamə - Qəmamə adlı bir arvadın Yerusəlimdə tikdirdiyi kilsədir eyni zamanda, qəmamə-zibil, darül-qəmamə zibillik mənasını verir.

Xaqani deyir: dünyada mənim kimi əsər yaza bilən olsa, qoy mənim məscidin kilsə (yaxud zibilxana) olsun.

Səh. 252.

Bu-Ləhəblərlə döyüşməkdən nə qorxum dəhrdə,

Mustafanın mehri olmuş əldə qalxanım mənim.

Bu-Ləhəb (Əbu-Ləhəb) - Məhəmməd peyğəmbərin əmisi və eyni zamanda düşməni olmuşdur. Məhəmmədi çox incitmiş və təhqir etmişdir.

Xaqani deyir: Bu-Ləhəb kimi alçaq düşmənlərlə döyüşməkdən qorxmuram, Məhəmmədin gücü məndədir.

Səh 252.

Qasimi-Rəhmət, Əbülqasım, Rəsulüllahdır,

Canıma, əqlimə sahib, şanlı sultanım mənim.

Qasimi-Rəhmət, Əbulqasim, Rəsulüllah - hər üçü Məhəmmədin ləqəblərindəndir. Beytdə deyilir: mənim yalnız bir ağam var ki, o da Məhəmməddir.

Səh. 253.

Ki, Dəccalın işin işlər mina rəngli kəlisa?

Mina rəngli kəlisa - göy, asiman deməkdir; burada zəmanə mənasında işlədilmişdir. Misrada deyilir: bu zəmanə alçaqların, yalançıların xeyrinə hərəkət edir.

Səh. 253.

Bax, Məryəmin sapı kimi ikiqatdır bədənim,

İsadakı iynə kimi təkcədir qəlbim mənim.

Dini rəvayətə, görə, Məryəm İsanı götürüb Dəməşqə getmiş və orada hər ikisi yun əyirir, muzd ilə yaşamışlar. *İsanın iynəsi* - guya İsa göyə çəkilib, dördüncü fələyə çatanda, mələklər: - "Dünya malından İsada bir şey varmı?" - deyə onu axtarmış və bircə iynə ilə bir qırıq küpə tapmışlar ki, buna görə onu yuxarı göylərə buraxmamışlar.

Xaqani burada öz vücudunu Məryəmin bükülmüş sapına, yalqızlığını İsanın iynəsinə bənzədir.

Səh. 253.

Sur kimi nəfəslənən ahlarımla hər səhər.

Mavi damın bacasında yerləşən xaç deşilər.

Sur - guya qiyamət günü ölüləri diriltmək üçün İsrafil adlı mələyin çalacağı borudur. İkinci misrada olan xaç sözü ekvator xətti ilə yer məhvərinin (oxunun) birləşərək, yer kürəsinin ortasında əmələ gətirdiyi xaçdır.

Səh. 253.

O dördüncü göydə İsa Günəşlə həmxanasa,

Bundan nə həzz ala bilər İsa quşu - yarasa?

Dini xurafata görə, İsanın möcüzələrindən biri də palçıqdan quş qayırıb, üfürərək, ona həyat verməsi olmuşdur ki, bu quş da guya yarasa imiş.

Xaqani burada demək istəyir ki, yarasa işıqdan heç bir fayda almadığı kimi, mənim də elmimin, sənətimin bu qaranlıq zindanda heç bir faydası yoxdur.

Səh. 254.

Niyə İsa və quşunun özü təbibi olmur,

Ki, o quşun kor gözünə özü bağışlasın nur?

İsanın göstərdiyi möcüzələrdən biri də anadangəlmə korların gözünü açа bilməsi imiş.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani burada kinayə ilə deyir: korları müalicə edən İsa nə üçün özünün yaratdığı quşun (yarasanın) gözünü açmadı?

Səh. 254.

Məryəm xurma ağacıyla göstərmişsə möcüzü,
Məni təbimin paklığına şahid gətirrəm sözü.

Məryəm Beytülmüqəddəsdən qaçarkən yolda İsam doğmalı olur. O, burada bir xurma ağacına söykənir, ağacın dibindon bulaq çıxır, İsa doğulur. Guya mələklər bu bulağın suyu ilə onu yuyurlar. Sonra Məryəm yenə quru xurma ağacını tərpədir, ağacdan təzə xurmalar tökülür.

Xaqani bütün bunları xatırladaraq, deyir: Məryəmin möcüzələrinə xurma ağacı şahid olan kimi, mənim də təbimin bakirəliyinə əsərlərim şahiddir.

Səh. 254.

Necə iki "əlif" durar bir "ətəna" sözündə,
"Tən"in o cür dayanmışam arxasında, önündə.

Ərəbcə yazılan "ətəna" sözünün hər iki tərəfində "əlif" durur. Xaqani deyir: mən də bu cür iki "əlif" kimi "tən"in dalında və qabağında durmuşam, yəni, hər tərəfdən mənə tənə ilə hücum edirlər.

Səh. 254.

Abbasilər qapısına getmərəm kömək üçün,
Səlcuqilər qapısında inləmərəm bircə gün.

Abbasilər - İslamiyyətdə əməvilərdən sonra gəlmiş xəlifələr sülaləsidir. Bunların dövründə islam ölkələrinin birliyi yavaş-yavaş dağılaraq parçalanmış, xəlifəlik öz əvvəlki qüdrətini itirmişdir.

Səlcuqilər - XI-XIII əsrlərdə Yaxın Şərqdə hakimiyyət sürmüş səlcuq türkləridir. Bunların əvvəl vahid olan dövləti sonradan parçalanmış, hakimlər arasına təfriqə və ədavət düşmüşdür.

Xaqani burada deyir: Mən nə Abbasilərdən kömək istəyirəm (onların özləri köməksizdir), nə də Səlcuqilərlə dost olmağı arzu edirəm (onların özləri biri-birinə düşməndirlər).

Səh. 254.

Nə Arslan, nə də Bəğra qapısına gedərəm.

Arslan - Məlikşah Səlcuqinin nəvələrindəndir; İranda 15 il hakimiyyət sürmüşdür. Bəğra - Arslanın oğludur.

Səh. 255.

.Yusif yoxdur, qıtlıq günü eləsin məni təmin,
Birdir mənim gözlərimdə Yəhuda, İbn-Yamin.

Rəvayətə görə, Yusif Misirdə hökmranlıq edərkən, qonşu məmləkətlərə böyük qəhətlik düşmüş və Yusif onlara azuqə vermişdir. *Yəhuda* - Yaqub peyğəmbərin böyük oğlu, Yusifin ögey qardaşıdır. *İbn-Yamin* (Binyamin) - Yəqubun kiçik oğlu, Yusifin doğma qardaşıdır.

Səh. 255.

Əzbərləyib "Əlhəmdüllah", "Əlkəhf"i, "Ərrəhman"ı,
Həm "Yasin"i, həm "Tasin"i, həm "Mim"i, həm "Tahan"ı. "Quran" surələridir.

Səh. 255.

Miqatdan Həccə gedib, təvaf edib Kəbəni,
Səyü cümar icra edib, görüb əsl qibləni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Miqat - yer adıdır; Məkkəyə ziyarətə (Həccə) gedənlər burada xüsusi paltar (ehram) geyirlər. Təvaf edib, Kəbəni: Kəbənin ətrafına dolanıb – deməkdir. *Cümar* - Məkkədə, Mina düzündə qurban bayramından sonra ziyarətçilərin üç gün qaldığı yerdir.

Səh. 255.

Yəhudanın tay-tuşudur düşmənlərim, odur, mənə,
İsa kimi çox qorxuram gözlənilməz tənədən.

Yəhuda - Bəni-Israil; Məryəmə və İsaya qəsd edən.

Səh. 255.

Nədir əmrin, Yəhudanın sitəmindən qorxaraq,
Mən Sükuba kilsəsinə düşüm əlindən qaçaq.

Sükuba - nəsrani abididir; guya İsa yəhudilərin zülmündən qaçaraq, Sükubanın tikdirdiyi kilsəyə getmiş və oradan göyə çəkilmişdir.

Səh. 256.

Nacorməklik hara, Mərxan kilsəsində mən hara?
Bokratilər qapısına gedib, istəyim çara?

Nacorməklik- bütxanada oturmağa deyilir; *Məxran* - kilsə adı; *Bokratilər* - iflis hökmdarlandır.

Səh. 256.

Əynimə bir çuxa geyim, orada "molo" çalım?

"Molo " – keşişlərin kilsədə avazla oxumasına deyilir.

Səh. 256.

Bətriq kimi yurdum olsun qayaların ətəyi?
Bətrib (bitrib)-xristianların ruhani və bunlardan monastıra yaşayan birisinin adıdır
Gedib Rumun heykəlində məktəb açım təzədən?
Mətran qoyan ayinləri başlayım təlimə mən?

Heykəl - Rumda bir məbəd adı; *Mətran (Mitran)* - mitropolit, pravoslav xristianlarında yüksək ruhani dərəcədir.

Səh. 256.

Səqqa oğlu kimi atım ridanı, teyləsanı?
Zünnar asım, bərnəs geyim, olum donuz çobanı?

Səqqa oğlu - Şeyx Sənanın ləqəbi; *rida* - bəzi ruhanilərin atdıqları örtük, *əba;* teyləsan - ruhanilərin başlarına, yaxud çiyinlərinə saldıqları parça; zünnar - vaxtı ilə xristian keşişlərinin bağladıqları rəngli qurşaq*; bərnəs* –nəsranilərin qoyduqları böyük yun papaqdır.

Səh. 256.

Verim böyük Tərsiqusun qarşısında imtahan,
Söhbət açım Cəbrayildən, oğuldan və atadan?

Tərsiqüs (*Tursiqus)* - nəsranilərdə böyük bir ruhani və alim olmuşdur. *Oğul* - İsa, *ata* - müqəddəs ruh (Allah), *Cəbrayil* - Allahın əmrilə Məryəmə müqəddəs ruhu püfləyən mələk.

Səh. 256.

Üsqüf mənim biliyimi üstün tutar, verər həqq,
Yəqub ilə, Nəstur ilə Məlkaya qarşı mütləq.

Üsqüf- xristian qazısı; *Yəqub və Nəstur* - iki keşiş; *məlka*-xristianların böyük ruhanilərindən biridir.

Səh. 256.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəşf edərəm öz əlimlə əsrarını lahutun,
Göstərərəm nə deməkdir həyulası nasutun.

Əsrarını lahutun - Allahın sirlərini; *Həyulası nasutun* - insanlığın maddi aləmi deməkdir.

Səh. 257.

Deyərlər ki, bu, hikmətdə ikinci Bətlimusdur,
Böyüklükdə, hörmətində şöhrətli Filakusdur.

Bətlimus (Ptulamey) - Fludisin oğlu, məşhur həkim Calinusun şagirdidir; İkinci əsrin əvvəllərində İskəndəriyyədə yaşamış böyük riyaziyyatçı və ulduzşünas alim olmuşdur. *Filakus (və ya Filikus)* - qədim Romanın görkəmli alimlərindən biri olmuşdur.

Səh. 257.

Qüstəntinə aparılan yazımın hər kəlməsi,
Ölülərə hünut olar, dirilərin sürməsi.

Qüstəntin - Xaqaninin məktub yazdığı Rum hakimi; *hünut* - ölülərin uzun zaman qalıb, çürüməməsi üçün meyitə sürtülən xoş qoxulu maddədir.

Səh. 257.

Məsihanın eşşəyinin peyinini basıb mən,
Burun qanın dayandıram qoca abidin fövrən.

Məsiha - İsa peyğəmbərin ləqəbidir. Eşşək peyini vaxtı ilə burundan axan qanı kəsmək üçün bir dərman kimi işlənirmiş.

Səh. 257.

Üç "üqnumu", üç "qurquru" öyrənərəm mən əzbər.

Üqnum - əsil, əsas; *üç* üqnum - ata, oğul və müqəddəs ruh deməkdir. (yeni, xristianların İsanı ya Allah, ya allahın oğlu, ya da allahın ruhu adlandırdıqları Allah üçlüyü.) "Qurquf" - nəsranilərdə bir kitabın adıdır.

Səh. 257.

Dara çəkilən zaman İsa dedi gedirəm,
Yuxanda öz atamın səsini dərk edirəm?

Burada Xaqani İsanın guya "Mən allahın oğluyam" demiş olmasına işarə edir.

Səh. 257.

Əgər Zərdüşt dini ilə maraqlanarsa qeysər,
Əlim ilə "Zənd-Avəsta" ayinləri dirilər.

Zərdüşt - atəşpərəstlərin peyğəmbəri; *"Zənd-Avəsta"* - Zərdüştün əsəridir.

Burada Xaqani Rum qeysərinə, onun üçün Zərdüşt ayinləri yazmağa hazır olduğunu söyləyir.

Səh. 258.

Deyirəm ki, od nə idi, haradan yarandı "Zənd"
Ki, onların ikisindən ad aldı zənd-pazənd?

Zənd-pazənd - qədimdə od əldə etmək üçün işlədilmiş olan iki ağac alətin adıdı -; üstə qoyulub burulanı *zənd*, altdakını pazənd adlandırmışlar.

Səh. 258.

Bir möbədi tarazıya qoyub, axtarsam taraz,
Luka oğlu Qəsta onun yəqin pərsəngi olmaz.

Möbəd - zərdüştilərin kahini; *Luka oğlu Qəsta* -Abbasilər dövründə yaşamış məşhur tibb alimi olmuşdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 258.

Məşhur olan Çin "Ərtəng"i "Tənglüşa"dan gözəl.

Ərtəng – məşhur nəqqaş Maninin kitabıdır; son dərəcə gözəl rəsmləri olduğundan, Mani bu kitabın göydən gəlmiş olduğuna xalqı inandırırmış.

"Tənglüşa " - Lüşa adlı bir rum alimimin rəsmlər kitabıdır; Lüşa bu kitabı Maninin "Ərtəng"inə müqabil çıxarmışdır.

Səh. 259.

Çaxmaq daşı, Əqsa deyri, Beytül-müqəddəsə mən,

And verirəm Şəlixaya, Ənsariyə, pak ikən.

*Əqsa deyri (*və ya məscidi-Əqsa) - Davudun və Süleymanın Beytül-müqəddəsdə tikdirdikləri kilsədir. *Şalixa* - İsanın ən yaxın adamlarından biri. *Ənsar* - islamı yaymaq üçün mübarizədə Məhəmmədin köməkçilərindən olmuşdur.

Səh. 259.

And verirəm zünnar ilə, paqus ilə qəndilə,

Yuhənnaya, Bəheyraya, Şəmmasa, gəl, rəhm elə.

Yuhənna - Yəhya peyğəmbər; *Bəheyra* (*Büheyra)* - məşhur nəsrani rahiblərindən olmuşdur. Guya o, Məhəmmədin peyğəmbər olacağını 20 il qabaq söyləmişdir. *Şəmmas* - Məhəmmədin tərəfdarlarından biridir.

Səh. 259.

O təslisə, o tərbiə, təsdisə, səlasəyə.

Təslis - əsil, əsaq; tərbi - xaçın dörd guşəsi; *təsdis* - dünyanın altı cəhəti (sağ, sol, ön, arxa, yuxan, aşağı*); səlasa* - Gün, Ay, ulduz, yaxud cəmadat, nəbatat və heyvanat deməkdir.

Səh. 264.

Qüreyşilər bayrağınla sənin oldu səfərbər,

Yəmanilər xəncərinlə sənin oldu müzəffər.

Qüreyşilər - Hicazda ərəb qəbilələrindən biridir; Məhəmməd bu qəbilədən çıxmışdır. *Yəmanilər (Yəmənilər)* - Yəmən əhli; İslamiyyətdən qabaq yəmənilər qonşu xalqların təzyiqi altında olmuş, islamiyyətdən sonra isə bu düşmən təsirindən qurtarmışlar.

Səh. 264.

Söz Misrinin Yusifləri sağlığına hər zaman

Nuş eyləyir mənaların badəsini şadiman.

Yəni: ən gözəl şairlər sənə mədhlər yazırlar.

Səh. 268.

Gözüm içindəki bir cüt gözəl doğar hey qan,

Odur ki, basdırıram qanlı körpələr hər an.

Bir cüt gözəl - bəbəkler. *Qanlı körpələr* - qanlı göz yaşları; Beytin mənası: gözlərimdən axan qanlı yaşları silirəm (basdırıram).

Səh. 268.

Yazım sarı üzümün zəfəranı ilə dua,

Bəlkə qısır bəxtimi duam uşağa qoya.

Orta əsr dua kitablarında qısır qadınların uşaq doğması üçün zəfəranla dua yazardılar.

Xaqani həbsdə üzünün saraldığını zəfərana oxşadaraq, onun suyu ilə (göz yaşı ilə) "dua" yazmaq istəyir ki, bəlkə həbsdən azad ola.

Səh. 268.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sinəm çapıldı dağın bağrıtək, günahı budur,
Ki, məxzənində Günəş parçası qalıb, qorunur.

Günəş parçası - şairin qəlbinə işarədir.

Mənası: fələk Xaqaninin dağ kimi sinəsini parçalayır ki, köksündə saxlanan Günəşi (ürəyi) çıxartsın.

Səh. 268.

Qəfəsdə bağlı qalan Zal kimi fəqan edərəm Ki,
bəlkə Bəhmənə təsir edə mənim naləm.

Zal - "Şahnamə" surətlərindən İran sərkərdəsi Samın oğlu. Bəhmən - mələk adı, Sasani şahlarından birinin adı... Burada Xaqani özünü atılmış Zala bənzədir. Bəhmən dedikdə onu həbsə salan Şirvanşah Axsitanı nəzərdə tutur.

Səh. 269.

Qəm ilə yüklü dəvə iynənin gözünü tapar.

Dini ehkama görə dəvə iynənin gözündən keçəndə kafirlər behiştə gedər. (Yəni: heç vaxt getməz)

Xaqani mübaliğə ilə deyir ki, həbsdə o qədər qəm çəkib, incələr ki, iynənin gözündən keçə bilər. Yəni: tam incəldikdə bəlkə həbsdən azad olar.

Səh. 269.

El içindən qaçaq düşən qəribə Simurğəm,
Odur ki, Zal əvəzi munisim olubdur qəm.

Simurğ - vücudu görünməz olan əfsanəvi quş. Guya o meşəyə atılmış Zalı bəsləmişdir.

Xaqani özünü xalqın gözünə görünməyən Simurğa, qəm, kədərə isə könlündə bəslədiyi Zala bənzədir.

Səh. 270.

Dəvə-pişik oyunu oynayır bu aləm əgər,
Əlimdə təsbih olur gah mənim də, gah sağər.

Dəvə-pişik təmsili xalq arasında məşhurdur. Guya bir ərəb itmiş dəvəsini taparsa, onu bir dinara satacağına and içmişdi. Tapdıqda dəvənin boynuna bir pişik bağlayıb, dəvəni bir dinara, pişiyi isə min dinara satmaq istəyir, ancaq ikisini bir yerdə.

Xaqani bu məşhur el rəvayətinə toxunub, əlindəki təsbehi - dəvə, sağəri (badəni) - pişik mənziləsində tutur.

Səh. 270.

Daş hərləyən öküzəm, bağlanıb gözüm möhkəm.

Burada Xaqani özünü dəyirman daşını hərləyən gözü bağlı öküzə bənzədir ki, aramsız kədər içərisində hərlənib durur.

Səh. 271.

Behişt bağına can, qəlb, ağılla çatsam mən,
Bu üçlük ordakı səkkizliyi edər məskən.

Üçlük - can, qəlb, ağıl – yəni Xaqani. *Səkkizlik*- behiştin guya səkkiz qapısı var ki, hamısı şairin üzünə açılmış olar.

Səh. 271.

Fələkdən istəsəm isti, soyuq təam əgər,
İki fətirlə fələk süfrəmi müzəyyən edər.

İki fətir - isti Günəş və soyuq Aya işarədir.

Səh. 271.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəniyle Pərvinin illərlə bəslənib Nəsreyn,
Tamamlayar o iki quşla süfrəmin bəzəyin.

Pərvin - səmada səpələnmiş yeddi ulduz. (Xaqani onlan dənə bənzədir.) Bu ulduz topasını bəzən Sürəyya adlandırırlar. *Nəsreyn* - Səmanın şimal qütbündə yan-yana durmuş iki işıqlı ulduzdur.

Xaqani deyir ki, həbsxanada bu ulduzlar mənim süfrəmi bəzəyir, yeni, yeməyə bir şey tapmıram.

Səh. 271.

Ağac əgər o zaman od veribsə Musaya,
Nə vacib onda gətirmək odu bu səhraya?

Dini rəvayətə görə guya Musa peyğəmbər yaşıl ağacdan od almışdır. Xaqani həbsxanada od (hərarət) olmadığını nəzərə çarpdırır.

Səh. 271.

Gətirdilər mənə Bəhram kimi əgər cəhrə,
Qılıncla qarətə keçmək kimə verər bəhrə?

Tarixdən məlumdur ki, Hörmüz Bəhrami-Çubinə cehrə göndərdikdən sonra münaqişə dayandırılmışdı.

Səh. 271.

Hələ bu dul qandan doğmamış kərəm gəlini.

Dul qarı - dünyaya işarədir ki, onda heç vaxt kəramət olmamışdı.

Səh. 272.

Mənijə Bijən ilə yalvarar ki, serimdən,
İşıq saçam quyuya ki, dibindədir Bijən.

Bijən və Mənijə - "Şahnamə" dastanlarında sevişən surətlərdir. Bijən quyuya salındığı zaman onu Rüstəm çıxarmışdır.

Səh. 273.

Nə üzük, nə təxt varımdır, "rəbbi-həbli" söylərəm,
Turu atəşsiz "ənəllah" övçünü seyr eylərəm.

Nə (Süleyman peyğəmbər kimi sehrli) üzüyüm, nə Cəmşid kimi taxtım var, "Allah məni də belə yaratmışdır" söylərəm. Turda atəşsiz Allahın mənliyini seyr eylərəm (Musa peyğəmbər Tur dağında guya Allahı od, nur şəklində görmüşdü).

Səh.274.

Qoysa da şeşxanədə beş hiss, dörd ünsür məni,
Udmuşam nərd oynayan dünyada hər üç növbəni.

Şair fələyi oyunbaza, dünyanı nərdtaxtaya bənzədərək, özünün beş hiss və canının dörd ünsürü əlində mars qaldığını bildirsə də, oyunun üç növbəsini də udduğunu bildirir. Yəni: özünün maddi ehtiyacına baxmayaraq, vüqarını alçaltmır.

Səh. 294.

Bir zaman "ən nəbüdül əsnam" idi dil əzbərim,
İndi "inni la ühübbül-afilin"dir rəhbərim.

Beytin mənası: Bir zaman mən bütlərə sitayiş edirdimsə də, indi "boş şeyləri sevmirəm"deyirəm. ("Quran"dan alınmış ibarələrdir).

Səh. 274.

Divlər ilə çarpışarkən, doğrusu, mən Rüstəməm,
Mən gərək Simurğtək insan gözündən gizlənəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Şahnamə"qəhrəmanı Rüstəm-Zal divləri məğlub etdiyi kimi Xaqani də qara qüvvələri məhv etməyə qadirdir, lakin o, əfsanəvi Simurğ kimi insanların gözünə görünməməyi daha üstün tutur.

Səh. 274.

Xalq atan yoxsulluğu mən qaldırıb etdim qəbul,
Sam Zalı atdı, mən aldım, bəslədim, bildim oğul.

Xaqani xalqın kənar etdikləri yoxsulluğu qəbul edərək, Simurğ Zalı bəslədiyi kimi onu qəbul etmişdir.

Burada Zal - yoxsulluq timsalı kimi qələmə alınır.

Səh. 275.

Mən Əsəd bürcü ikən, Cövzaya yoxdur nisbətim.

Əsəd bürcü dedikdə dördüncü - Şir bürcü nəzərə alınır. Buna görə də o üçüncü bürc bitişik Uşaq (Oğlaq) bürcünə meyl etmir. Şair bununla fəxriyyə üslubu ilə öz vüqarını yüksək tutur.

Səh. 275.

Mən doğulduqda ağıl təlqin qıldı Adəmə:
"Leysə min əhlik" - buna səhvən sən övladım demə!

"Leysa min əhlik"- Bu sənin əhlindən deyil deməkdir. Yəni: Xaqani adi insan deyil, onda mələk xasiyyəti var.

Səh. 275.

Olmadım Əshabi-kəhfə it, Məsihayə ulaq.

Əshabi-kəhf- mağara adamları. Dini rəvayətə görə İslamdan qabaq II əsrdə zalım Dəqyanusun şahlığı zamanı altı nəfər bütpərəst xristianlardan qaçıb, mağarada gizlənmək istərkən, yolda onlara bir çoban da itilə qoşulub, guya mağarada 300 il yatmış halda qalmışlar. İsa peyğəmbər (Məsiha) da çox zaman eşşəklə gəzmişdir.

Xaqani deyir: mən nə Əshabi-kəhf iti, nə də İsanın eşşəyi olmaram.

Səh. 376.

Həmdəməm Haruta, həm bərbət calan o arvada,
Zöhhak əfisi, dəmirçi zindanı üstə qada.

Harut (və Marut) behiştdən qovulmuş iki sehrkar mələk. Guya bir quyuda başı aşağı asdırılmışlar. *Zöhhak* - qaniçən hökmdar. Çiyinlərində baş qaldıran ilanlara insan beyni yedirdərdi. *Dəmirçi - Gaveyi-ahəngərə* işarədir. *Bərbət çalan arvad* - mifologiyada Zöhrə ulduzu nəzərdə tutulur. *Bərbət* - musiqi aləti. Qada – dəmirçi zindanı üstündə tumcu alət.

Beytin mənası: Mən sözlə sehr yaradıram, Zöhrə kimi məhəbbəti tərənnüm edirəm. Dəmirçi Gavə kimi zalım Zöhhaka qaniməm.

Səh. 376.

Mən ki, ʾia mövla ləhüm"ü dəftərimə salmışam,
Küfr təlimin "nəsüllah" məktəbində almışam.

Beytin mənası: Onların ağası yoxdur (nadandırlar). Küfr təlimini əsil Allah məktəbindən almışam.

Səh. 376.

Hecə Zühəl rəngli dəmirtək od mənim bətnimdədir,
Həm "nəayim"tək hərisəm, çeynərəm odlu dəmir.

Zühəl - Satum səyyarəsi. Nəayim - dəvəquşu. Əfsanəyə görə o, od yeyən quş hesab edilir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani deyir: mənim qəlbim od püskürən Zühəl kimi olduğundan, dəvəquşu kimi od yeməkdən çəkinmərəm.

Səh. 376.

Zahidəm, amma, nə Yəhyatək, brəhmən seyrətəm,
Şairəm, amma, nə Həssantək, Ləbidi tiynətəm.

Yəhya peyğəmbər Allaha həddən artıq ibadətlə məşğul olmuşdur. Brəhmən dini oda sitayiş etmiş olan hind dinlərindəndir. *Həssan Məhəmməd* peyğəmbəri məhd edən məşhur Həssan ibn Sibit, *Ləbid* isə şeri Məkkədə divardan asılan cahiliyyət dövrünün şairlərindən olub, Həssanın əleyhinə olmuşdur.

Xaqani təvazökarlıqla özünü Brəhmən və Ləbidə oxşadır.

Səh. 377.

Atdı xaqan, basdıran torpaqda, qəm Qarunuyam,
Qərq edin, Şirvanlılar, çayda ki, şər Fironuyam.

Qarun - Musa peyğəmbər zamanı ən dövlətli və xəsis bir şəxs olmuşdur.

Firon - Musanı məhv etmək istəyən hökmdardır ki, çayda qərq edilmişdir. Xaqani qəm Qarunuyam dedikdə "heç kimdə mən qədər qəm olmaz" demək istəyir.

Səh. 280.

Məlumdur hər bir kəsə, görsə əsa, qorxar ilan,
Söylər: əsa şəklindəyəm, amma qənimimdir əsa.

Burada Musa peyğəmbərin əsasına işarə edilir ki, o, əlindəki əsanı yerə atdıqda, əsa əjdaha olub ilanları udur.

Səh. 283.

Bir quru barsız ağacdırlar o Nuhun qovmutək,
Bir qarının təndirinə bağlanıb ümmidləri.

Nuh peyğəmbər dünyanı su basacağını xəbər verərkən onun qovmu (Əhl adamları) ona inanmayıb, kömək etməmişdilər. Əfsanəyə görə tufan qarının təndirindən başlanmışdır.

Xaqani müasir paxıl adamları Nuhun qovmuna oxşadaraq, onları quru barsız ağac adlandırır.

Səh. 284.

Qoysalar da şerimə qarşı çürük hədyanları,
Bu - Türabın qarşısında Bu - Ləhəbin yox yeri.

Bu-Türab - Dördüncü xəlifə imam Əliyə işarədir. *Bu-Ləhəb* Məhəmməd peyğəmbərin əksinə gedən əmisidir.

Xaqani uz şerlərini imam Əli ləyaqətinə, ona qarşı yazılan şerləri isə ləyaqətsiz bu-Ləhəbə, çürük laqqırtıya bənzədir.

Səh. 285.

Cəbrayıl könlüm xədənginə özü vermiş qanad,
Ehtiyacım yox, hərifdən istəyəm quzğun pəri.

Oxun düz istiqamətdə uçması üçün onun arxa hissəsinə quş qanadı geydirərdilər.

Şair deyir: mənim könül oxumda (şerimdə) Cəbrayıl mələyin qanad lələyi var. Mənə qartal lələyi lazım deyil. Yəni: mənim şeirlərim hədəfə sərrast dəyir.

Səh. 286.

Mən məgər Əbrəhənin mindiyi divanə filəm,
Getməyə Kəbəyi-dəyyanə məni qoymurlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbrəhə ibn Səbbah - VII əsrdə Yəməndə hakimiyyət sürmüş bir padşahdır; Ərəbləri Kəbədən ayırıb, öz kilsəsinə ibadətə çağırmışsa da, xalq ona qulaq asmamış və buna görə də Kəbəni dağıtmaq üçün qoşun və fillərlə hücuma keçmişdir. *Kəbəyi-dəyyan* - doğruluq və düzlük yeri mənasındadır.

Səh. 287.

Bir öküztək bu dəyirmanda salıb boynuma ip,
Atmağa ağzıma yağdanə məni qoymurlar.

O zaman böyük dəyirmanları öküz və başqa bu kimi heyvanlarla işlədirdilər; yağdanə - bitki adıdır.

Səh. 287.

Müştəritək yerim olmuş ikiüzlü Cövza,
Qaldım avərə, Sərətanə məni qoymurlar.

Müştəri ulduzu - Cövza bürcü dairəsindədir. Cövza iki əkiz uşaq şəklində olduğu üçün Xaqani onu ikiüzlü adlandırır və bununla da öz mühitinin ikiüzlülər yeri olduğunu göstərir. *Sərətan* - Cövza ilə qonşu bürc olub, eyni zamanda xərçəng deməkdir. Məlumdur ki, xərçəng geri yeriyir. Xaqani bununla saraydan geriyə qayıtmaq arzusunda olduğunu, lakin, onu buraxmadıqlarını bildirir.

Səh. 288.

Yoxsa, Bəstamə gedənlər hamısı yurdsuz olur?

Bəstam - Xorasanın cənub-şərqində yerləşir, vaxtı ilə məşhur şəhər olmuşdur.

Səh. 288.

Əql ilə rəy mənim qəlbimə Mizan olmuş,
Peyk olam Əqrəbi-üsyanə, məni qoymurlar.

Mizan və Əqrəb - iki qonşu bürcdür; *peyk* - xəbərçi, həmçinin böyük bir ulduzun etrafında dolanan kiçik ulduz deməkdir. Xaqani deyir: əqlim də, qəlbim də mənə deyir ki, Üsyan əqrəbinin dalınca düşmə, ona xidmət etmə.

Səh.288.

Düşməyə vadiyi-xəzlanə məni qoymurlar.

Vadiyi-xəzlan - özbaşına, köməksiz qalmaq.

Səh. 290.

İlahiyyat ərşinə səni üzlət çatdırar.
Yəni ancaq saraydan çıxıb getməklə həqiqət yoluna düşərsən.

Səh. 294.

Namərd süfrə açsa, desə "əssəla" çörək!

Əssəla (səla) - çağırışdır. Burada Xaqani demək istəyir ki, ac qalaram, alçaqların cörəyini yeməərəm.

Səh. 298.

Məhəmməd Əbu-Cəhli xəcil etdiyi kimi...

Əbu-cəhl (əsl adı *Əbu-Həkəm)* ərəblərin qüreyş rəislərindəndir. Məhəmmədin və İslam dininin düşməni olmuşdur. Əbu-Cəhl öldürüləndə Məhəmməd: "Ərəb xalqının Fironu öldürüldü" demişdir.

Səh. 300.

Bərcis ulduzutək Hutdan gəlmişəm,
Sərətan bürcüdür duracağım yer.

Bərcis – Müştəri ulduzu, Günəş ətrafında dolanan ulduzların ən böyüyü, Günəş aləminin beşinci planetidir. *Hut* - Balıq bürcü deməkdir. Bu şer Xaqaninin dünyaya

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iltifatsızlığını və eyni zamanda öz mühitindən və dövründən narazı olduğunu ifadə edir. *Səh. 302.*

Qalmışıq Tai, Yəminindən geri,
Onların bizdə səxasın görmürəm.

Tai - (Hatəmi-Tai) öz səvətilə məşhur olan ərəbdir (VII əsr).

Yəmini – Qəznəvi Bəhramşah zamanı yaşayan (X əsr) məşhur alim Əmid ibn Osmana işarədir.

Səh. 303.

İndi ünsürlər məhəbbət doğmayır,
Dörd ananın mərd balasın görmürəm.

Dörd ana - dörd ünsür (od, su, hava, torpaq).

Beytin mənası: indi analar mərd oğul doğmayır.

Səh. 315.

Bu fələyin xonçasında var ancaq,
İki fətir - biri sarı, biri ağ.

Xaqani bədii ifadələrlə səmanı *fələyin süfrəsinə, Günəşi* - ağ (isti), Ayı sarı (soyuq) fətirə bənzədir.

Səh. 315.

Hümmətim var yenilməz Rüstəm kimi,
Məhv edərəm mən tamahın divini.

Şair hümmətini, "Şahnamə" qəhrəmanı Rüstəmə bənzədərək, tamahkarlıq evini onun əlilə viran edir. Yəni, özünün tamahkar olmadığını bildirir.

Səh. 318.

Söylə, Ey Xorasan, Şəhabın hanı?
Söylə, ey İsfahan, ne oldu Camal?

Şəhab - şair Şəhabəddin Xaqani ilə müasirdir *Camal* - isfahanlı Cəmaləddin Əbdürrəzaqdır; Xaqanilə müşairəsi olmuşdur.

Səh. 329.

Necə vəfa ayəsi unudular "Quran"da,
"Ufu biəhdi" sözü var surə qurtaranda.

"Ufu biəhdi" - əhdinə vəfa elə, verdiyin sözə əməl et!

Səh. 330.

Bu oyunbaz fələyi yeddi şirindil uşaq,
Al diliylə edibdir öz əlində oyuncaq.

Yeddi uşaq - yeddi səyyarəyə işarədir. Orta əsr geosentrik (yerin mərkəz olması) təfəkkür və ya qədim astrologiyaya görə bu səyyarələr belə adlanır: Ütarid, Zöhrə, Ay, Günəş, Mərrix, Müştəri, Zühəl.

Səh. 333.

"Səfər" o nöqtə ilə çevrilib oldu "səqər".

Ərəb əlifbasında *səfər* sozünün üstünə bir nöqtə də qoyulsa səqər əmələ gələr. Səfər – səyahət, *səqər* - cəhənnəm.

Xaqani deyir: Mənim səfərim cəhənnəm əzabına çevrildi.

Səh. 334.

Eyib tutma Şirvana, Xaqaniyə gülmə sən,
Demə "şər"lə başlayan şəhərin oğluyam mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani bu və bundan sonra gələn beytlərdə sözlərin yazılışı ilə əlaqədar məna çalarları göstərir. O, deyir: Şirvan şər sözüylə başlayırsa, o şər yeri deyil, xeyir yeridir. Bədəxşan bəd sözüylə başlayırsa, o xoş bir məkandır. Təbrizin əvvəli təb (qızdırma) ilə başlayırsa, ora sağlamlıq məkanıdır və s.

Səh. 338.

Bir ovucdur onlar - İsmayililər,
Bunlar bir dəstədir - israyililər.

İsmayililər - yeddinci imamın oğlu İsmayili axırıncı imam hesab edib, firqə yaratmış və terror vasitəsilə Yaxın Şərqdə hökmranlıq etmək iddiasında olmuşlar. Onların ən görkəmli başçısı Həsən Səbbah olmuşdur (XIII əsr). İsrayililər yəhudilərə işarədir. Xaqani onları pisləyir.

Səh. 3639.

Biri "haşa"ru "haşa"dan ayırmaz,
Biri "Bəhmən" nədir, "bəhmən"nə, qanmaz.

Haşa və Bəhmən sözlərinin iki mənası var. *Haşa* - həm inkar odatı, həm də dərman otudur. Bəhmən həm şəxsi qələndərdə ay adı, həm də qar topası deməkdir.

Xaqani yuxanda adları çəkilənlərin nadan olduqlarını nəzərə çarpdırmaq istəyir.

Səh. 339.

Giv, Bəhmən axmaqla çıxmaz cidala.

Giv və Bəhmən "Şahnamə" qəhrəmanlarındandır. Xaqani özünü onlara nisbət verib, axmaqlarla vuruşmaq istəmədiyini bildirir.

Səh. 339.

Fil elə qorxmaz ki, sapand daşından,
Qorxar Əbablin kiçik quşundan.

Əbabil - qaranquş fəsiləsindən quşlardır. Dini rəvayətə görə onlar Məkkədə filin başına daş yağdırıb, onu xəsarət verməkdən çəkindirmişlər.

Səh. 340.

"Kaf" ilə "nun", "yasin" murad və rəhmət,
Onun kərəminə bağlıdır fəqət.

"Kaf" - "Quran"ın "Kaf ha ya eyn sad" adlı surəsi. *Nun* - "Nuni-vəl-qələm" surəsi. "Yasin"- çox oxunan "Yasin" surəsidir.

Xaqani deyir: bu surələrin oxunuşundan məqsəd Allahdan kömək ummaqdır.

Səh. 340.

Onun əlindədir kilidi, bilin,
Yeddi göy günbəzin, səkkiz behiştin.

Mənası: Yeddi səma və səkkiz behişt qapısının açan Məhəmməd peyğəmbərin əlindədir. Ondan kömək ummaq lazımdır.

Səh. 342.

Bələmdə kəhf itini yüz aslanə satmaram.

Bələm (ibn Baur) - Musa ilə müasir bir abid olmuş, vaxtı ilə ruhani bir adam kimi tanınmış, sonra arvadının fitnəsinə uyaraq, dünya malına tamah etmiş, haqq yoldan azmış və nəticədə guya it kimi ləhləmək bəlasına mübtəla olaraq, dili ağzından sallanmışdır. *Səh. 350.*

Torpaq altında yatırsan bu gün ey mehr-giya!

Mehr-giya - sevgi otudur; guya bu ot kimdə olsa, onu hamı sevər.

Səh. 353.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Davudun göz yaşı, Nuhun novhəsi,
Sənin Yusifinə etmədi təsir.

Nuh - novhe (mərsiyə) sözündəndir. Guya Nuh peyğəmbər yüz illərlə novhə oxuyaraq, öz tayfasını haqq yola çağırmışsa da, nəticəsi olmamışdır. İkinci misra Yusifin məhv olduğunu eşidən atası Yəqubun hədsiz-hesabsız ağlamasına işarədir.

Xaqani burada Yusif deyərkən, öz oğlu Rəşidəddini nəzərdə tutur.

Səh. 358.

Təfəkkür yaxşıdır Mərva, Səfa dağına qaçmaqdan.

Mərva və Səfa – Məkkədə iki dağın adıdır.

Səh. 359.

Kədərli hər gecəmdir hamilə bəhcətli bir sübhə,
Çıxar lağmım o gəncə kim qalıbdır Ali-Samandan.

Bəhcətli - sevincli; *gənc* – xəzinə; *Ali-Saman* - 900-cü ildən 999-cu ilə qədər İranda hökm sürmüş Səmanilər sülaləsidir.

Səh. 359.

Olanda bayram, ustadı bağışlar lövheyi-əlvan.

Lövheyi-əlvan – qədimdə məktəbdə müəllimin uşaqları sevindirmək üçün onların oturduqları taxta müşk və zəfəranla çəkdiyi naxışlardır.

Səh. 359.

Üzümdə göz yaşın görcək "əlif "lə nöqtə şəklində,
Oxu qəm rəmzini, öyrən bu Məddü Həmzədən asan.

Mədd və Həmzə ərəb əlifbasında uzun və dəyirmi işarələrdir. Xaqani üzünə axan göz yaşını onlara oxşadır.

Səh. 359.

Gözünü bağladım hirsin, tamahın dişini qırdım,
Necə katib yazar "mim"i, necə "sin"i yazar divan.

Ərəb əlifbasında *"mim* " şəklində gözsüz bir kiçik dairə kimi "sin" isə şəklində diş-diş bir fiqur kimi yazılır.

Səh. 360.

Mənə vəhdət bağında bir şərikdir həzrəti-İsa,
Verib canı, ucuz aldım ikinci səhmi İsadan.

Burada Xaqani deyir: *vəhdət (birlik, təklik)* bağçası İsa peyğəmbərlə mənim aramda müştərək idi, mən canımı verdim, onun payını ucuzca aldım. Burada şair tamamilə üzlətə (yalqızlığa) çəkildiyini bildirir.

Səh. 360.

Hələ İsfəndiyarım keçməmişdir yeddi tilsimdən.

İsfəndiyar - İranın qədim Kəyan sülaləsi padşahlarından Kəştasbın oğludur; müxtəlif iftiralara düşmüş, atası tərəfindən həbsxanaya atılmış, nəhayət, Rüstəmin haça oxu ilə öldürülmüşdür. Firdovsinin "Şahnamə" əsərində bu böyük bir epizoddur.

Səh. 360.

Hələ Ruyindəj olmuşdur gözəl dilbərlərə zindan.

Gözəl dilbərlər - İsfəndiyarın bacılarıdır. Möhkəm bir qala olan Ruyindəjin yeddi tilsimli yolu olmuş, Turan padşahı Ərcasb İsfəndiyarın bacılarını Ruyindəj qalasında həbs etmişdi. İsfəndiyar bütün tilsimli yolları keçib, Ruyindəjə çatmış, Ərcasbı öldürüb, bacılarını xilas etmişdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səh. 360.

Oxu sən "Əhsənüt-təqvim"i çox diqqətlə "Quran"dan.

"Əhsənüt-təqvim " - İnsanın yaradılışı və həyatı haqqında "Quran"dan alınıb işlənilən ən gözəl nizam, tərtib və yaşayış qaydaları.

Səh. 361.

Deyil aləm sözü möhməl, kəmali-həqqdə yox nöqsan.

Möhməl – gözdən buraxılmış deməkdir. Xaqani burada deyir: haqq qiymətin itirməmiş, həqqiqət qüsurlu deyildir.

Səh. 361.

Birinci hərfə nöqtə olmağın mənası vardırmı,

Ki, dolğunluq üzündən "Əbcəd"in son hərfi olmuşsan?

Birinci hərf ərəb əlifbasında əlifdir ki, ən kiçik rəqəmələ 1-ə bərabərdir. Bu hərfə nöqtə qoyulmaz, qoyulsa da, rəqəmlə 10-a bərabər olar. "Əbcəd"in son hərfi "ğayn" dir ki, ən böyük rəqəmə -1000-ə bərabərdir.

Səh. 361.

Gəmi bir kor kimi aban yelilə qaldı sərgərdən.

Aban - oktyabr ayı, aban yeli - payız küləyi deməkdir. Yeni, zəmanə gəmisinin kapitanı kordur; əsrin rəhbəri payız ruzigarıdır.

Səh. 362.

Əgər Simurğsan, dinin Qafında, get, məkan eylə,

Ki, "qaf"sız olsa gər ünqa, ünayə çevrilər nalan.

Əfsanəvi quş Simurğ Qaf (Qaftaz) dağında məskən saldığı üçün əlçatmaz və əzəmətli quş hesab edilir. Simurğa eyni zamanda Ünqa adı da verilir. Ünqa ərəb əlifbası ilə kimi yazılır, onun qafı yəni "Q" hərfi düşərsə, üna qalar ki, bu da əzab, əziyyət mənası verir.

Xaqani deyir: Sən dinin Qafında, yəni yüksək zirvəsində məskən sal, yoxsa bunsuz əzaba düçar olarsan.

Səh. 363.

Bəsindir, az danış Musa hədisindən Yəhudatək,

Ki, doqquz ayə yox, bu yeddi rəngdir şəninə şayan.

Beytin mənası: müqəddəsatdan danışma, sən bəni-İsrail kimi yeddi qat yer adamısan, doqquz fələk məxluqu deyilsən.

Səh. 363.

Dönübsən bir su məşkinə ki, gah dıqsan, gah istisqa.

Dıq - sill, vərəm*; istiqsa* - su azarı. Yəni: gah boşsan, gah dolu.

Səh, 364.

Mənə həm Nuh idi o, həm də İbrahim idi, əfsus!..

Qalanlar cümləsi naəhldir, Nəmrud, yeri Kənan.

Nəmrud - dini rəvayətə görə, Babil şəhərinin binasını qoyan və onun hökmdarı olmuşdur; bütpərəst imiş. Nəmrud İbrahim Xəlilullahı bütpərəstlik əleyhinə təbliğat apardığı üçün oda atıb yandırmaq istəmişdir. Od isə gülüstana çevrilib onu yandırmamışdı.

Səh. 364.

O idi Əhmədə varis, ona Əhməd xitab etdi,

Ki, "Farüqi-fəriqeynsən" və "zünnureyn"i "Quran"san.

Əhməd - Məhəmmədin adlarından biridir. Faruqi-fəriqeyn - xalqı yaxşı tanıyan, haqq ilə batini yaxşı seçən ağıllı adam. Bu ad və sifət Məhəmməd tərəfindən Ömərə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

verilmişdir. Zünnureyn - iki nur sahibi deməkdir. Bu, Osmanın künyəsidir; Osman Məhəmmədin iki qızını almış olduğu üçün ona "Zünnureyn" demişdilər.

Səh. 364.

O, xətti əjdaha möcüzlu Musa çün vəfat etdi,
İlantək qıvrılıb, Musa kimi huş uçdu başımdan.

Əjdaha möcüzlü Musa, Musa kimi hus uçdu - dini xürafata görə, Musa Tur-Sinada allahı görmək istədiyi zaman birdən güclü səslər eşitmiş, qüvvətli işıqlar görmüş, dəhşətə düşüb, üç gecə-gündüz huşunu itirmişdir.

Səh. 364.

Sözüm matəm libası geydi, susdum mən də Məryəmtək, Ölübdür İsayi-sani, sükut etdim, olub büryan. İsayi-sani - ikinci İsa; Xaqani bu adla emisi oğlu Vəhideddini nəzərdə tutur.

Səh. 364.

Vəhid ölmüşdü - İdrisi və Loğmanı bu dövranın,
Əcəl çatdıqda, acizdir həmi İdris, həmi Loğman.

Vəhid - Təbib Vəhidəddin Şirvani, Xaqaninin əmisi oğludur. İdris -peyğəmbərlərdən biridir; *Loğman* - əfsanəvi bir həkim və alim olmuşdur.

Səh. 365.

Sən dünyanın işini dünya üçün əzab bil,
Nece qartal lələyi tutdu özünə divan.

Ovçu qartalın qəlbinə ox vuranda, qartal öz lələyini oxun ardında görüb inləmiş və: "Özüm özümə qənim olmuşam" - demişdir. Xaqani özündən qabaq yaşamış məşhur tacik şairi Nasir Xosrovun "Öz mast ke bər mast" şerinə işarə edərək, dünyanın özü-özünə bəla yaratdığını bildirmişdir.

Səh. 366.

Fələk Məhəmməd Yəhya başını verdi bada,
Səncər düşdü zindana, möhnət oldu zindanban.

Məhəmməd Yəhya (*Məhəmməd ibn Yəhya*) - Xaqaninin müasiri, Xorasanın böyük alimlərindən biri; Səncər - Səlcuq hökmdarlarından Məlikşahın oğludur. 1155-ci ildə müharibədə türkmənlərə əsir düşüb, həbs edilmişdir.

Səh. 367.

Ey hidayət əlinin zülfüqarı, pas at ki,
Elmin Əbutürabı torpaqda oldu pünhan.

Xaqani bu beytdə *Əbutürab* dedikdə İmam Əlini, *zülfüqar* dedikdə onun iki tiyəli qılıncını yada salır və ölümünə mərsiyə yazdığı Məhəmməd Yəhyanı *"Elmin İmam Əlisi"* adlandırır.

Səh. 369.

Yarım çörək və gözümdə Acıçayın suyudur.

Acıçay Təbriz yaxınlığında axan kiçik çayın adıdır. Son illərdə farsca onu "Təlxərud" adlandırmışlar.

Xaqani Təbrizdə ağır həyat keçirdiyinə işarə edir.

Səh. 369.

İzzəddinin ölümü bağrımı edibdir qan.

Xaqani Təbrizdə din başçısı *İmam İzzəddin Əbu Öman Əsədin* vəfatını böyük təəssüflə bu mərsiyədə qeyd edir.

Səh. 370.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, dinə Mehdi ikən, halımı görüncə yaman,
Məsih oldu mənə, etdi dərdimə dərmanı.

Xaqani, ölümünə mərsiyə yazdığı İzzəddini dinin Mehdisi və ölüləri diriıldən Məsihə (İsa peyğəmbərə) bənzədir.

Mehdi - şiələrin qeyb olmuş on ikinci imamının ləqəbidir. Guya o, nəhayət, zühur edib dünyanı cənnətə döndərəcəkdir.

Səh. 371.

Sincab geyimindir, Günəş isə Sərətanda.

Sincab - dələ, boz rəng, yəni hava dumandır. *Günəş isə Sərətan* (Xərçəng) bürcündə olduqda görünmür.

Səh. 371.

Səqlabda haçandan bəri fil bəsləyir insan?

Səqlab - yer və tayfa adıdır. Bu tayfa sonralar Avropa qitəsində pərakəndə olub, öz müstəqil adını itirmişdir.

Səh. 372.

Çün beytlərin sayı gəlib qırx beşə çatdı,
Qurtar sözü, şair ki, bu şerin başa çatdı.

Xaqani bu beytdə *qırx beş* rəqəmini təsadüfi işlətməmişdir. O, bu rəqəmlə əmisinin qırx beş yaşında vəfat etdiyini bildirərək, onun yaşı miqdarında qırx beş beytdən ibarət mərsiyə yazdığını bildirir.

Səh. 372.

...Mümkün olaydı kaş, canım balü par açа - misrası ilə başlayan bu mərsiyə orijinalda əvvəldən naqisdir. Çox ehtimal ki, Xaqani bunu oğlu Rəşidin vəfatı münasibətilə yazmışdır.

Səh. 374.

Göydə iki çərək var: biri san, biri ağ.

Xaqani bu misrada Günəşi və Ayı nəzərdə tutur.

Səh. 377.

Adəm vücudunun "əliz"i, "dal"ı, "mim"idir,
Qırx gündə dörd əsillə yaranmış həkimidir.

Adəm sözü ərəb əlifbasında üç hərfdən ibarət olub, öz yazılışına görə insanın namaz qıldığı zaman qədd-qamətinə uyğun edilir ki, o, (Adəm) dini rəvayətə görə, *dörd ünsür* vasitəsilə (su, torpaq, od, hava) 40 gündə yaradılmışdır. Sonrakı beytdə də bu fikir təkrar edilir.

Səh. 377.

Gahi Büraqtək ötər o yeddi göyləri.
Gah yeddi başlı divi edər ram gövhəri.

Yeddi göy - Yeddi səyyarənin orbiti (dövranı). *Büraq* - Məhəmməd peyğəmbərin merac edərkən mindiyi qanadlı, adambaşlı atın adı. *Yeddi başlı div* - yer, dünya.

Beytin mənası: şeirdə mədh edilən Şeyxül-İslam öz hünərilə yerə, göyə hakimdir.

Səh. 377.

Tufan içində eşqə odur Nuh hər zaman,
Sam ilə Ham ilə olub asudə, şadiman.

Sam və Ham - Nuh peyğəmbərin oğullarıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beytin mənası: Şeyxül-İslam, Nuh peyğəmbər kimi öz oğullarının (burada: əql və hünər) köməyilə eşq tufanından qorxmur.

Səh. 379.

Kimdi Qəzali, ya ki Cüveyni, o idi tək,
Olmaz ona Nizamı, Gündəri tay eyləmək.

Şeyxül-İslamın adları çəkilən məşhur alimlərdən daha üstün olduğu bildirilir.

Qəzali - Əbuhamid Məhəmməd - böyük müsəlman ilahiyyatçı alimi (XII əsr).

Nizam - Nizamülmülk-Həsən ibn Əli - dövlət xadimi (XI əsr).

Gündəri -Əbdülməlik - vəzir (XI əsr*). Cüveyni - Həsən ibn Əli Bağdadi* - alim (XII əsr).

Səh. 379.

O namə bir duadı Ənidü Rəqib üçün.

Ənid və Rəqib - dini rəvayətə görə, guya insanların xeyir və şər işlərini hesaba alan (yazan) mələklərin adlarıdır.

Misranın mənası: Şeyxül-İslamın şairə göndərdiyi məktubu mələklər xeyir iş kimi yazacaqlar.

Səh. 379.

Bu namə bir sənəddi mənə, ta ki, mən varam,
Namə deyil, o "ürveyi-vüsqa liənfisam".

Yəni: bu namə mənə həyatda daimi və möhkəm dayaqdır.

Səh. 380.

Bir "Qaziyəl-Qüzat, höccətül-islam, Zeyndin"...

Yəni: mədh olunan Şeyxül-İslam, qazilər qazisi, islamın müctəhidi (başçısı) və dinin bəzəyidir.

Səh. 381.

Eyvani-Mədaini ayineyi-ibrət san.

Mədain - Bağdadın cənub-şərqində Dəclə çayı üzərində köhnə bir şəhər olmuş, qədim İran padşahlarından Əşkanilər və Sasanilər zamanında qışlaq paytaxtı olmuşdur.

Səh. 382.

Nə Zali-Mədainin - Kufə qarısından kəm.

Zali-Mədain - Nuşirəvan sarayında evi olmuş bir qadındır ki, bu evini heç vəchlə satmaq istəməmişdir.

Kufə qarısı - Nuh dövründə yaşamış bir qadın olmuşdur; guya tufan onun ocağından başlamışdır.

Səh. 383.

Pərviz yox olmuşdur, ondan daha söz açma, Get,
"Kəmtərəku" söylə, zərdən tərə yox əlan.

Pərviz - Sasani padşahlarından Nuşirəvanın nəvəsi Xosrov Pərvizdir.

Zərdən tərə - Xosrov Pərviz guya hər gün zərgərlərə qızıldan tərə qayırtdırıb, yemək vaxtı süfrəyə düzdürər və yeməkdən sonra bunu onunla nahar edənlərə bağışlarmış. "Kəmtərəku " - "Quran" ayəsidir; yəni: çox belələri dünyaya gəlib getmişlər.

Səh. 384.

Hər kəs aparan təsbeh çün Cəmrə gilindəndir,
Təsbeh al o yerdən ki, torpağa dönüb Səlman.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəmrə - Kəbə yaxınlığında bir yerdir, torpağından təsbeh və möhür kimi şeylər qayırırlar. *Səlman (və ya Səlmani-fars)* Məhəmməd peyğəmbərə sədaqətli olan bir fars.

Səh. 384.

Olmaz keçəsən ətşan bu Şətt kənarından.

Ətşan - susuz; *Sətt* - Fəratla Dəclənin birləşməsindən əmələ gələn böyük çaydır.

Səh. 388.

Tut əlimdən, sən Hənutiyyəyə vardır da məni,
Etmə Şuniziyyənin adını bir də təkrar.

Suniziyyə - Bağdadda bir qəbiristanlıq adıdır. Məşhur alim və sufi şeyxi Cüneyd Bağdadinin qəbri orada olduğu üçün Xaqani bu qəbiristanlığın adını çəkir. *Hənutiyyə* - ölülərin çürüməməsi və ya iylənməməsi üçün dərmanlandığı yer. *Hənut* - ölülərə sürtülən ətirli maddə. İndi Şərqdə hənut əvəzinə kafur işlənir.

Səh. 390.

Minnətim var, qoyaraq nət kənarında məni,
Xoş gülüb öldürəsən, sanki çıraq, nazlı nigar!

Qədim Şərqdə edam cəzasına məhkum edilənləri müəyyən bir gön - nət üzərində öldürərdilər.

Səh. 390.

Kəm atdıq biz, bu dünyanı uduzduq aləm əhlinə,
O dünyanı girov qoyduq ki, orda kəmdən azadıq.

Bu beytdə nərd oyunu nəzərdə tutulur. Kəm atdıq - ifadəsi zərin kiçik xal düşməsinə işarədir ki, bu zaman oyun uduzulur.

Səh. 391.

Tapıbdır zinət ulduzdan, fələk bir tağü tarəmdir,
Xərabət əhliyik biz, taq ilə tarəmdən azadıq.

Bu beytdə istifadə edilən taq və tarəm istilahları göyün qübbəsi və üfüqlərə əyilməsi deməkdir.

Xaqani səmanın ulduzlar aləmini nəzərdə tutur.

Səh. 396.

Günəşə şərəf deyil, açsın quzu süfrəsi,
Günəş üçün şərəfdir təkcə bir andın "və"si.

"Və ilə Xaqani "Quran"ın "Vəş-şəmsü vəzzühaha" ("And olsun Günəşə və onun işığına") ayəsinə işarə edərək, Günəşi və onun işığını müqəddəsləşdirir.

Səh. 402.

Mustafa naməsini parçalayan Pərvizin,
Parçalanar köynəyi oğlu vuranda xəncər.

Xosrov Pərviz padşah ikən Məhəmməd peyğəmbər ona bir məktub yazmış, Pərviz isə həmin məktubu cırıb atmışdı. ikinci misrada Xosrov Pərvizin oğlu Şiruyə tərəfindən öldürülməsinə işarə edilir.

Səh. 409.

Məgər sən heç oxumadın "Yəknizunəz-zəhəbi?"
"Yomə Yəhma" ayəsində göstərilmiş səbəbi.

"Yəknizunəz-zəhəbi" - "Qızıl yığıb saxlayan"; "Yomə yəhma" - "Bir vaxt gələr, onunla dağ basarlar" deməkdir.

Səh. 410.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Musanın əlləri palçığa batmaz,
Xızr xəzinəyə çəkməli divar.

Dini rəvayətə görə, Xızr ilə Musa səyahət edərkən, Xızr bir yoxsulun dağılmaqda olan divarının altında xəzinə gizlədilmiş evini təmir etmiş, Musa isə durub baxmışdır.

Səh. 414.

Ey zülmü Yəzidilər mülkünü viran edən,
Sən ikinci Yəzidsən, dəm vurma çox Əlidən.

Yəzidilər - Şirvanşahların meydana gəldiyi tayfa; ikinci misrada Yəzid - imam Əlinin övladına düşmən olmuş Yəzid ibn Muaviyədir.

Səh. 415.

Qumlu, kaşanlı, həm də dərgəzinli vəzirlər.

Qum. Kaşan, Dərgəzin - İranda yer adlarıdır.

Səh. 415.

O Barbüdün səsimi, sazın, mizmarın səsi?
Setarmı, ya çalınan kasəgər ilə arqan?

Barbüd - məşhur fars musiqiçisi; *saz, mizmar, setar, kasəgər, arqan* -musiqi alətləridir.

Səh. 417.

Vardı söz kisəsində otuz bir cəvahiri.

Xaqani 24 yaşında ikən Atsız Xərəzmşaha bir qəsidə yazmış, bundan bir il sonra isə onun saray şairi Rəşidəddin Vətvat Xaqaninin mədhinə 31 beytdən ibarət bir cavab şeri yazıb göndərmişdi.

Səh. 418.

Anla ki, gəbrlərin kamanında yox hünər,
Xəlilin dörd quşunu havada alsın nişan.

Gəbrlər – atəşpərəstlər, zərdüştilərdir; gəbrlər həm də onların elə bir qismidir ki, ölümü cəmdək yeyən bir quş kimi təsəvvür edirlər.

Xəlilin dörd quşu - xoruz, qarğa, tavus və ördəkdir. Guya İbrahim Xəlil peyğəmbər bu quşların başını əlində saxlamış, bədənlərini dörd parça edib, biri-birinə qarışdıraraq, dörd dağın təpəsinə qoymuş və sonra onları uzaqdan çağırdıqda, quşların parçaları uçaraq, göydə hər biri öz hissələrilə birləşib, İbrahim Xəlilin yanına gəlmiş və onun əlində olan öz başları ilə birləşmişlər. Xaqani burada atəşpərəstliyi tənqid edərək, onların dinlərinin zəifliyini, bu dinin ilahi qüvvədən məhrum olduğunu göstərir.

Səh. 418.

Olsalar da "bilikli ağac" söz axtaranlar...

"Bilikli ağac " - yarpaqlarını daima Günəşə tərəf çevirən bir ağacdır.

Səh. 421.

Nə vaxtadək vurğunsan sən altun buzov surətinə?
Zəhər dolu bir keçiyə haçanadək sən qonaqsan?

Altun buzov - qızıl; *acı südlü keçi* - dünya deməkdir.

Səh. 421.

Göy bürcünün birincisi sıfırdır ki, fəqirlikdə...

Nücum təqvimində göyün birinci bürcü Həməl (Quzu) sıfırla işarə edilir. Bu isə şerdə fəqirliyə nisbət verilir.

Səh. 421.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə Raziüddövlə razı qalmış behişt həyatından,
Nə Səfiülmülk simasında şadlıqdan var zərrə nişan.
Raziüddövlə, Səfiülmülk - dünyadan bərk yapışmış hökmdarlar olmuşlar.
Səh. 422.
Şöhrətpərəst zahidlərlə ünsiyyəti sən vur yerə,
Müştəritək görünərlər, Mərrix kimi içərlər qan.
Müştəri - (Yupiter) Günəş sistemində astrologiyaya görə səadət ulduzu hesab edilir.
Mərrix - (Mars) müharibə ulduzu hesab edilir.
Səh. 423.
Fikr eyləmə, Nəcməddini mədh etməkdir ona dərman.
Nəcməddin - ruhani başçısı Əhməd Nəcməddin Simgərə işarədir.
Səh. 423.
Ey Adəmə varis olan, natamamdır işim mənim,
Ey dünyaya İsa olan, cana gəldim bu dünyadan.
Adəm və İsa - peyğəmbərlərdir. Xitab Nəcməddinədir.
Səh. 423.
Oğlun, qızın yoxdursa da, haqq yanında hörmətin var,
Bilmirsənmi "Quran"dakı "Ləmyəlid"də var şərəf, şan.
"Quran"Ma "Qul-hüvəllah" surəsində Allaha verilən sifətlərdən biri də "Ləmyəlid"dir; yeni Allahın övladı olmaz.
Səh. 423.
Mən bəstamlı oldum sanki, onlar isə əhli-Damğan,
Bəstam -Xorasanın cənubunda bir qəsəbədir.
Damğan - İranda Təbəristan vilayətində vaxtı ilə abad bir şəhər olmuşdur. Burada Xaqani Bəstamla Damğanın biri-birindən çox uzaq olduğunu, bununla da özü ilə dostları arasında heç bir yaxınlıq və birlik ola bilmədiyini göstərir.
Səh. 423.
Haqq bu xərrat balasına vermiş elə bir istedad,
Ki, Nəmrudtək yadlar onun üzərinə çəkir kaman.
Xarrat balası - Xaqaninin özü. *Nəmrud* - Allahlıq iddiası edən hökmdar (Burda Nəccar Azərin oğlu İbrahim peyğəmbərə də işarə var).
Səh. 423.
...Ancaq fələk birisini edər dirəfşi-Gaviyan.
Dirəfşi-Gaviyan – Dəmirçi Gavənin bayraq etdiyi döşlüyə işarədir.
Səh. 424.
Fərruxi bir mədhinə bir kənd aldısa əgər...
Fərruxi - Sultan Mahmud Qəzvininin saray şairlərindəndir; sarayın yüzlərcə şairi arasında yeddi seçmə şairdən biri olmuşdur.
Səh. 430.
İki nərgiz, iki sünbül, iki qızıl gülünə,
Sərv boyun, şümşad qolun - budağına and olsun.
Xaqani burada gözəlin gözlərini nərgizə, saçlarını sünbülə, yanaqlarını qızıl gülə, qəddini sərvə, qolunu şümşada bənzədərək, onlara and içir.
Səh. 430.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənin o gül üzünə ki, Zöhrə kimi nur saçır,
Harut kimi qəlb aldadıb, qaçmağına and olsun.

Zöhrə - astrologiyada məhəbbət ulduzu Veneradır. *Harut (və Marut)* behiştdən qovulmuş sehrkar mələyə işarədir.

Səh. 430.

Yəmən gölü gərdəyində xumarlanıb uyuyan,
İki həbəş gəlininin yatağına and olsun.

Yəmən gözü - göz yatağı. *Həbəş gəlini* - qara göz bəbəyi. Xaqani sevgilisinin xumar gözlərinə and içir.

Səh. 446.

Tap Təbəristan, tərəbistan dilə!

Təbaristan - İranda bir vilayət adı; *tərəbistan* - kef və zövq məclisi deməkdir.

Səh. 446.

Məqsədü amalını Amüldə gör,
Görgana get, Yusifi ordan dilə!

Amal - əməllər, istəklər; *Amül* - İranda Mazandaran vilayətində bir şəhərdir.

Görgan - İranın şimal-şərqində həm vilayət adı, həm şəhər olmuşdur. *Görgan* - eyni zamanda farsca qurdlar deməkdir.

Xaqani bu misrada hər iki mənaru nəzərdə tutmuşdur. Yusifin qardaşları öz ataları Yəquba demişdilər ki, Yusifi qurdlar yemişdir.

Səh. 462.

Zülfün "lam"ı olmasa, "nun"a dönər qamətim.

Zülf sözündə "lam" şəklində sevgilinin qıvrım saçı, "nun" hərfilə isə aşiqin bükük qaməti (beli) nəzərdə tutulur.

Səh. 463.

Meydani-məlamətdə bir kəs ola bilsən də,
Eyvani-səlamətdə bünyad ola bilməzsən?

Məlamət-tənа, məzəmmət; yeni: tənə meydanında bir top kimi nə qədər vurulsan, əziyyətlərə qatlansan da, yenə də salamatlıq, rahatlıq tapa bilməyəcəksən.

Səh. 484.

Xaqani, ilanla bağban məsəli,
Burada yerində dastana düşdü.

Köhnə nağıllardan birində deyilir: bir bağban donmuş bir ilan tapmış, onu götürüb Günəş altına qoymuş və ilan dirilərək, bağbanı çalıb öldürmək istəmişdir. Xaqani burada özünü bağbana, düşmənlərini isə həmin nankor ilana bənzədir.

Səh. 489.

Ayağına qızıl rəngli surətimi bağlaram ki,
Qumrov bilib, dəyməyələr, qayıdasan sən birtəhər.

Şərqdə bir qayda olaraq, yaxşı, hünərli göyərçinlərin ayağına incə bir qızıl halqa asardılar ki, onu tutanlar hünərli olduğunu bilib öldürməsinlər, qızılı götürüb, göyərçini buraxsınlar. Burada Xaqani eşqdən solan üzünü həmin qızıl halqaya bənzədir.

Səh. 495.

Qaqim, Qunduz camallı yar gözəl Bolğar türküdür.

Qəqim, Qunduz gözəllərilə şöhrət tapmış tayfa adlarıdır.

Səh. 500.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən qiymətli gövhər ikən, qəvvas kimi baş vurub,
Tapdın təbin dəryasından daha qiymətli gövhər.

Bu şeri Xaqani Nizamiyə müraciətlə yazmışdır. *Qiymətli gövhər* Nizami, onun böyük şairliyi; *qəvvas - dalğıc,* burada ilham dənizinə dalıb, üzən Nizami nəzərdə tutulur. *Daha qiymətli gövhər* Nizaminin əsərlərinə işarədir.

Səh. 500.

Heyrətdəyəm ki, ilhamın zərlərini atarkən
Necə oldu öz beşinlə beş atdın, ey füsunkar?

Yəni beş barmağın üzərində tutduğun bu beş poemanı ("Xəmsə"ni) necə ustalıqla yazmış olduğuna heyran qalmışam.

Səh. 501.

Layiq olmamışdır div Süleymana.

Rəvayətə görə, Bilqeys Süleyman peyğəmbərin sarayına gələndə Süleyman ona mail olmuş, ancaq təsadüfən Bilqeysin qıçlarında keçi tükü kimi tük gördüyündən, onu çin (div) bilib, ikrah etmişdir.

Səh. 505.

Çünki, göydə qara üzlü, pis əməlli Zühəl də,
Xoş sifətin Müştərinin üstündə tutmuş qərar.

Zühəl - yeddinci fələkdə, *Müştəri* onun altında, altıncı fələkdə olur.

Zühəl böyük uğursuzluq (Nəhs-əkbər), Müştəri isə böyük uğurluluq (Səd-əkbər) ulduzu sayılır.

Səh. 509.

Əgər sən bilməsən, Ütarid bilir yəqin,
Mən kiməm, qələmimdə nə kimi bir qüvvət var.

Ütarid (Merkuri) ulduzu astrologiyada fələyin katibi hesab edildiyi üçün, Xaqani özünün qələmdəki qüdrətini onun təsdiqi ilə izah edir.

Səh. 527.

Ayağına kölgə salmış yoxsa Simurğ qanadı,
Şərəf olub dünya üçün Cəlil bin-Rafe adı.

Əfsanəvi Simurğ quşu daima xeyirxah işlər gördüyü üçün onun kölgəsi də kimin üzərinə düşərsə onun şöhrəti artarmış. Mədh edilən Cəlil bin-Rafe də Simurğa bənzədilir.

Səh. 528.

Qiyamətdə haqq yanında peyğəmbərdən savayı,
İkinci bir şəfaətçi varsa, odur Şafei.

Bu qitədə adları çəkilən *Safei və Rafei* qiyamət günündə günahkarları bağışlamaq üçün Məhəmməd peyğəmbər kimi Allah dərgahında şəfaətçi olmağa layiq hesab edilib tərifləlnir.

Səh. 530.

Oxşatmısan qaralıqda pozduğun inkar "nun"a.

Fars dilində "nun" hərfi felin inkarını yaradır. Bu hərf qaralandıqda (pozulduqda) müsbət məna alınır.

Səh. 533.

Yolu əyri gedən vəzirdən başdır,
Yolunu düz gedən mərd piyadələr.

Burada şair şahmat fiqurlarının hərəkəti vasitəsilə düzlüyü təbliğ edir.

Səh. 539.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürahi quşu da ruhumu oxşar.

Orta əsrlərdə çox zaman şərab sürahilərini müxtəlif quş şəklində hazırlardılar. Xaqani çəməndə şorab içdiyini bildirir.

Səh. 540.

Gözünə bir qulun gözü tərs baxdı...

Bu rübaidə Xaqan göz (çeşm) sözünü 9 dəfə işlətmişdir. Tərcümədə də bu say saxlanmışdır.

Səh. 540.

Üzündə o xalı hər görən dedi:

Hindlidir, oturub bu odda yanan.

Burada şair sevgilinin yanağım oda, qara xalını hindliyə oxşatmışdır. İnduizm dini etiqada görə hindlilər odda yanıb, kül olmaqla guya behiştə gedərmiş. Xaqani eyni zamanda bu dini əfsanəyə işarə edir.

Səh. 540.

Hicrində qönçətək ürəyim qandır,

Barı nərgizinlə məni yada sal.

Şair ürəyini qızıl gül qönçəsinə oxşadaraq, sevgilini görüşə çağırır.

Nərgiz - gözə işarədir.

Səh. 543.

Hər həftə o, iki həftəlik qəmər...

İki həftəlik qəmər – bədirlənmiş Ay deməkdir. Burada gözəlin parlaq simasına işarə edilir.

Səh. 545.

Ey Dimnə, düzümü yaman əyirsən,

Əhməd Nəsr aslandır, Şətrəbə də mən.

Məşhur hind əfsanəsi olan "Kəlilə və Dimnə" - alleqorik abidə yad edilir ki, burada *Dimnə hiyləgər,* şöhrətpərəst surət olub, şirlə *Şətrəbə* (öküzün adıdır) arasında nifaq salıb, yalan sözlərlə şirin öküzü parçalamasına səbəb olur.

Xaqani burada öz bədxahını fitnəkar Dimnəyə, hiyləyə qurban getmiş Şətrabəni isə özünə bənzədir.

Səh. 545.

Xumar gözlərini görəntək, çıxdı,

Bayazid Bəstami ibadətgahdan.

Bayazid Bəstami (Teymur ibn İsa) məşhur sufilərdən olub, daima ibadətlə məşğul olaraq, bu dünyanı fani hesab etmişdir. O, Xorasanın Bəstam vilayətində hicri 160-cı il tarixində (VII əsr miladi) anadan olub, uzun ömür sürmüşdür.

Beytin mənası: Gözəlin xumar gözlərini görən Bayazid Bəstami də öz sönməsindən (ibadətgahdan) çıxıb, ona aşiq olar.

Səh. 551.

Sitəmin tük kimi incəltdi məni,

Lap tükə dönmüşəm "moyi" demekden.

"Moyi" - farsca tük və ağlamaq məfhumu verir.

"Modi" isə gürcücə "gəl" deməkdir.

Xaqani bu sözün bənzər şəkil və mənasından bədii vasitə kimi istifadə etmişdir (Şair bu sözü bir neçə rübaidə işlətmişdir).

Səh. 551.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqani, sən adi piyadasan, bil,
Yeddi ev keçməyin cox asan deyil...

Şahmat oyununda piyadanın yeddi xanə keçib, səkkizinci xanədə vəzirə çevrilə bilməsini xatırladır. Bu rübaidə demək istəyir ki, sən piyadasan, bir qoşun yolunu kəsib, (düşmənlər, bədxahlar), inanma ki, sən səkkizinci xanəyə keçə biləcəksən (vəziyyətin yaxşı olacaqdır).

Xaqani şahmat oyununu yaxşı bildiyi üçün fiqurların hərəkət və dəyərindən bir neçə dəfə istifadə etmişdir.

Səh. 559.

Görürəm, üzünü hərarət alır,
Əqrəbin içində ayın saralır...

Burada *əqrəb* - saça, ay - gözəlin üzünə işarədir.

Digər tərəfdən, "*qəmər əqrəbdədir*" ifadəsi astrologiyada Ayın Əqrəb bürcünə girməsi ilə xoşagəlməz hadisə baş verəcəyi güman edilmişdir.

Səh. 560.

Qəribə hal vardır onunla məndə:
Yel mənim əlimdə, yel əlində yar.

Bu rübai sevgilinin yelkən gəmi ilə dənizə çıxdığı zaman deyildiyindən Xaqani qəribə ibarə yaradır.

Yel mənim əlimdə - yəni: əlim boşdadır.

Yel(in) əlində yar - yəni: yar yelkəndədir.

Səh. 561.

O xumar gözlərin necədir, canan?
Varmı badamında püstə kimi qan?

Bu rübaini şair sevgilinin gözləri ağrıyan zaman yazmışdır. Burada *badam* - gözə işarədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

LÜĞƏT

A

Ahəngər – dəmirçi
Ahənrüba - miqnatis
Aliməqam – rütbəsi yüksək adam
Asitan - saray, böyük ev
Aşiyan - yuva
Azər - od

B

Bak – qorxu
2) bəndə düşən
Balü pər - qol-qanad
Behcət - sevinc, hüsn
Bəqa - daimilik, əbədi
Bərg - yarpaq
Bərq - ildırım
Bərr - çöl, biyaban
Bəzm –məclis, qonaqlıq
Bünyan — əsas, bünövrə
Bürhan - dəlil, sübut
Bürran – kəsiçi, iti

C

Cami-Cəm - Əfsanəvi Cəmşid padşahın qədəhi
Cədəl - bəhs, mübahisə
Çinan - behişt, cənnət
Cuybar'- axar su, çay kənarı
Cürm - günah

Ç

Çah - quyu
Çahi-zənəxdan - çənə oyuğu
Çeşmeyi-heyvan - abi-həyat
abi-heyvan, dirilik suyu çeşməsi
Çəngi - çənk çalan, musiqiçi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

D

Damən (*daman)* - ətək
Darüzzina - zina evi, əxlaqsızlıq
Deyr - kilsə, meyxana
yeri
Dəbir - katib, münşi
Dəm - nəfəs, an
Dəstar - əmmamə, sarıq
Dəstgir - 1) yardımçı,
Diba - zərxara, zərli parça
Dilkəş - cazibəli, gözəl
Dirəxşan - parlaq
Dirhəm - gümüş pul, çəki vahidi
Duzaq - tələ
Duzəx - cəhənnəm

E

Ecaz - əcaib, qəribə

Ə

Ədəm - yoxluq, boşluq
Ənbiya - peyğəmbərlər
Ənküştər - üzük
Ərəq - tər
Ərğəvan - qırmızı, al
Ərkan - əsaslar
Ərzan - ucuz
Əxtər - ulduz
Əsəs - darğa, gecə gözətçisi
Əyyar – hiyləgər, aldadıcı

F

Fəsih - fəsahətli, səlis danışan
Fəttan – fitnə qaldıran
Fəzl – fəzilət
Fiqh - İslam hüquqşünaslığı
Fitrət - təbiət, yaradılış
Füls - xırda mis pul

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

G

Gəbr - atəşpərəst, oda sitayiş edən

X

Xamə - qələm
Xatəm – üzük
Xəsm - düşmən
Xoftan - pambıqlı arxalıq
Xoşkvar - dadh, ləzzətli
Xum-küp
Xumstan - meyxana
Xurşid - Gunəş
Xuşk quru
Xutbə - nıtq, dini, nəsihət

İ

İictinab - çəkinmək, qorxmaq
İxtar – xəbər vermək, xatırlamaq
İnan-cilov,at
İnziva-bax:izlət
İzlət (üzlət) - tək yaşamaq
guşənişin
İsar - malını paylamaq
qurban vermək
İzlət (üzlət) - tək yaşamaq
İxtar – xəbər vermək, xatırlamaq
İnan-cilov,at
İnziva-bax:izlət
İsar - malını paylamaq,
qurban vermək

J

Julidə - pozulmuş, pərakəndə

K

Kan - mədən
Keyhan - kosmos, fəza
Kəf- ovucun içi
Kəffaş - başmaqçı, ayaqqabı tikən
Kəhf- mağara

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kövnü məkan - kainat, yer-göy,dünya
Kuy - top, məskən
Küstax - üzlü, zəhlətökən

Q

Qəmküsar – dərdə qalan, həyan, dost
Qılaf- qılıncın qabı

L

Labəqa - sonu olmayan, müvəqqəti
Laməkan - yeri bəlli olmayan
Ləhv - oyun, əyləncə

M

Mahi - balıq
Məcər - örtük, pərdə
Macruh-yaralı
Məcus -oda sitayiş edən
Məhvəş -ay üzlü
Məhzər - hüzur, qarşı, məclis
Məlamət-töhmət, danlaq
Mərdümgiya - jen-şen, dərman bitkisi
Məsnəd - söykənəcək, istinadgah
Məsşatə - gəlinləri bəzəyən qadın
Məva- yer, sığınacaq
Mirat – güzgü
Müg " atəşpərəst, meyxanaçı
Muhib –qorxulu, dəhşətli
Müztər – zavallı

N

Naib - canişin, əvəz edən
Naqus - kilsə zəngi
Nar - od
Navək - ox, sivri, uc
Neystan – qamışlıq
Neyşəkər – şəkər qamışı
Nəbi - peyğəmbər
Nəcm - ulduz
Nəleyn - yüngül ayaqqabı
Nəsara - xaçpərəst, xristian

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəsrin - gül adı
Nigaristan - bəzəkli otaq, muzey
Nihal - fidan, şitil, tingə
Nisf- yarısı
Nisyan - unutmaq
Nücum - astronomiya
Nüktə - incə söz
Nüktədan - incəliyi dərk edən

O

Ovc - göyün ən uca nöqtəsi, ənginlik

F

Fəsih - fəsahətli, səlis danışan
Fəttan – fitnə qaldıran
Fəzl – fəzilət
Fiqh - İslam hüquqşünaslığı
Fitrət - təbiət, yaradılış
Füls - xırda mis pul

R

Rəhban - yolgöstərən
Rəsən - ip, cilov
Rəşxan - parlaq
Rəşk - həsəd, paxıllıq
Rihlət - ölmək, köçmək
Riştə-ip

S

Sahir - sehrkar, sehrbaz, ofsunçu
Seyd - ov
Seyhə - qışqırıq, yüksək səs
Səbuh - səhərin xumarlıq şərabı
Səfsətə - cəfəngiyyat
Səlsəbil- cənnət bulağı
rəngli bel kəmərləri
Səmm – zəhər rəngli bel
kəmərləri
Sərəfraz - başlıca, vüqarlı
Sərkeş - məğrur, dikbaş
Siqlət – ağırlıq
Sinan – nizə, ox

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söban - əjdaha
Suzən - iynə

T

Taban - parlaq
Təb - qızdırma
Tənab - ip
Təbər - balta
Təlqin - psixoloji tesir
Tərrar - oğru, cibgir
Təvan - qüvvət
Təvil - izah etmək
Təyyar - uçucu, hazır
Teyləsan - xristian ruhanilərinin
çiyinlərinə saldıqları həmayil
Tiğ - qılınc
Tuba – cənnət ağacı
Tuq - boyunbağı
Türrə - tel, saç

Ü

Üqab - çalağan, qartal
Üstüxan - sümük
Üstvar - möhkəm
Üzar – yanaq

Y

Yavər -kömək
Yəzdan - Allah, Tanrı
Yəmin - and, sağ tərəf

Z

Zəxirə - azuqə
Zərrab - pul düzəldən
Zir-zəbər - alt-üst, yerlə yeksan
Zünnar - xristian ruhanilərinin
Züvvar - ziyarətə gedənlər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KİTABIN İÇİNDƏKİLƏR

Xaqani Şirvani və ədəbi iris……..4

TÖHFƏTÜL-İRAQEYN

Dibaçə (Tərcümə edəni M.Soltan).....21
Başlanğıc (Tərcümə edəni O.Sarıvəlli)……...22
Günəşə xitab (Tərcümə edəni M.Soltan)…….23
Günəşə xitab və qızılı məzəmmət (Tərcümə edəni O.Sarıvəlli)…….25
Ərzin fəziləti haqqında (Tərcümə edəni O.Sarıvəlli)……..29
Səfər təfsilatı (Tərcümə edəni O.Sarıvəlli)…….31
Çayıntərifi (Tərcümə edəni M.Soltan) ……..…...33
Şikargahın təsviri (Tərcümə edəni M.Soltan)…….34
Cəmaləddin Mosulu ilə görüş və onunla söhbət
(Tərcumə edəni O.Sarıvəlli)…….....36
Şahın ləşkərgahını tərif (Tərcümə edəni M.Soltan)……53
Həmədanın tərifi (Tərcümə edəni M.Soltan)……..53
Bağdadın tərifi (Tərcümə edəni M.Soltan)…….55
Bağdadın abü-havası haqqında (Tərcümə edəni M.Soltan)……55
Dəclə çayının tərifi (Tərcümə edəni M.Soltan)……...56
Xəlifənin tərifi (Tərcümə edəni M.Soltan)……..57
Kufənin tərifi (Tərcümə edəni M.Soltan)……..……..58
Karvan səsinin tərifi (Tərcümə edəni M.Soltan)……...……....58
Məkkənin tərifi (Tərcümə edəni M.Soltan)…….60
Qara daşın tərifi (Tərcümə edəni M.Soltan)……....61
Zəmzəm quyusunun tərifi (Tərcümə edəni M.Soltan)……61
Qızıl novdanın tərifi (Tərcümə edəni M.Soltan)……..…...62
Kəbəyə (Tərcümə edəni M.Soltan) ……..62
Mədinənin tərifi (Tərcümə edəni M.Soltan)……...64
Peyğəmbərin tərifi və zəmanədən şikayət
(Tərcümə edəni M.Soltan).....65
Mosul və Şamın təsviri (Tərcümə edəni M.Soltan)……..72
Mosulu tərif və İraq başçısı Cəmaləddinə sitayiş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Soltan)……...73
Paxılları məzəmmət və böyük adamları tərif
(Tərcümə edəni M.Soltan) 78
Özü haqqında (Tərcümə edəni M.Soltan)……...79
Babası haqqında (Tərcümə edəni M.Soltan)…….....80
Atası Nəccar Əli haqqında (Tərcümə edəni M.Soltan)..…….....81
Atasını tərif (Tərcümə edəni M.Soltan)……....82
Anası haqqında (Tərcümə edəni M.Soltan)…….....……..83
Anasını tərif (Tərcümə edəni M.Soltan)…….....84
Əmisi haqqında (Tərcümə edəni M.Soltan)……....85
Əmisini tərif (Tərcümə edəni M.Soltan)…….87
İzzəddini tərif (Tərcümə edəni M.Soltan)……...90
Öz vəziyyətindən şikayət (Tərcümə edəni M.Soltan)……....91
Düşmənləri tənqid (Tərcümə edəni M.Soltan)……....94
Yenə də Şam və İraq başçısının tərifi
(Tərcümə edəni M.Soltan)…….....96

FƏXRİYYƏLƏR

1."Mənim gönlüm müəllimdir, dizim üstü dəbistam"
(Tərcümə edəni M.Mübariz)……....100
2.Özünü tərif və paxılları məzəmmət
(Tərcümə edəni Ə.Tələt)…….....108
3."Kinayə edib, söylədin, Xaqani..." (Tərcümə edəni M.Soltan)…..110
4."Böyük şair mənəm..." (Tərcümə edəni Ə.Əlibəyli)……..112
5."Zaman başa vuranda Sənainin dövrünü..."
(Tərcümə edəni Ə.Əlibəyli)……..113
6."Dodağım saxsı, üzüm torpağa dönmüş, canım..."
(Tərcümə edəni M.Mübariz)……....114
7."Xaqaniyəm, yer üzünə yayılmışdır şöhrətim..."
(Tərcümə edəni M.Soltan)……...116
8."İyirmi yaşdan azsa da sinnim..."
(Tərcümə edəni Ə.Əlibəyli……..117
9."Dəvatımın üzü sadə, içi dərin dəryadır..."
(Tərcümə edəni Ə.Ziyatay)……..117
10.Paxılları məzəmmət (Tərcümə edəni M.Mübariz)…….....118
11."Əqlə ağır yük daşıdan mənim könlüm, bəyanımdır..."

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni Ə.Əlibəyli)……..…….....120

MƏDHİYYƏLƏR

1.Əmisi Kafiyəddinin tərifi (Tərcümə edəni Ə.Ziyatay)……...122
2.Baklan səddini bağlatdırdığı üçün Şirvanşah Mənuçöhrün tərifi
(Tərcümə edəni M.Soltan)…….……124
3.Şirvanşah Mənuçöhr ibn Firidunun tərifi
(Tərcümə edəni B.Azəroğlu) ……..….125
4.Şirvanşahın tərifi (Tərcümə edəni M.Mübariz)…….131
5.Şirvanşahın tərifi (Tərcümə edəni Ə.Ziyatay)……142
6.Müvəffəqəddin Əbdülqəffarın tərifi
(Tərcümə edəni Ə.Ziyatay)……..….145
7.Qiyasəddin Məhəmməd ibn Məlikşahın tərifi
(Tərcümə edəni M.Mübariz)……..…….. 154
8.Şirvanşah Mənuçöhrün tərifi və onun oğlu Axsitandan
şikayət (Tərcümə edəni M.Soltan)……....156
9.Şirvanşah Mənuçöhrün tərifi (Tərcümə edəni M.Soltan)……..158
10.Bu qəsidə quşların söhbəti adlanır
(Tərcümə edəni B.Azəroğlu)……....158
11.Öz ustadı Bəhaəddin Səid ibn Əhmədi mədh
(Tərcümə edəni M.Soltan)……..……...163
12.Şeyxül-İslam Nəsirəddin İbrahimin mədhi
(Tərcümə edəni B.Azəroğlu)…….……....166
13.Xoy müftisi Rüknəddini, Rey alimi Rüknəddini və Tacəddin
ibn Əminəddini mədh (Tərcümə edəni B.Azəroğlu)…….172
14.Qazilər qazisi Sədrəddin Əhmşadı mədh
(Tərcümə edəni M.Soltan)…….....187
15.Baklan səddini bağlatdığı üçün xaqanz Mənuçöhrə xitab
(Tərcümə edəni M.Mubariz)…….....194
16.Şirvanşah Axsitanın tərifi (Tərcümə edəni M.Mübariz)…….…200
17.Axsitan şaha və arvadı Səfvətəddinə xitab
(Tərcümə edəni M.Mübariz)…….202
18. Eşq və məhəbbətdə guşənişinlik və Mənuçöhrün bacısı
İsmətəddinin mədhi (Tərcümə edəni B.Azəroğlu)……....206
19.Şirvanşah Mənuçöhrün tərifi (Tərcümə edəni Ə.Huseyni)……..209
20. Müzəffərəddin İldəgiz Qızıl Arslanın tərifi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Soltan)……..…212
21.İraqın baş vəziri Zeynəddinin tərifi
(Tərcümə edəni Ə.Hüseyni)……...214
22.Atam Nəccar Əlinin tərifi (Tərcümə edəni Ə.Hüseyni)……...217
23.Peyğəmbərin nəti, moizə və Əbu-İshaqq Nəsirəddin İbrahimin
mədhi (Tərcümə edəni B.Azəroğlu)……..……..….221
24.Bağdadın tərifi (Tərcümə edəni M.Mübariz)……..225
25."Ey açılan sübh kimi..." (Tərcümə edəni M.Mübariz)…….229
26. "Budur, bir fars hicazı yola çıxdı qol-qola"
(Tərcümə edəni M.Mübariz)…….232
27.İmam Cəlaləddin Əl-Xovariyə (Tərcümə edəni M.Mübariz)…..236

HƏBSİYYƏLƏR

1.Həbsdən şikayət (Tərcümə edəni M.Mübariz)……248
2.Həbsdən şikayət və azad olması üçün
Rum qeysərindən xahiş…….253
3."Ruhum bu can mülkünü tərk edib gedən kimi"
(Tərcümə edəni Ə.Ziyatay)……...260
4.Həbs edildiyi barədə vəzirə məktub
(Tərcümə edəni M.Soltan)……..…264
5."Qəlbə təsir etsə əgər qüssə, qəm..."
(Tərcümə edəni Ə.Cəmil)……...265
6."Xaqani qürbətə basalı ayaq..."
(Tərcümə edəni Ə.Ziyatay)……...266
7."Qucaqlayıb dizimi səbrlə səhərlərdə..."
(Tərcümə edəni M.Mübariz)…….....267

ŞİKAYƏTLƏR

1.Zəmanədən şikayət (Tərcümə edəni M.Mübariz)……..273
2.Yenə zəmanədən şikayət (Tərcümə edəni M.Mübariz)……277
3.Paxılları məzəmmət (Tərcümə edəni M.Mübariz).....283
4.Xorasan arzusu (Tərcümə edəni M.Mübariz).....286
5."Zəmanədə axtarma rahatlıqdan bir əsər..."
(Tərcümə edəni M.Mübariz)…….....289
6."Afiyətdən nişan tapmayıram..."

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Mübariz).....292
7.Çörək (Tərcümə edəni M.Mübariz)…….293
8."İndi ki, yer üzündə insafdan yoxdur nişan..."
(Tərcümə edəni H.Arif)…….295
9."Nə vara, dövlətə salaram nəzər..."
(Tərcümə edəni H.Arif)…….298
10.Şikayət (Tərcümə edəni B.Azəroğlu)……...301
11."Bizə ürək yandıranın od yağır dodağından..."
(Tərcümə edəni B.Azəroğlu)…….303
12."Nuş edərəm fələk qəmin ağlamaqdan, yazıq mənə!"
(Tərcümə edəni M.Soltan)……....305
13."Cahandan kənarda özünə yer axtar"
(Tərcümə edəni M.Mübariz) 306
14. "Dəhrdə bir əhl insan tapmadıq..."
(Tərcümə edəni İ.Soltan)…….……..307
15. "Fikir, xəyal odundan tutulub, canım yanıb..."
(Tərcümə edəni İ.Soltan)…….….308
16."Düşüb ürəyimin oda danəsi" (Tərcümə edəni Ə.Ziyatay)……..308
17."Yer üzündə hansı könlün payı qəm deyil?"
(Tərcümə edəni Ə.Ziyatay)…….…..309
18."Ürəyimə zəmanənin əli neştər vurduğundan..."
(Tərcümə edəni Ə.Ziyatay)…….….310
19."Mal və şöhrət sahibidir bu gün alçaq adamlar..."
(Tərcümə edəni Ə.Ziyatay)……..….311
20."Fitnə ayaq üstə ikən oturmaqda yox etibar..."
(Tərcümə edəni Ə.Ziyatay)……...312
21."Vəfa ətri bağışlarmı gülündən bir kəsə aləm?"
(Tərcümə edəni Ə.Ziyatay)……...313
22."Zəmanədə qalmamışdır vəfadan bir əlamət..."
(Tərcümə edəni Ə.Ziyatay)…….……..313
23. "Tilsiminə düşmüşəm mən qəzanın, yaxşı bax!"
(Tərcümə edəni M. Rahim)……..314
24."Bu dünyada mərdlik, sədaqət hanı?"
(Tərcümə edəni M.Soltan)……315
25."Bu zülmkar dövranda mən bir vəfa görmədim..."
(Tərcümə edəni M.Soltan)…….316
26."Şirvanda olsaydı qanan adamlar..."

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Soltan)……..…...317
27."Xaqani, dövrdən etmə şikayət..."
(Tərcümə edəni M.Soltan)……..…318
28."Kim rahatlıq nişan verər?" (Tərcümə edəni M.Soltan)……...319
29."Nə vaxtadək sitəm çəkəcəyəm mən?"
(Tərcümə edəni Ə.Tələt)……..319
30."Əzəl gündən bu dünyada olmamışdır əhli-vəfa"
(Tərcümə edəni Ə.Əlibəyli)……..320
31. "Bu dünyanın zatında, bax, heç insafdan yoxdur əsər"
(Tərcümə edəni Ə.Əlibəyli)…….321
32."Qan içməkdən başqa bir şey cananlardan gözləmə"
(Tərcümə edəni Ə.Əlibəyli)…….322
33."Qaçsan, fələk arxanca, bil, kaman çəkir..."
(Tərcümə edəni Ə.Vahid)……323
34. "Neylim, zəmanə dərdinə məlhəm tapılmayır..."
(Tərcümə edəni Ə. Vahid)……323
35."Ey könül, dəhrin nəvası qalmayıb..."
(Tərcümə edəni Ə.Vahid)……324
36."Ey ruzigar! Ömrümü eylədin hədər..."
(Tərcümə edəni H.Arif)…….....324
37."Zəmanənin əlindən kimsə aman tapmadı..."
(Tərcümə edəni Ə.Əlibəyli)……..325
38."Xacə mənə yaxşılığın qapısını bağladı..."
(Tərcümə edəni M.Mübariz)…….326
39.Zəmanədən və öz taleyindən şikayət
(Tərcümə edəni M.Mübariz)…….326
40."Göylər dolandı, mən isə səmanı tapmadım..."
(Tərcümə edəni M.Soltan)……335
41.Zəmanədən şikayət (Tərcümə edəni B.Azəroğlu)……336

MƏRSİYƏLƏR

1.Arvadının ölümünə (Tərcümə edəni M.Mübariz)……..341
2."Hüsnün bağı olmadan qoy mən cahan görməyim"
(Tərcümə edəni Ə.Əlibəyli)……..…342
3."Var idi mənim vəfalı yarım" (Tərcümə edəni M.Dilbazi)……344
4.Oğlu Rəşidin ölümünə (Tərcümə edəni M.Mübariz)…….345

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5."Ey xacə, ömrünü hesaba al bir" (Tərcümə edəni M.Soltan)……353
6."Günəşə bənzəyən bir oğlum vardı"
(Tərcümə edəni M.Soltan)……...……...353
7."Rəşidim ölən zaman ona belə söylədim..."
(Tərcümə edəni M.Soltan)…….354
8."Təəssüflər, oğlum Rəşid, ömrümün tək meyvəsi..."
(Tərcümə edəni M.Dilbazi)……...354
9."Yenicə doğulan qızım gördü ki..."
(Tərcümə edəni M.Soltan)…….354
10.Fələki Şirvaninin vəfatına (Tərcümə edəni M.Soltan)…….355
11.Əmisi Kafiyəddinin vəfatına (Tərcümə edəni M.Mübariz)…….355
12.Əmisi oğlu Vəhidəddinin vəfatına
(Tərcümə edəni M.Soltan)…….357
13.Nəsirəddin İbrahimin ölümünə (Tərcümə edəni M.Mübariz)….358
14.Sultan Səncərin həbsi və Məhəmməd ibn Yəhyanın vəfatı
haqqında (Tərcümə edəni Ə.Əlibəyli)…….365
15."Cahanda qəmlərimi təkcə bir duyan var idi..."
(Tərcümə edəni M.Mübariz)…….368
16.Əmisi Kafiyəddin Ömər ibn Osmanın ölümünə
(Tərcümə edəni B.Azəroğlu)…….370
17.Yenə də mərsiyə (Tərcümə edəni Ə.Hüseyni)……372
18.Sədrəddinin vəfatına (Tərcümə edəni M.Soltan)……374
19.Vəhidəddinin vəfatına (Tərcümə edəni M.Soltan)……..374
20.Bəhaəddin Əhmədin vəfatına (Tərcümə edəni M.Mübariz)……374
21.Şeyxül-İslam Ümdətiddin Məhəmməd ibn Əsəd Tusi
Nişaburinin vəfatına (Tərcümə edəni Ə.Hüseyni)……376

MÜXTƏLİF ŞEİRLƏR

1.Mədain xərabələri (Tərcümə edəni M.Rahim)……..……..381
2.Şirvanın tərifi (Tərcümə edəni M.Soltan)……384
3.Savalan dağının tərifi (Tərcümə edəni M.Soltan)……..385
4."İraqa, İrana eyləsəm səfər" (Tərcümə edəni M.Mübariz)……386
5.Rey şəhərinin iqlimini məzəmmət (Tərcümə edəni Ə.Ziyatay)….387
6.Bağdadın şeyxlər şeyxi haqqında
(Tərcümə edəni M.Mübariz)…….388
7."İki aləmdə bir iş var ki, bizlər qəmdən azadıq"

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Mübariz)……390
8.Hikmət və nəsihət (Tərcümə edəni M.Mubariz)……391
9."Xaqaniyəm, qəlbim azaddır mənim"
(Tərcümə edəni Ə.Ziyatay)……...396
10."Ey Xaqani, çörək üçün öz abrını tökmə sən..."
(Tərcümə edəni Ə.Ziyatay)……397
11."Gəl, ürəkdə hər nə varsa, göstərək..."
(Tərcümə edəni M.Mübariz)……398
12."Köçmək vaxtı gəlib çatmış bu vəfasız dünyadan..."
(Tərcümə edəni Ə.Ziyatay)……...398
13."Qəm yemə, dünyada yoxsa həmdəmin, ol şadkam..."
(Tərcümə edəni M.Mübariz)……399
14."Günəştək sən də, Xaqani..." (Tərcümə edəni M.Dilbazi)……..400
15."Xaqani, güvənmə çox da dövlətə..."
(Tərcümə edəni M.Soltan)……401
16."Ey xacə, Xaqaninin üzündən suyu tökmə..."
(Tərcümə edəni M.Soltan)……402
17."Ey Xaqani, könül vermə bu dövranın dövrünə..."
(Tərcümə edəni M.Soltan)……402
18."Mərd odur, dərd əlindən etməsin heç ahü-zar"
(Tərcümə edəni M.Soltan)……403
19."Var idi, Xaqani, ömür xəzinən..."
(Tərcümə edəni M.Dilbazi)……...404
20.Nəsihət (Tərcümə edəni M.Mübariz)……...405
21."Xaqani, filosof başlamış cədəl..."
(Tərcümə edəni Ə.Ziyatay)……...406
22."Həqqiqət yoluyla gedənlər ki var..."
(Tərcümə edəni Ə.Ziyatay)……...407
23.Yalançı kimyagərləri və iksiri məzəmmət
(Tərcümə edəni M.Soltan)……408
24."Fəzilət, Xaqani, baş ağrısıdır..."
(Tərcümə edəni M.Soltan)……409
25."Bu göylər şahının lütfü mənə sayə salıb hər an"
(Tərcümə edəni M.Soltan)……411
26."Ey Xaqani, pis yoldaşdan ehtiyat et, qorx ondan...
(Tərcümə edəni M.Soltan)……....412
27.Anası haqqında (Tərcümə edəni M.Soltan)……..412

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

28.Atasından şikayət (Tərcümə edəni M.Soltan)……..413
29.Şirvanşahların bir vəziri haqqında (Tərcümə edəni M.Soltan)…414
30.Rəşidəddin Vətvata cavab (Tərcümə edəni H.Arif)…….415
31.Dünyaya uymamaq ücün nəsihət (Tərcümə edəni Ə.Ziyatay)….418
32.Verilmiş mülkün geri alınmasından şikayət
(Tərcümə edəni M.Soltan)……...424
33."Dəcləyə düşdü güzarım dünən axşam səhvən..."
(Tərcümə edəni Ə.Ziyatay)……...425
34.Təmsil (Tərcümə edəni M.Soltan)……..…..426
35."Tapılsa əhl, ona can nisar edərdim mən..."
(Tərcümə edəni M.Mübariz)…….427
36."Köç təblinin səsinə oyandım səhər-səhər..."
(Tərcümə edəni M.Mübariz)……....428
37."Vəslin gözəl gülşənindən əsən mehi sezmişəm..."
(Tərcümə edəni Ə.Ziyatay)……..429
38."Püstə ağzın, iki yaqut dodağına and olsun!"
(Tərcümə edəni M.Mubariz)…….429
39."Bilmirəm ki, könlüm düşüb nə dərdə..."
(Tərcümə edəni İ.Soltan)……..…....431
40."Yalandır, deyirlər Yəmən daşında...."
(Tərcümə edəni Ə.Ziyatay)…… .431
41."Od püskürən xasiyyətin..." (Tərcümə edəni M.Soltan)…….432
42."Qan tökürsən, qorxmayırsan..." (Tərcümə edəni M.Soltan)…..432
43."O dildarın dodağından.." (Tərcümə edəni M.Soltan)…….433
44."Ey canlara afət..." (Tərcümə edəni M.Soltan)……434
45."Sənə nə etmişəm..." (Tərcümə edəni M.Soltan)……434
46."Bu dünyada bir könül ki..." (Tərcümə edəni M.Mübariz)……..435
47."Xəstələndim Reydə mən..." (Tərcümə edəni M.Mübariz)……..436

QƏZƏLLƏR

1."Bizə nazlı baxışınla könüldən bir xəbər göndər"
(Tərcümə edəni H.Arif)…… 438
2."Aşiqlik dünyasına qədəm qoymayan insan..."
(Tərcümə edəni M.Rahim)……..…..438
3."Hər kirpiyi sinəmə bir təzə peykan atar..."
(Tərcümə edəni M.Rahim)……439

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4."Ləbi yaqut, üzü Gün kimi dilbər, gecə şən..."
(Tərcümə edəni M.Rahim)……440
5."Könlüm çıxıb gedibdir, bilməm nə cür bəla var..."
(Tərcümə edəni Ə. Vahid)……441
6."Həddisi-tövbəni at bir kənarə, badə gətir!"
(Tərcümə edəni Ə.Vahid)……441
7."Ay nə lazım, sən kimi məhru kifayətdir mənə"
(Tərcümə edəni Ə.Vahid)……442
8."Can bəxş edərəm cana, gər ləblə şəkər versən..."
(Tərcümə edəni Ə.Vahid)……443
9."Bax, yeniden bu könül dərdin ilə yar olub..."
(Tərcümə edəni Ə.Vahid)……443
10."Bildim ki, bu nazından bir ləhzə dayanmazsan..."
(Tərcümə edəni Ə.Vahid)……444
11."Səndən, gözəlim, özgə kəsdə nəzərim yoxdur..."
(Tərcümə edəni Ə. Vahid)……444
12."Xəcil etmiş üzün, gözəl, qəməri..."
(Tərcümə edəni Ə.Vahid)……..445
13."Ver başını, şövq ilə canan dilə!"
(Tərcümə edəni Ə.Vahid)…… ……446
14."İsminin zikrində dastan tapmışam..."
(Tərcümə edəni Ə.Vahid)…….....447
15."Qəlbim kimi odludur dəhanım..."
(Tərcümə edəni Ə.Vahid)……..447
16."Nə afət olmusan, ən xırda dərdin hicrandır"
(Tərcümə edəni Ə.Vahid……...448
17."Ya vəslin üçün nişan gərəkdir..."
(Tərcümə edəni Ə.Vahid)……..449
18."Bizi öz şirin dilinlə ələ al, əzizlə, canan!"
(Tərcümə edəni M.Mubariz…….....450
19."Könüldə aşiyan etmiş xəyalın..."
(Tərcümə edəni M.Mübariz)…….……450
20."Fəsli-gül oldu, gülüm, cami-güləfşan gətir..."
(Tərcümə edəni M.Mübariz)……...….451
21."Eşq hücum eylədi, çatdı yüzə bir qubar..."
(Tərcümə edəni M.Mübariz)……451
22."Hakimi-canım niyə candan şikayət dinləməz?"

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Mubariz)……452
23."Gözüm yollardadır, bəlkə xəbər gəlmiş olar səndən..."
(Tərcümə edəni M.Mübariz)……453
24."Eşqin dənizində boğulub könlüm, əzadır..."
(Tərcümə edəni M.Mübariz)……453
25."Niyə söz açım könüldən sənə, məhrəmim deyilsən..."
(Tərcümə edəni M.Mübariz……454
26."Rəhm qıl, canan, bu canı başına qurban verim..."
(Tərcümə edəni M.Mübariz)……454
27."Xəncərindən, eylə bir baş varmı ki, tapsın aman?"
(Tərcümə edəni M.Mübariz)……....455
28."Könlümüzdən necə gördün ki, xəbərsizdir yar..."
(Tərcümə edəni M.Mübariz)……456
29."Onun eşqi olmasaydı mənə göylərin qəzası..."
(Tərcümə edəni M.Mübariz)……....456
30."Ey eşq odunda qan olan xəstə ciyərlər..."
(Tərcümə edəni M.Mübariz)……457
31."Namən ilə tez mənə imdada çat!"
(Tərcümə edəni M.Mübariz)……457
32."Bu əyyarlıq odu onun qırdı mənim oyanmı..."
(Tərcümə edəni M.Mübariz)……458
33."Bir gül, ey gül, qönçeyi-xəndanına qurban olum..."
(Tərcümə edəni M.Mübariz)……459
34."Yerləşməz aşiqin ürəyi cana..."
(Tərcümə edəni M.Soltan)……459
35."Hanı bir yel, apara könlü gülüstanə tərəf..."
(Tərcümə edəni M.Soltan)……460
36."Müşk səpir aləmə sübhün əli novbahar..."
(Tərcümə edəni M.Soltan)……461
37."Sənin nazın, gözəl yarım, edibdir aləmi heyran..."
(Tərcümə edəni M.Soltan)……....461
38."Bu üzümdür, ilahi, ya da bir Aydır tamam?.."
(Tərcümə edəni M.Soltan)……462
39."Bir tük qədər, ey könlüm, azad ola bilməzsən..."
(Tərcümə edəni M.Soltan)……..……463
40."Sən, ey xumar gözləri könülləri yaxan yar..."
(Tərcümə edəni M.Soltan)……463

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

41."Gecəm xurşidə tor oldu, məgər zülfi-nigardır bu?"
(Tərcümə edəni M.Soltan)……..464
42."Taqətim yox ki, mənim mənzili-cananə çatım..."
(Tərcümə edəni M.Soltan)……465
43."İsa dəmli yarım məndən əsirgədi bir dəmini..."
(Tərcümə edəni M.Soltan)…… ……....466
44."Getdikcə bu eşqin mərəzi pür xətər oldu..."
(Tərcümə edəni M.Soltan)……..……..466
45."Eşqin işin içindən əlini çıxararkən..."
(Tərcümə edəni M.Soltan) 467
46."Gözəl yarım, çıxıb seyr eylə, səhra, gör, nə əlvandır..."
(Tərcümə edəni M.Soltan)…….467
47."Canım nə qədər var, mənə canan sən olarsan..."
(Tərcümə edəni M.Soltan)…….468
48."Ey nazlı gözəl, şur ilə meyxanadə rəqs et!"
(Tərcümə edəni M.Soltan……..469
49."Eşqin ilə, dilbərim, bax, əql sərgərdan qalıb..."
(Tərcümə edəni M.Soltan)…… 469
50."Könlüm yetər, nəhayət, o vüsalə..."
(Tərcümə edəni M.Soltan)…….470
51."Tərifi gül camalın düşdükdə bu cahanə..."
(Tərcümə edəni M.Soltan)……471
52."Yarım mənə cəfasını bir an kəm etmədi..."
(Tərcümə edəni M.Soltan)…… ……472
53."Könül, gəl, bu eşq ilə peymanı tazə eylə!"
(Tərcümə edəni M.Soltan)…….472
54."Eşqində, ey gözəl, rahat olmaq həramdır..."
(Tərcümə edəni M.Soltan)……. ……..473
55."Hüsn atın sən, ey gözəl, meydanda, gəl, cövlana sal!"
(Tərcümə edəni M.Soltan)…… ……474
56."Nə gözəlsən, ruh açansan, lütfkarsan, ey nəsim!"
(Tərcümə edəni M.Soltan)……...…….474
57."Sənin kuyində bitmiş xar mənimçün tazə susəndir..."
(Tərcümə edəni M.Soltan)…… ……..……...475
58."Səhər açıldı, gözəl, şişə aç, gətir badə!"
(Tərcümə edəni M.Soltan)……..……...476
59."Keçmiş gecə, ol yarə isitmə əsər etdi..."

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(Tərcümə edəni M.Soltan)…….476
60."Hüsnünün yüzdən birinə malik olmaz novbahar..."
(Tərcümə edəni M.Soltan)…….477
61."Hicran gecəsi sübhə qədər odda yanır can..."
(Tərcümə edəni M.Soltan)……..……..478
62."Bəzilərin fikrincə alçaq olsaq hamıdan..."
(Tərcümə edəni M.Soltan)……..……..478
63."Vardır şikayətim bu bətər ruzigardan..."
(Tərcümə edəni M.Soltan)……...479
64."Hüsn rikabında, bax, şəmsü qəmər getmədə..."
(Tərcümə edəni M.Soltan)……... ……480
65."Qəlbimdə hicr dərdi asan ola bilərmi?"
(Tərcümə edəni M.Soltan)…….480
66."Gecələr şam kimi yanır xəyalın..."
(Tərcümə edəni M.Soltan)…….481
67."Qəlbi yanan aşiqə xislətin etməz vəfa..."
(Tərcümə edəni M.Soltan)……. ……...482
68."Eşqinin xəyalı, sevgili canan..."
(Tərcümə edəni M.Soltan)…….……482
69."Bilməzdim ki, başıma bəla imiş məhəbbət..."
(Tərcümə edəni İ.Soltan)…….. ……483
70."Eşqinin səsası cahana düşdü..."
(Tərcümə edəni İ.Soltan)……...484
71."Tellərini dağıtma, yarım, bizə ziyandır..."
(Tərcümə edəni İ.Soltan)…….. ……484
72."Sevdanın bayrağı alidir, ali..."
(Tərcümə edəni İ.Soltan)…….……..485
73."Könlüm tutmamışdır oxuna süpər..."
(Tərcümə edəni İ.Soltan)……...486
74."Mərdlikdən savayı nə günahım var..."
(Tərcümə edəni İ.Soltan)…….…..486
75."Çünki, düşüb ürəyim zülfün içrə kəməndə..."
(Tərcümə edəni İ.Soltan)…… ……....487
76."Dostluğunda bir sədaqət görmürəm, görmürəm!.."
(Tərcümə edəni İ.Soltan)…….. … ……...487
77."Qoydun gözlərimi üzünə həsrət..."
(Tərcümə edəni İ.Soltan)…….……488

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

78."Yar əlindən nə haldayam, eşitmədin, ey dost, məgər?"
(Tərcümə edəni İ.Soltan)…….. ……..489
79."Nə əlim çatdı sənə, nə qismət oldu vüsal..."
(Tərcümə edəni İ.Soltan)…….. ……..490
80."Qanadları kəsilmiş bir quşam mən, a canan!"
(Tərcümə edəni İ.Soltan)…….. ……..490
81."Gör, haraya göndərirəm mən səni, ey badi-səhər..."
(Tərcümə edəni Ə.Ziyatay)……..491
82."Asimani bir bəladır səndə olan məhəbbət..."
(Tərcümə edəni Ə.Ziyatay)…… ……492
83."Məhəbbət bir bəladır ki, yoxdur onun dərmanı..."
(Tərcümə edəni Ə.Ziyatay)……..492
84."Arzum canan vüsalıdır, bilmərəm kimdir əğyar..."
(Tərcümə edəni Ə.Ziyatay)……..……493
85."Müşkə oxşar saçlarından meh ərməğan göndər bizə!"
(Tərcümə edəni Ə.Ziyatay)……..……494
86."Süsən iyli, at qürurlu, "sənsən" deyən türk nigar..."
(Tərcümə edəni Ə.Ziyatay)……..……494
87."Parlaq üzü qarşısında yox Aya məhəl qoyan..."
(Tərcümə edəni Ə.Ziyatay)……..495
88."Sənin eşqin xırda-xırda nəfəsimi kəsdi, yar!"
(Tərcümə edəni Ə.Ziyatay)…….……496
89."Gəl, gəl, sakit olsun bir dəm tufanları gözümün..."
Tərcümə edəni Ə.Ziyatay)……..……..496
90."Vəsfin dildən-dilə düşdü, aşiq olduq camalına..."
(Tərcümə edəni Ə.Ziyatay)……..497
91."Qismət olarmı vəslin bir gecə, ey dilaram?"
(Tərcümə edəni M.Dilbazi)…… ……..497
92."Biz qəmə öyrənmişik, ey dost, göndər qəm bizə..."
(Tərcümə edəni M.Dilbazi)……..498
93."Nə etmişəm ki, məni qəm tapdağı edibsən?"
(Tərcümə edəni M.Dilbazi)…….498
94."Bu hüsnünün səsası fəth edər asimanı"
(Tərcümə edəni M.Dilbazi)…….499

QİTƏLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1-77 (Tərcümə edəni M.Soltan)…… 500
78-101 (Tərcümə edəni M.Mübariz)…… ……522

RÜBAİLƏR

1-205 (Tərcümə edəni M.Soltan)……..532
206-217 (Tərcümə edəni X.Yusifli)…… .566
Şərhlər……...569
Lüğət……..638

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

XAQANİ ŞİRVANİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"LİDER NƏŞRİYYAT"

BAKI-2004

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Buraxılışa məsul:	*Əziz Güləliyev*
Texniki redaktorlar:	*Rauf Cəfərov* *Rövşən Ağayev*
Tərtibatçı-rəssam:	*Nərgiz Əliyeva*
Kompyuter səhifələyicisi:	*Alianna Duxanina*
Kompyuter yığıcıları:	*Bəsti Cəfərova* *Aygün Məmmədova*
Korrektorlar:	*Samirə Kərimova* *Aytən Muxtarova* *Dilara Hüseynova* *Tahir Orucov*

Yığılmağa verilmişdir 14.05.2004. Çapa imzalanmışdır 14.12.20
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 42. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 207.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional